**Dərs vəsaitini gender əsaslı zorakılığa məruz qalıb dünyasını dəyişən qadınlara ithaf edirəm.**

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Dillər Universiteti**

# "QAFQAZDA GENDER MƏSƏLƏLƏRİ"

## Dərs vəsaiti

Azərbaycan Respublikası Təhsil Nazirliyi,
Azərbaycan Dillər Universitetinin "06" iyul
2015-ci il tarixli "07" saylı iclas protokulundan
çıxarışla dərs vəsaiti kimi təsdiq edilmişdir.

**"Elm və təhsil"**
**Bakı – 2017**

**Müəllif:** **dos.KIFAYƏT AĞAYEVA**
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dillər Universiteti*

**Rəyçilər:** **dos., S.F. Əliyeva**
*tarix üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dillər Universiteti,*

**dos., E.N. Hacıyeva**
*Qərb Universiteti,*
*hüquq üzrə fəlsəfə doktoru*

**Elmi redaktor:** **dos., A. Ş. Şahmuradov**
*tarix üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dillər Universiteti*

**Kifayət Ağayeva. Qafqazda gender məsələləri**
**Bakı, "Elm və təhsil", 2017, 436 səh.**

**ISBN 978-9952-8176-1-2**

**"Elm və təhsil", 2017**

# GİRİŞ

Etnoloq, sosioloq, filosoflara görə gender termini artıq çoxdan özünün ilkin qrammatik mənasından çıxıb, daha geniş anlam kəsb edir. Son zamanlar gender problemlərinin tədqiqi xüsusi aktuallıq kəsb edir, çünki gender sosial xarakterə malikdir, sosial mahiyyət kəsb edir, ondan nə yaxa qurtarmaq, nə də imtina etmək olmaz. O, şüurda daim yenilənir. Genderin tarixi ilə məşğul olan hər bir tədqiqatçı müxtəlif dövrlərdə, cəmiyyətdə cinslərin diferensiasiyası, ən əsası gender münasibətlərinin bugünü və dünəni ilə bağlı baxışları bilmək, onları dərk etmək istəyir.

Hofmana görə hər iki cinsin qarşılıqlı fəaliyyəti nəticəsində genderin əsas mexanizmi olan qadınlıq və kişilik təzahür edir. Gender – şəxslərin bir-birlərinə qarşılıqlı təsir sistemidir və gender bu təsirin nəticəsində sosial nizam kateqoriyası olaraq yaradılır, təsdiq edilir və təsəvvür məcmusu kimi formalaşır (Гофман, И., 2001).

Mövzunun aktuallığı ilk növbədə sosial həyatın oturuşmuş norma və dəyərlər sistemi, müasir cəmiyyətin qarşısında duran sosial problemlərin inkişaf xarakteri, dərin sosial-iqtisadi, siyasi və mənəvi törəmələri ilə şərtlənir. Son dövrlərdə kişi və qadın rollarının dəyişilməsi o qədər sürətlə baş verir ki, tam olaraq kütlə bu dəyişikliklərə adaptasiya ola bilmir. Bir çox rolların öhdəsindən gələ bilməyən kütlə özünü realizə edə bilmir, bu da cəmiyyətdəki stabilliyə xələl gətirir və eyni zamanda, gender münasibətlərində, insanların bir-birlərinə olan münasibətlərində əks olunur.

Cəmiyyətdə paradoksal vəziyyət əmələ gəlir: Bəziləri ənənəçiliyi bərpa etmək istəyir, digərləri isə dünyada gedən proseslərdən geri qalmamaq üçün əlindən gələni edirlər. Cəmiyyətdə sanki bir-birinə güzəşt etmək fikrində olmayan iki antoqonist baxış üz-üzə durur. Bunların hansının daha çox uğur qazanması döv-

lətlərin vətəndaş cəmiyyəti quruculuğu istiqamətində yeritdiyi siyasətdən, mövcud demokratik hərəkatdan, iqtisadi inkişafdan, insanların sosial statusundan, cəmiyyətin modernləşməyə gedə bilmək bacarığından və ya insanların onları geriyə sürükləyən adət-ənənələrə olan istəyindən çox asılıdır.

Müasir dövrdə gender münasibətlərində gedən dəyişikliklər cinslərarası münasibətlərdə mühüm hesab edilən tendensiyaların dəyişməsinin nəticəsidir. Həyata keçirilən islahatlar heç də həmişə bu münasibətlərin düzgün istiqamətdə inkişaf etməsinə gətirib çıxarmır, bəzən tam əksinə, bu islahatlar cinslərarası münasibətlərin daha da kəskinləşməsinə səbəb olur. Bu bir növ geriyə qayıdışa təkan verir və sonda gender dialoqunun iyerarxiyasında patriarxal ənənələr üstünlük təşkil edir. Bu situasiyada gender dialoqunun harmonizasiyasına yardım edə bilən üsulların tapılması xüsusi önəm kəsb edir. Yalnız bu yolla Qafqaz cəmiyyətinin həyatında demokratikləşmə baş verə bilər ki, bu da qadın və kişinin şəxsiyyət olaraq potensialının tam açılmasına imkan yaradar. Bununla da, hər bir fərdin potensialından cəmiyyətin inkişafı naminə effektiv istifadə etmək olar.

Sovet dövründə cəmiyyətin inkişafı üçün şəxsiyyətin edə biləcəklərindən bəhs edən çoxsaylı elmi tədqiqatlar aparılmışdı, lakin onların çoxu müasir dövrdə öz aktuallığını itirmişdir. Müasir dövrdə yeni yanaşmalar, yeni baxışlar tələb olunur, tədqiqat prosesində sosial-fəlsəfi yanaşmaya ehtiyac duyulur, çünki bunu etmədən elmi tədqiqatın prinsiplərini, pozisiyasını və strateji məqsədini təyin etmək çətindir. Buna görə də həm ənənəvi, həm də innovativ gender transformasiyası proseslərinə olan fəlsəfi refleks nəzəri və təcrübi cəhətdən çox önəmlidir. Bundan ötrü təkcə iqtisadiyyatda, siyasətdə, sosial sferada baş verən dəyişiklikləri deyil, həm də sosio-mədəni şərtləri və onun göstəricilərini tədqiq etmək əsas şərtlərdəndir. Bunları tədqiq etmədən ənənəçilikdən müasirliyə keçid zamanı bu transformasiyanın spesifikliyini, dərəcəsini, xarakterini üzə çıxarmaq mümkün olmaz. Sosio-mədəni kontekstdə bəhs edilən problemin təhlili göstərir ki, Qafqazda gender münasibətlərinin modernləşməsinin özünəməx-

sus xüsusiyyətləri vardır. Sosio-mədəni mühitin elə elementləri vardır ki, gender münasibətlərinin modernləşmə prosesini gücləndirir, elə elementlər də mövcuddur ki, əksinə bu prosesi ləngidir. Ümumilikdə, bu məsələlərə nəzər yetirdikdə, Qafqazda hələ də ənənəvi mədəniyyətin saxlanması üçün canfəşanlıq edənlərin say çoxluğu müşahidə olunur.

Gender münasibətləri bəşəriyyətin formlaşdığı gündən müxtəlif elm sahələrinin maraq mərkəzində olmuşdur. Qadın və kişi xüsusiyyətləri ilə əlaqəli problemlərlə bağlı qədimdən bu günə qədər müxtəlif fikirlər irəli sürülmüş, tədqiqatlar aparılmışdır. Antik dövr müəllifləri Sokrat, Aristotel, Pifaqor və başqalarının sayəsində gender münasibətlərinin Avropa modelinin bünövrəsi qoyulmuşdur. Belə modellərin formalaşması nəticəsində qadınlar ictimai sferadan özəl sferaya sıxışdırılmışdır. Sözsüz ki, dünyada gedən bütün bu proseslərdən Qafqaz da kənarda qalmamışdır.

Zamanında bir çox alimlər, filosoflar (Kant, Hegel, Nitşe və digərləri) öz əsərlərində gender münasibətlərindən geniş bəhs etmişlər. Daha sonralar, C.Batler, A.Dvorkin, İ.Hofman, D.Zimmerman, Q.Rubin, C.Skot və başqalarının klassik əsərlərində gender nəzəriyyəsinin metodoloji əsasları qoyulmuşdur. Ailənin xüsusiyyətləri və gender münasibətlərinin formalaşmasında onun yeri, Qərb alimlərinin diqqət mərkəzində saxladığı problemlərdəndir. Daha sonralar M.Veber, Ç.R.Mills, S.Lipset, E.Dürkheym və başqaları da bu məsələlərdən yetərincə bəhs etmişlər.

Bunlardan başqa, O.M.Vovçenko, O.A.Doryakov, İ.O.Kon, V.A.Remix, Y.B.Ryürikov və digərləri dünyada gedən feminist hərəkatdan və onun Qafqaz cəmiyyətinə olan təsirindən çox yazmışlar. Onlar Qafqaz patriarxal mədəniyyətinin cəmiyyətin siyasi və mədəni həyatına göstərdiyi təsiri araşdırmışlar. Tədqiqatçılar qadın və kişi psixikasının anatomik strukturu, davranış modelleri arasındakı fərqliliyin formalaşması səbəblərini təhlil etmişlər.

Qafqaz xalqlarının adət-ənənəsi ilə bağlı materiallar xarici və yerli nəşrlərdə, mətbuat orqanlarında zaman-zaman dərc edilmişdir. Bunlardan "Kavkaz", "Novoye obozreniye", "Et-

noqrafiçeskiye obozreniye", "Kazbek", "Kavkazskiy sbornik", "Qafqazın arxeologiyası, etnologiyası, folklorı", "Tarix və onun problemləri", "Birlik", "Qarapapaqlar" kimi qəzet və jurnalları misal göstərmək olar. Azərbaycan milli kitabxanasında, Gürcüstan Dövlət Kitabxanasında Qafqaz xalqlarının zəngin mədəniyyəti, tarixi, adət və ənənələrindən bəhs edən qiymətli elmi əsərlər, sənədlər saxlanılır. Rusiya Federasiyasının Elmlər Akademiyasının Etnoqrafiya İnstitunun, Azərbaycan Respublikasının Milli Elmlər Akademiyasının bir sıra institutlarının elmi əsərləri də bu istiqamətdə faydalı hesab edilə bilər.

Yuxarıda sadalananlardan başqa müxtəlif arxiv fonlarında da mövzu ilə bağlı maraqlı sənədlər mövcuddur. Qafqazla bağlı hər hansı bir tədqiqat apararkən ilk növbədə qafqazşünas Leonid İvanoviç Lavrovun əsərlərinə (Л.И.Лавров, 1989) müraciət etmək olar. Bu kimi əsərləri diqqətdən kənar saxlamaq ən azı bu istiqamətdə görülən sanballı bir işdən xəbərsiz olmaq deməkdir. Leonid Lavrov sovet dövründə qafqazşünaslıq elminin bünövrəsini qoymuşdur.

Gender münasibətlərində mövcud olan bərabərsizlik cəmiyyətin patriarxal strukturundan qaynaqlanır. "Patriarxat ikili iqtidar, ikili güc anlamında istifadə edilir, birincisi kişinin qadın üzərində olan hökmranlığı, ikincisi böyüyün kiçik üzərində olan hökmranlığıdır". K. Millet bu barədə yazır: "Gender münasibətləri də daxil olmaqla, patriarxal xarakter ənənəvi cəmiyyəti təmin edən sosial bazadır və patriarxatın ən əsas qurumu da elə ailənin özüdür". Dilimizdə istifadə olunan ənənəvi ailə, patriarxal ailə ifadələri də bu yanaşmanın nəticəsidir (К.Миллет, 1994).

Qafqaz cəmiyyətində ənənəçilik elementlərini saxlamağa cəhd edilsə də, qloballaşmanın gender münasibətlərinə etdiyi təsir və gender münasibətlərində gedən dəyişikliklər göz qabağındadır. Qafqazda gender münasibətləri barədə bu vaxta qədər aparılmış tədqiqatlara nəzər salsaq, tarixçilər, sosioloqlar, etnoqraflar və başqaları tərəfindən geniş bir elmi bazanın yaradıldığının şahidi olarıq. Təəssüf hissi ilə qeyd etmək olar ki, bu tədqiqatların əksəriyyətində ayrı-ayrı xalqların etnik xüsusiyyətləri tam nəzərə alınmamış, ümumiləşdirilmiş nəticələr daha çox təqdim olunur.

Son dövrlərin ən aktual problemlərindən olan gender mövzusu əsasən gender münasibətlərinin ayrı-ayrı aspektlərini əks etdirir. Modernist kontekstdə aparılan tədqiqatlar çox azdır. Bu səbəbdən də ənənəvi və müasir Qafqaz cəmiyyətində gender stratifikasiyası probleminin araşdırılması öz aktuallığını itirmir. Modernləşmə şəraitində gender münasibətlərinin dəyişməsi ailə, ictimai və kommunikativ sferada özünü daha çox büruzə verir. Tədqiqatın əsasını Qafqaz cəmiyyətinin sosio-mədəni sferasında gender münasibətlərinin transformasiyasının kompleks sosial-fəlsəfi təhlili təşkil edir. Qafqaz cəmiyyətində gender münasibətlərinin və sisteminin fəaliyyət prinsiplərinin, sosio-mədəni sferada gender stratifikasiyasının ənənəvi modelinin təhlili, onun formalaşmasında əsaslı rol oynayan dominant amillərin tədqiqi, əhalinin sosial münasibətlərin müasir tendensiyasının gender səviyyəsində anlayışının və gender münasibətlərinin formalaşmasının və sosial irəliləyiş xüsusiyyətlərinin təhlili tədqiqatın ən ümdə vəzifələrindəndir.

Qadın və kişilərin qarşılıqlı münasibəti hər zaman aktual olan məsələlərdəndir. Belə ki, davranış və əxlaq nümunələri, müvafiq şəxslərin cinsinə uyğun düzənlənir və bu həm sosio-mədəni kontekstdə, həm də məişət çərçivəsində özünü büruzə verir.

Qərb ölkələrində tarixən qadın hüquqları ümumilikdə, insan hüquqlarının ayrılmaz hissəsi kimi qəbul olunur. Qadınların da kişilərlə eyni hüquqlara malik olması məsələsi ilk dəfə burjua inqilabları zamanı gündəmə gəlmişdi. Daha sonralar, qadınlar kütləvi şəkildə sənaye inqilabına qoşuldular və sosial-iqtisadi münasibətlərdə də bərabərlik əldə etmək tələbi ilə çıxış etməyə başladılar. Bunun ardınca, mədəni inqilab dövrü başlandı. Qadınların reproduktiv funksiyası, onların uşaqların doğulmasına, sevgiyə, ailə həyatına baxışları kəskin dəyişdi. İki əsr ərzində qadınlar şərti olaraq, üç sahədə - siyasi, sosial-iqtisadi və reproduktiv hüquqlar əldə etdilər. Onlar cəmiyyətdə kişilərin malik olduqları hüquqların qadınlar üçün də əlçatan olması üçün mübarizə aparırdılar, lakin dünyada gedən bu proseslərə rəğmən, Qafqaz cəmiyyətində feminizasiya birtərəfli cərəyan etmişdir. İqtisadiyyatın

bir sıra sahələrində qadınların fəallaşması gözə dəysə də, faktiki olaraq, Qafqazda feminist hərəkat heç bir zaman mövcud olmamışdır. Ona görə də qadınların bərabərhüquqluluğu istiqamətində aparılan işlər qadın hərəkatının təzyiqi ilə deyil, dövlətin apardığı gender siyasəti nəticəsində baş vermişdir. Bu hüquqların verilməsində hər zaman bir kişi "minnəti" hiss edilir. Bu huquqların verilməsi ilə bağlı müzakirələrdə qadınların iştirakı məhdud olduğuna görə, bu hüquqların qadınlara dövlət (kişi dominantlığı ilə müşaiyət edilən idarəçilik) tərəfindən verilməsi qadınların vəziyyətini yaxşılaşdırmaq əvəzinə daha da pisləşdirmişdir. Tarix boyu sübut olunmuşdur ki, o hüququ ki, yuxarılar verir o az dayanıqlı olur, o hüququ ki, aşağılar mübarizə apararaq əldə edirlər, o azadlıq daha dayanıqlı olur.

Qeyd edildiyi kimi, bu bölgədə bütün tarix boyu cəmiyyət kişilər tərəfindən və kişilərin öz bildikləri şəkildə idarə olunmuşdur, çünki burada cəmiyyət çoxdandır ki, "maskulin"ləşdirilmişdir. Belə yanaşma həm kişilər, həm də qadınlar tərəfindən mövcuddur. İndiyə qədər də vəziyyət bu şəkildə qalmaqdadır, lakin son dövrlərdə gedən transformasiya prosesləri bu sferadakı situasiyanı dəyişdirməkdədir. Əlbəttə, Qafqazda gender siyasətindən danışarkən bunu ümümiləşdirmək absurddur. Məsələn, Cənubi Qafqazda ciddi müqavimətlə qarşılanan poliqamiya, Şimali Qafqazın müsəlman əhalisi arasında geniş yayılmaqdadır. Son dövrlərdə bunu dəstəkləyənlərin faizi kəskin şəkildə artmaqdadır.

Təəssüf ki, Sovetlər Birliyi dağılandan sonra, Rusiya Konstitusiyası ilə qadağan olunmasına baxmayaraq, poliqamiya Rusiya Federasiyasının tərkib hissəsi olan Şimali Qafqaza ayaq açmışdır. Bir çox bölgələr dövlətin qanunlarına məhəl qoymadan, bir əsr əvvəlki adətlərin dirçəldilməsi yolunda təbliğat aparır və bunu bölgədə gedən müharibələrlə əlaqələndirir və müharibədə qırılan kişilərin ailələrinin başsız qalmasını istəmədiklərini dilə gətirirlər. Bununla da, onlar guya tarixi "ədalətsizliyi" bərpa edirlər.

Ailə strukturlarında dəyişikliklər gedir və yuxarıda bəhs edildiyi kimi, artıq Qafqazın bəzi bölgələrində monoqamiyadan poliqamiyaya keçid başlanmışdır. Hələ 1999-cu ildə KBR Parla-

mentində Ailə kodeksi layihəsinin müzakirəsi prosesində deputatlardan biri respublikada çoxarvadlılığın leqallaşdırılması təklifi ilə çıxış etmişdir. KİV-də bu mövzu təkcə KBR-da deyil, Şimali Qafqazın digər Respublikalarında da dəfələrlə müzakirəyə çıxarılmışdır. İnternet-forumlarda bu ən çox müzakirə edilən mövzulardandır. Müəyyən qrup kişi və qadınlar ölkədə baş verən bəzi problemləri, xüsusilə də demoqrafik problemlərin həllini çoxarvadlılığa rəsmi icazənin verilməsində görürlər. Şimali Qafqaz Respublikalarında onlarla qadın ictimai təşkilatları mövcuddur və onlar siyasi-ictimai-mədəni problemlərin həllində yaxından iştirak edirlər. Məsələn, KBR-də "Adiux", "Sataney", "Balkar Qadınları" kimi qadın ictimai təşkilatları fəaliyyət göstərir. Onlar öz fəaliyyətlərini milli hərəkatla başlamış və təşkilat olaraq öz siyasətlərini də milli hərəkat üzərində qurmuşlar. Son dövrlərdə, yeni qadın təşkilatları meydana gəlmişdir ki, onların da əsas vəzifəsi qadın və uşaqların, əhalinin az sosial müdafiə olunan qrupunun (qaçqın, miqrant və başqaları) maraqlarını təmin etməkdən ibarətdir, lakin onların nizamnamələrində feminizmdən, qadın haqlarından bəhs edilmir. Faktiki olaraq, onların işi qadınlara zorakılıq tətbiq edənlərə qarşı mübarizə aparmaqdan, cinsinə görə diskriminasiyaya məruz qalan qadınların haqlarını qorumaqdan o yana keçmir.

Qafqaz polietnik bölgələrdən biridir. Bu ərazidə yaşayan onlarla xalq əsrlərdən əsrlərə ötürülən, unikal təcrübəyə malik olan, qədim, özünəməxsus, təkrarolunmaz mədəniyyətin daşıyıcılarıdır. Çoxarvadlılıq bölgənin mədəni inkişafını geri salan başlıca amildir. Qafqazı müasir ictimai-siyasi, ən müxtəlif səviyyələrdə həyata keçirilən etno-mədəni proseslər, xalqların qarşılıqlı fəaliyyəti olmadan təsəvvür etmək qeyri-mümkündür.

Qafqaz öz spesifikliyi ilə fərqlənən bir bölgədir və buradakı gender münasibətləri konkret sosial cəmiyyətin etnomədəni xüsusiyyətlərini özündə ehtiva edir. Müasir dövrdə ənənəvi həyat tərzində baş verən dəyişiikliklərin real təcrübi əhəmiyyəti vardır. Elm belə fundamental biososial xüsusiyyəti təkzib edə bilməz. Bu mənada Qafqazda cinslərin sosializasiyasının xüsusiyyətlərini

nəzərdən keçirmək son dərəcə aktualdır və bu mövzu ətrafında müzakirələr getdikcə daha  qızğın xarakter alır.

Qafqazın vahid mədəni arealı təşkil etməsi, buradakı cəmiyyətlərin ictimai strukturunun geosiyasi maraqlarının yaxınlığından xəbər verir. Bu səbəbdən də,  Qafqazın ənənəvi cəmiyyətlərindəki gender nizamında kifayət qədər ümumi əlamətlər tapmaq mümkündür və mövzunun hərtərəfli təhlili bir çox məsələlərin diqqətə alınmasına zərurət yaradır. Bu məsələlər aşağıdakılardır: ailə münasibətləri, təsərrüfat fəaliyyəti, ictimai, sosial-siyasi həyat, dünyagörüşünün əsasları və gender diferensiasiyasının simvolik-kommunikativ ifadəsi. Ailə Qafqazda gender münasibətlərinin əks olunduğu ən əsas insititut olaraq qalmaqdadır. Qadınların ailədən və nikahdankənar həyatı hər zaman qınaq obyekti olmuşdur və bu vəziyyət hələ də cəmiyyət tərəfindən qəbul edilmir və mühakimə olunur.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində sosial transformasiya və ya modernləşmə prosesləri, xüsusilə də identifikasiya böhranı ən çox qadınlara təsir etmişdi. Bəlkə də elə bu səbəbdən son illərdə, dünya tədqiqatçılarının ən çox müraciət etdikləri mövzulardan biri də “qadın” mövzusu olmuşdu. Tədricən alimlər belə qənaətə gəlmişlər ki, gender tədqiqatı həm qadın və kişilərin birlikdə,   həm də onların ayrı-ayrılıqda öyrənilməsidir. Gender diskursları, genderin nəzəri cəhətdən tədqiqi bir çox alimlərin məqsədinə çevrilmişdir. Gender məsələləri təkcə tədqiqat obyekti olaraq məhdudlaşmır, onlar tədris prosesində də əhəmiyyətli yer tutur, bu istiqamətdə dərsliklər nəşr olunmuşdur, gender elmi bir sıra təhsil ocaqlarının tədris proqramlarına daxil edilmişdir.

Qafqazda qadın və kişilərin rolu, statusu və qarşılıqlı münasibətləri sosioloq, tarıxçi, etnoqraf və digər elm sahələrinin nümayəndələri tərəfindən araşdırılsa da, konkret gender məsələlərindən bəhs edən tədqiqatlar o qədər də çox deyildir. Elə bu səbəbdən də bu istiqamətdə kompleks fənlərararası tədqiqatın aparılması aktual hesab edilir.

Etnosun gender fərqliliyi prinsipi, onun gender əlamətinə görə sahələrinin hər birinin virtual və real olaraq bölünməsini

nəzərdə tutur. Bu səbəbdən də etnosun mədəniyyət sahəsi genderin geniş tədqiqat obyektinə çevrilir. Belə ki, daha qabarıq şəkildə özünü göstərən ənənəvi maddi mədəniyyət, adət-ənənələr, ayinlər, mərasimlər, xalq yaradıcılığı, həmçinin ünsiyyət mədəniyyətinin etnik xüsusiyyətləri tədqiqatın əsas meyarı kimi götürülür. Gender yanaşma tədqiqat predmeti kimi cinslərin dialoqunu seçməyi tələb edir. Qadın və kişilərin hüquq və vəzifələri, sosial fəaliyyətləri, mövqeləri həyatın müxtəlif sahələrində bir-birindən fərqlənir.

Yuxarıda sadalananların təhlili müxtəlif növ ənənəvi və qeyri-ənənəvi elmi metodların induksiya, deduktisiya, tarixi təhlil metodu, müqayisəli (komparativ), aqerativ (müxtəlif növ mənbələrdən əldə edilən ayrı-ayrı dağınıq faktların bir araya toplanması), kajual (nadir halların hərtərəfli öyrənilməsi) təhlil istifadəsinə zərurət yaradır.

Gender münasibətlərinin mədəni amillərin – etik, etiket, dini dünyagörüşü və estetik münasibətlərin təsirindən formalaşan mentalitet prizmasından araşdırılması çox əhəmiyyətlidir. Əlbəttə mentalitet dedikdə, insanın dünya və insanlar haqqında baxışları nəzərdə tutulur. Birinci növbədə, mentalitet gündəlik həyatda üzə çıxan ontoloji və funksional xüsusiyyətdir. İkincisi, mentalitet rəmzlərin mənalarının dərk edilmiş sistemidir və burada şaxələnmə meyli vardır. Bu da bizə bəzi etnosdaxili və ya etnosdan kənar qarşılıqlı təsirin dinamikasının nəticəsi kimi yaranan mədəni faktları nəzərdən keçirməyə imkan verir. Beləliklə, tədqiqatın ən əsas məqsədi Qafqaz bölgəsində qadın və kişilərin münasibətlərini, cəmiyyətdə rolunu, statusunu həm tarixi prizmadan, həm də müasir dövrün reallığı baxımından kompleks şəkildə araşdırmaqdır.

Bu məqsədi həyata keçirtmək üçün aşağıdakı vəzifələri yerinə yetirmək xüsusi önəm kəsb edir:

1. Qafqaz xalqlarının etnik, sosial-siyasi, bioloji, konfessional, mentalitet amillərinin femininlik və maskulinlik kateqoriyalarına təsiri;
2. Qafqazda məişət və ictimai həyatda kişi və qadınların

təsərrüfat və mərasim funksiyalarının təyini;

3. Qadın və kişi hüquqları arasındakı fərqin tədqiqi;

4. Qafqaz xalqlarının ənənəvi mədəniyyətinin gender aspektlərinin təhlili zamanı konfessional və kənar mədəniyyət amillərinin nəzərə alınması.

Bir sıra mənbələrdə maraq doğuran məqamlar hüququ xarakter daşıyır: qadın və kişilərin rolu, statusları, hüquqları, gender rolları. Cəmiyyətin mövcud qatının (strata) iradəsini ifadə edən hüquq (ənənəvi cəmiyyətdə olan adi hüquqi normaları) qadın və kişilərin vəziyyətini, kimin dominant olduğunu, hansı sosial qrupun hüquq bərabərliyinə malik olduğunu və ya kimin diskriminasiyaya məruz qaldığını tam təsəvvür etməyə imkan verir. Adi hüquqi normalar Qafqaz xalqlarının inkişaf xüsusiyyətlərinin spesifikliyinin öyrənilməsində böyük rol oynayır və bunlar demək olar ki, qədim zamandan müasir dövrə qədər bu xalqların sosial münasibətlərini üzə çıxartmaqdan ötrü əlimizdə olan azsaylı mənbələrdir. Tədqiqat prosesində ənənəvi mədəniyyətin bu seqmentinə olan böyük maraq da bu səbəbdən irəli gəlir.

Qafqazın əksər bölgələrində ənənəvi cəmiyyətin sosial strukturu feodal dövrünün iyerarxiyasına uyğun gəlir ki, bu da müxtəlif sahələrdə mürəkkəb hüquqi normalarla müəyyənləşdirilir. Bu tədqiqatda da qadın və kişilərin hüquqları bu kontekstdə nəzərdən keçirilir. Tədqiqat zamanı Qafqaz xalqlarının həyat tərzindən bəhs edən yazılı mənbələr, arxiv materialları və müasir dövrün tədqiqatları nəzərdən keçirilmişdir. Bu yazılarda qadın və kişilərin ailə quran zaman hansı hüquqlara malik olması, ailə mülkiyyətinin idarə olunması və varislik, gender stereotiplərinin pozulması və s. haqqında çoxsaylı məqamlar qadın və kişilərin hüquqları haqqında təsəvvür yaradır.

Məlumdur ki, Qafqazda məskunlaşan çoxsaylı xalqları birləşdirən ümumi cəhətlərlə yanaşı, bir çox sahələrdə fərqli xüsusiyyətlər də mövcuddur. Ona görə də Qafqazın ayrı-ayrı xalqlarının etnik xüsusiyyətlərini, yaşayış tərzlərini, etnik dəyərlərini nəzərə almaq xüsusi əhəmiyyət kəsb edir. Ən azı Çənubi Qafqaz və ya Şimali Qafqaz, müsəlmanlıq və ya xristianlıq, dağlıq və

ya düzənlik yerlərdə yaşama kontekstlərini, onların məşğulluq sahələrini hesaba almadan, bu məsələlərə yanaşmaq yanlış təsəvvürlərə gətirə bilər. Əməyin cinsə görə bölünməsi demək olar ki, Qafqazın bütün bölgələri üçün xarakterikdir. Məsələn, dağlıq bölgələrdə otlaqların qıtlığı ilə əlaqədar olaraq, mal-qaranın bir ərazidən digər ərazilərə aparılması problemi mövcuddur və bununla da yalnız kişilər məşğul olurlar. Dağıstanın dağlıq yerlərində qaraçaylar, qərbi adıqlar ikinci dərəcəli kənd təsərrüfatı işləri ilə də məşğul olurlar. Çeçen və inquşlarda isə, cərgəarası alaq etmək, biçin və taxıl döymə işlərində hər iki cins iştirak edir. Şum və səpin işlərində balkar və qaraçay kişiləri, sahələrdə və taxılın yığılmasında isə qadınlar çalışırlar. Dağıstanın dağ ərazilərində qadınlar tarlaya peyin səpmək, ot biçmək, buğda üyütmək və çörək bişirmək kimi işlərdə fəal iştirak edirlər. Qadınlar təzək tədarük edir və meşədən odun qırırlar. Bundan əlavə, əkinçilik, maldarlıq təsərrüfatı ilə kişinin və qadının məşğul olması adəti ailədən ailəyə fərqli ola bilər. İlk əvvəl qadın evlə, daha sonra isə evdən kənar kənd təsərrüfatı işləri ilə məşğul olur. Dağıstanın dağ ərazilərində, Çeçenistanda, Osetiyada qadının boynuna ağır yük qoyulur. Kisələrə doldurulmuş biçilmiş otu, odunu, un və digər ağır ərzaqları qadınlar öz çiyinlərində daşıyırlar.

Qafqazda qadın istər düzən yerlərdə, istərsə də dağlıq ərazilərdə, istər böyük, istərsə də kiçik ailələrdə, istər taxılçılıqla məşğul olsun, istərsə maldarlıqla, nəticədə qadın kişinin yardımçısıdır. Buna uyğun olaraq da, kişiyə ailəni dolandıran, qadına isə kişinin qazancını yeyən statusunda yanaşırlr. Bütün yuxarıda sadalanan öhdəliklərdən əlavə qadınların ailə qarşısında cavabdehlikləri də mövcuddur. Uşaqlara, ərə, xəstələrə və yaşlılara, evdə qonaq varsa, ona da qayğı göstərmək və qulluq etmək evin qadınının üzərinə düşür.

Ailə-məişət zəmnində cinslərə görə əmək bölgüsü böyük ailələrdə daha çox hiss edilir. Ailə başçısı birmənalı şəkildə ailənin yaşca böyük kişi üzvüdür, sonrakı yerlər yaşa görə bölüşdürülür. Yaşlı qadın da cavan qadınlardan daha hökmlüdür. Evin ən az səsə malik üzvü ailənin kiçik qızı və gəlinidir. Ailənin ən

yaşlı qadını demək olar ki, ya çox zəhmət tələb edən ağır fiziki işlə məşğul olmur, ya da təsərrüfatın ən prestijli işini öz üzərinə götürür. Onun əsas vəzifəsi ailədəki qadınların əməyini təşkil etmək, gəlinlər üzərində nəzarət etmək, qızlarının və digər övladlarının tərbiyəsi ilə məşğul olmaqdır. Evin ən yaşlı qadını əxlaq normalarını qoruyur, ənənələri saxlayır, dini mərasimlərin, ritualların yerinə yetirilməsinə nəzarət və ya rəhbərlik edir. Hətta evin anbarının qıfılı da bu qadında olur və onun icazəsi olmadan ora girib-çıxmaq qadağandır. Bu qadın birmənalı şəkildə ailədəki qadınlara rəhbərlik edir və ailədəki qadınların maraq və istəklərini kişilərə yalnız o çatdıra bilər. Onun ailədəki rolu və statusu digər qadınlardan üstündür. O, yeganə qadındır ki, ailə şurasında iştirak edə bilir və ailə başçısı onunla hesablaşır. Bəzi qərarların verilməsində də bu qadın iştirak edir. Bununla belə, ailə başçısı rəhmətə getsə belə, qadın ailədən kənarda öz ailəsini təmsil edə bilməz (Семенов Ю.Л., 1974). Öhdədə olan və ailənin bərabərhüquqlu üzvü hesab edilməyən qadın ictimai həyatda kişi ilə eyni statusda ola bilməz.

Qafqazda elə bir qadın tapılmaz ki, o kənd icmasının və ya qohum qrupun başçısı seçilsin. Başçı kişinin xanımı da qadınlara rəhbərlik edir, lakin bu onun ərinin nüfuzuna görə olur. Bir sözlə, qafqazlı qadına ailədə kiminsə qazancını yeyən bir insan kimi baxılır və qadın yaşından asılı olmayaraq, heç vaxt cəmiyyətdə önəmli vəzifə tuta bilmir. Bunu etmək istəyən qadın cəmiyyət tərəfindən hər zaman qınağa tuş gəlir. Qadın-qıza olan münasibət elə anadan olan kimi bəlli olur. Ailələrin əksəriyyətində, xüsusilə də kənd yerlərində və kiçik şəhərlərdə qız deyil, oğlan dünyaya gələndə daha çox sevinirlər. Qız ailədə müvəqqəti qonaq, oğlan isə evin, ailənin dirəyi, gələcək sahibi, nəslin davamçısı hesab edilir. Anadan olan qızlara Bodsu (Yetər), Burul (qaraçay dilində – dön deməkdir), Huemey (adıq dilində – lazımsız deməkdir), Yamıde (adıq dilində – arzuolunmaz deməkdir) adlarını qoyurlar. Azərbaycanda bu mənanı daşıyan çoxsaylı qız adları hələ də mövcuddur (Qızyetər, Yetər, Bəsti, Kifayət, Oğlangərək, Qızbəs və sairə). Oğlanın dünyaya gəlməsi bayram kimi qeyd olunur, qı-

zın anadan olması isə ya çox adi, ya da ümumiyyətlə, qeyd edilmir. Yeni doğulmuş oğlan uşaqlarına qayğı qızlara nisbətən daha çox olur. Statuslardakı bərabərsizlik dünyaya gələn andan cinsinə uyğun təyin edilir. Təəssüf ki, bütün bu tipli yanaşmalar hələ də davam edir.

Bunlarla bərabər, bəzi tədqiqatçıların fikrincə, Qafqaz qadınlarının ictimai statusu heç də hər zaman aşağı olmamışdır. Qadınların yüksək ailə və cəmiyyət statusları cinslərarası etiketlərdə özünü göstərir. Qafqaz qadınlarının fərqliliyinə təsir edən əsas amillər: Din, dil, təhsil, yaş, sosial status, millət, yaşayış yeri və sairə faktorlar nəinki Qafqaz qadınlarının, həmçinin Qafqaz xalqlarının fərqliliyinə güclü təsir etmişdir. Ən azı bu adətlərin fərqliliyi daha çox bu bölgənin Şimal və Cənub bölgələrində özünü büruzə verir. Cənubi Qafqazda qadınların nisbi aktivliyi (siyasətdə), Şimali Qafqazda qadınların digər sahədəki nisbi aktivliyi (hərbdə) kimi məqamları misal gətirmək olar. Ümumilikdə, gender bərabərliyi siyasətinin işıltıları Cənubi Qafqazda ən azı hiss edilsə də, Şimali Qafqaz qadını bunu nəinki hiss etmir, kişi ilə hansı sahədəsə bərabər olmağı hətta ağlına gətirmir. Burada insanlara cinsinə görə yanaşma tam dixotamik şəkildə həyata keçirilir.

Şimali Qafqazın da bəzi xalqlarında bu etiketlər eyni deyildir, lakin bəzi xalqlarda (adıq, qaraçaylı, balkar, çeçen və inquşlar) oxşar cəhətlər çoxdur. Etiket qaydasına görə kişilər qadınlara diqqət və qayğı göstərməlidirlər. Tarixən çox mühüm səbəb olmadan qadının kişilər tərəfindən təhqir olunması ayıb sayılır. Ailənin bütün qadınları ilə, ən kiçiyi də daxil olmaqla, kobud rəftar etmək bəyənilən hal hesab edilmir. Məsələn, osetin və çərkəzlərdə gəlin otağa daxil olurdusa, ən yaşlı kişi də ayağa qalxırdı. Xüsusilə də, ictimai yerlərdə bir çox xalqlarda qadına hörmət gözlənilirdi.

Adıq adətinə görə, qadın yoldan keçirsə, atlı kişi ona yol verib gözləməlidir. Yolda tanıdıqları-tanımadıqları qadının əlində ağır yük varsa, kişi hökmən qadına yardım etməlidir, ehtiyac varsa, kişi qadını müdafiə etməlidir. İctimai yerlərdə qadınla dalaşan, qadını söyən kişiyə ictimai qınaq hər zaman mövcud olmuşdur (Пчелинцева Н.Д., Соловьева Л.Т., 1999). Dağıstan ki-

şiləri bir qədər sərtdirlər. Onlarda yolboyu kişilər irəlidə, qadınlar isə arxada gedir və əgər daşımalı ağır yük varsa, onu da qadınlar daşıyırlar. Bu bölgədə tabeçilik və dominantlıq nöqteyi-nəzərindən də cinsi diferensiasiya ciddi hiss edilir. Ünsiyyət sferasında qadın-kişi dixotomiyası daha aydın görünür, belə ki, qızlara az prestijli, oğlanlara isə yüksək gəlirli, daha prestijli sahələri təbliğ edirlər. Dildə də gender asimmetriyası hər zaman hiss edilir, belə ki, eyni bir sözün kişiyə aid olanları pozitiv, qadına aid olanları neqativ anlamda qəbul edilir. Ənənəvi Qafqaz cəmiyyətində qadın işləri, qadın söhbətləri, qadın xarakteri, qadın ağlı mənfi konnotasiya kəsb etdiyi halda analoji sözlər kişilərə aid edildikdə pozitiv mənada anlaşılır. Kişilərə aid edilən fəaliyyət sahələri, müharibə, cigit və sairə nüfuz göstəricisi kimi qəbul edilir.

Onu da qeyd etmək lazımdır ki, ən ideal qadın obrazı kişi marağından yaradılır. Belə ki, Qafqazdakı etnogenderin məzmunu, təsərrüfat fəaliyyətində əməyin genderə görə bölünməsi ilə ilə təyin edilir. Gender sərhədlərinin normativləri qadının həyat məkanını ailə və məişət işləri ilə məhdudlaşdırdığı halda, kişinin aktivliyi ictimai-sosial həyat sahəsində realizə edilməsi ilə genişləndirilir. Qeyri-prestij hesab edilən ailədaxili fəaliyyət qadın işləri kimi qələmə verilir və mühüm sahələri əhatə edən, prestijli fəaliyyət növləri isə kişi işləri hesab edilir. Sosial-siyasi həyatda qadının funksional rolu minimal hesab edilir və ərinin nüfuzu elə qadının nüfuzu kimi qiymətləndirilir. Şimali Qafqazda mədəniyyət normaları özündə gender-fərqləndirici davranış tərzini, geyim formasını, etiketi ehtiva edir və gender tabeçiliyi maskulinlik və femininliyin ümumi stereotiplərində və bir çox xüsusiyyətlərində özünü büruzə verir (Шиллинг Е.М., 1993).

Rusiya Federasiyası cəmiyyətinin demokratik inkişafında Şimali Qafqaz bölgəsi (ölkənin az bir hissəsini təşkil etməsinə baxmayaraq, bu ərazidə onlarla xalq yaşayır və bir neçə muxtar respublika vardır: Kabarda-Balkan, Dağıstan, Adıgey, Karaçay-Çərkəz, Şimali-Osetiya, İnquşetiya, Çeçenistan və başqaları) öz unikallığı ilə fərqlənir və Rusiyanın digər subyektlərində gedən proseslər bu bölgədə demək olar ki, çox az öz əksini tapır.

Burada cərəyan edən proseslərə qiymət verərkən, gender differensiasiyasını hesaba almasaq (rus cəmiyyətinin transformasiya sistemini hətta kənara qoysaq belə), bu məsələlərdə iqtisadi dəyişikliklərə olan sistemli yanaşma mövqeyindən nəzər salmasaq, bu təhlil tam və kompleks olmayacaqdır. Cəmiyyətdə islahatlara təkan verən bazar iqtisadiyyatı proseslərinin gender təhlili bizə baş verən hadisələrin adekvat anlaşılmasına imkan yaradır. Belə yanaşma imkan verir ki, cəmiyyətdə gedən demokratik hərəkatın gedişatına aydınlıq gətirilsin. Bununla əlaqədar, Şimali Qafqaz bölgələrində gedən modernləşmə dinamikasının dərinliklərinə nəzər salanda, bu bölgənin etnik mədəniyyətinin nüvəsini gender münasibətlərinin müasir xarakteri və transformasiya istiqaməti təşkil etdiyinin şahidi oluruq. Elə bu səbəbdən də, Şimali Qafqazda gender münasibətlərinin transformasiyasına sosial-mədəni amillərin təsiri, problemin bu şəkildə qoyuluşu məsələnin sosial-mədəni cəhətdən dərk edilməsini tələb edir.

Qafqazda ailə daxilində gender iyerarxiyası mövcuddur və ailənin rəisi birmənalı şəkildə ərdir – atadır – oğuldur – qardaşdır, bir sözlə kişidir. Qadınların təhsilə olan tələbatının artması onların peşə sahələrində özlərini təsdiq etmə ehtiyaclarından irəli gəlir, lakin qadınlar üçün məqbul hesab edilən sahələr əsasən, təhsil və səhiyyə hesab edilir. Yüksək maaşlı və yüksək prestijli sahələrin əsasən kişilər üçün nəzərdə tutulması, qadınları birmənalı şəkildə bu sferalara daxil olmaq cəhdindən çəkindirir. Bundan əlavə, ev qayğılarının qadınların boynuna yüklənməsi, onları sosial mobillikdən və sosial irəliləyişin yüksələn trayektoriyasından çəkindirir.

Əgər söhbət Cənubi Qafqaz qadınlarının siyasi iştirakından gedirsə, hakimiyyət orqanlarında qadınların təmsilçiliyinin xeyli azalması meyli müşahidə olunur. 1990-cı illərdə Gürcüstan və Azərbaycan qadınlarının siyasi arenada aktivliyi gözə dəyirdisə, bu gün qadın fəaliyyətində absenteizm hiss edilir. Biznes nərdivanında, idarəetmə və siyasətdə Qafqaz qadınlarının iştirakı haqqında tədqiqatları ümumiləşdirsək, onları üç qrupa bölmək olar: konservativ, keçid və modernləşmiş gender qrupları. Cəmiyyət

bir yerdə qalmır, köhnə stereotiplərlə idarə etmək artıq mümkün deyildir, hətta ailə kimi konservativ bir qurumda da bu məsələlər əvvəlki kimi deyildir.

Dünyanın inkişaf etmiş ölkələrinə nəzər salanda hər bir sahədə - istər iqtisadiyyat, istər tibb, istər təhsil, istərsə də xidmət sektoru olsun, fəaliyyət göstərən qadınların aktivliyi yüksəkdir və onlarsız cəmiyyətin inkişafını təsəvvür etmək mümkün deyildir. Həmçinin müasir cəmiyyətin maddi və mənəvi mədəniyyətinin səviyyəsi o qədər sürətlə yüksəlmişdir ki, qadınları artıq ailə çərçivəsində saxlamaq qeyri-mümkündür. Onlar artıq əvvəlki qadınlar deyillər, onların kvalifikasiyası o dərəcəyə çatmışdır ki, onlardan təkcə ailə daxilində, kollektivdən kənarda fəaliyyət tələb etmək absurd səslənir. Qeyd olunduğu kimi, hər bir başlanğıcda müəyyən bir yenilik vardır. Bununla əlaqədar, müasir sivilizasiyanın inkişaf təcrübəsini nəzərə alaraq, xüsusi vurğulamaq lazımdır ki, ümumbəşəri dəyərlərin prioritet götürüldüyü ölkələrdə (Yeni Zelandiya, Yaponiya, Cənubi Koreya və s.) ənənəvi ailə münasibətlərinin saxlanılması daha yaxşı sosial-iqtisadi nəticələr əldə etməyə gətirib çıxarmış və həmin ölkələr daha təbii şəkildə yeni sosial struktura keçə bilmişdir. Eyni zamanda, boşanmaların sayının durmadan artması, ailə münasibətlərinin deformasiyası, kəbindənkənar dünyaya gələn uşaqların sayının artması, azyaşlıların qeyri-rəsmi nikahla (imam nikahı) bir yerdə yaşaması, qız qaçırılma yolu ilə evlənmə halları, qız uşaqlarının təhsildən yayındırılması, yeniyetmələrin arasında cinayətkarlığın artması, inam və ideallarıın yoxa çıxması ailələrin bir çoxunun böhranına və dağılmasına səbəb olmuşdur.

Yuxarıda bəhs edilənlərdən belə qənaətə gəlmək olar ki, hər bölgədə bir-birindən kəskin fərqlənən gender və ailə problemləri axtarmaq lazım deyildir, onların əksəriyyəti ya oxşardır, ya da ki, identikdir. Bununla yanaşı, bir məsələ də aydındır ki, bir bölgə üçün daha çox aktual olan problem, digər bölgə üçün o qədər də aktual deyildir. Məsələn, ümumilikdə, Rusiya Federasiyasında kifayət qədər demoqrafik problemlər mövcud olsa da, bu problemlər Şimali Qafqaz üçün, xüsusilə də Dağıstan, Çeçenis-

tan, İnquşetiya kimi muxtar respublikalar üçün aktual deyildir. Bü bölgələrdə fərqli problemlər mövcuddur. Məsələn, “işsizlik” problem onlar üçün daha aktualdır.

**Ədəbiyyat:**

**İngilis dilində**

1. Hampson, S., “*Sex Roles and Personnality*”, Text. / S. Hampson // The psychology of Sex Rofe / Ed. by Ilargreaves D. J., Colley A. M. L. etc. : Harper a. Row, 1986. -P. 45-58.
2. Moore, D., “*Role Conflict: not only for Women*?”, Text. D. Moore // Intern, j. of comparative so lology. Leiden, 1995, Vol. 36/ Nil – 2. – P. 17-35.

**Rus dilində**

3. Бебель, А., “*Женщина и социализм Текст*”, / А. Бебель. М. : ИПЛ, 1959. с. 592
4. Боташев, М. Д., “*Роли мужчины и женщины в семейно-родственной организации карачаевцев*”, Текст. / М. Д. Боташев // “*Мужчина и женщина в современном мире: меняющиеся роли и образы*”, Т. II. — М., 1999
5. Гофман, И. “*Гендерный дисплей Текст. / И. Гофман // Введение в гендерные исследования*”, Хрестоматия, Харьков, СПб, 2001
6. Дубровин, Н. Ф., “*Очерк Кавказа и народов его населяющих*”, Текст. / Н. Ф. Дубровин. СПб., 1871. с. 200
7. “*КАВКАЗСКИИ ЭТНОГРАФИЧЕСКИИ СБОРНИК IV*”, АКАДЕМИЯ НАУК СССР ИНСТИТУТ ЭТНОГРАФИИ им. Н. Н. МИКЛУХО-МАКЛАЯ, Ответственныи редактор В. К. ГАРДАНОВ, ИЗДАТЕЛЬСТВО “НАУКА”, МОСКВА, 1969
8. Карпов, Ю. Ю., “*Общественный быт народов Кавказа*” Текст. / Ю. Ю. Карпов // Эльбрус. 1999. – №2. с. 70
9. Кузнецова, Т. Р., “*Этнокультурные особенности семей-*

*но-брачных отношений у народов Северного Кавказа в XIX начале XX в*". Текст. / Т. Р. Кузнецова // Социальные изменения. Ценности. Духовность. Сборник научных трудов. – Ростов-на-Дону, 2002.

10. "*ИСТОРИКО-КУЛЬТУРНЫЕ ТРАДИЦИИ НАРОДОВ СЕВЕРНОГО КАВКАЗА*", Научно-справочное пособие под редакциеи академика В. А. Тишкова, Москва, Пятигорск, Ставрополь, 2013
11. К. Миллет, "*Вопросы философии*", главы из книги, Текст. //. 1994, № 9
12. Л. И. Лавров, "*КАВКАЗСКИЙ ЭТНОГРАФИЧЕСКИЙ СБОРНИК, IX век*", МОСКВА, НАУКА, 1989
13. Магомедов, А. А., "*Семья на Северном Кавказе*", Текст. / А. А. Магомедов. Ставрополь: Изд-во СГУ, 1999, с. 247
14. Рагимов, Б. Р., "*Роль женского труда в традиционном дагестанском обществе (XIX нач. XX в.)",* Текст. / Б. Р. Рагимов // IV конгресс этнографов и антропологов России. Тезисы докладов. – М., 2001.
15. Смирнова, Я. С., "*Трудовые роли и статусы женщины в традиционных обществах народов Кавказа*", Текст. /Я. С. Смирнова // Этнографическое обозрение. 1997, № 4.
16. Пчелинцева Н Д , Соловьева Л. Т. "*Гендерные аспекты социализации у народов Кавказа // Мужчина и женщина в современном мире, меняющиеся рати и образы*", Т И -М, 1999 -С 235
17. Семенов Ю. Л., "*Происхождение брака и семьи*", – М, 1974 – С 119, 243
18. Шиллинг Е М, "*Малые народы Дагестана*" – Москва, 1993, С 70
19. Уэст, К, Зиммерманн, Д. "*Создание гендера*", Текст. / К. Уэст, Д. Зиммерман // Хрестоматия феминистских текстов. Переводы. — СПб., 2000.
20. Фуко, М., "*Воля к истине: по ту сторону знания, власти*

*и сексуальности*", Текст. / М. Фуко. М. : Касталь, 1996. – 448 с.

21. Ханаху, Р. А., "*Традиционная культура Северного Кавказа: вызовы времени (социально-философский анализ)",* Текст. Ростов-на-Дону, 2001.

# I FƏSİL

## QAFQAZDA GENDER VƏ TARİX

### Çar Rusiyasının istilası zamanı Qafqazda gender problemləri (XIX-XX əsrlər)

Məlum olduğu kimi tədqiq olunan dövrdə qadın bərabərliyi mövzusu dünya tədqiqatçılarının gündəmindən düşməyən bir mövzu idi. XIX əsr və XX əsrin əvvəlləri dünyada gedən sosial və siyasi dəyişikliklər bu problemin aktual olması üçün münbit şərait yaradırdı. Bu çətin problem sosial həyatın birbaşa iqtisadi, hüquqi və etnik aspektlərinin problemləri ilə əlaqəli olduğuna görə, bu məsələ Qafqazda cəmiyyətin modernləşməsi proseslərinin tərkib hissəsinə çevrilə bilmişdi. Dünyada baş verən islahatlar əsasən din və hüquq normaları ilə bağlı sahələrdə özünü göstərirdi (Алиева С., 2010 : 219).

Qafqazın Rusiya imperiyası ilə bağlı tarixinə nəzər saldıqda, imperiyanın müstəmləkəsi altında olan bütün xalqların adət-ənənələrində, yaşayış tərzlərində həmin dövrdə elə də böyük bir dəyişiklik baş vermədiyinin şahidi oluruq. O dövrün yazıçıları, hətta çar Rusiyasının siyasətini dəstəkləyən yazıçılar, Qafqaz qadınlarının və uşaqlarının kölə vəziyyətindən, onlara qarşı baş verən zorakılıq hallarından bəhs etsələr də, çar Rusiyası bu xalqların vəziyyətinin müsbətə doğru dəyişməsi üçün konkret siyasət həyata keçirməmiş, əksinə bu vəziyyətdən öz xeyri üçün yararlanmışdı. Ciddi problemlərlə üz-üzə qalan qafqazlılar müraciət etdikdə belə imperiya orqanları buna biganə qalırdılar. Qafqazın sosial və mədəni tarixini gender prizmasından təhlil edəndə, o dövrdə gender seksuallığı (kəbindən kənar intim əlaqə), seksual zorakılıq (qız qaçırılması və zorlama halları) və ailə strukturları (qan davası, ev/ailə zorakılığı, nikah çətinlikləri) kimi məsələlərin tədqiqatçı alimlər tərəfindən az təhlil olunduğu məlum olur. Qeyd etmək lazımdır ki, Rusiya imperiyasının siyasətinə nəzər

salmadan, Qafqaz qadınları tarixi baxımdan öyrənilmədən onların müasir vəziyyətinə tam aydınlıq gətirmək mümkün deyildir.

Müstəmləkəçiliyin ilk dövrlərində Rusiya “qeyri-sivil” Qafqazda müəyyən islahatlar həyata keçirmək niyyətində idi, lakin sonralar rus mədəniyyəti ilə Qafqaz mədəniyyəti arasındakı kəskin fərqlər, islahatlara yerlərdəki sərt müqavimət, onları bu siyasətdən vaz keçməyə vadar etdi, xüsusilə də Qafqazın elit və varlı təbəqəsini narazı salmaq qorxusu onları bu fikirdən daşındırdı.

Bu mövzunun qayəsində əsasən gender konsepsiyası, seksuallıq, şərəf, zorakılıq və ədalət məsələləri dayanır. Qafqaz xalqları ilə çar məmurları arasında olan münasibətlərə nəzər saldıqda, hər zaman incidilmiş yerli xalqın imperiya məmurlarına daha çox güzəştə getməsinin şahidi oluruq. Lakin bütün münaqişəli məsələlərdə, xüsusilə də ailə münaqişələri zəminində baş vermiş mübahisələrdə incidilmiş xalq üçün az alternativin və az dəyişiklik imkanının olduğunu anlayırıq.

Qafqaz tarixi ilə bağlı əsərlərə nəzər salanda, həm rus, həm də qeyri-rus müəlliflərin Qafqaz ailələri ilə bağlı fikirlərində müstəmləkə qaydalarına, bu cəmiyyətdəki qadınların tabeçilik vəziyyətlərinə və ailədəki köləlik durumuna hər vəchlə bəraət qazandırdıqlarının şahidi oluruq. Dövlətin dəstəklədiyi jurnallarda, qəzetlərdə və digər mənbələrdə Qafqaz cəmiyyətində qadın və uşaqlara qarşı qəddar rəftar edən Qafqaz kişilərindən bəhs edilsə də, əksər hallarda, kişi yazarlar “qadınların əsas vəzifəsinin kişilərə xidmət etməkdir” fikrinə vəkillik edirdilər (Н.Львов, 1870: 3-5).

Rusiyada o dövrdə dərc edilən əsərlərdə belə faktlar kifayət qədər idi. Məsələn, 1849-cu ildə Əli Avdo oğlu arvadının başına daş atıb onu öldürmüşdü (ССЧСА, фонд 4, опис 1, дело 1095). Bir il sonra Arabke Gülücə kəbindən kənar doğulmuş uşağını öldürmüşdü (ССЧСА, фонд 4, опис 1, дело 2486). 1870-ci ilin may ayında ər öz arvadını döyərkən onu yaralayır. 1871-ci ildə mənşəcə avar olan İsup Əli oğlu öz qızını çox pis döyür. Eyni ildə Dağıstanın Dargin əyalətində Xan-Maqomi qızını nişanlısı ilə bir yataqda tutduğu üçün hər ikisini öldürmüşdü (ССКГ,

1870: 79). Yenə də 1871-ci il, martın 25-də Dağıstanın Andi bölgəsində Maraqo Mikvas oğlu öz kəndlisini arvadı ilə baxışdığına görə öldürüb “ailəsinin şərəf”ini qorumuşdu (ССКГ, 1875: 4, 10, 26). Bu kimi çoxsaylı faktlar tarixi sənədlərdə öz əksini tapmışdır. Lakin bəhs etdiyimiz ailə münaqişələrində, ölüm hallarında imperiya məmurları çox vaxt tamaşaçı mövqeyində qalırdılar və belə cinayətlərə etinasız yanaşırdılar. Ruslar Qafqazı zəbt etdikləri ilk dövrlərdə qafqazlıları “sivilləşdirmək” üçün imperiya qanunlarını bu bölgədə tətbiq edəcəklərinə çox əmin olsalar da, sonralar bunun çox çətin olduğunu anladılar (Nancy Armstrong, 1989; Karen Throsby, 2008). Yuxarıda göstərilən faktlar qeydiyyatdan keçdiyinə görə məlum olmuşdur, lakin çoxsaylı kriminal hadisələr ört-basdır olmuşdur.

Əvvəllər, çar məmurları bu bölgədəki ayrı-ayrı xalqların mədəniyyətlərindən xəbərdar olmadıqlarına görə, Qafqaz xalqlarının mədəniyyət fərqlərini nəzərə almadan, hamısına eyni qaydaları tətbiq etmək niyyətində idilər. Məsələn, Qafqaz icmalarında və ailələrində ailə-icma zəmnində oturuşmuş qan davası ədalət sistemi mövcud idi. Əgər Qafqaz ailəsində kimsə ödürülürdüsə, kiminsə qızı, arvadı zorlanırdısa, hər hansı bir şəkildə zərər çəkirdisə, digər tərəf, bölgədə illərdən bəri tətbiq edilən “məhkəmə qanunları”na görə, intiqamını mütləq almalı idi. Ölüm var idisə, ölümə görə intiqam hökmən ölüm olmalı idı. Lakin çar Rusiyası təmsilçilərinə görə ailə üzvlərinin öldürülməsi, zorlanması və yaralanmasına görə hər-hansı bir formada tətbiq edilən qan davası ədalət sistemi deyildi. Onlar törədilən cinayətlərin cəzasını məhkəmə yolu ilə vermək istəyirdilər.

Qafqazdakı gender münasibətləri rus məmurlarında təəccüb doğururdu və rus müəllifləri Rusiyada xristian ailələrindəki qadın və uşaqlarla rəftarı, sülh içində yaşayan rus ailələrini bu bölgələrdə bir nümunə kimi təqdim etmək istəyirdilər. Lakin bir fakt da var idi ki, Qafqaz cəmiyyətində qadın və uşaqlara qarşı törədilən zorakılıq haqqında tam məlumatlı olmalarına rəğmən, rus məmurları belə hadisələr baş verən zaman kənarda qalmağa üstünlük verirdilər və kişilərin hakimliyi ilə müşaiyət olunan

Qafqaz icmalarındakı mövcud sistemə o qədər də qarışmırdılar. Onlar Qafqazdakı ənənəvi qaydalara açıq-aşkar dözümlülük nümayiş etdirir və onları aradan qaldırmaq üçün imperiya tərəfindən heç bir dəyişiklik edilmirdi. Çar məmurlarının dedikləri ilə əməlləri arasında böyük fərq var idi. İmperiya diskursunu yaradan çarpərəst yazarlar da bu siyasəti dəstəkləyirdilər. Eyni zamanda, istər dindar, istərsə də daha müasir çar məmurları qadınların ailədə və cəmiyyətdə həyat yoldaşı və ana kimi "öz yer"lərini bilməsində israrlı idilər. Onlara da yerli təcrübəni qəbul etmək, erkən nikahlara və qaçırılmış qızla onu qaçıran oğlan arasında nikahın bağlanmasına icazə vermək daha rahat gəlirdi. Çar qanunlarında evlilik üçün yuxarı yaş həddi nəzərdə tutulurdu, lakin qaçırılan azyaşlı qızların geri qaytarılması cəmiyyətdə çox böyük səs-küyə səbəb ola bilərdi, çünki həmin qızın atası evinə qaytarılması onun əxlaqını sual altında qoyurdu: Çar məmurları and içib kəbin kəsdirmiş cütlüyü necə ayıra bilərdilər? Çar məmurlarının dildə söylədikləri, qanunda nəzərdə tutduqları və təcrübədə tətbiq etdikləri arasında kəskin ziddiyyət var idi. Onlar imperiya qanunlarını müəyyən məqamlarda tətbiq etsələr də, birmənalı şəkildə "ziyansız" Qafqaz adətlərini daha həvəslə müdafiə edirdilər. Çar idarəçiliyi təcrübəsində nikah məsələləri hər şeyə rəğmən rühanilərin (həm islam, həm də gürcü ortodoksu) öhdəsinə buraxılırdı və bu sahədə çar məmurları, xüsusilə də, müsəlmanlar üçün heç bir dəyişiklik tətbiq edilmirdi.

Yuxarıda bəhs edildiyi kimi, aparılan tədqiqatlarda Qafqazda gender və seksuallıq probleminə imperiya nöqteyi-nəzərindən diqqət yetirilirdi. Qafqazda rus imperiyasının tarixi ilə bağlı mövcud ədəbiyyatların əksəriyyətində ailə, şərəf, gender və seksuallıq kimi sahələrə etinasız yanaşılır və əsas diqqət Qafqazda müharibə movzusuna yönəldilir, yəni burada imperiya siyasəti; onun ideoloji əsasları və mexanizmi natamam şəkildə öyrənilmişdir (W.E.D.Allen, 1932; John Baddeley, 1908; Moshe Gammer, 1994). Annette F.Timm və Coşua A.Sənbonun genderə verdikləri tərifdə onu "cinslər arasındakı fərqlərin dərki" və "güc münasibətlərinin əsas vasitəsi, metodu" mənasında şərh etdiklərini

nəzərə alsaq, o zaman qoyulan tapşırığın mahiyyəti daha da aydın dərk edilər (Annette F.Timm & Joshua A.Sanborn, 2007: 8-9). Ona görə də Qafqaz cəmiyyətində gender, seksuallıq, ailə və zorakılıq məsələlərinə verilən diqqət aparılan tədqiqatın əsas mahiyyətini təşkil edir. Bu məsələlərə tam aydınlıq gətirmək üçün bölgənin çar Rusiyasının müstəmləkəsi olması, həyata keçirilən müstəmləkəçilik siyasətinin forma və mexanizmini, hüdudlarını və parametrlərini də diqqət mərkəzində saxlamaq lazımdır.

Əksinə gender, seksuallıq (həm nikah daxili, həm də nikahdan kənar seksual əlaqə halları), seksual zorakılıq (qız qaçırılması və zorlama) və ailə strukturları (qan düşməni, ailə zorakılığı, evliliklə bağlı çətinliklər) ilə əlaqədar olaraq, Qafqazın sosial və mədəni tarixini tədqiq edərkən imperiyanın zəifliyi ortaya çıxır. Bu kimi məsələlərdə imperiya üzləşdiyi çətinlikləri həll etmək gücündə deyildi və yaxud həll etməmək onlar üçün daha sərfəli idi.

Bundan əvvəl qələmə aldığım "Azərbaycanda gender məsələləri" kitabında mövzu ilə bağlı məsələlərdən geniş bəhs olunsa da, çar dovrünün siyasəti ilə bağlı çox az məlumatın verildiyini nəzərə alaraq, bu tədqiqat işində XIX əsrdə Azərbaycanda gender münasibətləri ilə əlaqəli məsələlər barədə məlumat verməyi zəruri hesab edirəm. Burada həm Şimalı Qafqaz (çeçen, inquş, kabardin, adıq, avar, lak, dargin, ləzgi, çərkəz və digər xalqlar), həm də Cənubi Qafqaz (Azəbaycanlı, gürcü, osetin, erməni və sairə) xalqlarının gender problemlərindən bəhs edilir.

Çar Rusiyasının müstəmləkəsi olduğu dövrdə Qafqaz mədəniyyəti həm özünün zənginliyi ilə, həm də müxtəlif mədəniyyətlərin qovşağında (xristianlıq, islam və iudaizm, rus, türk və sairə və mədəniyyətlər) yer alması ilə maraq doğurur. Qafqazda müxtəlif xalq və etnik qruplar məskən salmışlar. Qafqaz xalqlarından bəhs edən tədqiqatlarda bu xalqlar və etnik qruplar ümumiləşdirmiş şəkildə "qafqazlı" adlandırılsalar da, onlar arasında böyük mədəniyyət fərqləri mövcuddur. Bu xalqlar həm bir-birinin qarşılıqlı təsirinə, həm də kənar xalqların mədəni təsirinə məruz qalmışlar. Qafqaz dağlarının çobanları Cənubun fermerinə, Şimalın xanı, əmiri, çarı Cənubun padşahına qarışmış, "qarşılıqlı təsir və mü-

badilə nəticəsində" bir-birlərinin mədəniyyətinə, adətinə, dilinə təsir göstərmişlər (Charles King, 2008: 11-12).

Qafqazlılarda dil, din kimi fundamental fərqliliklər mövcud olsa da, onları bir sıra mədəni və sosial oxşarlıqlar birləşdirir. Məsələn, onların əksəriyyəti özlərinin adət və ya ənənələrinə əsaslanan qaydalara istinad edərək, bir çox cinayət məsələlərində cəzanı öz bildikləri kimi kəsirlər – şərəf və ləyaqətlərinə düşən ləkəni qanla yuyurlar. Ailəyə dəyər bu bölgədəki bütün xalqlarda güclüdür və ailə dəyərlərini müdafiə etmək üçün həm kişilər, həm də qadınlar əllərindən gələni edirlər. Hətta çar imperiyasının müstəmləkəsi olduqları dövrdə belə bu xalqların adət və ənənələrində çox cüzi bir dəyişiklik baş vermişdi. Bəzi xalqlara nəzər yetirəndə, o dövrlə müasir cəmiyyətin insanlarının qadına olan baxışında çox cüzi dəyişikliklərin baş verdiyinin şahidi oluruq. Müsəlman cəmiyyətlərinin ailələrində daha çox şəriət qaydalarından istifadə edilirdi.

Qafqazda təhsilli yerli elitanın nümayəndələrinə, yəni imperiya qafqazlılarına "sivilləşmək" imkanı verilirdi. Ruslar və milli ziyalılara görə yerli əhalini "sivilləşdirmək", onu rus və avropalı kimi görmək idi, çünki onlar özlərini qafqazlılardan daha çox inkişaf etmiş hesab edirdilər. Düzdür, yerli yazıçılar Rusiya imperiyasında mövcud olan imkanlardan yararlanaraq, yuxarıda toxunulan məsələləri öz əsərlərində işıqlandırırdılar. Əlbəttə, bunları yazmaqla onlar bir növ imperiya siyasətini dəstəkləyirdilər, məqsədləri isə, çar məmurlarından və dini rəhbərlərdən (ortodoks və müsəlman) oz xeyirləri üçün istifadə etmək idi, lakin bu yazarlar öz təbliğatlarının nəticəsini görmədilər.

**Çar imperiyası, gender, cinayət və qanunlar.** Cinayət və hüquq nəzəriyyələrində qeyd olunur ki, hüquqi qanun və kateqoriyalar həm cinayəti təyin edir, həm də qanuna nə vaxt və necə riayət etməyi xarakterizə edir. Alimlər sosio-mədəni diskursları imperiyanın siyasətinə uyğun yaradırdılar (Nicola Lacey, 2004: 476).

Çar Rusiyasının hüquqi strukturlarına və Qafqazın ənənəvi qanunlarına gender rakursundan diqqətlə nəzər salanda bir sual meydana çıxır: Kişi və qadının ailə və cəmiyyətdə yeri, şərəfin,

zorakılığın və ədalətin mahiyyəti hansı şəkildə anlaşılır? Çar Rusiyasının agentlərinin köklü Qafqaz əhalisinin oturuşmuş dəyər və inamlardan xəbərdar olmaları, imperiyanı öz güc dinamikasını dəyişməyə vadar etdi. Çar Rusiyası qanunları, Qafqazın ənənəvi qanun və şəriət qaydalarının qarşılıqlı əlaqəsi sosial diskurslarla qismən uyğun gəlirdi, konfliktli situasiyalara aydınlıq gətirirdi. Bütün bunlar Rusiyanın imperiya quruculuğunun təbiətini və imperiya məhkəmələrinin hələ də kənd səviyyəsində qalmasını anlamağa yardım edirdi. Ənənəvi qanunların birləşməsi, yəni adətlərin qanun kimi qəbul edilməsi, hüquq və öhdəliklərin icmalar tərəfindən tənzimlənməsi buna yaxşı misal idi. Çar Rusiyasının qanunları, Rusiya imperiyası və onun tərkib hissəsi olan Qafqaz bölgəsinin əhalisinin yaratdığı kateqoriyalar, onların qarşılıqlı münasibətləri və müstəmləkə vəziyyətinin formalaşdırdığı gender identifikasiyası, cəmiyyəti yeni, sistemsiz bir formaya salmışdı (Nicola Lacey, 2004: 477; Sally Engle Merry, 2004: 575).

Tədqiqatçılar imperiya məhkəmələrinə, Qafqaz icmalarına və Qafqazda yaşayan digər qruplara uyğun gələn adətlərə, şəriət qaydalarına (evlilik şərtləri) uyğun gələn ailə və nikah, gender, şərəf və zorakılıqla əlaqəli diskurslar yaradırdılar.

Qafqazda qanunlar islamın ilkin əsaslarına, adət-ənənələrinə uyğun fəaliyyət göstərirdi. Austin Cersild iddia edirdi ki, Qafqaz ənənələri qanunlar kodeksinə necə daxil olmuşdusa, Rusiya islamın gücünü azaltmaq üçün yeni yollar axtarırdı (Austin Jersild, 2002: 95). İslamın gücünü azaltmaq məqsədi ilə çar administrasiyası islam dini rəhbərlərini imperiya sisteminə daxil etmişdi və onlara hətta öz işlərini görmək üçün muxtariyyət vermişdi (Robert D. Crews, 2009: 33).

Bəzi ədəbiyyatlarda rus missioner qadınlarının Qafqaza gəlib qadın məsələləri ilə maraqlandıqları barədə məlumatlar olsa da, onların tədqiqatları diqqətdən kənar qalırdı. Həm çar Rusiyasının məmurlarının özləri, həm də onların həyat yoldaşları Qafqaza gəlir, buradakı ailə münasibətləri, seksuallıq və evlilik məsələləri və sairə ilə maraqlanır, ailələrlə ünsiyyətə girir, qadınlara qarşı münasibətdə müəyyən dəyişikliklər etməyə təşəbbüs

göstərirdilər (Beskhanum Ragimova, no. 1/2, 2002). Qafqazda seksuallığa nəzarət sistemi elə şəkildə qurulmuşdu ki, ailə və nikahla bağlı dəyişikliklər etməklə genderə yeni forma vermək əslində, qeyri-mümkün görünürdü, həm də belə məsələlərdə Rusiya dövləti tranformasiyaya az meyilli idi. Çar məmurları yerli əhalinin gender normalarına - ailə zorakılığı, qız qaçırma, zorlama və ailə sədaqətsizliyi kimi və sairə məsələlərə çox az müdaxilə edirdilər. İmperiyanın diskursunda bölgələrdə qadınların həyatının tranformasiyasına çar nəzarətinin bir forması kimi baxılırdı, təcrübədə isə Qafqaz qadın və uşaqları imperiyanın bu sahədə onların həyatında oynadığı rolu hiss etmirdilər. Bu məsələlərlə bağlı şikayətləri olanda, çar hüquq məmurları onlara nəinki yardım etmirdilər, hətta onlara tam etinasızlıq göstərirdilər (Bruce Grant, 2009).

Son dövr dünya tarixçilərindən Robert Kruz, Çarliz King, Nokolas Breyfoql, Tomas Baret, Anna Zelkina, Austin Cersild, Syuzan Leyton və başqalarının Qafqazın Rusiya istilası dövrünə aid tədqiqatlara nəzər salanda, onların bölgədəki dini və multi-etnik məsələlərə maraqlarının artdığının şahidi oluruq. Ümumilikdə, onlar öz əsərlərində dini qurumların Rusiya imperiyasına qarşı müqavimətindən, təsirindən, genderin formalaşmasında və imperiyanın yaranmasında yerli əhalinin, müstəmləkəçilərin və məmurların rolundan bəhs edirlər (Nancy Kollman Shields, 1991).

Tədqiqat prosesində Qafqaz əhalisinin gündəlik həyatında genderlə bağlı məsələlərlə yanaşı, cinayət (xüsusilə, qadın və uşaqlara qarşı), Qafqazda ənənəvi adətlərdən qaynaqlanan qanunlarla cinayətə bəraət qazandırmaq halları da tədqiqatdan kənarda qalmamışdır. Çar Rusiyasının (Qafqazın Ərəb, Monqol, Fars və Osmanlı imperiyalarının istilası ilə müqayisədə bölgənin Rusiya tərəfindən istilası dövrü kifayət qədər uzun müddət davam etmişdi) Qafqazdakı gender siyasətində heç bir dəyişiklik etməməsinə baxmayaraq, ailə və nikah məsələlərində cüzi də olsa, dəyişikliklər baş vermişdi. Rusiya imperiya orqanları əslində, Qafqaz adətlərinin əksinə heç bir addım atmırdı, sadəcə onlar arabir qadınlardan kimsə ərindən boşanmaq istəyəndə, gənc oğlan və qızlardan

ailələri tərəfindən istədikləri evliliyə icazə verilməyəndə, onlara alternativ təkliflər edirdilər. Qafqazlılar bəzən təşəbbüs göstərib çar məmurları ilə əlaqə yaradırdılar. Yerlilər, xüsusilə də Qafqaz qadınları Rusiya hüquq sistemindən yararlanmaq istəyirdilər və istədikləri nəticəni almaq üçün hər zaman qanundan istifadə etmək arzusunda idilər. Çar Rusiyasının üzdəki siyasətində isə tam başqa bir mənzərə mövcud idi. O dövr mətbuatında qanunlardan yazılır və çar Rusiyası siyasəti təbliğ edilir, lakin əslində, bütün bunlar yalançı göstəricilər idi, iş real yardıma gələndə, onlar bu işlərə həvəssiz yanaşırdılar və yerlərdə heç birköməklik göstərmirdilər. Bütün bunları nəzərə alaraq, tədqiqatda əsas diqqət aşağıdakı məsələlərə verilir: Qafqazlılar ilə rusların əlaqəsi prizmasından cəmiyyətdə qadınların yeri, gender, seksuallıq, ailə zorakılığı və yerli icmanın onlara münasibəti, Qafqaz əhalisi ilə çar imperiya orqanlarının əlaqəsi, bu əlaqənin qadınların həyatında oynadığı rolun reallıqda və sözdə nə dərəcədə fərqlənməsi.

Qan davası çar məmurlarının Qafqazdakı siyasətinə ən çox maneçilik törədən amillərdən biri idi. Qafqazın ən əsas adətlərindən olan qan davasından (ən əsası da, kişilər) əhali çox ziyan çəkirdi. Şərəfinə xələl gələn ailənin kişiləri qarşı tərəfin ailə üzvlərini və yaxınlarını öldürməklə şərəf və ləyaqətlərini "bərpa" edirdilər (В.О.Бобровников, 2002: 56-57).

Çar məmurları Qafqaz adətlərini (xüsusilə də, ədalət, şərəf, maskulinlik, ailə, sosial güc və zorakılıqla bağlı məsələləri), əsasən də, maskulinliklə qan davasının əlaqəsini axıra qədər anlaya bilmirdilər, bu səbəbdən də onu aradan götürmək müəyyən çətinliklərlə müşaiyət olunurdu. Onlar başa düşmürdülər ki, Qafqazdakı mədəni amillərin təsiri onların, uzun illər davam edən qan davasını dayandırmaqdan ötrü etdikləri bütün cəhdlərdən daha kəsərlidir. Məsələn, XIX əsrin sonunda çar məmurları starşinanı (Osetiya kəndinin böyüyü) məcbur edirlər ki, öz adətlərinə görə hərəkət etməsin, yəni qonaqpərvərlik göstərmək əvəzinə, qonaq kimi qapısında dayanan kişini tutsun. Nəticədə, qonaq ailənin qan düşməni olur (В.О.Бобровников, 2002: 56-7). Çar məmurları tə-

sadüfən yerli əhalini adətlərinin əleyhinə getməyə məcbur edəndə, bu cəhd birmənalı şəkildə uğursuzluğa düçar olurdu.

Qafqaz konsepsiyasında kişilik, ailə sərəfi və qan davası ilə alınan intiqam arasında yaxın əlaqə var idi. Çar məmurlarının qan davasını qeyri-qanuni hal kimi qiymətləndirmələrinə baxmayaraq, təcrübədə qan davasını davam etdirən Qafqaz kişisi gənclərin və icmaların gözündə ilahiləşirdi. Xoşa gəlməyən münaqişələrdən qaçmaq istəyən bəzi icmaların mübarizələrinə baxmayaraq, Qafqazda geniş yayılan bir sıra– digər kəndlərin üstünə hücum çəkmə, qız qaçırma kimi və s. halların qarşısını çar məmurları ala bilmirdilər və bəzən yerli əhalinin ehtiraslarının coşması yerlərdəki rus məmurlarının öldürülməsi ilə nəticələnirdi. Qafqaz cəmiyyət və ailələri üçün bu kimi riskli davranışlar gözlənilməz deyildi və ailə şərəfini və nüfuzunu saxlamaq üçün bunlar məqbul hərəkətlər hesab edilirdi. Qan davasından cana gələn, bəzi Qafqaz ailələri buna açıq etiraz edirdilər, lakin bunlardan fərqli olaraq nüfuz və gücü çox olan ailələr hələ də bu adətlərindən vaz keçmək fikrində deyildilər. Bu adətlərlə mübarizədə aciz qalan çar məmurları qan davasından vaz keçən ailələrə alternativ cəza növləri təklif edirdilər. Qan davasını dayandıran Qafqaz ailələrinə çar məmurları ədalət məhkəməsinə müraciət etməyi məsləhət görürdülər. Hətta çar məmurları belə ailələri qan davası riskindən qurtarmaq üçün imperiyanın digər bölgələrinə köçürürdü. Nə qədər maraqlı səslənsə də, çar qanunu Qafqaz ailələrinə müxtəlif alternativlər vəd etsə də, qan davasına son qoyulmurdu. Ailə şərəfini qorumaq üçün qan davası ən çox işlədilən vasitə olaraq qalırdı.

Qafqazda evliliklə bağlı bütün məsələlərdə erkən evlilik, məcburi evlilik, poliqamiya, qız qaçırma kimi məsələlərə, çar məmurlarının nəzarəti altında olan din xadimləri rəhbərlik edirdilər, yəni çar üsuli-idarəsi bu məsələlərin həllini məmnuniyyətlə, din xadimlərinə ötürürdü. Qafqazda bu o demək idi ki, gürcü ortodoks və müsəlman din xadimləri imperiyanın bir qurumu kimi fəaliyyət göstərirdi (Robert D.Crews, 2009: 32-34). Çar imperiyasının belə idarəçilik təcrübəsi Rusiyanın müxtəlif imperiya layihələrin-

də eyni cür əks olunurdu. Eyni zamanda, bu metod dini məmurlara müstəqil idarəetmə imkanı verirdi (Paul Werth, 2006: 205).

İstər ortodoks məmurlar olsun, istərsə də müsəlman məmurlar, onlar nikah məsələlərində yalnız dini qanunları tətbiq edirdilər və bu zaman belə bir fikir əsas götürülürdü ki, qadının cəmiyyətdə ana və həyat yoldaşı kimi rolu şəriət qaydasından kənarda qala bilməz. Buna görə də, həm müsəlman, həm də ortodoks məmurları birmənalı şəkildə erkən evlilik və qız qaçırmanın (hər ikisi çar Rusiyasının ailə qanununun əksinə olsa da) izdivacla nəticələnməsinin tərəfdarı idilər. Şəriət qaydaları ilə dəstəklənən poliqamiyaya müsəlman məmurları icazə versə də, ortodoks dini məmurları nə poliqamiyaya, nə də biqamiyaya icazə vermirdilər.

Ailə zorakılığı, qız qaçırma, zorlama və həyat yoldaşına sədaqətsizlik (əsasən, qadınlar üçün nəzərdə tutulur) kimi məsələlərlə bağlı Qafqaz müsəlmanlarından çar məmurlarına şikayət gedəndə, bu məsələlərin həlli, onsuz da yenidən yerli dini məmurlara tapşırılırdı və onlara bu məsələlərin həllində müstəqillik verilirdi. Eyni müstəqillik gürcü ortodoksuna verilmirdi, çünki bütün bu məsələlər Rusiya ortodoks məmurlarının nəzarətində idi. Ümumiyyətlə, Qafqaz gürcü ortodoks məmurları bütün Qafqaz xristian əhalisinin bu kimi problemlərini yalnız müşahidə edə bilərdi. Gürcü ortodoks məmurları bir çox qanun pozuntuları ilə rastlaşırdılar. Belə hallara adətən, çar məmurlarının standartlarına görə ölümlə və ya ağır yaralanma ilə nəticələnən ciddi fiziki xəsarətlər, on altı yaşından aşağı oğlan və qızların evlənməsi ilə bağlı şikayətlər daxil idi. Çar məmurları belə qərarları cəmiyyətdə mövcud olan dini inamlarla əsaslandırırdılar; qadınların sayca kişilərdən çox olması, qadınlara kişi himayəsini zəruri edirdi və ya zorlanmaya məruz qalan qız başqası ilə evlilik üçün yararlı deyil, ona görə də zorlanmanı törədən kişi ilə evlənməsi məqbul hesab edilirdi. Nə olursa olsun, baş verən hər hansı bir sədaqətsizlikdə qadınlar qınanılırdı, kişilər əksər hallarda ictimai qınaqdan kənarda qalırdılar (William Wagner, 1994: 67). Elə bu baxışların nəticəsi idi ki, qadınlara qanunla dəstək olmaq əvəzinə, çar məmurları yerli adətlərə üstünlük verirdilər. Onlar əmin idilər

ki, “ziyan çəkmiş” qadınlar qeyd-şərtsiz yazılmamış qaydalarla razılaşacaqlar. Belə olan halda, yerli kişiləri narazı salmaq onlar üçün əlverişli deyildi. Bəzən təcrübədə bu kişilərdən başqa cür cəza çəkənlər də olurdu. Həyat yoldaşını döyən Qafqaz kişisi ən yüngül cəzaya məhkum edilirdi, ən çoxu bir il həbs edilirdi. Bəzi hallarda, Qafqazlı kişiyə ailə münaqişəsi ilə əlaqəli məhkəmədə iş kəsəndə, ona bəraət qazandırmaq üçün çar məmurları səbəblər axtarırdılar, bu cinayəti törədən kişinin “qanundan xəbərsiz olduğunu və yerli adətlərlə ailəni idarə etdiyi səbəbindən törətdiyi hərəkətin cinayət tərkibli olduğunu bilmədiyi”ni iddia edilirdilər.

Qafqaz xalqlarında qadının malik olduğu status və onun ailə strukturlarındakı rolu müxtəlif cür interpretasiya edilirdi. Məsələn, Qafqaz cəmiyyətləri mənsub olduqları etnik qrupdan asılı olmayaraq, inanırdılar ki, qız on iki yaşından on yeddi yaşına qədər, kiminsə həyat yoldaşı ola bilər (Rusiyada bu on altı yaşda baş verirdi). Ona görə də Qafqazda ailə qurma yaşının aşağı həddi dəqiq müəyyənləşdirilmədiyi üçün ərə getmə yaşı müxtəlif dövrlərə təsadüf edirdi. Rusiyada on altı yaşdan aşağı bir qız uşağı zorlanmaya məruz qalardısa, o zaman zorakılığı törədən şəxs mütləq uzun müddət həbs edilirdi, çünki on altı yaşına qədər qız Rusiya qanunlarına görə nə ana olmaq, nə də qadın olmaq üçün uyğun deyildi. Əgər zərərçəkənin ailəsi şikayət etmirdisə, o zaman iş bir az yüngülləşirdi (Rusiya qanunlarına görə erkən evlilik o zaman mümkün olurdu ki, zorlanmaya məruz qalan qızın ailəsi şikayət etmirdi və tərəflər zorlayan kişinin zorlanan qızı alması barədə razılığa gəlirdilər). Rus ailələri ilə Qafqaz ailələri çox fərqlənirdi, Qafqaz ailəsi böyük birliyin bir hissəsi olduğu halda, rus ailəsi nyuklear ailə hesab edilirdi.

Qafqaz qadını ərinin və atasının üstünə əlavə yük kimi deyil, ərinin ailəsinin üstünə bir əlavə yük hesab edilirdi. Zorlanmaya və ya qaçırılmaya məruz qalan Qafqazlı qızın digər bir ər tapa bilmə imkanı qapanırdı, onun buna haqqı yox idi, lakin rus qızı bundan imtina edə bilərdi, çünki bu cəmiyyətdə cinsindən asılı olmayaraq, cinayət törədən daha çox qınanılırdı. Əgər Qafqazlı qız məruz qaldığı zorakılıq ucbatından məcburən ailə qurmaq

istəmirdisə, onun ailə qurmaq şansı sıfıra enirdi (əslində, heç indi də o qədər böyük dəyişikliklər baş verməmişdir, müsəlman qızlarının bu problemi bu gün də eyni cür aktualdır). Çar məhkəmələri tarixində belə hallara tez-tez təsadüf edilirdi və onlar qıza başqa bir imkan verməyə o qədər də həvəsli deyildilər. Qafqaz ailələri öz dəyərlərini ailə üzvlərinin (əsasən, ailədəki qız-qadınların) sədaqəti ilə ölçürdülər. Onlara görə ailənin bütün üzvləri ailə şərəfini saxlamağa, qorumağa cavabdeh idilər.

Qafqazlı kişilərə görə qaçırılma, zorlanmaya məruz qala bilmə ehtimalı hər zaman var və qadınlar bu zaman müdafiə olmağı bacarmalı və qarşı tərəfə bacardıqları qədər müqavimət göstərməlidirlər. Çar məhkəmələri də bu məqamda onlarla eyni fikirdə idilər. Ailə şərəfini qorumaq hər bir Qafqazlı qadının əsas borcu idi. Qafqaz qadınları ailədə tabeçilik mövqeyində dursalar da, belə hallarda, hər vəchlə hücum edən tərəfə müqavimət göstərməli və ailə şərəfini qorumalı idilər.

O dövrün rəsmi qəzet və jurnallarında fəaliyyət göstərən istər rus, istərsə qeyri-rus ziyalıları, hərbçilər və yazarlar Qafqaz adətlərini və onlar üçün yad olan bəzi məqamları müsəlmanların dini inamlarla əlaqələndirmələrini tənqid edirdilər. Onlar Qafqaz adətlərini tənqid etmələrini dörd amillə əsaslandırırdılar: zorakılığa əsaslanan, patriarxal strukturlu Qafqaz ailəsində kişi mövqeyinin güclü olması, qadın və uşaqların cəmiyyətdə ikinci dərəcəli yeri və Rusiya qanunları əvəzinə islam qaydalarının tətbiqi. Məsələn, XIX əsrdə Rusiyada nəşr olunmuş dövlət jurnalı, "*Qafqazlılar haqqında məlumat toplusu*"nda (Сборник сведении о Каказских) fəaliyyət göstərən N.Petruseviç Qafqazda mövcud olan adətləri və qan davasını tənqid edərək yazırdı ki, Şimali Qafqazda, Avariyada ana və onun kəbindənkənar dünyaya gəlmiş uşağı amansızcasına qətlə yetirilmişdi. Avar qadının keçmiş həyat yoldaşı və onun dostları yeni doğulmuş körpəni daşlayaraq öldürmüşdülər. Ondan sonra "qadını zorlayıb" ölənə qədər döymüşdülər. Müəllif qatilləri "əsl Qafqaz dağlı kişisi" adlandırmış, bu cinayəti mövcud iyrənc adətlərin nəticəsi kimi qiymətləndirmişdi. Bunu müəllif qanunsuzluq, "özbaşına mühakimə" (*sa-*

*mosud)* adlandırmışdı. Müəllif qeyd edir ki, bu hadisənin bizim üçün kriminal kimi qiymətləndirilməsinə baxmayaraq, Qafqazdakı dağ kişisi üçün bu onun adətə uyğun verdiyi düzgün cəza hesab edilirdi (Ф.И.Леонтович, 1882, II: 485; ССКГ, 1870: 64).

Çar məhkəmələri bu qətli törətmiş kişilərə ən ağır cəzanı kəssələr də, Qafqaz adətlərində "ləkələnmiş şərəf və ləyaqətin qanla yuma" halları azalmırdı. Buna bənzər hallarla tarixdə kifayət qədər məlumata təsadüf edilir, ərinə xəyanət etmiş və dünyaya kəbindənkənar uşaq gətirmiş qadın bütün hallarda kişilər tərəfindən kəskin cəzalanır, ölümə məhkum edilirdi. Beləliklə, qan davası illərlə davam edirdi və qanunsuz qətllərə meydan açırdı. Hər hansı bir qətl hadisəsini törədən kişinin rus qanunları ilə cəza çəkməsi, qafqazlıların nəzərində cəzasız qalmaq kimi bir şey idi və hökmən sonda qan davası yenə də öz işini görürdü. Ona görə də rus imperiyasının qanunları ilə cəza çəkərək geri qayıdan kişi sonda yenə də yerli qanunlarla cəzalanırdı. Rus qanunlarının qadınların müdafiəsi üçün yetərli olmaması haqqında kifayət qədər yazılsa və daha sərt qanunların tətbiq edilməsi tələb olunsa da, qan davasının qarşısını almaq mümkün olmurdu.

**Rusiya imperiyası: KİV və ədəbiyyatda Qafqaz adətləri.** Ümumiyyətlə, yuxarıda toxunulan cinayət tərkibli adətlərə qarşı qanunun işləməməsindən narahat olan Rusiya və Qafqaz dövlət qəzet və jurnallarında çalışan yazarlar bu kimi hadisələrə tənqidi mövqe nümayiş etdirirdilər, çünki onlar anlayırdılar ki, əks halda Qafqaz kişilərinin özbaşnalığı, amansız rəftarı, erkən evlilik, zorla evliliyə təhrik etmə, poliqamiya, qız qaçırma, intihar, ailə zorakılığı, zorlama və adam öldürmənin faizi kifayət qədər artıracaqdır. Birincisi, "*Kavkaz"* ("Кавказ"), "*Novoe Obrezreniya"* ("Новое Обозрения"), *"Kaspii"* ("Каспии"), *"Kavkazskii Kalendar"* ("Кавказский Календар"), *"Kavkazskiy zbornik"* ("Кавказкий сборник"), *"Kavkazskiy Vestnik"* ("Кавказкий Вестник"), *"Russkiye muselmanı"* ("Русские Мусялмани"), "*Sbornik materialov dlya opisaniia mestnostey i plemen Kavkaza"* ("Сборник материалов для описания местностей и племен Кавказа"), *"Sbornik statistiçeskix svedenii o Kavkaze"*

("Сборник статистических сведении о Кавказе")*, "Sbornik svedeniy o Kavkaze"* ("Сборник сведении о Кавказе")*, "Sbornik svedenii o Kavkazskix gortsax, Tiflisskii vestnik"* ("Тифлисский вестник, Сборник сведении о Кавказских горцах") və digər dərc edilən jurnal və qəzetlər hər şeydən əvvəl nəyin "səhv" olduğunu, qan davasına səbəb olan amilləri anlamaq istəyirdilər. İkincisi, çar təbliğatçıları iddia edirdilər və inanırdılar ki, Rusiya qanunları tətbiq edilsə, Qafqaz qadınlarının da həyatında yaxşıya doğru inkişaf olardı. Təbliğatçılar müsəlman ailələrinə nisbətən daha çox hüquq sahibi olan xristian və ortodoks qadınları misal gətirirdilər və mövcud adətlərin müsəlman qadınlarına qarşı daha amansız olduğunu qeyd edirdilər. Onların mühakimələrində dolayısı ilə də olsa, Qafqazda islam dininin digər dinlərə nisbətən daha üstün, nüfüzlu və daha çox yayılması qorxusu hiss edilirdi. Qəzet və jurnallarda Qafqazda islam dininin və zorakılığın tənqidi hər zaman yer alırdı. Çox vaxt baş verən zorakılıq hallarını üstüörtülü şəkildə islamla əlaqələndirirdilər. İslamla əlaqəsi olmasa da, şəriət qaydaları qadını ikinci dərəcəli, tabeçilik statusunda görürdü və qadınlara itaətkarlıq, kişilərə xidmət etmək hissləri aşılanırdı. Ailədə qadının incidilməsini hər zaman müşahidə edən qız-qadın bəzən, nəyin zorakılıq, nəyin qeyri-qanuni olmasını heç dərk etmirdi. Zorakılığa məruz qalmaq onların həyat tərzinin tərkib hissəsi idi.

Zorakılıq Qafqaz ailələrində yeganə problem deyildi. Ümumiyyətlə, ailələrdə uzun illər davam edən vaxtı keçmiş, insanları geriyə sürükləyən kifayət qədər çürümuş adət-ənənələr mövcud idi. Bu adətlərdən cəmiyyətdə təkcə qadınlar deyil, kişilər də əziyyət çəkirdilər. Dünyagörüşlü, təhsilli kişilər cəmiyyətdəki vaxtı keçmiş adətlərdən heç də qadınlardan az əziyyət çəkmirdilər.

İsrail tarixçisi Moşe Qammer Qafqazda islamı rus düşməni, müsəlmanların çara qarşı müqavimət silahı kimi qiymətləndirirdi (Moshe Gammer, 1994). Dağıstan və Çeçenistanda yayılmış Sufi Nəqşbəndi cərəyanını islamın Rusiyanın Qafqaz istilasına qarşı yönəldilmiş siyasi bir hərakatı kimi göstərirdi. O dövrün

KİV-ində buna əks iddialar da səslənirdi. Guya Qafqazda sivilləşmə missiyasını öz üzərinə götürən Rusiya imperiyasına ən çox mane olan qüvvə islam və Qafqaz kişilərinin zorakı rəftarları idi (Susan Layton, 1994). Əslində, islamdan qorxsalar da, çar məmurları bölgədə kişilərin zorakı olmaması istiqamətində heç bir dəyişiklik etmək niyyətində deyildilər. Onlar baş verənlərdən öz xeyirləri üçün istifadə etmək istəyirdilər və əksər hallarda, bunu bacarırdılar.

Qafqazda ailə və nikah təcrübələri və zorakılığın gender və ailə baxımından tənqidi tədqiq edilən mövzularda hədəfdə olan, aktual məsələlərdən idi. O dövrün bəzi rus və qeyri-rus tədqiqatçıları rusları yerli xalqların adət-ənənələrinə hörmət bəsləməyə çağırırdılar. Onlar o adətlərə hörmət etməyə üstünlük verirdilər ki, orada qan tökülməsin, qız qaçırılmasın, hətta qız üçün başlıq almaq kimi adətlərə də çox pis baxırdılar (Austin Jersild, 2002: 60).

Çar məmurları və Qafqaz elitası bölgədəki fəaliyyətlərini şəriətlə əlaqəli adətlərin əksi istiqamətinə yönəltmişdilər. Onlar Qafqaz xalqları arasinda onlara sonradan (islamdan sonrakı dövrdə) aşılanan adətlərdən birmənalı şəkildə əl çəkmək təbliğ olunurdu. Ümumiyyətlə, çar məmurlarının apardığı siyasətə görə, Qafqazdakı nikah, ailə-məişət adətlərində bir dönüş olmalı idi (erkən, məcburi, sevgisiz evlilik, poliqamiya, qız qaçırma, ailə zorakılığı, qan davası, şərəf və ləyaqəti adam öldürmə ilə təmizləmə, zorlama və adam öldürmə). Reallıqda isə onlar dediklərinin yalnız bir hissəsini tətbiq edir, yerli əhaliyə, əsasən də kişilərə tez-tez güzəştə gedirdilər. Qafqazda yerli təhsilli insanlarin bir qismi "Cənnət bağı" adlı cərəyanda birləşmişdilər. Bu cərəyanın nümayəndələrindən A. Ömərov (lək) və M. Saqaradze (gürcü) çarızmin bu siyasətinə bəraət qazandırırdılar. Onlar, yerli etnik və dini sivilizasiyanın çatışmazlığını qəbul edirdilər və çarın bu diskursuna haqq verirdilər. Ömərov və Saqaradze patriarxal quruluşa malik olan Qafqaz ailəsində kişi aqressivliyini və qadın-uşaqların tabeçilik statusunu tənqid edirdilər. Cənnət-Bağının yaradıcıları rus adətlərini daha çox bəyənirdilər, lək və avarların da onlar kimi sivil olmalarını tövsiyə edirdilər. M. Saqaradze onların

da ruhən dəyişib "gürcülər" kimi olmalarını istəyirdi. Siyasətin aparıcı qüvvələrinin, çar məmurlarının diskursunun yaradılmasında rolu az idi. Əsasən, yerlilər tərəfindən yaradılan diskurs, çar administrasiyası və məmurlarının tətbiq etdikləri təcrübə arasında bir əlaqəsizlik mövcud idi. Rusiya qadınlarına gəldikdə isə, məsələ tamamilə bambaşqa idi. Çar Rusiyasının qadınları üçün adət və ailə həyatı Qafqazdakı qədər ağır deyildi. Rusiyada nikahlar qarşılıqlı razılıq əsasında qurulduğu üçün ailələr az patriarxal idilər və ailələrdə zorakılığa Qafqaz ailələrindəki qədər təsadüf edilmirdi, çünki ruslar ortodoks xritisan qaydaları ilə yaşayırdılar. Cənnət-Bağı cərəyanın təmsilçiləri cəmiyyətdəki problemlərin onların adətlərindən irəli gəldiyini düşünürdülər və rus imperiyasının yürütdüyü siyasətin sayəsində bu problemlərin həll edilə biləcəklərinə ümid edirdilər. İmperiya da öz növbəsində yerli, təhsilli elita nümayəndələrinin bu işin ohdəsindən gələ biləcəyini ehtimal edirdi. Məsələn, dövlət qəzeti olan "*Kavkaz"*da yazırdılar, "rus qadınları ilə [Qafqaz] müsəlman qadınlarının müqayisəsi günahdır", çünki "rus qadınları ərlərinin köməkçiləri, dostları olduqları halda, "müsəlman qadınları ərlərinin quludur" (Austin Jersild, 1998: 80-82). Rus qadınlarının həyatı Qafqaz müsəlman qadınlarının həyatından daha qənaətbəxş idi, çünki rus qadınları ərləri ilə yaxın idilər, onlarla sevinc və kədərlərini bölüşürdülər. Rus qadınları ailədə söz sahibi idilər və onların həyat yoldaşları mühüm qərarların verilməsində onlarla hesablaşırdılar. Rus qadınlarının hamısının da olmasa, bəlli bir təbəqəsinin sosial həyatları mövcud idi. Ən azı, varlı rus kişisinin xanımı xeyriyyəçiliklə də olsa, bir fəaliyyət sahibi idi. Ümumiyyətlə, rus qadınlarına verilən sərbəstliyin heç cüzi bir hissəsi də, Qafqaz qadınlarına aid edilə bilməzdi. Qafqaz qadınlarının yaşlı təbəqələri az da olsa, ailədə özündən yaşca kiçik qız-qadın üzərində söz sahibi ola bilərdilər. Ən yaşlı qadın ən cavan kişidən daha az söz sahibi idi.

O dövrün aparıcı qüvvələri Qafqaz cəmiyyətinin ailə həyatına alternativ kimi yalnız rus ailələrini görürdülər. Bu ailələrdə zorakılığa az təsadüf edilirdi və ailə üzvləri bir-birlərinə güzəşt etməyi bacarırdılar. Lakin bu alternativi təklif edənlər reallıqda

bu mexanizmi necə tətbiq etməyin detallarını göstərmirdilər. Bu qüvvələrə görə bir məsələ aydın idi; Qafqaz cəmiyyəti çar Rusiyası cəmiyyəti ilə müqayisədə daha pisdir, lakin bunun nədən pis olması sualının cavabı açıq qalırdı. Nəyi nə ilə necə əvəz etmə yollarının mexanizmi yox dərəcəsində idi. Onlar ailənin patriarxallığını, ailə zorakılığını, kişinin qadına və uşağına qarşı qeyri-məqbul münasibətini, Qafqaz qadınlarının monoton, ağır həyat tərzini arqument kimi verirdilər. Əlbəttə, bunu hər kəs qəbul edə bilmirdi və hamı da dəyişiklik tərəfdarı deyildi. Qafqaz ailələrində ən çox tənqid edilən ailə zorakılığı idi ki, bu da müsəlman ailəsində daha tez-tez baş verirdi (С.Джаннат-Баги, Кавказ 9-10, Август 1878).

Ailə zorakılığı dedikdə fiziki zorakılıq və psixoloji təzyiqlər nəzərdə tutulurdu. Patriarxal quruluşlu ailənin kişi təbəqəsi qadın və uşaqlara istədikləri cəzanı kəsirdilər. Real həyatda Qafqaz ailəsində bəzən oğul, ana, hətta bacılar da evdə onlardan kiçik ailə üzvlərinə fiziki xəsarət yetirə bilərdilər. Beləliklə, ailənin başçısı hesab edilən kişi iki rolda çıxış edirdi: aqressor və güc sahibi. Məsələn, Qafqaz müsəlman qadınlarının həyatından bəhs edən mənbələrin birində belə yazılır, “Qadın ərinin ailəsinə ailə üzvü kimi deyil, işçi kimi daxil olur. Qadın ərinin quludur və əgər qadın kiçicik bir xəta edərsə, kişi onu boşaya da bilər”. Vaxtilə belə tipli ailədə böyüyən və atasından həddən artıq həm qorxan, həm də ona nifrət edən müəllif - Abdulla Ömərov belə yazır, “belə ailədə daima qorxu içərisində yaşayırdım və yalnız atam evi tərk edəndə özümü rahat, azad hiss edirdim. Tiran atama nifrət edirdim və anamı çox sevirdim” (Абдулла Омаров, ССКГ, 1870: 4-5;). Onun atasına olan nifrəti atasının anasına fiziki zorakılıq tətbiq etməsi ilə daha da güclənirdi. Ömərov sonralar da öz əsərlərində “ərlərin arvadlarını və qardaşların bacılarını” döymə təcrübəsini lənətləyirdi. Qafqazda ər və yaşı yuxarı olan hər bir oğlan, kişi ailədə güc sahibi idi. Qafqaz ailə strukturunda iyerarxiya gender və yaşla təyin edilirdi. Müəllifin iddiasına görə, Qafqaz kişiləri zorakılığa meyilli, hay-küylü və dava üçün bəhanə axtaran idilər. Onlar qatil, arvad döyən, uşaq döyən – varvar

və qəddar, arvad-uşağın gözünün odunu alan bir insan kimi təsvir edilirdilər. Qafqazda müsəlman ailələrində ər və atalar qadınların üzərində güc tətbiq edirdilər və qadınlar belə məşəqqətlə üzləşdikdə ya intihar etməklə, ya da kişilərinin onları öldürmələri ilə canlarını qurtara bilərdilər.

Ümumiyyətlə, o dövrün mətbuatında, bütün növ ədəbiyyatlarda Qafqaz qadınlarını və uşaqlarını patriarxal ailənin qurbanı kimi qiymətləndirirdilər (Карпов Ю.Ю., 2003: 44-45). Dünyaya oğlan uşağı gətirən ananın sevincinin əsas mənbəsi də elə cəmiyyətin qız-qadına olan yanaşmasına görə idi. Qız övladlara anadan olandan ölənə qədər qul kimi yanaşırdılar və onlarla istədikləri kimi rəftar edirdilər. Kasıb ailədə dünyaya gələn qızların əzab-iztirabı qat-qat çox olurdu. Analar qız övladı dünyaya gətirəndə qızlarının da analarının talelərini yaşayacaqları üçün onlara acıyırdılar və bu səbəbdən də qız dünyaya gətirmələrinə görə qüssələnirdilər.

XIX əsrin tarixçisi Maksim Kovalevski Osetiya kişiləri haqqında belə yazırdı, "ərin arvad üzərində hər cür gücü var idi və istədiyini onunla edə bilərdi. Lakin iki məsələdə ər "aciz" idi, onu sata bilməzdi və başqasına verə bilməzdi (Максим Кавалевски, 1886, I: 255). Gürcü yazarı M.Saqaradze yaşadığı dövrdə ər və ataların qızlarına və arvadlarına olan münasibətinə görə tənqid edərək yazırdı ki, Qafqaz kişiləri qızlarına və arvad "kişilərin hər istəyini yerinə yetirən, həyatlarının onların iradəsindən asılı olan, uşaq böyütməkdən və ev işləri görməkdən başqa heç bir işi olmayan bir varlıq kimi baxırdılar" (М.Сагарадзе, 1899: 5). Ömərov "Ləklər necə yaşayır?" adlı başqa bir məqaləsində yazırdı ki, "hər kəs ailədəki ev işləri məsuliyyətindən qorxa-qorxa yaşayırdı. Əgər ata evə gəlibsə, uşaqlar verilən tapşırıqları yerinə yetirməyiblərsə və ya arvad pis yemək hazırlayıbsa, ailə başçısı-kişi mütləq onları cəzalandırırdı (Абдулла Омаров, 1870: 4).

Müsəlman qadınları rus və gürcü qadınlarına nisbətən çox ağır həyat yaşayırdılar. Onların da həyat tərzi dövrü mətbuatda müzakirə edilirdi və cəmiyyətə bunun dəyişdirilməsi tövsiyə edilirdi. Rus qadınlarının həyatı, rus ailələrindəki gender münasi-

bətləri daha çox bəyənilirdi və çar Rusiyasının Qafqazda gender münasibətlərinin inkişaf etdirilməsi istiqamətində dəyişikliklər edəcəyinə ümidlər bəslənirdi (bəzən rus cəmiyyətində yüngül formada olsa da, buna oxşar problemlər mövcud olurdu). Rusiyadakı qadınların həyatı ilə müqayisədə müsəlman qadınlarının həyatı çox acınacaqlı idi. Düzdür, rus qadınının həyatında da çətinliklər var idi, lakin onların xoşbəxt zamanları da olurdu. Onun əri tamamilə ona məxsus idi. Lakin rus kişisinin həyatı da qadınla müqayisədə fərqli idi… Qadın evin qayğısına qalmalı idi və bu qayğıları kimsə onun əvəzinə göstərmirdi. Uşaqlar da hər zaman qadınla qalırdı. Müsəlman qadını heç vaxt ərindən ayrıla bilməzdi. Qadın ərindən ayrılanda uşaqlar atanın ailəsi ilə qalırdı. Bu gün onun uşaqları var idi, sabah olmaya da bilərdi.

Yuxarıda istinad edilən müəlliflər əslində, Qafqaz qadınlarını rus qadınları ilə müqayisə edərkən, öz arzularını izhar edirlər. Onlar Qafqaz müsəlman qadınlarının həyatında dəyişiklik görmək arzusunda olduqlarını qeyd edirlər. Saqaradze “Obychai i verovaniya v Imeretii” məqaləsində imeretiya qadınlarının evdəki tabeçilik statuslarını tənqid edir və konkret dəyişikliklər təklif edir. O yazır ki, imeretiya qadınları da, elə müsəlman qadınları qədər ailədə əziyyət çəkirlər. Məqalədə o, imeretiya qadınlarının gürcü qadınları ilə müqayisədə çox pis yaşadıqlarını qeyd edir və imeretiya qadınlarının tamamilə təcrid olunmuş şəkildə, məşəqqətli bir həyat yaşadıqlarını göstərir. Müəllif qeyd edir ki, “gürcü qadınları ailədən kənar kişilərlə tanış da olurlar, dostluq da edirlər, bunu imeretiya qadınları ağlına belə gətirə bilməzlər”.

Saqaradze göstərir ki, “imeretiya qadınları hər zaman kişi nəzarəti altında olur və yalnız ərlərinin seçimi daxilində ailənin ən yaxın qohumları ilə əlaqə qura bilmək imkanına malikdirlər” (M.Сагарадзе, 1899: 5). Müəllifin fikrincə, onun çox hörmət bəslədiyi, əxlaqlı hesab etdiyi din məsləkdaşları da, çox təəssüf ki, qadınlarla düzgün rəftar etmirlər. Kişilər dövrün adət-ənənələ-

rindən o qədər məmnun idilər ki, cüzi bir dəyişiklik onlara cəhənnəm əzabı qədər ağır gəlirdi.

O dövrdə istər Rusiya müəllifləri, istərsə də yerli müəlliflər Qafqaz dağlılarının həyat tərzindən bəhs edərək, burada qadın və uşaqlara qarşı tətbiq edilən zorakılıq hallarını “varvar təcrübəsi” adlandırırdılar (“Из Горци Криминалистики” ССКГ? 1870: 1). Verilən mənbəyə istinad edən tarixçilər ara-sıra da olsa, məhkəmənin qərarlarını misal gətirir. Baş verən hadisələr haqqında çox vaxt ümumi məlumat verməklə kifayətlənirdilər. Məsələn, tarixçilər kişilərin qadınlara qarşı törətdiyi zorakılıq aktından bəhs edərkən, aşağıdakılara, oxşar hadisələrə istinad edirdilər. Şeyx Həsən oğlu öz arvadı ilə dava edəndə xəncərlə qadının sol ayağını yaralayıb qaçmağa çalışmışdı. Bəzən yazılarda qətl və ya insanın ağlına gəlməyən zorakılıq hadisələri haqqında faktlar verilirdi, məsələn, Xan-Maqomi Qurban oğlu qızını və onun nişanlısını bir yerdə intim münasibətdə yaxalayanda, o hər ikisini yaralamışdı, qız ağır yaradan dərhal ölmüşdü. Təəssüf ki, Qurbanoğlunun sonrakı taleyindən heç bir şey yazılmamışdı (“Из Горци Криминалистики” ССКГ? 1875: 10). Ailə şərəfini qanla yuyan kişilər bəzən, hətta tarixi qəhrəmanlar qədər şöhrət tapırdılar. Bunun əksinə olaraq, zorakılıqla üzləşən qadının öldürülməsinə o qədər haqq qazandırırdılar ki, törədilən cinayətin bəraəti üçün artıq cəhdlər belə edilmirdi.

Hər iki hadisəni qələmə alan müəlliflər imperiyanın məhkəmələrinə qədər gəlib çıxan bu kimi zorakılıq aktlarını nə mühakimə, nə də təhlil edir. Tədqiqatçılar bəzən faktları təqdim edir, lakin olanlara münasibət bildirməkdə çətinlik çəkirdilər və ya istəmirdilər. Məsələlərə münasibət bildirməklə onlar, qarşılaşacaqları qınaqdan yaxa qurtarmaq istəyirdilər, çünki kişilər zorakı qismində təqdim ediləndə, yazı müəllifləri özləri tənqid obyektinə çevrilirdilər.

Qadın və uşaqlara qarşı törədilən zorakılıq aktlarının geniş işıqlandırılması müəyyən məqsədlərə xidmət edirdi. Müəlliflər

bununla Qafqaz kişilərini, mövcud qanunları və adətləri müzakirə və mühakimə etmək istəyirdilər. Onlar tez-tez Rusiyadakı adətləri Qafqaz adətləri ilə müqayisə edir, bununla da yerli əhalini "sivilləşdirmək" istəyirdilər (Austin Jersild, 2002: 61).

Bir çox tədqiqatçıların fikrincə, Qafqazda nikah adətlərinin bu hala düşməsində bəzi amillərin təsiri mövcud idi: islam, patriarxal baxış, zorakılıq və Qafqaz cəmiyyətində qadın və uşaqların ikinci dərəcəli statusu. Deyilən faktorların təsiri ailələri bu vəziyyətə gətirib çıxarmışdı.

Etnoqraf, tarixçi və digər tədqiqatçılar evliliklə bağlı bir sıra adətləri on altı yaşına qədər olan evliliyi, evlənmə zamanı evlənəcək qızla oğlanın fikirlərinin nəzərə alınmamasını, poliqamiya və qız qaçırma kimi halları pisləyirdilər. Əksər hallarda, yazarlar Qafqaz cəmiyyətinin bu hala düşməsini adətlərlə əlaqələndirirdilər və Qafqaz kişisinin birmənalı şəkildə (maddi, mənəvi, psixoloji durumundan asılı olmayaraq) ailə başçısı hesab edilməsini əsas götürürdülər. Onlar nikah yaşı məsələsində "sivil dünya" (Rusiya) ilə "qeyri-sivil dünyanı" (Qafqaz) müqayisə edirdilər və qadının ailə həyatına nə zaman hazır olması məsələsini müzakirə edirdilər. Qadının evlilik həyatına hazır olmadığı bir dövrdə cəmiyyət onları evləndirib, ərinin ailəsinə təhvil verirdi. O, ərinin qanunları altında "qadın dözümü" nümayiş etdirir, qadın və uşaqlar tamamilə ər və atalarının arzu və iradəsinə tabe olurdular (Николай Клашев, 1886: 131).

Çar Rusiyasında qızların nikaha daxil olma müddəti (1830-cu illərdə qızların nikaha daxil olma yaşı on altı idi) qanunla tənzimlənsə də, Qafqazda qızların nikah yaşı xeyli aşağı olurdu və tədqiqatçılar Qafqaz cəmiyyəti üçün də bu yaş həddinin gözlənilməsini təklif etsələr də, real həyatda bu mümkün deyildi. Bəzən evlilik yaşı çox tez, qızlarda on yaş, hərdən də gec, on yeddi yaş ola bilərdi (О. Мтавриев, 1902: 149; Luzbetok, 1951: 67).

Bəzən islamla heç bir əlaqəsi olmadan da, kişilərin qadınlarla qaba rəftarlarını islamla əlaqələndirib, etdikləri qeyri-dürüst

rəftara bəraət qazandırmaq istəyirdilər. O dovrün anonim yazılarının birində (Новое Обезрение, "*По адресу мусульманского духовенство*") Bakıda on üç yaşlı müsəlman qızının evlilik təcrübəsindən yazılmış, buna rəvac verən insanlar qınanılmışdı. Bu yazıda erkən evlilikdən bəhs edən müəllif bunu islamla bağlayır və bunun islamda adi hal olduğunu bildirirdi. Müəllif daha sonra ziddiyyətli bir fikir irəli sürürdü ki, müsəlman dini liderlərinin göz yumduğu erkən evlilik "müsəlman ailə təcrübəsinə, əxlaq prinsiplərinə" ziddir ("*По адресу мусульманского духовенство",* 1895: 3). Müəllif ikrah hissi ilə bu işlərə dəstək olan mollaları tənqid atəşinə tutur, "erkən evliliyə" icazə verdiklərinə, kəbinləri kəsdiklərinə görə onları mühakimə edirdi. O təkcə mollaları tənqid etməklə kifayətlənmirdi və heç bir əxlaqa sığmayan erkən evliliyə rəvac verən valideynləri də qınayırdı. Müəllifə görə belə evliliklərə icazə verməklə, valideynlər azyaşlı qızlarına qayğı göstərməkdən sanki imtina edirdilər. Müəllif belə evliliklə bu qızlara verilən dəhşətli əzab-əziyyətdən bəhs edirdi, çünki bu yaşda hamilə olan qızlar həm özlərinin, həm də dünyaya gətirəcəkləri uşaqların sağlamlığını risk altına alırdılar.

Ortodoks cəmiyyətlərindəki nisbi "sivil meyarlardan" bəhs edən müəllif, müsəlman cəmiyyətində molla və qız valideynlərini onlardan öyrənməyə səsləyirdi.

Əksəriyyət hallarda, istər müsəlman olsun, istərsə də ortodoks, Qafqazda valideynlər övladlarını həddi buluğa çatmış qız və oğlan hesab etdikdə onları evləndirirdilər. Bu da onların çox gənc yaşlarına təsadüf edirdi. Məsələn, XIX əsrin sonu, XX əsrin əvvəllərində xristian dininə sitayiş edən Kaxeti gürcülərinə görə, kişilər üçün ən aşağı nikah yaşı on beş, on yeddi yaş arası nəzərdə tutulurdu (O.O.Mtavriev, 1902: 149; Luzbetok, 1951: 67).

Həmin dövrdə çərkəzlərin yarısı xristian, yarısı isə islam dininə mənsub olsalar da, hamısı on altı, on yeddi yaşlarda nikaha daxil olurdular (В. В. Василков, 1901: 89; Д. Илин, 1868: 3). XIX əsrin ortalarında çərkəzlər kimi osetinlərin də arasında həm

islama, həm də xristianlığa mənsub olanlar var idi, lakin bu icmaların nümayəndələri də on üç və ya on dörd yaşlarında evlənirdilər ("*Религиозные обриаду Осетин, Ингуши I их сопленникон, при разнух случаях, Кавказ*", 13 Июль 1846: 112).

Eyni sözləri həmin dövr üçün islam dininə mənsub olan inquşlara da aid etmək olar, lakin müsəlmanlar, "tatarlar" yəni azərbaycanlılar on və ya on bir yaşında qızları ərə verir, on iki, on üç yaşlarında həmin qızlar ana olurdular (Audrey Altstadt, 1992: 15-26).

Azyaşlı qızların evlənməsi əleyhinə olan müəlliflər diqqəti müsəlman əhalinin üzərinə yönəldəndə dini amilləri əsas götürürdülər. Qafqazda evlənmə yaşı xalqlara, icmalara və hətta kəndlərə görə dəyişə bilirdi, lakin mövcud faktlara rəğmən, tarixçi və etnoqraflar eyni təcrübəyə malik xristian və müsəlmanlar haqqında müxtəlif yazılar verirdilər. "*Kavkaz"* qəzetində xristian osetinlərinin həyatından bəhs edən məqalədə qeyd edilir ki, "əvvəllər osetinlər də erkən evliliyin tərəfdarları idilər - oğlanları səkkiz yaşında evləndirirdilər". Müəllif həmin məqalədə yazır ki, bütün bunlar xrsitianlıqdan gələn təcrübədir. "Varlı osetinlərin uşaqları on dörd yaşında evlənə bilirlər, çünki onların başlıq pulu vermək imkanı var, lakin kasıblar on yeddi yaşında oğlanlarını evləndirirdilər, çünki onların bu imkanları yoxdur". Müəllif öz əsərində başlıq puluna görə kasıb ailələrin oğlanlarının gec evlənməyə və ya qız qaçırmağa məcbur olduqlarını qeyd edir. Müəllif bu əsərində xristianlığın osetinlərin həyatına təsirindən də yazır.

Dövlət qəzet və jurnallarında Qafqazdakı valideynlərin öz övladları ilə sanki mülkiyyət kimi davranmalarından və ataların ailə üzərində tam hökmranlıq etmələrindən tez-tez yazırdılar. Evlənmək üçün valideynlər gənclərə heç bir seçim imkanı vermirdilər. Atalar qızlarını bir evin qulluqçuluğundan daha ağır şərtlərlə digər evə qulluçuluq etməyə yola salırdılar ("*Народное право Осетин*", ССКГ*,* 1872: 189). Bu kimi yanaşmalar o dövr üçün

xarakterik idi və hətta Rusiyanın ucqar kəndlərindəki insanlar, analoji hallarda övladlarına qarşı münasibətdə bu cəmiyyətlərdən daha proqressiv idilər.

Qafqazda qız və oğlanlar nadir hallarda ailə quracaqları insanları evlilikdən əvvəl görə bilərdilər. Əgər belə bir şey baş verirdisə, bu yalnız gizlin şəkildə həyata keçirilə bilərdi (Beatrice Farnsworth, 1992: 89-106).

Məsələn, Osetiyada belə məsələlərdə oğlanlar da qızlar qədər əziyyət çəkirdilər, belə ki, oğlanlar da evlilik zamanı gələndə atalarının arzusundan, seçimindən asılı vəziyyətdə olurdular ("*Народное право Осетин*", ССКГ (1872): 189). Cantəmir Şanayev Osetiyadan olan valideynləri haqqında eyni fikirləri bölüşərək yazır ki, "evlilik zamanı gəldikdə qızlar valideynlərinə öz seçimləri haqqında heç bir söz deyə bilməzdilər", "valideynlərin övladlarının fikrini soruşmaq heç ağıllarına da gəlmir" (Джантемир Шанаев, 1870: 7-8).

Bu kimi hallar bütün Qafqaz müsəlman əhalisinin ailələrində baş verirdi. Zaxarovun yazdığı kimi, "ailələrdə gəlini ata seçir, oğulun ona etiraz etməsi ağlına da gəlmir". Atanın seçimini müzakirə etmək qəbul edilməyən və yersiz hal kimi qiymətləndirilirdi (А.Захаров 1894: 125). Atalar qız övladlarının toyunu, evlənməsini öz arzu və istəklərinə uyğun təşkil edirdilər və qızlar buna etiraz etməyi düşünmürdülər.

Adətlər istər böyük şəhərlərdə, istərsə də, ucqar kəndlərdə demək olar ki, eyni cür idi. Bir çox mənbələrdə Bakıda tanımadıqlarına zorla ərə verildiklərinə görə intihar edən qızlardan bəhs edilir. Valideynlərin övladlarının gələcəkləri barədə planlaşdırdıqları söhbətdə nə gələcək "ər", nə də gələcək "arvad" iştirak etmirdi. Ailədəki qadın və uşaqlar hər mənada atanın əmrinə tabe edilirdi (Николай Клашев, 1886: 131).

Yuxarıda qeyd olunan mənfi hallardan o dövrün dövlət nəşri olan SSKG-də çox yazırdılar. Məsələn, 1870-ci ildə Şimali Qafqazda Zəlmə Çexşa qızı adlı əlli beş yaşlı dul qadın intihar

etmişdi, çünki onun qardaşı onu zorla ərə vermək istəyirdi (“*Из горци криминалистики*”, ССКГ*,* 1870: 83). Əslində, Zəlmənin qardaşı atasının istəyini yerinə yetirirdi, bunu ona atası tapşırmışdı. Bundan başqa da Qafqazda bir sıra intiharlar baş verirdi. Məsələn, Dargin rayonlarında belə hadisələr tez-tez baş verirdi. Ana oğlu Alay Əhməd oğluna istədiyi qızla evlənməyə icazə vermədiyi üçün oğlu intihar etmişdi (“*Из горци криминалистики*”, ССКГ*,* 1870: 7, 8).

Dövrün müəllifləri bütün bu intiharların kökündə zamanı keçmiş adətlərin dayandığını iddia edirdilər. Onlara görə, “...adətlər məcbur edirdi ki, qızlar valideynlərinin iradəsinə tabe olsunlar”.

Ailə üzvlərinin müstəqil arzusu ola bilməzdi, çox vaxt onlar ailə başçılarının qurbanına çevrilirdilər. Mətbuatda nə qədər alternativ evlilik təcrübəsindən yazılsa da, heç bir Qafqaz ailəsi öz adətlərinə alternativ görmürdü. Cavan oğlan qız qaçırır, hətta qız zorlanma aktına məruz qalır, lakin Qafqaz cəmiyyətində həmin qızın haqqını müdafiə etmək əvəzinə, qızı zorla həmin insanla evləndirirdilər, çünki bunu vəziyyətdən yeganə düzgün çıxış yolu kimi görürdülər. Hətta bunu bəyənənlərin və rahat bəraət qazandıranların sayı, zorakılıq halını pisləyənlərin sayından qat-qat çox olurdu. Oğlanı qız qaçırmağa, qız evinə verilən başlıq pulu adəti məcbur edirdi. Bəzən, bu başlıq o qədər çox olurdu ki, qızla evlənmək istəyən kişinin ömrünün sonuna qədər bu başlığı vermək imkanı olmurdu və son ümidi onu qaçırtmaq olurdu. Qızı oğlan tək qaçırmır, ona bu işdə dostları yardım edirdilər. Bəzən, qızı qaçırmağı oğlan arzuolunmaz evlilikdən qurtulmaqdan ötrü edirdi və onlar istədikləri qızı qaçırmağa məcbur olduqlarını əsas kimi gətirirdilər. Bəzən də, qız qaçırmanın həmin qızın yardımı olmadan icra etmək qeyri-mümkün olurdu.

Zaxarov Azərbaycanlı ailələrdə də belə hallara tez-tez təsadüf edildiyini yazır, “qızlar da sevdikləri oğlanların onları qaçırması üçün şərait yaradırdılar ki, istəmədikləri gənclə ailə qurmasınlar”. O öz gözləri ilə gördüklərini belə qələmə alır, “mən dava

görmüşəm ki, atası və qardaşları qaçmağa təşəbbüs göstərən qızı o qədər döyüblər ki, qız qanına qəltan olub, lakin yenə də onu istədiyinə verməyiblər" (A.Захаров, 1894: 130). Zaxarova görə evlilik seçiminin olmaması ucbatından bu zorakılıqla nəticələnir.

Bundan başqa yuxarıda bəhs etdiyimiz kimi, oğul evləndirən ailənin evlənəcək qızın ailəsinə verməli olduğu yüksək başlıq pulu da qız qaçırma hallarını çoxaldırdı. Osetiyadakı dostunun dediklərinə isnad edən C. Baddeli "kalım ağırlığı"ndan bəhs edərək qeyd edir ki, "kasıb insanın 500 rublu olmasaydı, evlənmək onun üçün imkansız bir məsələ kimi qalırdı və o evlənəndə köhnə dəblə (qız qaçırtmaqla) evlənməyə məcbur olurdu" (Baddeley, 1940-41: 75). Baddeli öz əsərində bu kimi halları tənqid etsə də, belə halları aradan qaldırmaq üçün çıxış yolu göstərməkdə aciz qalır. Bunların tam əleyhinə olmasını dilə gətirsə də, Rusiyanın bu vəziyyətə necə təsir edə biləcəyini də aydın göstərmir.

Həmin dövrün müəllifləri poliqamiya təcrübəsini müsəlmanlar üçün böyük bir problem olduğunu qeyd edirdilər. Bu problemlə üzləşən müsəlman qadınları çox pərişan olurdular, boşanmaya cəhd göstərirdilər və hətta intihar hallarına da təsadüf edilirdi ("Народное право Осетин, ССКГ, 1871).

O dövrün çox məşhur qəzeti olan "*Kavkaz"*da dərc edilmiş məqalədə yeni doğulan qız uşaqlarının öldürülməsindən bəhs edilir. Məqalədə müsəlman qadınlarının həyatı haqqında yazılır ki, müsəlman qadınların ərlərinin (poliqamiya da daxil olmaqla) onlara qarşı tətbiq etdikləri sərt rəftardan qurtuluş yolları yox idi. Belə ki, "onlar ərlərinin qulu idilər və onlardan başqa ərlərinin iki və ya üç arvadı olurdu", ərləri onların hamısını "sevirdi". Ərlərinin rəftarından narazı qadınlar "onlarla heç vaxt mübahisə edə bilməzdilər". Müsəlman ailələrinin strukturuna baxmaqla, qadınların danışmaq haqqı olmadığına əmin olursan. Məqalə müəllifi iddia edirdi ki, yeni doğulmuş qız uşaqlarını bu səbəbdən öldürürdülər, çünki analar onların da gələcək həyatlarının belə olma-

sından əndişələnirdilər.

Bütün bu əməlləri törədən müsəlman kişilər davranışlarına islam dini ilə bəraət qazandırmaq istəyirdilər. Müsəlman ailələri əsasən şəriət qaydaları ilə idarə olunurdu. *Novoe Obezrenie* toplusunun müxbiri iddia edirdi ki, müsəlmanlara görə "Quranda yazılıb ki, hər kişi dörd arvadla eyni vaxtda evlənib yaşaya bilər" (Н. Г.-н', "*Положение мусульманских женшин*," Новое Обезрение*,* 15 Апрель, 1892:3).

Bəzən Qafqazda yaşayan xristianların da arasında bir neçə arvadı olan kişilərə rast gəlmək olurdu. Müəlliflər bunu islam dininin təsiri kimi qiymətləndirirdilər. Bu hala ən çox xristianlığı qəbul etmiş osetinlər və inquşlar arasında təsadüf edilirdi. Onlar düşünürdülər ki, kiminsə bir neçə arvad saxlamaq imkanı varsa, onda poliqamiyada heç bir qəbahət yoxdur. Yenicə xristian dinini qəbul etmiş osetin və inquşlar nəyin islama görə, nəyinsə xrsitianlığa görə düzgün olduğunu dərk etmirdilər. Özlərinə sərfəli olan hər bir adəti həyatlarına daxil edirdilər. Qadınlar arasında intihar hallarının çoxalmasının başlıca səbəblərindən biri də poliqamiya idi.

Həmin dövrün intihar hallarının statistikasına nəzər salsaq, Avropadakı qadın intiharlarının sayı Qafqazdakı qadın intiharlarının sayından qat-qat az idi. Dövrün qabaqcıl insanları bunun əsas səbəbini ailənin patriarxal quruluşunda və poliqamiyada görürdülər. Məqalə müəllifi E.Stalinskiyə görə, 1860-cı ildən 1871-ci ilə qədər olan intiharlara aid statistik məlumata əsasən Qafqazda kişi intiharı ilə qadın intiharının faizi bərabər idi, lakin Fransa və Prussiyada intihar edən kişilərin faizi qadınlardan daha çox idi. Qeyd olunan on bir il ərzində Tiflisdə əlli səkkiz kişi intihar etdiyi halda, həmin dövrdə altmış qadın intihar etmişdi (E.Сталински, 1871: 274).

Çox vaxt müəlliflər bu dramatik intiharlar islamın təsiri və Qafqazın xaotik mədəniyyəti ilə əlaqələndirilirdi. Rus kişiləri qadınlara qarşı daha yumşaq və rəhmli rəftar edirdilər. Dövri

mətbuatda gedən yazılara görə rus kişiləri nikahda olduqları qadınlarla mərhəmətli və nəzakətli davranırdılar. Müsəlman kişilərə onlardan nümunə götürməyi məsləhət görürdülər (yenə orada).

O dövrün tədqiqatçıları Qafqaz xalqlarının nikah problemlərinin həllini – erkən evliliyə son qoymaqda, evlilikdə tərəflərin öz seçimlərinə imkan yaratmaqda, sevgi əsasında nikaha daxil olmaqda və vaxtı keçmiş adətlərdən imtina etməkdə görürdülər. Bəziləri isə ailədəki bütün bu qabalıqların səbəbini ailəni şəriət qaydaları ilə idarə olunmasında və ailənin patriarxal strukturunda görürdülər. Hətta müsəlmanlara xristian ailələrində olan mülayim rəftar şəraitində qarşılıqlı hörmət prinsiplərini tətbiq etməyi məsləhət görürdülər. Qafqazlıların gündəlik həyatındakı adətlərin rus adətləri ilə uyğunlaşmasını nicat yolu kimi görənlər var idi. Qafqazdakı xalqlar, etnik qruplar "sivilizasiya" yolunu seçməsələr, bütün yuxarıda deyilənlər qeyri-mümkün olardı. Müsəlman müəlliflərinin bəziləri (Abdulla Ömərov və Cənnət-Baği) Qafqazın müsəlman əhalisinin adətlərinə qarşı çıxırdılar və hətta bəzi adətləri vəhşilik adlandırırdılar. Onlar ailədə qadınlarla qul kimi rəftarın kökündə cahilliyin dayandığını qeyd edirdilər. Poliqamiya, erkən evlilik kimi məsələlər həllini gözləməyən, insanların mənəvi durumunu dözülməz hala gətirən məqamlar idi. Qafqaz qadınları onlara edilən zülmə qarşı sussalar, heç bir müqavimət göstərməsələr, özlərini qul kimi aparsalar, onlara qarşı tətbiq edilən bu despotizmin sonu olmayacaqdır.

Tarixçi V.O.Bobrovnikovun sözlərinə görə Qafqaz icmalarında "məsuliyyət şərəfin, ictimai firkin və qana qan tələbinin" üzərinə düşürdü. Qafqaz adətlərinə görə "intiqam almaq üçün məsulliyət öldürülənin, incidilinənin kişi qohumlarının üzərinə" düşürdü. Atalar öz övladlarına söyləyirdilər ki, "onlar nə olursa olsun, qan intiqamını unutmamalıdırlar" və bunu etməklə onlar "ailənin şərəfini qoruyurlar" (В.О.Бобровников, 2002: 56-57). Qan intiqamı Osetiya əhalisi və digər qafqazlılar üçün əsas qanun idi.

Qan davasında intiqam almaqla, sanki Qafqaz ailələri öz şərəflərini qoruyurdular. Onlar qan davası düşmənlərindən intiqamı ya birbaşa təqsiri olan insandan və ya onun ailə üzvlərindən intiqamlarını almaqla yerinə yetirirdilər (Yenə orada). Qafqaz ailələri öz icmalarının qoyduqları qayda-qanunla qan davası intiqamını həyata keçirirdilər. Onlar qan davasında intiqamlarını aşağıdakı şəkildə alırdılar: öldürmək, adam oğurlamaq, zorlamaq (hətta azyaşlı oğlan uşaqlarına qarşı da utandırıcı seksual aktlar törədə bilərdilər), arvad üstünə günü gətirmək, qız qaçırmaq, təhqiramiz sözlərlə söyüş söymək, oğurluq və torpaq davası və s. üsullarla qan davasını həyata keçirirdilər (Максим Ковалевски, 1890: 297). Bütün bu edilənlər "təkcə ayrı-ayrı insanları deyil, həmçinin onun qohumlarını da ləkələyirdi".

Bəzən Qafqazdakı qan davaları əndazədən çıxırdı, belə ki, intiqam alma formalarının içərisində bütün nəsli, bütün əqrabanı kənddən-kəsəkdən, dədə-baba yerlərindən sürgün edirdilər və ya bütün nəsli qırıb tökürdülər. Bütün bunlar, "şərəf və ləyaqəti təmizləmə" üsulu idi (Максим Ковалевски, 1890: 297). Əgər edilən xətalar yüngül olardısa, o zaman qan davası cərimələr ödəməklə bağlana bilərdi. Bəzən qan davasını qohum olmaqla da bağlayırdılar, məsələn, qarşı tərəfdən qız qaçırmaqla da məsələni həll edirdilər.

Müəlliflər qeyd edirlər ki, çar məmurları və elitası qan intiqamının qafqazlıların keçmiş adətlərindən irəli gəldiyini söyləsələr də, bəzi hallarda, bunun həqiqət olmadığını da deyirdilər. Onların fikrincə, bu dövrə qədər gəlib çıxan qan davalarının tarixi tam fərqli olub. Onlara görə əvvəllər qan davası Qafqaz adətlərinin əsasını təşkil etməmişdir, əksinə onlar elə hesab edirdilər ki, bu fars və osmanlı imperiyalarının Qafqazı istilasından sonra ortaya çıxan adətlərdəndir (yenə orada). Əslində, islama görə qan tökmək günah idi və bu, islamda pislənirdi. Qafqazdakı qan davaları buradakı kriminal vəziyyəti çox ağırlaşdırdığı üçün çar məmurları qafqazlıları qan davası adətindən çəkindirmək və ya

imtina etməyə razı salmaqdan ötrü yollar axtarırdılar. Hətta bu kimi adətlərə qarşı çox ciddi ölçülər götürmək istəyirdilər. "*Novoye obozreniye*" qəzetində bu tipli məlumatlar tez-tez verilirdi. Rus müəllifləri bu işi törədən Qafqaz kişilərini kəskin tənqid atəşinə tuturdular.

Bir məsələni də qeyd etmək lazımdır ki, qan davası zamanı qadın və uşaqlar çox əziyyət çəkirdilər. Belə ki, bu insanlar bilavasitə cinayətin qurbanı olurdular (uşaq oğurluğu, qız qaçırılması, arvadların üstünə günü gətirilməsi və s). Bütün bunlar onsuz da çətin şəraitdə yaşayan uşaq və qadınların vəziyyətini daha da ağırlaşdırırdı, həyatı dözülməz edirdi.

Çar məmurları Qafqaz kişilərini qan davasından çəkindirmək üçün əsas diqqəti bu xalqların keçmişinə yönəltməkdə görürdülər və onlar qan davası adlı bir adətin mövcud olmadığı "əsl" Qafqaz tarixini ortaya qoymaq istəyirdilər. İslamı hər mümkün fürsətdə gözdən salmağa cəhd edən çar məmurları qafqazlıları başa salmağa və onlara anlatmağa çalışırdılar ki, islama qədərki dövrlərdə belə adətlər mövcud olmamışdır.

Tarixçi Austin Cersild iddia edirdi ki, Fars və Osmanlı imperiyalarından miras qalan bu adətlər Qafqazda çar Rusiyasının siyasətinə əməlli-başlı əngəllər törədirdi (Austin Jersild, 2002). Rus, qeyri-rus elitası və çar məmurları qan davasından bəhs edəndə, bu məsələyə öz mədəniyyətləri prizmalarından yanaşırdılar və hesab edirdilər ki, kişilik və şərəf anlamı kimi gündəmdə olan qan davası heç kimsəyə xeyr gətirən bir adət deyildir. Əksinə, cinayətin qan davası ilə deyil, hakimlərin, hüquqi addımların köməyi ilə həll etmək daha faydalıdır. Əgər qafqazlı üçün qan davası nizam-intizamın bərpası, kişiliyin sübutu, ailə şərəfinin qorunması idisə, çar məmurları üçün bu qabalıq və vəhşilik əlaməti idi. Çar məmurlarına görə bu qan intiqamı, elə Qafqaz adətlərində ədalətin olmaması demək idi.

Qan davası və buna görə intiqam almaq məsələsinin təhlili Qafqaz cəmiyyəti ilə çar məmurları arasındakı dialoqun əsasını

təşkil edirdi və bu adətin Qafqaz adətləri arasında mərkəzi yer tutması çar məmurlarının qəzəb və etirazına səbəb olurdu. Bəzən, "*cinayət sizin üçün nədir*?"- sualının müzakirəsi konfliktlə nəticələnirdi.

Qafqaz xalqları üçün qan davası maskulinliyin əlaməti hesab olunduğu halda, çar imperiyası üçün bu təcrübə şəxsi ləyaqətin və maskulinliyin əksi kimi qiymətləndirilirdi. Qafqaz kişisi bu təcrübəni davam etdirirdi, bununla da, cəmiyyətin ailə şərəfinin və maskulinliyin qorunması ideyasını dəstəkləyirdi. İstər-istəməz bu ideya çar Rusiyasının maskulinlik və ləyaqət anlamına qarşı çıxırdı. Bir cəmiyyət üçün ədalət kimi anlaşılan adət digəri üçün kriminal anlama gəlirdi.

Bütün yuxarıda deyilənləri təhlil edəndə istər rus, istərsə də, qeyri-rus  müəlliflərin əksəriyyətinin çar siyasətini dəstəklədiklərinin və qan davasının kriminal olması ideyası ilə razılaşdıqlarının şahidi oluruq. Cersildin əsərində göstərildiyi kimi dövrün mütəfəkkir fikirli müəlliflərin hamısının bu adətin (qan davası) cəhalət olduğunu dərk etdiklərini və qan davasını Qafqaz xalqları üçün fəlakət olduğunu iddia edən çar siyasətinin daha düzgün olduğunu təsdiq etdikləri aydın görünür. Bütün bu adətlərin qafqazlıların gündəlik həyatına necə  təsir etdiyini müəllif öz əsərində kifayət qədər işıqlandırır və çar siyasətinə bəraət qazandırır.

Beləliklə, islamın gücündən çox qorxan və onun Qafqazda real təsirini hiss edən imperiya qüvvələri bu bölgədə apardıqları siyasətin yönünü dəyişdirməyə, bu zamana qədər aparılan siyasəti bir də nəzərdən keçirməyə məcbur oldu.

Onlar bütün bunları yenidən təhlil etmək, Qafqaz kişisinin bunların öhdəsindən necə gəldiyini rasional şəkildə öyrənmək, imperiyanın bu sahə ilə bağlı siyasətindəki ziddiyyətləri aradan qaldırmaq barədə araşdırmalar aparmaq zərurəti yaranmışdı. Ləyaqət və maskulinlik məsələsi bu insanların gündəlik həyat tərzinin bir hissəsi olduğu üçün bu barədə dərin təhlillərin aparılması vacib şərtlərdən idi.

Çar Rusiyasının qan davasının aradan qaldırılmasında və yerli qafqazlıların “sivilləşdirilməsi” siyasətində uğur əldə etməsi çox çətin məsələ idi. Bu uğuru qazanmağa mane olan başlıca problem idarəçilikdə olan məmurların Qafqaz adət-ənənələrini, Qafqazda kişilik anlamını və qan davasını tam dərk edə bilməmələri idi. Onlar qan davası ilə əlaqəli verilən hökmə heç bir bəraət qazandıra bilmirdilər. Elə bu səbəbdən də, çox vaxt onlar yerlilərə güzəşt etməyə məcbur olurdular, çünki onlarla heç cür razılıq əldə edə bilmirdilər. Verdikləri hökmün tətbiqində çətinlik çəkirdilər və buna səbəb əlbəttə, yerlı nüfuzlu adamları narazı salmamaq istəyi idi. Onlar xüsusilə, də seksual təbiətli cinayətlərin istintaqında tərəddüd edirdilər və çox vaxt seksual zorakılığa məruz qalmış biçarə qadınları elə bunu törədən zalım kişilərin hakimliyinə buraxırdılar. Onlar qanunu əsas götürmək əvəzinə, kənd ağsaqqalları ilə məsləhətləşirdilər, münaqişəli situasiyalarda nüfuzlu adamlarla dialoqa girirdilər, münaqişə ilə əlaqəli adamları dindirirdilər, qan davasını aradan qaldırmaq üçün zərərçəkənə təzyiq göstərib, onu razı salmağa və bununla da, qan davasını aradan qaldırmağa cəhd göstərirdilər.

Ara-sıra əldə olunan güzəştlər sona çatdırılmırdı və bu zaman onlar yerlilərlə danışıqlarını kəsirdilər. Bəzən elə olurdu ki, çar məmurları bu məsələlərin həllini qafqazlıların ixtiyarına vermirdi və özləri birbaşa bu problemlərdən çıxış yolu üçün axıra qədər səy göstərirdilər. Onlar ailələr arasında zorla razılıq əldə edirdilər və qan davasını davam etdirən kişiləri həbs edirdilər. Çar Rusiyası qan davasına qarşı daha kəskin mövqe nümayiş etdirirdi, çünki qan davası daha çox cinayətə aparıb çıxarırdı. Bəzən çar məmurları imperiya qanunlarını yerli qanunlara uyğunlaşdırmağa çalışır, yəni qanunun hibrid formasını modifikasiya etmək istəyirdilər, çünki onlar qan davasına mütəmadi qətl hadisələrindən daha fərqli bir hal kimi baxırdılar.

**Ailə məsələlərində çarizm siyasəti.** Qafqazda ortodoks və islam din rəhbərləri, çar məmurlarına nikah məsələlərini yer-

li adətlərə uyğun şəkildə həyata keçirmək üçün təsir edirdilər (Robert D. Crews, 2009: 33). Aşağıda göstərilən erkən evlilik hadisəsi çar məmurlarının bu məsələdə nə qədər "güc" sahibi olduqlarına yaxşı misaldır. 1838-ci ildə Eristov (prins) və Anni Melikova (prinsesa) arasındakı erkən evlilik haqqında yuxarı vəzifələrdə işləyən məmurlar xəbər tuturlar və onlar din xadimlərini bu işə baxmağa məsul edirlər. Gürcüstanın Ekzarxı Qafqaz baş kommissarı Qreqor fon Rosenə məlumat verir ki, "imperiyanın gürcü dini rəhbəri məruzə edib və erkən evliliyin səbəbi haqqında xəbər verib" və bundan sonra çar məmurları bir söz demirlər. Ekzarx çar məmurlarına da məruzə göndərməklə, onları prosesə daxil etsə də, onların razılığını önəmli hesab etmir. Çar məmurlarının təcrübəsinə görə yüksək vəzifəli məmurlara dini rəhbər nə məsləhət versə, məsələ bununla da bitmiş hesab edilir. Onlar bu məsələlərdə dini rəhbərləri narazı salmaq istəmirdilər və onların çıxardığı qərara zidd getmirdilər. Erkən evlilik bu məmurlar üçün o zaman problem yaradırdı ki, qız qaçırılsın və qızı qaçıran kişi onunla evlənməkdən imtina etsin. Yalnız bu hallarda məsələ ciddi şəkil alırdı. Çar imperiyası dövründə görə evlilik məsələsi dini məsələ olduğu üçün bu işlə də din xadimləri məşğul olmalı idilər. Həm müsəlman dini liderlərinə, həm də gürcü-rus ortodoks dini rəhbərlərinə evlilik məsələləri ilə bağlı bütün sahələrdə müstəqil qərar vermək hüququ verilmişdi. Çar məmurları əksər hallarda bu məsələlərlə bağlı konfliktlərə qarışmırdılar.

Gürcüstanın imperiya tərəfindən təyin edilmiş dini rəhbərləri Qafqazda (həm ortodoks, həm də müsəlman) bu kimi məsələlərin həlli üçün məsul idilər (Robert D. Crews, 2002: 16).

Yuxarıda bəhs etdiyimiz məqamlarla çar məmurları demək olar ki, məşğul olmurdular və dini rəhbərlər bu məsələlərə o zaman qarışırdılar ki, yuxarılara şikayət olsun, əks halda, heç dini rəhbərlər də belə konfliktlərə qarışmırdılar. Əksəriyyət hallarda, dini rəhbərlərin çıxardığı qərarları yuxarılar qeyd-şərtsiz qəbul edirdilər (Gregory Freeze, 1990: 709).

Dini məmurlara görə leqal və qeyri-leqal evlilik aşağıdakı kimi təyin edilirdi: Xristian əhalisi evlilik yaşını on altı yaş təyin etmişdi və hər iki tərəf razılıq verirdisə, cütlük rəsmi şəkildə ruhanilər tərəfindən evləndirilirdi. Bu qərar çar Rusiyasının 1830-cu ildə qəbul etdiyi qanuna görə Qafqaz əhalisi üçün də (xüsusilə də Qafqaz xristianları) təsdiqlənmişdi. Lakin bu hər zaman belə olmurdu və evlənmə təyin edilən yaş həddindən bir az aşağı yaş həddində baş verirdisə, çox vaxt bunları da tərəflərin razılığı əsasında rəsmiləşdirirdilər. Ortodoks qanunları poliqamiyanı, qız qaçırma hallarını dəstəkləmirdi və çox zaman belə hallarda evliliyi rəsmiləşdirmək mümkün olmurdu (William Wagner, 1994: 62; Laura Engelstein, 1992: 36).

Qafqaz əhalisinin xristian təbəqələri arasında nadir hallarda poliqamiyaya təsadüf olunurdu. Ortodoks hər zaman bunun əleyhinə idi və heç vaxt bunu dəstəkləmirdi. Çar Rusiyasının qanunlarına əsasən evlilik üçün hökmən 16 yaş tamam olmalı idi, bəzən erkən evlilik halları da baş verirdi. Bildiyimiz kimi müsəlman xalqları arasında azyaşlı uşaqları evləndirmək adi hal idi.

Ortodoks məmurlar da kişilərin ailədə başlıca rol oynaması ideyasını dəstəkləyirdilər və kişinin ailə başçısı olmasını öz siyasətlərində əsas tuturdular. Evdə qadının vəziyyəti kişinin iradəsindən asılı idi.

Çar Rusiyasının siyasəti ərin həm uşaqlar, həm də qadının üzərində nəzarətini dəstəkləyirdi. 1857-ci ildə imperiya qanunlarında "ailədə qadının ailənin kişisinə tabeçiliyi qanunla tənzimlənirdi və qadın öz əri ilə hörmət, məhəbbət və hüdudsuz tabeçilik çərçivəsində yaşamağı..." rəsmi şəkildə yazılırdı (Svod Zakonov, 1857: 62). Din rəhbərləri də yuxarıda göstərilən vəzifələrin qadınların yerinə-yetirməyini və bu vəzifələrin onların bilavasitə öhdəlikləri olması ideyasını təsdiqləyirdilər. Bu öhdəliklər qeyd-şərtsiz bütün Qafqaz xristianlarına şamil edilirdi.

Gürcü ortodoks məmurları erkən evlilik və qız qaçırma hallarına mənfi münasibət bəsləsələr də, çox vaxt bu məsələləri qabart-

mırdılar. Onlar ailəyə müqəddəs baxmağı tövsiyə edirdilər, lakin zorla qaçırılma halları baş verirdisə, tərəflər narazı deyildilərsə, o zaman bu məsələləri çox açıb ağartmırdılar. Gəlin və bəy izdivaca girməyə razılıq verirdisə, onlar bu evliliyə mane olmurdular. Tərəflərdən birinin razı olmadığından xəbər tutduqda, ortodoks məmurları bu izdivaca razılıq vermirdilər. Həmçinin onlar yaxşı anlayırdılar ki, Qafqaz qadını tək qalanda, onun cəmiyyət və ailədəki rolu risk altında olurdu.

Gürcü ortodoks kilsəsi ikiarvadlılığa və çoxarvadlılığa və ya qeyri-rəsmi evliliyə pis baxırdı, onlar bu kimi hərəkətlərin İncildə bəyənilmədiyini əhalinin nəzərinə çatdırırdılar. Ailəsinə qarşı sədaqətsizlik edənləri (kişilər nəzərdə tutulur) də pisləyirdilər, lakin bu səbəbdən boşanmanı da qəbul etmirdilər. Erkən evlilik, qız qaçırma kimi hallar İncildə pislənsə də, çox vaxt real həyatda buna göz yumurdular.

Qafqazda müsəlman din məmurlarının öz qanunları mövcud idi və onlar keçmişdəki kimi yaşamağı davam etdirirdilər. Bu ailələrdə ortodoks din məmurlarının pisləyib qəbul etmədiyi ikiarvadlılıq və çoxarvadlılıq hələ də davam edirdi. Bütün bu hallara çar məmurları səssiz qalırdı, çünki bu məsələlərə qarışsalar da, Qafqaz müsəlmanları dədə-baba yaşayışlarını davam etdirirdilər və çar qanunlarının dediklərinə məhəl qoymurdular. Beləcə də, çar məmurları uşaq və qadınların pozulan hüququnu tamaşaçı qismində müşahidə edirdilər. Bənzər hallar Qafqazdakı bütün müsəlman əhalinin arasında baş vermirdi. Məsələn, azərbaycanlıların ən tez evlilik həddi hələ də on iki yaş idi, lakin müsəlman olmalarina rəğmən, çərkəzlər üçün evlilik yaş həddi on yeddi idi (Luzbetok, 1951: 19).

Dini rəhbərlər poliqamiyaya dözümlü yanaşsalar da, qız qaçırma (xüsusilə də qızın rizası olmadan) və zorla evlənməni pisləyirdilər (Н.А.Караулов, 1908: 58). ortodoks dini liderləri kimi, müsəlman dini liderləri də qız qaçırmaya bəzən göz yumurdular. Çar məmurları Qafqaz müsəlmanlarının evlilik məsələlərində

daha loyal mövqe tuturdular. Onlar da bir çox konfliktli məsələlərin həllini dini liderlərin səlahiyyətinə buraxırdılar. Bəzi hallarda, çar məmurlarına gedən şikayəti kənd ağsaqqallarının köməyi ilə həll edirdilər. Beləliklə, Qafqaz adətləri hələ də qanun kimi qüvvədə idi və imperiya qanunlarına alternativ kimi (şəriət qaydaları) tətbiq edilirdi. Şikayətçilərin motivləri müxtəlif idi. Məsələn, şikayətlər qan davası əleyhinə ola bilərdi və düşünürdülər ki, kənd ağsaqqalı ilə çar məmurları birlikdə bu işləri yoluna qoya bilərlər. Çar qanunlarına çox ümid bəsləyən şikayətçilər əmin idilər ki, yerlərdə bu şikayətləri yoluna qoymaq üçün qanun mövcud olmasa da, ən azı çar qanuna görə qan davalarına son qoymaq mümkün ola bilərdi. Bir çox hallarda, çar məmurları edilən şikayətlərə baxmaq üçün şikyətçinin ərizəsini yenidən baxılmaq üçün yerli din xadimlərinə verirdi. Şikayətin səbəbkarı da kişi olurdu, şikayəti yoluna qoyan da. Elə buna görə də bu şikayətlər də çox vaxt kişilərin xeyrinə həll edilirdi, əsas məsələ ailənin şərəfinə ləkə salmamaq idi. Ailə şərəfinin qorunması faktı Qafqaz xristianları üçün də az önəm daşımayan məsələ idi.

Qafqazda yaşayan insanların həyat tərzindəki bir çox çətin məqamlar, xüsusilə qadınların sosial rolları, ədalət anlayışı kimi məsələlər ətrafında yerlərdə konflikt yaranırdı və bu da çar idarəçiliyində dəyişiklik etməyin vaxtının çatdığından xəbər verirdi. Əsas dəyişikliklər evliliklə bağlı məsələlərə edilməli idi. O dövrün arxivlərinə istinad edən alimlər bu konfliktlərin başlıca səbəbini çar idarəçiliyindəki ikili standartlarda görürdülər, necə deyərlər, yazılan qanunlar ilə reallıq arasında dərin fərqlər mövcud idi. Bu alimlərin fikrincə, çar üsuli-idarəsi altında Qafqazda yaşayan xalqların üzləşdiyi konfliktlər gündən-günə çoxalırdı və şikayət ərizələrinin sayı durmadan artırdı. Təqdim edilən şikayət ərizələrinin əksəriyyəti evliliklə əlaqəli məsələlərlə bağlı olurdu. 1828-ci ildə şahzadə Çelıkayev çar məmurlarını xəbərdar etmişdi ki, Jas adlı bir kəndli iki qadınla eyni vaxtda evlənmişdir. 1855-ci ildə Usta adlı müsəlman kişi çar məmurlarına xəbər vermişdi

ki, bir qadın güclə ərə verilmişdi. O, çar məmurlarından bu işə qarışmağı və bu işi ədalətlə həll etməyi xahiş edirdi. 1856-cı ildə kəndin Nikolay adlı keşişi çar məmurlarına Mingerli şahzadəsinin qeyri-qanuni evliliyini araşdırmağı xahiş etmişdi və məlumat vermişdi ki, şahzadə bu qızı güclə qaçırmışdı (ССЦСА, фонд16, опись 1, дело 5757; фонд 4, опись 3, дело 891; фонд 4, опись3, дело 575; фонд 4, опись 3, дело 786.). O dövrün mətbuat və ədəbiyyatına nəzər salanda, bir daha əminlik yaranır ki, Qafqazda yaşayan insanlar çar məmurlarına ən çox evliliklə əlaqəli şikayət ərizələri yazırdılar. Çar məmurlarına şikayətlər, Qafqazın müsəlman əhalisi yaşayan yerlərindən daha çox ünvanlanırdı. O dövr müəlliflərinin iddialarına görə Qafqazın xristian əhalisindən gələn şikayət ərizələrindən məlum olurdu ki, bölgədə müsəlman adətlərinin xristian əhalisinə təsiri mövcud idi.

Yerli əhali evliliklə əlaqəli narazılıqların çoxunun çar məmurları tərəfindən yoluna qoyulacağını və bu sahələrdə dəyişikliklər ediləcəyini ehtimal edirdi və onlar fikirləşirdilər ki, şəxsi narazılıqlar bununla da azalacaqdır. Onlar düşünürdülər ki, çar məmurlarının səyi nəticəsində qafqazlıların həyatında dəyişikliklər etmək mümkündür və gözləyirdilər ki, şikayətlərinin həlli üçün daha ciddi addımlar atılacaqdır. Onların şikayət etdikləri məsələlər azyaşlıların evlilikləri, zorla evlilik, evlilik zamanı seçmə imkanı yaratmamaq, qız qaçırma, çoxarvadlılıq və ikiarvadlılıqla əlaqədar idi. Bəzən, ailə şərəfi və onun bərpası ilə əlaqəli məsələlər də şikayətlərin hədəfində olurdu.

Göründüyü kimi, çar məmurları qafqazlılara lazım olan ədaləti, onların ehtiyac duyduqları haqları vermək iqtidarında deyildilər. Onların ədalətsizlikləri aradan qaldırmaq bacarıqlarının zəifliyi, hadisələri təhlil etmə istəklərinin olmamasından irəli gəlirdi.

Çar məmurları şikayətlərə dövrün siyasətinə uyğun olaraq yanaşırdlar. Bu siyasət isə çox sərt idi. Çarizmin siyasətində qan davasını ləğv etmək istəyi var idi, lakin buna alternativ qanun-

lar mövcud deyildi. Qadınların problemləri ilə bağlı şikayətlər də bu qəbildən idi. Qadınların haqlarının pozulması ilə əlaqəli saysız-hesabsız ərizələrə obyektiv yanaşma mövcud deyildi, çar məmurları bunların ədalətli həll etmə yollarını axtarıb tampaq istəmirdilər. Bu səbəbdən də, qadın hüquqları və onlara qarşı tətbiq edilən zorakılıqla əlaqəli bir çox ərizələrə çar məmurları baxmırdılar. Onlar bu şikayətlərə baxmağı Qafqaz icmalarının öhdəsinə buraxmaqla vəzifələrini bitmiş hesab edirdilər. Qafqaz icmaları isə bu problemləri kişi tərəfkeşliyi ilə yoluna qoyurdular. İstənilən halda yazılan şikayətlər çox vaxt ərizə verənin gözlədiyi kimi nəticələnmirdi və bəzən şikayət ərizəsi yazmaq cəhdləri, ailədə daha acı nəticə ilə bitirdi. Şikayətlər yalnız ölüm hallarından bəhs edildiyi halda ciddi xarakter daşıyırdı.

Aşağıda göstərilən iki hadisə bir daha təsdiq edir ki, qafqazlılar mövcud problemlərin həllində çar məmurlarına az ümid edirdilər. İki qohum kişi, erməni əsilli Baqdasar Həsən Calamyan və C.Mədətov 1845-ci ildə yüksək çinli çar məmurlarına qadın qohumlarının evlilikləri barədə şikayət ərizəsi ilə müraciət edirlər. 1843-ci ildə Mina-Xanımın qızı Sofi anasının razılığı ilə hərbçi Mirzoyevlə evlənmişdi. Əmisi isə atasının hələ sağlığında Sofinin Armiçiski bəyə nişanlandığını iddia edirdi. Onun iddiasına görə qızın atası ölməmişdən əvvəl qızını bu bəyə nişanlamışdı (SSC’SA, fond 4, opis’ 3, delo 891). Konflikt Mina-Xanımla qaynı arasında Sofinin Mirzoyevlə evlənməsinə görə başlamışdı və onlar buna görə yüksək çinli çar məmurlarına şikayət etmişdilər. Calamyan isə çar məmurlarına şikayətində bildirmişdi ki, imperiya qanunlarına görə nikah böyüklərin xeyir-duası və gənclərin seçimi ilə olmalıdır. Çarın Qafqaz nümayəndəsi Mixaıl Vorontsov isə iddia edirdi ki, qızın əmisinin yazdığı ərizədə qaldırdığı şikayət əsasdır, çünki Sofi və Mirzoyev arasında bağlanan nikah qeyri-qanuni hesab edilə bilməz. Məhz, Mina-Xanımın razılığı ilə bağlanan nikah qanunidir. Digər tərəfdən, qaynının Mina-Xanım “rəhmətlik ərinin vəsiyyətini yerinə yetirməmişdir” iddiası

qəbul edilə bilməz, çünki qızın atasının razılığı və vəsiyyəti ilə deyil, öz razılığı ilə Mirzoyevə ərə getməsi əsas götürülməlidir. Calamyan erməni evlilik adətlərinin də onun iddiasını dəstəklədiyini yazırdı. "Valideynlər qızı seçirlər", qızla nişanlı olan bəy isə onun yalnız adını və gözəl olduğunu bilirdi. Nişanlısı kimi bəy də "valideynlərinin seçiminə etibar edir və əgər valideynlər rəhmətə gediblərsə, o zaman ən yaxın qohumlar bəy üçün ona yaraşan qızı seçirlər" (M. Маисурова, 1856: 221-2). Calamyan inanırdı ki, yaxın qohum və kişi ailə başçısı kimi (o, Mina-Xanımın atası və Sofinin babası idi) Sofini ərə verməyə tam ixtiyarı var idi. Beləliklə, ortodoks qanunlara və çar imperiyası qanunvericiliyinə görə nikah qeyri-qanuni hesab edilə bilməzdi, çünki həm qız, həm də oğlan bu izdivaca razılıq vermişdi (William Wagner, 1994: 109). Ərizədə Calamyan iddia edirdi ki, Sofinin əmisi onu sevmədiyi birisi ilə evləndirməyə məcbur edir. Şikayət ərizəsinin aqibəti belə bitdi: Çar məmurları bu məsələni həll etmək üçün ortodoks dini rəhbərlərinə tapşırıq verdilər.

Mədətov qan davasına başlamadı, qan davasının əvəzinə yenidən çar məmurlarına şikayət etdi, lakin çar məmurları buna gözlənilən reaksiyanı vermədilər. Sofinin əmisi iddia edirdi ki, birinci razılığı pozmaqla, Sofi və onun anası Mina-Xanım "ailənin şərəfinə ləkə vurmuşlar". O, Vorontsovdan xahiş edirdi ki, "bu nikahı qeyri-qanunu hesab etsin", çünki Mirzoyev "vicdansızcasına" hərəkət etmişdir, bu nikah "qanuna ziddir" və bu hadisə Mədətovlar ailəsinə ləkə gətirir (ССЧСА, фонд 4, опись 3, дело 891, 15).

Bu misaldan da göründüyü kimi, çar məmurları şikayət ərizələrinə cavab verəndə yerli adətlərdən kənar alternativ bir təklif təqdim edə bilmirdilər. Qafqaz adətində kişi sözünün pozulması ailə üçün böyük qəbahət və ailə şərəfinə böyük ləkə idi. Bu ərizədə də əsas məsələ ailə başçısının ölümündən əvvəl verdiyi sözün onun qayınatası və həyat yoldaşı tərəfindən pozulması idi. Bu, ailə üçün elə bir ləkə idi ki, onlar bu vəziyyətdən sülhlə çıx-

mağa çətinlik çəkirdilər. Calamyan da Madatov kimi çar məmurlarına şikayət etdi. O bununla qızı Mina-Xanıma dəstək olmaq istəyirdi ki, “onlar səni evindən, mülkündən, mirasdan məhrum edə bilməzlər” (yenə orada). O, qızını inandırmağa çalışırdı ki, o düz yoldadır və çar məmurları da bu işi onların xeyrinə həll edəcəklər. Nə Mədətov, nə də Mizoyev  hesab etmirdilər ki, Sofinin atasının vəsiyyətini yerinə yetirməməklə ailə təhqir  olunmüşdur. Çar məmurları işə şikayət ərizəsini baxmaq üçün ortodoks yepiskopuna göndərdilər. Onlar üçün maraqlı məqamlar yalnız aşağıdakılardır: nikahin gəlinlə bəyin razılığına əsasən bağlanması, nikah yaşının ən aşağı həddi (on altı), keçməməsinin nəzərə alınması ikiarvadlılıq və ya çoxarvadlılığın mövcud olmaması.

Çar məmurları Qafqaz əhalisinin ailə məsələlərinə o zaman müdaxilə edirdilər ki, orada qan davası, kriminal xarakterli hadisə baş versin və qız qaçırılsın. Söhbət güclə evləndirilməkdən və ya kiminsə vəsiyyətinin pozulması hallarından gedəndə bu onları çox az maraqlandırdı.

Sofinin əmisinin ərizəsindəki bir məsələ çar məmurlarını tədqiqata cəlb etdi, onlar qızı on dörd yaşı (1843-cü ildə) olanda ərə veriblər. Lakin sonradan təqdim edilən sənədlərdən məlum olur ki, Sofi Mirzoyevlə izdivaca on altı yaşında daxil olub (ССЧСА, фонд 4, опись 3, дело 891, 10). Təəssüf ki, Mirzoyevin məsələsi general-mayora yazılan şikayət ərizəsi ilə bitir və onun sonrakı taleyi barəsində heç bir məlumat yoxdur. Beləliklə, həm Sofi, həm də onun ərinin nikaha razılıq verməsinə baxmayaraq, əgər Sofinin evlənən zaman (tədqiqat müddətində) yaşının kiçik olduğu aşkarlanardısa, onda ortodoks məmurlar bu evliliyi qəbul etməyəcəkdilər.

Sofinin məsələsindən aydın olur ki, ortodoks məmurları evlilik zamanı hər iki tərəfin razılığını əsas götürürdülər. Ortodoks qanunlara görə, cütlüyün razılığı ilə bağlanan nikahlar hər zaman dəstəklənməli idi.

Yuxarıda bəhs edilən məsələlərdən aydın olur ki, çar məmurları edilən şikayətlərə adekvat reaksiya göstərə bilmirdilər və həllini çətin hesab etdikləri məsələləri yerli orqanlara həvalə etməklə məsuliyyətdən boyun qaçırırdılar. Bu məsələlərin həllində rus məmurları ona görə çətinlik çəkirdilər ki, onlar məsələlərin kökünü, adət-ənənələri dərindən bilmirdilər.

Dövrün tədqiqatçıları həm xristian, həm də müsəlmanların ikiarvadlılığa və çoxarvadlılığa meylinin əsas səbəbini bölgədə islamın güclü təsiri ilə izah edirdilər. Ortodoks məmurları izdivacla bağlı İncildə təkarvadlılığın qəbul olunduğunu əsas götürərək ikiarvadlılıq və çoxarvadlılığa son qoymağın yollarını axtarırdılar.

Gürcü ortodoks qaydasına görə, ikiarvadlılıq və çoxarvadlılıq hallarında belə birinci arvadla olan evlilik qanuni sayılırdı. Onlar birarvadlılıq təcrübəsini tətbiq etməklə və bu izdivacı dəstəkləməklə, islamda olan çoxarvadlılığa qarşı çıxırdılar. Qafqazda islam qaydaları ilə yaşayan müsəlmanlar çoxarvadlılıq məsələsinə bir problem kimi baxmırdılar və bəzən xristianlar da bu təcrübəni bəyənirdilər. Çar məmurları və ortodoks məmurlarının bu məsələ ilə əlaqəli müsəlmanların üzərində nəzarəti yox idi və çoxarvadlılıq təcrübədə onlar üçün ən çox tətbiq edilən izdivac növü idi.

Digər bir misal Jas Berinavilinin ikiarvadlılığının üstününün açılması ilə bağlıdır. Bu da bilavasitə ortodoks kilsəsinin aktiv fəaliyyətinin nəticəsidir. Onlar əhali arasında tez-tez monitorinq aparırdılar, çünki islam qaydalarının xristian qaydalarına üstün gəlməsi və yayılması halları ortodoks dini liderlərini ən çox narahat edən məsələlərdən idi. Məhz belə vəziyyətlərdə ortodoks dini rəhbərləri yüksək vəzifəli çar məmurlarının qarşısında islamın xristianlığa təsir etməsini izah etməkdə çətinlik çəkirdilər. Belə halın xristian əhali arasında yayılması ortodoks din xadimlərini bərk narahat edirdi, çünki çar məmurları islamın xristianlığı üstələməsindən əndişələnirdilər.

Tüşinski polis zabiti pristav Çalakayev Telavi quberniya məhkəməsinə məlumat verdi ki, Berinavili 1826-cı ildə Bana ilə evləndikdən bir il sonra "qadını səbəbsiz yerə evindən qovub", və 1827-ci ildə Maro adlı bir qadınla, "Veşagurvilinin qızı ilə evlənib". Əslində, həm gürcü ortodoks, həm də rus nikah qaydalarına görə Banaya evləndikdən sonra ikinci arvad almağa Berinavilinin ixtiyarı yox idi. 1828-ci ilin dekabr ayında gürcü Sinodu Telavi məmurlarından tələb etdi ki, "Jas Bernivalini kəbindənkənar ikinci arvadı Maro ilə yaşamağına xitam verilməsi haqqında göstəriş verilsin", çünki "o, Maro ilə ikinci arvad kimi qeyri-qanuni izdivaca daxil olub" (ССЧСА , фонд 16, опись 1, дело 3846, 5-7). Yerli polis zabiti Çakalayev bu məlumatı Sinoda verdi, lakin bundan artığını etməkdən ötrü onun əlində əlavə bir səlahiyyət yox idi. Bernivalinin ikiarvadlılığına xitam verilməsi üçün onun verdiyi bu məlumat əsas götürülmüşdü.

Gürcüstan Sinodunun bu addımı Qafqaz xristian əhalisi arasında ikiarvadlılıq və çoxarvadlılıq təcrübəsinə son qoymaqdan ötrü çox yaxşı örnək oldu. Bununla da, çar məmurları hər zamankı kimi sözdə bir cür, təcrübədə başqa cür prinsipi ilə deyil, bu məsələni qanunla yoluna qoydular.

Gürcüstan dini rəhbəri İona bu izdivacı pozmaqla, Qafqaz kişilərinə çox yaxşı bir dərs verdi və bununla da, onlara bir dəfədən artıq evlənməyin sonunun bundan sonra necə bitəcəyini bildirdi (yenə orada). Kilsə rəhbəri atdığı bu addımla bildirdi ki, xristian kişi İncilin qaydalarından kənar izdivaca daxil ola bilməz, əks halda, onların da taleyi Bernivali kimi olacaqdır. Belə etməklə, onlar insanların diqqətinə bir daha çatdırdılar ki, dini yanaşmaya görə qadının cəmiyyətdə önəmli rolu vardır. Onlar qadının ailədəki rolunu və kişinin ictimai rolunu da daxil etməklə, cəmiyyətin patriarxal quruluşunu dəstəkləyirdilər. Ortodoks dini rəhbərləri qadınlara təkcə öz haqları olan *fərdlər kimi deyil*, həm də onlara kişi qəyyumluğunda olan yoldaşlar kimi baxırdılar. Kişilər onların şərəf və ləyaqətinin müdafiəçisi və evlənənə qədərki bakirə-

liyinin qoruyucusu hesab edilirdilər. Qadınlar ev işlərini yerinə yetirməli və kişilər isə onlara dəyər verməlidirlər, lakin qadınlar onlara tabe olmalıdırlar (William Wagner, 2005: 104). Müəllifin iddiasına görə, bununla da, sanki ortodoks dini rəhbərləri xristian qadınlarını islamın xofundan, riskindən xilas etdilər.

Qafqazda tətbiq edilən çar ortodoks dini qaydaları və siyasəti İncilə uyğun idi, belə ki, İncilə görə ikiarvadlılıq və çoxarvadlılıq qadağan idi və bu günah hesab edilirdi. Çar siyasətində əsas diqqət Qafqazda buna yol verənlərə qarşı sərt olmaq və ümumiyyətlə, bunu təcrübədən çıxarmağa yönəlmişdi. Yerli məmurlar və kilsə xadimləri ikiarvadlılıq və çoxarvadlılıqla mübarizə aparırdılar və nikah məsələlərində imperiya siyasətini əllərində əsas tutmağa səy göstərirdilər. Düzdür, rus imperiyasının yüksək titullu məmurları nikah məsələlərində dəyişiklik etməyə qadir deyildilər. Onlar Qafqazda mövcud olan adət-ənənələrə qarşı alternativ qanunlar verə bilməsələr də, yerli məmurlar əllərində yenə də çarizmin siyasətini əsas tuturdular. Çar ortodoks məmurları Jas Berinavilinin təcrübəsinin yayılmasının əleyhinə idilər və hər vəchlə bu halın təkrar olmasının qarşısını almağa cəhd edirdilər. Onlar Qafqazın xristian əhalisi arasında təbliğat aparırdılar ki, neçə dəfə evlənməklərindən asılı olmayaraq, etibarlı evlilik birinci evlilikdir.

Çar Rusiyasının Qafqazda xristian əhali arasında tətbiq etdiyi qanunlar müsəlman əhali tərəfindən qəbul edilmirdi. Bunu sübut etməkdən ötrü Şamaxı şəhərindən çar məmurlarına gələn bir ərizəyə diqqət etmək yetərlidir. 1857-ci ildə Usta Hüseyn Ağa oğlu çar məmurlarına yazdığı ərizədə iddia edirdi ki, buradakı evliliklər yerli adətlər əsasında həyata keçirilməlidir. Çar qanunlarının yerlərdə tətbiqi yaxşı nəticə vermirdi. Ümumiyyətlə, Qafqaz ortodoks məmurlarının fəaliyyəti ilə müqayisədə, müsəlman evlilikləri zamanı çar məmurlarının fəaliyyəti çox məhdud idi. Usta Hüseyn Ağa oğlu şikayət ərizəsində göstərirdi ki, bütün evlilik hallarında şəriət qaydaları nəzərə alınmalıdır. O ərizədə

yazırdı ki, oğlunun Tühfi Hacı ilə olan evliliyi qeyri-qanunidir. O, iddia edirdi ki, Taci Mustafa Əfəndi və Hacı Merafili Əfəndinin 1855-ci ildə “onun oğlu Ağa və 22 yaşlı qız” üçün kəsdikləri kəbin düzgün deyil və bu kəbin “qızı onun oğlu ilə yaşamaq məcburiyyətində” qoymuşdur. Əslində, sünni təriqətinin adətinə görə “*kəbin* aktı olmadan… o, [Tühfi] atasının evində qalmalıdır” deyə Hüseyn Ağa oğlu etiraz edirdi (ССЧСА, фонд 4, опись 3, дело 575, 10).

Hüseyn Ağa oğlu yerli müsəlman məmurlarının onun ərizəsinin cavabını uzatdıqlarına görə şikayət etmək üçün yeni alternativ üsullar axtarırdı, lakin onun müraciət etdiyi üç din adamının hər biri bu nikaha fərqli yanaşırdı. Məsələn, birinə görə onun “on iki yaşlı oğlu Ağa ilə Tüfinin evliliyi tam qanuni idi ”, digərinə görə bu evlilik qeyri-qanuni idi, üçüncü və dördüncü din adamları isə qərar verməkdə çətinlik çəkdiklərini söyləmişdilər (ССЧСА, фонд 4, опись 3, дело 575, 10). Oğlanın atası düz altı din adamına müraciət edib və bir nəticə əldə edə bilmədikdən sonra məcbur olaraq, çar məmurlarına müraciət etmişdi. Sonda, çar məmurları məsələni islam qanunlarına uyğun həll etmək üçün şikayəti baxılmaq üçün yenidən müsəlman din xadimlərinə göndərmişdilər. Çar məmurlarının müsəlman din məmurlarının üzərində evlənmə məsələsi ilə bağlı heç bir nəzarəti yox idi və yerlərdə bu məsələlər müsəlman adətlərinə uyğun həll edilirdi. Müsəlman adətlərində olan qarışıqlıq, sünni və şiə təriqətlərində mövcud olan evliliklə əlaqəli fərqlər bəzən yuxarıda bəhs etdiyimiz ziddiyyətlərə gətirib çıxarırdı. Yerli müsəlman dini liderləri “bu məsələyə aydınlıq gətirmək üçün çar məmurlarına müraciət etmişdi” (ССЧСА, фонд 4, опись 3, дело 575, 10). Çar məmurları sünni-şiə adətlərindən baş çıxarmadıqları üçün Hüseyn Ağa oğluna heç bir adekvat yol göstərə bilmirdilər. Belə hallarda, onlar şikayəti ya rus dini məmurlarına, ya da yerli dini məmurlara göndərməklə, vəzifələrini yerinə yetirmiş hesab edirdilər. Bu kimi şikayətlər heç vaxt çar məmurları tərəfindən axıra qədər həll edilmirdi. Ona

görə də, müsəlman evliliyi ilə əlaqəli şikayətlərdə çar məmurları hər hansı məsələ olursa olsun, yerli məmurlarla razılaşmağa məcbur olurdular, əks halda, nikah yerli din məmurları tərəfindən etibarlı sayılmırdı. Çar məmurları müsəlman dini rəhbərlərinə bu məsələlərdə əlahiddə muxtariyyət verirdi.

Çar imperiyasının diskursu müsəlman dini rəhbərlərinə çar qanunlarını deyil, öz qanunlarını tətbiq etməyə icazə verirdi. Hüseyn Ağa oğlunun ərizəsi baxılmaq üçün Müfti Ömərov cərəyanının üzvlərinə göndərildi və onlar da *kəbini* qanuni hesab etdilər. Onlar "qərara gəldilər ki, nikah qanunidir" və Hüseyn Ağa oğlunun "bəylə gəlinin yaşları barədə qaldırdığı iddiaya" haqqı yoxdur, çünki bu izdivac hər iki tərəfin razılığı ilə bağlanmışdır (ССЧСА, фонд 4, опись 3, дело 575, 5).

Müsəlman din xadimləri də ortodoks qaydalarında olduğu kimi bəylə gəlinin razılığı ilə olan evliliyə üstünlük verirdilər, çünki Quranda da evliliyin bu prinsiplər üzərində qurulması tövsiyə olunurdu. Evlilik cütlüyün razılığı ilə həyata keçirilirdisə, bu izdivac etibarlı sayılırdı. Bundan əlavə, oğlanın on iki, qızın on altı yaşı var idi və şəriət qaydaları ilə bu yaş evlənmək üçün məqbul yaş dövrü hesab edilirdi.

Müsəlman din məmurları evlənmə yaşını özləri təyin etmişdilər və çar məmurları müsəlman və ortodoks əhali üçün evlilik yaş həddini müxtəlif şəkildə  təyin edirdilər.

Çar diskursundan bəhs edən müəlliflər müsəlman təcrübəsini tənqid edirdilər və bu məsələdə imperiyanın mövqeyini qeyri-düzgün hesab edirdilər. Usta Hüseyn Ağa oğlunun məsələsi bir daha sübut edir ki, müsəlman evlilik məsələlərində çar məmurları kənarda qalır və bu işdə müsəlman din xadimlərinə muxtariyyət verirdilər. Müsəlman şikayətçilər anlayırdılar ki, çar məmurlarının onlara bu məsələlərdə təqdim edəcəkləri variant şəriətdən fərqli olmur. Onsuz da, çar məmurları onlara ünvanlanan şikayətləri baxılmaq üçün sonda yenidən yerli din xadimlərinə göndərirdilər.

Qafqazda yaşayan xristian əhali arasında da erkən evlənən cütlüklər mövcud idi. Ortodoks əhali arasından erkən evliliklə bağlı çar idarələrinə hər hansı bir şikayət ərizəsi daxil olurdusa, lakin evlənən cütlüyün razılığı vardısa, evlilik etibarlı sayılırdı. Çar məmurları bu kimi hallara göz yumurdular.

**Ortodoks siyasətin həyata keçirilməsində qarşıya çıxan maneələr (Gürcüstan modeli).** Ortodoks din məmurları qız qaçırma hallarında hər iki tərəfin razılığı olanda, evliliyə maneçilik törətmirdilər. Çox vaxt qız qaçırmada təşkilatçı elə iki tərəfdən biri olurdu. Qız qaçırılma hallarının pislənməsinə və bunun çar diskursuna uyğun olmamasına baxmayaraq, ortodoks din xadimləri buna qarşı dayanıqlı mübarizə aparmırdılar, çünki onlar əmin idilər ki, bu hallar çox vaxt qızların öz razılıqları ilə baş verirdi. Lakin dövrün mütərəqqi yazarları bu halları tənqid edirdilər. Ortodoks din xadimləri bir şeyi qətiyyən nəzarətdən buraxmırdılar ki, qız qaçıran oğlan hökmən qaçırdığı qızla evlənməlidir. Onlar bu evlilik üçün məsuliyyət daşıyırdılar.

1856-cı ildə ənənəvi qız qaçırma halına kəndlərdən birinin keşişinin qeyri-ənənəvi yanaşması şikayətə səbəb oldu. Keşiş Nikoloy Nadoreqşvili Ortodoks məmurlarına müraciət etdi ki, şahzadə Aleksandr Paqava və qeyri-qanuni şahzadə Burdqa Paqava onu məcbur etməyə çalışırlar ki, B.Paqavanın Eka ilə kəbinini kəssin. Lakin "qız xəncərlə qorxudularaq güclə qaçırılmışdı" və kəndlilər "müdaxilə edərək onu (Ekanı) çətinliklə xilas edə bilmişdilər". Keşiş kəbin kəsməyə qorxduğu üçün şikayət etməyə məcbur olmuşdu. Nadoreqşvili "onlara dedi ki, onlar onun quberniyasından olmadıqlarına görə" o, Burdqa Paqava ilə qaçırılan qıza kəbin kəsə bilməz (ССЧСА фонд 4, опись 3, дело 786, 3). Şahzadənin bu səhv hərəkəti nəinki Nadoreqşvilinin qınağına səbəb oldu, həm də bu qız qaçırma söhbəti yepiskop Teofanın da qulağına çatdı. Teofan əmr etdi ki, "şahzadənin bu qızla evlənməyə ixtiyarı yoxdur" (ССЧСА, фонд 4, опись 3, дело 575, 10).

B.Paqava "bu əmri saya salmadı və bu qızla kəbinsiz yaşadı". Məsələ böyüdü və Burdqa Paqava və Ekanın yepiskop Teofanın

əmrinə rəğmən, yenə də bir yerdə yaşaması məsələsi Gürcüstan Ekzarxının qulağına çatdı və o elə həmin yepiskopa onun əmrinə tabe olmayan cütlüyün qeyri-qanuni evliliyinin tədqiqatını həvalə etdi. O tələb etdi ki, Burdqa Paqava və Ekanı evləndirən "keşişin adı və şahidlər", bütün məlumat və sənədlər toplansın və evlilik etibarsız hesab edilsin (ССЧСА, фонд 4, опись 3, дело 575, 10).

Ona məmurlarla əməkdaşlıq etmək qadağası qoyuldu, yəni kimsə bu kəbini kəsə bilməzdi. Üstündən dörd il keçəndən sonra yepiskopun hesabatından məlumatlanan metropolitan İzadora əmr etdi ki, "B.Paqava və qaçırılmış qız ayrılmalıdırlar" (ССЧСА, фонд 4, опись 3, дело 575, 10). Təəssüf ki, bu qədər şikayətin və əmrlərin heç bir xeyri olmadı.

Bu hadisə ondan xəbər verirdi ki, ortodoks və çar məmurlarının belə hallar üçün alternativ versiyaları mövcud deyildi. Məmurlar, yepiskop, metropolit və keşiş bu izdivacı qeyri-qanuni hesab edə bildilər. Arxiv məlumatları tam olmadığına görə ehtmal etmək olar ki, Ekanı sonradan ərə getməyə məcbur edə bilmişdilər.

Çar siyasətinin qeyri-mükəmməlliyi ona gətirib çıxardı ki, hər bölgədə eyni problemi müxtəlif cür həll edirdilər. Evliliklə bağlı konfliktləri müsəlman və ortodoks din xadimləri öz bildikləri kimi, uzun illərin adət-ənənəsinə söykənərək yanaşırdılar. Burada yekdil qərar və vahid qanunun tətbiqindən danışmaq olmazdı. Lakin istər müsəlman, istərsə də ortodoks din xadimləri qadınlarla əlaqəli konfliktlərdə kişi tərəfkeşliyi göstərirdilər və qadınları kişi tabeçiliyinə yönəldirdilər. Bu məsələlərdə çar Rusiyası ilə Qafqaz əhalisi ümumi razılığa gələ bilmirdilər. Çar diskursunda əsas hədəf ikiarvadlılıq və çox arvadlılıqla mübarizə aparmaq idi. Qafqaz xristianları bu istiqamətdə çar siyasətini dəstəkləsə də, Qafqaz müsəlmanları ilə bu sahədə razılığa gəlmək çətin məsələ idi.

**Qız qaçırma və ailə zorakılığı**. Qız qacırma planının baş tutmadığı bir hadisəni misal gətirən A.Zaxarov "*Sbornik materialov dlya opisaniya mestnostey i plemen Kavkaza*" (Сборник

материалов для описания местностей и племен) jurnalında yazır ki, "tatar (azərbaycanlı) qadının məhəbbəti dəhşətdir" (А.Захаров, 1894: 130). "Tatar" qızın ailəsi onu sevdiyi oğlana ərə vermək istəmədikləri üçün gənc sevgililər qaçmağa qərar verirlər. Bu misalı gətirməklə, Zaxarovun məqsədi qız qaçırma məsələsini qabartmaqdan çox, azərbaycanlı qızın qeyri-adi təbiətini oxucunun nəzərinə çatdırmaqdır. Plan kifayət qədər riskli idi, çünki bu qızı qaçırılan tərəfə qan davası haqq verirdi ki, qız qaçıran oğlanı və qaçırılan qızı yaxalasalar, qohumları onların hər ikisini öldürə bilərdilər. Gənc oğlan sevgilisini alıb atın üstünə qoydu və sürətlə yola çıxdı. Ailələrinin şərəfini bərpa etmək üçün gənc qızın qardaşları onları qovmağa başladılar. Bu o demək idi ki, barışıq olmayacaq və qacan sevgililər tutulsalar, bacılarını qaçıran oğlan qan davası haqqı olaraq öldürüləcək. Sevgilisini öldürən qardaşlarının yaxınlaşdığını görən gənc qız, "iki qardaşını öldürdü, xəncəri öz sinəsinə soxdu və sevgilisinin meyidinin üzərinə düşdü". Faciə ilə nəticələnən bu qız qaçırma hadisəsi, sonda ailə zorakılığına çevrildi, lakin bu qız qaçırma uğurla nəticələnsəydi və barışıq olsaydı, onlar nəinki evlənəcəkdilər, həm də hər kəsin hörmətini qazanacaqdılar.

Yuxarıda verilən misalda Zaxarov göstərmək istəyir ki, bu gənc qadın öz hərəkəti ilə, xüsusilə qardaşlarını öldürməklə sübut etdi ki, Qafqaz cəmiyyətindəki gender rolları, ailə və zorakılıq konsepsiyası fundamental şəkildə fərqlidir, Qafqazın bir cəmiyyəti üçün xarakterik olan bir məqam digər cəmiyyət üçün tam başqa müstəvidə, rus cəmiyyətində daha fərqli şəkildə cərəyan edə bilər.

Qız qaçırma həm xristianlar, həm də müsəlmanların arasında baş verən hadisə idi, lakin bunun baş vermə səbəbləri müxtəlif ola bilərdi: qız evinin razı olmaması, bir ailədən intiqam almaq məqsədi, sadəcə məşhurlaşmaq həvəsi, cəsur olmalarını isbatlama istəyi, qız evinə veriləcək başlığın çoxluğu ucbatından və s.

Qafqaz xalqlarının çoxunda qız evinə *başlıq* vermə adəti mövcud idi. *Başlıq* verməklə oğlanın ailəsi qız evinə qızın evli-

liyi üçün lazım olan xərcləri ödəyirdi ki, bununla da qızın ailəsi toy və cehiz xərcindən azad olurdu. Bu ya pul vasitəsilə olur, ya da qız evi ilə hər hansı bir razılıq əsasında kompensasiya şəklində ödənilirdi.

Qız qaçırma məsələləri qızın ailəsini əməlli başlı alçaldırdı. Əgər bu proses taktik həyata keçirilə bilsəydi, onda o, yaxşı da qarşılana bilərdi. Qafqaz cəmiyyətində qadınların rolu heç də bəzi ədəbiyyatlarda göstərildiyi qədər passiv deyildi. Qaçırılan qız, elə yuxarıda göstərdiyimiz misaldan da göründüyü kimi, bu prosesə yardım etməli idi. Əgər bu qızın istəyi ilə baş vermirdisə, o zaman qız bütün qüvvəsi ilə müqavimət göstərməyi bacarmalı idi. Qız müdafiə olunmaq üçün ailəsinə arxayın olmamalı idi. O dövrün mətbuatında qız-qadınların ailələrinə qarşı hərəkətləri bəzən elə qiymətləndirilirdi ki, onlar ailələrinə qarşı hər zaman aqressivdirlər. Çox vaxt onlar qapalı, ailənin işinə az qarışan kimi təsvir edilsələr də, onların ailədəki rolları çox önəmli və cəmiyyətin formalaşmasında onların əməkləri çox böyük idi.

Qafqazda ailələr böyük olurdu və bəzən bu böyüklüyün çox özəl xüsusiyyətləri vardı. Elə ailə var idi ki, onlar sanki böyük bir kollektivi xatırladırdı və yaşamalarının təminatında bu ailənin üzvlərinin birgə fəaliyyəti əsas idi. Məsələn, bir müəllifə görə "atanın yardımına hər zaman gələ bilən 40 kuzendən ibarət bir ailədə işlər çox yaxşı gedirdi" ("*Домашная и семейная жизнь дагестанских горцев*, " *ССКГ,* 1870: 2-3). Mənsub olduğu genderindən asılı olmayaraq, bu böyük ailənin hər bir üzvü elə işləyirdi, ailə şərəfini elə qoruyurdu ki, sanki onların hər biri digəri üçün polis idi.

Qafqaz ailələrində ailə zorakılığı geniş yayılmış hal olaraq qalırdı. Bu da bilavasitə ailə şərəfi ilə əlaqələndirilirdi və sonu qan davası ilə bitirdi. Patriarxal mənşəli aqressiya, ailədaxili zorakılıq əsasən ailə başçısı tərəfindən törədilirdi. Lakin Rusiya ailələrində olan ailə zorakılığı ilə Qafqazdakı ailə zorakılığı arasında fərq böyük idi (Jennifer Suchland, 2005: 77). Qafqazda ailədaxili zorakı-

lığın törədilməsində əsas iştirakçı ailənin kişi üzvləri idi. Belə ki, Qafqaz ailəsində ailə üzvlərinin hamısı bir-birinin hərəkətini sanki polis kimi güdürdülər, ata, oğul, kuzen, baba-nənə, əmi-dayı, övlad, bibi-xala, baldız-qayın, gəlin-kürəkənlər, hər kəs bir-birinə qarşı zorakılıq törədə bilərdilər.

Adətən Qafqaz əhalisinin yuxarı çar orqanlarına şikayəti nikahların etibarlılığına görə olurdu. Çox nadir hallarda (qətl baş verirdisə), onlar çar məmurlarına ailədaxili zorakılığa, qız qaçırmaya görə şikayət edirdilər. Qafqazda uzun illərdən bəri özünəməxsus ədalət və intiqam sistemi formalaşmışdı. Onlara görə rus məmurları bu tip şikayətləri həll etmək iqtidarında deyildilər. Kriminal hadisə baş verəndə onlar çar məmurlarına şikayət etmək əvəzinə, məsələni ya adət-ənənəyə uyğun, ya da ağsaqqalın köməyi ilə yoluna qoyurdular. Yəqin ki, Qafqaz qadınlarının ərizə ilə çar məmurlarına şikayət etməməsi barəsində yazmağa ehtiyac yoxdur. Ərizəsiz də, hər şey aydın idi. Əgər qız qaçırılıbsa, qaçırılan qızı onu qaçıran oğlana ərə verirdilər, lakin evdə ailəsinin kişi üzvləri tərəfindən incidilən qadının hökumətə şikayət etməsi təsadüf edilən hal deyildi. Qadınlardan kimsə ərizə ilə şikayət etmirdi, çünki bu şikayətin onların xeyrinə həll edilməsinə ümid yox idi. Ailə zorakılığı və qız qaçırma ilə əlaqəli mövcud qanunlar şikayətçilərə yardım etməkdə aciz idi. Qafqazda ailə zorakılığı və qız qaçırma fiziki zor tətbiq etmək və zorlama faktı ilə müşaiyət edilirdi.

Bu zaman əsas diqqət təcavüzkarın (adətən kişi, əksər hallarda ər və atalar) öz qurbanına (adətən qadın və ya uşaq) qarşı tətbiq etdiyi zora yönəlirdi. Qurban nə qədər zərər görmüşdü və ya öldürülmüşdü? Qız qaçıran zaman bunu törədən evlənmək arzusunu bəyan edirdisə, qaçırılan qız da bu izdivaca daxil olmaq istəyirdisə, çar məmurları cinayət törədən tərəfi həbs etmirdilər və izdivaca icazə verirdilər. Bunu onlar bir neçə səbəbdən belə edirdilər. Onlar yaxşı bilirdilər ki, qaçırılan qızın sonrakı taleyi çox acınacaqlı ola bilərdi. Onunla evlənmək istəyən tapılmaya-

caq, onu valideynləri normal qarşılamayacaq (qaçırılan qız ata evinə geri qaytarılardısa, yaxın kişi qohumlar həmin qızı yaşatmazdılar), bu qadının hər zaman onu qoruyan bir kişiyə ehtiyacı var idi. Bu şəxs qismində ən uyğunu elə qadının əridir, çünki qadın artıq ata evində qala bilmə müddətini başa vurmuşdur.

Nadir hallarda çar məmurları Qafqaz əhalisinə, xüsusilə də müsəlmanlara öz simpatiyalarını nümayiş etdirirdilər. Onlar çar qanunlarının əvəzinə yerli adətlərdən doğan qaydaları tətbiq etməyə çox da həvəsli deyildilər. Yüksək mənsəbli çar məmurları cinayəti törədənin (təcavüzkarı) həbsxanada və əmək düşərgəsində nə qədər qalmasını qərara alırdılar. Yüksək mənsəbli çar məmurları cəza verəndə cinayətkarın təbiətini nəzərə alırdılar və cəzanın ağırlığı və yüngüllüyü də buna uyğun olurdu. Məsələn, o ailə-uşağına qarşı tez-tezmi zor tətbiq edirdi? Cinayətkar hərbçi idisə, onun digər göstəriciləri nəzərə alınırdı. Təcavüzkarın həyat yoldaşının ərinə olan münasibəti (xəyanət etməsi, ərinə qarşı soyuq olması) hökmən nəzərə alınırdı.

Bütün yuxarıda deyilənləri diqqətlə nəzərdən keçirməyə cəhd göstərən çar məmurları sonda buna uyğun cəza kəsirdilər. Yaxşı hərbi göstəricilərinə görə cinayətkarın cəzası azaldılırdı və hər hansı inanılmış, nüfuzlu bir insan təsdiq etsə idi ki, bu cinayətin səbəbi qadının ərinə xəyanəti və ailənin şərəfinə vurduğu ləkə ucbatından baş vermişdir, o zaman cəzanı lap çox azalda bilərdilər (bu bir ildən də az ola bilərdi). Çar məmurları düşünürdülər ki, əgər cəza uzun müddətli olsa, o zaman xəyanətkar qadın ailəni daha çox risk altında qoya bilər. Əgər şahidlər, xüsusilə də, qonşular öz ifadələrində təsdiqləsələr ki, cinayəti törədən şəxsin (ailəsinə qarşı zorakılıq edən, qız qaçıran) xasiyyəti pisdir, o mütamadi olaraq zorakılıq edir, o zaman çar məmurları ona uzunmüddətli həbs cəzası tətbiq edirdilər (bir ildən artıq). İstisna hallar da olsa, çar məmurları qaçırılan qızı ata evinə qaytara bilərdilər. Çar məmurları cinayəti törədən şəxsə qız qaçırmaqda hansı cəzanı verirdilərsə, ailə zorakılığında da ona oxşar cəzalar

kəsirdilər. Bu zaman qız qaçırana qaçırılan qızın kömək etməsi amilini də nəzərə alırdılar. Əgər qaçırılan qızın bu planın həyata keçirilməsi prosesində yardımçı qismində iştirak etməsi faktı müəyyənləşdirilərdisə, o zaman qızı qaçırana az cəza kəsirdilər. Bu kimi cinayətlər aşkarlananda yüksək mənsəbli çar məmurları Qafqaz ailələrinin həyat tərzində dəyişikliklər etməyə cəhd göstərirdilər. Adətlərə görə Qafqaz ailələrində bu kimi hallara cinayət tərkibli hadisə kimi baxmırdılar. Lakin bütün bu halların tərkibində cinayət elementi mövcud idi. Adət üzərində qurulan ailənin saxlanılması, evliliyin davam etdirilməsi, Qafqaz qadınının yanında kişi himayədarın olması kimi məsələlər imperiyanı Qafqazda aparmaq istədiyi siyasətdən çəkindirirdi. Mətbuatda zorakılıqla bağlı "qız zorakılığa məruz qaldı", "iradəsinin əksinə olaraq zorlandı", "onu oğurlayan adamın onu öldürməsindən qorxdu" kimi ifadələrə tez-tez təsadüf edilirdi [Сакартвелось со историо централури сахелмчипо архиви (ССЦСА) фонд 16, опись 1, дело 2647)].

Yüksək mənsəbli çar məmurları Qafqaz ailələrində də qadına münasibətin rus ailələrindəki kimi olmasını istəyirdilər. Onlar bunu din və cinslərə görə əsaslandırırdılar. Belə ki, qadınlar haqqında (Qafqaz və ya Rusiya fərqi yoxdur) belə fikir irəli sürürdülər ki, onlar kişilərsiz yaşaya bilməzlər, onlara hökmən kişi qəyyum lazımdır. Onsuz da zorlanmaya məruz qalmış qadının şərəfi ləkələnir, o evlənmək imkanını itirirdi. Nəticədə, yüksək mənsəbli çar məmurları ailə zorakılığı ilə üzləşdikləri zaman ciddi döyülmələr (ölümlə nəticələnən, ağır yaralanmalar) yox idisə, ailələri dağıtmaqda maraqlı deyildilər. Əgər döyülən və ya qaçırılan qadın şikayətini geri götürməyə razılıq verirdisə, istər zorlanma halı olsun, istərsə də yaralanma halı evlilik qorunub saxlanırdı. Məhkəmə orqanlarının cinayət işlərinə qarşı mübarizədə çox aktiv rol oynamasına baxmayaraq, yüksək mənsəbli çar məmurları çar diskursuna uyğun olmayan vasitələrə əl atırdılar və qız

qaçırılması və ailə zorakılığı hadisələri zamanı onlar üçün əsas məqsəd ailələrin birlikdə qala bilməsi idi.

**Ədəbiyyat:**

**İngilis dilində**

1. Annette F. Timm & Joshua A. Sanborn, "*Gender, Sex and the Shaping of Modern Europe: A History of from the French Revolution to the Present" Day*, Berg, 2007: 8-9.
2. Anna Zelkina, "*In Quest for God and Freedom: The Sufi Response to the Russian Advance in the North Caucasus"* (New York University Press, New York, 2000
3. Audrey Altstadt, The Azerbaijani Turks: Power and Identity under Russian Rule (Hoover Institution Press, 1992: 15-26
4. Austin Jersild, "*Orientalism and Empire: North Caucasus Mountain Peoples and the Georgian Frontier", 1845-1917,* (McGill-Queen's University Press, 2002): 89-109
5. Baddeley, *Rugged Flanks of the Caucasus,* Volume 2, Oxford University Press, London, HUMPHREY MİLFORD, 1940, 1: 75
6. Beatrice Farnsworth, "The Litigious Daughter-In-Law: Family Relations in Rural Russia in the Second Half of the Nineteenth Century, " ed. Beatrice Farnsworth & Lynne Viola, *Russian Peasant Women* (Oxford University Press, 1992): 89-106; Barbara Alpern Engel, *Women in Russia, 1700-2000* (Cambridge University Press, 2004): 89-90.
7. Beskhanum Ragimova, "*Legal Status of Women in Traditional Dagestani Society*" (Nineteenth-Early Twentieth Century), *Iran & the Caucasus 6,* no. 1/2 , 2002
8. Bruce Grant, "*The Captive and the Gift: Cultural Histories of Sovereignty in Russia and the Caucasus",* Cornell University Press, 2009
9. Charles King, "*The Ghost of Freedom: A history of the Caucasus",* Oxford University Press, 2008: 11-12.).

10. Jennifer Suchland, "On the Transnational trouble with Gender: The Politics of Sexual Harassment in Russia, " Ph. D. Dissertation, The University of Austin, Texas, 2005: 77, 112-119;
11. John Baddeley, "*The Russian Conquest of the Caucasus, "* (New York, Longmans, Green and Co., 1908
12. Emil Souleymanov, "Chechen society and mentality" *Prague Watchdog,* 25 May 2003: 5; Maksim' Kovalevskii, *Zakon' i obychai na Kavkaz,* Moskva, 1890, II: 37. 216-250, 297
13. Freeze, "*Bringing Order to the Russian Family"*, 723; William Wagner, "*Marriage, Property, and Law in Late Imperial Russia",* Clarendon Press, Oxford, 1994: 62-7, 160;
14. Firouzeh Mostashari, "*Colonial Dilemmas: Russian Politics in the Muslim Caucasus*, " Robert P. Geraci and Michael Khodarkovsky, eds., *Of Religion and Empire: Missions, Conversion, and Tolerance in Tsarist Russia,* Cornell University Press, 2001
15. Karen Throsby, "*Gender and Interpersonal Violence: Language, Action and Representation",* Palgrave Macmillan, 2008
16. Laura Engelstein, "*The Keys to Happiness: Sex and the Search for Modernity in fin-de-siecle Russia",* Cornell University Press 1992: 102, 115.
17. Luzbetok, in "*Marriage and The Family in Caucasia: A Contribution to the Study of North Caucasian ethnology and Customary Law",* Studia Instituti Anghropos*, 1951: 67.*
18. Moshe Gammer, "*Muslim Resistance to the Tsar: Shamil and the conquest of Chechnia and Daghestan",* Frank Cass & Co. LTD, London, 1994
19. Michel Foucault, "*The History of Sexuality: An Introduction",* Vol. 1, (Vintage Books, New York, 1990
20. Nancy Armstrong, "*Some works on Violence: The Violence of Representation: Literature and the History of Violence",* edited by Leonard Tennenhouse, Routledge, 1989

21. Nancy Kollman Shields, "*Women's Honor in Early Modern Russia*, " in Russia's Women, Accomodation, Resistance, and Transformation, eds. Barbara Evans Clements, Barbara Alpern Engel, Christine Worobec, University of California Press, 1991
22. Nicola Lacey, "*The Constitution of Identity: Gender, Feminist Legal Theory, and the Law and Society Movement, "* in *The Blackwell Companion to Law and Society,* (Blackwell Publishing, 2004), 471-86
23. Rebecca Friedman, "*Masculinity, Autocracy, and the Russian University, 1804-1863",* Palgrave Macmillan, 2005, 102-105.
24. Robert D. Crews, "*For Prophet and Tsar: Islam and Empire in Russia and Central Asia"*, Harvard University Press, 2009, p. 30-36.
25. Paul Werth, "Imperial Russia and the Armenian Catholicos at Home and Abroad, " in *Reconstruction and Interaction of Slavic Eurasia and Its Neighboring Worlds,* ed. Osamu Ieda, Sapporo: Slavic Research Center, 2006, 203-35
26. Sally Engle Merry, "*Colonial and Post-Colonial Law*, " in *The Blackwell Companion to Law and Society,* (Blackwell Publishing, 2004), 575.
27. Veena Das et. al., *Violence and Subjectivity,* University of California Press, 2000
28. Svod Zakonov *"Rossiiskoi Imperii",* 1857, vol. 1, part 1, article 107, in Wagner, "*Marriage, Property, and Law",* 62
29. Susan Layton, "*Russian Literature and Empire: Conquest of the Caucasus from Pushkin to Tolstoy",* Cambridge University Press, 1994
30. Veena Das, *Life and Words: Violence and the Descent into the Ordinary,* University of California Press, 2006
31. W. E. D. Allen, *A History of the Georgian People,* London: K. Paul, Trench, Trubner & co., 1932

32. William Wagner, "*Marriage, Property, and Law in Late Imperial Russia"*, Clarendon Press, Oxford, 1994: 67, 62-65, 160.

**Rus dilində**

33. Абдулла Омаров, "*Domashniaia Домашная и семейная жизнь' дагестанских горцев*", ССКГ, (1870): 4-5
34. Абдулла Омаров, "*Как живут Лаки*", ССКГ, (1870): 4.
35. А.Захаров, Сборник материалов для описания местности и племен Кавказа, *СМОРК*, "Домашний и социальный быть женшину", 117.
36. В. О. Бобровников, "*Мусульмане Северного Кавказа: обычай, право, насилие*", Moskva, 2002, С. 56-57.
37. Джантемир Шанаев, "Свадьба у северных, " ССКГ, (1870): 7-8
38. "*Домашная и сенейная жизнь дагестанских горцев*, " *ССКГ,* 1870: 2-3
39. Е.Сталински, "О самоубийствах на Кавказе и за Кавказом, " ССКГ, 1871: 272-5
40. "*Из горци криминалистики*", ССКГ, (1870): 79
41. М.Маисурова, "Свадебные обряди армян, " Кавказ, 15 Июль, 1856: 221-2; М. Патканов, "Свадебные обряду армян, " *Кавказ,* 25 Февраль 1872.).
42. Максим Кавалевски, Современние обучай и древнии закон*: обучое право Осетин в историко-сравнителном освешении* (Москва, 1886) I: 255
43. Максимь Ковалевски, Закон и обучай на Кавказе, Москва, 1890, II: 37. 216-250, 297
44. М.Сагарадзе, "*Обычаи и верования в Имеретии, "* в Сборнике материалов для описания местностеи и племен Кавказа, СМОМПК, (1899): 5.).
45. О.Мтавриев, "Простонародная свадьба в Кахети , " СМОРК *SMOMPK* (1902): 149;
46. "Народное право Осетин", ССКГ (1872): 189

47. Н.Львов, "*Из путешествия по Дагестану*", Сборник сведении о Кавказских гортсах, *(ССКГ),* (1870): 3- 5
48. "*По адресу мусульманского духовенство, " в Новое Обехрение*, Декабрь 17, 1895, 3
49. Религиозные обрияду Осетин, Ингуши I их сопленникон, при разнух случаях, Кавказ, 13 Июль 1846: 112
50. С.Джаннат-Баги, "*Детоубииство в мусулманских*", Кавказ 9-10, Август 1878, Карпов Ю. Ю., "*Женское производство в культуре народов Кавказа*". – СПб., 2003: 44-45, 57-58
51. Ф.И.Леонтович, "*Адату кавказских горцев*", Одесса, 1882, II: 485. "Из горци криминалистики ССКГ*,* (1870): 64
52. Сакартвелось со историо централури сахелмчипо архиви (ССЦСА) фонд 16, опись 1, дело 2647
53. Сакартвелось саисторио централури сахелмсипо архиви (ССЧСА) фонд 4, опис 1, дело 1095
54. С.Джаннат-Баги, "*Детоубииство в мусулманских*" Кавказ 9-10, Август 1878
55. ССЧСА*,* фонд 4, опис 1, дело 2486
56. ССЧСА, фонд 4, опись 3, дело 891, 10

# II FƏSİL

# QAFQAZDA GENDER VƏ AİLƏ

**Qafqazda Sovet gender düzəni: ənənələrin yenidən dərki və davranışın yeni təcrübəsinin təşəkkülü (Dağıstan modeli).** Yetmiş ildən çox bir müddət ərzində ərazisindən, adətindən, ənənəsindən asılı olmayaraq, sovet cəmiyyətinin qurulması prosesində ideoloji əsaslar möhkəmləndirilmiş, konkret davranış standartları tətbiq edilmiş və ona uyğun həyat tərzi formalaşdırılmışdır. Qafqazı zəbt edən çar Rusiyasının, daha sonradan sovet hakimiyyətinin bölgədə əsas vəzifəsi müsəlmanların dinini, adət-ənənələrini və etnik mədəniyyətini unutdurmaq idi və bu mövcud rejim üçün xüsusi önəm kəsb edirdi. Bu bölgənin  fəal şəkildə sovetləşdirilməsi 1920-50-ci illərə təsadüf edirdi. Bəzən, sovet hökuməti icma həyatının prinsiplərini dəstəkləmək məcburiyyətində qalırdı. “Sovetləşmə” prosesi tədricən gedirdi, lakin ənənələr tam yox olmurdu. Sovet dövründə kəndlərdə ənənələr pozulmadı, lakin yeni transformasiya prosesləri üçün təməl yarandı.

Cəmiyyətin və sosial həyatın yenidən qurulması dövründə ən böyük diqqət təhsil, elm və mədəniyyətə yönəlmişdi: ana dilində yazının yaradılması, rus dilinin öyrənilməsi, savadsızlığın aradan qaldırılması, məcburi orta təhsil, mədəni-maarif müəssisələrinin açılması və sairə. Bütün bunların nəticəsində, ənənələr zəifləmədi, sadəcə kənd sakinləri arasında ənənəçilik qaydalarına müəyyən əlavələr edildi və onların sərhədləri genişləndi. Əslində, kişilər bu imtiyazlardan daha çox istifadə edirdilər. Onlar daha çox təhsil alır, yeni sənətlər əldə edir, oxumaq və işləmək üçün digər bölgələrə üz tuturdular. Qadınların seçimi kişi tərəfdaşlarının seçimindən asılı idi - ya onlarla bərabər gedirdilər, ya da kənddə onlarla qalırdılar. Qadınların həyat yolu ailə qurana qədər ata və

qardaşlarından, ərə gedəndən sonra ərlərindən asılı olurdu. Bu dövr ərzində də “hörmətli” ailə statusunu saxlamağa çalışırdılar.

Sovet dövründə aparılan gender siyasətinə (Темкина 2006; 2008) baxmayaraq, kənd özünün ənənəvi normalarına uyğun yaşamaqda davam edirdi. Kişilər öz nüfuzlarını artırmaq üçün verilən əlavə imtiyazlardan istifadə etməklə sovet hökumətinin açdığı yeni imkanlardan ailələrinin firavan yaşamaları üçün yararlanırdılar. Kənddə ailənin ləyaqətini yenə də kişi qoruyurdu, qadının ailədə əvvəlki vəziyyəti isə nisbətən zəifləmişdi.

1920-ci illərdə kollektivləşmə baş tutana qədər Dağıstanda kənd yerlərində elə bir dəyişiklik baş vermədi. 1930-40-cı illərdə isə burada kənd icmalarının dağıdılması istiqamətində qəti addımlar atıldı: Dini bayramlar qadağan edildi, şəriət və adət strukturlarını dağıdan qərarlar verildi, məhkəmə - inzibatı sistem unifikasiya edildi (Российский Кавказ. Книга для политиков, 2007: 109), məscid və mədrəsələr bağlandı, lakin böyük vətən müharibəsi zamanı sovet hökuməti dini icmaları leqallaşdırmaq məcburiyyətində qaldı və “faydalı ənənə”ləri bərpa etməyə başladı (Сулаев И, 2006).

Kütləvi kollektivləşdirmə sosial strukturun deformasiyasına səbəb oldu. Repressiyaya şəhərin elm və mədəniyyət xadimləri ilə yanaşı, kənd ağsaqqalları, mollalar, mədrəsə müəllimləri də məruz qaldılar. Kənddə sovet hakimiyyətini dəstəkləyən və kənd camaatı arasında elə də çox hörməti olmayan insanlara liderlik imkanı yaratdılar. Sovet qaydalarına görə sosial iyerarxiyanın strukturu insanların gücünə görə olmalı idi, güclü insanlar - sovxoz direktoru, kənd sovetinin sədri və müəllim işləyən insanlar idilər. Sosial strukturu transformasiya etmə cəhdi mövcud sosial qaydaları köklü dəyişdirə bilərdi, lakin kənddə özünə qarşı dəstək və hörmət axtaran lider tez-tez ənənəvi normalara tabe olmaq məcburiyyətində qalırdı və kəndin qeyri-formal lideri ilə dil tapmağa çalışırdı. Məsələn, əkin-biçin vaxtı liderlər əvvəllər olduğu kimi kənd ağsaqqalının rəhbərliyi ilə keçirilən iclaslarda təyin edilirdi.

Hesab etmək olar ki, 1930-cu illərdə savadsızlıq artıq ləğv edildi (Российский Кавказ. 2007: 64). Sənədlərdə başqa şəkildə göstərilsə də, təcrübədə dövlət proqramı sona qədər yerinə yetirilməmişdi. Qadınlardan biri müharibənin sona çatmasını belə xatırlayır: "Bizim müharibənin bitdiyindən heç xəbərimiz yox idi. Kəndin üzərindən kukuruzniklər uçurdular, göy rəngli kağızları göydən yerə səpələyirdilər, lakin kimsə oxuya bilmirdi". Hətta 1961-ci ilin oktyabrında SovİKP-nin XXII qurultayında ölkədə hamının orta təhsil alması haqqında qanun qəbul ediləndən və bütün ölkədə axşam məktəbləri, internat məktəbləri və kənd gəncləri üçün məktəblərin təşkilindən sonra da dağ aullarında oxuyub-yazmağı bacarmayan insanlara təsadüf etmək olurdu. Orta yaşlılar üçün oxuyub-yazmağı öyrədən axşam məktəbləri açılmışdı. Müəllimlər şagirdlərdən qat-qat cavan olduqlarına görə yaşlı kənd sakinləri məktəbə getməyə utanırdılar. Oxumaq-yazmaq bilməyən valideynlər savadın əhəmiyyətini başa düşmədikləri üçün qızlarını məktəbə buraxmaq istəmirdilər. Sovet hökuməti orta təhsili icbari etdikdən sonra, qızlar kütləvi şəkildə təhsil almağa başladılar.

Orta təhsil əldə edən kənd sakinləri üçün perspektivlər açıldı, onlar müxtəlif peşələrə yiyələndilər və iş tapmaq üçün kənddən kənar yerlərə üz tutdular. Qafqazda yaradılan belə imkan bir çox gənclərin həyatını dəyişdirdi, lakin orta məktəbdən sonrakı təhsil qızlar üçün deyildi. Birincisi, qızlar elə məktəbdə oxuya-oxuya nişanlanırdılar. İkincisi, qızların daha sonra təhsil almaları üçün kifayət qədər pul tələb olunurdu ki, bu da qızın valideynlərinin imkanı xaricində idi. Valideynlər düşünürdülər ki, qızlara təhsil verməklə, digər bir ailəyə xeyr verirlər, çünki onlar gec-tez başqa bir ailədə yaşayacaqdılar. Ücüncüsü, qızlarının əxlaqına cavabdeh olan valideynlər onları başqa yerə oxumağa göndərməklə, ailə ləyaqətini risk altına qoyurdular (hətta bu gün belə onların əksəriyyəti qızlarının təhsil alması zamanı qiyabi təhsilə daha çox üstünlük verirlər). Başqa sözlə, təhsilsiz də ərə getmək olurdu və

qız övladına olan sonrakı qayğı və cavabdehlik qızın ərinin ailəsinin üzərinə düşürdü.

Kəndlərdə sovxozda işləməklə ailə dolandırmaq çox çətin idi. Sovxozdakı işə o qədər də ciddi maliyyə mənbəyi kimi baxılmırdı. Sovet hakimiyyətinin gəlişi ilə qadınlar ictimai sferada aktivləşməyə başladılar, lakin qadınların reproduktiv funksiyası onlara ictimai sferada tam potensialla işləmələrinə imkan vermirdi. Qadının xalça fabrikində aldığı əmək haqqı ərin qazancından dəfələrlə çox olmasına baxmayaraq, qadın maaşına hələ də tam ciddi baxılmırdı. Buna baxmayaraq, onun qazancı ailə büdcəsinə yetərli qədər təsir edirdi və ailənin bir çox maddi problemləri məhz onun hesabına həll edilirdi.

Xalçaçılıq bu gün də qeyd etdiyimiz mədəniyyətdə ənənəvi qadın peşəsi hesab edilir və ailə büdcəsinə əlavə gəlir gətirir. Sovetlər dönəmində bu peşə ev təsərrüfatı çərçivəsindən çıxıb sənaye əhəmiyyəti kəsb edirdi və stabil iş yeri hesab edilirdi. Dövlət bu işə tam ciddi nəzarət edirdi, burada dövlət tərəfindən müəyyən edilmiş iş saatları mövcud idi. Dövlət məhsulun buraxılış həcminə nəzarət edir, onu realizə edir və fəhlələr yaxşı qazanc əldə edə bilirdilər. Bütün bunlara baxmayaraq, bu işə hələ də, əlavə qazanc əldə edilən ikinci dərəcəli iş yeri kimi baxırdılar.

Sovetlər dönəmindəki kasıbçılıq kənd sakinlərini ev təsərrüfatı ilə məşğul olmağa vadar edirdi. Bu da ənənəvi sosial münasibətlərin (qarşılıqlı yardım, dostcasına iştirak) başlıca prinsiplərinin dəstəklənməsini tələb edirdi. Nəticədə, uzun illər icma-qohumluq strukturu vərdiş edilmiş gündəlik norma və dəyərləri bir-birlərinə ötürməklə, mövcudluğunu davam etdirirdi.

Ölkənin başdan-başa elektrikləşdirilməsi kənd həyatında kifayət qədər dəyişikliyə təkan verdi. 1960-cı illərin sonlarında televiziyanın insanların həyatına gəlişi kəndlilərə mühüm məlumatların tez çatmasına səbəb oldu. Cavanların televiziya qarşısında uzun-uzadı oturmaq imkanı məhdud olsa da, yaşlıların vaxtı televiziya qarşısında keçir, bəzən verilişlər və bu verilişlərin

ənənəvi mədəniyyətə ola biləcək təsiri yaşlıları əndişələndirirdi və onlar cavanların televizora baxmalarının hər vəchlə qarşısını almağa calışırdılar. Daha çox yerli kanallara baxırdılar, çünki yerli kanallar etnik mədəniyyətin təbliği ilə məşğul idi. Qadınların televizora baxmaları heç də məqbul hal hesab edilmirdi, çünki əsl qadın boş vaxtında bundan daha önəmli işlərlə məşğul ola bilərdi, məsələn, xalça toxumaq, tikiş tikmək və sairə. Lakin zaman öz işini görürdü, sovet həyat tərzinə münasibət loyallaşır və ənənəvi qaydalara bir başqa nəzərlə baxılmağa başlanıldı. Bu da gələcəkdə başqa bir mərhələ üçün hazırlıq dövrü kimi xarakterizə edilir. Bu dövr – bazar iqtisadiyyatına keçid dövrü adlandırıldı və irəlidə daha intensiv sosial dəyişikliklər dövrü gəlirdi.

1980-ci illərdə əhalinin kolxozlara münasibəti dəyişdi. Sovetlər dövründə din və adətlərlə tənzimlənən ənənələrə tənqidi baxışlar meydana çıxdı. Həm də eyni zamanda, ev təsərrüfatının əhəmiyyət dairəsi azaldı. Əmək haqqı və dövlət xidmətləri (pulsuz təhsil, səhiyyə xidmətləri, məktəbəqədər təhsilin ödənişinin azalması) onun əhəmiyyətini azaltdı. Buna baxmayaraq, kənd sakininin elə bir vaxtı yox idi ki, bu açılan imkanlara nəzər yetirə bilsin və verilən bu imkanlardan özlərinin xeyri üçün istifadə etsin. Ailənin ənənəvi strukturu və dəyərlər sistemi dəyişilməz qalmışdı. Əvvəlki kimi, qadın dəyəri ənənəvi normaya uyğun olaraq analıqla qiymətləndirilirdi. Ailədaxili qohumluq münasibətlərinə ciddi nəzarət mövcud idi. Başqa sözlə, sovet dövrünü kənd qadınlarının öz potensiallarını realizə edilə bilmədikləri bir dövr kimi səciyyələndirmək olar.

**Gender rollarının bölünməsində ənənəvi düzən: nəsillərarası gender rolları və öhdəliklərinin bölünməsi.** Qafqazdakı ailələr hər zaman patriarxal olmuşdur, çünki tarixən Qafqaz ailələrində ailə başçısı birmənalı şəkildə ata, ata yoxdursa, böyük oğul olmuşdur. Sovet hakimiyyəti dövründə qadınların həyatında əhəmiyyətli dərəcədə inkişaf baş versə də, ailədəki patriarxal xüsusiyyətlər hələ də saxlanılmaqda idi.

Sovet hakimiyyətinin gəlişi ilə ailələrin formalaşması başqa bir müstəviyə keçdi. Maariflənmə, təhsil və mədəniyyət sahəsində baş verən köklü dəyişikliklər – milli yazı qaydalarının yaradılması, rus dilinin öyrədilməsi, təhsil, mədəni-maarif müəssisələrinin açılması, savadsızlığın aradan qaldırılması və s. ölkədə gedən ictimai-siyası proseslərə də təsirsiz ötüşmədi. Bu kimi yeni yaradılan imkanlardan kişilər qadınlardan daha çox yararlanırdılar. Dövlət səviyyəsində qadınların ictimai-siyasi sferaya cəlb olunması üçün atılan addımlara baxmayaraq, onlarda fəallıq gözlənilən effekti vermədi. Sovetlərin apardığı gender siyasətinə rəğmən, ailələrdə əməyin cinslərə görə bölünməsi ənənəsi hələ də davam edirdi: Qadınlar ev işləri, kişilər çöl işlərini yerinə yetirirdilər (Здравомыслова О.М., 200: 36).

Şimali Qafqaz xalqlarında da ənənəvi ailə modelləri üstünlük təşkil edir, ailədə üstünlük kişilərə verilir və ailənin "başçısı" da, "çörəkgətirən"i də elə kişi hesab edilir. Hələ də ailələrdə ənənəçiliyə önəm verilir, gender bərabərsizliyi mövcuddur, ev təsərrüfatında gender rolları bölünür, "kişinin kişi işi, qadının qadın işi" adəti saxlanılır, uşaq və yaşlı ailə üzvünə qulluq qadınlar tərəfindən edilir. Lakin bazar münasibətlərinin inkişafı təsirsiz ötüşmədi, "ailənin çörəkgətirən"i funksiyası tədricən qadına ötürülsə də, hələ də "ailə başçısı" statusu formal olaraq kişilərdə qalmışdır. Bununla da, bir növ kişilər öz mövqelerini, çəki və nüfuzlarını saxlamağa cəhd göstərirlər. Nəticədə, mövcud patriarxal cəmiyyətdə əsrlərlə qorunub saxlanılan ənənələr risk altına düşür, çünki hər kəs anlayır ki, güc pul qazanandadır. Hal-hazırda baş verən bu proseslər sovet hakimiyyətinin ilkin illərində baş verən prosesləri xatırladır.

Bildiyimiz kimi, Qafqazda qadın öhdəliyinin özəyində, hər şeydən əvvəl ailədə özündən böyük qadına tabeçilik durur və burada ən başlıca vəzifə anaya hörmətdir. Analıq onlar üçün əvəzedilməz nemət, mədəniyyətdir və ananın rolu elə qadın statusunun resursu sayılır. Cəmiyyət hər zaman ananı qiymətləndir-

məyi bacarmışdır və o, ailənin ən əsas dəyəri hesab edilmişdir. Qadının yaşının üstünə yaş gəldikcə, övladlarının (xüsusilə də oğlan övladları) sayı artdıqca, onun statusu artır və o daha çox hörmət qazanır. Digər tərəfdən də, qadına qarşı çoxsaylı tələblər irəli sürülür: təvazökarlıq, tabeçilik və kişilərin qərarları ilə razı olmadıqları hallarda belə sükunətlərini qorumağı bacarmaq. Deyilənləri yerinə yetirən zaman kişi dominantlığı ilə müşahidə edilən vəziyyətə, yəni iyeraxiyaya riayət edilir.

Heyl Rubinə görə qadın keçmiş zamanlarda xüsusi bir əmlak – çox qiymətli hədiyyə olmuşdur (Рубин 2000: 102). Bu hədiyyənin qiyməti qadına cəmiyyətin verdiyi önəmdən, hədiyyənin necə dərk edilməsi, onun nə qədər həyatı əhəmiyyətli olmasından çox asılı idi. O dövrdə müharibələrin sayının çox olması ailədə övlad artımının əhəmiyyətinin yüksək olması ilə müşaiyət edilirdi. Elə bu gün də ailə üzvlərinin sayı ailənin gücünü artırır.

Ailə qurulması "ailənin hörmət" statusunu əldə etmək üçün əhəmiyyətli şərtdir. Başqa sözlə, yeni ailənin qurulması təkcə böyüyən yeniyetmələrin, gənclərin istəkləri ilə deyil, həm də yaşlı qohumların istək və dəstəkləri ilə olurdu, çünki bu onların bir növ sosial statuslarının qorunması idi.

Bütün nəsil ailənin qorunub saxlanmasında maraqlı idi. Ailədəki stabillik məsuliyyəti təkcə cütlüyün üzərinə deyil, ailənin digər üzvlərinin də üzərinə düşürdü. Boşanmalar zamanı qadından çox kişi mühakimə edilirdi, çünki kişinin ünvanına "o, bir qadının öhdəsindən gələ bilmədi", o, qadınla "dil tapa bilmədi", ona yaşayış üçün "şərait yarada bilmədi" kimi ittihamlar daha çox səslənirdi. Boşanma zaman təkcə boşanan cütlüklər deyil, bütün nəsil icma qarşısında gözdən düşürdü. Belə bir hadisə baş verirdisə, ailənin digər subay üzvləri üçün cəmiyyətdə uğurlu ailə qurmaq problemi meydana çıxırdı.

Qadın Tanrının bəxş etdiyi bir "vergi"dir fikri nəslin davamçısı və ailənin, xüsusilə də "məxsus olduğu" kişinin marağının qoruyucusu olmasından irəli gəlir. Ailədəki qız övladı müvəqqə-

ti ailə üzvü hesab edilirdi, çünki ata evində olanda qızın statusu aşağı olur və onun statusu ər evində dünyaya gətirdiyi övladların sayı artıqca yüksəlirdi. Ərə getmək və uşaq dünyaya gətirmək cəmiyyətdə müəyyən bir nailiyyətin əldə edilməsi idi və bununla qadın ər qohumları tərəfindən özünə qayğı və dəstəyi möhkəmləndirirdi. Cəmiyyət bu mədəniyyət və qohumluq münasibətləri çərçivəsində tabeçilik və qadın hüquqlarının məhdudluğuna bəraət qazandırırdı. Məsələn, ata bütün ömrü boyu övladının məsuliyyətini daşımağa cavabdehdir. Hətta boşanmadan sonra övlad ata ilə birlikdə qalır və ata rəhmətə gedirsə, onun övladına atanın kişi qohumları baxır. Ana isə ərinin ölümündən sonra ya ərinin ailəsi ilə qalar, ya da yenidən ərə gedə bilərdi.

Ailənin məsuliyyətinə onun müəyyən edilmiş təsərrüfat hesabları da daxildir. Ənənəvi cəmiyyətdə yeni ailələrin qurulması zamanı cütlük bir-birilərini seçərkən, bir növ "iqtisadi tərəfdaş" sorağına çıxırdılar. Ailələr yeni qohumluqda öz xeyirlərini güdür və "hörmətli ailə" axtarırdılar. Bu onlara öz ailələrinin "hörmət"inin üzərinə hörmət gətirmək imkanı versə də, ailə quracaq gənclərin maraqlarının əksinə də ola bilərdi. Bununla da, gənclər öz hisslərinə görə deyil, valideynlərinin arzu-istəyinə görə evlənmək məcburiyyətində qalırdılar.

Bü günə qədər cəmiyyətdə "kişi və qadının yeri" məsələsi aktual olaraq qalır. Ailədə hər bir addım və davranış bu münasibətin üzərində qurulur. Ən əsası da əmək bölgüsündə bu prinsip əsas götürülür. Qadının yeri əsasən özəl sferada müəyyənləşdirilir.

Bu gün də kəndlərdə böyük-kiçik məsələləri kişilərin ən çox yığışdığı yerlərdə, adətən kəndin ən böyük mağazasının qarşısında müzakirə edilir. Burada problemlər çözülür və başlıcası kənd həyatının və nəsillərarası münasibətlərin sosial nəzarəti həyata keçirilir.

Kənd yerlərində bulaq başı qadınların yığışdığı ictimai məkandır və mühüm məsələləri müzakirə etmək üçün bura çox önəmli yerdir. Bura həm də dincəlmək üçün seçilən ən uğurlu

yerdir, çünki burada qadınlar ev işlərindən azacıq da olsa uzaqlaşa və ev problemlərindən müvəqqəti də olsa azad ola bilirlər. Burada evdə danışıla bilməyən problemlər müzakirə olunur. Bu söhbətləri "qadın sirləri" və "qadın söhbətləri" də adlandırmaq olar.

Qafqaz adət-ənənəsinin konservativ daşıyıcılarından olan Dağıstanda da kənd yerlərində iş bölgüsü çox ciddi aparılır. Belə ki, evdəki iş evin ən böyük qadın üzvü tərəfindən bölünür, çünki ev təsərrüfatının təşkilinə bu qadın cavabdehdir. Beləliklə, işlər bu şəkildə həyata keçirilir: Evin ən yaşlı xanımı yemək hazırlayır, ondan kiçiklər ona yardım edirlər və mal-qaraya, həyət-bacaya nəzarət edirlər. Ümumi qaydaya görə qadının işdən gözü açılmamalıdır, çünki əks halda onlar lazım olmayan məşğuliyyət tapa bilərlər.

Qadına məxsus olan sfera təkcə qadının məşğuliyyət sahəsi kimi qiymətləndirilmir, bu sahə həmçinin onun güc resursunun da qaynağıdır. Yaşlı qadın işi təşkil edir, öhdəlikləri müəyyənləşdirir, o özündən kiçik qadınların ev işlərinin keyfiyyətinə nəzarət edir. Bundan əlavə, həmin yaşlı qadının təşəbbüsü ilə evlilik məsələləri baş tutur. Faktiki olaraq, həmin yaşlı qadının özündən kiçik qadınlar üzərində gücü kifayət qədərdir. Kişilər ev işlərinin yerinə yetirilməsi məsələlərinə qarışmır, yaşlı qadın bütün ev işlərinə olan nəzarəti öz səlahiyyətində saxlayır. Kişilər cəmiyyətdəki gender bərabərsizliyini bu yolla yumşaltmağa çalışırlar.

Müharibələr vaxtı kişilərin öhdəliklərinə kifayət qədər əlavələr olur. Onlar dinc vaxtlarda təkcə təşkilati işlərə nəzarət edirlərsə, müharibə zamanı kəndin məişətinin yaxşılaşmasına, körpülərin möhkəmləndirilməsinə, suyun daşınmasına və s. məsələlərə özləri baxırlar. Evdən kənar işlərin yerinə yetirilməsi əsasən kişilərin üzərinə düşür və qadınlar yalnız evin içərisindəki işlərə cavabdehdirlər. Kişilər kənddəki sosial münasibətlərə icma qarşısında öz ailəsinə görə məsuliyyət daşıyırlar. İcmanın bütün iradları, narazılıqları ailənin başçısı hesab edilən kişiyə ünvanla-

nır. Bu da onun ailə qarşısında məsuliyyətini artırır və ailə üzvlərinə qarşı daha da tələbkar olmasına təsir edir. Kişinin nüfuzu onun ailədəki nüfuzu ilə ölçülür. Kişi ailədə nə qədər çox tələbkar olarsa, ailəsini öz nəzarətində saxlaya bilərsə, onun nüfuzu risk altına düşmür.

Öhdəliklərin sərt şəkildə bölünməsi və bir cinsin digər cins üzərindəki ciddi nəzarəti qadının kişi qarşısındakı tabeçilik statusunu möhkəmləndirir, cinslərin bir-birinə təsir etmə sahəsində, emosional sferada xüsusi gender rejimi yaradır. Qeyd edilən mədəniyyətdə ədalətlilik prinsipinə xüsusi önəm verilir. Şübhəsiz ki, qadının vəziyyəti daha çox özəl sahədən asılıdır, onun ictimai sahədə statusu çox aşağıdır. Onu da qeyd etmək lazımdır ki, kişilər belə sosial strukturda qadınların əməyi olmadan çox gücsüzdürlər. Kişilər icmada qadınlarsız uğur qazana bilmirlər.

Yalnız ailə təsərrüfatında kişi və qadın kooperasiyası nəticəsində "hörmətli" ailə statusu əldə etmək olur. Ailə təsərrüfatı yaşamaq üçün ən əsas mənbədir. Cinsindən və öhdəliklərin bölünməsindən asılı olmayaraq, oradan gələn gəlir bütün ailənin gəliri hesab edilir. "Hörmətli" ailənin maddiyyat və sosial statusu ailənin kənd cəmiyyətindəki uğurunu sığorta edir. Kənddə həyatın sosial təşkili, ev təsərrüfatının saxlanılması ailədən böyük güc tələb edir. Buna görə də, ailə münasibətlərinin normal olması çox vacibdir. Ailə həyatında təkcə ailə üzvləri deyil, qohum, dost, tanış və hətta qonaqlar da müəyyən dərəcədə iştirak edirlər. Şantal Kurilski Ojvenin (1995) qeyd etdiyi kimi, bu tip mədəniyyətlərdə şəxsiyyət ailə və icmanın kollektiv həyatı çərçivəsində əriyir. Əgər burada söhbət fərdi azadlıq və bir cinsin digər cinsə tabe olmasından gedirsə, o zaman onu qeyd etmək lazımdır ki, bu, cəmiyyət daxilində sosial qarşılıqlı münasibət və təsirlə şərtlənir. Cinslərarası fərq nəinki etiraf edilir, hətta norma kimi qəbul edilir, önəmli münasibət kimi bəraət qazandırılır, ailə və icmaya mədəni dəyər kimi inikas edilir. Kənd sakinləri bu münasibətləri ideallaşdırır, çünki onlara görə ailədə qadının rolu elə analıq

və ev sahibəliyinin özüdür, yəni qadının gördüyü ev işləri onun ümdə vəzifəsidir. Qadın-kişi rollarının dəyişdirilməsini kimsə ağlına gətirmir və bu münasibətlərin müzakirəsi qəbul edilmir. Kişi və qadın sferasının qapalı olması, ər-arvad münasibətlərinin ideallaşdırılmasına gətirib çıxarır: "Hər kəs belə yaşayır, valideynlərimiz də sevgisiz evlənmişdilər, hər şey də normal idi, yaxşı da yaşayırdılar". Başqa sözlə, sosial status cəmiyyət tərəfindən qəbul edilmiş ümumi normalardan asılı vəziyyətdə qalır.

**Postsovet dövründə ailələrdə gender münasibətləri: ənənələr və bazar münasibətləri.** Bazar iqtisadiyyatına keçid kəndin gündəlik həyat tərzində mövcud olan standartlara aktiv şəkildə təsir etdi. İslahatlar ənənəvi qaydaları əsaslı şəkildə dəyişdirdi. Ailənin yüksək gəliri onun ailədaxili yaşayışını da dəyişdirdi. Bütün bu dəyişikliklərdə keyfiyyətli təhsilin də rolu az deyildi. Pul gəlirinin artması ailə təsərrüfatına olan marağı azaltmışdır.

2000-ci ilə qədər evlərin strukturu əsasən dəyişilməz qaldığı halda, ailə gəlirinin artması hesabına onlar daha da genişləndi və başqa forma aldı. Evlərdə otaqların sayı ilə bərabər, ev əşyalarının sayı da artmağa başladı. Evlərin böyüməsi sayəsində ailə münasibətlərində də dəyişikliklər baş verdi.

Uşaqların orta məktəbi bitirməsi ilə ailənin xərcləri ciddi şəkildə artmağa başlayır. Onların iri şəhərlərdə təhsil alması və daha sonra uyğun sahədə işə düzəlməsi üçün kifayət qədər pul xərcləmək tələb edilir. Nəticədə, kəndlərdən şəhərlərə, xüsusilə də Mahaçqalaya axın başlanmışdı.

Toy xərcləri də mərhələlərlə toya qədər arta-arta gedir. Qohumların bir-birlərinə etdikləri hədiyyələr böyük bir məbləğ tələb edir. Artıq "hörmətli" ailə statusu ilə bərabər "firavan" ailə statusu da kənd sakinlərinin arasında seçilə bilmək imkanı yaradır. Münasibətlərin bütün formaları artıq ənənəvi normalar çərçivəsindən kənara çıxır və ya əvvəllər, vacib hesab edilməyən bir çox şeylər ailə firavanlığı ilə yoluna qoyulur.

Tədricən yaşlılara olan hörmət də formasını dəyişməyə başladı. Yaşlılar "gənclərdən şikayət" edirlər, çünki onlar gənclərin davranışında onlardan gözlədiklərini deyil, gənclərin arzusuna uyğun gələn dəyişiklikləri müşahidə edirdilər. Ənənəviçiliyə söykənən (yaş, həyat müdrikliyi) dəyərlər getdikcə azalır. Yaşlılara bu dəyərlərə görə deyil, qazandıqları hörmətə görə qiymət verirlər. Onların bilik və təcrübəsi müasir zamanla ayaqlaşmadığı üçün daha az faydalı olur. Yaşlılar ənənəvi normaların pozulduğunu müşahidə edir və belə vəziyyətlə barışmaq məcburiyyətində qalırlar. Ailə daxilində yaşlılara hörmət hələ saxlanılsa da, gənclər aqressivliyə yol verməməyə cəhd göstərsələr də, tabeçilik münasibətlərində münaqişələr müşahidə edilir.

Qeyd etdiyimiz kimi, qohumluq münasibətləri çox mühümdür, çünki bunlar yüzillər boyunca formalaşmış və ailənin nüfuzu bu münasibətlər üzərində qurulmuşdur. Lakin artıq qohumlar arasındakı əvvəlki sıx münasibətlər gözə dəymir, daha az saylı, daha yaxın qohumlarla isti münasibətlər saxlanılır və böyük miqyasda qohumluq münasibətləri müşahidə olunmurdu.

Ev təsərrüfatının iqtisadiyyatı ailənin artan xərclərini ödəmir. İş axtarmaq zərurəti ilə üz-üzə qalan kişilər kəndləri və bəzən respublikanı tərk etmək məcburiyyətində qalırlar. Bu da o deməkdir ki, ev təsərrüfatına olan cavabdehlik, uşaq və yaşlılara qayğı artıq bütünlüklə qadınların üzərinə düşür. Qadınlar öz vəziyyətlərinin ağırlığını tam mənası ilə dərk edirlər, lakin çıxış yolu tapa bilmirlər və mövcud vəziyyətlə barışmaq məcburiyyətində qalırlar, çünki ailə başçısının, yəni kişinin işsizliyi bütün ailənin məhrumiyyəti deməkdir.

Fiziki yükü azaltmaqdan ötrü qadın əvvəlki işlərin bəzilərindən vaz keçirdi. Məsələn, artıq o, xalça toxuyub pul qazanmaq, mal-qaraya baxmaq istəmir. Kişinin qazandığı pulla həm odun, həm də mal-qaraya yem-saman ala bilir, çünki bunları hazırlamaq həddən artıq enerji aparan işlərdir. Beləliklə, pulun rolu və ictimai məşğulluğun əhəmiyyəti artır.

Kişilərin yaşadıqları kənddən kənarda iş axtarmaları onlara baha başa gəlir və bir çox vərdiş etdikləri rahatlıqdan məhrum olurlar: əmək və həyatın qeyri-məqbul şərtləri, keyfiyyətsiz yemək, ailə qayğısının olmaması, ailədən ayrılıq və sairə. Kişi qadın qayğısından və onun əməyindən istifadə edə bilmir. Kişi iş arxası ilə gedərkən ictimai nəzarətdən də kənarda qalır. Ərinin başqa qadınla bir yerdə ola bilmə ehtimalını hər bir qadın anlasa da, "eybi yoxdur, təki pul qazansın" deməklə kifayətlənir. Bəlkə də, bu onunla izah edilir ki, ailələrin əksəriyyəti sevgi üzərində qurulmamışdır, ailəyə təsərrüfat vahidi kimi baxılmış və ailənin stabilliyini qorumaq ən əsas məsələ hesab edilmişdir.

Qadınlarda belə bir fikir formalaşmışdır ki, pul qazana bilməyən kişinin ailə qurmağa haqqı yoxdur. Yaranan iqtisadi çətinliklər ailələrə də təsir etmişdir. Əvvəllər, Dağıstan kəndlərində boşanma halına demək olar ki, çox az təsadüf edilirdi. Son zamanlarda, boşanma halları əvvəlki illərə nisbətən artmışdır.

Dağıstanda əvvəllər çoxarvadlılıq çox az müşahidə olunurdu, bu qadının övladı olmayan ailələrdə baş verirdi. Son zamanlarda isə, çox pul qazanan kişinin bir neçə ailə saxlamasına cəmiyyətdə bəraət qazandırmağa çalışırlar. Son dövrlər, ənənəvi ailə münasibətləri (çoxarvadlılıq da daxil olmaqla) ideallaşdırılır, ailə konfliktləri müzakirə edilmir, əhali çoxarvadlılığa tolerant yanaşır, onlar bunu ənənə, şəriət və dinlə əlaqələndirib müzakirələrə son verirlər.

Maddi təchizatın çətinliyi çoxuşaqlı ailə qurumlarının da transformasiyasına səbəb olur. Əgər 1990-cı illərin əvvəllərində Şimali Qafqaz əhalisi təbii şəkildə artırdısa, son dövrlərdə əhali artımı kəskin aşağı düşmüşdür. Məsələn, təkcə Dağıstanda 1991-ci ildə hər min nəfərə düşən doğum 25,4, 1997-ci ildə 19,8, 2000-ci ildə – 17,6 uşaq olmuşdur (С.Рязанцев, 2002). Artıq müasir kənd ailəsində 2-3 uşaqdan artıq övlad gözə dəymir. Ailələr maddi çətinliyə görə uşaqların sayını artıra bilmirlər. Çoxuşaqlı ailələr övladlarının gələcəyini yaxşı təşkil edə bilmirlər. Ənənə-

vi dəyərlərə görə keçmişdəki çoxuşaqlı ailələrdən fərqli olaraq müasir ailələrdə uşaq sayı əvvəlcədən planlaşdırılır. Artıq ailələr uşaqlarına başqa formada dəyər verirlər və onun gələcəyini təmin etməkdən ötrü əllərindən gələni etməyə çalışırlar. Plansız övlad dünyaya gətirən, uzun illər "dünyaya gələn uşağın ruzisi özündən əvvəl gəlir" prinsipi ilə yaşayan ailələr artıq yoxdur, çünki bu xalq deyimi özünü doğrultmadı.

Son dövrlərdə yaranan maddi çətinliklər, ev işlərinin önəmi və ailədəki uşaqların sayının azalması məsələləri, qadınlarda ev və ya iş arasında seçim etmək çətinliyi yaratmır. Bu bölgənin qadınları hər zaman tərəddüd etmədən ailəni seçirlər, çünki onlar ev sferasına möhkəm tellərlə bağlıdırlar. Hətta kənddən şəhərə köç edən qadınlar da əmək bazarına daxil olmağa səy göstərmirlər. Birincisi, əmək bazarının ağır tələblərinə cavab verə bilmirlər, çünki onların əksəriyyətinin peşəsi yoxdur və hər hansı bir peşə sahibi olsalar belə, şəhər rəqabətinə tab gətirmək üçün təcrübələri yoxdur. İkincisi də, qadınların ictimai seferada iştirakı üçün stimulları yoxdur. Onların statusu əvvəlki kimi, onların ev sahibəlikləri ilə təyin edilir. Üçüncüsü, qadınların ictimai məşğulluq barəsində bilikləri məhduddur: ünsiyyət bacarığı, dünyagörüşünü artırma, ərdən iqtisadi asılı olmama, peşəkarlığı yüksəltmə imkanı və sairə.

Bununla belə, hər kəsə aydındır ki, pul qazanmaqda qadının kişiyə kömək etdiyi ailənin maddi durumu daha yüksəkdir. Buna görə də orta məktəbdə qızların təhsilinin keyfiyyətinə o qədər də önəm verməyən valideynlər, məktəbi bitirdikdən sonra, pulla da olsa, onlara təhsil verməyin tərəfdarıdırlar. Başqa sözlə, əvvəllər valideynlər qızlarını böyüdüb tərbiyə edərkən, ümdə vəzifələrini onlara iş-güc öyrətmək, gələcəkdə düşəcəkləri ailədə istənilən ev işinin öhdəsindən gələ bilmək bacarığı aşılamaqda görürdülərsə, indi onlar qızlarının gələcək karyerası üçün yaxşı təhsil verməyin tərəfdarıdırlar. Artıq ailələr anlayırlar ki, heç bir qadın gələcəkdə tək qalmaqdan sığortalanmamışdır və maddi çətinlik çəkmədən

rahat həyata gedən yeganə yol yaxşı təhsildən keçir. Belə münasibət maddi duruma verilən önəmdən və yeni qurulacaq ailənin maliyyə təməlinin normal olması istəyindən irəli gəlir. Həm də, dediyimiz kimi, qızlara verilən təhsil və onların uğurlu işlə təminatı gələcəkdə uğursuz evliliyin fəsadlarını dəf etməkdən ötrüdür. Bəzən boşanmış qadına əri və onun yaxınları maliyyə köməkliyi göstərmək istəmirlər və ya buna qabil olmurlar. Bəzən, boşanmış qadının maddi vəziyyətini qəsdən bərbad hala salırlar ki, digər qadınlar bundan ibrət götürsünlər. Bir sözlə, hazırki dövrdə qadının işlə təmin olunması lazımi addım kimi qiymətləndirilmir.

Ehtimal etmək olar ki, formalaşmaqda olan emosionallıq, həssaslıq, ehtiras və seksual həzz axtarışı gələcəkdə stabillik, məsuliyyət, qarşılıqlı yardım, zəiflərə kömək kimi xüsusiyyətlərlə xarakterizə olunan qohumluq münasibətlərini, ənənəvi ailə dəyərlərini zərbə altına qoya bilər.

Seksual cazibə və gözəlliyin dəyər olması haqqında təsəvvürlərin meydana gəlməsindən ucadan danışmaq, əvvəllər kimsənin ağlına belə gəlmirdi. Bu da o deməkdir ki, artıq kişilər qadınların ənənəviliyinə, işgüzarlığına, hansı ailədən olmağına verdikləri dəyərlərlə yanaşı onu bir çox tərəflərdən də bəyənmək istəyirlər və hətta yuxarıda sadaladığımız yeni dəyərləri daha önə keçirməyi bacarırlar. Qadının gözəlliyi onun seçilməsi üçün birinci yerə keçməyə başlamışdır.

**Qadın və kişi dəyərləri transformasiya kontekstində.** Qadın və kişi münasibətlərinin patriarxal cəmiyyətdə tədqiqi belə nəticəyə gəlməyə imkan verir ki, hansı dövrdə yaşamağımızdan asılı olmayaraq, hələ də cəmiyyət kişi dominantlığı, kişi üstünlüyü ilə müşahidə edilir. Qadınlar tabeçilik mövqeyində qalmaqda davam edirlər, cəmiyyət və kişilər tərəfindən diskriminasiyaya məruz qalırlar (Миллет, 1999; Ткач 2003: 294). Artıq Dağıstan qadınlarının özlərini ailədə təsdiq etmək imkanları genişlənmişdir. Ənənəvi cəmiyyətdə yaş ötdükcə, qadının statusu artır və

özündən kiçik ailə üzvlərinin üzərindəki idarəçilik gücü çoxalır. Ailə iqtisadiyyatı həmçinin istehsalın əhəmiyyətli sferası, qadın və kişinin özünürealizə sahəsi hesab edilir.

Patriarxal güc münasibətləri elə kiçiyin böyüyə qeyd-şərtsiz tabeçiliyi, qadının kişidən asılı vəziyyəti, uşaqların taleyinin valideynlərinin əlində olması deməkdir. İlk ağla gələn dəyər yaşlılara verilən dəyərdir. İkincisi isə, gənc nəslə xüsusi qayğıdır ki, bu da, mədəniyyətin xarakterik xüsusiyyəti olaraq, hələ də qalmaqdadır. Qadınların ən birinci vəzifəsi uşaqlara qayğı və onlar üçün uyğun ömür-gün yoldaşı tapmaqdır. Kişilərə qayğı isə elə ailənin əmin-amanlığının təminatıdır. Hər iki qayğıda emosiyalar deyil, hislər əsas götürülür.

İnsanların davranışına nəzarətin əsas mexanizmi və patriarxal mədəniyyət böyük ailələrin qohumluq münasibətlərinə xidmət edir. Davranış qaydalarına əməl etməklə, "hörmətli" ailə statusunu qoruyan ailə üzvləri yerli mədəniyyətdə qəbul edilmiş adətlərə riayət edirlər. Məhz qohumlar müxtəlif növ yardımlarla çətin vəziyyətdə bir-birinə kömək edirlər. Ənənəvi mədəniyyətdə kəndin sosial təşkili müxtəlif sosial qrup nümayəndələrinin vəziyyətini yaxşılaşdırmağa, icma üzvlərinə kömək, əhalinin daha zəif qrupuna - uşaq və qocalara dəstəyə istiqamətləndirilmişdir. Bunun da sayəsində mədəniyyətdə kəskin geriləmə müşahidə edilmir. Bütün bunlarla yanaşı, qayda-qanuna əməl etmək hələ də nəzarət altındadır və davranışın deviant (kütlə üçün məqbul olmayan, qəbul edilməyən davranış növü) formalarına yol verilmir.

Son onilliklərdə qohumlar arasındakı sıx tellər getdikcə zəifləsə də, bir-birinə kömək etmək qohumlar arasında yenə də təsadüf edilən haldır. Qohumluq tellərinin zəifləməsi getdikcə artan fərdiyyətçiliyin, bir-birinə kömək etmək isə kollektivçiliyin nəticəsidir. Həmrəylik zərurəti azalsa da, ənənəvi mədəniyyət çərçivəsi qalmaqdadır. Yaşlı nəsil gənc nəsillə konfliktə girməklə, ənənəvi mədəniyyət çərçivəsini saxlamaq istəyir və bu ənənənin daşıyıcısı rolunu oynayır, lakin ölkənin bazar iqtisadiyyatına keç-

məsi həyat şərtlərini dəyişir və kənd əhalisinin bilik və təcrübəsi cəmiyyətin əksəriyyəti ilə əməkdaşlıq üçün yetərli deyildir. Nəticədə, ailə üzvlərinin əməkdaşlığına əsaslanan ənənəvi iqtisadiyyat mövcud rəqabətə tab gətirmir, transformasiyaya məruz qalır.

Tədricən patriarxal mədəniyyətdə güc münasibətlərindəki sərtlik azalır. Daha çox pul qazanan ailə üzvü daha çox gücə sahib olur. Bəzən bu şans qadınlara da nəsib olur.

Ənənəvi cəmiyyətdə güc yaşla (layiqli davranışa görə hörmətli qocalıq) tənzimlənir, həmçinin zəif insanın müdafiə üsulu kimi qiymətləndirilir. Gənc nəsil böyüklərin hörmət və izzətini qazanırsa, davranışı ilə heç bir norma və dəyərlərə zidd hərəkət etmirsə, tədricən güc səlahiyyətini öz əlinə alır. Müasir dövr üçün gənclərə məxsus xarakterik xüsusiyyətlərdən biri də odur ki, nəsillərarası qarşılıqlı öhdəliklərin yerinə yetirilməsində böyük nəslin gücü azalır. Belə vəziyyətə düşən yaşlı insanlar zəif və müdafiəsiz görünürlər. Uşaq və nəvələr valideyn və nənə-babalarına qayğı göstərmək istəmirlərsə, onların qayğısına qalmaq dövlətin üzərinə düşür və bu da çox ciddi sosial problemə çevrilir. Qafqazda qocalara olan qayğı hər zaman fərqli olmuşdur. Burada qocalıq bir növ Tanrının insana bəxş etdiyi mükafat kimi qəbul edilir.

Patriarxal cəmiyyətdə qadının başlıca güc resursu onun dünyaya uşaq gətirmə qabiliyyətidir, övladların sayı artdıqca, qadının statusu da artır. Məhz ailə və uşaqların sayəsində ev təsərrüfatı effektiv idarə olunur və qadının cəmiyyətdə hörmət qazana bilmək imkanı olur. Ev təsərrüfatının və ilk növbədə, bu işdə qadının əmək və rolunun qiyməti onun qohumlar arasında və icmadakı hörmətini möhkəmləndirir.

KİV-in təqdim etdiyi uğur modeli, pulun əhəmiyyəti, ictimai sferanın insan həyatında rolunun artması ev təsərrüfatının funksional əhəmiyyətinin azalmasına səbəb olur. Ev təsərrüfatı prestijli, perspektivli hesab olunmur. Bu sfera hələ də qadınlara aid sahə kimi təqdim edilir. Bundan əlavə, ev təsərrüfatı artıq yerini ictimai sahəyə verir. Öz növbəsində, ev təsərrüfatının əhəmiyyətinin

azalması uşaqların sayının azalması ilə müşaiyət olunur. Əslində, fərdiyyətçilik, peşəkar özünürealizə, normal maddi vəziyyətin olması və azadlığa əsaslanan uğurun yeni meyarları cəmiyyətdə kişilərin movqeyini möhkəmləndirir.

Qafqazın digər bölgələrində olduğu kimi, Dağıstanda da kişilərlə müqayisədə qadın daha az imkana malikdir və onun ictimai sferada həm peşəkar, həm də muzdlu işçi kimi özünürealizə etmə imkanları məhduddur. Ev təsərrüfatının əhəmiyyətinin azalması prosesində evdən kənar işləmək imkanı az olan qadının aktivliyinin kişilərdən asılılığı gün-gündən artır.

## Ədəbiyyat:

**Rus dilində**


1. Здравомыслова О.М. “*Гендерное равенство и равноправие в контексте российского законодательства. Участие женщин в политических изменениях и перспективы гендерного равенства в России*”: законодательство, политика, практика. Материалы научно-экспертного семинара. М. : МЦГИ, ИСЭПН РАН, 2003. 156 е. /стр., 36.
2. Здравомыслова Елена и Анна Темкина, “*Ушел ли в плошлое патриархат? Специфическая власть «слабого пола» // Гендер для «чайников»*-2”/ По ред/ Ирины Тартаковсой. М.: Звенья. 2009, С. 25-43.
3. Курилскиь Ожвэн, Шанталь. “*Русская културная модель и эволюция регулирования семьи // Общественные науки и современность*”. 1995. № 5. С. 155-168.
4. Миллет, Кейт., “*Теория сексуальной политики // Феминизм и гендерные исследования*” / Под общ. Ред. Валентины Успенской. Тверь: Тверский центр женской истории и гендерных исследований. 1999, С. 120-132.
5. Российский Кавказ. “*Книга для политиков*”. / Под ред/ Валерия Тишкова. М. : ФГНУ “Росинформаяротех”, 2007
6. Рубин, Гейл., “*Обмен женщинами. Заметки о «полити-*

*ческой экономии» пола // Хрестоматия феминистких текстов*" / Пер. Под пед. Елены Здравомысловой и Анны Темкиной. ЦПб.: Д. Буланин. 2000, С. 89---140.

7. Рязанцев, Сергей., "*Демографическая ситуация на Северном Кавказе*" // Социологические исследования (Социс), 2002, № 1. С. 77-86.
8. Сулаев, Иманутдин. "*Общественно полезная деятельность Духовного управления мусульман Северного Кавказа хорошо известна уполномоценномы Совета…*", Документы ГАРФ и ЦГА Республики Дагестан о взамоотношениях институтов государства и ислама второй половины XX в. // Отечественные архивы., 2006, №2. С. 84-99
9. Темкина, Анна., "*Подчинение старшим*" vs. *Разрушение патриархата: женская сексуальность в браке (Северный Таджикстан*) // Журнал исследовании социальной политики. 2006., Том 4. №. С. 439-474.
10. Темкина, Анна., "*Сесксуальная жизнь женщины: между подчинением и свободой*"., СПб. : Издательство Европейсского университета в Санкт-Петербурге. 2008.
11. Ткач, Ольга. "*Патриархат по-советски, или Большая семья на большом экране // Гендерные отношения в современноы России: исследования 1990-х годов*" / Под пед. Людмилы Попковой и Ирины Тартаковской. Самара: Издательство университета, 2003. С. 294-316.

# III FƏSİL

# QAFQAZDA GENDER VƏ MƏDƏNİYYƏT

**Qafqaz xalqlarının taleyində rus mədəniyyətinin rolu.** IX əsrdə Qafqaz xalqlarının çoxu Ərəb xilafətinin zülmündən azad oldular. X əsrin sonlarında adıq və alan torpaqları da əsarətdən azad edildi. Məhz həmin dövr Rusiya və dağlı xalqlar arasında əlaqələrinin yaranması kimi xarakterizə edilir. Bu əlaqələr həmin xalqların tarixində əhəmiyyətli rol oynamışdır. Rus-Qafqaz xalqlarının sonrakı inkişafında bu xalqlar arasında olan ticari-iqtisadi, mədəni, hərbi-siyasi əlaqələrin də rolu böyük olmuşdur. X əsrdə Taman yarımadasında Tmutarakan knyazlığı yarandı və beləliklə, bura nəinki siyasi və iqtisadi, həmçinin mədəni mərkəzə çevrildi. Burada rus monastırları tikilir, salnamələr yazılır, baş verən hadisələr mərmər lövhələrdə qeyd edilirdi. Ruslar da, öz növbələrində, Qafqaz xalqlarının mədəniyyəti ilə tanış olmaq imkanına malik olurdular. Rus kilsələrinin tikintisi zamanı Qafqaz ornamentlərindən istifadə edilirdi. Salnamələrdə Tmutarakan haqqında son məlumatlar 1094-cü ilə aid edildi, sonradan. XVI yüzilliyə qədər bu əlaqələrdən bəhs edilmir. Həmin dövr monqol-tatar işğalı dövrünə təsadüf edir. Monqollar istilaya məruz qalan xalqların mədəniyyətini, tarixi abidələrini məhv edirdilər.

Monqol-tatar hakimiyyətinə son qoyulduqdan sonra Qafqazın Moskva ilə əlaqələri davamlı olaraq inkişaf edir. XVI əsrin ikinci yarısından başlayaraq Qafqaz xalqları rus dövlətinin himayəsinə keçirlər. Qafqazın hər bir xalqının bu əlaqə üçün öz səbəbi mövcud idi, bu səbəb həm iqtisadi, həm də hərbi xarakterli ola bilərdi.

XVIII əsrdə əlaqələr daha da intensivləşdi. İ Pyotr Vladiqafqazda yol saldırır (Hərbi-Gürcüstan yolu), Dağıstanın indiki paytaxtı Mahaçqalanın bünövrəsi qoyulur və ona Petrovski

adı verilir. 1921-ci ildə bu şəhərin adı Dağıstanın ləyaqətli oğlu Maxaçe Dakadayevin şərəfinə Mahaçqala adlandırılır.

1769-cu ildə inquşlar da daxil olmaqla, Kabarda xalqları Rusiyanın tərkibinə daxil olurlar. XVIII əsrdə artıq Rusiya ilə Osetiya arasında həm diplomatik, həm də mədəni əlaqələr mövcud idi. 1774-cü ildə Osetiya Rusiya imperiyası ilə birləşdi.

XIX əsrin 60-cı illərindən Şimali Qafqazın bütün ərazisi Rusiya imperiyasının, 1917-ci il oktyabr çevrilişindən sonra Rusiya Federasiyasının tərkibinə daxil oldu. 1917-ci il noyabrın 2-sində sovet hökuməti "Rusiya xalqlarının hüquq Bəyannaməsi" adlı sənəd qəbul etdi. Bu sənəddə aşağıdakılar göstərilirdi:

- Rusiya xalqlarının bərabərliyi və suverenliyi;
- Rusiya xalqlarının öz müqəddəratını təyin etmə və ayrıca müstəqil dövlət kimi fəaliyyət göstərə bilmə hüququ;
- bütün milli və milli-dini imtiyaz və məhdudiyyətlərin ləğvi;
- Rusiya ərazisində yaşayan milli azlıq və etnik qrupların sərbəst inkişafı.

Şimali Qafqaz xalqlarının Rusiya ilə birləşməsi bu xalqların həyatında böyük dəyişikliklərlə nəticələndi. Rus alimlərinin bu xalqların tarixi, etnoqrafiyası, arxeologiyası və mədəniyyətinin öyrənilməsində böyük rolu olmuşdur. Bu alimlərdən S.M.Bronevski, Q.V.Novitski, H.İ.Karlqof, L.Y.Lyulye, F.V.Yuqotnikov və başqalarının adını çəkmək olar.

Daha sonra, SSRİ Elmlər Akademiyasında bu xalqların milli tarixi və folkloru tədqiq edilmiş, onların öz doğma dillərində oxuyub-yazmaları üçün əlifba yaradılmışdır.

Sözsüz ki, yanaşı yaşayan xalqların mədəniyyətlərində hər zaman oxşar əlamətlərə təsadüf edilir. Rusların arasında yaşayan Şimali Qafqaz xalqları da ruslarla qaynayıb-qarışmış və bir-birinin bəzən yaxşı, bəzən də də pis xüsusiyyətlərini götürmüşlər. Qafqaz xalqlarının bir çox sərt adətləri rus xalqı ilə birləşəndən sonra nisbətən yumşalmağa başlamışdır, məsələn, qanla qisas

alma, qız qaçırma və sairə kimi adətlərdə bəzi dəyişikliklər baş vermişdir. Konfliktlər zamanı əvvəllər, silahlar dərhal işə düşürdüsə, indi bu məsələlər daha sivil yolla, məhkəmə yolu ilə həll edilirdi. Əvvəllər, ailə başçısı ailə üzvlərinin həm vəkili, həm prokuroru, həm də hakimi olurdusa, sonralar cinayətlərə baxmaq dövlətin güc qurumlarının səlahiyyətinə verildi.

Sovet hakimiyyəti dövründə bu xalqların həyatında daha ciddi dəyişikliklər oldu. Bu həm də cinslər arasında hüquq normalarının nizama düşməsi nəticəsində baş verdi. Qadınların təhsil almasının məcburi xarakter alması, maddi durumun yaxşılaşması rus milləti ilə bu xalqların yaşayışları arasında fərqi azaltdı və bu xalqların məişətində yaxınlaşma başladı. Qadınların geyimlərində mükəmməl dəyişikliklər baş verdi. İndi rus və yerli xalqların qadınlarının geyimləri bir-birinə çox bənzəyirdi.

Nikahların formasında köklü dəyişikliklər baş verdi. Faktiki olaraq, qız qaçırmaların sayı azaldı və qızlar gələcək həyat yoldaşlarının seçimində azadlıq əldə etdilər.

Nikah zamanı azad seçim və tərəflərin əvvəlcədən tanışlığı qızların həyatında ən əsas dəyişikliklərdən idi. Artıq azyaşlı uşaqların evləndirilməsi halları aradan qaldırılmışdı. Gənclər öz aralarında razılığa gələndən sonra nikah haqqında qərar verirdilər. Kalım (başlıq) vermək qanunla qadağan edilsə də, bunu gizlincə edənlər var idi. Adətə görə oğlan evi gəlinin qohum-əqrəbasına hədiyyələr almalı idi. Başqa millətlə evlənmək halları artdığına görə, bəzi adətlər yoxa çıxırdı. Ruslarla evlənənlərin sayı da kifayət qədər idi. Bu evlilik əsasən qafqazlı kişilərin seçimi ilə olurdu, müsəlman qadınla evlənmək rus kişisinin ağlına belə gəlmirdi.

Artıq evdə uşaq dünyaya gətirmə halları da azalmışdı və hətta belə bir şey baş verirdisə, o zaman evə həkim gətirirdilər. Ailə qadın və kişinin hüquq bərabərliyi əsasında qurulurdu. Adıqlarda təzə gəlinin yerinə yetirməli olduğu bir çox adətlər hələ də mövcud idi. Adətlərə əməl etmək təzə gəlinin ən ümdə vəzifəsi idi.

Adətə görə təzə gəlin qayınatası və digər kişi qohumları ilə birbaşa danışa bilməzdi, lakin bolşevik inqilabından sonrakı dövrdə bu kimi adətlərə o qədər də önəm verilmirdi, münasibətlərdə bir rahatlıq hökm sürürdü.

Qafqazşünas alim S.Draqulov yazırdı ki, inqilab dağlılara tərəf idi və onlara azadlıq gətirmişdi. Draqulovanın dediyinə görə, Şimali Qafqazdan başqa dünyanın hər yerində kişilər təhsildə irəlidə idilər. Təkcə Şimali Qafqaz qadınları bölgənin kişilərindən daha çox təhsilli idilər.

XX əsrdə Şimali Qafqaz qadını kişilərlə bərabər “siyasi, mədəni, iqtisadi sahələrin müxtəlif sferalarında iştirak etmə imkanı” əldə etdi. Təəssüf ki, bütün qadınlar verilən bu hüquqlardan yetərincə istifadə etmək imkanına malik olmadı. Hətta bu gün də Dağıstan qadınlarının yalnız 9 %-i ictimai-siyasi sferada az-çox aktiv ola bilir, qalanlar əsasən, ev işləri ilə məşğul olurlar.

Rus mədəniyyətinin təsiri ən çox Qafqaz qadınlarnın geyimlərində özünü büruzə verirdi. Artıq Rusiyada istehsal edilən geyimlər daha çox gözə dəyirdi. Əvvəlki milli geyimlər, xüsusilə də böyük baş örtüklərinə az-az təsadüf etmək olurdu. Adıq qadınların üst-başlarında rus qadınlarının geyimində təsadüf edilən bütün elementlər var idi: kofta, ətək, don, şarf, ayaqqabı, palto və sairə.

Çərkəz qız və qadınları şəhər stilinə daha çox üstünlük verirdilər. Əvvəllər milli üsluba üstünlük verilirdi, donların qolları və ətəyi uzun olurdu, indi qadınlar bunları xeyli qısaltmışdılar. Toylarda milli geyimlər hələ də geyinilirdi. Bu geyimlərə toydan başqa, bayramlarda da təsadüf etmək olurdu. Əvvəllər kişilər qara, boz, ağ rənglərdən başqa rənglərdə olan geyimləri geymirdilər, indi kişilərin əynində hər rəngdə olan geyimə rast gəlmək mümkündür.

Tədricən, Şimali Qafqaz xalqlarının mədəniyyəti rus mədəniyyətinin ayrılmaz hissəsinə çevrildi. Bu xalqlar bir-birləri ilə sıx ünsiyyətdə olduqları üçün mədəniyyətlərində olan element-

lər onların həyat tərzinə daxil olmuş və bir-birini tamamlamışdı. Şimali Qafqazdakı bəzi şəhərlər - Stavropol, Vladiqafqaz, Qroznı, Mozdok və başqaları - heç bir xüsusiyyəti ilə Rusiyanın digər şəhərlərindən fərqlənmirdi.

**Şimali Qafqaz xalqlarının adətləri və bugünkü sosial-mədəni durum.** Son dövrlərdə Şimali Qafqazda gedən dəyişikliklər haqqında oxucularda təsəvvür yaratmaqdan ötrü, bu bölgədə mövcud olan bir neçə əhəmiyyətli məqam nəzərə çatdırılmalıdır. Şimali Qafqaz bəzi dövlətlər üçün, onların təbirincə desək, təhlükə mənbəyinə çevrilmişdi. Bu təhlükənin səbəbini bəzən bu bölgədə olan adət-ənənələrlə də əlaqələndirirlər. Şimali Qafqaz həddən artıq millət, xalq və etnik qrupun məskunlaşdığı yerdir.

Şimali Qafqazı yaxından tanımaq üçün ilk növbədə bu ərazidə yaşayan millətlər, xalqlar, etnoqruplar haqqında aydın təsəvvürə malik olmaq lazımdır. Şimali Qafqaz əbəs yerə qaynar qazan adlandırılmır. Bu elə bir qazandır ki, onun içində kifayət qədər qarışıq, ağır və mürəkkəb inqredentlər vardır. Nədənsə, Şimali Qafqaz deyəndə yada hər zaman çeçen, inquş, kabardin, balkar və başqa millətlər düşür, lakin burada yaşayan ən çoxsaylı xalqlardan biri də slavyan mənşəli  xalqlardır. Burada yaşayan xalqlardan sayca ən çoxu ruslar, daha sonra türklər və onlardan sonra isə çərkəzlərdir (onlar hazırda adıqlar kimi tanınırlar). Adıq millətinin tərkibinə təkcə çərkəzlər deyil, kabardin, adıq, abxaz, ubıx, abazin və başqa xırda xalqlar da daxildir. Bu qrupun tarixdə öz dövləti: Kabardin çarlığı mövcud olmuş, lakin bu dövlət sonradan parçalanmışdır. Rusiya, Qafqazda ilk rəsmi müqaviləsini, məhz Kabardin xalqı ilə imzalamışdır. İvan Qroznı ilk əvvəl Kabardin knyazları ilə sülh müqaviləsi bağlamış, sonradan Kabardin hökmdarları Moskva çarının idarəçiliyinə daxil olmaq qərarına gəlmişdilər.

Türklərə gəlincə isə, onların qrupuna balkar, qaraçay, noqay və kumıklar daxildir. Bəzi tədqiqatçılara görə onlar Şimali Qafqaza sonradan Əmir Teymurun hücumları nəticəsində köç etmişlər

və bütün bunlara rəğmən, onlar bu gün orada baş verən hadisələrə yetərincə təsiri olan bir xalqa çevrilmişlər.

Əslində, qaraçaylar və balkarlar Böyük Qafqaz Sıra dağlarının müxtəlif tərəflərində yaşayan eyni xalqdır. Həm mədəniyyəti ilə, həm də ənənələri ilə tam olaraq eyni olan bu xalqların yalnız adları fərqlidir. Adıq qrupuna daxil olan çərkəz və kabardinlər Şimali Qafqaz köklüdür, türklər isə sonradan gəlmədirlər. İki etnosun – monqol və türklərin birləşməsi nəticəsində kumık adlı milli qrup yaranmışdır (Алексей Валерьевич Захаров, 2012). Zaxarovun dediyinə görə əsl Şimali Qafqaz türkləri noqaylardır. Ona görə də adətlərindən tutmuş, yeməklərinə qədər bu xalqın digərləri ilə oxşarlığı vardır. Noqay dili XX əsrin əvvəllərinə qədər Şimali Qafqazda millətlərarası ünsiyyət dili idi.

Şimali Qafqazda digər böyük bir xalq vaynaxlardır. Bura çeçenlər, sonra inquşlar və bəzi xırda etnoqruplar daxildir: məlhi, melhestin, dışnin, kistin, akin və sairə. Digər bir xalq isə osetinlər və ya alanlardır. Əslində, alanlar türklərlə çox qarışıq bir xalqdır. Osetinlər iki qrupa bölünürlər: Çənubi və Şimali. Bu bölgünün özündə bir sünilik mövcuddur. Osetinlərin də mədəniyyəti çox qədim və zəngindir. Osetinlərin üçdə ikisi xristian, üçdə biri müsəlmandır. Başqa bir dil qrupu da Dağıstan xalqlarıdır. Bu xalqlar həm dil, həm genetik baxımdan çox fərqlidirlər. Bu xalqların adət-ənənələrini, mədəniyyətlərini ümumiləşdirmək səhv olardı. Bura ləzgi, dargin, lək, tabasaranlar daxildir. Bildiyimiz kimi tarixdə uzun illər Avar çarlığı mövcud olmuşdur və Şimali Qafqazda onların təsiri yetərli qədər hiss edilmişdir. Dağıstanda həmçinin azərbaycanlı, çeçen-akinlər, noqay, kumık və başqa türk xalqları da yaşayırlar.

Bəhs etdiyimiz Dağıstan xalqları çox mürəkkəb qrup hesab edilirlər. SSRİ dağıldıqdan sonra Dağıstan xalqlarının sərhədlərlə bağlı kifayət qədər problemləri ortaya çıxmışdır. Şimali Qafqazda yaşayan digər iki qrupdan biri Ermənistandan gələn ermənilərdir ki, onlar Stavropolda və Krasnodar diyarında məskunlaşmışlar.

Məlum erməni-azərbaycan konflikti baş verdikdən sonra Azərbaycandan gedən ermənilər də buralara köçmüşdülər. Digər etnik qrup yəhudilərdir ki, onlar da özlərini tatlar adlandırırlar. Tatlar demək olar ki, bu ərazidə çox az qalmışdır. Onlar 1980-ci illərdə İsrail və Avropaya köçmüşlər. Tatlar bölgədəki xalqlardan ciddi şəkildə fərqlənirlər və onlar heç zaman digər xalqlarla qaynayıb qarışmamışlar. Tatlar bu bölgədən başqa Azərbaycan, Gürcüstan və Ermənistanda da yaşayırlar.

Həm xristianların, həm də müsəlmanların yaşadıqları Şimali Qafqazda sosial və milli vəziyyət kifayət qədər mürəkkəbdir. Bölgədə həlli gecikdirilən çoxlu sayda sosial problemlər mövcuddur. İşsizlik insanları, xüsusilə də gəncləri çıxılmaz vəziyyətə salır. Bu səbəbdən də bu bölgələrdən həm Mərkəzi Rusiyaya, həm də Avropaya köçüb gedənlərin sayı gündən-günə artır. Bölgəni ən çox tərk edənlər çeçenlərdir. Belə vəziyyətə əsas səbəb əlbəttə, mədəni problemlərdir. Heç kimə sirr deyil ki, Şimali Qafqaz qanunlardan daha çox adətlərlə idarə olunan bir bölgədir, burada ənənəvi qanunlar hökm sürür. Onların dominantlığı hər zaman olub, bu adətlər Şimali Qafqazda gedən bütün proseslərə təsir edir və bölgədəki situasiyanı onlar müəyyənləşdirir. Aydın məsələdir ki, şəriət qaydaları ilə idarə olunan Orta Asiya və ya ərəb ölkələrindəki ənənəvi xarizmatik islam, Şimali Qafqaz ərazisində eyni şəkildə ola bilməz. Adətlərə söykənən idarəçiliklə bütün xalqlar bir arada yaşaya bilməzlər. Onsuz da bu bölgədən çəkişmələr, davalar, müharibələr əskik olmur. Düzdür, bunlar təkcə yerli amillərin təsirindən baş vermir, xarici amillər də bu konfliktlərin baş verməsinə təkan verir. Burada yaşamaq həm müsəlmanlara, həm də slavyanlara çətinlik törədir. Bu bölgə adətlər toplusu ilə idarə olunur, necə deyələr, burada “dağlar qanunu” dominantlıq edir. Bu qanunlar heç bir yerdə yazılmamışdır, lakin bunlar burada yaşayan insanların beyninə elə bir şəkildə həkk edilmişdir ki, milliyyətindən asılı olmayaraq, hər kəs bu qanunlardan asılı şəkildə yaşamağa məcburdur. Məsələn, Osetiyada hamı xristian

inanc sisteminə daxil olan, Müqəddəs Georgi kimi təyin edilən və Ustarji adlanan yerli Allaha (Ana Allah anlayışı da var) dua edirlər. Mövcud adətlərdən irəli gələn sistem tayfaların arasında münasibətlər sistemi yaradır. Qafqazda bunları tənzimləyən iki göstərici vardır: "Özününkü-yad" və "böyük-kiçik". Bütün insani münasibətlər bu göstəricilər üzərində qurulmuşdur. Bu kimi göstəricilər həm adətlər sistemini, həm də insanların davranışını tənzimləyir. Şimali Qafqazda yaşayan yerli vətəndaşlar "özününkü"lərin qarşısında məsuliyyəti nə qədər dərk edirlərsə, "yad"lar üçün bir o qədər məsuliyyətsiz ola bilirlər. "Özününkü"lərə çox şeyin əlçatan olduğu halda, "yad"lar üçün bunlar qadağandır. Şimali Qafqazda bunları nəzərə almayan şəxs çox pis bir situasiyaya düçar ola bilər. Şimali Qafqaz xalqlarının istənilən nümayəndəsi "sivilizasiya prinsipləri üzərində qurulan mədəniyyət"lə üzləşən zaman onun ənənəvi təfəkkürü yerlə yeksan olur və bu da onun "özününkü-yad" identifikasiyasında özünü büruzə verir. Nəticədə, daha təhlükəli ideya və cərəyanları, məsələn, vəhabilik kimi təriqətləri tətbiq etmək üçün münbit şərait yaranır. Bu təriqətin əslində, islamla elə də əlaqəsi yoxdur, daha doğrusu, bu təriqət daha çox islam əleyhinə istifadə edilir və əksər hallarda, müsəlman ölkələrindən deyil, xristian ölkələrindən antimüsəlman qüvvələr tərəfindən maliyyələşdirilir. Bu təriqətə görə əgər ən əziz adamın belə onun prinsiplərini pozarsa, onu öldürmək şəhidlikdir. Bu təriqət son dövrlərdə Şimali Qafqazda çox sürətlə yayılmışdır. Təriqətin buradakı güclü təsiri hər zaman terror təhlükəsinin yayılması üçün zəmin yaradır. Beləliklə də, bugünkü təhlükə adətlərdən daha çox, adətlərin qeyri-təbii hala salınmasının nəticəsi kimi qiymətləndirilməlidir. Bu təkcə müsəlmanlara aid deyildir, slavyanlarda da oxşar proses gedir və bunun nə dinlə, nə də adətlərlə heç bir əlaqəsi yoxdur.

Məhz ənənəvi dayaqlar insanlara yaşamaq, qurmaq, sosial cəhdlərini müvafiq şəkildə həyata keçirmək imkanı verir və bu, insanlara millətlərarası sülh və həmrəylik sistemində yaşama-

ğa şərait yaradır. Düzdür, bəzən bu yanaşma da şərti olur, çünki Qafqazda çox zaman qeyri-stabillik hökm sürür. Bu bəlkə də mövcud iqtisadi və şəxsi maraqlardan irəli gəlir, çünki adətlə bağlı qanunlar insanları öz hərəkətlərini məcraya salmağa məcbur edir, onların bir-biri ilə ümumi dil tapmasına imkan verir. Əks təqdirdə, qan davaları hələ də davam edərdi. Qafqaz çox fərqli məkandır, deyilən sözə və edilən hərəkətə görə hər kəs cavab verir.

SSRİ dağıldıqdan sonra Şimali Qafqazda bir çox dəyişikliklər baş vermişdir. Hər beş-on ildən bir nəsillərin baxışları, adətlər, yanaşmalar nisbi də olsa, dəyişir. Artıq gənclərin özlərindən böyüklərə olan münasibəti də tam başqadır, köhnə ənənələri kor-koranə qəbul etmək istəmirlər. Dəyişmək istəməyən yuxarıların aşağılara, yaşlıların cavanlara olan baxışlarıdır. Məsələn, hər kəs bilir ki, çeçen xalqı demokratiya, müstəqillik, azadlıq sevən xalqdır. Bu xalq bir tərəfdən adətlərini yaşatmaqdan ötrü mübarizə aparır, digər tərəfdən kənardan heç bir göstərişə, heç bir diktatorluğa dözmür.

R. Kadırovun özünün iqtidarda olması çeçen xalqı üçün ənənəvi üsul hesab edilmir, çünki o, hakimiyyətdə ola bilməz. Vaynax ənənələrinə görə onun ölkəni idarə etməsi qaydalara ziddir. Onun bu günə qədər yaşaması belə möcüzədir. Kadırova sadəcə ona görə dözürlər ki, Rusiya Fedrasiyası ilə o, yaxşı dil tapmışdır. Xalqın psixologiyasını yaxşı bilən Kadırov şəriət qaydalarını dirçəltməkdən ötrü əlindən gələni edir. Bununla da o, xalqın əsas kütləsinin məhəbbətini qazanmaq istəyir. O ilk növbədə şəriət qaydalarını qadınlara tətbiq edir və bununla da, xalqın əsas diqqətini böyük məsələlərdən yayındırmağa çalışır. Kadırov özünü müdafiə etməkdən ötrü müxtəlif üsullardan istifadə edir, maraqlı da olsa, onlardan biri keçmiş düşmənlərini öz tərəfinə çəkməkdir. Belələri din xadimlərinin arasında daha çoxdur.

Dağıstanda vəziyyət xeyli fərqlidir. Bu bölgədə hər zaman qadınlara qarşı sərt münasibət mövcud olmuşdur. Hal-hazırda ra-

dikal dini qüvvələr qadınları qeyd-şərtsiz kişilərə tabe etmək və onların ictimai-siyasi aktivliyini zəiflətmək üçün əllərindən gələni edirlər.

Bura Rusiya Federasiyası üçün həm təhlükəli, həm də dost bölgə hesab edilir. Düzdür, burada söhbət Rusiya Federasiyasının tərkibindən çıxmaqdan deyil, kiməsə mane olan qüvvələrin aradan götürülməsindən gedir. Necə deyərlər, daxili müharibə davam edir və hələlik bunun sonu görünmür. Xaricdən maliyyələşdirilən qüvvələr bölgədə qeyri-stabilliyi saxlamaqdan ötrü əllərindən gələni edirlər. İşsizlik davam etdikcə bu yolla pul qazanmaq istəyənlərin sayı da çoxalır. İstənilən halda, bölgədə baş verən ictimai-siyasi vəziyyət ilk növbədə qadınlara təsir edir. Bölgədəki qadınların vəziyyəti xeyli pisləşmişdir, çünki onlar həm evdə, həm də evdənkənar iş yerlərində ağır fiziki işlərlə məşğul olurlar. Qadınların əksəriyyətinin nə ailədə, nə də digər önəmli arenalarda söz demək, qərar vermək haqqı yoxdur.

Kabarda-Balkariyada da vəziyyət ürəkaçan deyildir. 1990-cı ildən bəri burada da situasiya gərginləşmiş və istənilən kiçik qığılcım partlayışa səbəb ola bilər. Bu xüsusilə də gənclər üçün xarakterik haldır. Düzdür, bunun dinlə heç bir əlaqəsi yoxdur. Burada güclü cinayətkar qrup olmasa da, hazırda evdə işsiz-gücsüz oturanlar istənilən siqnalla qısa müddətdə səfərbər ola bilərlər. Bu bir növ flaşmoba oxşayır. İşsizlikdən təngə gələn, pulun müqabilində hər bir işə hazır olan bu qrupla mübarizə aparmaq çox çətindir, çünki evə silah gətirmirlər, istifadədən sonra silahları atırlar və ya gizli bir yerdə basdırırlar. Tutulsalar da onların cinayətdə iştirakını sübut edən dəlillər tapılmır. Onlar "Noqay camaatı" adı altında birləşiblər.

Bildiyimiz kimi Qaraçay-Çərkəz respublikasında buna bənzər bir qrup Basayevin zamanında yaradılmışdı. "Adıqe Xasa" təşkilatının əsasında 1990-cı illərdə yaradılan "Qafqaz xalqları konfederasiyası" separatçı təşkilat dururdu. O vaxtlar xaricdən Rusiyaya geri qayıdan çərkəz-adıqların (XVIII əsrdə onlar Tür-

kiyəyə, ərəb ölkələrinə, İordaniyaya və İrana köç etmişdilər və öz sülalərini yaratmışdılar) bölgədə problemləri mövcud idi. Sonradan qayıdanlar ilə orada qalan çərkəzlər arasında da problem yaşanır.

**Çeçen mədəniyyəti və adətlər.** Qafqaz əhalisi arasında çeçenlər və onların əsrlərlə oturuşmuş adət və ənənələri xüsusi maraq kəsb edir. Ailə ocağı dünyanın bir çox xalqlarına mənsub olsa da, Qafqazda bu başqa önəm daşıyır, xüsusilə də böyük ailələrin ocaq başına toplaşma adəti az da olsa, hələ də mövcuddur. Hətta belə bir deyim Qafqazda hələ də tez-tez işlənir: “Bir ailənin ocağı”. Qafqazlıların bir-birlərinə etdiyi dualar içərisində ən məşhuru: “Ocağınız sönməsin” duasıdır. Uzun iş günündən sonra bütün ailə dincəlmək və dərd-sərlərini müzakirə etmək üçün adətən ocaq başına toplaşırlar.

Ocaq başında edilən söhbətlər ailə üzvlərinin gərginliyinə bir məlhəm kimi təsir edir və təkbaşına həll edə bilməyəcəkləri problemləri bölüşməklə, üzərilərindəki ağır yükü bir növ ailə üzvləri arasında bölərək azaldırlar. Adətən, Qafqazda ocağın qoruyucusu ailənin yaşlı qadınıdır, anadır ya da nənədir. Bu ocaq nəsildən-nəslə ötürülür və adətlər-ənənələr qorunub saxlanılır. Bəzən xalq arasında “ocağın sönsün”, “ocağın düşməninə qismət olsun” və digər bu kimi ən qatı qarğışlar da eşidilir. Qədimdə ailədə növbə ilə ocağın keşiyini çəkir, ocağı sönməyə qoymurdular.

Ocağın üzərindən zəncirdən asılan qazan, çaynik çeçen ailələrində hələ də qalmaqdadır. Çeçen ailələri hələ də oda, ocağa and içirlər. Qarğışlarında da ocaq sözünə tez-tez təsadüf edilir: “Evinin tüstüsü kəsilsin”. Daha sonralar, xüsusilə də, patriarxallıq dövründə başqa ictimai normalar formalaşmağa başladı və oçağın əvəzinə və ya onunla parallel başqa terminlər də isitifadə edilməyə başlandı: “ц1а”-ev, “ц1ийна нана”-ev sahibəsi və sairə. Bütün bunlar ondan xəbər verir ki, çeçen ailələri üçün qadının yeri çox önəmlidir, yəni ailənin ocağı evin sahibəsinə məxsus idi, ocağı ona tapşırırdılar. Patriarxal əsaslı cəmiyyət olsa da, ailənin

ən əsas elementlərindən olan ocaq daima qadının əlində və ixtiyarında qalırdı. Ocağı qorumaqla bərabər qadın evin səliqə-səhmanına, ev təsərrüfatına da cavabdehlik daşıyırdı. Ocaq sahibi olmaqla yanaşı, qadın ailədə bir növ aparıcı qüvvəyə çevrilirdi və ailənin idarəçiliyində xüsusi çəkiyə, sanbala sahib olurdu.

Bütün bunlar onu deməyə imkan verir ki, çeçen ailələrindəki yaşlı qadın nəinki ailənin sahibəsidir, o həmçinin öz növbəsində ailə həyatında çox məsuliyyət daşıyan bir varlıqdır. Ailədə yenicə dünyaya gələn uşağa ad qoymaq çox vaxt ata nənənin ixtiyarında olurdu. Uşağa verilən ada kimsə etiraz edə bilməzdi və ya onu başqa adla çağıra bilməzdi. Ailədəki bütün qadın üzvlərinə ailənin sahibəsi hesab edilən yaşlı qadın nəzarət edirdi. Evdə baş verən bütün məsələlərə görə bu yaşlı qadın məsuliyyət daşıyırdı. Ailənin kişiləri ailədaxili məişət söhbətlərinə müdaxilə etmirdilər, bütün bunlar evin sahibəsi hesab edilən yaşlı qadının səlahiyyətində idi. Bəzi hallarda, yaşlı qadın səlahiyyətlərinin bir qismini ya böyük qızına, ya da böyük gəlininə verə bilərdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində, çeçenlərdə ailələr bir-birləri ilə möhkəm tellərlə bağlı qohum qruplarının elementlərindən ibarət struktura malik idilər. Elə indi də bəzi ailələrdə ailə-məişət tipli ənənələrdə (adət, ritual, bayramlarda) belə əlaqələr qalmaqdadır ki, bunların köməyi ilə ailə-qrup düzəni tənzimlənir və çeçen əhalisi arasında hələ də mövcud olan mədəni-ideoloji bağlarla icmaları tam olaraq saxlamaq mümkün olur.

Ailələrin strukturu müxtəlif olduğu kimi, adətlər də ailənin böyük və kiçikliyindən asılı olaraq dəyişirdi. Kiçik ailələrdə adətən ata-ana və evlənməmiş övladlar birgə yaşayırdılar. Böyük ailələrdə bir neçə nəslin (baba-nənə, ata-ana və atanın qardaşlarının ailə üzvləri, övladları) ailə üzvləri birlikdə yaşayırdılar. Kiçik ailədə isə 2-4 və ya 2-8 nəfər yaşayır, bəzən bu üzvlərin sayı 10-12-yə də çata bilərdi. Birgə yaşayan böyük ailələrin bir çox müsbət xüsusiyyətləri var idi. Burada əldə edilən qazanc bərabər şəkildə ailə üzvləri arasında bölüşdürülürdü və valideyni olma-

yan bacı-qardaşın övladları valideynsizliklərini hiss etmirdilər. Bəzən nəinki yaxınlarının yetim qalmış övladlarını, hətta uzaq qohumlarının da yetim qalmış övladlarını öz uşaqları ilə birlikdə böyüdürdülər. Ümumiyyətlə, Çeçenistanda bu adət indi də qalmaqdadır və təsadüfi deyildir ki, burada uşaq evi, qocalar evi adlı bir müəssisə fəaliyyət göstərmir.

XIX əsrin sonunda çox böyük ailələrə rast gəlmək olmurdu. Hətta kənd yerlərində də artıq əvvəlki kimi bir neçə ailənin üzvləri birlikdə yaşamırdılar. Yeni qurulmuş ailədə ilk övlad dünyaya gələndən sonra başqa evə köçmək adi hal idi.

Kapitalizmin inkişafı patriarxallığa yeni düzən verdi. Artıq xırda təsərrüfatlar azaldı və onlar iri təsərrüfatlar şəklində birləşib fəaliyyət göstərməyə başladılar.

Adətə görə bir neçə oğlu olan valideyn sonuncu oğul övladlarının yanında qalırdı. Bəzən ailənin seçimi ilə bu başqa övlad da ola bilərdi. Lakin ayrı-ayrı yerlərdə yaşamaqlarına rəğmən, qardaşlar əmək fəaliyyətində birlikdə olmağa üstünlük verirdilər. Əməyin təşkili hər zamankı kimi idi, ev işləri qadınlara həvalə edilirdi, çöl işləri evin kişilərinə aid idi. Qadınların ərlərinə yardım məqsədi ilə onlarla birlikdə işləmələri onları ev işindən azad etmirdi. Buna rəğmən kişilər bir qayda olaraq, heç bir zaman “qadın işində” iştirak etmirdilər, çünki belə işlərdə kişilərin iştirakı ətrafdakılar tərəfindən ayıb bir iş kimi qiymətləndirilirdi.

Əslində, keçmişdə Qafqaz xalqları arasında ən çox azadlıq verilən qadın çeçen qadını idi. Subay qızlar və hətta ərdə olan qadınlar heç bir zaman kişilərin yanında üzlərini örtmürdülər və kişilər qadınlara olan münasibətlərində hər zaman səbrli davranırdılar. Burada qızlar və gənc oğlanlar bir-birlərinə hörmətlə yanaşırdılar və cəmiyyət ciddi dağ qanunları ilə idarə olunurdu. Qadına əl qaldırmaq və ya qadını öldürmək cəmiyyət tərəfindən yaxşı qarşılanmırdı və bu hərəkət hər zaman pislənirdi. Qadınlara hörmət o qədər böyük idi ki, hər hansı bir böyük konflikt qadının ləçəyinin yerə atılması ilə dərhal dayandırılırdı. Düzdür,

bu təkcə çeçenlərə məxsus bir adət deyildir, bütün Qafqaz mədəniyyətlərində, xüsusilə də müsəlman xalqları arasında əsrlərdən gələn bir adətdir. Hətta qatil belə olsa, o kişi olmayan bir evdə qadınların yanında sığınacaq tapmışdısa, illərlə izlənilən bu qatilə kimsə toxunmazdı və kimsə ona xətər toxundurmaq üçün həmin evə daxil olmazdı. Qadınların olduğu yerdə dava-dalaş etmək çeçen kişisi üçün rüsvayçılıq hesab edilirdi. Tarixi sənədlərə nəzər salanda şahid oluruq ki, ən qatı cinayətkar belə qadınların yanındadırsa, kimsə ona toxunmaz, çünki belə rəftar çeçen kişisinə yaraşmazdı.

Ərli qadınlarla da bağlı bir çox adətlər mövcud idi. Ərli qadını təhqir etmək, onun ərini təhqir etmək hesab edilirdi. Belə bir hərəkətin cavabı ağır ola bilərdi, intiqam qanla alına bilərdi.

Çeçen adətlərində insanların bütün yaş qrupları üçün davranış normaları mövcud idi. Subaylara qarşı tələblər aşağıdakılar idi: Heç bir subay qız təkbaşına gənc oğlanla görüşə bilməzdi, bu görüş valideynlərin və ya yaxın qohumların iştirakı ilə ola bilərdi. Çeçen rəqslərində də göründüyü kimi, qadın toxunulmazdır. Rəqs edərkən kişi qadına toxuna bilməzdi. Evli cütlüklər valideynlərinin yanında söhbət etməməli idilər. Özündən böyüyün yanında oturmaq düzgün hesab edilmirdi. Evə yaşlı insan daxil olardısa, kiçiklər hər dəfə ayağa qalxmalı idilər. Gəlin hamıdan qabaq yuxudan oyanmalı, hamıdan sonra yatağına girməli idi. İşdən gələn oğul ik növbədə ata-ananın yanına getməli, onların kefi-halı və sağlamlığı ilə maraqlanmalı idi. Böyüklərin yanında siqaret çəkmək onlara qarşı hörmətsizlik hesab edilirdi. Qətiyyən özündən böyüyün yolunu kəsmək olmaz, onlara yol verib, sonra yolunu davam etdirmək olardı. Hamilə qadınla da eyni cür davranılırdı. Qadınlar kişilər olan yerdə yemək yeyə bilməzdilər. Evlənən gənc oğlan öz toyunda iştirak edə bilməzdi. Toyundan bir neçə gün öncə insanların, xüsusilə də valideynlərinin gözü önündə olmamalı idi. Ərə getməyə hazırlaşan qızı atası, qardaşı çağırmayına qədər onların yanına gələ bilməzdi. Hamilə qadın

kişi qohumlarının gözünə görünə bilməzdi. İnsanlar, xüsusilə də gənclər, qarışıq məclislərdə bərkdən danışmamalı, gülməməli idi. İctimai yerlərdə kişilər yaşından asılı olmayaraq, hər zaman qadınlara yer verməlidirlər. Ailə üzvləri bir-birinin yanında açıq geyimdən istifadə etməməlidirlər. Məsələn, ata-qardaşın alt mayka ilə ailə içərisində olması düzgün hesab edilmir. Əks cinsin yanında tualetə getmək ədəbsizlik hesab edilir, ora gizlin getmək olar. Qızların bərkdən danışması ədəb qaydalarına ziddir. Hər hansı bir qızın qonaq getdiyi ailədə qonaqların yanında əyləşməsi pis hal sayılırdı, hökmən içəri girən kimi mətbəxə gedib ev sahibəsinə kömək etməli idi. Oğlanla görüşə gedən qızın danışarkən oğlanın gözlərinin içinə dik-dik baxması ədəbsizlik sayılır, qızın ya yerə, ya da yana baxması məsləhətdir. Çox danışmaq etik qaydalara zidd hesab edilirdi. Valideynlər olan yerdə oğulun övladını qucağına götürməsi, onunla oynaması və hətta onu danlaması düzgün deyildir.

Kişilərə qarşı ədəblə bağlı çoxsaylı tələblər mövcuddur. Çeçen atalar sözlərində çeçen kişisinin davranışı ilə əlaqəli çoxsaylı nümunələrə təsadüf edilir: “Bilmirəm-bir sözdür, bilirəm min”. Yəni az danışmaq, sirr verməmək kişiyə yaraşan xüsusiyyətdir. Səbrlilik kişilər üçün çox önəmlidir: “Tələsən təndirə düşər”. Sözü yerində, ehtiyatla demək məsləhət görülürdü: “Gedər xəncər yarası, getməz söz yarası”. Səbr edib, yerinə görə ağıllı danışmaq çeçen kişiləri üçün çox əhəmiyyət daşıyan xüsusiyyətlərdəndir: “Səbrsizlik axmaqlara məxsusdursa, səbr etmək müdriklikdir”. Kişinin yad adamların yanında qadının üzünə gülməsi yaxşı hal hesab edilmir. Çeçen kişisi öz qadın və uşağını tərifləyəndə bunu çox ehtiyatla etməlidir, həddini aşmamalıdır. Qadınlara kişi işi həvalə etmək çeçen kişisinin təbirincə “Xoruz kimi banlayan toyuq batar” məsəlinə bənzəyir. Maraqlısı odur ki, Qafqazın bəzi bölgələrində yaşayan müsəlman əhali arasında yuxarıda yazılanlara indi də əməl edilir.

Kişi yanında söyüş söyən qadınlar kişilər tərəfindən çox sərt cəzalandırılırlar. Yad kişi ilə münasibət quran qadının ailəsi bunu

rüsvayçılıq hesab edir. Belə davranışa yol verən çeçen qadınını kişilər öz bildikləri kimi cəzanlandırırlar. Onu ya öldürür, ya da öldürtdürürlər. Çeçen kişisi istənilən millətdən evlənə bilər, lakin çeçen qadının digər millətlərə ərə getməsi məqbul sayılmır və qəbul edilmir. Uzaq başı çeçen qadını inquş kişi ilə ailə qura bilər.

Görüş zamanı çeçenlərin ilk sualı "Evdə salamatçılıqdır?" olursa, ayrılanda "Bir şeyə ehtiyacın varmı?" sualı verilir. Özündən böyüklə görüş zamanı ona kömək etməyi təklif etmək lazımdır. Hər hansı bir yaşlı kişi həyətdə böyük bir işin təməlini qoyursa, yaxın qonşular bu işə yardım etməlidirlər. Xüsusilə kənd yerlərində əgər bir evdə bədbəxt hadisə baş verirsə, onların dərdinə şərik olma əlaməti olaraq bütün qonşular qapılarını açıq qoyurlar və bununla da "birinin dərdi hər kəsin dərdidir" fikrini ifadə edirlər. Kənddə rəhmətə gedən varsa, bütün kənd sakinləri dərd sahibinə həm fiziki, həm də maddi-mənəvi kömək təklif edirlər. Dəfnlə bağlı bütün işlər qohumlar və qonşular tərəfindən yerinə yetirilir. Uzun müddət kənddə olmayan hər hansı bir kişini onun olmadığı müddətdə kənddə baş verən bütün hadisələrdən, xüsusilə də bədbəxt hadisələrdən xəbərdar edirlər. Çeçenlərdə çox məşhur bir məsəl var: "Uzaq qohumdan yaxın qonşu yaxşıdır". Bu, azərbaycanlıların da arasında tez-tez səslənən məsəldir. Çeçenlər çox qonaqpərvərdirlər. Belə bir məsəl var: "Qonağın ruzisi özündən əvvəl gəlir". Qonaqpərvərlik haqqında onlarla belə atalar sözü, rəvayət mövcuddur. Bütün Qafqazda olduğu kimi çeçenlərdə də qonaq üçün xüsusi otaq vardır ki, ailə üzvləri bu otaqdan demək olar ki, istifadə etmirlər. Bu otaq qonaq qəbulu üçün hər zaman hazır vəziyyətdədir. Qonaq nə zaman gəlsə, ev sahibi onun qəbulu üçün hazır olur, qonaq üçün azuqə hər zaman nəzərə alınır. Evə gələn qonağa, xüsusilə də, ilk üç gün ərzində sual vermək düzgün hesab edilmir. Ailənin ən şərəfli üzvü kimi qonaq onlarla birlikdə yaşayır. Gələn qonaq evə daxil olanda onun üst geyimini soyunmasına ailə üzvləri yardım edir və ailənin gənc üzvləri hətta onun ayaqqabısını belə çıxarmasına kömək edirlər. Gələn qona-

ğın qəbulu xüsusi hörmətlə həyata keçirilir. Hətta gələn qonaq cinayətkar belə olsa, onun evdə saxlanılması ev sahibi üçün riskli olsa da, həyatını təhlükəyə atar, lakin qonağı ələ verməz. Qonaq üçün hər bir şey cani-dildən edilir. Qonaq heç bir ödəniş etmədən getdiyi evdə istədiyi qədər qala bilər.

Çeçenlərdə "noxçalla" sözü vardır, mənası "çeçen ol" deməkdir. "Noxçalla" sözü çeçenlərin bütün adət-ənənələrini, etiket qaydalarını özündə ehtiva edir. Bu xalqın özünəməxsus əxlaq kodeksi mövcuddur. "Noxçalla"- insanlarla münasibət qura bilmə bacarığıdır, özünün üstünlüyünü nümayiş etdirməmək, təvazökar olmaq qabiliyyətidir, imtiyazlarını gözə soxmamaqdır, ləyaqətililikdir.

Ədəb qaydalarında belə bir məqam var ki, atlı piyadaya öncə salam verməlidir. Əgər piyada atlıdan yaşca böyükdürsə, atlı hökmən yerə enməlidir. "Noxçalla" sözü demək olar ki, bütün çeçen adətlərini özündə birləşdirir. "Noxçalla" elə bir şeydir ki, sən dostsansa, bütün həyatın boyu dostsan, həm sevincli günündə, həm də kədərli günündə bu dostluğu sübut etməlisən. Dağlının dostluğu müqəddəsdir. Bəlkə də, qardaşa olan diqqətsizlik bağışlanıla bilər, lakin bu dosta qarşı olarsa, heç zaman bağışlanmaz. "Noxçalla"- qadına olan xüsusi hörmətdir. Belə bir deyim var ki, bir yolçu yorğun olur və kənddə bir qapını döyür. Evdə kişi olmayan qadın qapını açır, qonağı yedirdir və evində saxlayır. Səhər yuxudan oyanan qonaq qadının qapıda yanan fanarın qabağında oturduğunu görür və başa düşür ki, qadın evdə tək imiş. Tələsik yuyunub yola düşən qonaq özünə cəza olaraq çeçelə barmağını xəncəllə kəsir. Yalnız "noxçalla" ilə tərbiyə görən çeçen kişisi bunu belə edə bilər. "Noxçalla"- çeçen oğlanını ilk gündən döyüşə hazır etməkdir, vətənin müdafiəsində dürma bacarığını öyrətməkdir. Ta qədimdəm bu günə qədər saxlanılan "noxçalla", "azad qayıt" ifadəsidir. "Noxçalla" çeçeni bütün millətlərə sayqı göstərmək hissini aşılayır. Xalq arasında belə bir deyim var: "Müsəlmana etdiyin pisliyin hesabını bu dünyada da olmasa, o

biri dünyada vermək imkanın olacaqdır, lakin başqa bir millətə etdiyin pisliyin hesabını vermək üçün belə bir imkanın olmayacaqdır. ”

Qadınlara qarşı münasibətdə də “noxçalla” əsas götürülür. Kişinin qadına qarşı bir sıra vəzifələri mövcuddur. Nə olursa olsun, kişi arvadını sata, öldürə bilməz. Hətta kişiyə xəyanət etmiş qadını da öldürmək, “noxçalla”ya görə kişiyə yaraşmaz. Onu ata evinə qaytarıb, kalımı geri almaq məsləhət görülür. Lakin lap yaxın qonşu olan kumık xalqında qadının xəyanəti sübut olunsa, ər arvadını qeyd-şərtsiz öldürə bilər və heç kim də bundan ötrü kişini sorğu-sual edə bilməz.

Çeçen adətlərində çoxsaylı qadağalar mövcuddur: qadınla kişinin, gəlinlə ərin kişi qohumları, kürəkənlə gəlinin qohumlarının danışması. Bunlar valideynlərlə övladlar arasındakı münasibətlərdə də özünü göstərir. Bəzi arxaik hesab edilən qadağalar cütlüyün nikaha qədərki münasibətində, nikaha qədər kişinin və evlənəcək qadının ailəsi qarşısında olan tələblərində müşahidə olunur. Məsələn, toyu olacaq gənc toy ərəfəsi ya dostugildə, ya da qohumlarının birinin evində qalmalıdır. Toya dörd gün qalmış nə gəlin, nə də qohumları ilə görüşməlidir. Nikahdan sonra bəy gəlini gizlicə görə bilər. Gəlin müəyyən müddət ərzində nə bəyin qohumları ilə, nə də bəyin dostları ilə danışa bilməz. Bəzən gəlin yaşlanır, lakin ömründə bircə dəfə də olsun qayınatası ilə kəlmə kəsmir. Düzdür, indi bu hala çox az təsadüf edilir. Gəlin bəyin qohumları ilə tədricən danışmağa başlayırdı. Qohumlar gəlinə hədiyyə alırdılar və “mott bastar” (dilin açılması) baş tuturdu. Kürəkən də gəlinin qohumları ilə yaxşı davranmalı idi, onlara qarşı hövsələli olmaq onun borcu idi. Demək olar ki, kürəkənin həyat yoldaşının qohumları ilə tez-tez görüşməsi yaxşı qarşılanmırdı. İnquşlarda isə kürəkən gəlinin qohumları ilə görüşməməli idi. Cütlük bir-birlərini adları ilə çağırmamalı idilər. Kişi valideynlərinin yanında, arvad –uşağı olan otağa girməməli idi.

Bütün Qafqazda olduğu kimi, çeçenlərdə də oturuşmuş gender rolları mövcuddur, yəni qadın işi ilə kişi işi çox ciddi şəkildə bölünmüşdür. Məsələn, çeçen kişisi heç vaxt inək sağmaz, ev yığışdırmaz və çeçen qadını da heç bir zaman mal-qara üçün ot yığmaz, öküzlə tarla xışlamaz və sairə. Əmək bölgüsü zamanı təkcə cins deyil, yaş amili də nəzərə alınır. Təcrübə tələb etməyən bəsit işləri cavanlar yerinə yetirdiyi halda, daha qəliz işləri nisbətən yaşlı insanların iştirakı və ya nəzarəti ilə yerinə yetirirlər. Ailədə görülən hər bir iş ailə üzvlərinin birgə iştirakı ilə edilir. Kişi işləri atanın (ц1ийнада) rəhbərliyi, qadın işləri isə ananın (ц1еннана) rəhbərliyi ilə idarə olunur. Evdə olan ən yaşlı qadın ev işlərini ailədə özündən kiçik qadınların arasında bölüşdürür. Evi hansı qadın yığışdırmalıdır, tikişlə hansı qadın məşğul olmalıdır, suyu hansı qız-qadın daşımalıdır və sairə kimi işlər ailədəki qadınların yaşı və bacarığı nəzərə alınaraq, onlara həvalə edilir. Gəlin qayınana arasında bir-birinə inam yüksək olur, çünki qadınların ailədə həmrəy olması ailə idarəçiliyində önəmli məsələdir, lakin kiçik ailələrdə iş bölgüsü olmur, hansı işi görmək daha vacibdirsə, onu gəlin qayınana öz aralarında həll edirlər. Ümumilikdə, ev işinin çoxu gəlinin üzərinə düşür. Gəlinin işsiz-gücsüz evdə oturması, qonşularla çox söhbət etməsi onun üçün məqbul hesab edilmir. Qonum-qonşular, qohumlar o gəlini tərifləyirlər ki, o, evin bütün işlərinin öhdəsindən layiqincə gəlir, ev-eşiyi təmiz saxlayır və gülərüzdür. Çeçenlər deyirlər ki, "xöşbəxtlik adətən ailə və evə səhər tezdən daxil olur".

Çeçen ailələrində uşağın tərbiyəsinə də xüsusi önəm verilir. Onlar övladlarına lazımi davranış qaydalarını erkən yaşlarından öyrədirlər. Bu qaydalar nəsillərdən nəsillərə ötürülmüşdür. Yeməklə bağlı etiketlərə görə uşaq valideyndən öncə yeməyə oturmamalıdır, yemək zamanı danışmamalıdır. Süfrə arxasında hər kəsin öz bəlli yeri olur. Azsaylı ailədə qonaq olmayanda ailə birlikdə yemək yeyirdi. Əgər evdə qonaq varsa, əvvəl qonaqlarla kişilər yemək yeməli idilər, daha sonra isə qadınlarla uşaqlar

yeməyə başlaya bilərdilər. Böyük ailələrdə bəzən kişilərdən sonra uşaqları yedizdirirdilər və daha sonra qadınlar yeməyə başlaya bilərdilər. Ailənin müxtəlif vaxtlarda yemək yeməsi o qədər də məqbul sayılmırdı. Ailə hər gün ərzağın bərabər bölüşməyinin şahidi olmalı idi. Çeçenlərin deyiminə görə ailə üvzlərinin bir-birindən ayrı yemək yeməsi ailədə ruzini azaldardı. Yemək üçün götürülən çörəyin yarımçıq qalması yaxşı əlamət hesab edilmirdi, ona görə də kəsilmiş çörək son tikəsinə qədər yeyilməli idi. Yarımçıq qalmış çörək yarımçıq qalmış xoşbəxtliyə işarə idi. Həm də bununla çörəyə olan ehtiram nümayiş etdirilirdi.

Çeçen ailələrində övladın fiziki, əmək və mənəvi tərbiyəsinə də çox önəm verirdilər. Uşaqlar və yeniyetmələr ailənin əmək fəaliyyətində, müxtəlif oyunlarda (qaçış, daşı hədəfə atma, at çapma, güləş və sairə) iştirak etməklə, fiziki güclərini artırırlar. Çeçenlər oğlan övladlarını kiçik yaşlarından kişi işinə vərdiş etdirirdilər: mal-qara otarmaq, odun doğramaq, araba ilə məhsul daşımaq və sairə. Oğlanlara at sürməyi, ata qulluq etməyi öyrədirdilər. Onları çətinliyə alışdırırdılar, xarakterlərini möhkəmləndirirdilər. "Dərslər" sadə tapşırıqların icrasını onlara həvalə etməklə başlayırdı və tapşırıqları sərbəst yerinə yetirənə qədər oğlanlar "kişi" işlərinə alışırdılar. Qızlara da ev işləri həvalə edilirdi: ev yığışdırmaq, xəmir yoğurmaq, bişirmək, yun hazırlamaq, tikiş tikmək və sairə. Hətta qızlara özlərindən kiçik bacı-qardaşlarına da qulluq etməyi tapşırırdılar. Qızlar bütün növ ev işlərində analarına yardım edirdilər. Ümumiyyətlə, Qafqazda ana qızın, qız da ananın göstəricisi idi. Belə bir məşhur atalar sözü də Qafqazda tez-tez istifadə edilir: "Anasına bax qızını al". Ana ilə qızın müqayisəsini çeçenlər bu şəkildə ifadə edirdilər: "Нана ерг ю цуьнан йо1Очень", yəni: "anası nədirsə qızı da odur" və ya "Шен нана хилларг хир ю цуьнан йо1"- bu məsəl də eyni anlamda istifadə edilir. Əgər qız iş-güc bilmirdisə, o zaman qızdan çox anası qınaq obyektinə çevrilərdi. Əksinə, hər dəfə iş bilən qızı tərifləyəndə, ilk növbədə onu deyil, anasını tərifləyərdilər. Övladlara bütün vərdişləri ailədə öy-

rədirdilər. Onlara özlərindən böyüklərə, ümumiyyətlə, insanlara yardım etməyi tövsiyə edirdilər. Həyat üçün vacib vərdişləri övladlar valideynlərinin timsalında öyrənirdilər.

Çeçen ailələri xüsusilə qışda soyuq havalarda ocaq başına toplanmağı çox sevərdilər. Böyük nəslin nümayəndələri yeni nəslə keçmiş nəslin şücaətindən, qəhrəmanlığından danışardılar. Bəzən rəvayətlər söylənilərdi, tarixə dönmüş keçmişlərindən söhbət açardılar. Hərdən tapmacalar deyilər və cavabları tapılardı. Atalar sözləri, xalq deyimləri xatırlanardı. Sözsüz ki, məktəblərin, televizorun, İnternetin olmadığı bir zamanda yuxarıda söylənilənlərin əhəmiyyətini xüsusi qeyd etməyə ehtiyac yoxdur.

Şəriət normalarının çeçen ailələrinin tərbiyəsinə, davranışına təsiri böyük olmuşdur. XIX əsrin sonu XX əsrin əvvəllərində çeçen ailələrində demək olar ki, boşanma halları yox dərəcəsində idi. Adətən, övladı olmayan ailələrdə boşanma halları baş verirdi ki, bu zaman boşanma iddiasını qadın özü qaldırırdı. Boşanma zamanı kişi üç dəfə "Ас йити хьо" (tələq) deyirdi. Boşanma zamanı kişi qadının ata evindən gətirdiyi və ailəli olduğu dövrdə öz əməyi ilə qazandığı hər bir şeyi ona geri verirdi. İstisna hal olsa da, bəzən boşanma iddiası qadın tərəfindən də qaldırıla bilərdi, lakin bu qadın cəmiyyətdə ictimai qınaq obyektinə çevrilirdi. Əslində, müasir çeçen ailələrində çox az şey dəyişmişdir.

Faktiki olaraq, bütün dünyada olduğu kimi çeçenlərdə də nikahın əsas məqsədi insan nəslini davam etdirməkdir. Toy mərasimindən sonra bəzi adətlər də bunu təsdiq edir. Məsələn, toy gününün sonunda, ər evinə daxil olan zaman gəlinin qucağına kiçik oğlan uşağı otuzdururlar. Qadın ər evinin kandarına ilk dəfə ayaq basanda onun ayağının altına xəncər qoyurdular. Çeçen gənci 20-25 yaşında, çeçen qızı isə 18-20 yaşında ailə qura bilərdi. Gənc oğlan bir neçə il gec də evlənə bilərdi. Bolşevik inqilabından əvvəl çeçen gəncləri əllərində maliyyə vəsaiti yetərincə olmadığından evlənməyi gec yaşlarına qədər təxirə salırdılar. Bəzən 30 yaşları keçirdi, lakin evlənmək imkanları olmadığı üçün ailə

qurmurdular. Ümumiyyətlə, Qafqazda bir sıra xalqlardan fərqli olaraq, çeçenlər qızları çox erkən yaşlarında ərə vermirdilər.

Adətən çeçenlərdə toylar payız-qış aylarında olurdu. Aprel ayında toy etmək yaxşı hesab edilmirdi, bu ay ququ quşunun ayı hesab edilirdi ki, bildiyimizə görə bu quşların öz yuvası olmur. Evlənmələrin təməli elçiliklə başlayırdı. Nə adət, nə də şəriət valideynlərdən xəbərsiz evliliyi düzgün hesab etmirdi. Yadlarla evlənmək, ekzoqamiya qadağan idi. Hər kəs öz qəbiləsindən, qohum-əqrabasından biri ilə ailə qurmalı idi. Ailə quracağın şəxsin ailəsinin cəmiyyətdəki adı-sanı və təmizliyi maddi vəziyyətdən çox önəmli idi. Başqa millətə, başqa dinə mənsub olan insanla ailə qurmaq kimsənin ağlına gəlmirdi. Şəriət qaydalarının tətbiq edildiyinə baxmayaraq, çoxarvadlılıq çeçenlərin arasında yaxşı qarşılanmırdı.

Çeçenlərin evlənmə adətləri bir neçə mərhələdən ibarət idi. Ailə qurmaq üçün qız axtarılırdı, sonra ona elçi düşülürdü, nişan taxılırdı və sonda, toy edilirdi. Qız təsadüfi hallarda evlənmək üçün qaçırılırdı. Söylənilən hər mərhələnin özü bir neçə hissədən ibarət idi. Toya adamlar dəvət olunmurdu, hər kəs toyda iştirak edə bilərdi: qohum, qonşu, tanışlar. Bəylə gəlin öz toylarında iştirak etməzdilər. Toyda rəqs edərdilər, mahnı oxuyardılar və bəzi ritualları yerinə yetirərdilər. Toy günü bəyin gəlinə hədiyyə etdiyi paltarlara, ümumiyyətlə, bütün bəxşişlərə "baxış" keçirilərdi. Ya toydan az əvvəl, ya da toy günü gəlinin paltarları, zinət əşyaları yaxın qohumların toplaşması ilə nümayiş etdirilərdi. Toydan sonra göyə güllə atmaq adəti gəlinin üzərindəki pis ruhları qovmaq məqsədi daşıyırdı. Müasir dövrdə göyə güllə əvəzinə fişəng atırlar. Toy bitdikdən sonra mövlud oxutma mərasimi olurdu. Molla dəvət edilir və yaxın qohum-qonşuların iştirakı ilə mərasim həyata keçirilirdi. Mövlud oxutdurma adəti indi də davam edir.

Toydan sonra gəlin ev təsərrüfatı ilə məşğul olmalı idi. Bu sahədə də oturuşmuş adətlər mövcud idi. Toydan az sonra piroq-"ч1епалгаш" bişirərdilər və mahnı oxuya-oxuya, rəqs edə-edə

gəlinlə bulağa gedərdilər. Adətin adı “нускал хит1е дакkхар” idi, yəni gəlini su üstünə aparmaq. Bulaqdan sonra yenə də mahnı oxuya-oxuya, rəqs edə-edə gəlini evinə gətirirdilər.

Çeçenlər üçün ailədəki övladın tərbiyəsi hər zaman birinci yerdə duran məsələ idi və elə indi də bu önəm təşkil edir, çünki çeçenlər yaxşı bilirlər ki, övladın gələcəyi onun aldığı tərbiyənin üzərində qurulur. Bu davranış normaları əsrlərin sınağından çıxan tərbiyə üsuludur. Çeçenlərə görə övladın fiziki inkişafı, onun səhhətinin yerində olması, əmək vərdişlərinin gənc nəslə düzgün ötürülməsi kimi vərdişlər insanların həyatda qazandıqları uğurları sığorta edir. Ailə daxilində düzgün davranış normalarına sahib olmaq, ətraf aləmlə düzgün təmas qurmağı bacarmaq kimi vərdişlər cəmiyyətin mükəmməlliyi üçün əsasdır.

**Şimali Qafqazda müasir toy adətləri.** Qafqazın ən yaraşıqlı sakinlərindən biri də qaraçaylılardır. Bildiyimiz kimi adətən, qaraçaylılar bir qadınla evlənirlər və bu qadın da onların dostu, sirdaşı olur. Knyaz xanımlarına yaşamaq üçün xüsusi otaqlar ayrılır və onlar kənar insanlarla təmasa girmirlər. Qəribə adətlərdən biri də gün ərzində ərin xanımının yanına keçmə adətinin olmasıdır, çünki ər xanımının yanına yalnız gecələr gedə bilərmiş. Çərkəslərdə bu adət həm adi ailələrdə, həm də zəngin ailələrdə mövcud idi. Qızlar evdən çox nadir hallarda çıxırlar və əsasən, ev işləri ilə məşğul olurlar. Qızları ərə verərkən kalım alma adəti demək olar ki, bütün bölgələrdə vardır. Toy adətləri çox maraqlıdır, toy bir gün yox, üç gün davam edir. Bir toy mütləq digər evliliklərin təməlini qoyur, toyda iştirak edən gənclər qızlara müştəri gözü ilə baxırlar. Toy zamanı gənclər birlikdə rəqs edirlər və tanışlıq da məhz bu zaman başlayır. Nişanlanma dövrü minimum dörd ay olur və bəzən bir ilə qədər də davam edə bilər.

Nikah baş tutmadan gənc oğlan nişanlısı ilə danışıb görüşə bilməz. Əgər kimsə hər hansı bir qızın namusunu ləkələyibsə, sakinlər məscidə yığışıb müzakirə edirlər və bu işi törədən cinayətkarı da bura çağırırlar. Kənd ağsaqqalı onu mühakimə edir və bu

gənc Qaraçaydan qovulur. Bəzən ailə adı pisliyə çıxmış qızını da götürüb uzaq kəndə köçür. Adına söz çıxmış şəxs evli qadındırsa, onu dərhal atası evinə yola salırlar və bir də ər evinə qayıtmaq haqqını ona vermirlər. Bəzən ata evində belə qız və qadınların sonu faciə ilə bitir.

Evlilik zamanı övladı olmayan knyaz və digər zadəganın xidmətində olan qulluqçu qadınlardan uşaq dünyaya gətirmək haqqı vardır. Bu qadınlar "tuma" və ya "çankua" adlandırılır. Oğlan dünyaya gətirən ana atanın ölümünə qədər uşaqla qalır, onun tərbiyə edilib böyüməsi prosesində iştirak edir və atanın ölümündən sonra "tuma" qanuni olaraq mülkiyyət sahibi olur.

Çərkəzlərdə zadəganlıq köklərinə malik olanlarda qürur hissi çox yüksəkdir. Knyaz yalnız knyazın qızına evlənə bilər, onun kəbindənkənar dünyaya gəlmiş övladı heç bir zaman onun titulunu daşıya bilməz.

Çərkəz kişiləri dar surtuka bənzər mahuddan geyim geyinirlər ki, bu da "çimək" adlanır. Bu geyim növü bütün Qafqazda məşhurdur. Qadınlar qışda mahuddan paltar geyinir və ona xəzlər taxırlar, yayda hazir alınmış ağ paltar geyinirlər. Cavanlar başlarına gümüş işləmələri olan şapka qoyurlar, hörüklərini çiyinlərinə atıb ağ lentlə uclarını bağlayırlar. Yaşlı qadınlar başlarını yüngül baş örtükləri ilə bağlayırlar.

**XIX əsrin sonu XX əsrin əvvəlində Şimali Qafqaz qadınlarının baş örtükləri.** Qeyd edildiyi kimi Şimali Qafqaz xalqları hər zaman öz ənənə, adət və tarixləri ilə digər xalqlardan fərqlənmişlər. Orijinal adətlərdən biri də qadınların baş örtükləri ilə bağlıdır. Ərli qadın ilk övladını dünyaya gətirdikdən sonra saçlarını gizlətməli idi. Baş örtüyünün dəyişdirilməsinin övlad dünyaya gəlməsi ilə olan əlaqəsi ümumiyyətlə, çox qədim dövrlərdən gələn bir adət idi. Bir yaş dövründən digər yaş dövrünə keçidin baş örtüyü ilə simvolizə edilməsi faktı çox maraqlıdır. Ərə gedəndən sonra və ya toy günü qadınların spesifik baş örtükləri taxması bir çox xalqların adətlərində mövcuddur. Şimali Qafqaz xalqları-

nın terminologiyasında qız-gəlin və ya təzə gəlin adları müxtəlif cürdür. Məsələn, kabardinlərdə "nısaşə" təzə gəlin deməkdir, lakin uşaq olandan sonra ona artıq nısa deyirlər. Adıq adətinə görə yeni övlad dünyaya gətirmiş gəlinin qayınatası uşağın papağını alıb, şalı ərli qadının başına bağlamalıdır. Bundan sonra ona çox bahalı hədiyyə verilməlidir ki, bu da çox zaman mal-qara, iri və ya xırda buynuzlu heyvan olurdu.

Ərli qadının baş geyimi adətən çox xırda naxışlarla və ya xətlərlə işlənmiş qara rəngli kiçik şal olur. Bu tip baş örtükləri Şimali Qafqaz xalqlarına XX əsrdə daxil olub. Qadınlar şalın uclarını büküb alnına qədər aşağı çəkir, saçlarını tam gizlətməklə başlarını bağlayırdılar. Qulaqları açıq qoyaraq, yaylığın uclarını hörüyün altından keçirib düyünləyirdilər. Bu yaylığı nə gecə, nə də gündüz açmırdılar. Evdən bayıra çıxanda bu yaylığın üstündən mütləq başqa bir böyük yaylıq və ya şal örtürdülər.

Çeçenistanda isə yaylıq əvəzinə ərli qadınlar saçlarını kisəyə oxşayan çuxta ilə gizlədirdilər. Çuxtanın aşağı hissəsi saçaqlar, tikmələr və ya sikkə (pul) ilə (xüsusilə Çeçenistanın Şərqində) bəzədilirdi. Çuxta tipli baş örtüyü Şərqi Qafqaz üçün xarakterik idi. Bu çuxtaları əsasən gəlinlər taxırdılar, lakin subay qızların da arasında bunu taxanlar tapılırdı. Ortayaşlı və yaşlı qadınlar çuxtaların üstündən iri şal da örtürdülər. Dağ yerlərində yaşayan yaşlı qadınlar başlarını isti saxlamaq üçün şalı başlarına çox qəribə bir üsulla bürüyürdülər.

Şalın uclarını çənənin altından elə bir şəkildə bağlayırdılar ki, saçaqlar başın hər bir tərəfindən sallanırdı. Baş bağlamağın başqa bir üsulu da yaylığı başın təpəsindən aşağı örtüb, uclarını saçlarını altından çarpaz keçirib düyünləmək idi. Bəzən üçüncü şal da örtürülürdü. Ən qəribə baş örtmək forması qaraçaylarda və balkarlarda olurdu. Osetinlər baş yaylığının üzərindən şal əvəzinə çalmalar taxırdılar. Osetinlərdə, çeçenlər kimi üstdən bağlanan şalı alt yaylığının və ya çuxtanın üzərindən elə formada örtürdülər ki, şalın üç ucu çiyinlərindən üzüaşağa sallanırdı.

Adıqlarda və çeçenlərdə üst şal örtməyin başqa bir forması da mövcud idi. Yaylığın sağ ucu sol ucundan daha uzun formada çənənin altına buraxılırdı və sonra başı elə bağlayırdılar ki, sağ tərəf asılı qalırdı. Lakin XX əsrin əvvəllərində rus tipli baş örtükləri dəbə gəldi. Şalın iki ucunu boğazın altından keçirərək boynun dalından düyünləməklə başlarını örtürdülər. Baş örtüyü qadınların ən əsas geyim elementi idi və elə ona görə də, hədiyyə kimi qadınlara baş örtüyü verilirdi. Hər kəsin evdə bir neçə baş örtüyü olurdu. Oğul anaları gəlinlər üçün hədiyyə kimi bir neçə baş örtüyü alırdı. Başqa ölkələrdən də baş örtükləri Şimali Qafqaza daşınırdı. Baş örtükləri əsasən yundan hazırlanırdı və onlar çox zaman narahatlıq yaradırdı. Xüsusilə yay aylarında bu şalların örtülməsi qadınlara əzab verirdi.

Toxunma şallar da istifadə edilirdi. Osetinlər XIX əsrin sonu XX əsrin əvvəllərində az-az da olsa, ipək yaylıqlar örtürdülər. İmkanı olan qız-gəlinlər geyimlərinə uyğun yaylıqlar alırdılar. Şallar bir neçə qrupa bölünürdü:

1) yerli və alınma materiallardan tikilən şallar;

2) yalnız yerli istehlakçılardan alınan parça materialdan hazırlanan, toxunma, hörmə şallar;

3) kustar şəkildə hazırlanan şallar;

4) hazır alınan şallar.

Baş örtükləri əsasən qara rəngdə olur və müxtəlif materiallardan, xüsusilə satin və ipəkdən hazırlanırdı. İpək və pambıq parçadan hazırlanmış böyük şallar əsasən Gürcüstan, Dağıstan və Şimali Qafqazın dağ yerlərində yaşayan qadınlar tərəfindən istifadə olunurdu. XIX əsrin sonu XX əsrin əvvəllərində osetin qadınlar da ipək şallar örtürdülər. Bu şallar tor-tor, kvadrat və ya üçkünc şəkildə təbii rəngdə olur və kənarları baxramalar ilə bəzədilirdi. Bitki şəkilləri ağ saplarla şalların kənarlarına həkk edilirdi. Bu tip şalları qızlar və cavan gəlinlər adətən toy və bayramlarda örtürdülər.

Şimali Qafqaz qadınlarının əksəriyyəti başlarına kiçik həcmli kustar üsullarla hazırlanmış şallar örtürdü. Azərbaycandan gətirilən ipəkdən hazırlanmış nazik yaylıqlar – kəlağayılar qadınlar arasında ən çox istifadə olunan baş örtükləri idi.

Demək olar ki, Şimali Qafqazın hər yerində kəlağayıdan istifadə edilirdi. Azərbaycanda bu baş örtüklərini kəlağayı adlandırmaqlarına baxmayaraq, Şimali Qafqazda onu müxtəlif cür adlandırırdılar: gülmədin, gülməndi, kulim və sairə. Kəlağayılar ya bir rəngdə olur, ya da kənarları kaymalarla bəzədilirdi. Bu baş örtüyü əsasən, ağ və qara rənglərdə olur, bəzən, qara rəngli kəlağayıların kənarları sarı və ya narıncı rənglə bəzədilirdi. Çox da böyük olmayan bu gülməndiləri ərə gedən qadınlar başlarına örtürdülər. Qız uşaqları da bu baş örtüklərini örtürdülər. Şimali Qafqaza Azərbaycan və Qərbi Gürcüstandan yaylıq, şallar, ipək baş örtükləri də gətirilirdi. Çox nadir hallarda Hindistan, İran və Türkiyədən gətirilmiş kustar üsulla hazırlanmış şallara da rast gəlmək olurdu.

XIX əsrin ikinci yarısında Rusiyadan gətirilən şallar da Şimali Qafqaz qadınları arasında populyarlıq qazanmışdı. Bəzən bunlar Avropanın digər ölkələrindən Rusiyaya gətirilirdi. Bu tip şallar bu bölgənin bazarında öz yerini tez bir zamanda tutdu. Bu şallara qızıl saplarla bəzək verilir və bunlar Vşivkina fabrikində hazırlanırdı. Bəzən bu şallar iki-üç rəngin qarışığından, bəzən kontrast rənglərdən hazırlanırdı. Rəngbərəng şallar yerli xanımların xoşlarına gəlmirdi. Bu şalları yerli adamlar "kupets" və ya "kupets şalı" adlandırırlar ki, bu da bəlkə rus dilində "kupets" (tacir) sözündən götürülmüşdür. Bəzən bu şalların üzərində o qədər gözəl tikmələr olurdu ki, sonradan bunlar böyük bir sənət əsərinə çevrilirdi. Şalların üzərinə baxramaların əvəzinə, başqa əl işləri də əlavə edilirdi. Bəzən şallar gümüşdən hazırlanmış iri muncuqlarla işlənirdi və kənarlarına gümüş zəncirlər asılırdı. Hazır yun şallara nadir hallarda rast gəlmək olardı. Bu sadə rəngli, dama-dama, xətt-xətt cizgili yun kaşemir şallar olurdu. Bu tip şalları yaşlı

qadınlar daha çox sevirdilər. Bu şallar bəzən çox böyük ölçülərdə olurdu ki, qadınlar bunları soyuq havalarda təkcə başlarına deyil, çiyinlərinə də örtürdülər.

Rus yaylıqları adı ilə məşhur olan sadə rəngli, pambıqdan hazırlanmış kiçik ölçülü baş örtüklərini qız-qadınlar boğazlarının altından bağlayırdılar. XX əsrin əvvəllərində qadınlar ağ-qara rəngdə ipəkdən, nazik parçalardan hazırlanmış şarflar örtməyə başladılar. Krujeva şarflar qadınlar tərəfindən ən sevilən baş örtükləri idi. Ümumiyyətlə, Qafqaz qadınları baş örtüklərinə xüsusi önəm verirdilər, bunlar əksəriyyət hallarda, həyat yoldaşlarının yaxın qohumlarının hədiyyəsi olurdu və qadınlar bunu qiymətli bir geyim elementi kimi xüsusi qururla başlarına örtürdülər.

## Ədəbiyyat:

**Rus dilində**


1. Алексей Валерьевич Захаров, “*РОССИЯ И СЕВЕРНЫЙ КАВКАЗ: СОВРЕМЕННОЕ ПОЛОЖЕНИЕ*”, 2012
2. Кобычев В.П., “*Города, соления, жилища//Культура и быт народов Северного Кавказа*, (1917-1967 гг.)”, Под ред. В. К. Гарданова. М., 1968.
3. Евграф Савельев, “*ИСТОРИЯ КАЗАЧЕСТВА С ДРЕВНЕЙШИХ ВРЕМЕН ДО КОНЦА XVIII ВЕКА”*, Наука, 1988. — 554 с, М.,
4. Зарайченко В.Е., “*Русская культура в исторической судьбе кавказских народов*” 2012, Ростов-на-Дону
5. 5 Кашежев, Т.П., “*Свадебные обряды кабардинцев / Т. П. Кашежев // Избранные произведения адыгских просветителей̆ / сост*”. Р. Х. Хашхожева. Нальчик, 1980.
6. Кумыков, Т.Х., “*Общественная мысль и просвещение адыгов и балкаро-карачаевцев в XIX — начале XX в.* ” / Т. Х. Кумыков. Нальчик, 2002. С. 53
7. Ковалевский М.М., “*Закон и обычаи на Кавказе”,* В 2 т. М., 1890.

8. Игорь Яковлевич Новицкий, "*Управление этнополитикой Северного Кавказа*" 2011, Краснодар, С, 270
9. *"История горских и кочевых народов Северного Кавказа*: " Сб. статей/Под ред. В. П. Невскои, Ставрополь, 1975—1980. Вып. 1-
10. Леонтович Ф.И., "*Адаты кавказских горцев: Материалы по обычному праву Северного и Восточного Кавказа*", Одесса, 1882-1883. Т. 1-2.
11. Магометов А.Х., "*Культура и быт осетинского крестьянства (Историко-этнографический очерк)",* 1963, DjVu, RUS
12. Текст воспроизведен по изданию: "*Извлечение из Путешествия г-на Клапрота к горам Кавказским*" // Вестник Европы, Часть 64. № 1812
13. Ярослава С., "*Семья и семейный быт народов Северного Кавказа во второй половине XIX-XX века (опыт этнорегионального исследования)",* тема диссертации и автореферата по ВАК 07. 00. 07., доктор исторических наук
1.

## Sovet dövrünə qədər abxaz qadını

Sovet İttifaqı qurulan gündən ölkə qadınlarının sosializm quruculuğu işlərinə qoşulması məsələsi bir nömrəli vəzifə kimi Kommunist Partiyasının qarşısında dururdu. Onların siyasi fəaliyyətini gücləndirmək partiyanın əsas məqsədlərinə daxil edilmişdi. Hələ 1919-cu ildə Lenin yazır: Sovet hökumətində başlanan işlərin uğurla irəliləməsi üçün milyonlarla qadın bu işlərə cəlb edilməlidir və bütün Rusiya qadınları sosializm quruculuğu işlərində fəal iştirak etməlidir. Düzdür, sovet qadınlarının fəaliyyəti ilə bağlı ədəbiyyat bazası mövcud olsa da, bunun xronologiyasını əks etdirən əsərlər azdır. Abxaz qadınlarının inqilaba qədər və inqilabdan sonrakı vəziyyəti, onların ailə münasibətləri, məişətində baş verən dəyişikliklər, Böyük Oktyabr Sosialist İnqilabının onların həyatına təsiri göstərir ki, abxaz qadınları bütün proseslərdə aktiv iştirak etmişlər. Abxaz qadınlarının həyatından bəhs edən həm qeyri-abxaz (Albov, Qan, Maçavariani, Bassariya və başqaları) həm də abxaz əsilli müəlliflər qadınların həyatına həsr etdikləri əsərlərdə onların fəaliyyətindən səthi də olsa bəhs etmişlər. Abxazşünaslar (Dubrovin, Lavrentyev, İoakimov, Savinov, Çernişev və başqaları) qadın həyatı ilə bağlı əsərlərində onlara az diqqət etmiş və bu qadınların həyatını qul həyatına bənzətmişlər.

Ümumiyyətlə, inqilaba qədərki etnoqrafik mənbələrdə, qəzet materiallarında sırf abxaz qadınları haqqında az məlumat verilir. Qadınlar haqqında yazılan yazılarda ya qız qaçırılmasından, ya da qan davasından bəhs edilir, ya da turizm haqqında məqalələr dərc edilirdi. Sovetlər dönəmində dərc edilmiş qəzetlərdə ("Sovet Abxaziyası", "Qırmızı Bzıb") abxaz qadınlarının nailiyyətlərindən bəhs edən azsaylı məqalələr mövcud idi. Bu məqalələrdə abxaz qadınlarının əmək fəaliyyəti və ictimai həyatları ilə bağlı yazılar dərc edilirdi. Buna baxmayaraq, abxazların mənəvi mədə-

niyyətindən, ailə-məişət məsələlərindən, milli xüsusiyyətlərindən bəhs edilən yazılara az-az rast gəlinir. Əslində, arxiv materiallarından bəzi məlumatlar əldə etmək olardı, lakin menşeviklərin hakimiyyəti dövründə bütün arxivlər məhv edilmişdir. Sovetlər dönəmindəki arxivlərdə (Abxaziya Elmi-Tədqiqat İnstitutu və Dövlət Əlyazmalar Müzeyi) kifayət qədər maraqlı məlumatlar mövcuddur, lakin bu materiallarda da qadınların vəziyyəti ilə bağlı məlumatlar çox azdır. Abxaz qadınlarının keçmişindən bəhs edərkən bir şeyi yadda saxlamaq lazımdır ki, XIX əsrin sonlarında bölgədə kapitalizmin bəzi ünsürləri olsa da, əslində Abxaziyada patriarxal-feodal münasibətləri mövcud idi: böyük ailələrdə qan düşmənçiliyi, kəndlərin feodal qaydaları, istismar və sairə. Belə bir şəraitdə abxaz qadınlarının da çiyinlərinə çox ağır yük düşürdü. Həm feodal qanunlarının sərtliyi, həm də patriarxal cəmiyyətin qadınlara münasibətdə olan ayrı-seçkiliyi qadınların onsuz da ağır olan vəziyyətini daha da pisləşdirirdi.

Qadın-kişi bərabərsizliyinin təməli qadın anadan olan gündən başlanırdı. Oğlan uşaqlarının doğulması ətrafa nə qədər sevinc bəxş edirdisə, qızların dünyaya gəlməsi ən yaxşı halda ağır bir sükutla qarşılanırdı.

Keçmişdə savadlı abxaz qadınını tapmaq müşkül bir məsələ idi. İyirminci əsrin əvvəllərində, 1903-cü ildə Abxaziyada dini – ibtidai məktəblərdə cəmi 1053 qız uşağı təhsil alırdı. İkiillik məktəblərdə qız şagird tapmaq mümkün deyildi. Kənd qızlarını kiçik yaşlarından ev və çol işlərinə alışdırırdılar. 1871-ci il islahatlarına qədər ailə qurmamış qızlar feodal malikanələrində işləyirdilər. XIX əsrin ortalarında qızlar qul kimi işlədilirdi. Ərə getməyən qızların gün-güzəranı çox ağır idi. Qızların hökmən əməl etməli olduqları bir sıra ağır adətlər mövcud idi. Qızların ehtiyatsız hər hansı bir davranışı çox ağır nəticələrə gətirib çıxara bilərdi. Qızların öz istədiklərinə ərə getməsi mümkün ola bilən məsələ deyildi. Valideynlərin razılığı olmadan onlar ərə gedə bilməzdilər. Qızın ərə getməsi üçün ondan formal razılıq soruşulurdu. Razılıq

vermədikdə qızlar qaçırılırdı. Ailənin razılığı olmadan baş verən evlilik tərəflərin valideynlərinin düşmənçiliyinə səbəb olurdu.

Qızın nışanlanması və ərə getməsi iki-üç il çəkirdi. Bu müddət ərzində qızın həyatı əsl dustaq həyatına bənzəyirdi. Toy günü gəlinin həyatı lap dözülməz olurdu. Toyu olan gəlin toy mərasimi başlayandan bitənə qədər üzünü aça bilməzdi, yanındakı rəfiqəsindən başqa kimsə ilə danışa bilməzdi. Bu da o zaman mümkün olurdu ki, onlar təklikdə qalsınlar. Toydan bir il, bir il yarım keçməmiş qız valideynlərini görməyə gedə bilməzdi. Valideynə də əvvəl həyat yoldaşı baş çəkirdi, ondan sonra gəlin ora gedə bilərdi.

Qızın ərə verilməsi də problemsiz ötüşmürdü. Qızı oğluna alan valideynlər onun üçün tələb olunan başlıq pulunu ödəməli idilər. Əgər ərə gedəcək qızın normal cehizi yox idisə, onun normal ər tapmaq şansı sıfıra düşürdü.

Toy mərhələsinin mürəkkəbliyi patriarxal başlanğıcdan feodal ənənələrinin birləşməsinə qədər davam edirdi. Onu da qeyd etmək lazımdır ki, patriarxal düzən də tam inkişaf etməmişdi, gəlinə, gəlinin qohumlarına verilən hədiyyələrdən əlavə, onların bir-birlərinə verdikləri qonaqlıqlar da böyük vəsait tələb edirdi. Feodal sisteminin ağırlıqlarının üstünə nikah adətləri də əlavə edilirdi. Ailələrin maliyyə vəziyyətindən asılı olaraq xərclər də artıb-azalırdı.

Ərə gedəndən sonra da iqtisadiyyat və məişət münasibətlərində kifayət qədər çətinliklər mövcud idi. XIX əsrin sonlarında, Abxaziyada çox böyük ailələr bir yerdə yaşayırdılar. Ailələr atalar tərəfindən idarə olunurdu. Əgər ata yox idisə, o zaman ailənin ən böyük kişi üzvü ailə başçısı olurdu. Qadın işlərinə ya qayınana, o yox idisə, ailənin ən böyük gəlini rəhbərlik edirdi. Qadının ilkin evlilik illəri çox ağır keçirdi. Sonralar, xüsusilə də oğlan uşağı dünyaya gətirən qadınların işi nisbətən yüngülləşirdi. Evdəki hakimiyyət despotluq prinsipləri üzərində qurulurdu. Böyüklər kiçiklər üzərində ağalıq edirdilər. Patriarxal məhdudiy-

yətlər abxaz qadının mülkiyyət və varislik hüquqlarına da az təsir etmirdi. Qadının yalnız öz gətirdiyi cehiz onun mülkiyyəti hesab edilirdi. Sonradan qazanılan mal-mülkün qadına dəxli yox idi. Dul qalmış qadın ya oğulları, ya da qayınlarının himayəsi altına keçirdi. Qadınların boşanma hüquqları demək olar ki, yox dərəcəsində idi. Nadir hallarda, yaxın qohumlar kişilərə boşanmağa icazə verirdilər. Ərdə olan qadının evdən qovulmamasının, incidilməməsinin tək sığortası kişi qohumları idi.

Hətta qonaqpərvərlik adəti də qız-qadınların alçaldılması hesabına başa gəlirdi. Yalnız çox yaşlı qadın kişilərlə bərabər bir süfrə arxasında otura bilərdi. Əgər həmin süfrənin ətrafında onunla eyni sinfi statusa malik insanlar olurdusa, onlar həmin süfrədə otura bilərdilər. XIX əsrin sonu XX əsrin əvvəllərində, ərli qadınlar da tam sükunəti qorumaq və süfrə xidmətlərini yerinə-yetirmək şərti ilə süfrə arxasında əyləşə bilərdilər.

Ümumiyyətlə, abxaz ailələrindəki qadınların vəziyyətinə əhəmiyyətli dərəcədə təsir edən amil onların sinfi vəziyyəti idi. Qadının ailədəki roluna onun gətirdiyi cehiz, valideynlərinin maddi durumu və ailəsinin cəmiyyətdəki rolu təsir edirdi. Bu zaman patriarxal xüsusiyyətlər zəifləyir, feodal və feodal-kapitalist qaydaları daha çox təsir gücünə malik olurdu. Sadə kəndli qızının vəziyyəti bir neçə uşaq dünyaya gətirəndən sonra bir az yaxşılaşırdı. Övlad dünyaya gətirmək iqtidarında ola bilməyən qadınların vəziyyəti heç də ürəkaçan olmurdu. Ərli qadınların ən ürəkağrıdan halları onların valideynləri ilə olan münasibətində daha kəskin vəziyyət alırdı: valideyn yanında uşağını qucağa götürməmək, övladını böyüklərin yanında yedirdə bilməmək və sairə kimi xoşagəlməz adətlər. Qadın özünü elə aparırdı ki, bu uşaq sanki onun övladı deyildir. Digər tərəfdən də, dünyaya övlad gətirməklə qürur duyurdu və yəqin bilirdi ki, bu övladı dünyaya gətirməklə, valideynlərinə bir dünya sevinc bəxş etmişdir.

Uşaq dünyaya gələn gün evdə bir sira qaydalara çox ciddi şəkildə riayət etmək tələb edilirdi: Uşaq dünyaya gələn zaman ki-

şilərin və qayınananın evdə olması qadağan edilirdi. Uşağın atası o zaman evə dönə bilərdi ki, uşağın anası tam sağalıb yataqdan qalxsın. Bu kompleks adətlərin içərisində ən önəmlisi evdə atanın ola bilməməsi idi. Yalnız dünyaya uşaq gətirən ananın ər evindəki yeri möhkəmlənirdi və yalnız bundan sonra gəlin bu ailənin əsl üzvü hesab edilirdi. Uşağı olmayan qadının nə dinlə, nə də adətlə ailədə yeri ürəkaçan olmurdu. Bununla da, gəlin həm ailənin soy adını götürür və ailənin gəlini hesab eilirdi.

Abxaz qadınlarının bərabərsizliyinə, hüquqsuzluğuna dini nöqteyi-nəzərdən də bəraət qazandırılırdı. Abxaz xalqının tarixində dinin təhlilinə nəzər saldıqda görünür ki, matriarxat dövrdə qadınlar kifayət qədər hüquqlara malik idilər. Onlar vacib qərarların verilməsi, dini ritualların yerinə-yetirilməsi, torpağa nəzarət edilməsi, evin qorunması, ailə təsərrüfatının idarə olunması, uşaq dünyaya gətirib böyüdülməsi prosesində bərabər şəkildə iştirak edirdilər. Patriarxatlıq dövründə isə, onlar ailə-məişət çərçivəsinə sıxışdırıldı. Qadın işləri, ya evin içərisində, ya da sahədəki işlərlə məhdudlaşdırıldı. Ailənin əsas fiquru kişi hesab edildi və ümumnəsil kultlarının hamısında yalnız kişilər iştirak edirdilər. Bəzi məsələlərdə onlar yalnız tamaşaçı qismində olurdular, bəzən onların əlindən bu haqq da alınırdı. İcraçı qadın bir çox məsələlərdə tədricən passiv rol oynayır və bəzən onu heç bir məsələnin həllinə yaxın buraxmırdılar.

Abxaz qadınların bərabərsizliyi özünü qadınların ictimai proseslərdəki iştirakında daha aydın göstərirdi. Burjua ədəbiyyatında qadınların ictimai fəaliyyəti ilə əlaqəli ziddiyyətli yazılar gedirdi. Bəzi müəlliflərə görə abxaz qadınları ictimai və siyasi məsələlərdə hər zaman öz sözlərini deməyi bacarmış və hətta düşmən tayfalar arasında sülhün bərqərar olması məsələsində də çox aktiv iştirak etmişlər. Bəzi müəlliflər (Averkiev, İoakimov, Lavrentev, Dubravin, Savinov) isə bunun tam əksini yazır və hesab edirdilər ki, abxaz qadınların həyatı qul həyatıdır. Abxaz qadını ərinin qulu hesab edilirdi. Qadınlardan bəhs edərkən ən əsas məsələ həmin

qadının sinfi mənsubiyyəti idi. Onun sinfi mənsubiyyəti ilə, cəmiyyətdəki mövqeyi arasında harmoniya var idi. Knyaz və zadəgan ailələrinə mənsub qadın – mülkədar arvadı cəmiyyətdə mövcud olan bütün imtiyazlardan istifadə edirdi. Belə qadınlar dul qaldıqda ərlərinə məxsus olan hüquqlar avtomatik olaraq onların ixtiyarına keçirdi. Onlar tayfaların idarə olunmasında, məhkəmə proseslərində bərabərhüquqlu vətəndaş kimi iştirak edirdilər. İctimai yerlərdə belə təbəqədən olan qadın adətlərin əksinə olaraq, kəndli kişiyə yol vermirdi: Atlı dəstələrlə müşayət olunan bu qadın, kişini gözləməyə məcbur edirdi. Torpağa, böyük cehizə sahib olan, sanballı qohumlarına güvənən belə qadın ərinin mənsəbindən asılı olmayaraq, öz-özlüyündə cəmiyyətdə yüksək gücə malik idi.

Bununla bərabər, cəmiyyətdə abxaz qadınların əksəriyyətinin vəziyyəti dözülməz idi. Sadə kəndlinin həyat yoldaşı adi abxaz qadının, qızın idarəçilikdə heç bir iştirakı yox idi. Onlar məhkəmələrdə ümumiyyətlə, iştirak etmirdilər, nadir hallarda buna yol verildikdə isə, ya marağı olan şəxs kimi, ya da şahid kimi çıxış edirdilər. XIX əsrin birinci yarısında təhkimli kəndli kişinin həyat yoldaşı və qızı mülkədarların evində işləməyə məcbur idilər və onlar bəzən mülkədar qızının cehizinin tərkib hissəsi hesab edilirdi. Borclu kəndlinin qızı mülkədar ailəsinə qul olaraq təhvil verilirdi. Kasıb yaraşıqlı kəndli qızları bəzən satılaraq, əldən-ələ keçirdi. Bu qullar və onların kəbindən kənar övladlarına cəmiyyət o qədər pis nəzərlə baxırdı ki, ən adi kəndli belə bu insanlarla qohum olmağı özünə sığışdırmırdı. Düzdür, sonralar islahatlar nəticəsində qullar azad edildi, insanların qul edilməsi qadağan olundu, lakin uzun illər belə vəziyyət dəyişmədi, belə qadınların sahibindən asılılığı davam edirdi.

Qul həyatı yaşayan qadınlara nisbətən yaşlı qadınlara üstünlük verilirdi, belə ki, ictimai yığıncaqlarda onlara müdrik məsləhətlər üçün müraciət edirdilər. Belə qadınlar bu yığıncaqların gedişatına az təsir etmirdi.

Abxaz qadınların böyük əksəriyyətinin həyatının qul həyatından fərqi az olsa da, inqilaba qədərki dövrdə onlarının heç bir ictimai fəallığının olmamasını da birmənalı şəkildə qəbul etmək düzgün olmazdı. Belə bir yanaşma tarixi saxtalaşdırmaq olardı. İki əsas ünsür abxaz qadının nisbi azadlığına işarə idi. Birincisi, güclü patriarxat rejim şərtləri ilə yaşayan abxaz qadınlarının geyimlərində, hələ də matriarxat dövrün ünsürlərini özündə ehtiva edən çox elementlər tapmaq olardı. Matriarxat dövründən qalan əlamətlərə təkcə abxaz mifologiyasında, abxaz qəhrəmanlıq eposlarında deyil, real həyatda da təsadüf edilirdi. Məsələn, ailə-nikah məsələlərində, uşaq dünyaya gətirmə prosesində bu əlamətlərə hələ də təsadüf etmək olardı. Ananın razılığını almadan nə qızı ərə vermək, nə də oğulu evləndirmək olardı. Qadın da məhkəməyə müraciət edib boşanma iddiasını qaldıra bilərdi. Ərin qadınla kobud rəftarına görə qadının qohumları onu cəzalandıra bilərdilər, qadınlar ictimai yerlərdə görünə, ictimai tədbirlərin əksəriyyətində, ümumxalq bayramlarında iştirak edə bilərdilər. Ailədə qadınlara başçı təyin edilən qadının vəzifəsi, təkcə ailədəki qadınların əməyinin təşkili, onlar arasında əməyi ədalətli bölmək deyildi, o həmçinin ailə şurasında kişilərlə bərabər iştirak edir və qərarların qəbul edilməsində müəyyən hüquqa malik idi. Bu hüquqdan istifadə edən həmin qadın çox vaxt ailədəki digər qadınların maraqlarını təmsil edirdi. Hətta feodal dövründə, qadınların hüquqlarının çox məhdud olduğu bir zamanda da qadınlar fəaliyyətsiz qalmır və ağbirçək kimi öz sözlərini deməyi bacarırdılar. Bəzən nəslin intiqamını alan da elə qadın olurdu. Hərbi əməliyyatlarda da qadınların yardımı olurdu və bəzən onlar kişilərlə çiyin-çiyinə vuruşurdular. Müstəqillik uğrunda uzun illər mübarizə aparan, belə qadınlardan biri, XIX əsrin qəhrəmanlarından olan Almas Kucba idi. Onun adını Abxaziyada bilməyən yoxdur.

İkinci əhəmiyyətli amil abxaz qadınının əməyinin ictimai xarakter alması idi. Patriarxallığa rəğmən, qadın öz əməyi ilə ailədə və hətta cəmiyyətdə də xüsusi çəkiyə sahib ola bilirdi. Abxaz

qadınlarının vəziyyəti kapitalizmin gəlişi ilə XIX əsrin sonuna doğru pisləşməyə başladı. Qadınların məişət mənşəli əməkləri öz əhəmiyyətini itirir və sadə abxaz kəndli qadının vəziyyəti həm ailədə, həm də cəmiyyətdə daha da pisləşirdi.

Təbii təsərrüfatın parçalanması, əmtəə münasibətlərinin və fərdi əməyin inkişafı böyük ailə əməyini kiçik ailə əməyi ilə əvəz etdi. Qadın əməyinin ölçü meyarları dəyişdi. Böyük ailələrdə əməyin qadınlar arasında ədalətli bölünməsi əvəzinə, onun əməyi kişi əməyinə əlavə yardım kimi qiymətləndirildi. F. Engelsin təbirincə desək, "ev təsərrüfatı cəmiyyətin marağından çıxdı və özəl xidmət şəklini aldı, qadın ən əsas xidmətçi statusunu aldı və beləliklə də, ictimai təsərrüfatdan uzaqlaşdırıldı" (Енгелс, 1937: 96).

## Sovet dövründə abxaz qadını

Ailə məişətinə daxil olan, matriarxat dövründən qalan elementlər kapitalist patriarxal cəmiyyətində tam yoxa çıxdı. Gürcüstan SSR Ali Sovetinin deputatı V. N. Xaraziya XIX əsrin sonu- XX əsrin əvvəllərində abxaz qadınlarının vəziyyətini belə səciyyələndirir: "Keçmişdə abxaz qadını hüquqsuz və çətin həyat şəraitinə malik idi. Ailədə dünyaya göz açan qızlara görə valideynlər sevinmək əvəzinə kədərlənirdilər" (Советская Абхазия, 1936, номер 55).

4 mart 1921-ci ildə Abxaziya İnqilab Komitəsi Lenin və Stalinə aşağıdakı məzmunda teleqram vurmuşdular: "Zəhmətkeş işçilərin səyi nəticəsində, yeni sosialist respublika - Abxaziya dünyaya gəldi". Bu hadisə Suxumidə mart ayında baş verən iğtişaşdan sonra baş tutdu. Onlar Suxumidə menşevik hökumətinə qarşı qiyam qaldırmaqla, Qızıl Ordunun köməyi ilə Abxaziyada sovet hökumətini qurmağa nail oldular. Beləliklə də, Abxaziya patriarxal-feodal və kapitalist rejimindən sosialist rejiminə qədəm qoydu.

İnqilabdan sonra Abxaziya sosializm quruculuğu yollarında əldə etdiyi nailiyyətlərə görə Lenin ordeni ilə mükafatlandırıldı.

Bu mükafatın alınmasında Abxaziya qadınlarının əlahiddə rolu olduğunu kimsə dana bilməz. 1918-ci ildə Lenin qadınların nicat yolunun sosializmdən keçdiyini yazırdı (V.İ.Ленин, 1921: 286).

Stalin qadın əməyini belə qiymətləndirir: “Kolxozlardakı qadınlar-güclü qüvvədir, bu qüvvəni istifadəsiz qoymaq ən azı cinayətdir”. Bütün çatışmazlıqlara baxmayaraq, Sovet dövründə Qafqaz qadının həyatı yaxşılığa doğru dəyişdi. Təkcə savadsızlığın ləğvi neçə-neçə qadının həyatında dönüş yaratdı.

Sovet hakimiyyətinin ilk illərindən dövlət başçısı qadınların ictimai həyata inteqrasiya etməsi istiqamətində siyasət aparmaq haqqında göstəriş verdi və onları da ictimai-siyasi həyatda bərabər hüquqlu vətəndaş elan etdi. Bu işin həyata keçirilməsini Suxumi Qadın Şöbələri öz üzərilərinə götürdü. Suxumidə fəaliyyət göstərən bu şöbələr ilk növbədə qadınların məişətində rahatlıq imkanlarını yaratma yollarını axtardılar. Əmək fəaliyyəti ilə məşğul olan qadınların övladları üçün bağça-yaslilər tikildi, qadın məsləhətxanaları istifadəyə verildi, qadınların təhsil almaları üçün şərait yaradıldı. Qadınların ictimai fəallığını artırmaq üçün dövlət kifayət qədər aktiv siyasət yeridirdi.

Sovet Abxaziyasının qadınları nəinki ölkəsinin qanunlarını yaradırdılar, həm də həmin qanunların həyata keçirilməsində yaxından iştirak edirdilər. Məhkəməyə müraciət etməyə haqqı olmayan abxaz qadını artıq məhkəməni idarə edirdi. M. D. Korsua və L. V. Dzidziquriya uzun illər xalq məhkəməsində fəaliyyət göstərmişlər. 1949-cu ildə xalq məhkəməsinə çoxlu sayda qadın seçilmişdi.

Nəticədə, abxaz qadının təsərrüfat rolu dəyişməyə başladı və onlar artıq ictimai-siyasi arenada aktiv iştirak etməyə başladılar. Bununla da, abzax qadının məişət həyatı, ailə vəziyyəti kökündən dəyişdi. Qızlar artıq ailədə yük hesab edilmirdilər. Qızların dünyaya gəlməsini ailə artıq sükunətlə deyil, normal qarşılayırdı.

Abxaz ailələrində adətlər yenilənir, qızlar, qadınlar ictimai, iqtisadi sahələrdə eyni hüquqlu vətəndaşlar kimi fəaliyyət göstə-

rirdilər. Qızları erkən yaşlarından ev işlərinə alışdırsalar da, bu onların digər fəaliyyətlərinə əngəl törətmirdi. Onların vaxtlarının çox hissəsi dərsdə, məşğələlərdə keçirdi. 1937-ci ildə 61230 abxaz məktəblisinin 25444 nəfərini qızlar təşkil edirdi. Bu qızların əksəriyyəti onillik təhsil almışdılar. Ali təhsilli abxaz qızlarının da sayı durmadan artırdı. Xalq təsərrüfatının elə bir sahəsini tapmaq olmazdı ki, orada abxaz qadını fəaliyyət göstərməsin.

Bütün yuxarıda qeyd edilən amillər qızların ailədəki vəziyyətlərinə təsirsiz ötüşmürdü. Əgər əvvəlllər qızlar qeyd-şərtsiz özündən böyüklərin arzu və istəklərinə tabe olurdularsa, indi tələbə qızın, kolxozçu qızın, təhsilli qızın qərarı evdə-ailədə hörmətlə qarşılanırdı. Əvvəllər atalar ümumiyyətlə, qızları ilə heç bir ünsiyyətə girmirdilər, onlara deyiləcək sözlər analarına deyilirdi. Artıq ailələr heç bir sənətdə oğlanlardan geri qalmayan qızları ilə birmənalı şəkildə fəxr edirdilər.

Nikaha daxil olma prosesində də kifayət qədər dəyişikliklər baş vermişdi. Artıq nikaha daxil olan abxaz qadını qərarını özü verirdi. İqtisadi-siyasi bərabərlik əldə edən abxaz qızı qərarında qətiyyət göstərir və onun icazəsi olmadan qız qaçırılması mümkün deyildi. Keçmişdə yalnız yüksək statuslu qızlar ailə quranda öz seçimlərini edə bilərdilərsə, indi hər bir abxaz qadını mənsubiyyətindən, iqtisadi vəziyyətindən asılı olmayaraq, gələcək həyat yoldaşını özü seçirdi. Nişanlandıqdan sonra nişanlılar hər kəsin gözü önündə görüşüb söhbət edə bilərdilər. Toy adətləri artıq çox sadələşmişdi. Dinlə, adətlə bağlı ənənələr saxlanılsa da, artıq ərə getmək qızlar üçün xidmətçilik həyatı deyil, həmçinin xoşbəxtlik, sevinc mənbəyi idi.

Abxaz qadınının ailədəki vəziyyəti dəyişmişdi. Ailə gəlinə xidmətçi kimi deyil, ailənin digər üzvləri kimi baxırdı. İndi kənd yerlərində qız-gəlinlər böyüklərin yanında köhnə adətləri saxlayırdılar. Əvvəlki kimi sərt şəkildə deyil, yalnız yaşlılarla bağlı bəzi adətlər hələ də saxlanılır.

Sovet Abxaziyasında qadınlarla kişilər bərabər hüquqa malik idilər. Kişilərlə bərabər qadınlar bütün sahələrdə fəaliyyət göstərirdilər. Beləliklə, Sovet dönəmlərində çox şey dəyişdi, vətəndaşlar üçün dövlət evlər tikdi, tibb məntəqələri təşkil edildi, məsləhətxanalar istifadəyə verildi. Yeni uşaq dünyaya gətirən gənc ana heç bir ödəniş etmədən istədiyi vaxt uşağının həkimindən məsləhət ala bilərdi. Evlərdə körpə dünyaya gətirmək çox nadir hallarda baş verirdi. Ailələr azyaşlı övladları üçün dövlətdən müavinat alırdılar. Çoxuşaqlı ailələrə dövlət qayğısını əsirgəmir, uşaqların sağlam böyüməsi və təhsil almaları üçün bütün dəstəyini verirdi. Artıq ailələr uşaqlarının gələcəyindən əmin idi və bundan ötrü əndişələnmirdilər. Leninin sovet qadınları haqqında verdiyi proqnoz abxaz qadınına da şamil edilmişdi. O, yazırdı: "Sovet Respublikasında qadını asılı vəziyyətə salan qanunlardan daş üstündə daş qalmadı" (Ленин, 1922: 468).

SSRİ-nin dağılması bir çox xalqlara müstəqillik bəxş etsə də, Qafqaz qadınlarının həyatında, gender münasibətlərində neqativ məqamlar gözə dəyməyə başladı. Uzun illər şəriət qaydalarının xiffətini çəkən Qafqaz kişisi bu fürsəti SSRİ dağıldıqdan sonra əldə edə bildi. Sovet dövründə bir sıra hüquqlar əldə edən Qafqaz qadını təəssüf ki, sovet rejimi dağıldıqdan sonra bunları çox sürətlə əldən verdi. Qafqazın bir çox müsəlman qadını kimi, abxaz qadını da Rusiya Federasiyasının tərkibində olmasına rəğmən, bu dövlətin qanunları ilə deyil, şəriət qaydaları ilə yaşamaq məcburiyyətində qaldı.

**Ədəbiyyat:**

**Rus dilində**

1. Енгелс, "*Происхождение семьи, частной собственности и государства*", М., 1937, г., стр. 96
2. Ленин, собр., изд. 3, т. 23., 1921, Стр. 286
3. Ленин, соч. изд., 3, т. 24, 1922, стр., 468
4. Советская Абхазия, 1936, г. номер 55
5. Сталин, собр. Соч. Изд., 1, т 7, 1951, стр. 48

# IV FƏSİL

# QAFQAZDA GENDER VƏ TƏHSİL

**XIX əsrin sonu XX əsrin əvvələrində Qafqazda mədəni islahatlar və gender problemləri: Azərbaycan nümunəsində.** XIX əsrdə Qafqazın Rusiya imperiyası tərəfindən istilasından sonra çarizm siyasətinin əsasını yerli ənənələri dağıtmaq və "ruslaşdırma" siyasətini gücləndirmək təşkil edirdi. Çar məmurları regionda əhalinin adət-ənənələri ilə tanış olmadan, buna asanlıqla nail olacaqlarına əmin idilər, lakin dini-ənənəvi etiqadlarına çox sadiq olan qafqazlıları öz tarixi köklərindən ayırmaq o qədər də asan olmadı və bu siyasətin yürüdülməsi demək olar ki, əksər hallarda, qeyri-mümkün oldu.

Adət-ənənələr nə qədər güclü olsa da, dünyada gedən proqressiv proseslər Qafqaza da təsir etmişdi. Sənayeləşmənin bu bölgələrə nüfuz etməsi sözü gedən prosesi daha da intensivləşdirmişdi.

Nəticədə, dünyanın bir parçası olan Qafqaz da sivilizasiya dəyərləri ilə üzləşmiş və mədəni transformasiya mərhələsinə qədəm qoymuşdu. Transformasiya prosesi XIX əsr boyu davam etmiş və XX əsrin əvvəllərinə qədər uzanmışdı. Bu proses təhsil də daxil olmaqla, mədəniyyətin bütün sferalarını əhatə etmiş və milli maarifçiliyin üzə çıxmasına təkan vermişdi.

Qafqazın müsəlman bölgələrində mədəniyyətə təsir edən başqa bir önəmli amil rus dilinin yerli ədəbi dillərin formalaşmasına təsiri idi. 1905-ci ildə Rusiyada elan olunmuş "Oktyabr manifesti" Qafqazda müsbət qarşılanmışdı. Bu hadisə demokratik prinsiplərin yayılmasında, azad mətbuatın fəaliyyətində önəmli rol oynamışdı.

Hər zaman Şərqdə proqressiv hərəkatın pioneri olması ilə seçilən Azərbaycan bu dəfə də fərqləndi. Akademik A.Sumbatzadənin yazdığına görə 1903-1917-ci illər ərzində Azərbaycanda 40 qəzet, 20 jurnal nəşr edilirdi. O dövrdə Tiflis Azərbaycan ziyalılarının ən sıx toplaşdığı məkan idi. Milli mətbuatın ilk nümunəsi olan "Əkinçi" qəzeti bütün bölgələrdə yayılırdı. Bildiyimiz kimi, H.Zərdabinin redaktorluğu ilə çıxan "Əkinçi" (1875) qəzeti 300 tirajla nəşr edilirdi. Demokratik ideyaların yayılması, cəhalətin tənqidi bu qəzetin əsas hədəfi idi. Qəzet o dövr üçün cəmiyyətin noqsanlarının aynası rolunu oynayırdı. Əslində, H.Zərdabi bu qəzetin təkcə redaktoru deyildi, o həmçinin burada yer alan məqalələrin əksəriyyətinin müəllifi idi. "Əkinçi" elm və mədəniyyətin vəkili statusunda idi. Qəzetin dilinin sadə olması onun geniş yayılmasının ən başılca səbəbi idi (Сумбатзаде А., 1987: 56).

O zaman Azərbaycanın bəzi ziyalıları islamda önəmli hesab edilən qaydaların vaxtının keçdiyini dilə gətirirdilər. Onlar yeni dövr üçün yeni qaydalar – sivil qaydalar tətbiq etməyin vaxtının çatdığını qeyd edirdilər. Düzdür, bununla razılaşmayan xeyli sayda ziyalılar var idi. Sonuncular sosial həyatda islam qaydalarını müsəlmanlar üçün əvəzedilməz hesab edirdilər. Maksimalizm bir çox azərbaycanlı demokratik ziyalılar və maarifçilər üçün xarakterik olsa da, islam dəyərlərinə, hətta radikal islam normalarına meyilli olan ziyalılar da var idi. Rus məmurları ilk vaxtlar islama skeptik-neqativ yanaşsalar da, sonradan bir çox məqamlarda işlərinə yarayan dini qaydalara münasibəti dəyişmişdilər. Din xadimləri də iki yerə bölünmüşdülər. Onlardan bəziləri - Zaqafqaziya ruhani lideri, Abdulsəlim Axundzadə, Zaqafqaziya müftisi Hüseyn Əfəndi Qayıbov mühafizəkar qaydaların, Molla Məhəmməd Pişmanzadə, Molla Əbdürrəhim Talıbov və başqaları isə proqressiv ideyaların tərəfdarları idilər. Sonuncular islamda elm və tərəqqiyə verilən əhəmiyyəti qabartmaqla, təhsilin cəmiyyət üçün müsbət rol oynadığından bəhs edir, bir neçə dil öyrəməyin faydasından danışırdılar. Mühafizəkar ruhanilər isə, elmdən çox dinə önəm

verirdilər. Məsələn, Şeyx Abuturab 1907-ci ildə “Həyat” qəzetində “Bizə hansı elmlər lazımdır” məqaləsini nəşr etdirdi. O, hesab edirdi ki, “bəşəriyyət və mədəniyyət” sahələri də daxil olmaqla, əsl müsəlmanlıq naminə unudulmayan elmləri öyrənmək lazımdır. Onun fikrincə, təkcə islam və Quran, şəriət və sufilik insanları elmlə silahlandıra bilər. Nəticədə, insanlar bu biliyin köməyi ilə nəyin pis, nəyin yaxşı olduğunu anlaya və nəfslərini cazibədar şeylərdən xilas edə bilərlər. Müəllif Avropa mədəniyyətini qəbul etmir və onun sivilizasiyaya pozitiv təsiri ola bilməsinə inanmır.

F.Köçərli və o dövrün digər mütərəqqi ziyalıları Avropanın proqressiv təsirinin olmaması fikrini iddia edən Abuturabla razılaşmırdılar. Əslində, dünyada gedən proseslərə etinasız, laqeyd qalmaq islamda da bəyənilmir. İslam tərəqqipərvər din olduğu üçün elmə, maarifə açıqdır. İslam intellektual durğunluğun əleyhinədir (Мамедкулузаде Дж., 1967: 379-380).

Qeyd etdimiz kimi, XIX əsrdən başlayaraq rus məmurları islamla açıq ideoloji konfliktə girmək istəmirdilər, çünki bu bölgələr Rusiya iqtisadiyyatı üçün çox önəmli idi. Buna baxmayaraq, bölgədə xristian dininin öndə olması üçün gizli şəkildə əllərindən gələni edirdilər. XIX və XX əsrlərin Rusiya tarixçiləri (V.A.Potto, F.A.Şerbina, N.Dubrovin və başqaları) Qafqazın istilasında sivilizasiya prinsipi konsepsiyasını müdafiə edirdilər. Şübhəsiz ki, imperiya bölgədə xristianlaşdırma və ruslaşdırma siyasəti yürüdürdü. Rusiya imperiyasında təhsil almaq və xidmət etmək imkanı yalnız xristian dinini qəbul edənlər üçün yaradılırdı. Rus imperiyası dövründə hətta Dağıstanda və Çeçenistanda teokratik dövlət formalaşdırmaq istəyirdilər, bu zaman onları müstəmləkə orqanlarına qarşı mübarizə aparmaqda suçlamaq, hərəkatın önündə gedənləri müəyyənləşdirmək və onları aradan götürmək asan olurdu. Şimali Qafqaz əmri İmam Nəcməddin və Şimali Qafqazın ikinci böyük lideri, burada əmirətin bünövrəsini qoyan Uzun-Hacını yuxarıda deyilənlərə misal göstərmək olar. Rusiya imperiyasının Çeçenistan və Dağıstandakı səfiri N.Qotsinski (Şimali

Qafqazda teokratik dövlət qurmaq uğrunda mübarizə aparırdı) 1917-ci ildə Çeçenistan və Dağıstanın imamı təyin edildi və bu da onun həbsi ilə nəticələndi.

Onu da qeyd etmək lazımdır ki, Qafqazda aparılan islahatlarda islam amili böyük rol oynayırdı. Bu da bölgədə yaşayan əhalinin milli kimliyinin – özünüdərkinin inkişafına təkan verir və XX əsrin birinci yarısında cəmiyyətin sosial və siyasi həyatında yeni model yaranırdı.

Hər kəsə məlumdur ki, İslam dinində elmə böyük yer ayrılmışdır. Məhəmməd Peyğəmbər Quran vasitəsilə insanların elmlə məşğul olmasının çox savab olduğunu çatdırmışdır. Bu yolda olan insanlara islam dinində xüsusi hörmət və izzət bəsləmək tövsiyə olunur.

Yerli milli tərəqqipərvərlərin ilk növbədə ağıllarına gələn, Quranda qadınlara verilən hüquqlara yenidən nəzər salmaq və buna uyğun qadın-kişi bərabərliyini tətbiq etmək istəyi idi. Onlar əsasən qadının ailədəki vəziyyətinə və acınacaqlı durumuna cəmiyyətin diqqətini çəkmək və onların statusunda dəyişiklik etmək istəyirdilər. Dövrün tədqiqatçı-alimləri ən azı islam qaydalarına riayət etməyin, qadına ana kimi, nəsil yetişdirən biri kimi nəzər salmağın faydalı ola biləcəyini yazırdılar. Onlar anlayırdılar ki, cəmiyyəti cahillikdən uzaqlaşdırmağın və qadınların güclü olmağının yeganə yolu onları təhsilləndirmək idi. Bundan sonra isə qadınların siyası savadlanmasından danışmaq olardı. Bildiyimiz kimi, Qafqazda qadın hüquqları islam qaydalarından çox, şəriət qaydaları ilə tənzimlənirdi. Səhərdən axşama qədər dörd divar arasında ev işləri ilə məşğul olan şəhər qadınlarına nisbətən kənd qadınları daha azad idilər. Kənd qadınları həyətdə, tarlada işləyirdilər və bir növ evin başçısı olan kişiyə yardım edirdilər.

Məlum olduğu kimi, Azərbaycanda kəndli, köçəri qadınlar üçün çadra örtmək adəti yox idi. Azərbaycan və Şimali-Qərbi Qafqaz qadınları parança geyinmirdilər.  Əsas azadlıqlardan (siyasi və hətta şəxsi azadlıqdan söhbət ola bilməzdi) məhrum olan

qadın evin-ailənin başçısı olan kişidən tam asılı idi. Bəzən ikinci, bəzən isə üçüncü, dördüncü arvad olmaq məcburiyyətində qalan müsəlman qadınları çox çıxılmaz bir durumda idilər. Cəmiyyət qadının qeyd-şərtsiz ikinci dərəcəli, tabeçilik statusunu dəstəkləyir və bunun əksini kimsə ağlına gətirmirdi. Əzilmiş, incidilmiş, çarəsiz Qafqaz qadınlarının Qərb qadınları kimi ola bilmək fikri ağıllarına da gəlmirdi, bu onlara xülya kimi görünürdü. Qafqazda yaşayan proqressiv baxışlı kişi ziyalılar bu problemin kökünü şəriətdə görürdülər və qadın bərabərliyinin həllində kişi dəstəyinin vacibliyini qeyd edirdilər. Onlar fikirləşirdilər ki, bir gün gələcək, qadınlar ayağa qalxacaq və hüquqlarını tələb edəcəklər. Həmin gün uzaqda deyil və o zaman mühafizəkar cəmiyyət onların qarşısını almaqda aciz qalacaqdır. Bu işdə yalnız kişi dəstəyi cəmiyyətə yetərli fayda verə bilər (Кулузаде З., 2003: 143).

Azərbaycanda qadınlar öz hüquqları uğrunda mübarizəyə hər zaman qabaqcıl kişi ziyalıların dəstəyi ilə qalxmışlar. Elə kişilər tərəfindən edilən bu jestə görə də Qafqazın bəzi bölgələrində, Qərbdən fərqli olaraq, cinslər arasında ziddiyyət və qarşıdurmalar o qədər də kəskinləşmirdi. Əsas diqqət bölgənin həm kişisi, həm də qadını üçün kəskinləşən sosial, iqtisadi və dini məsələlərə yönəlirdi.

Qeyd edildiyi kimi dövrün tərəqqipərvər ziyalıları cəmiyyətin durğunluğunun başlıca səbəbini savadsızlıqda görürdülər və bunu milli əhəmiyyətli problem adlandırırdılar. Əsasən çoxarvadlılıq ən çox tənqid atəşinə tutulan məsələlərdən idi. Əvvəllər yalnız xan və bəylərin çox arvad almasına təsadüf edilirdisə, indi bu hal geniş yayılmışdı. XX əsrin əvvəllərində belə evliliklərin olması xalqı geriyə sürükləyən hal idi.

Dövrün qabaqcıl mütəfəkkirləri kişi poliqamiyası və qadının təcrid olmasına müsəlman xalqlarının sosial həyatındakı durğunluğun səbəbi kimi baxırdılar. Belə hallar ailələrdəki insani dəyərlərin azalmasına, qadınların kişilərin quluna çevrilməsinə gətirib çıxarırdı. Bunları tənqid atəşinə tutan mütərəqqi ziyalılar qeyd

edirdilər ki, bu səbəbdən millətin həm fiziki, həm də intellektual cəhətdən qabiliyyəti aşağı düşür. Qadınların bu şəkildə təcrid edilməsi onlarda qul təfəkkürü formalaşdırır, onun insani ləyaqətini zədələyir, ictimai həyatın qapısını onların üzünə bağlayırdı. Zorla evlilik sosial cinayət adlandırılırdı. İslam dinində çoxarvadlılıq bəyənilən bir hal hesab edilmirdi. Elə ona görə də, islamda poliqamiyanın şərtləri ağırlaşdırılmışdı. İslam bunu qadağan etməsə də, tövsiyə də etmir. İslamı əlində əsas tutan bəzi üzdəniraq ilahiyyatçıların bu məsələyə etinasız qalmağı, o dövrün ziyalıları tərəfindən kəskin tənqid edilirdi.

Tədqiqatçılar Avropa qadınları ilə müqayisədə Qafqaz qadınlarının həyatlarının nə qədər ağır olduğunu diqqətə çatdırırdılar. Qafqaz qadınlarının ağır vəziyyəti araşdırılır, qadının aşağı statusu qeyd edilirdi, lakin çıxış yolları göstərilmirdi. Əslində, islamda da qadınlaın kişilərlə bərabər ola bilməsi üçün bir sıra şərtlər nəzərdə tutulsa da, dolayısı ilə qadının kişiyə tabe olması daha çox bəyənilir. İslam qaydaları ilə idarəçiliyin özündə də qadınların tam azad olması məsələsi sual altına qoyulur. Sadəcə, o dövr üçün bundan artığını qadınlar üçün tələb etmək kişiləri qıcıqlandıra və avropasayağı atılan hər bir addım cəmiyyətə radikal görünə bilərdi.

Qadınların tamamilə təcrid edilməsi adətini islamla əlaqələndirən mühafizəkarlara mütərəqqi ziyalılar elə Quranda yazılanlarla cavab verirdilər. Quran hər zaman qadın ləyaqətinə üstünlük verir. Əvvəllər qadınların hər vəzifəni tutmaq imkanları var idi. Onlar konsul, ruhani, müəllim, şəfqət bacısı və sairə vəzifələrdə işləyə bilərdilər. Quranda heç bir qadına başından dabanına qədər bürünmək kimi bir tələb qoyulmur. Qadın öz bədəninin cazibədar yerlərini pis nəfsdən qorumalıdır. Çadra ilə gəzən qadınlar üçün bu geyimin nə qədər qeyri-praktik olması faktı hər kəsə məlumdur. Bəzən bu geyimlər qadınlar üçün həddən artıq diskomfort yaradır və hətta onların həyatları üçün riskə də çevrilirdi. Ümumiyyətlə, uniforma təsiri bağışlayan çadranın qadınlar üçün neqa-

tiv effektindən çox bəhs etmək olar.

Qərbdən fərqli olaraq, Qafqazda qadın hərəkatının hüquq bərabərliyi uğrunda mübarizənin kökündə islam dəyərləri, dini dəyərlər böyük yer tuturdu. “Qadınlara da dəyər vermək, elə insanlığa dəyər verməkdir” fikrini əsas götürüb, onlar islamda qadınlarla nəzakətli və xeyirxah davranmaq məsələsinin önəmli olduğunu gündəmə gətirirdilər. İslam qadınlara da kişilər kimi bir çox hüquqlar bəxş etmişdir. Qadınlarla bağlı əsas ideya onları cəmiyyətdən təcrid etmək deyil, sosial və ictimai həyatda onların mövqelərini möhkəmləndirmək və qadınların mövcud vəziyyətini dəyişdirmək idi, çünki cəmiyyətin, yeni nəslin gələcəyi qadının nə qədər mükəmməl ola bilməsindən çox asılı idi. Proqressiv ziyalıların fikrincə, qızın təhsil ala bilməsi oğlanın təhsil almasından daha vacibdir. Onlara görə, təhsilə olan etinasızlıq, laqeydlik dövrün acınacaqlı vəziyyətinin birbaşa səbəbidir. Elmə, təhsilə qiymət vermək cəmiyyətin tərəqqisi üçün vacib amillərdəndir. Təhsil adlı işığı gür yandırmaqla, həm oğlanlar, həm də qızlar xöşbəxt gələcəyə vəsiqə ala bilərlər. Cəhalətlə islamın heç bir əlaqəsi yoxdur, islam təhsili, elmi hər zaman hər şeydən önə çıxarmışdır. İslam başqa dinlərlə müqayisədə qiz və qadınlara qarşı daha yumşaq, daha xeyirxah mövqe nümayiş etdirir və ayələrdə onlara hörmət etməyin nə qədər savab olması xatırlanır. İnsanlar islam qaydalarını əllərində rəhbər tutarkən unutmamalıdırlar ki, islamda qadınların da kişilər qədər elmli və ağıllı olması tövsiyə olunur. Dövrün ziyalıları qızların mövcud vəziyyətini heyvanların vəziyyəti ilə müqayisə edirdilər. Heyvanlar qapalı yerdə saxlanıldığı kimi, qız-gəlinin də üzünə qapılar bağlanırdı.

Əhməd bəy Ağayev 1902-ci ildə nəşr etdirdiyi “İslamda qadın” adlı əsərində sübut edir ki, Məhəmməd peyğəmbərin ətrafındakı ağıllı qadınlar olmasaydı, islam bugünkü uğurları qazana bilməzdi (Ахмедов А., 1983: 212).

Təhsilin əhəmiyyətini dərk edən Qafqaz ziyalıları bölgədə təhsil ocaqların açmaq üçün əllərindən gələni edirdilər. XX əsrin

başlanğıcında Bakıda, Şuşada əsasını azərbaycanlılar təşkil edən bir neçə təhsil ocağı, İrəvanda (araşdıralan dövrdə bu şəhərdə əhalinin əksəriyyəti azərbaycanlı idi) və Yelizavetpolda gimnaziyalar açılmışdı. Əlbəttə, bu təhsil ocaqlarında təhsil almaq kimi gözəl imkandan qızlara da pay düşürdü. Təəssüf ki, bu məktəbləri bitirən qızlar patriarxal qaydalar ucbatından, təhsillərini davam etdirə bilmirdilər. Ümumiyyətlə, Qafqazda təhsil alan gənclər, mənsub olduqları dinə görə diskriminasiyaya daha çox məruz qalırdılar. Xristian uşaqlar üçün təhsilin üst qatlarında təhsillərini davam etmək şansları olduğu halda, bu imkanlar müsəlman uşaqları üçün çox məhdud idi və bəzi hallarda, yox dərəcəsində idi. Bu da çar Rusiyasının Qafqazda yürütdüyü ikili siyasətin nəticəsi idi (Алиев А., 1996: 18).

Həsən bəy Zərdabi istedadlı uşaqları üzə çıxararaq onların təhsil almaları üçün əlindən gələni edirdi. Bundan ötrü o, imkanlı və xeyirxah insanların yardımından istifadə edirdi. Onları belə gənclərin təhsil almalarına kömək etməyə sövq edirdi və yalnız bu gənclərin təhsilli olması ilə cəmiyyətin tərəqqi edə biləcəyinə inandığını söyləyirdi.

Çar Rusiyasının yaratdığı çətinliklərə rəğmən, Qafqazdan Rusiya universitetlərinə üz tutan gənclərin sayı gün-gündən artırdı. Onlar Rusiyanın ən tanınmış universitetlərində təhsil alaraq vətənə dönürdülər. Təhsilini Rusiya universitetlərində almış gənclər dost-tanışları arasında bu təhsil ocaqlarını təbliğ etməklə, sıralarını genişləndirirdilər və məzunlardan ibarət kiçik cəmiyyətlər yaradırdılar.

Dövrün ən tanınmış qəzetlərindən olan "Əkinçi" maarifçilik ideyalarını təbliğ etməklə, təhsilə olan marağı xeyli artırırdı. N.Nərimanov, A.Haqverdiyev, Ü.Hacıbəyov və digər azərbaycanlı ziyalılar bu istiqamətdə çoxşaxəli işlər görürdülər. Onlar maarifçilik ideyalarını təlqin edən kiçik səhnəcikləri xalqa təqdim edirdilər və bu da təhsilə olan marağı daha da artırırdı (Əkinçi, 1876, 11 iyun, N.11). «Əkinçi» qəzeti hər zaman qız-qadınların

təhsil almasının əhəmiyyətini qeyd edir və qızları oxutdurmağın savabından yazırdı. Analarının yaşadığı acı taleyi qızlarına yaşatmamağı valideynlərə tövsiyə edirdi.

Azərbaycanda ilk qadın jurnalı "İşıq" 1911-ci ildə nəşr olunmağa başladı. Jurnalın redaktoru Xədicə Əlibəyova, naşiri isə Mustafa bəy Əlibəyov olmuşdur. Asiya Axundzadə, Xuraman Rəhimbəyzadə, Maral Nəbizadə, Gövhər Şövqiyyə, Səidə Şeyxzadə, Nabat Nərimanova və başqa maarifpərvər qadınlar "İşıq"ın ətrafında böyük bir ümidlə birləşmişdilər (Azərbaycan Xalq Cumhuriyyəti, 2004: 339). "İşıq" əsrin əvvəllərində Azərbaycan qadınının vəkili idi. Jurnal təhsilin qadınların həyatında qaranlıqda yanan gur işıq olduğunu təbliğ edilirdi.

Jurnalın həm redaktoru, həm də daimi yazarı Xədicə Əlibəyova "Bizim hüquqlarımız" əsərində qadınların həyatında əvəzedilməz rolu olan təhsildən, onun əhəmiyyətindən, vacibliyindən bəhs edir. "Mənim bacılarım, təhsil almağımız üçün məktəblər lazımdır. Gəlin uşaqlarımızın tərbiyə edilməsi ilə ölkəmizə kiçik də olsa, xeyir vermək iqtidarında olaq" (bax: www.gender-az.org).

Həlimə Axundova "Qadın millətin anasıdır" adlı məqaləsində qız-qadınların maariflənməsinə mane olan konservativ, köhnə düşüncəli din xadimlərini kəskin tənqid edir və onlardan çəkinməməyi qız-qadınlara təlqin edirdi. "İndi başqa zamandır. Bütün millətlər tərəqqiyə doğru gedir, elm və maarif zəmnində çalışırlar. Mollaların sözlərinə inanmayın. Onlar bizə mane olurlar" (bax: www.gender-az.org).

Rusiyada yaşayan qafqazlıların daha rahat təhsil ala bilmək imkanları var idi. Onlar nəinki oğlan övladlarının, həmçinin qızlarının da təhsil ala bilməsi üçün cəhd göstərirdilər. Ümumiyyətlə, o dövrdə yaxşı təhsil almaq üçün ailənin maddi imkanı da yaxşı olmalı idi. Ona görə də, yalnız bir çox filantropistlərin maddi yardımı sayəsində təhsil almaq imkanı olurdu. Ziyalılar uşaqların çox erkən yaşlarında təhsil almasının tərəfdarı idilər, çünki bu dövrdə onların beyinləri təhsil almaq üçün daha yararlı olurdu.

Ümumiyyətlə, Rusiyanın tanınmış univesitetlərini bitirməklərinə baxmayaraq, ziyalılar ana dilinin təbliğinə üstünlük verirdilər, çünki onlar vətənə döndükdən sonra öz həmvətənlərinə bildiklərini öyrətmək istəyirdilər.

Yusif bəy Çəmənzəminli 1917-ci ildə tipoqrafiya işi ilə məşğul olan bir cəmiyyət yaratdı və bunun nəzdində «Açıq söz» adlı bir qəzet nəşr etdirməyə başladı. Bu o dövrdə gənclər arasında çox populyar olan bir qəzet idi. Əksəriyyəti gənclərdən, tələbələrdən ibarət olan bu cəmiyyətin maraqları qeyd olunan qəzetdə ifadə edilirdi. Sonralar, bu cəmiyyət M.Ə.Rəsulzadənin başçılıq etdiyi «Musavat» partiyasının tərkibinə daxil oldu. Daha sonralar isə, bu cəmiyyətin bir çox üzvü Azərbaycan Xalq Cümhuriyyətinin aparıcı dövlət xadimləri kimi fəaliyyət göstərmişdilər (Везирова Л., 2003: 53). Ümumiyyətlə, bu nəsil Azərbaycan cəmiyyətinin tərəqqi etməsində böyük rol oynamışdı.

Qafqazda cərəyan edən sosial-mədəni dəyişikliklər uzun və çətin bir proses oldu. Bu bölgədə həm, təməli Rusiya imperiyası tərəfindən qoyulan köhnə sənaye və kənd təsərrüfatı sistemi saxlanılır, həm də bu köhnəliklə barışmayan, yeni dünyaya can atan ziyalıların görmək istədiyi və yaratmağa cəhd göstərdikləri cəmiyyətin işartıları mövcud idi. Dünyagörüşü geniş olan, Avropadan xəbərdar, çağdaş düşüncəli ziyalılar insanları maarifləndirməyin vacibliyini dərk edirdilər və bu istiqamətdə mübarizə aparırdılar. Onlar köhnə adət-ənənələrin cəmiyyəti tənəzzülə sürüklədiyinin fərqində idilər. Avropadan çox geri qalmalarının şahidi olan həmin ziyalılar, bu geriləmənin səbəbini cəhalətdə görürdülər və anlayırdılar ki, dünyəvilikdən uzaq, dövlətin hüquqi sərəncamları ilə deyil, şəriətlə, adətlə idarə olunan cəmiyyətin inkişafından söhbət gedə bilməz. Bu ziyalılar ilk növbədə insanların təfəkküründə dəyişikliklər etməyin vaxtı çatdığını aydın dərk edirdilər.

Milli dəyərlərin yaşadılması yaxşı hal hesab edilsə də, uzun illər rus imperiyasının tərkibində olan, Avropanın yaxınlığında yaşayan xalqın fərqli mədəniyyətlərdən bəhrələnməməsi də qey-

ri-mümkün idi. İmperiya tərkibindəki müsəlman xalqların təhsilli nümayəndələri assimilasiyaya uğrayırdılar, onlar dünya mədəniyyətindən xəbərdar, Avropadakı texniki innovasiyalardan, yeni siyasi kursdan məlumatlı idilər.

Rusiya imperiyası bir tərəfdən, bölgədə təhsili genişləndirməklə, "ruslaşdırma" siyasətini həyata keçirmək istəyirdi, digər tərəfdən isə, bölgədə təhsilli insanların sayının çoxalması ilə onların idarəolunmaz hala düşmələrindən qorxurdu, çünki təhsilin gücünə bələd idi, savadlı adamın itaətkarlıqdan uzaq olma həqiqətini də yaxşı dərk edirdi. Sonda, çar məmurları özləri də bilmədən ruslaşdırma siyasətinin nəticələrindən öz xeyirlərindən çox, bu siyasətə tuş gələnlərin xeyrinə istifadə etmiş oldular. Xüsusilə də, harada təhsil almalarından asılı olmayaraq, bölgədəki müsəlman ziyalılar milli dəyərlərdən də vaz keçmək fikrində deyildilər. Bu ziyalılardan öz xeyirləri üçün istifadə etmək niyyətində olan çar Rusiyası bunu edə bilmədi, çünki itaətkarlıq ruhunu onlara aşılaya bilmədi. Ruslaşdırma siyasətinin tərkib hissəsi olaraq, Rusiya imperiyası rusları Qafqazın ən səfalı yerlərinə köçürürdü.

Qafqazın digər bölgələri kimi Azərbaycanın da uzun illər Rusiya imperiyasının müstəmləkəsi olmasına baxmayaraq, burada rus məmurlarının dediklərini etməyən, onlara tabe olmayan insanlar kifayət qədər idi. Onların müqaviməti 1918-20-ci illərə qədər, vaxtaşırı olaraq üzə çıxır və bəzən qarşıdurmalar kəskin xarakter alırdı.

1918-ci ildə Azərbaycan ziyalılarının fəallığı ilə qurulan Azərbaycan Demokratik Respublikası iki ilə yaxın bir dövrdə, bu gün demokratiyanın beşiyi hesab edilən bir sıra ölkələrdən daha çox, demokratik addımlar atmışdı. Dövlət quruculuğunun elə ilk günündən qadınlara da kişlər qədər önəm verən dövlət rəhbərləri qadın azadlığını əllərində əsas tutdular və qadın-kişi bərabərliyini dəstəkləyən hüquqlar təsis etdilər. Fəalliqları ilə kişilərdən heç bir mənada geri qalmayan azərbaycanlı qadınlar tarix yazmağı bacardılar. Təəssüf ki, ADR həm daşnakların və onların havadarlarının

daimi hücumlarıa məruz qalmış, həm də bolşeviklərin satqınlığı nəticəsində, uzun zaman üzbəüz qaldığı qeyri-mütənasib mübarizəyə duruş gətirə bilməmişdi. 1920-ci ildə cəmi 23 ay yaşayan bu dövlət süquta uğradı. Bununla da, 70 il davam edən bolşevik rejiminin bünövrəsi qoyuldu.

Yerli, milli elitanı – ziyalıları məhv etmək bu dövlətin hədəfində olan bir nömrəli məsələ idi və 1930-cu illərdə bu istiqamətdə bir sıra planlar həyata keçirildi. Azərbaycan da daxil olmaqla, SSRİ-dəki elit təbəqənin kökünü kəsməyi qarşısına məqsəd qoyan bolşevik hökuməti, cəmiyyətin qaymaqlarını həbsxanalara atdı, olmazın əzab-əziyət verməklə, onları yaşadıqları bölgədən çox-çox uzaqlara sürgünə göndərdi, məhv etdi. Ümumiyyətlə, 30-cu illər dünyanın bir çox dövləti üçün repressiya illəri kimi yaddaşlarda qaldı.

Bildiyimiz kimi, "sovetləsmə" dövründə ən radikal islahatlar təhsil sferasında baş verdi. İnsan hüquqları və onun tərkib hissəsi olan qadın hüquqları uğrunda mübarizə, qadın və kişilər arasında hüquq bərabərliyinin bərqərar olması bu dövrdə ən çox gündəmdə olan məsələlərdən idi. KİV və ədəbiyyatda bu problemin həlli yolları təbliğ edilirdi. Təəccüblü də olsa, bu istiqamətdə dövrün ən qabaqcıl kişi ziyalıları (A.Hüseynzadə, M.Ə.Rəsulzadə, N.Nərimanov, A.Topşubaşov, O.Mahmudov, H.Zərdabi, F.Köçərli, A.Ağayev və başqaları) daha çox fəalliq nümayiş etdirir və qadın hüquqları uğrunda mübarizədə qadınlara hərtərəfli dəstək göstərdiklərini sübut edirdilər. Qafqazda islahatlar maarifçilik hərəkatının tərkib hissəsi kimi həyata keçirilirdi. Onlar inanırdılar ki, xalq savadlı olsa, tərəqqi də tez əldə edilər, çünki Avropadakı reformasiyanın da fundamental prinsipi maarifçilik olmuşdu. Onlar tam əmin idilər ki, dünyəvilik cəmiyyəti uzağa apara bilər, ənənəçiliyi əsas tutmaqla dünya ilə ayaqlaşmaq çətin olar.

Bolşevik inqilabından qaçıb dünyanın bir sıra ölkələrində mühacir həyatı yaşamağa məcbur qalan Azərbaycan ziyalıları uzun illər ölkənin müstəqilliyini geri qaytarmaq üçün uzaqdan-

uzağa mübarizə aparmış və Azərbaycanın ədəbiyyat və mədəniyyət səhifəsinə özlərinin unudulmaz töhvələrini vermişər. Didərgin düşmüş Azərbaycan ziyalıları arzularına çata bilmədilər və həyatlarına qürbətdə son versələr də,  onların fəaliyyəti sonrakı proseslərə böyük təsir göstərmişdi.

**Şimali Qafqazda təhsil tarixi perspektivdən: Osetiyada qadın və təhsil (XIX-XX əsrlər)**. Qadınların təhsil alması tarixindən bəhs edən tədqiqatçı L.Qaboyeva belə yazır: "… Osetiyada qadın təhsilinin əsl inkişafı özəl məktəbdən başlamışdır və bu məktəbi A.Koliyev, 10 may 1862-ci ildə Vladiqafqazda öz şəxsi evində açmışdır… İlk məktəblilər Vladiqafqaz sakinləri olan 18 qız – Salameya Qazdanova, Varvara Qusiyeva, Mariya Koşçenova və başqaları olmuşdur. İbtidai təhsilin özəyində osetin dilinin, xristian dininin və milli əl işlərinin öyrənilməsi dururdu".

A.Koliyev vəfat etdikdən sonra, 1866-cı ildə məktəb "Qafqazda pravoslav xristianlığının bərpası cəmiyyəti"nin himayəsinə verildi və o, üçsinifli peşə məktəbi qismində fəaliyyətini davam etdirdi. Məktəb Qafqazın qubernatorunun xanımı, böyük knyaginya Olqa Fyodrovnanın adını daşıyırdı. Cəmiyyətin ixtiyarına veriləndən sonra məktəbin maddi təminatı yaxşılaşmış, onun binası böyüdülmüş, şagirdlərin sayı isə artmışdı. 1868-ci ildə məktəbdə 30 şagird var idi ki, onlardan da 24-ü osetin idi. 1872-ci ildə şagirdlərin sayı 59-a çatdı. Məktəb proqramı getdikcə təkmilləşdirilirdi: Ən əsas diqqət dinin öyrənilməsinə ayrılır, osetin dilinin öyrənilməsinə ayrılan vaxt isə əksinə azaldılırdı. Osetin dilinin öyrədilməsinə olan belə münasibət tədricən dilin yadlaşması, rus dilinə diqqətin artması ilə nəticələndi. Belə yanaşma tədrisin keyfiyyətinə də təsir edirdi. Osetin qızları, xüsusilə də dağ yerlərindən gələnlər rus dilini pis bildikləri üçün, proqramı yaxşı mənimsəyə bilmirdilər. Belə çatışmazlıq bu cəmiyyətin vəsait ayırdığı bütün məktəblər üçün xarakterik idi. Afanasi Qasiyevin dediyi kimi, "bizim məktəblərdəki fayda ona görə yetərli deyildir ki, ibtidai siniflərdə bünövrəsi qoyulan pedaqoqika və mədəniy-

yət yetərli deyildir. Əsas problem, dil problemidir. Uşaqlar öz ana dillərində təhsil almalıdırlar".

Koliyevin əsasını qoyduğu xalq məktəbi konkret təbəqəyə xidmət etməyə başlamışdı. Adi ailələrin qızlarının bu məktəbə düşmə şansları aşağı idi. Müsəlman uşaqlarına süni şəkildə maneələr yaradılırdı. Həmin məktəbin məzunu Serafima Qazdanova yazırdı ki, "müsəlman övladlarını dövlətin maliyyəsi hesabına oxuması bunlara sərf etmirdi və bəzən vəsaiti olmayan, lakin çox oxumaq istəyən insanlar övladlarının xətrinə xristianlığı qəbul edirdilər və əlbəttə ki, bunu onlar canlarını dişlərinə tutaraq edirdilər… hərdən belə hallara da təsadüf edilirdi ki, məktəbi bitirəndən sonra yenidən müsəlmançılığı qəbul edirdilər". Bu qədər çatışmazlıqlara və müsəlman qızların oxumaları üçün yaradılan maneələrə baxmayaraq, Olqa adına məktəbin populyarlığı gün-gündən artırdı. Osetiyada qadının təhsil alması prestij hesab edilirdi.

A.Koliyevin uğurlu təcrübəsi Alagir ruhanisi Aleksey Qatuyev tərəfindən də təkrar edildi. Bir-birinin ardınca qızlar üçün kilsə məktəbləri açılırdı. Bu məktəblərin müəllimləri Olqa adına məktəbin məzunları idilər. Bu məktəbdə oxumaq istəyənlərin həvəsini nə onlara ayrılan az xərclik, nə çətin həyat şəraiti, nə də məktəbin kəndlərdən çox uzaqda yerləşməsi azalda bilmirdi. Onlar maarifçiliyin missionerlərinə çevrilirdilər. Məktəbdə xidmət etmək əxlaqi məna daşımağa başlamışdı. Kosta Xetaqurovu heyran edən cəhət o idi ki, "1890-ci ilin 69 məzunundan 24-ü deyilən missiyada iştirak edirdilər. Qalanları isə öz kəndlərinə qayıdıb, həyatlarına davam edirdilər. Əlbəttə ki, bu məzunlar adi ev xanımı olsalar da, işləməsələr də, ailədə övladlarının tərbiyəsində önəmli yer tutmağı bacarmış və öz mədəniyyət və bilikləri ilə ətrafdakıların hüsn-rəğbətini qazanmışdılar".

Bu məktəbin belə şöhrət tapması, hökümət nümayəndələrini narahat edirdi. 1885-ci ildə "Xristianlığın bərpası cəmiyyəti"nin təkidi ilə bu məktəbdə kilsə siyasəti təbliğ edilməyə başlandı.

Nəticədə, məktəb özünün ilkin missiyasından çox uzaqlara istiqamətləndi.

1890-cı illərdə bir çox qadın məktəbləri bağlandı və Olqa adına məktəbin üzərini də qara buludlar aldı. 16 osetin ziyalısı Müqəddəs Sinoda bu məktəbə toxunmamaq xahişi ilə müraciət etdi. Ziyalılara görə "bu məktəb bütün osetin xalqının qızlarına məxsus olan yeganə mənbə idi və oranı bağlamaq ana, ev xanımı və bacıların mədəni yetişməsinə əngəl törətmək idi".

Məktəbin müdafiəsi uğrunda osetin xalqının qətiyyəti, az qala bütün dünyanı ayağa qaldıran çağırışı öz bəhrəsini verdi. Məktəbi saxladılar və o, Vladiqafqaz Olqa qadın məktəbi pansionatı adı altında fəaliyyətini davam etdirdi. Eyni zamanda bu müdafiədə iştirak edənləri cəzalandırdılar və mübarizənin təşkilatçısı K.Xataqurovu sürgünə göndərdilər. O vaxtdan bəri bu məktəbin adı bu böyük şairin adı ilə bərabər çəkilir.

Qadın ibtidai məktəbləri Şimali Qafqazın digər bölgələrində də fəaliyyət göstərirdi. 1860-cı ildə Nalçikdə və Pyatiqorskda də ibtidai məktəblər açılmağa başladı.

Şimali Qafqazda sənaye və kənd təsərrüfatında kadrlara olan ehtiyac bu bölgədə Şimali Qafqaz texniki peşə məktəbinin açılmasına səbəb oldu. Stavropolda sənət məktəbləri, Vladiqafqazda və Kuban vilayətinin Batal stanitsasında da bu tip məktəblər təsis olunmağa başladı.

**Rusiya imperiyasının sonu və Sovetlər dövrünün başlanğıcında Dağıstanda təhsil və gender.** Dağıstan Rusiya imperiyası dövründə bir sıra təhsil problemləri yaşadı. Bütün Qafqaz müsəlmanları kimi dağıstanlılar da bu dövrə qədər təhsillərini təbii ki, rus dilində deyil, ərəb dilində almışdılar. Uzun illər təhsil islam məktəblərinin təqdimatı ilə yerinə yetirilmiş və Şərq alimlərinin elmi nailiyyətləri təbliğ edilmişdir. Bölgədə təhsil pulsuz idi və heç bir yaş həddi qoylmurdu. Bu da təhsil almaq üçün heç bir maneə yaratmırdı və Dağıstanın istənilən sakini mədrəsələrdə təhsil ala bilərdi. Əlbəttə bu, bölgədə yaşayan qızların da hamı-

lıqla maneəsiz təhsil ala bilmə şansının olması anlamına gəlmir. Dağıstan alimləri dini sferada dünya alimlərinin əldə etdiyi nailiyyətlərlə tanış olmaqda çətinlik çəkmirdilər, lakin təkcə islam alimlərinin nailiyyətləri kifayət deyildi, çünki Avropa alimləri o dövrdə bir çox uğurlara imza atmışdılar. Ona görə də, XIX əsrin 30-cu illərində bu bölgədə dünyəvi elmlərə maraq artmağa başladı.

Dağıstanda – Dərbənd və Temur-Xan-Şurada ilk qadın təhsil ocaqları 1860-cı illərdə açılmışdır. Məqsəd qadınların təhsilli olması deyildi, əsas məqsəd evdə oğullarının savadlı anası və kişilərin savadlı xanımlarının olması idi. Qızlara yazmaq, oxumaq və hesablamaq öyrədirdilər. Bundan əlavə onlara dini dərslər, əl işləri, yemək hazırlamaq, çörək bişirmək, camaşır yumaq və sairə ev işləri də öyrədilirdi. 1875-ci ildə Temur-Xan-Şurada belə məktəblərin əsasında beşillik qadın pregimnaziyası açıldı. 1897-ci ildə bu məktəblər gimnaziyaya çevrildi.

Dağıstanın rus təhsil sisteminin bütün uğurlarından ən azı Rusiyada yaşayan digər xalqlar qədər bəhrələnməsi, bu ölkənin imperiya tərkibində olması səbəbindən idi. Tarixdən bilirik ki, Dağıstanda ilk dünyəvi məktəb 1837-ci ildə Dərbənd şəhərində hərbçilərin təşəbbüsü sayəsində açılmışdı. Elə XIX əsrin 60-70-ci illərində qadınların təhsilə cəlb etmək təşəbbüsü də hərbçilərə məxsus olmuşdu, çünki ilk əvvəl bu məktəblərdə hərbçilərin qızları təhsil alırdı. Sonralar, mülki vətəndaşların qız övladları da bu məktəblərdə oxumaq imkanı əldə etmişdilər. Bu məktəblər digər dünyəvi məktəblərin (qızlar üçün olan məktəblər nəzərdə tutulur) açılmasına sanki bir təkan oldu.

Düzdür, ilkin dövrlərdə qızların bu məktəblərə cəlb edilməsi çox çətin idi, yerli xalq rusların gətirdiyi hər bir yeniliyə şübhə ilə yanaşırdılar. Övladlarının öz din-məzhəbindən uzaq düşəcəklərindən ehtiyatlanırdılar. Bölgədəki qızların tam şəkildə təhsilə cəlb edilməsi sovet hökuməti zamanına düşdü. Bu uğurlu təhsil siyasətinin nəticəsi idi. Məhz təhsil sayəsində Dağıstan qadınları

ictimai-siyasi sferada kişilərlə yanaşı, bəlkə də bərabər yol gedə bildilər. Hər bir sahədə, təhsil, tibb, ticarət və sairə sferalarda qadınlar öz sözlərini deməyi bacardılar.

Dağıstanda inqilaba qədərki dövrdə təhsil məsələlərini araşdırmaq üçün bir çox mənbələr mövcuddur, lakin A.K.Səlimxanovun “Dağıstanda xalq təhsilinin tarixinə dair” adlı dissertasiyasında bu məsələlərin bir hissəsi araşdırılmışdır (Селимханов А.К., 1954: 24), (Абдуллаев М.А., 1986: 174). Bundan əlavə Q.Ş.Kaymazarovun “İnqilaba qədərki Dağıstanın mədəniyyət və təhsilinin inkişafına Rusiyanın proqressiv təsiri” adlı əsərində (Каймаразов Г.Ш. 1954: 22), inqilaba qədərki dövrdə çar məmurları tərəfindən bölgədə məktəblərin açılması, yerli məktəblərin yeni məktəblər ilə müqayisəsi məsələləri araşdırılır və oxuculara faydalı məlumatlar təqdim edilir.

Qafqaz müharibəsi bitəndən sonra Rusiya bütün Qafqaz bölgəsində olduğu kimi, Dağıstanda da «ruslaşdırma» prosesinin təhsilsiz mümkün olmadığını yaxşı anlayırdı. Tədricən bu siyasəti yürütmək üçün təhsil rus imperiyasının əsas silahına çevrildi, lakin çar məmurları hələ aydın dərk etmirdilər ki, bu bölgədə təhsil hansı mərhələlərlə və hansı formada həyata keçirilməlidir. Onlar anlayırdılar ki, əhalinin elit təbəqəsini ələ almaqdan ötrü bu ən yaxşı vasitə idi. Bu bölgənin əhalisinin xarakterinə yaxşı bələd olan çar məmurları onları qıcıqlandırmanın nə ilə bitəcəyini bildikləri üçün ehtiyatı əldən vermək istəmirdilər.

İlk cəhd Dərbənddə ibtidai təhsil almaq üçün nəzərdə tutulan qəza məktəbinin açılması ilə baş tutdu. Yerli əhalinin nə istədiyini bilən çar məmurları bu məktəbdə ilk növbədə dini dərslərin keçirməsini plana salmışdılar. Məktəbdə həm Azərbaycan, həm də erməni dilində dərslər keçirilirdi. Tədris prosesində dini dərslərin təhsil proqramına salınması tezliklə öz bəhrəsini verdi.

XIX əsrin 40-cı illərində yerli xüsusiyyətləri nəzərə almaqla, hökumət məmurları Dərbənddə müsəlman məktəbi açdılar. Əlbəttə, məktəbdə digər fənlərlə yanaşı rus dili də tədris edilirdi.

Məktəbin əhəmiyyəti təkcə dərslərin keyfiyyətinə, müasirliyinə görə deyil, oranı bitirənlərin sosial statusunun yüksəlməsinə görə də artdı. Bunun nəticəsi olaraq, yerli əhali rus məmurlarının açdığı məktəblərə övladlarını məmnuniyyətlə göndərirdilər. Yerli əhaliyə güzəşt məqsədi ilə təkcə din deyil, ərəb dili də tədris edilirdi. Sonradan, bu məktəblər Dağıstanın imkanlı əhalisi üçün daha çox əlçatan oldu (Дагестанский сборник, 1895).

Çar Rusiyasının bölgədə apardığı ruslaşdırma siyasətində bu məktəblər əhəmiyyətli rol oynamışdılar. Belə ki, bu məktəblərə olan maraq gün-gündən artmağa başlamışdı. Qafqaz müharibəsi bitdikdən sonra yerli əhalinin rus dilinə və rus mədəniyyətinə olan marağı daha da çoxalmışdı. Bunun həyata keçirilməsinin əsas yolu təhsildən keçirdi. Əhalinin əksəriyyəti ən azı ibtidai təhsil almağın tərəfdarı idi.

Tanınmış qafqazşünas və pedaqoq P.K.Usların belə məktəblərin açılmasında böyük rolu olmuşdur. Ərəb dili əvəzinə məktəblərdə rus və ana dillərinin tədris edilməsi ideyasını da o təklif etmişdi, lakin sonralar hökumət məmurlarının məktəbi zəruri ədəbiyyatla təmin etmək məsələsinə etinasızlığı bu tip məktəblərin bağlanması ilə nəticələndi. Tədricən Dağıstan kəndlərində ikiillik, şəhərlərində isə üç-dörd illik ibtidai məktəblər açıldı. 1870-ci illərdə Rusiya imperiyası bu bölgədə ümumrusiya qanunlarına uyğun məktəblər açmağa başladı. Bu ruslaşdırma siyasətinə daha çox təkan verdi, yerli dillər proqramdan tədricən çıxarıldı ki, bu da yerli xalqın narazılığıa gətirib çıxardı. 1890-cı illərdə ibtidai məktəbləri bitirən əhalinin sayı sürətlə artmağa başladı. Dağıstanda orta məktəblər təsis edildi və bu məktəblərin açılışında məqsəd yerli xalqın nümayəndələrinin Rusiya ali məktəblərində təhsil ala bilmə imkanlarını genişləndirmək idi. Bu da Dağıstan milli ziyalılar təbəqəsinin formalaşması ilə nəticələndi.

Dünyəvi məktəblər bölgə əhalisi üçün müasir təhsilə yol açdı, həmçinin milli şüurun dirçəlməsinə də təsir etdi. Bu məktəblər aparıcı milli ziyalıların demokratiya uğrunda mübarizədə bir ara-

ya gəlmələrinə kömək etdi və yerli pedaqoji kadrların artmasına təkan verdi ("*Сборник материалов для описания местностей и племен Кавказа*": 1893). Doğma dildə dərsliklərin hazırlanması, Dağıstanın sonrakı inkişafında əvəzolunmaz rol oynadı.

Bütün Qafqazda olduğu kimi, Dağıstan qadınlarının dünyəvi təhsilə inteqrasiya olması uzun zaman tələb etdi və bu yolda bir sıra çətinliklər müşahidə olunurdu. XIX əsrin sonu - XX əsrin əvvəlləri Dağıstan üçün yeni bir dövrün başlanğıcı oldu. Burada rus hökumətinin təhsil siyasəti qızları kənarda qoymurdu. Bu məktəblərdə təhsil alan qızların ictimai həyatda aktivliyi nisbətən artmışdı. Qızlar üçün tikilən məktəblər digər dünyəvi məktəblərdən heç bir şeylə fərqlənmirdi, çünki onlara da Rusiya məktəblərinin müasir proqramları əsasında dərs keçirdilər.

XIX əsrin sonu qızların məktəblərə cəlb edilməsi dövrü idi. Bu məktəblər yeni dərsliklərlə təmin edilirdi. Belə müəssisələrin artması yerli əhalinin dünyagörüşünə müsbət təsir edirdi. Dünyəvi təhsil, rus dilinin mənimsənilməsi, qabaqcıl ədəbiyyatlarla tanışlıq Dağıstan qadınlarına köhnə adət-ənənələrdən azad olmağa, yenilikçi kimi yetişməyə imkanlar yaradırdı. Belə imkanların sayəsində onlar bilik və bacarıqlarına görə kişilərdən geri qalmırdılar və hətta özlərini onlarla bir səviyyədə hesab edirdilər.

Həqiqətən də belə məktəblərdə təhsil aldıqlarına görə qadınların dünyagörüşü artır, inkişaf edirdi. Onların mütərəqqi düşüncəliləri rus dilini bildiklərinə görə rus ziyalıları ilə ünsiyyət asanlıqla qururdular. Bu imkanlar onlarda rus təhsilinə güvəni artırırdı. Rus dili bilmələri onlara müasir tibbin, mədəniyyətin son nailiyyətlərindən xəbərdar olmaq imkanı verirdi.

Çar hökumətinin təhsilə Dağıstan əhalisinin Rusiya ilə yaxınlaşmasına təsir edə bilən güclü amil kimi baxmasına rəğmən, gözlənilən yaxınlaşma baş vermədi. Məktəblərin keyfiyyət və kəmiyyəti istənilən nəticəni vermirdi. Bu da sözsüz ki, bu sahəyə qoyulan maddi təchizatın kifayət qədər olmaması səbəbindən irəli gəlirdi. Dağıstanda üst təbəqə üçün açılan məktəblərdə demək

olar ki, yerli müəllimlər yox dərəcəsində idi. Müəllimlərin əksəriyyəti Rusiyadan gəlmişdilər. Onlar da yaşayış şəraitinin, maddiyyatın çətinliklərinə tab gətirə bilmirdilər. Müəllimlərə o qədər aşağı məvacib verirdilər ki, kimsə bu məvaciblə yaşamaq iqtidarında deyildi. Bununla belə, 1915-ci ildə Dağıstanda 7000 şagirdin təhsil aldığı 93 məktəb fəaliyyət göstərirdi (Кавказский сборник, 1897).

XX əsrin əvvəllərində bu bölgədə peşə məktəbləri açılmağa başlamışdı. Bu məktəblər bölgədə fəaliyyət göstərən fabrik-zavodlar üçün sənətkarlar hazırlayırdılar. Əlbəttə, bölgədə qızlar üçün də məktəblər açılmışdı və bunlar təkçə böyük şəhərlərdə deyil, əyalətlərdə də var idi. Məktəblərdəki bütün çatışmazlıqlara baxmayaraq, əhali övladlarını məmnuniyyətlə məktəbə göndərirdi.

XX əsrin əvvəllərində müasir məktəblərlə yanaşı, dini məktəblər də mövcud idi. Mədrəsələrdə oxuyan uşaqların sayı gün-gündən artırdı. Bu iki səbəbdən irəli gəlirdi, bəziləri övladlarını bu mədrəsələrə dinə önəm verdikləri üçün verirdilər, digərləri isə dövlət məktəblərində yer olmadığına görə məcburən övladlarını bu məktəblərə göndərirdilər.

Bütün baş verənlər dövləti dini məktəblərdə islahatlar etməyə vadar etdi. Nəticədə, XX əsrin əvvəllərində Dağıstanda yeni metodlarla işləyən məktəblər və mədrəsələr açıldı. Bu məktəblər əvvəlkilərdən daha proqressiv idi, lakin hökumətin məktəb və mədrəsələr üçün ayırdığı maliyyə çox az olduğuna görə təəssüf ki, belə gözəl prinsiplər əsasında fəaliyyət göstərən məktəblərin işində durğunluq yarandı (Кавказский календарь, 1845-1917). Az sayda qalmasına rəğmən, yeni metodla işləyən məktəblər Dağıstan cəmiyyətinin tərəqqisində böyük rol oynamışdılar.

1915-ci ildə Dağıstanda sinaqoqların tərkibində 22 dağ-yahudi məktəbi var idi və burada təhsil alanların sayı 546 nəfərdən çox idi.

Çar Rusiyasının öz siyasətini Dağıstanda təhsil vasitəsilə yaymaq istəyinə baxmayaraq, onun apardığı təhsil siyasəti bölgə-

də müsbət abu-hava yaratmış və Dağıstanın mədəni inkişafında mühüm əhəmiyyət kəsb etmişdi.

XX əsrin əvvəllərində Rusiya iqtisadiyyatının inkişafı təhsildə zəruri dəyişikliklər etmək imkanı yaratdı, lakin Birinci Dünya müharibəsinin başlaması bir çox islahatlara son qoydu, bu da təhsilə öz mənfi təsirini göstərdi.

Təbiət və cəmiyyət haqqında elmi biliklər hər bir vətəndaşın zəruri ehtiyacına çevrilmişdi. Böyük rus pedaqoqu K.D.Uşinskinin hazırladığı "Doğma söz" və "Uşaq aləmi" dərslikləri, bütün Dağıstan xalq məktəblərində olduğu kimi qız seminariyalarının proqramına da daxil edilmişdi. Bundan başqa, XX əsrin birinci yarısında Dağıstan qız gimnaziyaları xalq məktəblərinin kadr hazırlığına təkan verdi. Dağıstanın hər yerində müəllimlərə ehtiyac böyük idi.

Həmin dövrdə Dağıstanda qızların təhsil alması üçün lazım olan hər bir vəsait məktəblərə göndərilirdi. Bu gimnaziyalarda da digər məktəblərdə olduğu kimi, Uşinski, Piroqov və digərlərinin müəllifliyi ilə hazırlanan yeni metodk vəsaitlərdən istifadə edilirdi.

Dünyəvi təhsil qadınların sosial statusunu yüksəltdi və ictimai sferada onların aktivliyinə təkan verdi. Əlbəttə sovet dövründə belə məktəblərin sayı xeyli dərəcədə artmış və 1940-1941-ci illərdə 1300 bu tip məktəb açılmışdı. Burada təhsil alanların sayı 210 minə çatırdı ki, bu da 1915-16-cı illərlə müqayisədə 30 dəfə, 1927-28-ci illərlə müqayisədə isə 6,5 dəfə çox idi. 420 yeddiillik məktəb var idi ki, burada da 38,8 min şagird təhsil alırdı. 49 kənd məktəbində 24 min şagird təhsil alırdı və onların 2 mini 8-10-cu sinif şagirdi idi (Каримулаева Э.М., 2003: 33).

Pedoqoji kadrlar köklü şəkildə dəyişmişdi. *Birincisi*, onların həm kəmiyyəti, həm də keyfiyyətində dəyişikliklər var idi. 1940-cı illərdə onların sayı 6 minə qədər artmışdı. *İkincisi*, bu pedaqoji kadrların 30 %-ini qadın pedoqoqlar təşkil edirdi.

Əhali arasında savadsızlığı kökündən ləğv etməkdən ötrü böyük işlər görülürdü. Dağıstanda müxtəlif maarif ocaqları fəa-

liyyət göstərirdi. İbtidai və orta təhsil üçün nəzərdə tutulan məktəblər, peşə məktəbləri, gecə kursları, pedaqoji kadrlar hazırlayan kurslar və s. adda təhsil müəssisələri açılmışdı. Xüsusilə yaşlı nəsil arasında savadsızlığın ləğvi üçün çox böyük işlər görülürdü. Təhsildə bir sıra islahatlar aparılırdı: yeni yazı, ana dilinin tədrisi, yerli milli ziyalıların hazırlığı və sairə. 1941-ci ildə qadınların təhsil alması üçün xeyli uğurlar əldə edilmişdi. Dağıstanda ali və orta təhsilli mütəxəssislərin 35%-ini qadınlar təşkil edirdi.

Ölkədə təhsil islahatının başlıca məqsədi savadsızlıqla bağlı çətinlikləri dəf etmək, hər yerdə yeni əlifbanı tətbiq etmək idi. Nəticə gözləniləndən də yaxşı oldu, 1940-cı ildə əhali arasında savadlılıq 80%-ə çatdı.

Araşdırdığımız dövrdə Dağıstanda təhsillə bağlı bir sıra ziddiyətli yazılara təsadüf etsək də, bir məsələni əminliklə demək olar ki, çar Rusiyasının XIX əsrin 60-70-ci illərində Dağıstanda (qadınlar da daxil) apardığı təhsil siyasəti XX əsrin 30-cu illərində müvəffəqiyyətlə başa çatdı. Düzdür, çar Rusiyası dövründə qadınların bütünlüklə təhsil alma imkanı olmasa da, sovet dönəmində siyasi, sosial-iqtisadi şəraitin dəyişməsi sayəsində, demək olar ki, bütün Dağıstan qadınları təhsilin müəyyən bir pilləsinə qədər irəliləməyə nail ola bilmişdilər.

Sovet dönəmində Dağıstanda təhsil siyasəti ilə əlaqəli aparılan araşdırmalar, əsasən, ikinci dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Bu dövrdə sovet təhsil siyasətində yerli kadrların hazırlanmasına xüsusi önəm verilirdi. Alimlər bir sıra əsərlərini Sovet dövründə Dağıstanın xalq təhsilinə və onun tarixinə həsr etmişdilər. Onların arasında Ş.D.Xasbulatovun "Sovet hökumətinin ilk illərində Dağıstan MSSR-da təhsil" əsəri xüsusi maraq kəsb edir. Alim-tədqiqatçı bölgədə təhsilin tarixi və müasir aspektlərini tədqiq edərkən qadınların təhsili ilə bağlı məsələlərə xüsusi diqqət ayırır (Хасбулатов Ш.Д., 1953: 51).

Müharibə və ondan sonrakı dövr qadınların ictimai-siyasi və sosial sferada fəallaşdığı bir zaman idi və gender bərabərliyi is-

tiqamətində dövlət səviyyəsində siyasət aparılırdı. Bu dövrdə qadınların iqtisadi durumunun inkişafı onların təhsilləri ilə birbaşa əlaqəli idi. Sözsüz ki, bu siyasət təhsilə də təsirsiz ötüşməmiş və təhsildə cinsi diskriminasiya tam olaraq aradan qaldırılmışdı.

## Ədəbiyyat:

**Azərbaycan dilində**

1. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası. 2 clddə. 1-ci cild. Səh, 339, Bakı 2004
2. Əkinçi, 1876, 11 iyun, N.11

**Rus dilində**

3. Абдуллаев М.А., "*Из истории научной и педагогической мысли досоветского Дагестана*". Махачкала, 1986, С. 174
4. Алиев А., "*Из истории общественноо –политической и култумопросветительской жизни Азербайджанских стюдентов в вузах Российской империи*" (II половина XIX века, 1917 г.) // Автореферат. Дисс. Канд.ист. наук. Баку Avtoref. diss. … kand. ist. Наук, Баку, 1996
5. Ахмедов А. "*Философия Азербайджанского просвешения*". – Баку, 1983. С. 212
6. Везирова Л. "*Юсиф Везира Чеменземинли*", Баку: Наргиз, 2003, С. 53
7. Дагестанский сборник. Вып.1. Темир-Хан-Шура, 1895.
8. Казиев Шапи Магомедович "*Повседневная жизнь горцев Северного Кавказа в XIX веке*" С. 95
9. Каймаразов Г.Ш. "*Прогрессивное влияние России на развитие культуры и просвещения дореволюционного Дагестана"*, Махачкала, 1954, С. 22
10. Каримулаева Э.М., "*Типизация и виды женских образовательных учреждений в Дагестане*". // Новый взгляд: "*Основные направления социально-политического и культурного развития России и Дагестана: история и совре-*

*меность*", Махачкала, 2003, С. 29-34.
11. Кавказский календарь на 1846 -1917 гг. Тифлис, 1845-1917
12. Кавказский сборник. Вып. XIX . Тифлис, 1897.
13. Кулузаде З., "*Гендер в Азербайджане*", Баку, 2003. С. 143
14. Сумбатзаде А. "*Азербайджанская историография XIX-XX веков"*. - Баку, 1987. С. 56.
15. Мамедкулузаде Дж., "*Произведения*", Баку, 1967. том. 3. С. 379-380
16. Селимханов А.К. К истории народного образования в Дагестане.: Aфтореф. дис. канд. пед наук: 13.00.01, Махачкала, 1954, С. 24.
17. Хасбулатов Ш.Д., "*Народное образование в Дагестанской АССР в первые годы Советской власти*", Махачкала, 1953, С. 5

# V FƏSİL

## ŞİMALİ QAFQAZDA GENDER VƏ DİN

İnsanlığın bütün sferalarını əhatə edən islam öz universallığı ilə seçilir. İslami dəyərlərin tətbiqi yeni növ mədəniyyətin təzahürü ilə nəticələnir. Bu çərçivədəki mədəniyyətin daxilində siyasi-hüquqi konsepsiyalar sülhsevər ideyalarla zəngindir. İslam stabillik, güzəştə cəhd, ziyan gəlməsi barədə digər tərəfi vaxtında xəbərdar etmək və sairə ümumbəşəri xüsusiyyətləri özündə ehtiva edir. İslamı çox ciddi tədqiq edən bir çox alimlərin fikirlərinə görə islamda ekstrizm və terrorizmə yer yoxdur (Салиев А.Л., 2008: 18-25).

Qafqazda islamın yayılması və inkişaf etməsi Qafqaz xalqlarının tarixinin böyük bir hissəsini təşkil edir, eyni zamanda islam sivilizasiyasının Qafqaz xalqlarına bəxş etdiyi dəyərli töhfələrin olmasını əks etdirir. Qafqaz xalqlarının, demək olar ki, böyük bir qismi islam dininə sitayiş edir.

**Şimali Qafqaz Respublikalarında islam amilinin gender siyasətinə təsiri.** Şimali Qafqaz Rusiya Federasiyasının elə bir bölgəsidir ki, bu bölgə özəlliyi, bənzərsizliyi və orijinallığl ilə digər bölgələrdən tam mənası ilə fərqlənir. Qafqazda islam amili o qədər güclüdür ki, o nəinki cəmiyyətin mənəvi aləminə, insanın bütün fəaliyyət sahələrinə öz təsirini göstərmək imkanına malikdir. Şimali Qafqaz respublikalarının əhalisinin əksəriyyəti müsəlmanlardır: İnquşetiya – 98 %, Çeçenistan – 96 %, Dağıstan– 94 %, Kabarda-Balkariya – 70 %, Qaraçay-Çərkəs– 63 %. (Силантьев Р, 2005: 149.).

Statistik məlumatlardan göründüyü kimi müsəlman əhalinin ən çox yaşadığı respublikalar İnquşetiya, Çeçenistan və Dağıstandır. İslam amili bu respublikalarda qanunlardan da üstündür, Konstitusiyalarda təsbit edilmiş qanunlarla müqayisədə, islamın

diktə etdiyi qaydalar bu bölgələrdə daha işləkdir. Bu çox vaxt belə olmuşdur, yalnız sovet dönəmindəki Şimali Qafqaz bugünkü Şimali Qafqazdan xeyli fərqlənirdi. Bu gün buralarda islam daha müstəqildir, daha təsirlidir. Gənc nəsil üçün islam amili daha çox əhəmiyyət kəsb edir. İslamı qaydalar nəsillərdən nəsillərə ötürülmüş və yeni bir mənəvi-əxlaqi düşüncə tərzi yaratmışdır. Nəticədə, cəmiyyətin yeni siyasi tip vətəndaşı meydana gəlmişdir (Сиражудинова С. В., 2012).

Sovet hökuməti dağıldıqdan sonra Şimali Qafqaz xalqlarında islama maraq daha da artmış və bu maraq müxtəlif formalarda özünü büruzə vermişdi. Bölgənin Qərb hissəsində yaşayan xalqlar uzun illər daha sekulyar inancla yaşadıqlarına görə islam onlara nisbətən az təsir etmişdi. Bu bölgənin insanlarının davranışında dini identifikasiyadan çox etnik identifikasiyada baş verən dəyişikliklər gözə dəyir. Əvvəllər regionda peşəkar və təhsilli din xadimlərinin sayı çox az idi və ona görə də burada “xalq islam”ı daha geniş yayılmışdı, yəni özünü müsəlman hesab edən insanların üzərinə o qədər də çox dini məsuliyyət qoyulmurdu. Elə bu səbəbdən də 1990-cı illərin əvvəllərində burada yaşayan müsəlmanların dini həyatını intensivləşdirməkdən ötrü səylər artırılmış bu da reislamizasiya prosesinin güclənməsinə təkan vermişdi. Yerli peşəkar din xadimlərinin azlığı ucbatından bu prosesə Türkiyə və başqa yerlərdən gələn din xadimləri də qoşuldular. Az sonra dini təhsil almaq üçün başqa yerlərə üz tütan yerli gənclər geri qayıdaraq yerli sakinlərə islamı təbliğ etməyə başladılar. Bu prosesdə XIX əsrin ortalarında Osmanlı imperiyası dövründə Türkiyəyə getmiş və geri qayıdan adıqların bir hissəsi kifayət qədər fəalliq nümayiş etdirirdilər.

Şimali Qafqazın Şərq hissəsində yaşayan əhali arasında islama münasibət tam fərqli idi. Bu bölgədə sovet hökuməti zamanından bəri islami dəyərlər öz yerini yetərincə möhkəmləndirmişdi və din sahəsində kifayət qədər nüfuzlu alimlər yetişmişdi. Bölgədə bütün dövrlərdə aktiv olan sufi qrupları SSRİ dağıldıq-

dan sonra yerli din alimlərinin köməyi ilə buradakı mövqelərini gücləndirmişlər. Regionda dini təhsil verən təhsil sistemi mövcud idi. Bu səbəbdən də, keçən əsrin 80-ci illərin sonlarında Çeçenistan, İnquşetiya və Dağıstanda islamın dirçəlməsi üçün münbit şərait var idi. İslamın dirçədilməsi iki istiqamətdə həyata keçirilirdi. Bir tərəfdən, yerli dini alim, molla və şeyxlər çoxsaylı dini məktəblərin (məktəb, mədrəsə, islam ali məktəbləri) fəaliyyəti üçün əllərindən gələni edir, digər tərəfdən isə, Yaxın Şərqdə təhsil alıb geri dönən, onlarla rəqabət aparmağa qadir olan gənc nəsil islamın güclənməsi üçün çoxşaxəli fəaliyyət göstərirdi.

Çeçenistan Respublikasında islamın güclənməsi prosesi hələ C.Dudayevin dövründə başlamışdı. Onun təşəbbüsü və səyi nəticəsində 200 gənc oğlan ilahiyyat və ərəb dilini mükəmməl öyrənmək üçün islam ölkələrinə göndərilmişdi. Bu təşşəbbüsün əsas qayəsi bu ölkələrdə təhsil alaraq geri qayıdan dindarlar vasitəsilə ölkə gənclərinə, xüsusilə də, oğlanlara Quran və islamın əsaslarını təmannasız öyrənməyə nail olmaq idi.

Şimali Qafqazda islamdan bəhs edəndə sözsüz ki, islami hərəkatların, dini partiyaların fəaliyyəti ilə bağlı məsələlərdən bəhs edilməlidir. 1990-cı illərin ortalarında bu strukturların fəaliyyəti pik nöqtəyə qalxdı və onlar hal-hazırda o qədər nüfuz sahibi olublar ki, hətta ölkədə gedən siyasi proseslərə də təsir göstərirlər.

Bu ərəfələrdə müasir sələfilər (bəzən onları səhvən vəhabilərlə qarışdırırlar) də daxil olmaqla, çoxsaylı dini qruplar meydana gəldi. Sələfilər ənənəvi və milli islamın opponenti qismində çıxış edirdilər. Praktiki olaraq, Şimali Qafqazdakı "islam dünya"sında sələfilərin iki qanadı mövcuddur: radikallar və ultra-radikallar (ekstrimistlər). Çeçenistanda 1994-96-cı illərdə baş verən hadisələr bölgədə sələfi hərəkatının sürətli inkişafına əlverişli şərait yaratdı. Sonrakı dövrlərdə (1996-1999) münaqişələr, döyüş poliqonuna çevrilmiş Çeçenistanda törədilən hər bir terror hadisəsi, narkotik maddələrin alveri, əsirlərin dəyişdirilməsi və s. hallarda, islamın adından istifadə edilir və bütün bunlar islam pərdəsi al-

tında həyata keçirildiyi üçün ekstremist hərəkata yol açırdı. Buna bənzər hadisələr Dağıstanda da ara-sıra törədilirdi, lakin Rusiyanın güc strukturları ekstremist hərəkatın böyük dalğa ilə yayılmasının qarşısı vaxtında ala bilirdilər.

Eyni zamanda, baş verənlər dövlət səviyyəsində lazımi şəkildə təhlil edilib dəyərləndirilmədi və sələfilər hərəkatı vəhabi hərəkatı ilə qarışdırıldı. Dinlə bağlı hər bir tədbirin adının üstünə vəhabiliklə mübarizə damğası qoyuldu və dindəki pozitiv elementlər ayırd edilmədən, bunun faydalı tərəfləri öyrənilmədən, ona qarşı ümimiləşdirilmiş şəkildə mübarizə aparılırdı. Sələfilərin fəaliyyətinə zərbə vuran bu mübarizə sonda dini siyasi ekstremistlərin daha da möhkəmlənməsinə təkan verdi. Ekstremizm digər bölgələrə də yayılmağa başladı və o özünü ən qabarıq şəkildə Dağıstanda, Çeçenistanda və İnquşetiyada büruzə verdi. Son dövrlərdə, bölgədə fundamentalizmə meyl güclənməkdədir, belə ki, əhalinin əksəriyyəti xüsusilə də, patriarxal təbiətli kişilər köhnə qaydalarla, şəriət qaydası ilə yaşamağa üstünlük verirlər. Din adamlarının şüurunda radikal islamın, yəni sələfi və neovəhabizimin elementləri kök salmışdır. Bununla bərabər, Şimali Qafqazda müasir islahatçı dini proseslərə kifayət qədər müqavimət göstərildiyinə görə, həm bölgə üçün, həm də islam üçün çox təhlükəli olan ekstremist sələfilik, vəhabilik elementləri güclənmişdir. Göstərilən elementləri Rusiya Federasiyası hər zaman öz dövlətinə qarşı təhlükə mənbəyi, terrorizmin əlamətləri hesab etmişdir, çünki bir çox dini qurumlar islamı qəbul etməyən digər millətləri açıq-açığına dini düşmən adlandırır və bu ekstremist qüvvələri zamanı çatanda öz qanunlarını bu bölgədə (Şimali Qafqazda) tətbiq edəcəkləri, islamı qəbul etməyənləri ya torpaqlarından qovacaqları ya da onların ölümünə fərman verəcəkləri barədə açıq şəkildə təhdid edirlər.

Bölgədə təhlükəli proseslərdən hesab edilən bir məqamı oxucuların nəzərinə çatdırmaq yerinə düşərdi. Əgər əvvəllər, yəni SSRİ dağılandan sonrakı ilk onillikdə dini təriqətlər yalnız az

savadlı əhali üçün cəlbedici idisə, indi daha qorxulu bir tendensiya baş verməkdədir. Elmli insanların dində olması onu daha da cazibədar edir. Elmli insanların bu təriqətlərə qoşulması onların mövqelərini daha da möhkəmləndirir. Bu insanlar öz elmi tədqiqatlarında dini təriqətlərin əsas prinsiplərini cəmiyyətə qəbul etdirməyə cəhd edir. Şəriət qaydalarının təcrübədə həyata keçirilməsinin "elmi" yollarını müəyyənləşdirirlər.

Beləliklə də, bu gün xaricdən, Avropa-Amerika dövlətlərindən maliyyə dəstəyi alan, islam adı altında fəaliyyət göstərən, islamı gözdən salmağı qarşılarına məqsəd qoyan bir sıra üzdəniraq təşkilatlar Qafqazda ekstrimist məqsədli dini təriqətlərə yardım edir, əslində isə yerli gənclərin bir hissəsini anti-islam ideoloji əsaslarla təlimantlandırırlar. Bu xarici təşkilatlardan təlimat alan yerli dini təriqətlər əsl islami dəyərlərdən o qədər uzaqlaşmışlar ki, onlar islamın təlqin etdiyi sülh prinsiplərini unutmuş və terror taktikasını həyata keçirməyə daha çox meyillənmişlər. Çeçenistan və Şimali Qafqazın digər bölgələrində mövcud olan ekstremist təşkilatlar kiçik dini qrupları öz ətraflarına cəlb etməklə, yarımuxtar qruplara çevrilir (xalq arasında "Cənnət", "Şəriət", "Xəlifət" və ya "Yarmuk" kimi adlanırlar) və daha güclü şəkildə təşkilatlanırlar. Bu strukturlar arasında əlaqə çox yaxşı qurulmuş, onlar şəbəkə halında birləşmiş və lazım gəldikdə eyni nöqtədən çevik şəkildə koordinasiya oluna bilirlər (Макаров Д. В., 2000: 48). Rusiya hökuməti bu təşkilatları hər zaman öz dövləti üçün potensial təhlükə hesab edir və onlarla mübarizə aparır. Əslində, bu yerli dini təşkilatlar təkcə Rusiya Federasiyası üçün deyil, onların prinsiplərinə qoşulmayan hər bir vətəndaş üçün ciddi təhlükədir. Ən qorxulusu isə təcrübəsiz gənc insanların onların toruna düşməsidir. Onlar sosial təminatı yetərli, təhsili kifayət qədər mükəmməl olmayan, cəmiyyətdə "bəxti gətirməyən" insanları asanlıqla öz sıralarına cəlb etməyi çox yaxşı bacarırlar. Təəccüblüsü odur ki, bu təriqətlərə qoşulan insanların "bilet"i çox zaman birtərəfli olur, onların geri dönüşünü görənlər demək olar ki, yox

dərəcəsindədir.

Əlbəttə, yuxarıda bəhs etdiyimiz radikal qruplarla mübarizə üçün əsas rıçaq cəlbedici nöqtələri tapmaq və onları zərərsizləşdirməkdir. Əslində, radikal dini qüvvələrin inkişaf edib genişlənməsinin ən əsas obyektiv səbəbləri sosial-iqtisadi-siyasi məsələlərdir. Təcrübə göstərir ki, bu qüvvələrə qarşı yalnız gücdən istifadə sonda neqativ nəticələrlə bitir. Mövcud siyasi konfliktləri həlli etmədən, bölgədəki sosial-iqtisadi situasiyanı yaxşılaşdırmadan bu qüvvələrlə mübarizə aparmaq heç bir nəticə verməyəcəkdir. Ümumiyyətlə, bütün radikal dini qurumlara qoşulanları araşdıranda bunun kökündə sosial-iqdisadi çətinliklərin durduğu aydın olur. Əhalinin zəif nöqtələrini yaxşı bilən ekstrimist qüvvələr bunlardan sui-istifadə etməyi bacarırlar. İqtisadi vəziyyəti pis olan vətəndaşı öz tərəflərinə çəkmək üçün ilk növbədə ona maliyyə probleminin həllində yardım edir və bununla da, onu tora salırlar.

Məşhur rus filosofu S. Frank vətəndaş cəmiyyətinin formalaşmasında dinin önəmli rolunu qeyd edir və deyir ki, bu iki amil bir-biri ilə əlaqəlidir. Müəllif bunu belə izah edir, "İnam insanların vahid mənəvi birliyinə xidmət edir ki, bu da vətəndaş cəmiyyəti çərçivəsində təzahür edir, lakin cəmiyyətin bu şəkildə formalaşmasına dövlət az yardımçı olur. Belə ki, insan metafizik və təbii-sosial varlıq olaraq, Allahdan gələn əxlaqa və dövlət tərəfindən təsbit edilmiş qanuna tabedir. İnsan iki nüfuzlu instansiya tərəfindən idarə olunur ki, bunlardan birinin icazə verdiyinə digəri qadağa qoyur. Bu da əxlaqi-hüquqi əqidədə qərarsızlıq yaradır. Bu cür tərəddüdün mövcud olduğu cəmiyyətdə dünyəvi dövlət ali dini qurumlarla öz fəaliyyətini daim əlaqələndirir. Din, əxlaq və hüquq ayrılmaz şəkildə yan-yana gedə bilərsə, yalnız o zaman cəmiyyətin tərəqqisi üçün uğurlu çıxış yolu tapmaq mümkün olur" (Шевченко М.Л., 2012).

Dünənə qədər marksist ideologiya üzərində qurulan sovet dövləti cəmiyyətdə dini gözdən salmaqla və hətta tam dinsizlik təbliğ etməklə məşğul idi. Sovet İttifaqının mövcud olduğu 70 il

ərzində onun ərazisində din yasaq, qadağan edilmiş, ateist təbliğat aparılmışdır. Dinə qarşı çox kəskin mübarizə aparılmış, allahsızlıq, dini inkar etmək o illərdə kommunist ideologiyasının əsasını təşkil etmişdir. Bütün bu cəhdlərə, ateizmə söykənən ideologiya maşınının gecə-gündüz işləməsinə baxmayaraq, dini gözdən sala bilmədilər. Qısa bir zamanda məlum oldu ki, əgər Qafqazda kommunist ideologiyası 70 il yox, 170 il belə hökm sürmüş olsaydı, insanları islam dinindən ayırmaq mümkün olmayacaqdı.

İndiki cəmiyyətdə isə bütün tədqiqatçılar dinin vətəndaş cəmiyyətinin bir hissəsi olmasını qəbul edirlər. Yüksək sosial statuslu cəmiyyətlərdə din dövlətdən ayrı fəaliyyət göstərsə də, onu cəmiyyətdən ayırmaq mümkün olmur. Dinin fəaliyyəti azad olmalıdır, ona etinasizlıq etmək, tam ayırmaq cəmiyyətdə heç də yaxşı nəticə vermir.

1970-ci illərdən bəri islam aləmində dərin kök salmış fundamentalizmin çiçəklənməsi ilə xarakterizə olunan yeni tendensiyalar meydana gəlməyə başlamışdır. Müsəlmanların bir qismi Qərb dünyasına qorxu və nifrətlə yanaşırlar   və onlara görə bu dünya onların cəmiyyəti və dini üçün təhlükə mənbəyidir. Onlar Qərb cəmiyyətindəki əxlaqı qəbul etmirlər və düşünürlər ki, Qərbdəki xristianlığın özü ilə müqayisədə, onun əsasında formalaşan cəmiyyət daha təhlükəlidir. Rusiyada islam-xristian qarşıdurmasının tarixinə nəzər salmaqla bu ziddiyyətli münasibətləri aydın dərk etmək olar. Bir vacib məqama da diqqət etmək lazımdır ki, bəzən islam xristian qarşıdurması təhlükəsindən daha çox cəmiyyətdə islamdaxili təriqətlərin qarşıdurma təhlükəsi mövcud olur. Şimali Qafqaz respublikalarında xristianlarla müsəlmanların ya heç bir problemləri yoxdur, ya da aralarinda ara-sıra çox cüzi problemlər yaşanır, lakin islamdaxili, təriqətlərarası problemlər hər zaman mövcuddur. Sələfilərlə sufilər arasında olan konfliktlər buna yaxşı misal ola bilər (Хантингтон С., 1994: 38).

Söylənilən fikrə istinadən qeyd etmək lazımdır ki, həqiqətən də müasir konfliktlər təkcə dinlərarası deyil, dinə inananlarla dinə

inanmayanlar arasında, normal dindarlarla ifrat baxışlı dindarlar arasında, ənənəçilərlə demokratlar arasında, qloballaşma və modernizasiyaya üz tutanlarla onların əksini düşünənlər arasında da baş verir. Buradan belə nəticəyə gəlmək olar ki, dövrümüzdəki konfliktlər eyni cəmiyyət çərçivəsində ziddiyyət təşkil edən müasirlik və ənənəçilik arasında daha çox baş verir. Beləliklə, Rusiyanın islam inanclı bölgələrində konfliktlər dünyəvi dövlət qurmaq istəyənlərlə, islam dövləti qurmaq istəyənlər və bu iki elementi birləşdirərək dövlət qurmaq istəyənlər arasında da baş verir. Bəziləri hətta tam şəriət qaydaları əsasında dövlət qurmağın tərəfdarlarıdırlar.

Tarixə nəzər salsaq, bu kimi qarşıdurmaların ara-sıra baş verməsinin şahidi olarıq. Rusiya tarixində dövlət qanunları ilə şəriət qaydaları arasında ziddiyyətə hər zaman təsadüf edilmişdir, Rusiyanın dövlət məmurları yerli camaatın konfliktlərini həll etməkdə, imperiya qanunlarını tətbiq etməkdə çətinlik çəkirdilər. Qanunlardan çox ənənələrə söykənən müsəlman cəmiyyətində islam şüarları ilə üsyan edən xalqlar, liderlər Qafqazda çar məmurları üçün həmişə çətinliklər yaratmışlar. Xalq azadlığı hərəkatının başçısı şeyx Mənsur (Uşurmi), sonra Qafqaz müharibəsi zamanı imam Şamil hərəkatı və imamat-hərbi-teokratik müsəlman dövləti, 1929-cu ildə çeçenlərin üsyanı və sairə kimi misallara Rusiya tarixində kifayət qədər təsadüf edilir. Hal-hazırda Çeçenistanda müharibənin bitməsinə baxmayaraq, buradakı hakimiyyətin yürütdüyü islam siyasəti Rusiyada hələ də təhlükə hesab edilir.

1920-ci ilə qədər mövcud olan mədrəsə və şəriət məhkəmələri dövlət tərəfindən bağlandı. 1930-cu illərdə Sovet İttifaqında anti-din təbliğatı başlasa da, islam dini nümayəndələri dinə çox bağlı olduqlarına görə bu siyasət bölgədə heç bir nəticə vermədi və insanlar tərəfindən pis qarşılandı. Bütün dini simalar ya həbs edildi, ya da sürgünə göndərildilər. Nəinki məscidlər, hətta kilsələr də söküldü, yandırıldı və ya qeyri-dini məqsədlər üçün istifadəyə verildi. Buna etiraz edənlərə qarşı sərt siyasət yeridildi

və repressiya qurbanlarının sayı pik həddə çatdı. Məşhur tarixi qərar imzalanır, Rusiya Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 23 fevral tarixli "Çeçen-İnquşetiya Muxtar Respublikasının ləğvi və əhalinin sürgün edilməsi" qərarı ilə xalq toplu şəkildə deportasiya edildi. Buna bənzər qərarlar Şimali Qafqazın digər xalqları haqqında da çıxarıldı.

Bəzən, dövlət orqanları məcbur olub islamla əməkdaşlıq edirdilər. Belə hallara tarixdə təsadüf edilir. "1861-ci ildə müharibə sona çatdıqdan sonra rus administrasiyası müsəlman ruhaniləri ilə təhsil və məhəkəmə icraatı sahəsində əməkdaşlıq etmişlər" (A.B.Малашенко., 2007: 15).

Ən böyük dini struktur hesab edilən Müsəlmanların Ruhani İdarəsi (MRİ) yarandığı gündən (bu təşkilat hələ II Yekaterinanın vaxtında, 1788-ci ildə təsis olunmuşdu) indiyə qədər iqtidara təsir etmə gücünə malikdir. Demək olar ki, Rusiyanın bütün bölgələrində MRİ fəaliyyət göstərir. Digər bir dini qurum 1944-cü ildən Şimalı Qafqaz Müsəlmanları Ruhani İdarəsi (ŞQMRİ, Dağıstan) adı altında fəaliyyət göstərir və dini məsələlərlə bağlı fətva verir. Sovet İttifaqı vaxtında bu quruma Milli Təhlükəsizlik Nazirliyi (MİN) nəzarət edirdi, bəzən burada xidmət edən insanlar bu təşkilata başçılıq edirdi və dövlət siyasətini dəstəkləyirdilər.

Bildiyimiz kimi din əxlaqla əlaqəlidir, norma və dəyərlər sistemi cəmiyyətdə ictimai şüur formasında təzahür edir. Din cəmiyyətin əxlaqi, mədəni dəyərlərinin inkişafı ilə sıx əlaqədardır, o, xalqın mentalitetinə, cəmiyyətin iqtisadi ukladına təsir edir. Nəticədə, dini şüur hüquqi düşüncənin və mənəvi şüurun ayrılmaz hissəsinə çevrilir (Эмиров Э., 2006: 39). Din vətəndaş cəmiyyətin strukturunun tərkib hissəsi olaraq, onun formalaşması prosesində mühüm rol oynayır.

Dini strukturlar dünyadakı vəziyyətə, stabilliyə, cəmiyyətdəki konfliktlərin tənzimlənməsinə yetərli qədər təsir gücünə malikdirlər (xüsusilə insanların şüurunda dominantlıq edən məkanlarda, məsələn, Şimali Qafqaz sakinləri üçün islam bu rolu oynayır).

Son iyirmi il ərzində Rusiyada islamın dirçəlməsi dini identikliyin oyanışına səbəb olmuşdur. Bu hərəkatın təməli M.Qorbaçovun yenidənqurma (perestroyka) siyasəti zamanı qoyuldu və SSRİ-nin süqutundan sonra, da davam etdirildi. Birinci fəsildə qeyd edildiyi kimi istər çar Rusiyası dövründə, istərsə də SSRİ dağılandan sonrakı dövrdə dövlət dindən öz məqsədləri üçün kifayət qədər istifadə etmişdir. Rusiya hər zaman Şimali Qafqazdakı siyasətində buna xüsusi önəm vermişdir, lakin müasir Şimali Qafqazdakı islami ideyalarla ondan əvvəlki islami ideyalar arasında köklü fərqlər mövcuddur.

Şimali Qafqazdakı islam klassik islamdan çox fərqlənir. Burada əsrlər boyu islamın fərqləndirici xüsusiyyətləri formalaşmış və özünəməxsus yer almışdır. Şimali Qafqaz ərazilərində çoxsaylı cərəyan və təriqətlər mövcuddur. Sanki bu bölgənin şeyxləri öz aralarında yarışırlar və hər bir şeyxin də öz tərəfdarları vardır. Sufiliyin özündə millətçilik yer almışdır ki, bu da təcridetmə hallarına yol açır. Hər bölgənin öz adəti var, öz inandığı müqəddəs bir yer var. Dini parçalayan təriqətlərdən biri də vəhabilikdir ki, bu da islamı içəridən parçalamağa xidmət edir (L.Esposito, 1999: 225-228).

Şimali Qafqaz Respublikaları arasında Çeçenistan, İnquşetiya və Dağıstan daha çox ənənəçiliyə bağlı və islamlaşmış bölgə olmaları ilə digərlərindən fərqlənirlər. Tarixən bu bölgələrdə sufilik cərəyanı əsas yer tutmuşdur. "Ənənəvi islam" daha aktivdir və iqtidara yaxındır. Şimali Qafqazda "ənənəvi islam" sufi təriqətini təmsil edir, əks təriqət-sələfilər, vahabilər isə "qeyri-ənənəvi islam"ı təmsil edir və onlar islam dövləti qurmağın tərəfdarı olmaqlarını gizlətmirlər. Dağıstanın şeyxi Səid Əfəndi yazır "…arabanın irəli getməsi üçün onun iki çarxının olmağı lazımdır. Bizdə isə bir çarx Ruhani İdarəsidir, digər çarx Dövlət İdarə orqanlarıdır. Əgər hər iki çarx birdən fırlansa, araba qabağa gedər". O, Ruhani İdarəsini və Dövlət İdarə orqanlarını "iki qardaşla müqayisə edir", onlar həm ayrı-ayrı təsərrüfatlarını idarə edir-

lər, həm də qardaşlıq münasibətlərini saxlayırlar (Сиражудинова С.В., 2012). Vəhabilər şəriət qaydaları ilə idarə olunan bir dövlət qurmaq niyyətindədirlər. Onlar nə dünyəvi dövləti, nə də onun qanunlarını qəbul etmirlər.

Son zamanlar dövlətlə islam arasında münasibətlər heç də yaxşı tərəfə dəyişməmişdir. Birinin digərinin əksinə getməsi, aralarında olan konflikti artırır.

Bölgədə digər təriqətlər də mövcuddur. Məsələn, Dağıstanda ənənəçilərin nəqşbənd və şizali təriqətləri də fəaliyyət göstərir. Bu təriqətlərin daxilində də rəqabət vardır, şeyxlərin çoxu MRİ-i dəstəkləyirlər, bəziləri isə əksinə onu tanımaq istəmir və xalqdan dəstək alırlar.

Ruhani alimlər və əhali islam respublikasında vətəndaş cəmiyyətini necə görürlər? Bundan ötrü iki bir-birinə zidd konsepsiyanı nəzərə çatdırmaq lazımdır. Bəziləri islam və vətəndaş cəmiyyətinin müştərəkliyi barədə arqumentlər gətirirlər. Amerika alimi D.Espozito demokratiya və islam probleminə özünəməxsus yanaşır. Alimə görə "siyasi islam" teokratik demokratiyanın proqramıdır və hətta terrorizmlə mübarizə üçün hərəkət planıdır (L.Esposito., 1999).

Bəzi islam tədqiqatçı-alimləri, yazıçı və mütəfəkkirləri islamla demokratiyanı birləşdirməyin yollarını tapmağa çalışırlar. Onlara görə islam elə demokratiyanın göstəricisidir. Burada demokratik prinsiplər gözlənilmişdir. Onlara görə islamda yollar aydın göstərilmişdir və onlardan istifadə müsbət nəticə verə bilər.

İranın dini lideri M.Xomeyninin fikrinə görə, demokratiyanın bir modeli olmamalıdır. Demokratiyanın köməkliyi ilə həm liberal, həm də sosialist cəmiyyət qurmaq olar. Demokratiyaya dini aspektləri də əlavə etmək olar. Elə bugünkü demokratik ideyaların əksəriyyəti islamdan götürülmədir. Ona görə də, demokratik vətəndaş cəmiyyəti ilə islam arasında heç bir konflikt ola bilməz.

Ş.Beno (Rusiya-İslam İrsi hərəkatı) hesab edir ki, istənilən dinə nəzər salınsa, orada vətəndaş cəmiyyətinin ünsürləri tapılar.

Elə ünsürlər aydınlaşdırılmalıdır ki, onlar dövlət ərazisində olan vətəndaşların birliyinin katalizatoru rolunda çıxış edə bilsinlər.

İslamda vətəndaş cəmiyyəti və demokratiyaya yaxın olan bir sıra prinsiplər mövcuddur. Məsələn, şura, hökumətin seçilməsi, ona nəzarət və etiraz etmə hüququ, xalqın idarə heyətinin seçilməsi, söz azadlığı, siyasi həyatda fəal iştirak etmə hüququ, xeyriyyəçilik (zəkat), iqtidara etiraz, vətəndaşların mitinq və nümayişlər keçirməsi, bərabərlik, ədalət, əməkdaşlıq, siyasi partiyalar, dini etiqad azadlığı, çoxpartiyalılıq, fərdi hüquqlar və sosial ədalət, hüquq müdafiəsi, mülkiyyət və sərbəst hərəkət hüququ – bütün bunlar Mədinə Konstitusiyasında öz əksini tapmışdır (Эмиров Э., 2006: 38).

Vətəndaş cəmiyyətinin ən əsas göstəricisi dövlət üzərində vətəndaş nəzarətidir. Əgər belə nəzarət olmasa, dövlətin ədalətli olub-olmaması haqqında kimsə bir söz deyə bilməz.

Quran faktiki olaraq qanunlar toplusudur və o, müsəlmanların necə yaşamasına çox dəqiq istiqamət verir. “Vətəndaş cəmiyyəti”ndə isə əksinə ictimai hüququn ilahi mənbəyi yoxdur.

“İslami dəyərlər ilə vətəndaş cəmiyyətinin siyasi-hüquqi sistemindəki dəyərlər bir deyildir. Həm də şəriət hüquq sistemi təkcə ona görə etiraz doğurmur ki, o insanın inam azadlığını məhdudlaşdırır, həm də islamın vətəndaş və siyası hüquq konsepsiyası insanları cinsinə və inam əlamətlərinə görə təsnif edir” (Муслимов С.Ш., 2003: 41-42) .

İslam fundamentalistlərini ən qatı demokratiya və vətəndaş cəmiyyəti əleyhdarlarının arasında da tapmaq olar. Beləliklə, S. Kütb Qərb institutlarının irəli sürdüyü partiyalı, parlamentli və “demokratik” ünsürlü hökumətin səmərəli ola biləcəyini rədd edir və islam idarə üsullu, islam anlayışlı, dünyanın bütün müsəlmanlarının birliyi kimi başa düşülən dövlət qurmağı təkid edir (Кутб С., 1997: 191). Ben Laden hesab edirdi ki, demokratiya Qərbin uydurmasından başqa bir şey deyildir, azadlıq və dözümlülük sosial süqut və pozğunluq yaradır (Закария Ф., 2004).

Tanınmış filosof Lalə Mövsümovaya görə islam dini insanlara yüksək mənəvi keyfiyyətlər aşılayır və bu mənəvi-əxlaqi dəyərlər müasir qloballaşma prosesində onun müsəlman obrazını saxlamağa kömək edir. İslamın məqsədi həm qadının, həm də kişinin rol ala bildiyi bir cəmiyyətin qurulmasıdır. İslam qadına onun hüquqlarını tam gerçəkləşdirmək, qabiliyyət və potensialını açmaq imkanı vermişdir. İslami dünyagörüşünə görə cəmiyyət qadınlar və kişilər arasında daim qarşılıqlı fəaliyyətin baş verdiyi vahid strukturdan ibarətdir. Quran və peyğəmbərin sünnəsi müsəlman cəmiyyətinin birliyini onun həyati vacib komponentlərində təsbit edir. Qadının da, kişinin də müsəlman cəmiyyətində öz dəyəri və əhəmiyyəti vardır (Л. Мовсумова, 1996).

Müəllifə görə kişi və qadının bərabərhüquqluluğu prinsipinin qorunması islamda daima dəstəklənir. Quranın humanist göstərişlərinə müraciət, müsəlman hüququnun qadına münasibətdə diskriminasiya xarakteri daşıyan orta əsr normalarına yenidən baxılması, islam sivilizasiyasının təşəkkülü və inkişafında görkəmli müsəlman qadınlarının xidmətləri haqqında xəbərləri ehtiva edən tarixi nümunələrə istinadlar, eləcə də, qadına hörmət və anaya ehtiram ilə seçilən islamdan əvvəlki Azərbaycan ailə və mədəniyyətinə diqqət yetirmək tədqiqat üçün önəm kəsb edir. Quran insanlara çoxlu informasiya vermişdir. Bu öz əksini islamdan əvvəlki dövrdə yeni doğulmuş qız uşaqlarını torpağa diri-diri basdırmaq kimi adətin mühakimə olunmasında da göstərdi. İslamda doğulanın cinsi Allah tərəfindən müəyyən edilir və onun iradəsini əks etdirir: “Göylərin və yerin hökmü Allaha məxsusdur, O, istədiyini yaradır, istədiyinə qadın, istədiyinə də kişi nəsli verir”. Bu fərqlərin öhdəsindən gəlmək, onlara qarşı çıxmaq cəhdləri ilahi alın yazısının pozulmasına bərabərdir. Əksinə, Peyğəmbərin hədislərinin birində səsləndiyi kimi qızlarla haqlı və ləyaqətli rəftar edənlər tam ölçüdə mükafatlandırılacaq: “Kimin ki, üç qızı var və o onlara qayğı göstərəcək, yedizdirib-geyindirəcək, o mütləq cənnəti qazanacaqdır” (Həmidullah M., 2000: 56).

Şimali Qafqazda yaşayan qadınların problem və çətinlikləri də elə burada əhalinin əksəriyyətinin üzləşdiyi yoxsulluqdan, bölgə üçün xarakterik olan işsizlikdən qaynaqlanır. Bölgədə iqtisadi vəziyyət son dövrlərdə xeyli pisləşmişdir. Ümumiyyətlə, digər fəsillərdə qeyd edildiyi kimi, bu bölgələrdə gender bərabərliyi siyasəti çox sönükdür və ya yox dərəcəsindədir. Qadınları müdafiə siyasəti və bölgədəki adət-ənənələr qadınların durumunu kifayət qədər çətin bir vəziyyətə gətirib çıxarmışdır.

Gender bərabərsizliyi probleminin çətinliyi onun qlobal şəkildə həllinin tapılmaması ilə şərtlənir. Bildiyimiz kimi müasir dövrdə gender bərabərsizliyi problemi dünyanın ən çox inkişaf etmiş cəmiyyətlərində də mövcuddur. Şimali Qafqazda aparılan gender bərabərliyi siyasətinə, ənənələrinə gəldikdə isə şəriətin diktəsi ilə idarə olunan bu cəmiyyətdə görüləsi işlər hələ çoxdur. Bu məsələlərə aydınlıq gətirməkdən ötrü ilk növbədə bu bölgədə yaşayan qadınların cəmiyyətdə yeri və rolunu aydınlaşdırmaq lazımdır. Birincisi, yerlərdə bu istiqamətdə aparılan dövlət siyasətində kifayət qədər çatışmazlıqlar gözə dəyir. Qadınlara verilən hüquqların çoxu elə sənədlərdə qalır, reallıqda bu hüquqlardan istifadə üçün heç bir şərait yaradılmır. Hələ də ailələrdə qızı öz arzusu ilə deyil, ailənin istəyi ilə ərə verirlər.

Şimali Qafqazda həyat yoldaşı seçmə kriteriyası da islami prinsiplərə söykənir. Kişilər üçün "ən əsası iman"dır, öz "ağlına, ailəsinə" görə özlərinə, bacı və qızlarına həyat yoldaşı seçirlər. Qadınlar üçün isə "xeyirxahlıq, təmizlik, nəzakətlilik, intellekt, maddi durumun yaxşı olması" əsasdır. Əslində, qadınların azad seçim hüquqları yoxdur, onlar onları seçənlərin arasından kimisə seçməyə məcburdurlar.

İnsanların əksəriyyəti hələ də monoqam ailələrə üstünlük versələr də, poliqam ailə tiplərinə də üstünlük verənlər mövcuddur. Belə ki, bu mənada insanları iki qrupa bölmək olar: dünyəviliyə və ya şəriətə və ənənəçiliyə önəm verənlər. Dünyəviliyə üstünlük verənlər də şəriəti tam aradan götürmək istəmirlər. On-

lar həm islamdan, həm də müasirlikdən yararlanmağı tövsiyə edirlər. Bir çox məsələlərdə olduğu kimi bu tip məsələlərdə də Şimali Qafqaz xalqlarının dünyagörüşündə kəskin fərqlər nəzərə çarpmır. Məsələn, rəsmi nikahın bağlanması və dini nikahın da rəsmi nikah olmadan bağlanmaması demək olar ki, insanların əksəriyyətinin dəstəklədiyi fikirdir. Şəriətin təxirəsalınmaz və hamı üçün nəzərdə tutduğu qaydalar Allahın birliyinə şərik qatmamaq, namaz, oruc, zəkat və Həcc ziyarətidir. İslami-əxlaqi dəyərlər, düzgünlük, vicdanlılıq və ədalətlilik də insanlar üçün önəmli olan əsas xüsusiyyətlər sırasındadır. Şəriətdə istisnalar mövcud deyil, bütün müddəalar əsasdır. Əksər müsəlman ölkələrində olduğu kimi Şimali Qafqaz bölgəsinin insanları üçün də qanundan qabaq adət-ənənələr, şəriət gəlir. Qadınların baş örtüyündən istifadə etməsi fikri isə cavanların əksəriyyəti tərəfindən dəstəklənir. Bəzilərinə görə isə qadınların baş örtməsindən də vacib hesab ediləni onların ürəklə ibadət etmələridir, lakin müşahidə olunan əsas məqam odur ki, dünyəviliklə islam arasında tərəddüd edənlərin əksəriyyəti islama daha çox meyillidirlər. Yavaş-yavaş qadınların geyimləri keçmiş adətlərə uyğun dəyişilir və onlar milli geyimlərə daha çox üstünlük verirlər.

Dağ yerlərində yaşayanlar adi yaşayış tərzini daha çox dəstəkləyirlər, çünki buralarda Quran oxuyanların sayı azdır. “Əhalinin əsas kütləsi öz adi həyat normalarına əsaslanır. Şəriət və adətin qarşılıqlı fəaliyyəti nəticəsində bəzi güzəştli variantlar mövcuddur ki, onların da tərkibində həm hüquq, həm qanun, həm də şəriət müddəalarını və adəti müşahidə etmək olar” (Ханаху Р.А., 2001: 70). Şimali Qafqaz ənənəçiliyinin bu şəkildə adaptasiya oluna bilmək potensialı sübut edir ki, bu gün dəyişən həyat tərzi təkcə dinə olan ehtiyacdan deyil, həm də, illərlə insanların öz daxillərində qalan boşluqdan yaranmışdır. İnsanların ənənəvi həyat tərzi şəriətdən çox adətlərə söykənir. Əslində, adətlə şəriət arasında kifayət qədər fərq vardır. Adət insanların yaşayış tərzindən asılı olan, illərin sınağından çıxan əxlaq normalarıdırsa, din

xadimlərinə görə şəriət Qurana əsaslanan, hər bir insanın yerinə yetirməsi üçün vacib sayılan şərtdir. Bəzən insanlar onlara əlverişli olana üz tuturlar, adət əl verirsə, işlərini ona görə həll edirlər, şəriət işlərinə yarayırsa, üzlərini o tərəfə çevirirlər.

Təkcə şəriət qaydalarına riayət etməyə cəmiyyət hələ ki, tam hazır deyildir. Burada "islamlaşma hüquqi, mədəni-mənəvi sahələrdə daha çox əks olunsa da, dövlət quruluşunda dünyəvilikdən də imtina edilmir" (Дубровин Н., 1927: 149).

Bu gün Rusiya Federasiyasının din siyasətinin əsasını bölgələrdə dinlə bağlı məsələlərdə səmərəli fəaliyyət göstərmək təşkil edir, xüsusilə də, radikal qüvvələrin gəncləri öz təsiri altına alma təhlükəsi dövləti düşündürən problemlər sırasındadır. Bu siyasət həyata keçirilərkən, yerlərdəki nüfuzlu müsəlman liderlərin yardımından istifadə etmək zəruridir, çünki təkcə dövlət qurumlarının köməyi ilə bölgələrdə müvəffəqiyyət əldə etmək mümkün deyildir.

Ramzan Kadırov Çeçenistanda bəzi radikal dəyişikliklər etməyə cəhd göstərdi. Birincisi, İranda olduğu kimi "İslam qvardiyası" yaratmaq və adətlərin yerinə yetirilməsi üçün, xüsusilə də islam qaydalarına riayət etmək istəməyən qadınlara qarşı bu qvardiyadan istifadə etmək istədi. Hətta başqalarına dərs verməkdən ötrü kiçik bəhanələrlə qadınlar cəzalandırıldı, belə ki, islam qaydalarına qarşı cüzi bir qayda pozuntusu olurdusa, qadınlar ciddi şəkildə cəzalanırdılar. Əslində, Ramzan Kadırov hakimiyyətə gələnə qədər planlaşdırdığı ideyaları vəzifəyə təyin olduğu ilk gündən realizə etməyə başladı və bunu bacardı. Bunların kütləviliyinin qarşısı yalnız Moskva işə qarışandan sonra nisbətən alındı.

2012-ci il fevralın 22-də Vaşinqtonda yerləşən Karnegi Fondunun maliyyə dəstəyi ilə "Qafqazda Siyasi İslam" adlı konfrans keçirildi və burada rusiyalı ekspert Aleksey Malaşenko Şimali Qafqazda güclənən islamçı cərəyan barədə həyəcan təbili çaldı. Onun sözlərinə görə bir vaxtlar keçmiş sovet məkanında ateizmin dayanıqlı olduğu deyilirdi və regionun ərəb ölkələrindən fərqlili-

yi vurğulanırdı, lakin Dağıstan, Çeçenistan, İnquşetiya və Kabarda-Balkar regionlarında şəriətin az qala Rusiya dövlət qanunlarını əvəzlədiyini önə çəkən Malaşenko Şimali Qafqazın Rusiyanın digər hissələrindən radikal şəkildə fərqləndiyini qeyd etmişdi.

"Əgər siz Kabarda-Balkar və Dağıstan Respublikalarına getsəniz, orada islam kimliyinin güclənməsinin şahidi olacaqsınız və bu tendensiya gün-gündən aktivləşir. Burada yaşayanları praktiki olaraq dünyəvi dövlətlər maraqlandırmır. Onlar Qafqazın şəriətləşdirilməsindən, islamlaşdırılmasından danışırlar. Onlar bunu artıq ediblər və etməkdədirlər, " deyə rusiyalı ekspert Aleksey Malaşenko bildirirdi.

Aleksey Malaşenkonun sözlərinə görə sərt islam etiketi bu regionda ayaq açmış və artıq bir çox sosial müstəvilərdə özünü aşkar şəkildə büruzə verir. Buna misal olaraq cənab Malaşenko mədrəsələrin geniş yayılmasını, qadınların qapanmasını və bir çox mağazalarda spirtli içkilərin qadağan edilməsini göstərir. Rusiyalı ekspert Şimali Qafqazdakı durumun pessimizm doğurduğunu qeyd edərək bildirmişdir ki, Kremlin bu vəziyyətin öhdəsindən gəlmək imkanları artıq sual altındadır.

Radikal dini quvvələrlə mübarizə aparmaq üçün əhəmiyyət daşıyan vəzifələr sırasında yerlərdə milli dəyərləri qorumaqla əsil islami-ruhani təhsilli gənclər hazırlamaq da əsas yerlərdən birini tutur. Burada söhbət təkcə orta məktəblərdə mükəmməl dini təhsildən getmir, həmçinin professional şəkildə dini təhsil verən qurumların yaradılması da nəzərdə tutulur. Özünü dinə həsr edən təhsilli insanlar dini fəaliyyətlərində dini əxlaq normaları ilə bərabər cəmiyyətimizin dəyərlərini də əsas götürməlidirlər. Bu ona görə vacibdir ki, SSRİ dağıldıqdan sonra bu günə qədər mövcud olan aparıcı marksist ideologiyanın yeri boş qalmışdır, çünki ictimai-siyasi ideologiya vakuumunu doldurmaq istəyən qüvvələr çoxdan startda dayanmışdılar. Bu qüvvələr təkcə Rusiyanın digər bölgələrində yaşayan azsaylı müsəlmanlara aid deyildir. Təəssüf ki, bu məsələ, Şimali Qafqazda hələ də açıq olaraq qalmaqdadır.

Bu boşluqdan (əhalinin dini savadının az olmasından və ya heç olmamasından) istifadə edən xarici radikal dini qüvvələr dərhal ekstrimist dini ideyalarını öz xeyirlərinə təbliğ etməyə başladılar.

Göründüyü kimi, dini dəyərlərə daha çox önəm verilən belə bir bölgədə real və mükəmməl vətəndaş cəmiyyətinin formalaşması üçün zəmin hələ ki, görünmür. Vətəndaş cəmiyyətinin əsas qayəsi olan bərabər hüquqlar ən azı əhalinin yarısından çoxunu təşkil edən qadınlara şamil edilməmişdir. Bildiyimiz kimi, vətəndaş cəmiyyətinin qurulması üçün hər bir fərdin təfəkküründə demokratik dəyərlərin oturuşması vacib şərtlərdəndir.

Ümumiyyətlə, yerli tədqiqatçılar üçün genderlə bağlı problemlər prioritet hesab edilmir. Qadının cəmiyyətdə yeri və rolu heç islami nöqteyi-nəzərdən də deyil, kişilərin lazım bildiyi kimidir. Cəmiyyətdə əsrlərlə adət və ənənələrin təsiri altında formalaşan stereotiplər insanların şüurunda dərin kök salmışdır və bu stereotiplərin yaxın zamanlarda dəf edilə bilməsi az ehtimal olunandır. Cəmiyyətin kişilərdən ibarət olan aparıcı qüvvələri qadınları nə siyasətdə, nə də yüksək vəzifələrdə görə bilmirlər, onlar ümumiyyətlə, Qafqaz qadınlarını ailədən kənar görmək istəmirlər. Onların fikrincə, bunun əksi cəmiyyətdə arzuolunmayan vəziyyətə gətirib çıxara bilər.

Şimali Qafqazda siyasi-iqtisadi sferada qadınların seçilməsi üçün infrastruktur ya heç yoxdur və ya çox zəifdir. Təhsilli, aktiv qadınların evdən kənar fəaliyyət göstərməsi üçün imkanlar məhduddur, belə ki, azyaşlı uşaqlara qayğı mərkəzləri çox azdır. Bu da qadınların işləməsinə, siyasi arenada fəal olmasına maneçilik yaradan ən əsas amillərdəndir.

Cəmiyyətdə hər bir fərdin fikrinə səbr və hörmətlə yanaşmaq, hər bir fərdə azadlıq və hüquq verməklə vətəndaş cəmiyyəti qurmaq mümkündür. Şəxsiyyətin inkişafından, tərbiyəsindən və imkanlarından çox şey asılıdır. Dövlət öz növbəsində, dini strukturlarla dialoqa girməli və onların gücündən düzgün şəkildə istifadə etməyi bacarmalıdır.

## Ədəbiyyat:

**Azərbaycan dilində**

1. Həmidullah M., "*İslama giriş*", Bakı: Göytürk, 2000

**İngilis dilində**

2. L. Esposito, "*The Islamic Threat: Myth or Reality*?", Oxford University Press, 1999, P. 225-228.

**Rus dilində**

3. Дубровин Н., "*Черкесы*", Краснодар, 1927. С. 149
4. Закария Ф. "*Не стоит искать причину всех бед арабского мира в исламе/*", 2004
5. Ислам в России: "*Взгляд из регионов*", науч. ред. А. В. Малашенко. – М.: Аспект Пресс, 2007. С. 15.
6. Кутб С., "*Вехи на пути Аллаха*", М., 1997. С. 191.
7. Л. Мовсумова, "*Проблемы женщины в духовной культу Азербайджана*", Баку, 1996.
8. Макаров Д.В. *"Официальный̆ и неофициальный̆ ислам в Дагестане*", М., 2000. С. 48.
9. Муслимов С.Ш. "*Исламские ценности и гражданское общество // Народы Дагестана*", 2003, No 1. С. 41-42.)
10. Салиев А.Л., "*Исламские политические и религиозные силы в конфликтогенных регионах: проблемы и перспективы // Мир и согласие*", 2008. -No2 (35). С. 18-25.).
11. Силантьев Р., "*Новеишая история исламского сообщества в России", М. : Ихтиос*", 2005. С. 149.
12. Сиражудинова С.В., "*Гражданское общество, традиционализм и ислам на Северном Кавказе*: ", Монография, 2012.
13. Шевченко М. Л., "*Способны ли мусульмане принимать*

*участие в построении гражданского общества или являются его непримиримыми противниками*?", Ростов-на-Дону, 2012.

14. Хантингтон С., "*Столкновение цивилизации*" // Полис. -1994. -No 1. С. 33-48.
15. Ханаху Р.А., "*Традиционная культура Северного Кавказа: вызовы времени"*, Ростов-на-Дону, 2001. С. 70
16. Эмиров Э., "*Ислам и гражданское общество в Дагестане//Религия и право*", No 1-2 (39) 2006, Коран, «Аш-Шура». (42: 38).

## Sufizm və Sovet siyasətinin Çeçenistan dindar qadınlarının vəziyyətinə təsiri

Sovet dövlətinin illərlə yürütdüyü gender siyasəti SSRİ-də, Qafqazda və xüsusilə də Çeçenistanda yaşayan müsəlman qadınlarına təsirsiz ötüşməmişdi. Bölgənin Rusiya qanunlarına qarşı müqaviməti əsasən dini normalardan qaynaqlanırdı. SSRİ-də müsəlman xalqlarına qarşı xüsusi bir siyasət yeridilirdi. Lakin bu siyasət bütün bölgələrdə eyni cür həyata keçirilmirdi, çünki bu siyasət hər yerdə eyni cür qarşılanmırdı.

İslam Çeçenistana XVII əsrin sonlarında gəlib çıxmışdı. İslamın əsas dini cərəyanlardan biri olan sufizm Çeçenistanda Şeyx Mansur tərəfindən XVIII əsrdə geniş yayılmışdı. Daha sonra, 1994-96-cı illərdə birinci çeçen-rus müharibəsi dövründə bu cərəyan yenidən dirçəlməyə başladı.

Sufizmin qadiri cərəyanın davamçılarından olan Kunta Hacı Çeçenistan Prezidenti Dudayevi, Çeçenistanın müstəqilliyini dəstəkləmək üçün bölgəyə gəlmişdi (Mikhail Roshkin, 2007).

Sovetlər dövründə gender bərabərliyi ideologiyasının qayəsində bir sıra başqa məqsədlərlə yanaşı, müsəlman icmalarını geri getməkdən xilas etmək də dururdu. Lakin bu ideyalar yerli xalqlar tərəfindən xoş qarşılanmırdı. Ənənəvi müsəlman cəmiyyətində qadının rolunun dəyişdirilməsi Sovet ideologiyasının tərkib hissəsi idi. Müstəqillik arzusu ilə yaşayan çeçenlərdə, sovet hakimiyyətinə qarşı onsuz da düşmənçilik hissi var idi. Qadınların rolunun dəyişməsi istiqamətində dövlət səviyyəsində görülən işlər çeçenlər tərəfindən mənfi qarşılandı, çünki qadınlara verilən hüquqlar sanki çeçenlərin əsrlərlə formalaşmış adətlərini şübhə altına alırdı və bu adətlərin mövcudluğunu riskə atırdı. Ikinci dünya müharibəsi dövründə Stalinin çeçenləri almanlarla əməkdaşlıqda günahlandırması və onları Sibir və Orta Asiyaya sürgün

etməsi bu xalqın mövcud quruluşa qarşı nifrət və kinini daha da artırdı. Xalq arasında yüksək nüfuza malik olan sufizm cərəyanı nümayəndələri baş verənlərdən öz məqsədləri üçün istifadə etməyi bacardılar. Dini dəyərlərə üstünlük verən çeçen xalqını birləşdirmək üçün dindən sərfəli vasitə yox idi.

Deyilənlərə aydınlıq gətirməkdən ötrü sufizmin Qafqaza gəlişinə, yayılmasına diqqət etmək lazımdır. Tarixi faktlara nəzər salanda bu dinin Qafqaz xalqlarının müstəqilliyi uğrunda mübarizədə oynadığı önəmli rolu danmaq olmaz. XII əsrdə sufizimin nəqşibəndi qolu (sakit zikr) Mərkəzi Asiyadan Azərbaycana, oradan da Şimali Qafqaza ayaq açdı. Sufizm XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Dağıstanda, daha sonra Çeçenistanda yayılmağa başladı. Bu dini ideologiyanın əsas mahiyyəti insanların ürəyində Allaha yer tapmaq idi. Hələ 1770-ci illərdə nəqşibəndi qolunun lideri Şeyx Mansur Rusiyaya qarşı hərbi çıxışa başladı. Bundan ilhamlanan başqa bir nəqşibəndi imamı, Qazi Mühəmməd də ona tərəfdar çıxdı. Daha sonralar, 1819-59-cu illərdə üçüncü nəqşibəndi imamı Şeyx Şamil Rusiyaya qarşı vuruşdu və ilk dəfə olaraq bölgə Rusiyaya qarşı həm dini, həm də milli həmrəylik nümayiş etdirərək, eyni məqsəd, müstəqillik amalı ətrafında birləşdi.

1950-ci illərdən sonra alternativ sufizm cərəyanı peyda oldu və buna Kunta Hacı (sufizmin qadiri qolu) başçılıq edirdi. Əvvəlki nəqşibəndidən (sakit zikr) fərqli olaraq bu vokal zikr idi, Sufi mərasimlərində musiqi və rəqslərlə dualar edirdilər. Bu "müqəddəs rəqsi mələklər Allahın ətrafında" edirdilər (Zelkina, Anna, 2000: 229-230). O dövrdə yaranan bu iki sufizm (nəqşibəndi və qadiri) və digər alternativ cərəyanlar Şimali Qafqazda yayılmaqda davam edirdi.

Beləlilkə, sovet dövründə qadınlara verilən yüksək status müqabilində onların dindən uzaqlaşdırılmasının qarşısını almaq üçün din də onlara nə isə təklif etməli idi. Bildiyimiz kimi, Şeyx Şamil dövründə qadınların qapalı olmasına üstünlük verilir

və ondan sonra da bu belə davam edirdi. Şeyx Şamil hərəkatında onun həyat yoldaşı başda olmaqla, qadınlar çox aktiv iştirak edirdilər, lakin Dağıstan qadınları ilə müqayisədə çeçen qadınlarının hüququ daha çox idi (Thomas de Waal and Carlotta Gall, 1998: 23). Çeçen qadınları Dağıstan qadınlarına nisbətən azad idilər, lakin ümumilikdə, hər iki millətin qadınları kişilərdən çox asılı idilər və onların verdikləri əmrlərə sözsüz əməl edirdilər. Məsələn, çeçen qadınları sufi mərasimlərində qaydalara əməl etdikdə kişilərdən fərqli vəzifələri yerinə yetirirdilər. Onlar kişilərlə birlikdə, eyni ayinləri yerinə yetirə bilməzdilər.

Sovet hökuməti bütün bunları yaxşı bilir və bundan öz mənafeyi naminə istifadə etmək üçün fürsət axtarırdı. Deyildiyi kimi SSRİ-də müsəlman qadınlara münasibətdə xüsusi bir siyasət yeridilirdi. Onlar proletar inqilabının arenasını genişləndirmək istəyirdilər, lakin müsəlman icmalarında sinfi mübarizə anlayışını tətbiq etmək o qədər də asan məsələ deyildi. Onlar ümumiyyətlə, nə sinif, nə də sosial vəziyyət haqqında heç nə düşünmürdülər, lakin obrazlı ifadə etsək, sovetlərin, "surroqat proletariat"a ehtiyacı var idi və onlar müsəlman qadınları bu rola hazırlamaq niyyətlərinin olduğunu gizlətmirdilər.

"İnqilaba qədər Rusiya imperiyasının əsarəti altında olan müsəlman qadınları qədər cahil, məzlum və kölə vəziyyətində olan insanlar yox idi". Müsəlman qadınlara olan münasibətdə sovetlərin mövqeyi bu şəkildə ümumiləşdirilmişdi. Bundan başqa, Sovet hökumətinin yanaşmasına görə qadınlar təhsil, məşğulluq, sosial fəaliyyət və ailə həyatı baxımından kişilərdən çox aşağı səviyyədə idilər (Massell, Gregory, 1974: 98). Beləliklə, Sovet hökuməti "qul" müsəlman qadınlarını "azad" etmək üçün müxtəlif tədbirlər görür və sonda guya qadınları "azad etdilər", əslində, onlara hüquqi məhdudiyyətlər də tətbiq olundu. Çoxarvadlılıq qanunla ləğv edildi və bütün sahələrdə qadının iştirakı qanuniləşdirildi. Qadınların güclə çadradan azad edilmələri dindarlar tərəfindən kəskin müqavimətlə qarşılandı. Bütün bunlar bir daha

göstərir ki, onlar güclə də olsa, müsəlman qadınları sinfi mübarizəyə cəlb edə bilmişdilər.

Sovet hökuməti yuxarıda bəhs etdiyimiz siyasəti tətbiq etsə də, "kommunist azadlıq kampaniyası"nın sonu müvəffəqiyyətlə nəticələnmədi. Ümumilikdə, bu siyasət qadınlar da daxil olmaqla, cəmiyyətin əksəriyyəti tərəfindən dəstəklənmədi və proses "kişilərin emaskulasiyası və qadınların defeminizasiyası" kimi qiymətləndirildi (Von Gumppenberg, Marie-Carin, 2005: 19-21). Buna baxmayaraq, sovetin qadın siyasəti ilə bağlı həyata keçirdiklərinin təsiri bölgədə uzun zaman yaşandı.

Qeyd etdiyimiz kimi, SSRİ-nin digər bölgələrində yaşayan müsəlman qadınlara və Şimali Qafqazda yaşayan müsəlman qadınlara münasibətdə həyata keçirilən siyasət fərqli idi. Bölgədə sufilər sovet ideologiyasına qatı müqavimət göstərmək tərəfdarı idilər. Millətçi məsələlər fövqində gender məsələləri bölgə qadınları üçün az önəm daşıyırdı.

Şimali Qafqazda 1944-cü ildə baş verən hadisələr haqqında elmi ədəbiyyatda kifayət qədər məlumat verilmişdi. Çeçenləri Hitler Almaniyası ilə əməkdaşlıqda günahlandıran Stalin, onları Orta Asiya və Sibirə sürgün etmək haqqında sərəncam vermişdi. Əslində, Stalin onların belə bir əməkdaşlıq etmədiklərinə tam əmin idi və ortada bu əməkdaşlığı sübut edən heç bir fakt yox idi. Sadəcə, çeçen və digər xalqların milli qürurunu sındırmaq üçün belə planlar hazırlanır və onları həyata keçirmək üçün uyğun məqam axtarılırdı. Stalin planı rahat həyata keçirməkdən ötrü çeçenləri parçalamaq və gücdən salmaq istəyirdi, lakin sürgün olunmaqla, xalqı zəiflətmədi, əksinə vahid bir milli ideya ətrafında birləşməsinə təkan oldu.

Zorla deportasiya edilən xalqı sufizm ideyaları yenidən birləşdirdi və zaman keçdikcə sürgündə "paralel islam" da fəaliyyətə başladı. Məscidləri dağılan, dinləri risk altına qoyulan, sürgün həyatı yaşamağa məcbur olan çeçen xalqı nəinki öz köklərinə sadiq qalmağı bacardı, hətta bütün olanlara rəğmən, öz dəyərləri ətra-

fında daha da sıx birləşdi. Sürgün dövründə sufizmin yeni qolu olan Vis Haci qolu formalaşdı. Başqa qollar kimi məşhur zikr ritualı bu qolda da əsas götürülmüş və musiqi hissəsinə nağara və skripka əlavə edilmişdi. Bu qolun özündən əvvəlki sələflərindən fərqi qadınların da sufiliklə əlaqəli mərasimlərdə iştirakına icazə verilməsi idi. Əsrlərdən sonra qadınlara belə bir imkanın yaradılması ola bilsin ki, sovetlərin yeritdiyi gender siyasətinin təsirinin nəticəsi və ya ictimai həyatda qadınlara verilən müəyyən şansların nəticəsi idi.

Qadınlara verilən imkan sonralar, qadın sufi dəstələrinin yaranmasına gətirib çıxardı. Hətta qadın şeyxləri də gözə dəyməyə başladı. Qadiri qolu nəzdində çeçen-inquşların kompakt yaşadıqları bölgələrdə qadın sufi qrupları yarandı. Bəzi tədqiqatçılara görə sosialist ideologiyasının təsiri və Sovet dövlətinin qadınların da bərabər hüquq əldə etməsi istiqamətində apardığı təbliğat Şimali Qafqaz qadınının sosial vəziyyətinə təsirsiz qala bilməzdi. Elə bu ideologiyanın təsirinin nəticəsi idi ki, qadınlar sufi təriqəti sayəsində daha da gücləndilər. Əlbəttə, söhbət qadınların kişilərlə tam eyni hüquqa malik olmasından getmir.

Sovet ideologiyasının əsas tərkib hissəsi islamla bağlı dəyərləri insanların beynindən silmək idi. Sözsüz ki, bunun qarşılığı sufilərin qadınlara verdiyi kiçik imtiyazlar ola bilərdi. Postsovet dövründə birinci və ikinci çeçen-rus müharibələrində də qadın sufilər, millətçilik əsasında mübarizə aparmışdılar və kişilərlə yanaşı sufi ideyaları ətrafında birləşmişdilər.

1990-cı illərdə başlayan və bu günə qədər davam edən hadisələrin çeçen cəmiyyətinə ciddi təsiri göz qabağındadır. İllərlə davam edən müharibə, kişi qüvvəsinin çatışmazlığı çeçen qadınını yenidən evdən ictimai həyata atılmağa vadar etdi, lakin çeçen qadını yenə də özünün ümdə vəzifəsini ev və ailəyə bağlılığı hesab edir və yerdə qalan işlərin ikinci dərəcəli olduğunu iddia edirdi. Onlara görə müharibə qadınları yeni gender rollarını ifa etməyə vadar edir və bu da genderə olan münasibətin fundamental dəyişikliyinə gətirib çıxarırdı.

Çeçen qadının hər zaman ilham aldığı, örnək hesab etdiyi bir qadın obrazı mövcuddur ki, bu da Şeyx Şamilin həyat yoldaşı Patimatdır. Şeyx Şamil hərəkatının ana xəttində yer alan bu qadının göstərdiyi qəhrəmanlıqlar uzun illər dillərdə dastan olmuşdur. O təkcə həyat yoldaşı deyil, həm də Şamilin silahdaşı olmuşdur. Ağlı, bacarığı, döyüşkənliyi, cəsarəti, sədaqəti, isməti, çevik reaksiyaları ilə Şamilə dəstək olan bu qadın əsl Qafqaz qadınının bütün yaxşı xüsusiyyətlərini özündə ehtiva edirdi.

Belə bir rəvayət mövcuddur ki, evliliklərinin ilk illərində Şeyx Şamil heç də insanların tanıdıqları qədər cəsarətli deyildi. Hər gün bulaq başında Şeyx Şamil haqqında müxtəlif qəhrəmanlıq dastanları uyduran həyat yoldaşı Patimat, onu tanıyanları heyrətdən çaşqın hala salırdı. Baş verən hadisələri nağıl edərkən, Şeyx Şamilin etdiklərini deyil, onun on mislini söyləyən həyat yoldaşı bütün insanları Şeyx Şamilin qeyri-adi gücə, ağıla, döyüş bacarığına sahib olduğuna inandıra bilmişdi. Əslində, söylənilən xüsusiyyətlər Şeyx Şamil qədər də həyat yoldaşına xas olan keyfiyyətlər idi. Sonralar, onun həyat yoldaşı onun döyüş yoldaşı, silahdaşı, baş məsləhətçisi olmuşdur. Uzun illər Şimali Qafqaz qadınları üçün bu qadın əsl nümunə olmuşdur. Bütün ekstremal situasiyalarda Qafqaz qadınları ona bənzəməyi özlərinə şərəf bilmişlər.

Çeçen-rus müharibəsində döyüşən qadınlardan çoxsaylı müsahibələr alınmışdı və onların döyüş məqsədləri açıqlanmışdı. Onlar müharibədə kişi həmkarlarına yardım edərək, müharibəni öz xalqlarının xeyrinə bitirmək və müharibə bitdikdən sonra Çeçenistan torpağı üçün yad ünsür hesab edilən vəhabiliyə son qoymaq istəklərini dilə gətirirdilər. Bu da döyüşən qadınların millətçiliyinin hərbi aspektini və dini məqsədlərini aydın göstərir (bax: http://www.jamestown.org/chechnya_weekly/article.php?articleid).

Onların əsas amalı Çeçenistanı müstəqil ölkə kimi görmək idi. Sorğuda iştirak edən üç çeçen qadınından ikisi bunu belə düşündüyünü demişdir, lakin aparılan sorğu zamanı o da məlum

olmuşdur ki, qadınlar islami dəyərlərə üstünlük vermələrinə baxmayaraq, başlarının örtülməsinə, üz və bədənlərinin qapanmasına fərqli yanaşırlar. Bunun qadınların öz iradəsi ilə olmasını istəyirlər və onların geyimlərinin siyasiləşdirilməsinə təəssüf etdiklərini deyirlər (Ashour, Omar and Jamil, Uzma, 2005: 600-602). Bu da sufi çeçen qadının identifikasiyasının əsas nüvəsinin hələ də, din olaraq qalması anlamına gəlir.

Yuxarıda bəhs edilənlərdən bəzi nəticələr çıxarmaq olar. Əvvəla, bu gün müharibə qadının cəmiyyətdəki rolunu dəyişdirmişdir. Bunun sabah da belə olacağını, əminliklə demək mümkün deyildir, çünki bu keçici bir vəziyyət ola bilər. Bu gün müharibədə həyat yoldaşının, ailə başçısı hesab edilən insanın itirilməsi bir çox çeçen qadının üzərinə əlavə öhdəlik qoyur. O həm ailəsini dolandırmaq üçün evdən kənar ödənişli işdə işləməli, həm də dünənə qədər evdə həyat yoldaşı tərəfindən görülən işləri yerinə yetirməli olur. Bugünkü situasiya bir çox çeçen qadınlarını özəl sferadan ictimai sferaya keçməsinə təkan verir. Cəmiyyətdə gedən dəyişikliklərə rəğmən, qadına olan baxış köklü dəyişməmişdir. İctimai rolu üzərinə götürməyə məcbur olan müasir qadın hələ də mövcud quruluşa müqavimət göstərmək iqtidarındadır. Sufi identifikasiyalı çeçen qadını hələ də islam dövləti qurmaq arzusundadır. Beləliklə də, həm sovet siyasəti, həm də uzun illər davam edən müharibə qadının cəmiyyətdaxili rolunu dəyişdirmiş, baş verənlər gender məsələlərinə olan münasibətə təsirsiz qalmamışdır.

Əlbəttə, yuxarıda bəhs edilən problemlərə nəzər salanda, bir daha əminlik yaranır ki, qadınların bugünkü durumunun və ənənəvi gender rollarının din rakursundan geniş tədqiqinə ehtiyac vardır. Sufizm elə bir islami ənənədir ki, burada qadının rolu nisbətən böyükdür. Bu cərəyanda möhtəşəm qadınlar-Rəbiyyə, Bəsriyə Məryəm kimi müqəddəslər yer almışlar. Qadınların fiziki olaraq mistik fəaliyyəti sufi ənənəsinin əsas simvollarındandır. İslam ədəbiyyatında qadını məhəbbət hekayələrinin bir hissəsi kimi

tərənnüm edirlər. Şeba kraliçası (Biqlis) və Zuxaliya buna yaxşı misal ola bilər. Bu iki qadın sufi poeziyasının və nəsrinin ən çox işlənilən mövzularındandır. Hər iki halda sevən ürəklər ayrılmaq məcburiyyətində qalır və sevgililərinə qovuşmaq həsrətini çəkirlər. Sufi ənənəsində *naflar* çox əhəmiyyətlidir, bu sevgilisinə həsrət qalan qəlbin mistika vasitəsilə ilayihə qovuşmaq yolunu təsvir edir. Həm qadının *naflar* kimi simvolik rolu, həm də qadın mistiklərin olması qadının mistik ənənə çərçivəsində oynadığı rolu nəzərə çatdırır.

Çeçenistan və Şimali Qafqazın bir çox bölgələrində qadın sufilərinin təcrübələri bir sıra məqamlara aydınlıq gətirir. Yaxın tarixdə qadınların bəzi sufi mərasimlərində iştirakına icazə verilməsinə baxmayaraq, bu ənənə şəklini almamışdır. Bundan əlavə, Şimali Qafqazın sufi ədəbiyyatında heç bir mistik qadın obrazı yer almamışdır. İkinci Dünya Müharibəsindən sonrakı dövrdə Şimali Qafqazın qadın şeyxlərinin idarə etdiyi sufi qruplar mövcud idi. Çeçenistan Sufi dindarlığında *naflar* statusunda olan qadın çeçen mədəniyyətində nə qədər dəyərli olması tam aydın deyildir. Çeçen mədəniyyətində qadına hörmət dəyəri mövcuddur və burada hələ də qadını "təmiz, ismətli və müdafiə olunmuş" görmək istəyirlər.

Şimali Qafqazda sufilərin ruslara qarşı həm milli, həm də dini mübarizəsinin uzun tarixi vardır və bu mübarizə iki əsrdir ki, davam edir. Nə çar Rusiyası, nə sovet hökuməti, nə də ki, müasir Rusiya dövləti çeçen və digər Qafqaz xalqlarının bu istiqamətdəki müqavimətini sona qədər qıra bilməmişlər. Düzdür, sovet inqilabçılarının həm çeçenlər, həm də sufi qadınlar üzərində təsiri olmuşdur. Belə ki, inqilabçıların qəbul etdikləri aktlarda müsəlman icmaları arasında da gender bərabərliyi ideologiyasını təbliğ etmək əsas götürülürdü. Bildiyimiz kimi sovetlər, Qafqazda müsəlman qadınlarına "surroqat proletariat" kimi baxırdılar. Onların əsas məqsədi müsəlman qadınlarını sinfi mübarizəyə cəlb etmək idi. Qadınlar üçün Şimali Qafqazda yeni gender siyasətinin

tətbiqi sovet ordusunun Şimali Qafqaz milli hərəkatına qarşı vuruşması kimi dəyərləndirilirdi. Elə bu səbəbdən də, Sovet qaydaları mövcud olan dövrdə də, ondan sonrakı müharibə dövründə də genderə olan yeni yanaşma Şimali Qafqazda gözlənilən nəticəni vermədi.

Sovet gender ideologiyası və çeçenlərin 1944-cü ildə zorla öz yurd-yuvalarından deportasiya olunması sonradan müəyyən inkişafa gətirib çıxardı. Sürgün müddətində sufizm çeçenlər və hətta onların sürgün edildikləri bölgələrin müsəlmanları arasında daha da geniş yayıldı, nəticədə, Vis Hacı qolu formalaşdı. Qadiri təriqətinin bir hissəsi olan Vis Hacı qolu qadınlara *zikr* mərasimlərində iştirak etmək imkanı verdi. Həm qadiri, həm də nəqşəndi təriqəti qadın şeyxlərinin nəzarətində olan qadın məclislərinə icazə verirdi. Ola bilsin ki, sovetlərin gender ideologiyası da qadınların sufi təriqətində əhəmiyyətli yer almasına təsiri oldu, lakin bu axıra qədər aydın olmayan bir məsələdir. Sadəcə, çeçen qadın sufilərinin dediklərinə görə, onların öz öhdələrinə götürdükləri yeni gender rolları bölgədə gedən müharibənin nəticəsidir. Əslində, onlar üçün ən əhəmiyyətli olan onların ailəsi və evləridir. Bu onu göstərir ki, qadınlar müqavimət hərəkatına ona görə dəstək verirlər ki, onlar hələ də cəmiyyətdə gender və gender rollarında istədikləri dəyişiklikləri görmürlər. Son olaraq onu qeyd etmək lazımdır ki, sovet ideologiyası sufi təriqətində qadınların vəziyyətinə təsir edə bildi, lakin bu fundamental dəyişikliklərlə nəticələnmədi və qadınların cəmiyyətdə ənənəvi gender rollarında əsaslı dəyişiklik gözə dəymədi.

**Qadınsansa, "yer"ini bil.** Çeçenistanda yaşamaq hər zaman çətin olub və bu gün də bu çətinliklər davam edir. Bu kişilər üçün çətindirsə, qadınlar üçün ikiqat çətindir. Son dövrlərdə gedən proseslər, tətbiq edilən şəriət qaydaları, illərdən bəri patriarxallıqdan qaynaqlanan adətlər qadınların onsuz da məşəqqətlə dolu ağır həyatlarını bir az da çətinləşdirmişdir. Rusiyanın tərkibində olmasına rəğmən, bölgənin öz qanunları vardır və təəssüf ki, Rusiya Fe-

derasiyasının qadınlarla bağlı qanunları Şimali Qafqaz qadınları üçün hələ də kağız üzərində qalır.

Beynəlxalq təşkilatların analitik sənədlərinə əsasən, Çeçenistanda qadınların vəziyyətinin din adı altında pisləşməsi Ramzan Kadırovun hakimiyyəti illərində xüsusilə kəskin xarakter almışdır. Adətlər, şəriət qaydaları bir yana qalsın, Ramzan Kadırovun çeçen qadınları ilə əlaqəli öz qanunları vardır. Hələ 2007-ci ildə Çeçenistan Respublikasının prezidenti olmadığı dövrdə belə, o, şəriət qaydalarına olan simpatiyasını gizlətmirdi. Hakimiyyətə gələr-gəlməz o, çoxarvadlılığın çeçen mədəniyyətinin tərkib hissəsi olduğunu bəyan etdi. KİV-in qarşısında çəkinmədən şəriət qaydalarına əməl etməyənlərin cəzasının ağır olacağını dilə gətirdi. Şərəf üstündə adam öldürən çeçen kişisini açıq şəkildə təriflədi. Qroznıda məsciddə jurnalistlərin qarşısında çıxış edən Kadırov "azad həyat tərzi"nə üstünlük verən çeçen qadınlarının onun cəmiyyətində yeri olmadığını və "kimsənin onun vətəndaşlarına müsəlman kimi yaşamalarını qadağan edə bilməcəyini" söylədi. RF Ailə Məcəlləsində birmənalı şəkildə çoxarvadlılıq və ailə şərəfinə görə adam öldürməyin qadağan edilməsinə baxmayaraq, Kadırov çeçen vətəndaşlarına bunları etməyə icazə verdi. Ən çox müzakirə edilən hal isə, onun qadınlara hicab örtməyin məcburi olması əmrini verməsidir. O, dövlət işlərində işləyən hər bir qadının başını bağlaması haqqında sərəncam verdi. Bu yazılmamış qanun dərhal yerinə yetirildi. Az müddət keçməsinə baxmayaraq, 2007-ci ilin sonunda bütün qadınlar başlarını örtdülər və hətta teleaparıcılar da verilişləri başı bağlı aparmaq məcburiyyətində qaldılar.

Vəzifəsindən asılı olmayaraq hər bir qadın, istər müəllim, istər dövlət işçisi və hətta ombudsman ofisinin qadın işçiləri də başlarını örtdülər. Məktəblərdə, universitetlərdə bütün qızlara başlarını məcburən bağlatdırdılar. Universitet və məktəblərdə qızların bir qismi baş örtməyə etiraz etdi və bu qızlar hər gün mütəmadi olaraq başıaçıq içəri buraxılmadılar. Beləliklə, heç bir qanunu əsası

olmadan, respublikada bütün qadınlar ictimai yerlərdə başlarını örtməyə məcbur edildilər. Əyləncə mərkəzlərinə, restoranlara, kinoteatrlara da qadınlar başları örtülü gedirlər. 2011-ci ildə çeçen hökuməti həm yerlərdə, həm də mərkəzdə çeçen qadını üçün geyim təlimatlarını hazırladı və iş yerlərində dress-koda ciddi nəzarətə götürdü. Çeçenistan Respublikası hökumətinin 2011-ci il yanvarın 25-ində təqdim etdiyi sənəddə qadın geyimi bütün detalları ilə təsvir edilmişdir. Burada baş örtüyünün, saç düzümünün forması, don, ətək, bluzun qolunun uzunluğu – hər bir şey ətraflı şəkildə göstərilmişdir.

2010-cu ildə Qroznının mərkəzində başıaçıq gəzən qadına təhlükəsizlik orqanları tərəfindən atəş açıldı. Bu, ramazan ayında baş vermişdi. Qadınlar bunu hüquq mühafizə orqanlarının onlara qarşı törətdikləri təhqir hesab edirlər. R.Kadırov hicabla əlaqəli onun diktator rejiminə qarşı çıxan hər bir kəsə dözümsüzlük nümayiş etdirir. Məsələn, 2009-cu ilin iyun ayında Çeçenistanda “Memorial” mərkəzinin hüquq mühafizə işçisi Natalya Estemirova Qroznıda öz evinin yaxınlığında oğurlandı və öldürüldü. Estemirova 2007-ci ildən Kadırovu qadınlara başlarını örtmək əmrini verdiyinə görə tənqid etmişdi. Həqiqətən, REN-TV kanalında müsahibə verəndə o, Kadırovun baş örtüyü ilə əlaqədar verdiyi qərara tənqidi yanaşmışdı və bununla onun insan hüquqlarını pozduğunu qeyd etmişdi. O həmçinin Kadırovun şəriət qaydalarını yenidən gündəmə gətirməsini və RF-nın tərkibində olmasına baxmayaraq, onun qanunlarına məhəl qoymamasını kəskin tənqid etmişdi. Etiraf olunmasa da, hər kəs ehtimal edir ki, onun naməlum insanlar tərəfindən qaçırılması və qətlə yetirilməsi Kadırovun ondan aldığı intiqamdan başqa bir şey deyildi. Kimsə qətiyyətlə deyə bilməz ki, bu qadının ölümü ilə əlaqəli hər hansı bir cinayət işi açıldı, ya açılmadı. Çox yəqin ki, Kadırov islamlaşma siyasətini islamçı döyüşçüləri sakitləşdirməkdən ötrü aparır, bununla da bölgədə “sakitliyə” riayət etmək istəyir. Onu hakimiyyətə gətirən Rusiyanın qeyri islam dövləti olmasına baxmayaraq,

o, islami dəyərlərə üstünlük verdiyini xalqa çatdırmaqla xalqın qarşısında xal qazanmaq istəyir. Şəriət qaydalarının Çeçenistanda tətbiqi Çeçenistan Respublikasının Konstitusiyasına tamamilə ziddir, çünki Çeçenistanın əsas qanunvericiliyi Rusiya Federasiyasının qanunvericiliyi ilə tam üst-üstə düşməlidir: "Çeçenistan Respublikası dünyəvi dövlətdir. Dövlət heç bir dini dövlət dini elan edə bilməz". Bundan başqa, Kremlin bölgədə R.Kadırovun sürətlə yaydığı islamlaşma prosesinə biganə qalmasına baxmayaraq, bir sıra həm yerli, həm də beynəlxalq QHT-lər bunu Rusiya dövləti üçün potensial təhlükə hesab edirlər.

**Qadınlara qarşı törədilən zorakılıq hallarına Rusiya Federal Mərkəzi göz yumur.** Rusiya Federasiyasında yaşayan bütün qadınların ölkə Konstitusiyasının onlara verdiyi hüquqlardan bərabər şəkildə istifadə etmək hüquqları vardır. Konstitusiyada təsbit edilən qanunlara görə hər bir vətəndaşın öz geyimini seçmək hüququ mövcuddur. Şimali Qafqazda, xüsusilə də Çeçenistanda yaşayan qadınların geyimlərinə görə üzləşdikləri zorakılıqlar yalnız Rusiyanın mərkəzi telekanalları və beynəlxalq təşkilatlar tərəfindən işiqlandırılır, lakin nədənsə, mərkəzi hökümət buna göz yumur, dövlət səviyyəsində buna lazımi reaksiya vermir.

Hərəkətlərinə görə hüquqi cavabını almayan yerli məmurların özbaşnalığı davam edir, qadınların haqq səsi eşidilmir. Sovet hököməti dövründə dinə inanmalarına, dinlə bağlı bir sıra mərasimlərdə iştirak etmələrinə baxmayaraq, qadınlar çadra və hicabdan istifadə etmir, geyimlərində dini elementlərə az yer verirdilər.

"Human Rights Watch"-un rusiyalı tədqiqatçısı Tanya Lokşina (2011, Moskva) Çeçensandakı vəziyyətdən narahat olduğunu və Federal Mərkəzin qadınlara qarşı yerlərdə olan zorakılığa göz yumduğunu aidiyyəti orqanların diqqətinə çatdırmışdır. Çeçenistandakı qadınlardan islami qaydaları məcburi şəkildə yerinə yetirməyi tələb edirlər. Lokşina məruzəsində qeyd edir ki, yerli hökumətə görə qadınların başlarını bağlaması islamın əsas elementidir. Bu qədər kobud şəkildə haqqı pozulan qadının şikayə-

tinə kimsə baxmır, aidiyyəti orqanlar susmağa üstünlük verir və yerlərdəki məmurları narazı salmaqdan çəkinirlər.

Çeçenistanda dillərdə əzbər olan "qadın öz yerini bilməlidir" ifadəsi qadınlar üçün nəzərdə tutulan basilica etik normadır və sanki bu deyim qadının kişi istəyinə tabe etdirməyin bəraətidir. İslam dres-kodu məcburidir, bunu etməyənlər hədələnir, qorxudulur, təhqir edilir. Çeçenistanın paytaxtı Qroznıda geyimi "adekvat" olmayan qadın təhdid edilir və hər kəsin gözü qarşısında təhqir edilir, döyülür, söyülür. "Human Rights Watch"-un təşkil etdiyi sorğuda iştirak edən qadınların verdiyi məlumata görə hücuma keçənlərin arasında yerli güc strukturunun əməkdaşları da olmuşdur. Tanya Lokşina məruzəsində belə deyir: "Keçən il qadınlara edilən hücumda hüquq mühafizə işçilərinin iştirakı xüsusi narahatlıq yaradır. Federal Mərkəzin respublika iqtidarının ünvanına heç bir irad söyləməməsi, edilən şikayətlərlə əlaqəli heç bir tədbir görməməsi onu sübut edir ki, çeçen qadınları Rusiyanın digər bölgələrində yaşayan qadınlar qədər azad deyillər, əks halda, Federal Mərkəz insanlara ikili standartlarla yanaşmazdı, baş verənlərin ictimailəşdirilməsində maraqlı olardı. Nəyi necə geyinməklə əlaqəli hər kəs özü qərar verməlidir. Bütün Rusiya vətəndaşları kimi çeçen qadınlarının da buna haqqı çatır".

"Human Rights Watch" -un əməkdaşı həmçinin qeyd edir ki, Federal Mərkəz qadınlara hücum edənlərin cəzalandırılması üçün lazımi tədbirlər görməlidir. Çeçenistanda bir neçə ildir ki, islami dəyərlər adı altında bir sıra kampaniyalar həyata keçirilir və yuxarıda bəhs edilən insident də bu kampaniyaların tərkib hissəsidir. Qadın geyiminə olan tələb, islami əxlaq adı altında qadınların geyiminin dini dəyərlər çərçivəsindən kənara çıxmamasına olan nəzarətdən irəli gəlir. Din çərçivəsində aparılan bu siyasət insan haqlarına, ölkə Konstitutsiyasına, beynəlxalq normalara və ən əsası din daxili qaydalara ziddir. İnsanların seçim hüququ olmalıdır və digərlərinin bu hüquqa müdaxiləsi qanuna qarşı çıxmaqdır. Qadınların baş örtmələrinin tədricən kütləviləşdirilməsi və aidiy-

yəti orqanların buna göz yumması qeyd olunan kampaniyaların təşkilatçılarının işini asanlaşdırır. Ən əsası isə qadın dres-kodunun təminatının ölkə rəhbəri tərəfindən nəzarətə götürülməsidir. Bildiyimiz kimi bölgə rəhbəri, buradakı insanların hüquqlarının müdafiəsinə bilavasitə cavabdeh olan Ramzan Kadırovun özü bu dres koda riayət etmək istəməyən qadınları şəriət qaydaları ilə cəzalandırmağı təklif etmişdir.

Qadınlar açıq-saçıq geyimləri ilə müsəlman və ya qeyri-müsəlman kişilərini başdan çıxara bilər və nəticədə kişilər günaha girərlər. Nəfsinə hakim olmağı bacarmayan kişiləri günaha batırmamağın yeganə yolu qadınları tənbeh edib, onlara öz yerlərini göstərməkdir. Nəfsinə hakim olmağı bacarmayan kişinin xətrinə dəymək olmaz, çünki ən azı o, "kişidir". Ramzan Kadırov bu mövqeyini KİV-in qarşısında dəfələrlə açıq şəkildə söyləmişdir. "Qadın yerini bilməlidir" ifadəsinin son dövrlərdə gündəmə gəlməsi də, Ramzan Kadırovun müsahibələrinin birində onu bir neçə dəfə təkrarlaması olmuşdur. Əxlaqlı qadının davranışı dini normalar hüdudundan kənara çıxmamalıdır.

Onlarla qadın qeyri-adekvat geyiminə görə mərkəzi küçələrdə, insanların gözləri qarşısında cəzalandırılmışdır. Bu ölkədə islami dres-kod qaydalarına tabe olmayan heç bir qadın cəzadan sığortalanmamışdır. R.Kadırovun göstərişi ilə yerli güc orqanları kimsədən çəkinmədən "yerini bilməyən" qadınlara özünəməxsus şəkildə "yerlərin"i göstərirlər. "Düzgün geyinməyən" qadınların üzərinə xüsusi vasitələrlə boyalar atılır. Şəhərin mərkəzində göydən vərəqlər səpilir və vərəqlərdə "düzgün geyinməyən" qadınlara xəbərdarlıq edilir. Vərəqlərdə yazılır ki, qadınların üzərinə atılan rəng sadəcə xəbərdarlıqdır, yazılanlara riayət etməyən qadınları daha ağır cəzalar gözləyir. Bu, 1979-cu ildə İranda şah hakimiyyətini devirdikdən sonra Xomeyni tərəfdarlarının onların rejiminə tabe olmaq istəməyən qadınlara qarşı tətbiq etdikləri cəzaları xatırladır.

"Human Rights Watch"-un əməkdaşlarının keçirdikləri sorğuda iştirak edən 31 nəfər qadın silahla hədələndiklərini söylə-

mişlər. 2010-cu il 3 iyulda, "Qroznı" telekanalında situasiyanı şərh edən Ramzan Kadırov gedən proseslərə mövqeyini birmənalı şəkildə bildirmiş, törədilənlərə görə qadınları qınamış və öz günahları üçbatından bu hadisələrin onların başına gəldiyini söyləmişdi. Bu vaxta qədər "düzgün geyinməyən" qadınlara qarşı tətbiq edilən cəzaların daha da sərtləşdirilməsinin lehinə olduğunu açıq şəkildə, kimsədən çəkinmədən bəyan etmişdi.

2007-ci ilin Ramazan ayının ilk günlərində ənənəvi müsəlman geyimində olan kişilər Qroznının mərkəzində respublika müftisinin adından çıxış edərək, "düzgün geyinməyən" qadınlara yaxınlaşmış, əllərindəki broşuraları onlara təqdim etmiş və əlavə olaraq, əsl müsəlman qadınının dres-kodunu onlara izah etmişdilər. Adı çəkilən dres-koda görə müsəlman qadını dizdən aşağı ətək, dirsəklərini örtən köynək geyinməli və başı tam örtülü olmalıdır. Onlar "düzgün geyinməyən" qadınları hər kəsin yanında utandırırdılar. Tezliklə, küçədəki aqressiv əhvali-ruhiyyəli gənc oğlanlar "müftinin nümayəndələr"inə tərəfdar çıxmış, qadınların açıq qollarından, görünən saçlarından tutaraq, onları təhqir etmişdilər. Bu proses bütün Ramazan ayı boyu davam etmişdi. Sorğuda iştirak edən qadınların əksəriyyəti onlara hücum edənlərin yerli güc strukturlarının əməkdaşları olduğunu söyləmişdilər.

Tanya Lokşina öz məruzəsində qeyd edir ki, "Respublika prezidenti statusunda olan Ramzan Kadırov televiziyaya müsahibəsində açıq şəkildə qadını kişinin əmlakı hesab edir və "düzgün geyinməyən" qadınları cəzalandıranları dəstəklədiyini söyləyirsə, problemin nə qədər böyük olması göz qabağındadır. Baş verən situasiya yolverilməzdir və Federal Mərkəz Çeçenistan Respublikasının başçısını qanunlara tabe olmağa çağırmalıdır, lakin göründüyü kimi o bunu etməyə tələsmir". Baş prokuror bölgədə baş verənlərlə, qadınların islami dres-koda əməl etməsi ilə bağlı məsələlərlə məşğul olmaq üçün respublika güc strukturlarına əmr versə də, bunun konkret nəticəsi olmamışdı. Moskva, Ramzan Kadırovun əmri ilə baş verən bu hərəkətlərə, yəni "düzgün geyin-

məyən" qadınları cəzalandıranlara qarşı heç bir təpgi göstərmədi.
"Human Rights Watch"-un ayrı-ayrı ölkələrlə əlaqəli tənqidi fikirlər söyləməsinə baxmayaraq, bir sıra ölkələrdə din adı altında insan hüquqlarının pozulması halları davam edir. Təşkilat qadınlara qarşı davam edən təqiblərin dayandırılmasına çağırır. "Human Rights Watch" Çeçenistanda dres-kodla əlaqəli baş verən insidentin hüquqi qiymətini verməyi, qadınlara qarşı törədilən zorakılıq hallarını araşdırmaqdan ötrü bölgəyə gəlmək istəyən BMT məruzəçilərinin və digər beynəlxalq təşkilatların müşahidəçilərinin təhlükəsizliyini təmin etməyi Rusiya hökumətinə tövsiyə edir. Çeçenistanda yaşayan qadınların hüquqlarının qorunmasını Rusiya dövlətinin qarşısına bir vəzifə kimi qoydu. Tanya Lokşina da "Rusiya hökumətini Çeçenistanda qeyri-qanuni gender təcrübəsinə göz yummamağa" çağırır. Bütün bunlara baxmayaraq, bu bölgədə heç kim R.Kadırovun qoyduğu qanunlardan kənara çıxa bilməz. Bu və ya digər formada qoyulan qaydalara əməl etmək istəməyənlər isə bölgəni tərk etmək məcburiyyətində qalırlar.

## Ədəbiyyat:

**İngilis dilində**


1. "*An Eyewitness Account of the 1999-2000 War in Chechnya*", Chechnya Weekly, 2007
2. Ashour, Omar and Jamil, Uzma, "*Political-Social Movements: Islamic Movement and Discourses*" in Encyclopedia of Women and Islamic Culture Volume II ed. Suad Joseph, Boston: Brill, 2005: 600-602
3. Massell, Gregory. "*The Surrogate Proletariat*", Princeton: Princeton University Press, 1974, pp. 97-120.
4. Mikhail Roshkin, "*Sufism and Fundamentalism in Daghestan and Chechnya*, " 20 November 2007. Available at: http://*www.cerisciencespo.com/publica/cemoti/textes38/ roshchin.pdf*

5. Thomas de Waal and Carlotta Gall, *Chechnya,* New York, New York University, 1998, 23.).
6. Von Gumppenberg, Marie-Carin. "*Citizenship*", in Encyclopedia of Women and Islamic Cultures Ed. Suad Joseph Vol. II, Boston: Brill 2005, pp. 19-21
7. Zelkina, Anna, "*In Quest for God and Freedom",* New York: New York University Press, 2000, p. 229-230

# VI FƏSİL

# ŞİMALİ QAFQAZ QADINLARININ SOSİAL- İQTİSADİ VƏ SİYASİ VƏZİYYƏTİ

**Şimali Qafqazda yaşayan xalqların həyatında sosial, iqtisadi və siyasi dəyişikliklər.** Keçən əsrin son onilliklərində "qadın tarixi" müstəqil bir qol kimi təşəkkül tapmaqla, elmi problem kimi ortaya çıxdı. "Qadın tarixi"nin elmin bir istiqaməti kimi təşəkkül tapması əlbəttə, bu problemə olan maraqdan irəli gəlirdi.

Bu vaxta qədər qadının tarixdəki rolunun kifayət qədər qiymətləndirilməməsi, ona olan etinasızlıq "qadın tarixi"nə olan marağı artırmışdır. İstər Qərb ölkələrində, istərsə də Rusiyanın özündə bununla bağlı yüzlərlə kitab, elmi əsər yazıldı və "qadın tarixi"nin öyrənilməsi pik nöqtəyə çatdı. 1980-90-cı illərdə bu mövzuya olan maraq geniş vüsət aldı və bu barədə konkret tarixi, sosioloji, siyasi, fəlsəfi əsərlər bir-birinin ardınca işıq üzü gördü ("*Women in Western European History*", 1982).

1980-ci illərdə sosial transformasiya gender araşdırmalarının yeni bir elm kimi gündəmə gəlməsi üçün ən əsas təsiredici amillərdən oldu. Dünya alimləri gender elminin, diskurslarının, tədqiqatlarının inkişafının bu dövrə düşməsini o zaman aktivləşən demokratik hərəkatın tərkib hissəsi kimi qiymətləndirirlər. O dövdə SSRİ-də heç bir feminist hərəkat gözə dəymirdi, lakin artıq ev qadınlarının evdən çıxaraq, dövlət idarəçiliyi qurumlarında iştirak edə bilməsi haqqında təsadüfi olsa da, fikirlər səslənirdi. Ona görə də, indiyədək qaranlıq bucaqlarda aydın olmayan məsələlər hələ də qalmışdır, sosializmdən başqa bir quruluşa keçid dövründə bu qaranlıq bucaqlarda qadına ənənəvi, patriarxal-konservativ

münasibət gizlənirdi. 1990-cı illərdə qeyri-stabil siyasi vəziyyət nəticəsində qadın hərəkatı bölgələrdə yeni bir etiraz formasında vüsət aldı. Bu, Gürcüstanda xüsusilə geniş yayıldı və qadın hərəkatını gözdən salmaq üçün onlara müxtəlif xoşagəlməz adlar verilirdi: "qaracorablar", "Qamsaxurdiyanın fanatları" və sairə. Təəssüf ki, tədqiqatları çıxmaq şərti ilə bu hərəkatın elmi təhlili publisistika səviyyəsindən yuxarı qalxmadı (Али Абасов, "Центральная Азия и Кавказ"; Н.Молчанова "Прощание с Грузией"; Д.Юрьев "Революции не будет" və başqaları).

İnzibati komanda sistemindən bazar iqtisadiyyatına keçid əhalinin müxtəlif təbəqələrini yeni şərtlərlə yaşamaq məcburiyyətində qoydu. Regiondakı iqtisadi, mədəni, etnik fərqlilik əhalinin özünütəşkili prosesində müxtəlif formalar üçün zəmin yaratmışdı. Belə ki, müəssisələrin bağlanması, dövlət dəstəyinin olmaması, iqtisadiyyatın zəifləməsi ən çox qadınlara öz təsirini göstərdi (Атаева Л.М, 2005: 3).

Qafqazda yaşayan xalqların həyatında siyasi, iqtisadi və sosial dəyişikliklərin baş verməsinə baxmayaraq, onlar hələ də ənənəviliyə üstünlük verir və bu da ən çox qadınların həyatına mənfi təsir göstərirdi. Qadınlara olan münasibətdə ənənələrlə bağlı yeni yaranmış vəziyyət, Konstitusiyada qadınlara verilən hüquqla ənənələrdən qaynaqlanan hüquqlar arasındakı qeyri-tarazlıq çox şeydən xəbər verirdi. Ənənələr qadınları bir çox mövcud hüquqlardan məhrum edirdi. Məlum məsələdir ki, Qafqaz qadınının real vəziyyəti hüquqi demokratik cəmiyyətin qanunları ilə üst-üstə düşmür.

1990-cı illərdə Rusiyada qadınların sosial vəziyyətinin təhlilinə dair tədqiqatlar aparılmışdır və onların da əksəriyyəti liberal feminist gənc tədqiqatçılar (K.Qaliqan, K.Mille, C.Mitçel və başqaları) tərəfindən həyata keçirilmişdir. 2000-ci illərdə Rusiyada tanınmış alimlər, A.Posadskaya, N.Rimaşevskaya, N.Zaxarova, L.P.Repina, M.Q.Muravyeva, D.Bordin və başqaları gender tədqiqatlarına dair monoqrafiya, dərslik və başqa elmi əsərlər çap

etdirdilər. Bütün bunlara baxmayaraq, bu elmi əsərlərin arasında Qafqaz qadınlarının problemlərinə həsr olunan əsərlər çox azdır. Baxmayaraq ki, bu bölgədə qadınların istər sosial, istər siyasi, istərsə də iqtisadi durumu yetərli qədər problemlidir və tədqiqata böyük ehtiyac vardır.

Qərbdə qadın hüquqlarının müdafiəsi uğrunda hərəkatın uzun bir yolu vardır. Son iki yüzil boyu Qərb qadını öz hüquqları uğrunda ardıcıl mübarizə aparmış və mərhələ-mərhələ demokratiyaya yaxınlaşmış, "qadın hüququ", "qadının hüquq təfəkkürü" terminləri meydana gəlmişdir. Sonrakı mərhələdə, qadınlar sosial-iqtisadi hüquqları uğrunda mübarizə aparmış, daha sonra isə, onlar mədəni inqilab (reproduktiv azadlıq, ailə planlaşdırılması, abort etmə hüququ, ailə həyatı və sairə) mərhələsinə daxil olmuşdular. Kişilərlə bərabər sosial status: Sosial-iqtisadi, reproduktiv hüquqlar onlar üçün bir çox imkanlar aça bilərdi (С. Айвазова., 2001: 19).

Faktiki olaraq, Şimali Qafqazda feminizm hərəkatı heç vaxt olmamışdır. Rusiyada qadınların hüquq bərabərliyi məsələsi qadın hərəkatının təzyiqi altında həll olunurdu. Qadınlara verilən hüquqlar bir növ sənədlərdə əks olunurdu, lakin real həyatda bu mövcud deyildi. Nəticədə, Qafqaz qadınları "kişilərin əsarəti altında" olduqlarından da daha pis vəziyyətə düşdülər, çünki cəmiyyət buna hazır deyildi. Bütün əvvəlki tarix və mədəniyyət, dünyanın kişi baxışlarına, kişi zövqünə, kişi adətlərinə uyğun olaraq qurulmuşdu, cəmiyyət "maskulin idarəçiliyi" olan dünyanı daha rahat qəbul edirdi və bu baxış həm kişilərdə, həm də qadınlarda qorunub saxlanılırdı. Qadına verilən hüquq və öhdəliklərdə də bu yanaşma əxz olunmuşdu. Qadın mövcud standartlara və stereotiplərə qarşı duruş gətirməyi bacarmalı idi. Qadınlar dünyaya, tarixə və mədəniyyətə özəl baxışının olmasını təsdiqləmədən, cəmiyyətdə özlərinin mövcudluğunu itirmə riski altında yaşayırdılar.

Şimali Qafqazdan fərqli olaraq, Rusiyada demək olar ki, XX əsrin əvvəllərindən qadın kursları, ali və orta tibb, politexnik,

kənd təsərrüfatı, memarlıq və s. sahələrə aid kurslar təşkil edilmişdi və sonrakı mərhələdə də bu kurslar öz səmərəsini vermişdi. Onlar qadınlar üçün təhsil mənbələri idi. Demək olar ki, bütün bu kurslar qadınların həm özəl, həm də ictimai təşəbbüsləri sayəsində yaradılmışdı (Шабанова А.Н., 1912: 27). A.H.Şabanova haqlı olaraq qeyd edir: "Rus qadının yüksək təhsil, bilik uğrunda daima mübarizə aparması, özünütəkmilləşdirməyə olan cəhdi... nəticələrini vermişdir. Onlar üçün bəzi yollar açıldı, qadın bəzi sahələrdə öz biliklərini realizə edə bilərdi" (Шабанова А.Н., 1912: 28). Bu səylərin nəticəsi idi ki, XX əsrin əvvəllərində Rusiya ali təhsilli qadınların sayına görə İngiltərədən sonra dünyada ikinci yerdə idi (Тишкин Г.А., Павлюченко Э.А. 1984).

Sovet dönəmində Şimali Qafqaz qadını özünü realizə etmək üçün bir çox sahələrdə təhsil almışdı. Bu dağlar qızı bəzi sahələrdə təkcə Rusiyada deyil, Avropadakı həmyaşıdlarını da geridə qoymağı bacarmışdı. Buna nümunə olaraq çoxsaylı faktlar göstərmək olar. Yada salaq ki, Şimali Qafqaz təmsilçisi, Elita Даурова dünyada ilk qadın-təyyarəçi olmuşdur. Daha bir Şimali Qafqazlı, Veronika Dudarova dünyada ilk qadın dirijor olmuşdur. Bütün bunlarla yanaşı, eyni zamanda, Qafqaz cəmiyyəti patriarxal məişətini də qoruyub saxlamışdı, çünki sovet hakimiyyəti onu bu "məişət" qayğısından azad etmədən, çiyninə ikinci bir yük də qoymuşdu. "İkili yükü" olan qadın indi həm evdəki qayğılarına görə əvvəlki məsuliyyəti daşıyır, həm də karyerasında fərqlənmək kimi əlavə bir yükün altına girmək istəyirdi. Düzdür, dövlət sosial infrastrukturun inkişafına hərtərəfli kömək üçün daima vədlər verirdi, lakin bunu hər zaman "daha vacib vəzifələrin həyata keçerilməsi" məcburiyyətində qaldığı üçün təxirə, necə deyərlər, "bu gün-sabaha" salırdı. Qadınların yalnız bir sahədə işləri nisbətən azalmışdı, bu da yetərli sayda olmasa da, uşaqlara qayğı mərkəzlərinin (uşaq bağçaları, günü uzadılmış məktəblər, yay tətili zamanı məktəb uşaqları üçün düşərgələr və sairə) açılması ilə bağlı idi. Bir də, kompensasiya olaraq, bəzi güzəştlər edilirdi, məsələn, do-

ğumdan əvvəl və sonrakı dövrdə verilən müavinatlar bu qəbildən sayıla bilərdi.

O dövrün sosialist qanunvericiliyinin xüsusiyyətlərini təhlil edərkən, qeyd etmək vacibdir ki, sovet dövründə ailədə gender assimetriyası mövcud idi, lakin bu assimetriya – ənənəvi deyildi. Sovet dövründə ailədə əsas fiqur olan ananın funksiyası qat-qat çətin idi. Dünyaya övlad gətirən ana uşaqların tərbiyəsinə, ailə məişətinə görə cavabdehik daşıyırdı. Əlbəttə, bütün evin qayğısı onun üzərində idi və bundan əlavə qadın öz maaşı ilə ailəsini maddi cəhətdən dəstəkləyirdi. Sovet ailələrinin əksəriyyətində ərin qazandığı əmək haqqı bütün ailə üzvlərinin yaşayış səviyyəsini təmin edə biləcək qədər çox deyildi.

Sosioloqlar Sovet dövründəki gender münasibətlərinin xarakterini müəyyənləşdirərkən, onu yekdilliklə "işləyən ana müqaviləsi" kimi qiymətləndirirlər. Bu o deməkdir ki, sistem iki rolu qadına həvalə edirdi: "Ödənişli işçi qadın" və "odənişsiz ev işlərinin öhdəsindən gəlməyi bacaran ana". Beləliklə, sovet nümunəsi olan "gender bərabərliy"i siyasətinin həyata keçirilməsində qadınların vətəndaş hüquqlarının təsdiqi ilə bağlı dövlət öhdəsinə düşən əsas vəzifələri həll etmədi. Qadınların statusunda formal-hüquqi dəyişikliyə gəldikdə isə, dövlət cinslər arasında ənənəvi əmək bölgüsünü dəyişdirə bilmədi, gender bərabərliyini təcrübədə realaşdırmağı bacarmadı və ya reallaşdırmaq istəmədi, bütün patriarxal cəmiyyətlərdə olduğu kimi, "böyük" dünya siyasətinin, cəmiyyətin idarəçiliyini kişiyə, ev-məişət məsələlərinin həllini isə qadına həvalə etdi.

1990-cı illərin əvvəllərindən Şimali Qafqazda, bütövlükdə Rusiya Federasiyasında siyasi və iqtisadi islahatlar, mülkiyyət formalarının dəyişdirilməsi ilə bağlı proseslər başladı və sovetlər sistemindən hüquqi, demokratik dövlət sisteminə keçid baş verdi (С. Айвазова., 2001: 36). Lakin real həyatda Şimali Qafqaz qadınları gender bərabərliyi ideallarından hələ çox uzaqdırlar. Kişi və qadınlar arasındakı bərabərsizlik əsasən iki sahədə - gender

rollarının bölünməsində (əmək və məşğulluq) və dövlət və cəmiyyətdə (siyasət, idarəetmə) özünü daha çox büruzə verir.

İctimai istehsalda iştirak etmək Qafqaz qadının həyat normasına çevrilmişdir. Bu gün yetkin yaşlı Şimali Qafqaz qadınlarının arasında 35-49 yaşdakıların, təxminən 90 %-i işləyir və ya iş axtarırlar. İşləyən qadınların böyük əksəriyyəti muzdlu işçilər kateqoriyasına aiddir. Çox cüzi sayda qadın başqa sahələrdə işləyir. Şimali Qafqazda qadın sahibkarlığının ən səciyyəvi cəhətləri hansılardır? Sahibkarların ümumi sayında qadınların payı təxminən 20 % təşkil edir. Onlar əsasən qeyri-ciddi, orta və xırda bizneslə məşğuldurlar. Qadınları böyük biznesdə görmək çox nadir hadisədir.

Qadın sahibkarlığı xüsusi dövlət proqramlarının nəticəsi deyil, bu sahədəki təşəbbüskarlıq çox vaxt qadınların özlərindən irəli gəlir. Halbuki son vaxtlara qədər dövlət qadın sahibkarlığın inkişafından çox böyük həvəslə danışırdı, lakin bu günə qədər qadın sahibkarlığına dəstək üçün konkret heç bir addım atılmamışdır.

Qadın biznesi əsasən ənənəvi qadın məşğulluğu sahələrini - pərakəndə ticarəti, məişət xidmətlərini, səhiyyəni, mədəniyyəti, elmlə əlaqəli kiçik həcmli sferaları əhatə edir. Sosioloqlar iddia edirlər ki, kişilərlə müqayisədə qadınlar öz bizneslərini daha ehtiyatla inkişaf etdirirlər. Onlar böyük risklərdən çəkinirlər, kompromisə meyllidirlər, böyük tərəfdaşları ilə qarşılıqlı əlaqədə mənəvi prinsipləri və etik normaları nəzərə alırlar.

Qadın sahibkarlığının belə duruma düşməsinin bir neçə səbəbi vardır. Birincisi, dövlət bu işin inkişafı üçün normal qanunvericilik bazasını yaratmamışdır. İkincisi, ölkədə qanunverici və icra hakimiyyəti ilə işgüzar dairələrin, açıq, leqal qarşılıqlı əməkdaşlıq mexanizminin mükəmməl olmaması bu işə kifayət qədər maneçilik törədir. Üçüncüsü, Kremlin regiona qarşı qeyri-düzgün siyasət aparması, buradakı problemləri daha da kəskinləşdirir. Qadın sahibkarlara qarşı çox vaxt süni şəkildə yaradılan maneələr

ucbatından onların işgüzar inkişafı ləngiyir. Onların fəaliyyətinə sosial-psixoloji xarakterli amillər də çox ciddi təsir göstərir. Xüsusilə ailədə və cəmiyyətdə qadınların roluna olan ənənəvi baxış qadın sahibkarlığının inkişafına yetərincə neqativ təsir göstərir. Cəmiyyətdə mövcud olan ənənəvi stereotiplər, biznes sahəsində olan qadınların rəqabət qabiliyyətini ciddi şəkildə məhdudlaşdırır, hətta onların ailə münasibətlərinə mənfi təsir göstərir. Sahibkarlığın müasir vəziyyəti hətta bir çox hallarda, qadının vəziyyətini daha da pisləşdirmişdir, çünki maliyyə çətinlikləri ucbatından Şimali Qafqaz qadınları kiçik bizneslə məşğul olmaq məcburiyyətindədirlər. Ağır zəhmət və cüzi qazanc onları bu işə başlamaq həvəsindən yayındırır. Sahibkarlığa yeni başlamaq istəyən qadınlar bu addımı atmağa tərəddüd edirlər, xüsusilə subay qadının belə işlərə baş qoşması, onun gələcəkdə ailə qurma şansına neqativ təsir  göstərir.

Əlbəttə, söhbət əmək bazarında qadınların fəaliyyətinin məhdudlaşdırılmasından gedəndə, opponentlər deyirlər ki, dövlətin gender bərabərliyi qanunu mövcuddur və bu qanuna istinadən, qadının da formal olaraq kişilərlə bərabər eyni hüquqları vardır, lakin Şimali Qafqazda qadınlara olan ənənəvi baxışları nəzərə almadan, gender münasibətlərindən bəhs etmək tamamilə yanlış olardı. Qadın, hələ də ailədə kişi normalarına uyğun davranır. Ənənələri dəstəkləyən qadın ailədə, ictimai yerdə öz fikrini söyləyir, mübahisə edir, lakin qadının razılaşıb-razılaşmamasından asılı olmayaraq, son söz yenə də kişinin olur. Milliyyətindən asılı olmayaraq, bu amil bütün Qafqaz cəmiyyəti üçün mövcuddur, lakin onu da qeyd etmək vacibdir ki, qadına olan belə yanaşma təkcə ailədaxili qərarların qəbul edilməsi zamanı deyil, rəsmi dövlət strukturlarında da baş verə bilər. İstər ailə, istərsə də ictimai sferada qadın ”yeri”ni bilməlidir. Kişi normativ sistemin daşıyıcısı olmalıdır. Qadın isə bu normativ tələbləri həyata keçirməyi, icraçısı olaraq, ailənin gündəlik həyatına daxil olmağı bacarmalıdır. Müasir dövrdə iqtisadi böhran nəticəsində ailə başçısının funksi-

yası dəyişmişdir. Qazanc üçün kişi respublikanın hüdudlarını tərk edir və başqa ölkəyə üz tutur. Bu zaman nə baş verir? Cavan və ya ortayaşlı bir qadın həm ev təsərrüfatının, həm uşaqların, həm yaşlı valideynlərin yükünü daşımalı olur. Bir tərəfdən bu, qadının fiziki yükünü artırmağa gətirib çıxarır, digər tərəfdən isə, ev təsərrüfatının əhəmiyyətini, ailə dəyərlərini aşağı salır (Лыткина Т.С., 2002: 123).

Qadının vəziyyətinin pisləşməsi Şimali Qafqaz respublikalarının müsəlman əhalisi arasında xüsusilə çox hiss olunur, çünki ənənəvi müsəlman cəmiyyətində qadının peşə təcrübəsi yoxdur. O, müasir məşğulluq, dayanıqlıq və digər bazar keyfiyyətlərinə malik deyil ki, düşdüyü vəziyyətdən çıxış yolu axtarıb tapa bilsin. Müasir dünya insandan işgüzarlıq, təşəbbüskarlıq, innovativ vərdişlərə malik olmağı tələb edir. Bugünkü əmək bazarı sovet dövrünün məşğulluğu ilə müqayisədə daha çox qəddarlaşıb. Bundan başqa, qadınların ictimai sahəyə çıxışı üçün əlavə sosial stimullar yoxdur. Hələ də qadınlar ocaq qoruyucusu statusunda önə çıxır, ailənin-evin qadın əməyindən asılılığı saxlanılır. (Лыткина Т.С., 2002: 124). Bu səbəbdən də, qazanc naminə edilən məcburi cəhdlər ağır psixoloji travmalara gətirib çıxarır.

## Ədəbiyyat:

**Rus dilində**

1. Атаева Л.М., Атаева М.Б., “*Тлисова А.Б., Особенности социально-психологической самоорганизации женщин Северного Кавказа*”, Черкесск, 2005, С. 3
2. “*История борьбы русских женщин за право на образование хорошо показана в монографиях: Тишкин Г.А. Женский вопрос в России: 50-60-е годы XIX* ”, 1984; Павлюченко Э.А. “*Женщины в русском освободительном движении*”.
3. Лыткина Т.С., “*Трансформация семьи и домашнего хо-*

*зяйства: опыт социо-этнологического описания жизни табасаранцев*” // Ежегодная научная конференция : “Сорокинские Чтения”: Актуальные проблемы социологической науки и социальной практики. М. 2002. – С. 123.
4. Айвазова С., “*Гендерное равенство в контексте прав человека*”, Пособие Москва, 2001, С. 19-36
5. Шабанова А.Н., “*Очерк женского движения в России*”, Спб. 1912, С. 27

**İngilis dilində**

6. “*Women in Western European History*”, V., 1–3. Lnd. 1982

## Çox dəyişən dünyada az dəyişən Şimali Qafqaz qadınları

Hal-hazırda Şimali Qafqaz respublikalarında qadınların faizi aşağıdakı kimidir: Dağıstanda – 51,9 %, İnquşetiyada – 55,3 %, Kabarda Balkar Respublikasında – 53,3 %, Qaraçay Çərkəz Respublikasında – 53,8 %, Şimali Osetiya-Alaniyada – 53,8 %, Çeçenistan Respublikasında – 50,9 % (Bax: All-Russian population census, http://www. perepis-2010. ru). Son iki onillik ərzində bütövlükdə Şimali Qafqaz respublikaları əhalisinin çox hissəsinin qadınlardan ibarət olmasına baxmayaraq, qadınların əmək bazarındakı xüsusi çəkisi kişilərlə müqayisədə aşağıdır. Üç əsas amil əmək, təhsil və işsizlik bu bölgədə yaşayan qadınların həyat tərzinə təsir edir. Rusiyada son onilliklərdə gedən qlobal sosial-iqtisadi və siyasi tranformasiya qeyd etdiyimiz kimi, əmək və təhsil sferasında qadınların vəziyyətinə güclü təsir etmişdir. Şimali Qafqaz respublikalarının müxtəlif bölgələrində qadınların ictimai istehsalda iştirakı fərqlidir. Regionda qadınların təhsil səviyyəsi kişilərin təhsil səviyyəsindən yüksəkdir, lakin Rusiya Federasiyasının digər bölgələri ilə müqayisədə bu respublikalarda qadınların təhsil səviyyəsi aşağıdır: Vilayətlərdə ali təhsillilərin sayı orta təhsillilərdən və təhsilsizlərdən azdır. Ümumilikdə, bu belə olsa da, ayrı-ayrı bölgələrdə, məsələn, Qaraçay Çərkəz Respublikasında və Şimali Osetiya-Alaniyada ali təhsilli qadınların xüsusi çəkisi, Rusiya Federasiyasındakı ali təhsilli qadınların xüsusi çəkisindən artıqdır. Bu respublikalarda əhalinin ümumi sayında ali təhsilli qadınların xüsusi çəkisi 25 % və 27 % olduğu halda, Rusiyada bu rəqəm 23 %-dir. Son dövrlər əvvəlki illərlə müqayisədə İnquşetiya və Çeçenistan Respublikalarında 15 və yuxarı yaşda olan qadınlar arasında təhsilsizlərin sayı xeyli artmışdır (Yenə orada). 1990-cı illərdə təhsilli qadınların sayı təhsilli kişilərdən çox idi. 1995-ci ilə qədər kişilərin

üstünlük təşkil etdiyi fakültələrdə təhsil alan qadınların sayı artmışdır, məsələn, riyaziyyat, fizika, informatika, iqtisadiyyat, mühəndislik, hüquq, texniki ixtisaslar və sairə sahələrdə.

Ali təhsilin bu sahələrinə qadınların marağı heç də sonda onları ixtisaslarına uyğun əmək bazarında yer tapmalarına kömək etmir. Bu da onunla izah olunur ki, kişilər iqtisadiyyatın nüfuzlu sahələrini artıq zəbt etmişlər və bu sahələrə gəlmək istəyən qadınlara təzyiq göstərmək gücünə malikdirlər. Kabarda-Balkar Respublikasında 1995-1998-ci illər ərzində qadınların əmlak bazarında xüsusi çəkisi 14 % azalmışdı. 2006-cı ildə İnquşetiyada əmək bazarında qadınların sayının azalması ölkədə ən aşağı səviyyəyə düşdü (34 %). Buna da səbəb əmək bazarında qadınlara qarşı olan diskriminasiya hallarının son dərəcədə artması oldu. Cins amili öz sözünü deyirdi və iş axtaran qadınlara qarşı açıq şəkildə diskriminasiya mövcud idi (Айвазова С, 2001: 81). Hər hansı bir işdə ixtisar olurdusa, ilk növbədə qadınlar işdən çıxarılırdı, çünki onların fikrincə, qadınlara nisbətən kişiləri işdə saxlamaq daha əlverişlidir. Qadınlar uşaqları xəstələndikdə tibbi arayış gətirir, analıq məzuniyyətinə çıxırlar, lakin kişilər bunları etmirlər və üstəlik günün hansı vaxtı olursa olsun, işə gələ bilirlər. Şimali Qafqaz respublikalarında işsizliklə əlaqədar qeydiyyatdan keçənlərin siyahısına nəzər salsaq, qadınların sayının daha çox olduğunun şahidi olarıq. Sovet dövründə də bu bölgədə işləyən qadınların sayı işləyən kişilərin sayından qat-qat aşağı idi və postsovet dövründə də bu tendensiya davam edir. 1990-cı illərdən sonra əmək bazarında cinslərin maaşlarında fərq artmağa başlanmışdır, belə ki, qadınlar daha az nüfuzlu və az ödənişli işlərdə çalışdıqlarına görə (toxuculuq, qida, təhsil, mədəniyyət və sairə) bu fərq daha da artır. Hətta nüfuzlu hesab edilən sektorlarda da qadınlar alt strukturlarda işləyirlər, məsələn, bank sektorunda işləyən qadınların sayı idarəçilikdə deyil, tabeçilikdə daha çoxdur. Bəzi mənbələrdə qadınların orta və kiçik bizneslə məşğul olması faktlarına rast gəlirik. Qadın sahibkarların faizi yüksək deyildir, bu 20-40 % ara-

sıdır. Bir şey də məlumdur ki, qadınların biznesə gəlişinin səbəbi dövlət dəstəyi deyil, bu qadınların öz təşəbbüsləri sayəsində baş verir. Hələ də qadın sahibkarlarını dəstəkləyən mükəmməl dövlət proqramı mövcud deyildir. Düzdür, KİV-də qadın sahibkarlar haqqında çoxsaylı yazılara təsadüf edirik, lakin dövlət hələ də bu istiqamətdə konkret addım atmır. Qadınların biznesi kişilərin biznesindən köklü fərqlənir, qadınların biznesi ənənəvi qadın sferalarında realizə edilir, məsələn, pərakəndə satış, məişət xidmətləri, səhiyyə, mədəniyyət, elm və sairə. Çin və Türkiyədə istehsal olan əşyaların satışı o qədər geniş yayılmışdır ki, Qafqaz xalqlarının qədimdən bəri mövcud olan istehsal sahələri unudulmuşdur. Əvvəllər, yundan hazırlanan yerli mallar artıq yoxa çıxmışdır. Bu növ ənənəvi əl əməyi ailələrin ən əsas gəlir yerləri idi. İqtisadi kataklizmalara baxmayaraq, yun emalı və müxtəlif məmulatların hazırlanması (corab, əlcək, sviter, qolsuz köynək, uşaq əşyaları və bir çox digər məhsullar) və satışı öz mühüm əhəmiyyətini hələ də saxlayır. Ev şəraitində hazırlanan bu məhsulların bir özəl xüsusiyyəti də ondan ibarətdir ki, bu malların ərsəyə gəlməsində azyaşlı qızdan tutmuş ailənin ən yaşlı qadını da iştirak edə bilir. Qafqazda turistlərin gəldiyi bütün bölgələrdə - Kabarda-Balkar Respublikası və Qaraçay Çərkəz Respublikasında, Dolinkdə, Çeqem şəlaləsində, Arxızda, Dombayda və başqa yerlərdə yuxarıda sadalanan malların (dəri və yundan hazırlanmış) bazarı təşkil edilir və bu malların kifayət qədər alıcısı olur. Qadınlar tərəfindən hazırlanan bu mallar bəzən çox yüksək zövqdən xəbər verir və hətta sənət əsəri səviyyəsinə çatır. Kiçik bizneslə məşğul olsalar da, hər halda belə məşğulluq sahəsi onlara ayaq üstündə durmağa kömək olur və nəticədə kiçik bizneslə məşğul olan qadınların sayı durmadan artır.

**Müasir ailədə qadının rolu**. Ənənəyə görə ictimai sferada çalışan qadınların ödənişli işlərinin təhlili hər zaman ödənişsiz ev işlərinin təhlilindən ayrılıqda aparılır. Bu iki sferanın bir-birinə təsirinin təhlili göstərir ki, gender bərabərsizliyinə rəvac verən

"çıxışı olmayan dövrə"dir. "Çıxışı olmayan dövrə" deyəndə ev işləri nəzərdə tutulur: Qadının ev-ailə qayğıları onun imkanlarını o qədər məhdudlaşdırır ki, qadın bazar iqtisadiyyatına tam qoşula bilmir və ya qoşulursa da, özünü tam realizə edə bilmir. Bununla da, işləyən və işləməyən qadın da çox vaxt maddi cəhətdən həyat yoldaşından asılı vəziyyətə düşür. Beləliklə, yaxşı-ödənişli, prestijli iş yerləri avtomatik olaraq kişilərin əlinə keçir və qadınların kişilərdən olan maliyyə asılılığı bir növ formallaşır.

Tarixən çətin həyat tərzinə malik olan Qafqaz qadınının vəziyyəti hələ də mürəkkəb olaraq qalır. Əlbəttə, yenə də qeyd etmək yerinə düşər ki, bu bölgədən danışanda bir tip qadından söhbət getmir, Qafqazda çeşid-çeşid qadın tipləri hər zaman olub və indi də mövcuddur.

Qafqaz qadınının ailə və cəmiyyətdəki vəziyyəti kompleks problemlərdən ibarətdir: cəmiyyətdəki sosial-iqtisadi bərabərsizlik, erkən nikah, cehiz və sairə problemlər. Müasir elm, nikah və ailə məsələlərini hərtərəfli və dərin araşdırır. Ailə, onun ayrı-ayrı insanların həyatında, ümumilikdə, cəmiyyətdə rolu hər zaman dövlət siyasətinin mərkəzində durmalıdır. Ailə və nikah əsas özül olaraq, vətəndaşın reproduktiv rolunu realizə edərək formalaşır. Ailə - cəmiyyətin inkişafı, əhali artımı, gənc nəslin fiziki və mənəvi tərbiyəsi üçün zəruri olan əsas bazadır. Aydındır ki, cəmiyyət üzvlərinin psixoloji-fiziki vəziyyəti əsasən ailədən asılıdır. Ailə insanın sevinc/kədər və xöşbəxtlik/bədbəxtlik mənbəyidir. Ailədəki həyat tərzi müəyyən dərəcədə uşağın gələcək ailəsindəki həyat tərzini müəyyənləşdirir.

Qafqaz respublikalarında kənd əhalisinin müəyyən hissəsinin həyat tərzi hətta SSRİ dövründə də əhəmiyyətli dərəcədə dəyişməmişdi. Təbii ki, illərlə oturuşmuş ənənələrə söykənən qadına münasibət, hər hansı hüquqi aktların qəbul edilməsi ilə dəyişə bilməzdi. Üstəlik, ailə hüququ ilə əlaqəli yaxın zamanlara qədər heç bir hüquqi qanunvericilik aktlarının mövcud olmamasını nəzərə alsaq, belə aktların yerli camaat tərəfindən qəbul edilməməsi sə-

bəbini yaxşı anlamaq olar. Onlar bu aktları nəinki qəbul etmək, bu barədə heç eşitmək istəmirdilər. Sözsüz ki, onların yerinə yetirilməsinə, yəni normativ aktların icrasına nəzarət sistemi çox zəif idi və hətta yox dərəcəsində idi.

Ötən əsrin 90-cı illərindən başlayaraq, qabardılan islam amili Qafqazın müsəlmanlar yaşayan bir çox bölgələrində ictimai həyatın özünəməxsus intibah dövrünü yaşayır və bu da qadının ailədə roluna təsirsiz ötüşmürdü. İqtisadiyyatda əmək fəaliyyətinin bir növünə digəri ilə müqayisədə üstünlük verilməsi, vəziyyəti elə bir səviyyəyə gətirib çıxardır ki, gündəlik həyat tələbatlarını ödəməyə yönəlmiş sahələrin inkişafı çox aşağı səviyyəyə düşür. Sosial-məişət xidmətləri, ən zəhmətli iş olan ailə qayğıları, ev təsərrüfatı sahəsində vəziyyət mürəkkəb olaraq qalır və bu sferalarda insan üçün layiqli əmək şəraiti yaradılmır. Bu zaman yeni gender, yəni özəl və ictimai sahədə işləyən insanların rollarının dəyişməsi zərurəti istiqamətində geniş izahat işi aparılmadığı üçün verilən hüquqlar qadınların həyatında heç bir dəyişiklik etmədi. Ənənəvi öhdəliklərin bölünməsi haqqında ictimai rəydə heç bir dəyişiklik baş vermədi, yenə qadın ödənişli əmək fəaliyyəti ilə məşğul olsa da, kişi ailənin təminatçısı qismində, qadın isə ev işində cavabdeh statusunda qaldı. Ailədə kişi və qadına qarşı bu cür münasibət insanların davranışında nəsildən-nəslə keçir, ailəyə xidmət üzrə işlər davamlı olaraq qadınların çiyinlərinə düşür və belə stereotipləri dəf etmək o qədər də asan olmur. Ev işlərinin icrası qadınlara elə bir şəkildə təhkim olunmuşdur ki, buna sahibin işçisi qarşısında qoyduğu tələb kimi baxılır. Ev işlərinin belə bölgüsü iyerarxiya dəyərləri kimi qiymətləndirilir. Bununla da, ailədə qadından böyük fədakarlıq tələb edilir. Bu zaman işçinin (qadının) öz yerində daimi olması zəruridir, iş yerində onun bacarığı və yüksək iş qabiliyyəti yenə də birinci, yəni prioritet yerdədir. İkinci yerdə isə qadının qeyrətli ev sahibəsi, diqqətli həyat yoldaşı, ailəsini, evini sevən qadın, ana olması gəlir ki, bu da həmin qadından həm fiziki, həm də mənəvi güc, bir sözlə, böyük fədakarlıq tələb edir.

Qanunvericiliklə müəyyən olunmuş iş vaxtı cinsi əlamətə görə bölünmür, qadın və kişi üçün eyni iş saatı nəzərdə tutulur. Evdə sərf edilən enerjinin ölçüsü cinsə görə fərqlənir, belə ki, istər kənd qadınları, istərsə də şəhər qadınları, kişilərdən daha çox işləyirlər. Düzdür, qanunvericilikdə azyaşlı uşağı olan qadınların əmək saatlarında bir-iki saat fərq olur, lakin ev işlərində qadının əməyi hər zaman kişinin əməyindən qat-qat çox olur. Ev işlərinə sərf edilən əməyin həcmi qadınlar üçün o qədər çox olur ki, onlar nə özlərinə, nə də uşaqlarına lazımi vaxt ayıra bilmirlər. Qadınlar sərf etdikləri enerjini bərpa etmək üçün vaxt tapmırlar, sərf etdikləri vaxtın həcmi kişilərlə müqayisədə daha çox olur. Əsasən fiziki cəhətdən ağır, yeknəsəq və darıxdırıcı işlərin əksər hissəsi qadınlar tərəfindən yerinə yetirilir.

Ev işləri fərdin, ailənin maddi-məişət ehtiyaclarının ödənilməsi üçün zəruri olduğu kimi, yardımçı təsərrüfat da fəhlə və qulluqçuların ev əməyinin bir hissəsi kimi həyat vasitələrinin mühüm mənbəyidir. Ev əməyi insan həyatının mühüm sferalarından biridir. Əhali üçün zəruri hesab edilən xidmət və istehlak ictimai istehsal prosesinin bir hissəsidir. Bu sahədə ailə tələbatlarını ödəmək prosesində bütün ağırlıq, ilk növbədə, qadının çiyinlərinə düşür. Ev əməyi və ya onların yenidən istehlakı prosesində əşyalar istehsal edilir: mətbəx işləri, ayaqqabı və paltarların, məişət əşyalarının təmiri. Bundan başqa ailə daxilində xidmətlərin göstərilməsi də ev əməyi hesab edilir.

Ailə çərçivəsində ev təsərrüfatının icrasında köhnə ənənələr saxlanılır, ailə ocağının daşıyıcısına çevrilən qadının bərabərlik və azadlığa çıxmaq cəhdinə, cəmiyyət hər vasitə ilə mane olur. İllər, əsrlər keçsə də, qadın karyerası ilə deyil, evdəki işi-gücü ilə qiymətləndirilir. Yenə də əsl qadının mətbəxdə qeyri-adi yeməklər hazırlaması, ev əşyalarının qayğısına qalması, evdəkilərə olan xidməti daha çox qabardılır. Ailə funksiyalarının, gender rollarının bölüşdürülməsində qadın və kişi arasında əndazəsiz bərabərsizlik hiss edilir.

Reproduktiv funksiya – bu, cəmiyyətin bioloji istehsalıdır və eyni zamanda cəmiyyətin uşaqlara olan ehtiyacından meydana gələn tələbdir. Həyatda, bu təbii-bioloji prosesin davam etdirilməsində həm qadın, həm də kişi iştirak edir. Dünyaya uşaq gətirmə sosial tələbatdan irəli gəldiyi üçün bu təkcə ailənin deyil, həm də cəmiyyətin tələbidir. Qadın bu funksiyanın yerinə yetirilməsində əsas rol oynayır, lakin bunun yerinə yetirilməsi probleminin özü, son vaxtlar xeyli dərəcədə gərginləşmişdir. Demoqraf, psixoloq, sosioloqlar yekdilliklə qeyd edirlər ki, cəmiyyətdə uşağa tələbat artsa da, ailədə uşaqların sayı nəzərəçarpacaq dərəcədə azalmışdır. Üstəlik, uşağın doğulmasına olan tələbat artıq tam ailənin yaradılması ilə həyata keçirilmir, ailədən kənar doğulan uşaqların sayı da, son dövrlər xeyli dərəcədə artmışdır. Artıq uşağın dünyaya gətirilməsi üçün ailələrin yaradılması əsas deyildir, rəsmi nikah olmadan da uşaq dünyaya gəlir. Bəlkə də, buna səbəb son dövrlərdə, Qafqazda poliqamiyanın yayılmasıdır.

Əlbəttə, bu, Qafqaz regionlarının hamısına aid edilə bilməz. Belə ki, poliqamiyanı nəzərə almasaq, Çeçenistanda, İnquşetiyada, Dağıstanda nikahdan kənar doğulmuş bir nəfər də olsun körpə qeydə alınmamışdır. Eyni zamanda, həmin respublikalarda çoxuşaqlı ailələrə tez-tez təsadüf etmək olur. Məsələn, Dağıstanda hələ də beş nəfərdən çox aşağı olan ailələrin sayı kifayət qədərdir.

Düzdür, Kabardada vəziyyət bir qədər fərqlidir. Bu barədə digər fəsillərdə məlumat verilmişdir. Belə ki, bu bölgədə ənənəyə görə gələcək gəlinə toydan əvvəl bəylə birlikdə yaşamaq üçün sınaq müddəti verilir. Gənclər il ərzində birgə qalırlar, ümumi təsərrüfatları olur, yəni onlar ailə kimi bir yerdə yaşayırlar. Əgər il ərzində gənclərin birgə yaşayışında bir problem olmursa, bu onların talelərini həll edir. Bu zaman gənclərin ailələri toy etməyi qərarlaşdırır. Əgər hər hansı səbəbdənsə, gənclər birlikdə yaşaya bilmirlərsə, onda birgə sınaq müddəti bununla da bitir. Bu zaman bu birlik uyğun sayılmır və ayrılmağa qərar verirlər. Əslində, bu müddətdə uşaq dünyaya gətirmək tövsiyə olunmur, əgər nikah-

dan kənar uşaq doğulursa, bu uşaq iki tərəfin qarşılıqlı razılığı ilə, ya anası, ya da atası ilə qalır.

Əgər ailə tamdırsa, iqtisadi funksiya hər iki valideyn tərəfindən yerinə yetirilir. Tam ailənin sosial məzmunu yalnız nəsilartırma funksiyalarının yerinə yetirilməsi ilə başa çatmır. Həmçinin təkrar istehsal vasitələrinin satışı, tələbatı, qidalanma, geyim, evqurma və həyat üçün lazım olan digər proseslər də sosial həyatın tərkib hissəsi hesab edilir. Bu funksiya əbədidir, çünki onun təbii-bioloji zəmni mövcuddur, lakin mövcud iqtisadi bazislə təyin edilən sosial-tarixi amili və mənəvi mədəniyyəti də istisna etmək olmaz. K. Marks yazırdı: “Aclıq var aclıq var. Aclıq var ki, suda bişmiş ət yeyiləndə çəngəl, bıçaq istifadə olunur, digər bir aclıq var ki, çiy əti diş, dırnaq, əllərin köməyi ilə yeyirlər.”

Faktiki olaraq, bazar iqtisadiyyatı şəraitində qadın iki yükü daşımağa başladı: Buradan irəli gələn problemlərə baxmayaraq, qadın ödənişli işdə çalışmağa davam edirdi və bütün ailə ocağının qoruyucusu kimi qala bilirdi. Ailə başçısı olan kişi isə yeni iqtisadi şəraitdə ailə üzvlərini dolandırmağa qadir deyil, lakin yenə də ev işlərindən kənarda qalmağı bacarır.

Bununla bağlı Qafqaz qadınlarının çiyinlərinə yeni çətinliklər əlavə edildi. Qafqaz ailələrində ənənəvi olaraq qadın və uşaqların tərbiyəsində və sosiallaşmasında əsas rolu qadınlar oynayır. Bu gün qadın ailə başçısı funksiyalarının bir hissəsini öz üzərinə götürməsinə baxmayaraq, bu rol hələ də qadının üzərində qalmışdır və bu da qadının işini daha da artırmışdır. Ev təsərrüfatının idarə edilməsi, yemək bişirilməsi, təmizlik işlərinin yerinə yetirilməsi, həm də uşaq tərbiyə etmək kimi vəzifələrin qadının üzərində olması səbəbindən onun işi kişi işi ilə müqayisədə həddən artıq çoxdur. Qadınlar ev işlərindən başqa ödənişli işlərdə də çalışdıqlarına görə müasir uşaqların bir çoxu sadalanan qayğılardan məhrum olmuşlar.

“İkili məşğulluq, ikili məsuliyyət” qadınların asudə vaxtının müddət və xarakterinə güclü təsir göstərir. Uşaqlarla ünsiyyət, tək

və ailə ilə birlikdə istirahət üçün qadın imkan tapmır. Qadınlar nəinki asudə vaxtlarının səmərəli keçirilməsi üçün, hətta həftə ərzində gərgin iş günlərində sərf etdikləri enerjini bərpa etmək üçün işdən sonra vaxt tapmırlar. Qadın dünyada baş verən hadisələrdən xəbərdar olmaq üçün KİV-dəki önəmli informasiya ilə tanışlıq üçün minimal zamanı özünə ayıra bilmir.

Bununla da, qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında BMT tərəfindən 1979-cu ildə qəbul edilmiş Konvensiyanın (CEDAW) əksəriyyət maddələri kobud şəkildə pozulur. Həmin Konvensiyada deyilir ki, iştirakçı dövlətlər nəzərdə tutulan tələbləri yerinə yetirməkdə üzərlərinə öhdəliklər götürürlər:

a) Qadınlara qarşı hər cür ayrı-seçkiliyi aradan qaldırılmasına nail olmaq məqsədi ilə kişi və qadınların sosial və mədəni davranış modelini dəyişmək, bir cinsin digər cinslə müqayisədə natamamlığı və ya üstünlüyü ideyasına əsaslanan hər bir akt arzuolunmaz və qəbuledilməzdir, bu və ya buna oxşar digər təcrübələr yolverilməzdir;

b) ailə tərbiyəsi anlayışı ata-ananın sosial funksiyasını özündə ehtiva edir və öz uşaqlarının inkişaf və tərbiyəsinə görə kişi və qadınlar eyni cür məsuliyyət daşıyırlar və bu zaman uşaqların marağı birinci yerə qoyulur.

Qadın özünüifadəsi üçün geniş imkanlar yaradan ailə funksiyaları (uşaqların tərbiyəsi, asudə vaxtın təşkili) qadını şəxsiyyət kimi formalaşdırır. Bu funksiyalara müasir ailə üzvlərinə xas olan və ailənin gələcək inkişafı üçün əsas olan qadının fəaliyyət növü kimi baxmaq lazımdır. Əksinə, şəxsiyyətin formalaşmasını ləngidən proseslər (ailə xidməti) perspektivi olmayan funksiyalar kimi qiymətləndirilməlidir.

Dünyada gedən qloballaşmanın təsirindən yan keçməyən bir çox transformasiyalar müasir ailələrdə də öz təsirini çox gözlətmədi. Məsələn, Dağıstan kimi ənənəyə çox bağlı olan respublikada belə, son illər ərzində anaların reproduktivlik yaşı, doğuş yaşı

azalıb, üç qadından biri hamilləliyi sonuna qədər başa vurmur, yəni abort hallarına yol verir. Burada da ailədəki uşaqların sayı əvvəlki illərlə müqayisədə çox aşağı düşmüşdür.

Buna bənzər problemlər digər respublikalarda da mövcuddur. Təəssüf ki, cəmiyyətdəki bu kimi problemlər yerli tədqiqatçılardan daha çox xarici tədqiqatçıların maraq dairəsindədir. Çeçenistan Respublikasında Qərb ölkələrinin qeyri-hökumət təşkilatlarının dəstəyi ilə dul qadınlara, hamilə qadınlara, çoxuşaqlı ailələrə psixoloji və sosial yardım edən qadın ictimai təşkilatı "Sintem"in çoxşaxəli fəaliyyəti təqdirəlayiqdir.

Problemlər isə az deyil, məsələn, Çeçenistanda çoxsaylı erkən nikah mövcuddur. 15-16 yaşlı qızlar təhsil almamış ailə qururlar. Erkən evliliklə yanaşı boşanma hallarının da sayı xeyli artmışdır. Əlbəttə, buradan belə nəticə çıxarmaq olar ki, bu qız uşaqları azyaşlı olduqları üçün ailə qurmağa hazır deyillər və boşanma da bu səbəbdən baş verir. Belə qızların arasında az sayda təhsili olanlar vardır, lakin 22-23 yaşlı boşanmış və ya ərli qadının inkişaf etməyə ehtiyacı vardır və bu inkişaf yalnız təhsil almaqla realizə edilə bilər. Bu zaman yeni bir problem yaranır, bu 22-23 yaşlı qadın təhsil aldığı müddətdə onun körpə uşaqlarına kim qayğı göstərməlidir? Oxumaq imkanı yoxdur, çünki bunun üçün pul, vəsait lazımdır və bu səbəbdən də qızlar təhsilsiz qalırlar. Bundan başqa, ənənəvi ailələrdə icrası qadınlar tərəfindən həyata keçirilən ağır işlər mövcuddur və qadının çiyninə düşən bu işlərdən biri də onun hamiləlik dövründə yerinə yetirdiyi ev işləridir. Heç bir qadın hamilə olduğu üçün bundan əvvəl gördüyü ağır ev işlərindən azad edilmir. Hamiləlik dövründə ənənəvi ailələrdə gəlin olan Qafqaz qadınlarının çoxu deyə bilməz ki, o özünü pis hiss edir və ya o dincəlmək istəyir. Onun yaşadığı ənənəvi cəmiyyətdə kimsə bu hamilə qadının bu vaxta qədər etdiyi işi etməməsini anlamaz və bu baş verərsə, həmin qadın qınanar. Qadın üçün belə davranış böyük ayıb hesab edilər və qadının əxlaqının qüsurlu olduğuna ehyam vurular.

Bir qayda olaraq, evləndikdən sonra kənd yerlərində qadınlar ərin valideynləri, qohumları ilə birgə yaşayırlar: qayınana, qayınata, qayın, baldız və sairə. Bu həm də böyük bir ailə ola bilər və bu ailəyə gələn gəlin yaşından, bacarığından, təcrübəsindən asılı olmayaraq, evdə müəyyən işləri normal şəkildə yerinə yetirməlidir. Bundan başqa, əgər qadının kifayət qədər təhsili yoxdursa, o bilmir ki, prenatal dövrdə nələri etmək olar, nələri olmaz. Azsaylı müasir tipli insanları nəzərə almasaq, ənənəvi ailələrdə hamiləlik dövrünün problemlərini qadının birgə yaşadığı ailədə müzakirə etmək qeyri-etik sayılır. Ailə qurana qədər də həmin qadın nə ailəsində, nə də hər hansı bir qadın təşkilatında hamiləlik dövrü, doğuşdan sonra uşağa qulluq haqqında heç bir məlumat almadığına görə onun bu barədə maariflənməyə ehtiyacı vardır. Ona görə də, belə gənc ailələrdə boşluqları doldura biləcək təhsilə çox böyük tələbat vardır. Əlbəttə ki, qadın təşkilatlarının bu istiqamətdə ailələrlə apardığları maarifləndirmə işlərinin rolu böyükdür.

Hamilə qadının heç bir şikayət etmədən qeyd-şərtsiz ev işlərini yerinə yetirməsi məsələsi təkcə Azərbaycanda, Gürcüstanda, Çeçenistanda, Dağıstanda, İnquşetiyada deyil, həm də Qafqazın digər respublikalarında, əsasən ənənəvi müsəlman əhalisi olan yerlər üçün səciyyəvidir. Bu bölgələrdə ənənələr əsrlərdir ki, dayanıqlı şəkildə davam edır.

Bəhs etdiyimiz ənənələrin əksəriyyəti qadına qarşı olsa da, bu hər zaman belə deyildir. Bəzi ənənələr qadınların xeyrinə də olur, bu ənənələr xüsusilə tənha və dul qadınların aqibətini asanlaşdırır. Bir çox Qafqaz ənənələrinə görə, kişi qadına kömək etməlidir və hər vəchlə onu qorumağa çalışmalıdır. Məsələn, əgər qadın ağır "kişi" işini yerinə yetirirsə, onda bu qadının yanından keçən hər hansı bir kişi öz yardımını ona təklif etməyə borcludur. Təəssüf ki, bu ənənələr təkcə kənd yerlərində saxlanılır, bu da artıq bütün kəndlərdə yox, əsasən kiçik yaşayış məntəqələrində təsadüf edilir.

Kabarda-Balkar, Şimali Osetiya, Çeçenistan və digər Qafqaz bölgələrində aparılan tədqiqatların nəticələri göstərir ki, qadınla-

rın rolları son zamanlar kifayət qədər dəyişmişdir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, gənclərimiz bu dəyişikliklərə qarşı öz mənfi münasibətlərini bildirirlər: "Onlar (qadınlar) öz ənənəvi rollarını yerinə yetirməlidirlər. Kişi ailənin maddi təminatı ilə məşğul olmalıdır, qadın isə ana və evdar qadın statusunda çıxış etməlidir". Qadının rolunun dəyişməsinə daha dözümlü münasibət əsasən Şimali Osetiyada müşahidə olunur, bu əsasən xristian kişiləri arasında təsadüf edilir, lakin bu münasibət təəssüf ki, müsəlman kişilərin arasında müşahidə edilmir. Bəzən bölgənin müsəlman kişiləri digər Şimali Qafqaz kişilərindən az fərqlənirlər və bəzən də heç fərqlənmirlər.

Tədqiqatçıların apardıqları sorğulardan bəlli olub ki, ümumilikdə, qadın rollarında baş verən bu dəyişikliklər Qafqaz üçün səciyyəvi deyil, kişilərin fikrincə, keçmişdə Qafqaz qadınlarının keyfiyyətləri daha ürəkaçan, xoşa gələn idi. İndi müşahidə edilən bəzi xüsusiyyətlər: Kobudluq, ədəbsizlik, igidlik, qətiyyətlilik, liderlik kimi xüsusiyyətlər bu bölgənin qadınlarına yaraşan keyfiyyətlər deyildir.

Aparılan tədqiqatların nəticələri belə deməyə imkan verir ki, əvvəllər qadınların üzərinə düşən evin dirəyi, əsl evdar qadın, övladlarının tərbiyəçisi, ailədəki rahatçılığın təminatçısı kimi mövcud vəzifələrdən başqa Qafqaz qadınlarına xas olmayan digər yeni vəzifələr də yaranmaq üzrədir. Onların arasında "ailə başçısı", "büdcənin sərəncamçısı", "ailənin mühafizəçisi", "ailənin müdafiəçisi", "dayəsi", "meneceri", "rəhbəri" kimi qeyri-ənənəvi adlar da əlavə edilir.

Kişilərin iddiasına görə, hazırda qadınların kişilərlə bərabər hüquqları var, lakin, bu zaman, baş verən "feminizasiya" prosesi cəmiyyətdəki deqradasiyaya yol açır və bununla həmin kişilərə görə qadınlar "qazanmaq əvəzinə, daha çox itirirlər".

Şimali Qafqazın müxtəlif bölgələrində qadına olan münasibət birmənalı deyildir. Məsələn, Çeçenistan Respublikasında yaşayan kişilərin fikirlərinə görə "çeçen cəmiyyətində qadın ikili mövqe

tutur", lakin Kabarda-Balkarda hesab edirlər ki, qadına "münasibət daha kövrək, daha həssasdır", lakin əksəriyyət Qafqaz kişilərinin fikrincə, qadının ən ümdə vəzifəsi ailənin şərəf və ləyaqətin qorumaqdır.

Kişilərə görə, hal-hazırda bölgədəki kişi qadın münasibətlərini kənardan gələnlər arasında yanlış anlayanlar mövcuddur. Məsələn, ehtimala görə dağ yerində yaşayan qadınlar tez-tez əks cinsin təhqiramiz münasibəti ilə üzləşirlər. Bu yanaşma kökündən səhvdir. Bəzilərinə görə qeyri-etik hesab edilən davranışların tarixi kökləri vardır. Məsələn, dağ yerlərindəki etiket normalarına görə, qadın həyat yoldaşının önündə deyil, arxasında getməlidir. Belə ki, Dağıstanın bir çox xalqları, həmçinin çeçenlər, inquşlar qadının kişilərin arxasınca getməsi söylədiyimiz səbəbə görədir. "Bu zərurətdən irəli gələn bir etiket qaydasıdır, qadın dağlarda hər zaman yalnız arxadan gedirdi, çünki qarşıda onu təhlükə gözləyə bilərdi və bu təhlükəni kişi öz üzərinə götürmək məcburiyyətində idi".

Cəmiyyətdə qadın kişi arasındakı münasibətlərin dəyişilməsindən bəhs edəndə, kişilər qeyd edirlər ki, qadın rolunun artmasının nəticəsidir ki, onlar qeyri-adekvat vəziyyətə düşmüşlər. Kişilərin fikrinə görə, "kişilərin özlərini narahat" vəziyyətdə hiss etməsində qadınların rolu böyükdür. Düzdür, hər kəs deyir ki, zaman dəyişib, "kişilər stres altına düşüblər", "bəzən qadınların dəyişməsi kişilərin spirtli içkilərə meyilliliyini artırır", "qadın hökmranlığı harada, kişi düşüklüyü oradadır".

Prinsip etibarı ilə Qafqazda gender bərabərliyi, xüsusilə kənd yerlərində, gərginliklə, ağrılı qəbul edilir. Onlar birmənalı şəkildə, yekdilliklə kişi və qadın hüquqlarının bərabərliyini qəbul etmək istəmirlər.

"Don Qadını" adlı təşkilatın apardığı sosioloji tədqiqatların nəticələrinə görə, Şimali Qafqaz bölgəsinin digər milli respublikalarında da qadınların vəziyyətlərinin pisləşməsində onların özlərinin rolu böyükdür. Onlar guya hüquqları uğrunda mübarizə

aparırlar, lakin vəziyyətlərini daha da korlayırlar. Onlar hüquqlarını tələb edə-edə qərbli qadınlara bənzəməyə başlamışlar, kişiləşmişlər, kobudlaşmışlar.

Sorğuda iştirak edən gənclər bərabər gender hüquqlarını qəbul etməyi ağıllarına belə gətirmirlər və belə bir şeyin mümkünlüyünün ağlasığmaz olduğunu qeyd edirlər. Onlara görə “kişilər çox şey edə bilərlər, lakin qadınlar bunları edə bilməzlər”, “kişilər qadınlardan yüksəkdə olmalıdırlar”, “kişilərlə qadınlar heç vaxt eyni ola bilməzlər” və s., lakin az da olsa, çağdaş düşüncəli gənclərə təsadüf etmək olur, məsələn, qızlardan bəziləri özünürealizə etmək və müstəqil ola bilmək arzularını dilə gətirirlər.

Başqa düşüncəli gənclərə də rast gəlmək olur. Onların fikrinə görə qadınlara qarşı ədalətsizlik mövcuddur, məsələn, bəzi ailələrdə həm kişi, həm də qadın işləyir, ailədə daha çox məsuliyyət qadının üzərinə düşür. O, bir növ ərinin mövcud mülkiyyətinin bir hissəsidir. Qadının da pul qazanmasına baxmayaraq, maliyyəyə kişi nəzarət edir. Başqa bir gənc qadınları ailədə alçaltmağın adi hal olmasına etiraz edərək qeyd edir ki, gənc qadın ərinin ailəsində alçaldılır, təhqir edilir, lakin qadın bunu o qədər təbii hal kimi qəbul edir ki, etiraz etməyi ağlına da gətirmir.

Qadın və kişilərin bərabərliyinin əleyhdarları bu mövqedən çıxış etmələrinə belə bəraət qazandırırlar ki, ənənəvi ailələrin ömrü uzun olur, daha dayanıqlı olur, boşanma halları az olur. Qadının boşanması onun üçün rüsvayçılıq hesab edilir və bu rüsvayçılıqdan can qurtarmaq çox çətin olur. Müasir düşüncəli qadınlar boşanırlar və boşanmanın ardınca gələn bəlaları əvvəlcədən proqnozlaşdıra bilmirlər. Boşanmadan sonra uşaqlarla təkbaşına qalan ana çıxılmaz vəziyyətə düşür.

Əvvəllər, evləndikdən sonra da Şimali Qafqaz qadını valideynlərinin himayəsi və mühafizəsi altında qalırdı. Hətta qardaşları, əmi-dayıları onu himayə edirdilər və bütün nəsil onun maraqlarının müdafiəçisi qismində olurdu. Yeni iqtisadi şəraitdə qohumluq münasibətləri də zəifləmişdir. Deməli, ağır iqtisadi du-

rum ucbatından onların qorunması və zəmanəti müşkül vəziyyətə düşmüşdür. Belə şəraitdə qadın öz maraqlarını özü qoruyur ki, bu da ənənələrin yoxa çıxması və yeni adətlərin meydana gəlməsi ilə nəticələnir.

Qafqaz bölgələrinin, demək olar ki, hamısında qadının ailədə xüsusi rolu qeyd edilir. Qadınların ən əsas rolları aşağıdakı kimi səciyyələndirilir:

- qadın ailənin, evin dayağıdır;
- ailə, adət-ənənələr qadınlar tərəfindən qorunur;
- ailədə şəraiti qadın yaradır;
- qadın olmayan evdən ev olmaz;
- ailədə qadın yoxdursa, bu ailə deyil, sadəcə sakinlərdir;
- uşaq əsasən anasından ailə keyfiyyətlərini götürür.

Qadınların ailədəki rolunun dəyişməsi, əvvəlki ideal kişilərin azalması, ənənələrin yaxşı qorunmaması ailələri kökündən zəiflətmişdir.

Bundan əlavə, uzun illər münaqişə və hərbi əməliyyatlar olan ərazilərdə ailələr mənfi təsirlərlə üzləşmiş, dağıntılar baş alıb getmiş və bunlar da Qafqaz ailəsinin bünövrəsini laxlatmışdır.

Qafqaz ailələrinin çoxunda hesab edirlər ki, ailələr bu gün ona görə belə bərbad haldadır ki, ailənin təminatçısı rolunda qadınlar çıxış edirlər. Qafqaz ailələrinin bir mühüm problemi də azyaşlıların ailə qurmalarıdır. Həmin respublikalarda həddi-buluğa çatmamış gənclərin ailə qurmalarına təsadüf edilir. Əslində, onlar rəsmi nikaha girə bilmirlər və bu da ailələrin riskini artırır. Heç bir rəsmi qeydiyyatdan keçməyən bu tip ailələrdə, ən çox bu nikahdan dünyaya gələn uşaqlar əziyyət çəkirlər. Belə ki, bu uşaqların valideynləri bir yerdə yaşamamağa qərar verərkən, rəsmi sənədlərin olmaması ucbatından həm azyaşlı qadın, həm də nikahdan kənar dünyaya gəlmiş uşağın gələcəyi risk altında olur.

Qafqazda fəaliyyət göstərən QHT-lər, qadın problemləri ilə məşğul olan bir çox beynəlxalq təşkilatlar “çağaların çağaları” adlı məsələləri təşkilatlar üçün prioritet problemlər sırasına çox-

dan daxil emişdilər. Rusiya Federasiyasının tərkibində olan Şimali Qafqaz respublikalarında tənha gənc analarla iş uzun müddətdir aparılır. Dünyanın digər ölkələrində olduğu kimi o, iki əsas məqsəd güdür:

1. “Körpə ana” qrupunu müəyyənləşdirmək, onlara yardım etmək, dəstək vermək, reabilitasiya olmalarına kömək göstərmək. Gənc, tənha analar ya hamiləlik dövründə poliklinikalara müraciət edəndə, ya da doğum evlərində aşkarlanır. Onlara gənclərin tez-tez cəmləşdiyi digər yerlərdə, məsələn, vağzallarda və ya gənclər assosiasiyalarında rast gəlmək olar. Bundan başqa, polis məntəqələrində yetkinlik yaşına çatmayan kimsəsiz ana və uşaq otaqlarında gənc tənha qadınların xüsusi qeydiyyatı aparılır.

2. Azyaşlı anaların erkən seksual əlaqələrinin profilaktikası və problemlərinin qeydə alınması;

- “Çağa ana” adı altında predmetin təhlilini, obyektini, formulasını, hipotezini özündə cəmləşdirən xüsusi proqramların hazırlanması;
- bu gənclərin risk qrupunun əsasını hazırlanması;
- ilkin sosial xidmətin yaradılması – “Gənc tənha ana bu gün”.

Şimali Qafqaz respublikaları istisna olmaqla, demək olar ki, Rusiya Federasiyasının hər bir şəhərində çətin həyat şəraiti olan, dara düşmüş yetkinlik yaşına çatmayan qadınlar üçün psixoloji və sosial yardım göstərən ictimai təşkilatlar mövcuddur.

Şimali Qafqazda aparılan tədqiqatların nəticəsinə istinadən onu demək olar ki, yetkinlik yaşına çatmayan analara yardım sistemi ilkin inkişaf mərhələsindədir. Mentalitet amilinə və digər səbəblərə görə Rusiya bölgələrində bu problem Şimali Qafqazla müqayisədə çox kəskin xarakter almışdır, lakin burada da erkən analıq problemi mövcuddur və bu problem nəinki ailənin dayanıqlı olmasına, həmçinin qadının bütövlükdə vəziyyətinə də təsir edir. Erkən evlilik ailədəki ənənəvi tərbiyəni zəiflədir və müasir qadının əmək qabiliyyətinə təsir göstərir.

**Müasir Dağıstan qadınının sosial vəziyyəti.** Dağıstan sakinlərinin sosial vəziyyətinin gender spesifikliyini səciyyələndirən amillərin aşağıdakı sahələrdə – ailə, siyasi və mədəni sferalarda dəqiq iyerarxiyası mövcuddur.

Dağıstan qadınlarının sosial vəziyyəti tarixən təkcə həyatın təsərrüfat-iqtisadi və ictimai amilləri ilə deyil, həmçinin cəmiyyətdə hökmranlıq edən ideoloji baxışların, etno-mədəni ənənələrin, islam dininin cinslər üçün müəyyənləşdirilmiş gender stereotiplərinin təsiri altında formalaşmışdır.

Hər kəsə məlumdur ki, 100 illərdən bəri Dağıstanda yaşayan hər bir qadının statusu, bölgə kişilərinin siyasi və vətəndaşlıq statusu ilə müqayisədə çox məhduddur. Ənənəvi müsəlman cəmiyyətində kişi və qadınların vəziyyəti ta qədimdən kişi üstünlüyü ilə müşahidə olunur. Sovetlər dönəmində Dağıstan qadınları institut və texnikumlarda savad almışlar, bir çox müəssisələrdə aparıcı mütəxəssis olmuşlar, hətta güc strukturlarında özlərini realizə etmişlər.

Rus dilinin tədrisi, bir mütəxəssis kimi yetişə bilmə imkanı və ictimai sferadakı fəaliyyəti qadının özünürealizə sferasını genişləndirmişdi, lakin bir şeyi də qeyd etmək lazımdır ki, bu əsasən şəhər yerləri üçün xarakterik idi. Sovet hakimiyyəti dövründə kənd yerlərində də əhali islamın qanunlarına riayət etməklə, ailələrini idarə etmişlər və həm ailə başçısı kimi, həm də fəallıq baxımdan siyasi və ictimai sahələrdə yalnız kişilər fərqlənmişlər.

SSRİ-nin dağılmasından sonra sosial-iqtisadi və siyasi transformasiya nəticəsində, Dağıstan cəmiyyəti iki müxtəlif mədəniyyətin: patriarxal sütunlu islam mədəniyyəti və gender bərabərliyi hədəfli modernist sivilizasyanın təsiri altına düşmüşlər. Bü gün Mahaçqala şəhərində həm hicab örtən qapalı, həm də Avropanın son dəbi ilə geyinmiş müasir görünüşlü qadın görmək olar.

Aparılan tədqiqatlar göstərir ki, Dağıstan qadınının sosial vəziyyəti yaşayış yerinə görə dəyişir. Şəhərdə yaşayan hər bir qadın üçün ümumi standartlar mövcuddur, televizor, İnternet, ictimai və

siyasi fəaliyyət əlyetərdir. Şəhərdə də qadınlar üçün yazılmamış qadağalar mövcuddur, məsələn, bara və ya digər əyləncə yerlərinə getmək normal ev qadınları üçün məqbul hesab edilmir. Dağıstan qadınının rus dilini kişilərdən daha yaxşı danışması, onlara daha aktiv fəaliyyət göstərmələrinə şərait yaradır. Mahaçqalalı qadının rus dili bilməsi onun həm rus mədəniyyətindən, həm də Avropa mədəniyyətindən xəbərdar olmasına səbəb olur. Rusiya mədəniyyəti ilə yaxından tanışlıq, onlara bir sıra sferalarda rahat çalışmalarına imkan yaradır.

Bu gün Dağıstanda şəhər qadınından danışanda təkcə aktiv həyat tərzinə malik olan qadınlardan deyil, həyat yoldaşlarının himayəsində olan, ödənişli işlərdə çalışmayan qadınlardan da bəhs etmək lazımdır. Bundan əlavə, işsizlik müavinatı alan, təqaüddə olan, əlilliyə görə əmək qabiliyyətini itirən insanlar da mövcuddur. Bir çox kişi və qadınlar yaşları çatan kimi özləri üçün təqaüd düzəldir və bu pula yaşayırlar. Praktiki olaraq, bu insanların çoxu bir gün də olsun heç bir yerdə işləməmişlər. Elə bu tip təqaüdlər dövlət büdcəsinə ziyan vurur və xalq təsərrüfatının müxtəlif sahələri bunların ucbatından zərər çəkir. Hər il təqaüd alma imkanı olan bir çox ailələr kənddə mal-qara saxlamaqdan imtina edib, şəhərə köçürlər və dövlətin verdiyi vəsaitlə kifayətlənərək, heç bir yerdə işləmirlər.

Ət, tərəvəz, meyvə kimi kənd təsərrüfatı məhsullarının istehsalı ilə tanınan bu bölgənin ərzaq mağazalarında və bazarlarında indi xaricdən gətirilən məhsullar satılır və gün-gündən bu məhsulların çeşidləri artır. Bütün bunlar da işsizliyin artmasına və iqtisadi inkişafın aşağı düşməsinə səbəb olur (Bax: http: //уровень-безработицы. рф/республика_дагестан. aspx). O ki, qaldı Dağıstan qadınlarına olan münasibətə, xüsusilə də kənd yerlərində işləmək imkanlarının yetərli olmaması və ya bunu istəməmələri onları evə, ailəyə daha çox bağlayır və başqa sahələrdə özünürealizə imkanlarını məhdudlaşdırır. Bütövlükdə isə, bu, ictimai hə-

yatın başqa sahələrində Dağıstan cəmiyyətinin arxaikləşməsinə səbəb olur.

Dağıstanda iqtisadi kapitala gəlincə isə, onun əsas sahibləri kişilərdir. Bunun da səbəbi cəmiyyətin sosial-iqtisadi strukturundadır. Bu gün iqtisadi nöqteyi-nəzərdən dövlət işlərində və xüsusilə də, güc sferasında işləməyə daha çox üstünlük verilir, çünki bu sferada kişilərin monopoliyası müşahidə edilir.

Bölgədəki bütün böyük biznes sahələri dövlətin nəzarətindədir və yüksək çinli dövlət məmurları ilə yaxın əlaqəsi olmayanların bu işlərdə çalışması çox çətindir. Qadınlar məhz şəhərlərdə kiçik və orta sahibkarlıqda özlərini intensiv şəkildə realizə edə bilirlər və bəlkə də burada dominantlıq edirlər. Qadınlar əsasən kiçik həcmli topdan və pərakəndə satışların təşkilində yaxından iştirak edirlər. Xidmət sahəsində, Çin və Türkiyədən gətirilən geyimlərin ticarəti, ərzaq mallarının satışı prosesində qadınlar aktiv iştirak edirlər. Ümumiyyətlə, bu sahələr ənənəyə görə qadınlara aiddir və kişilər bu sahələrdə işləməyə o qədər də həvəs göstərmirlər. Ticarətlə məşğul olan kişilər tikinti materialları, avtomobil, mal-qara, texnika və yerli istehsal olan papaq, suvenir, silah, alətlər və sairənin satışını həyata keçirirlər.

Nəticədə, müasir Dağıstan qadınının vəziyyətində təzadlı məqamlar ortaya çıxır, dünyəvi cəmiyyətlə, həm şəhər, həm də kənd üçün xarakterik olan adət və islam normaları ilə müşaiyət olunan cəmiyyət arasında konflikt yaşanır. Bu konflikt qadının sosial vəziyyəti, onun sosial məkanının məzmunu və sərhədlərində özünü büruzə verir. Qadınların təhsil səviyyəsi, həyat tərzi, onların məxsus olduqları dəyərlərin fərqli olmasına rəğmən, qadınların əksəriyyətində ənənəvi-islam praktik sxemi və sosial təcrübələri bir-birinə uyğun gəlir. Bunlar hətta sovetlər vaxtında da belə idi. Sosial məkanından asılı olaraq, qadınların vəziyyəti ya islam, ya da sivil normalarla müəyyənləşdirilir. Bu fərq şəhərdə böyüyüb yaşa dolmuş qadının kənddəki qohumunu ziyarəti zamanı daha aşkar hiss edilir. Şəhərdə heç vaxt başını bağlama-

yan qadın kəndə gələndə çox vaxt baş örtüyündən istifadə etməyə məcbur olur.

Beləliklə, əgər müasir Dağıstan qadınının həyat tərzinin sosiomədəni modelini xarakterizə etsək, onun həyat tərzinin islami qaydalarla ilə sivil həyat tərzinin qarışığından ibarət olduğunu görərik. Bu və ya digər həyat tərzinin üstünlüyünün determinantları yaşayış yerindən, təhsilin səviyyəsindən, məşğulluq sahəsindən, gender stereotiplərinin ümumu dərkindən asılı olaraq təyin olunur.

**Ədəbiyyat**:

**İngilis dilində**

1. Ayvazova Svetlana, "*Gender equality in a context of human rights*". M: Eslan, 2001. — 80 pages.
2. Tartakovskay I. N., "G*ender aspects of strategy of the unemployed*" //Sociological researches, 2000, №11, Page 81-82

**Rus dilində**

3. Бабич И.Л, "*Народные традиции в общественном быту кабардинцев*", М.: Институт этнологии и антропологии РАН, 1995, С. 129
4. Бурдье П., *"Социология социального пространства*": пер. с фр. / отв. ред. перевода Н.А.Шматко. М.: Ин-т экспериментальной социологии ; СПб.: Алетейя, 2007. 576 с.
5. Гаджиева С.Ш., "*Семья и семейный быт народов Дагестана. Махачкала*", 1967. -104с.
6. Далгат Б. "*Материалы по обычному праву даргинцев//Из истории права народов Дагестана*". Махачкала, 1968. – С. 77-144. 23 . Де Бесс
7. *"Занятость и безработица в республике Дагестан // Уровень безработицы в Российской Федерации*. 13. 02. 2013 URL: http://уровень-безработицы.рф/республика_дагестан.aspx

8. Здравомыслова О.М. "*Гендерное равенство и равноправие в контексте российского законодательства. Участие женщин в политических изменениях и перспективы гендерного равенства в России*", 27 ноября 2012 г, Айвазова С. Указ. раб.
9. Лыткина Т.С. *"Трансформация семьи и домашнего хозяйства"* // Социол. исслед. 2008. С. 119-125
10. Тартаковская И.Н., "*Гендерные аспекты стратегии безработных*" //Социологические исследования. -2000. -№11. – С. 81-82.
11. Хан-Гирей, "*Черкесские предания*", Избранные произведения. Нальчик: Эльбрус, 1989, С. 288.

**İnternet**

12. http://www.perepis-2010.ru
13. http://www.gender.ru/pages/resources/publications/lunjakova/2003/gender/08.php

## Etnomədəni proseslərin gender aspektləri

Dünyanın hər bir yerində modernləşmə, demokratik dəyərlərin yayılması, vətəndaş cəmiyyətinin inkişafı, insan hüquq və azadlıqlarının genişlənməsi prosesləri gedir. Son zamanlar gender bərabərliyi problemləri istər ayrı-ayrı tədqiqatçılar, istərsə də ictimai-siyasi təşkilatlar səviyyəsində diqqəti cəlb edir. Bu problem XXI əsrdə də öz aktuallığını itirməmiş, həm qlobal miqyasda, həm də Rusiya daxilində son dərəcə kəskin xarakter almış məsələlərdəndir. Rusiya Federasiyası subyektləri özlərinin çoxmillətliliyi və mədəni dəyərlər sisteminin müxtəlifliyi ilə fərqlənir. Məlum olduğu kimi, tarix boyu həm ideoloji, həm də mədəniyyət baxımından rəngarənglik və çeşidlilik Rusiya xalqları üçün xarakterik olmuş və bu da ümumi mədəniyyətin formalaşmasına təsir göstərmişdir. Qeyd olunan proseslər qadın və kişi statusuna, cəmiyyətdə mövcud olan gender münasibətlərinə, həmçinin gender siyasətinə əhəmiyyətli dərəcədə təsir etmişdir.

Aparılan tədqiqatlardan məlum olur ki, müasir rus tədqiqatçılarının çoxu öz əsərlərində Qərb alimlərinin tədqiqatlarına istinad edirlər. Bu baxımdan, Şimali Qafqaz bölgələrində gender münasibətləri və gender siyasətinin tədqiqatı heç də az önəmli deyildir. Ayrı-ayrılıqda bu bölgələrdəki gender problemləri M.Tekuyeva, R.Xanaxu, Y.Smirnov və başqalarının əsərlərində öz əksini tapmışdır. Mövzuya maraq ondan irəli gəlir ki, gender problemləri Şimali Qafqaz bölgələri üçün çox aktualdır. Bu bölgə öz patriarxallığı və ənənələrə bağlılığı ilə hər zaman seçilmişdir. Qafqaz qadınlarının məişətindəki xüsusiyyətlər və çətinliklər yüzillər boyu yazıçı və şairlərin, səyyah və etnoqrafların diqqətini çəkmişdir. Ümumilikdə, Qafqaz qadınlarının həyatı heç zaman asan olmamışdır. Texniki proqres, qloballaşma, islahatlar şəhər qadınlarının həyatına əhəmiyyətli dərəcədə təsir etsə də, bölgələrdə,

xüsusilə də dağ yerlərində yaşayan qadınların həyatında heç bir dəyişiklik baş verməmişdir. Deməm olar ki, qadınlar ailədə əsrlər öncə hansı adət-ənənələrlə kişilər tərəfindən idarə olunurdularsa, yenə də həmin qayda ilə yaşamağa davam edirlər və bu insanlar həyatlarını qanunlarla deyil, adətlərin diktəsi ilə davam etdirirlər. Onları tənəzzülə sürükləyən adətlərdən əl çəkmək istəmirlər. Gender siyasətinin həyata keçirilmə spesifikasına nəzər salaraq, Şimali Qafqaz bölgələrində mövcud olan bir sıra amillərə diqqət etmək faydalı olar. Əslində Şimali Qafqaz bölgələri Rusiya Federasiyasının tərkibinə daxil olmasına, Federasiya qanunlarının avtomatik olaraq bura da şamil edilməsinə baxmayaraq, bu bölgələr yüzillərin adət-ənənələri ilə yaşamaqda davam edirlər. Gender siyasəti Konstitusiyada nəzərdə tutulur və hər iki cinsə eyni hüquq verilir. Belə ki, Dağıstan, Çeçenistan və Şimali Qafqazın digər bölgələrində də qadın və kişilərə təhsil, əmək və cəmiyyətin müxtəlif sferalarında bərabər iştirak hüququ verilir, lakin gender bərabərliyi ilə əlaqədar olan qanunların reallıqda Şimali Qafqaz bölgələri üçün heç bir əhəmiyyəti yoxdur. Belə ki, Konstitusiyada verilən rəsmi hüquqla real həyatdakı mövcud imkanlar arasında heç bir əlaqə yoxdur. İnquşetiya Respublikasında İctimai və Dini işlər üzrə Millətlərarası və Xalqlararası Komissiyanın sədri M.Amriyavanın iddiasına görə, “qadınlar siyasətdə heç vaxt diskriminasiya ilə üzləşmirlər”. Əslində, qadınların bərabər hüquqdan çox, bərabər imkana ehtiyacı olsa da, təəssüf ki, bu imkanlar çox məhduddur.

Şimali Qafqaz bölgələrində yaşayan qadınların sosial vəziyyətinin çətinləşməsi islamla da əlaqəlidir. Burada islamın təsiri güclüdür və danılmazdır. Heç kəsə sirr deyil ki, son dövrlərdə Şimali Qafqaz qadınlarında “ərəbləşmə” müşahidə olunur. Əvvəllər, ənənələr bu qadınların həaytında böyük rol oynayırdısa, indi dini amilin rolu gün-gündən artır, lakin dinin ənənələr üzərində üstünlüyü Şimali Qafqaz bölgələrinin hamısında eyni səviyyədə deyildir. Məsələn, Dağıstanda dinin rolu hər gün güclənir. Çeçe-

nistanda əhalinin islamlaşması hiss ediləcək dərəcədə artmışdır. İnquşetiyada ənənə və adətlər üstünlük təşkil edir, lakin dini amillərin də təsiri güclənir. İslami nöqtəyi-nəzərdən qadınların roluna diqqət yetirilsə, xüsusilə də insanların beynində həkk olmuş stereotiplərə nəzər salınsa, müsəlman alimləri ilə Şimali Qafqaz ruhanilərinin fikirləri arasında ciddi bir ziddiyyətin olduğu üzə çıxar (Сиражудинова С.В., 2010: 175). Digər tərəfdən, rəsmi müsəlman təşkilatları – müsəlman Ruhani İdarəsi, müftilik və digər dini qurumlar qadınlara fərqli yanaşır, onların siyasi-ictimai fəaliyyətlərinə normal baxır və onları cəmiyyətin bərabərhüquqlu vətəndaşı hesab edirlər. Rostov vilayətinin müftisi F. Arslanov hesab edir ki, "qadının siyasətlə məşğul olmasında qorxulu heç bir şey yoxdur, istəyirsə, prezident də ola bilər" (Сиражудинова С.В., 1997: 98). Digər bir ziyalı, Dağıstan İlahiyyat İnstitutunun rektoru M.Sadikov da hər bir vətəndaşın cinsindən asılı olmayaraq, azad və bərabər olmasına tərəfdar olduğunu yazır. Alim hesab edir ki, islam insan azadlığını nə qadağan edir, nə də məhdudlaşdırır. Qadın imam və mufti olmaqdan savayı bütün vəzifələrə iddialı ola bilər. R.Meyriyeva (İnquşetiya) da bütün insanların Allah qarşısında bərabər olması fikrini nəzərə çatdırır, yalnız prezidentlik vəzifəsinin qadınlar üçün uyğun olmadığını qeyd edir. Ruhanilərin bu məsələlərə yanaşması daha fərqlidir. Onlar hədislərə istinadən qadınlara münasibət bildirirlər, lakin onu da qeyd etmək lazımdir ki, hədislər akademik mənbə hesab edilmir. Məscidlərin imamlarından birinin iddiasına görə, qadınlar ictimai işlərdəki fəaliyyətlərinə görə kişilərlə bərabər ola bilərlər, lakin ləyaqətlərini hər zaman gözləməlidirlər. Qadına ağır fiziki işlə məşğul olmaq olmaz, məsələn, bellə, kürəklə işləmək ona yaraşmaz. Qadın hakim ola bilər, qadın siyasətlə də məşğul ola bilər, lakin onun prezident olmaq iddiası qəbul edilən deyildir. A.Hacıməhəmmədov qadınların kişilərlə tam bərabərhüquqlu olması ideyasını qəbul etmir. O qeyd edir ki, yahudi qadının bədbəxt olmasına səbəb elə onların azadlığa meyilli olmalarıdır. İslamda

isə qadın öz evinin qoruyucusudur. O, uşaqlarının qayğısını çəkməlidir. Fironların hakimiyyəti, Musa peyğəmbərin dini idarəçiliyi dövründə qadınlar siyasətə, idarəçiliyə buraxılmış və bu da bütün bəla və çətinlikləri onlara nəsib etməklə nəticələnmişdi (Сиражудинова С.В., 1997: 98). Bir çox kişi alimlərin qadınların istənilən sahədə azad ola bilməsinə normal baxdıqlarını deməklərinə rəğmən, reallıqda bunun həyata keçirilməsi üçün heç bir addım atmırlar.

Bu gün islam adı ilə cəmiyyətdə hökm sürən bir çox stereotiplər mübahisəlidir. İslam qadının təhsilli olmasını tövsiyə edir, onun miras payında hüquqlarını tanıyır. İslam kişilərin hər hansı bir istəyini qadınlara zorla qəbul etdirməyin əleyhinədir. İslam qadının təkrar ərə getməsini qadağan etmir, elə bu səbəbdən də boşanmış və dul qalmış qadının ərə getməsi islamda dəstəklənir. Şəriət və Şimali Qafqaz ənənələrinə görə qadın üçün ən əsas vəzifə analıqdır. Qadın davranışına qoyulan qadağalar çox vaxt bəraətini islamda deyil, ənənələrdə tapır. Bəzən Dağıstanda uşaqlı qadının və İnquşetiyada dul qadının təkrar ərə getməsinə məhdudiyyətlər qoyulur.

Ümumiyyətlə, Dağıstan qadınlarının həyatı çox ağır və məşəqqətlidir. Onlar həm evin içində, həm evdənkənar sferalarda işləyir, maldarlıqla məşğul olurlar, hətta bundan əlavə sahibkarlıqla da pul əldə etməyə çalışırlar. Sovet dönəmində əsarətdən yaxa qurtaran Dağıstan qadını bu gün yenidən əsarət zəncirini boynundan asmaq üzrədir. Maraqlı cəhət odur ki, yaşlı nəsil gender bərabərliyinə daha çox meyillidir. Gənc nəsil isə qadınları istismar etməkdən ötrü islami və ənənəvi amilləri ortaya qoyurlar. Gənclər dinə daha meyillidirlər və onlar hər cür gender bərabərliyinin əleyhinədirlər.

Şimali Qafqaz respublikalarındakı gender problemləri çeşidlidir və onları ümumiləşdirmək düzgün olmazdı. Bunları bölgələrə görə aşağıdakı kimi ayırmaq olar: şəhərlər, rayonlar, yaxın dağ və uzaq dağ bölgələri. Əgər şəhərlərdə yaşayış bir qədər mo-

dernləşməyə doğru gedirsə, ucqar rayonlarda qadınlar əvvəlki kimi ağır fiziki əl əməyi (heyvandarlıq, əkinçiliklə, məişət işləri) ilə məşğuldurlar.

Şimali Qafqaz respublikalarındakı qadınları ən çox narahat edən poliqamiya-çoxarvadlılıq problemidir. Çoxarvadlılıq şəriətlə əlaqələndirilir, lakin əslində, islamda bu o qədər də bəyənilmir. İslamda qadın hüquqları bir çox hallarda qorunsa da, real həaytda din xadimləri ciddi təzyiqlərə məruz qalmış qadınlara heç bir dəstək vermirlər. İmam nikahı deyilən evlilik qadınlar üçün məşəqqətli həyata səbəb olur, belə ki, qadın qanunla müdafiə olunmur və onun nə özü, nə də övladları evlilik zamanı əldə edilən miras üçün sığortalanmırlar. Qanunsuz, rəsmi nikahsız yaşayan qadın və onun uşaqları gələcəkdə mirassız, mal-mülksüz qalmamaq naminə hər cür zülmə tab gətirirlər. Evlənəndə şəriətə əsaslanan nikahı, ayrılanda şəriət dəstəkləmir.

Əslində RF Ailə Kodeksində poliqamiyanı qadağan edən qanunlar təsbit edilmişdir. İnquşetiyanın birinci prezidenti R.Auşev poliqamiyanı qanunuləşdirmək haqqında dəfələrlə təklif irəli sürmüşdü. Çeçenistanın prezidenti R.Kadırov da çoxarvadlılığı legitimləşdirməyi, onu qanunla dəstəklənməsini təklif edir. O, bunu belə əsaslandırır ki, müharibədən sonra Çeçenistanda kişilərin sayı azalmışdır və ailə başçısını itirən qadınların sayı artmışdır. O, imkanı olan kişilərə ikinci qadınla ailə qurmağı məsləhət görür. RF-nın Konstitusiyası poliqamiyanı qanunla qadağan etməsinə baxmayaraq, hər iki prezident bu qanunun əksinə gedərək, poliqamiyaya haqq qazandırmışlar. Onlara görə poliqamiya müsəlman xalqlarının dinində təsbit edilir və burada qeyri-adi heç bir şey yoxdur. Onlar ərsiz qız-gəlinin başqa kişilərlə münasibət qurmalarının faciə ilə nəticələnəcəyini əsas gətirirlər, bu yolla da bəzi cinayətlərin qarşısını almaq istəyirlər. Təsadüfi əlaqələrin aşkarlanması zamanı qız-qadının qardaşı çox zaman, bacılarını da, onlarla münasibətdə olan kişini də qətlə yetirir. Bu xalqların adət-ənənələri çox sərtdir və ona görə də ikinci və ya üçüncü

arvad olmaq ölməkdən daha yaxşı hal hesab edilir (Кадыров: в Чечне необходимо многоженство, 2009).

"Poliqamiya ilə bir neçə məsələ həll edilə bilər, ailənin şərəf və ləyaqəti qurtarıla bilər və qadınlar qətlə yetirilməzlər. Bunun nəyi pisdir ki?" Maraqlısı odur ki, belə münasibətlərin özü də ziddiyyətlidir, müsəlman nikahı necə tez bağlanırsa, elə tez də ləğv edilir. Əslində şəriət qaydalarına görə birinci arvadın xəbəri olmadan, digər qadınla nikaha girmək qadağandır, lakin bu nikahdan həm birinci qadın, həm də cəmiyyət sonralar xəbər tutur. Heç kəsə sirr deyil ki, belə qeyri-rəsmi nikahlardan dünyaya gələn uşaqların aqibəti çox zaman pis qurtarır. Ayrıldıqları zaman nə bu qadına, nə də onun uşaqlarına qanunla heç bir mal-mülk düşmür. Nikah bağlanan zaman dinə əsaslanan kişi, nikah pozulanda nəinki həmin qadına, heç doğma övladlarına da sahib çıxmır. Qadınların böyük əksəriyyəti poliqamiyanın əleyhinədirlər. İslamda kişinin evli olduğu bütün qadınlara həm maddi, həm də mənəvi tərəfdən təfavüt qoymasının qadağan edilməsinə baxmayaraq, real həyatda bu belə olmur. Belə evlilik zamanı həm qadınların ləyaqəti ayaqlar altına atılır, həm də uşaqlar psixoloji zədələrə məruz qalırlar, çünki təcrübə göstərir ki, bütün övladlara və arvadlara bərabər münasibət bəsləmək paraktiki olaraq mümkün deyildir.

Çeçenistanda şəriət qaydalarını həyata keçirərkən, qadınların istəkləri nəzərə alınmır. Qadınların əksəriyyətinin iradəsinin əksinə olaraq, R.Kadırov onları kütləvi şəkildə başlarını örtməyə məcbur edir ("*Кадыров ввел обязательное ношение платков для женщин*", 2006). Özünü qız-gəlinlərin müdafiəçisi kimi qələmə verən Kadırov qeyd edir ki, "Əgər biz islam dininə aidiksə və onun qanunlarına tabeyiksə, o zaman qız qaçırmaq qadağandır. İslamda qızın razılığı olmayan evliliklər bəyənilmir. Mən dəfələrlə bəyan etmişəm və indi də təkrar edirəm, qız qaçırmaq söhbətinin bizim cəmiyyətimizdə yeri olmamalıdır" (Рамзан Кадыров, 2012).

Dağıstanda gender bərabərliyi məsələsi az qala bütün hallarda pozulur. Qadınların gender bərabərliyi məsələsi onların təhsil və sosial statuslarından çox asılı olur. Gender bərabərliyinə riayət edilən az-çox ailələrin əksəriyyəti təminatlı ailələrin arasında olur. Çox vaxt qadınların ictimai-siyasi rolundan danışmağa dəyməz. Aztəminatlı ailələrdə ödənişli işi olmayan qadınların hüquq və rolları əsrlər boyu olduğu kimi qalır. Hətta özünü azadhüquqlu hesab edən qadın tapılsa belə, qarşı tərəf bunu kinayə ilə qarşılayır və qadın hüquqsuzluğunu təbii hal hesab edirlər. Gender bərabərliyini mümkün olmayan hal hesab edən kişilərin sayı daha çoxdur. Qadınların böyük əksəriyyəti ailədə söz sahibi olmadıqlarını və qərar qəbul etmədə iştiraklarının çox zəif olduğunu söyləyirlər. Ailədə qadın və uşağa qarşı törədilən zorakılığa adi hal kimi baxılır. Hüquq, əmək fəaliyyəti sahələrində və ən çox özəl sferada qadınların hüquqları tez-tez pozulur. Qadınlar üçün ən əsası ailə dəyərləridir, əmək fəaliyyəti, təhsil və din ondan sonra gəlir. Burada şəriət adət-ənənələri rəsmi qanunlardan öndə gəlir. Diqqət çəkən məqamlardan biri də şəriət qaydalarına üstünlük verməklə ailələri idarə edən kişilərin özlərinin, əksər hallarda bu qaydalara tabe olmamasıdır. Belə ki, ailənin maddi təminatı şəriətlə dəstəklənsə də, reallıqda bu qayda tez-tez pozulur. Kişilərlə bərabər qadınların da çox hissəsi qadının siyasətdə olmasını və yüksək vəzifələr tutmasını normal hal hesab etmirlər.

Yuxarıda qeyd olunanlara əsasən Qafqaz respublikalarındakı vəziyyəti təsəvvür etmək çətin deyil. Şimalı Qafqazda gender bərabərliyində deyil, daha çox gender bərabərsizliyindən bəhs etmək lazımdır. Burada gender stereotiplərini dəf etmək yolu hələ çox uzundur. Bu cəmiyyətdə oturuşmuş gender rolları mövcuddur ki, bu rollar gender bərabərliyi yolu ilə hələ ki, kəsişmir.

Gender bərabərliyi istiqamətində yalnız QHT çərçivəsində fəaliyyətdən danışmaq olar. Dövlət səviyyəsində gender bərabərliyi siyasəti nəzərə çarpmır (Юкина И.И.*,* 2011: 35).

Düzdür, Şimali Qafqazda bəzi ümumrusiya və yerli xarakterli

qadın təşkilatları və ictimai birliklər gözə dəyir, lakin onların fəaliyyətini qənaətbəxş hesab etmək olmaz. Dağıstanda İlahiyyat və Dinşünaslıq İnstitutunun uzun illərdən bəri davam edən təkidi ilə qadınlar üçün xeyriyyə xəstəxanası açıldı. Dağıstandakı "Ana və uşaqlar" təşkilatının təşəbbüsü ilə qadınlar üçün pulsuz psixoloji və hüquq məsləhətxanası açılmışdır. Bir sıra təşkilatlarda gender təhsili, qadın hüququ, ailədə zorakılıq mövzularında treninqlər, seminarlar keçirilir. Çeçenistanda da buna bənzər təşkilatlar fəaliyyət göstərir, məsələn, "Qadın ləyaqəti" və "Sintem". Qadınların ənənəvi ruhda tərbiyə edilməsi, təhsil səviyyəsi və dünyagörüşlərinin aşağı səviyyədə olması nəinki gender bərabərliyi istiqamətində iş aparmağa, həmçinin onların cəmiyyətdəki adekvat sosial statuslarına nail olmalarına da mane olur. Necə deyərlər, qadınlar hələ gender bərabərliyindən çox uzaqdırlar, onlar üçün öndə gələn vəzifə uşaqlarının tərbiyə və böyüdülməsində qarşılarına çıxan problemləri həll etməkdir. Avropa qadını öz hüququnu dərk etdiyi üçün ona nail olmağa cəhd edir, Şimali Qafqaz qadınları əksər hallarda bunun nə olduğunu hələ doğru-düzgün dərk etmir (Положение женщин // Московская Хельсинкская группа, 2012). Ümumilikdə, Şimali Qafqaz qadınının maariflənməsi, gender bərabərliyi siyasətini dərk etməsi qadın hüquqlarının təmin edilməsinin əsasıdır. Yerli tədqiqatçı öz etnik ənənələrinə və mövcud problemlərə daha yaxşı bələd olduğu üçün onun həlli istiqamətində əcnəbi alimlərə nisbətən daha optimal variantlar təklif edə bilər. Bu sahədə sistemli tədqiqatlara böyük ehtiyac vardır. Bir fakt hər kəs tərəfindən dərk edilməlidir ki, gender bərabərliyinə gedən yolda ən böyük hədəf sağlam və güclü təhsildir.

## Ədəbiyyat:

**Rus dilində**

1. Айвазова С.Г., "*Гендерное равенство в контексте прав человека*", М.: ИСП РАН, 2001. 52 с.

2. Воронина О.А., “*Феминизм и гендерное равенство*”. М.: Эдиториал УРСС, 2003. 320 с.
3. “*Гендерный̆ калеидоскоп*” / под ред. М. М. Малышевой̆. М.: Академия, 2002. 520 с.
4. Гулиева М. “*Политическая культура женщин как условие социально-политической̆ стабилизации : на материалах Северного Кавказа*“: дис. канд. полит. наук. Пятигорск, 2005. 154 с. 5. Денисова Л. В., “*Положение женщины в мусульманском мире согласно догматическим воззрениям ислама // Современные проблемы и перспективы развития исламоведения, востоковедения и тюркологии*” Н. Новгород: Медина, 2007. С. 75—78.
5. Здравомыслова Е., Темкина А., “*Социология гендерных отношений̆ и гендерныйподход в социологии*” // Социол. исслед. 2000. No 11. С. 15—23.
6. Кадыров ввел обязательное ношение платков для женщин, 10. 03. 2006. URL: http://www.demos-center.ru/news/9973.html
7. Кадыров: в Чечне необходимо многоженство, 07. 04. 2009. URL: http://www.grani.ru/War/Chechnya/m.149599.html
8. Положение женщин // Московская Хельсинкская группа. URL: http://www.mhg.ru/publications
9. Рамзан Кадыров: “Мы искореним навсегда из жизни нашего общества такое явление, как похищение невест”, 2012, URL: http://www.brodsky-museum.org/newsph~1/news~212.htm
10. Рябова Т.Б., “*Пол власти: гендерные стереотипы в современной̆ российской̆ политике*”. Иваново: Иван. гос. ун-т, 2008. 246 с.
11. Сиражудинова С.В., “*Гендерное равноправие как условие развития гражданского общества на Северном Кавказе*” // Социология власти. 2010. No 4. С. 170—177.

12. Сиражудинова С.В., "*Гражданское общество, традиционализм и ислам на Северном Кавказе*" Ростов н/Д : АзовПечать, 2012. 200 с.
13. Смирнова Я.С., "*Трудовые роли и статусы женщины в традиционных обществах народов Кавказа*" // Этнографическое обозрение. 1997. No 4. С. 48-60.
14. Текуева М.А., "*К истории женского вопроса в Кабардино-Балкарии // Женщина Кавказа и современность*": тез. докл. I Региональной науч. -практ. конф., 20-21 ноября 1991 г. / Кабардино-Балк. ун-т. Нальчик, 1991, С. 4-6.
15. Ханаху Р., *"Традиционная культура Северного Кавказа: вызовы времени*": (социально-философский анализ). Ростов н/Д: СКНЦ ВШ, 2001. 192 с.
16. Хасбулатова О.А., "*Российская гендерная политика в XX столетии: мифы и реалии"*, Иваново: Иван. гос. ун-т, 2005. 372 с.
17. Юкина И.И., "*Двуликий Янус гендерной политики в России // Женщина в российском обществе*" , 2011. No 3. С. 30—38.

## Şəhər və kənddə inquş qadını

Müasir dövrdə dünyada elə bir ölkə tapmaq çətindir ki, orada cəmiyyətin sosial-iqtisadi və mədəni həyatında qadın aktiv iştirak etməsin. Cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində qadının rolu durmadan artır, qadınlar bərabər hüquq uğrunda mübarizə aparırlar. Onu da qeyd etmək lazımdır ki, hər bir etnik qrupun digər etnik qruplarla bənzər və fərqli xüsusiyyətləri mövcud olduğu kimi, modifikasiyaya uğrayan xüsusiyyətləri də vardır. Sosial rolların bölüşdürülməsində kişi və qadınların bioloji fərqləri də nəzərə alınmalıdır, hər bir xalqın ictimai quruluş modelindəki fərqlər tarixən formalaşmış, din və məişət amilləri ilə möhkəmlənmişdir. Urbanizasiya və qloballaşma prosesi cəmiyyətdə sosial rollar və qəbul edilmiş normalar sisteminin sürətlə dəyişməsinə gətirib çıxardı. Ölkədə son onilliklər ərzində baş verən sosial-iqtisadi və siyasi transformasiya həm də cəmiyyətin həyat şəraitinə, əhalinin strukturuna təsir göstərərək, bir çox hallarda hətta onun formasınıi dəyişdirdi.

Gender amilini əldə əsas tutaraq, ənənəvi etnik proseslərin tədqiqi zamanı mədəniyyətin və ənənəvi dünyagörüşün bu günə qədər qorunan bir çox xüsusiyyətləri öz aktuallığını saxlayır. Bu ilk növbədə, urbanizasiyaya az məruz qalmış xalqlara aiddir, inquşlar da bu qəbildəndirlər. Tədqiqatın bu bölməsində İnquşetiyanın kənd və şəhərlərində yaşayan inquş qadınının timsalında transformasiya proseslərinin ənənəvi sistemə təsiri və bu təsirin nəticəsi araşdırılır, son dövrlərdə İnquşetiyada və ondan kənarlarda yaşayan inquş qadınının sosial-iqtisadi-siyasi transformasiyaya məruz qalıb-qalmaması məsələsinə, bu prosesdə onun aktivliyinə aydınlıq gətirilir. Tədqiqatda həmçinin İnquşetiya Respublikasının yarandığı gündən (1924) müasir dövrə qədər olan müddətdə urbanizasiya və transformasiya prosesləri xarakterizə edilir, şəhər və kənd əhalisi ayrı-ayrılıqda təhlil edilir.

XIX əsrdə inquşların xeyli hissəsi kənd yerlərində yaşayırdılar. 1924-cü ildə mərkəzi Vladiqafqaz olmaqla, İnquşetiya Muxtar Vilayəti yaradıldı və bundan sonra inquş əsilli şəhər sakinlərinin sayı kəskin şəkildə artmağa başladı. Bu dövrdə inquş qadınları ictimai həyatın bütün sahələrində aktiv ictimai fəaliyyətə başlamışdılar. 1925-ci ildə inquş qadınlarının Sovetlərə seçkilərdə iştirakı 0,23 % idisə, 1927-də bu 6,3 % -ə qalxdı. 1925-ci ildə İnquşetiya kənd şurasına 15 qadın seçilmişdisə, 1927-ci ildə bu şuradakı bütün deputatlarının 12 %-ni qadınlar təşkil edirdilər. Sonrakı seçkilərdə iştirak edən və müxtəlif səviyyəli şuralara seçilən qadınların sayı artmışdı (Кузнецова А.Б., 2005).

1943-cü ildə İnquşetiya Muxtar Respublikası Çeçenistan-İnquşetiya Muxtar Sovet Sosialist Respublikasına (ÇİMSSR) çevrilir və RSFSR-ın tərkibinə daxil olur. İnquşların xeyli hissəsi Qroznıya köçür və beləliklə, şəhər əhalisinin sayı artır. 1944-cü ildə Çeçenistan-İnquşetiya Muxtar Sovet Sosialist Respublikası yenidən ləğv edilir, çeçen və inquşlar Qazaxıstan və Qırğızıstana (bəziləri də güclə Tacikstan və Özbəkistana köçürülür) deportasiya olunurlar. Beləliklə də, məcburi köçkünlərin çoxu Kızıl-Arvat, Frunze, Alma-Ata və digər şəhərlərdə yaşamağa məcbur olurlar.

1957-ci ildə ÇİMSSR yenidən bərpa edildi və çeçen və inquşlar Şimali Qafqaza geri qayıtdılar, lakin yenə də əvvəlki kimi, bölgədə kənd əhalisi üstünlük təşkil edirdi. A.B.Kuznetsovın qeyd etdiyi kimi çeçen və inquşların geri döndükləri ÇİMSSR-də inkişaf etmiş sənaye şəhəri olan Qroznıda işləyən mütəxəssislərin əksəriyyəti ruslardan ibarət idi (Кузнецова А. Б., 2005: 76)

Sürgün olduqları illər ərzində çeçen və inquşların təhsil alma imkanları olmadığı üçün onlar əsasən, kənd təsərrüfatı üzrə peşələrə yiyələnmişdilər. Onların əldə etdikləri ən əsas peşələr aşağıdakılar idi: sürücü, traktorçu, inşaat-tikinti işləri üzrə peşələr, yükdaşıma, gözətçi və sairə. Belə peşələrə sahib olan çeçen və inquşlar kolxoz və sovxozlara qəbul edilmədilər. Qadınlar kolxoz, sovxoz işlərində çalışmağa etiraz etməsələr də, onlar əsasən özəl

iş yerlərində kiçik əmək haqqı müqabilində çalışırdılar. Hətta aralarındakı ziyalılar da, öz ixtisasları üzrə iş tapa bilmədikləri üçün digər sahələrdə işləməyə məcbur idilər.

Belə siyasət nəticəsində inquş və çeçenlərin qapalı dairəsi yarandı. Onların təhsil almaq imkanları məhdudlaşdı və bəzən heçə endi, onlar da kənd təsərrüfatında (rəsmi olaraq fəhlə kimi qeydiyyatdan keçsələr də, əslində kolxoz və sovxozlarda işləyirdilər) işləməyə məcbur oldular.

1959-1970-ci illərdə 11 il ərzində şəhər əhalisi Çeçenstanda 60 min nəfər, İnquşetiyada 40 min nəfər artmışdır. 1970-1979-cu illəri əhatə edən 9 il ərzində bu rəqəmlər bir qədər də artmışdır, 40 min nəfər çeçen, 12,2 min nəfər inquş şəhər əhalisinə qoşulmuşdu (Bax: http: //www. kunstkamera. ru/lib/rubrikator).

Beləliklə, 1970-79-cu illər ərzində çeçenlərin sayı şəhərlərdə 40 min nəfərə, kəndlərdə 55 min nəfərə, inquşların sayı şəhərlərdə 12, 2 min nəfərə, kəndlərdə 9,1 min nəfərə bərabər idi (Кузнецова А.Б., 2005: 76). 1959-cu ildən 1980-ci illərin sonuna qədər kənd təsərrüfatı ilə məşğul olan çeçen və inquşların sayı 91 %-dən 70 %-ə qədər azalmışdı. 1990-cı illərdə Çeçen-İnquş Respublikasında kənd və şəhər əhalisi arasındakı qeyri-mütənasiblik artırdı.

İnquşetiya Respublikası yaranandan sonra isə vəziyyət xeyli dəyişdi. Dövlət Statistika Komitəsinin 1 yanvar 2011-ci il tarixli məlumatına görə respublika əhalisinin 159.193 nəfəri şəhərdə, 255.799 nəfəri isə kənddə yaşayırdı. Əvvəllər olduğu kimi, əhalinin yarıdan azı Qarabulaq, Maqas, Malqobey və Nazranda yaşayırdı. İnquşetiya şəhərləri Rusiya Federasiyasının əyalət şəhərlərinə bənzəyirdi. İnquşetiya prezidentin iqamətgahının yerləşdiyi yeni paytaxt Maqasda parlament binası, nazirliklər, diplomatik təmsilçilər, universitet kompleksləri, liseylər, məktəblər, uşaq müəssisələri, Dram teatrının binası, Respublika tibb dioqnostika mərkəzi və sairə yerləşir. Federal subsidiyalar hesabına Respublikada işsizlik problemini bir az yumşalmışdır (Матвеева, Савин

2012: 113). Respublika daxilində kəndlərdən şəhərə axın əhalinin həyat tərzində dəyişiklik yaratmır. Şəhərlərdə asudə vaxtı keçirmək üçün nəzərdə tutulan idman zalları, klublar və digər binalar yalnız kişilər üçün nəzərdə tutulmuşdur. Bu obyektlərə getmək qadınların ağıllarına belə gəlmir.

İnternet, xüsusilə də sosial şəbəkələr əhalinin bütün təbəqələrinə öz təsirini göstərmişdir. Hətta dağ yerlərində yaşayan qadınların da həyat tərzlərinə İnternet təsirsiz ötüşməmişdir. Təəssüf ki, İnternetdən faydalı istifadə etmə vərdişi yalnız yüksək təhsil almış əhaliyə xasdır. Ümumilikdə, kəndlərdə həyat darıxdırıcıdır və bu səbəbdən də şəhərlərə axın durmadan artır.

Beləliklə, indiki inquş kəndləri müasir şərtlərlə ayaqlaşmır, şəxsiyyətin formalaşması, onun normal inkişafı, müasir dünya ilə ayaqlaşması üçün lazım olan tələbləri ödəyə biləcək sosiomədəni mühit yetərincə inkişaf etməmişdir. Aqrar sahəyə ayrılan dotasiya kənd əhalisinin tələblərini ödəmir. Buna görə də, gənclər və orta yaşlılar arasında ölkədən kənara və şəhərlərə miqrasiya etməyə meyl artır və bundan ötrü yollar axtarılır. Son dövrlərdə, ölkəni tərk edənlər arasında qadınların sayı çoxalmağa başlamışdır.

Həm şəhərdə, həm də kənddə yaşayan inquş qadının başqa yerə getməsinin səbəbləri: daha yaxşı yaşamaq, daha üstün sosial statusa malik olmaq, təhsilini artırmaq arzusu, hətta normal təhsil alan gənclər sosial və mədəni inkişafı təmin edəcək real perspektivlər görmədikləri üçün (respublikada iş yerləri yox dərəcəsindədir, işsizliyin səviyyəsi 49,15-dir) vətənlərini tərk etmək məcburiyyətində qalırlar (Bax: http://ria.ru/research_rating).

Rusiya Federasiyasının böyük şəhərlərinə edilən köçlərin arxasınca digər xarakterli sosial-psixoloji, mədəni-iqtisadi problemlər gəlir. Şəhərdə yaşamanın sosial-psixoloji adaptasiyasının çətinlikləri, iş yerində, təhsil ocağında yeni kollektivə öyrəşmə, yeni qonşulara isinişmə, yeni dostların tapılması və sairə kimi mikroklimatlara alışmaq onlara elə də asan başa gəlmir. Şəhər böyük olduqca kənddən gələnlərin işi daha da çətinləşir, şəhər

ritmində kənd vərdişləri onların davranış və ünsiyyətində daha çox çətinliklər yaradır.

Əlbəttə, bunları anlamaq olar: Kənddə birinin problemi ilə böyük insan toplusu maraqlandığı halda, şəhərdə hər kəs öz problemi ilə təkbaşına məşğul olur. Şəhərdə yardımlaşma, digərlərinin problemləri ilə maraqlanma, qonşuya güvənmə, qohumun çiyninə yük qoyma halları yox dərəcəsindədir. İnsanlar az təmasda olur və bir-birinə yaddırlar. Kənddə olan isti münasibətlər şəhərdə yoxdur.

Kənd sakinlərinin demək olar ki, hamısı bir-birini tanıyır, lakin şəhərdə insanlar yaddırlar, hətta eyni şəhərdə yaşayan qohumlar da kənddə olduqları qədər ünsiyyət saxlamırlar. Onların yeni məkana rahat adaptasiya olunmalarında (sosial-psixoloji adaptasiya) köməyə "Skype", "Facebook", "vkontakte", "odnoklassniki" və digər sosial şəbəkələr gəlir.

Kənddən gələrək şəhərdə yaşayan inquşun sosial adaptasiya probleminin çətinlikləri mədəni xarakter daşıyır. Şəhərdəki mühitə öyrəşmənin açarı yeni insanlarla tanışlıq, onlarla vaxt keçirməkdir. Özünü "yeni" sosiomədəni mühitə uyğunlaşdırmanın çıxış yolu öz milli mədəniyyətindən uzaqlaşıb urbanizasiyaya-şəhər həyatına inteqrasiya etməkdir. Bununla da, kənddən gələn vətəndaş yeni sosio-mədəni mühitə adaptasiya olunur və nəticədə, özünün spesifik etnik xüsusiyyətlərini get-gedə unudur, lakin qadınlar şəhərdə yaşayan həmkəndliləri və qohumları ilə ünsiyyətlə kifayətlənirlər.

Əlbəttə, şəhərə gələnlərin hamısının bəxti eyni cür gətirmir, onların problemləri böyük şəhərdə asanlıqla həll olunmur. Onların sırasında normal təhsil alanlar belə, öz ixtisasları üzrə hər zaman iş tapa bilmirlər və fiziki güc tələb edən işlərdə çalışmağa məcbur olurlar. Bütün dünyada olduğu kimi, inquşların da böyük şəhərlərdə problemləri – rəqabətə tab gətirə bilməmək və əmək bazarında az tələb olunan peşə sahibləri arasında olmalarıdır. Daha yaxşı ödənişli və prestijli işlər yerli xalqın qadınları

üçün daha çox əlçatandır. Böyük şəhər sakininin şəxsi əlaqələri, məlumatları, qohum və tanışları onlara daha yaxşı iş tapmalarına yardım edir. İnquşetiyada yaşayan insanlar şəhərlərdə tapdıqları aşağı səviyyəli işlərdə işləməyə razıdırlar, çünki öz yerlərində işsizliyin səviyyəsi çox yüksəkdir.

Bir şeyi də diqqətdən qaçırmaq lazım deyil ki, inquş qadını üçün ölkəsini tərk etmək və daimi olaraq başqa şəhərdə yaşamaq, o qədər də asan iş deyil. Bu imkan o qadınlar üçün daha asan olur ki, onlar ya ailələri ilə birlikdə başqa şəhərə köçür, ya ailə qurur, ya da yaxınlarının yanına köçürlər. Tənha qadının ailədən uzaq başqa şəhərdə yaşamağı milli mentalitetə uyğun gəlmir. Başqa şəhərə köçən inquş qadının yanında qəyyum kimi mütləq ailənin kişi üzvlərindən biri olmalıdır.

Sosiumun hörmətini qazanmaq, bəlli bir nüfuz sahibi olmaq üçün inquş qadını çox şeydən vaz keçməyi bacarmalıdır. O, kənd normalarına riayət etməyə davam etdirsə, həyat standartlarından geri qalacaq, digərləri ilə ünsiyyət yaratmaqda çətinlik çəkəcək. İnquş xalqı o qadına hörmət edir ki, o yaşadığı məkandan asılı olmayaraq, heç bir zaman inquş olduğunu unutmur və adət-ənənələrə uyğun davranır.

Ənənəvi inquş cəmiyyətində qadın övladların tərbiyəsi prosesində özünün etnonormlarının transformasiyasını unutmamalıdır və etnomədəni norma və dəyərləri əldə əsas tutmalıdır. Bunun həyata keçirilməsi prosesində inquş qadının kənddə və ya şəhərdə yaşamasının məsələyə heç bir dəxli yoxdur. Əgər o əsl inquş qadınıdırsa, qızıl ortanı gözləməyi bacarmalıdır, lakin böyük şəhərlərdə yaşayan inquş qadınları üçün bunu etmək o qədər də asan olmur. Şəhərdə anadan olan, şəhər məktəblərində təhsil alan inquş, artıq İnquşetiyanın vətəndaşı olmaqdan daha çox, doğulduğu şəhərin vətəndaşı olur və etno dəyərləri mənimsəməkdə çətinlik çəkir və ya bunları heç istəmir. Bununla da, yeni nəslin ənənələri itirmə qorxusu mövcud problemə çevrilir. Respublikadan kənarda dünyaya gələn uşaqlar nəinki adət-ənənələrini qoru-

yub saxlamır, hətta doğma dillərini belə unudurlar, çünki onlar hesab edirlər ki, bu onların yeni məkanda sosiallaşmasına mane olur.

Bir qorxu həqiqətən mövcuddur, yəni vətənindən çox uzaqlarda yaşayan inquşun genetik yaddaşından öz xalqı haqqındakı bilgilər silənə bilər. Onların əksəriyyətində öz xalqının adət-ənənələrinə, mənsub olduqları etnoqruplara qarşı pozitiv hislər olsa da, yaşadıqları böyük şəhərlərdə bunları qoruyub saxlamaq çətindir. Aparılan tədqiqatlara əsasən inquş kişilərə xas olan xarakterik xüsusiyyətlər aşağıdakılardır: emosionallıq, temperamentlilik, hövsələsizlik, azad fikirlilik, qürurluluq, açıq fikirlilik, kobudluq, lovğalıq, sayıqlıq, humanistlik və sairə. Qadınlara xas xarakterik xüsusiyyətlər aşağıdakılardır: inadkarlıq, güzəştə az meyilli olma, aqressivlik, çılğınlıq, özünə vurğunluq, eləcə də alicənablıq, məqsədyönlülük. Hər iki cins üçün ümumi olan milli xüsusiyyət qürurlu olmaqdır.

Bəzi kişilər hətta mənsub olduqları milləti gizlətmək məcburiyyətində qalırlar, çünki xoşagəlməz işlərlə məşğul olduqları zaman mənsub olduqları millətin adını gizlətməkdən başqa çarələri qalmır. Bəzən böyük şəhərlərdə uzun müddət yaşayan inquşların xarakterində ambivalent identifikasiya müşahidə edilir: Onlar mənsub olduqları xalqın bəzi adət və ənənələrinə nifrət etdiklərini dilə gətirirlər, lakin böyük əksəriyyət belə mövqedən uzaqdır, öz xalqı ilə fəxr edir.

İnquş qadınların çoxu xalqını yaxşı təmsil etməkdən ötrü əllərindən gələni etməyə hazır olduqlarını bəyan edirlər.

M.S. Dzaurova respondentlər arasında aşağıdakı mövzuda sorğu aparmışdır: Xalqımın əksəriyyət nümayəndələrindən fərqli olaraq, mən…”: İnquş qadını şəhər və kənd mühitində. Respondentlərin bəziləri sorğuda iştirakdan imtina etmişdi, çünki onlar özləri ilə inquş xalqı arasında sərhəd qoymaq istəmirdilər. Respondentlər üçün hansı etnik qrupa mənsub olmağın əhəmiyyəti çox vacib idi. Ona görə də, “heç bir şeylə fərqlənmirəm”

deyənlərin sayı yüksək idi, lakin obyektiv səbəblərdən etnik qrupdan ayrı düşənlərin cavabı da maraqlı idi. Dili, adət-ənənələri pis bildikləri üçün onların mədəniyyətlə bağlı bacarıqlara yiyələnmək qabiliyyətləri aşağı idi. Adət-ənənələrdən ayrı düşmənin əsas səbəbi gənclərin mühafizəkarlıqdan çox müasirliyə üstünlük vermələridir.

Etnik qrupdan nə qədər uzaq düşsələr də aşağıdakı xüsusiyyətlər inquşların qürur duyduqları keyfiyyətlər olaraq qalır: aqressiv olmamaq, vətənpərvərlik, təvazökarlıq, tərbiyəlilik, əməksevərlik və sairə. Moskva və Sankt-Peterburq kimi böyük şəhərlərdə yaşayan kişilər özlərini daha çox etnik və dini mənsubiyyətləri ilə təyin etdikləri halda, qadınlar sənət, təhsil, ailə ilə bağlı keyfiyyətlərlə özlərini müəyyən edirlər (О.С.Павлова 2012: 38).

Hər bir xalqın etno müəyyənləşdirici xüsusiyyəti həmin xalqın dilidir. Son dövrlərdə inquşlarda ana dilinə maraq azalır.

1995-ci ildə İnquşetiya Respublikasında vətəndaşların doğma dili hansı dərəcədə bilmələrini təyin etmək üçün etno-sosioloji sorğu keçirildi. Sorğuda hər iki cinsin müxtəlif yaş qruplarına, müxtəlif təhsil səviyyəsinə, müxtəlif mədəni köklərə malik nümayəndələr iştirak edirdi. Sual belə qoyulmuşdu: "Siz inquş dilini bilməyinizi necə qiymətləndirirsiniz?"

Cavablar aşağıdakı kimi idi:

- 16,8 % dili mükəmməl bilirəm;
- 41,1 % danışıq dilini bilirəm (məişət səviyysində);
- 36 % danışanda inquş-rus dillərindən qarışıq şəkildə istifadə edirəm;
- 3 %-i dili pis bilirəm;
- 7 %-i cavab verməkdə çətinlik çəkirəm.

Sorğunun nəticələrinə görə dili mükəmməl bilən qadınların sayı kişilərdən iki dəfə azdır, inquş-rus dilində qarışıq danışan qadınların sayı 1,4 dəfə kişilərdən çoxdur (Дзаурова М.С., 2001: 352).

İnquş dilini pis bilməyin əsas səbəbi doğma dildə KİV-in az olması və şəhərdə yaşayan əhalinin rus dilində danışmağa üstün-

lük verməsidir.

O.S.Pavlovanın 2010-2011-ci illərdə İnquşetiya, Moskva və Sankt Peterburqda milli özünüdərk və doğma dilin funksiyası məsələsi ilə əlaqəli keçirdiyi sorğu və bu mövzuda uzun illər apardığı tədqiqat nəticəsində əldə olunan məlumat oxucuların diqqətinə çatdırılır. Aşağıdakı cədvəldən də göründüyü kimi, dil respondentlərin əksəriyyəti arasında etnokonsolidasiya və etnodiferensasiyaedici əlamətləri olan elementdir.

| **Etnodiferensial əlamət** | **Yaşayış yeri** | |
|---|---|---|
| | ***İnquşetiya Respublikası (sorğuda iştirak edənlərin % -i)*** | ***Moskva / Sankt Peterburq (sorğuda iştirak edənlərin %-i)*** |
| Dil | 88,4 | 77,5 |
| Din | 70,2 | 32,5 |
| Xarici görünüş | 42,9 | 35,0 |
| Xarakterin cizgiləri, psixologiya | 29,8 | 72,5 |
| Davranışın xüsusiyyətləri | 27,8 | 72,5 |
| Cavab verməyə çətinlik çəkirəm | 2,5 | 2 5 |
| Fərqi yoxdur | 1,5 | 2,5 |
| Digər səbəblər | – | 7,5 |

İnquşetiyada yaşayanlarla Moskva və Sankt Peterburqda yaşayanların cavabları köklü şəkildə fərqlənir (Павлова 2012: 282).

İnquş-rus bilinqvizmi dövlətin təhsil sahəsində apardığı siyasətin nəticəsidir. Düzdür, məktəblərdə rus dilinin tədris səviy-

yəsi 1970-1989-cu illər ərzində aşağı düşmüş və həm rus, həm də inquş dilini bilənlərin sayı azalmışdır. İnquşetiyada şəhərlərdə rus dilini bilənlərin sayı çox olduğu halda, kəndlərdə əksinə, inquş dilini bilənlərin sayı daha çoxdur. İki dili də sərbəst bilənlərin sayı əvvəlki illərə nisbətən, 2006-2008-ci illər ərzində xeyli azalmışdır. Hər halda, inquş dili etno-differensial marker olaraq qalır (Албогачиева М.С., 2009: 485).

Belə vəziyyətə ən çox daha savadlı vətəndaşların arasında təsadüf edilir. Bu vəziyyət milli özünüdərkin formalaşmasına mane olur və prosesin özü etnik sosialaşmanı ləngidir. Bu halda, qadınlarda inquş dilindən rus dilinə keçid daha ləng alınır, ana dilində ailədə danışılır, qonşularla ünsiyyətdə isə rus dilindən istifadə edilir.

İnquş qadını həm şəhərdə, həm də kənddə hansı hallarda öz dilində danışır? Matəm mərasimlərində, məsciddə, özlərindən böyüklərlə ünsiyyət prosesində doğma dillərində daha çox danışırlar. Nəqliyyatda, işdə, təhsil ocaqlarında və digər ictimai yerlərdə xüsusilə gənclər arasında inquş dili ikinci plana keçir. Müşahidələrə əsasən demək olar ki, şəhərlərdə və hətta bir çox kəndlərdə də doğma dilin prioritetliyi azalır, rus dilinin istifadə miqyası genişlənir. Özəl sferalarda dogma dil istifadə edildiyi halda, ictimai yerlərdə əsasən, rus dilində danışılır.

Təəssüf ki, dövlət tərəfindən "doğma dilin inkişafı" üçün heç bir proqram həyata keçirilmir və belə getsə, çox güman ki, nəinki yazılı, heç şifahi formada da bu dil istifadədən çıxacaq. İnquş dilində olan məktəblər getdikcə yoxa çıxır (Албогачиева М.С., 2009: 485).

Başqa az əhəmiyyəti olmayan amil, ailədə uşaqların təlim-tərbiyəsi prosesində dilin roludur. Etnik özünüdərkin inkişafında dilin rolu elə milli mədəniyyətin rolu qədər əhəmiyyətlidir. Bu barədə əsas rol inquş qadının üzərinə düşür, çünki bütün patriarxal quruluşlarda olduğu kimi, İnquşetiyada da uşaq tərbiyəsi qadına daha çox aid olan məsələdir. Elə bu səbəbdən də, uşaqlara

doğma dilin sevdirilməsi və milli mədəni dəyərlərinin aşılanması qadından daha çox asılıdır. Bu gün dövlət bu istiqamətdə zəruri tədbirlər görməzsə, ehtimal olunur ki, iki nəsildən sonra inquş dili tamamilə sıradan çıxacaq və onu rus dili əvəz edəcəkdir.

Sovet dönəmlərində SSRİ-nin bütün bölgələrində olduğu kimi, İnquşetiyada da din əleyhinə qızğın mübarizə aparılırdı. İş o yerə çatmışdı ki, burada bir dənə də olsun məscid fəaliyyət göstərmirdi. 1980-ci illərdən sonra vəziyyət dəyişməyə başladı. İnquşetiyanın kəndlərində tədricən məscidlər açıldı, məsələn, Barsukidə, Surxoxidə həmin dövrlərdə məscid tikildi. Yenidənqurma dövründə insanlar açıq-açığına dini hislərini ifadə etməyə və islam normalarına riayət etməyə başladılar. İnquşetiya Respublikası yaranandan sonra dini sahədə daha böyük dəyişikliklər hiss edildi.

1993-cü ildə İnquşetiyada müsəlman ölkələrinin qurultayı keçirildi və İnquşetiya Müftiliyi yarandı. O, İnquşetiya Respublikasının ali dini orqanı oldu və dini mərkəz kimi fəaliyyət göstərməyə başladı (Албогачиева М.С., 2007: 87). Bütün bu illər ərzində yerli əhali arasında dini-maarifçilik işləri aparılmış, respublika məktəblərində islamın normaları tədris edilmiş, "İşıqlı Yol" (Светлый путь) qəzetinin səhifələrində respublikanın dini həyatından xəbərlər, müxtəlif hədislər, ruhani alimlər tərəfindən hazırlanmış namaz cədvəli dərc edilmiş, "Anquşt" radiosunda islam mədəniyyətinin müxtəlif aspektlərindən bəhs edən, İnquşetiyanın tarixinə, mədəniyyətinə və məişətinə həsr edilmiş verilişlər yayımlanmışdı. "Anquşt" radiosunda işləyən gənclərin əksəriyyəti qızlardır və onlar bu radioda işləyə-işləyə Moskva, Rostov-don, Stavropol və başqa yerlərdə təhsil alırlar (http://radio-angusht.ru/).

Son dövrdə İnternetdə inquş və çeçen qadınlarına həsr edilmiş "Ledi qor" adlı ("Леди гор" Bax: http://www.ladygor.ru/pub) yeni jurnal fəaliyyətə başlamışdır. Bu jurnalın səhifələrində yerli qadınlar üçün maraq kəsb edən müxtəlif səpkili suallara cavab

almaq olar, bu suallar xarici görünüşə də aid ola bilər, dini sferanı da əhatə edə bilər.

Dindən bəhs edərkən, ziyarətləri diqqətdən kənarda saxlamaq olmaz. Ziyarətgahlar əhalinin, xüsusilə də gənclərin çox tez-tez baş çəkdikləri yerlərdir. Yenidənqurma və postsovet dövründə bu yerlərə maraq daha da artmışdır və özünüdərk prosesində onların əhəmiyyəti böyükdür. Ziyarətgahlarda müsəlman əhalinin dində seçilən insanları dəfn edilmişdir.

Son zamanlarda, Məkkəni və digər müqəddəs yerləri (Kunta-Hacı Hedi ana və Kuntanın atası, bacı və qardaşlarının ziyarətgahı, Huseyn və Hacı Qardanovlar və başqa ziyarətgahlar) kollektiv şəkildə ziyarət etmək dəb halını almışdır. Kult obyektlərinə islamda neqativ münasibətinin olmasına baxmayaraq, İnquşetiya və Çeçenistanda belə yerlərə maraq böyükdür. Bütün "dürüst-düzgün" müsəlmanlar kimi, inquş və çeçenlər də bu yerləri sayqı ilə ziyarət edirlər, amma onlara səcdə etmirlər. Bu yerləri həm yerli sakinlər, həm də müxtəlif yerlərdən gələn qonaqlar mütəmadi olaraq ziyarət edirlər.

İnquşların əksəriyyəti dini ayinlərə riayət edirlər. Bu birmənalı şəkildə həm şəhər, həm də kənd sakinlərinə aiddir. Bu gün Rusiya Federasiyasının böyük şəhərlərində yaşayan inquşların da arasında çoxsaylı dini ayinlərə riayət edənlərə təsadüf etmək olar. Maraqlı cəhət odur ki, valideynlərində bu əməlləri görməyən gənclərin arasında oruc tutanlar, namaz qılanlar çoxdur. Əvvəlki nəsillərin çoxu uzun illər anti-islam, anti-din ruhunda tərbiyə gördükləri üçün yenidən dini ayinləri icra etməyə çətinlik çəkirlər.

Sonuncu onillikdə əhali kütləvi şəkildə respublikanı tərk edir. Sürətlənən qloballaşma, informasiya inqilabı, intensiv beynəlxalq mübadilə, yeni bazar qanunları dünyanın yeni vətəndaşını formalaşdırır. Köçüb gedənin konkret olaraq ailə, dil, mədəniyyətlə əlaqəsi də qırılır. Həyatın yeni ritmi insandan mobillik, daimi optimal imkan axtarışı tələb edir. Əslində, konservativ ənənəsi olan ailə qlobal dəyişikliklər dövründə şəxsiyyətin inkişafında əyləc

rolunu oynayır. Kimsəni, qlobal iqtisadi münasibətdən kənarda qalmayan müsəlman xalqlarının qloballaşmanın təsirinə məruz qalmadığına inandırmaq olmaz. Müsəlman ölkələrindən Qərbə emmiqrasiya miqranta tamamilə başqa bir sosial-iqtisadi şərtlərlə yaşamağı diktə edir ki, bu da müsəlman üçün tamamilə yeni qaydalarla yaşamaq deməkdir. Hüdudsuz fərdi azadlıq, böyük imkan seçimi, maddiyyətin yaxşılığa doğru dəyişməsi, sahibkarlıq təşəbbüskarlığının artması - bütün bu amillər gənc müsəlmana təsir edir, onların çoxu Qərb davranış standartlarını qəbul edərək, böyük məmnuniyyətlə qərbləşirlər (Балтанова Г.Р., 2005: 191).

Xüsusilə 1992-ci il osetin-inquş münaqişəsindən sonra Qərbə üz tutan inquşlar xarici görünüşlərinə görə orada yaşayanlardan seçilmirlər, lakin gündəlik həyat tərzlərində islam qaydalarına riayət edirlər, oruc tuturlar, namaz qılırlar və sairə. Bütün müsəlman bayramlarını qeyd edirlər. Onlar xarici görünüşlərini ona görə dəyişdirirlər ki, ümumi kütlədən seçilmək istəmirlər, çünki seçiləndə yerli sakinlərin neqativ münasibətlərinə tuş gəlirlər. Yerli mühitdə sosiallaşmaq və öz yaradıcı planlarını realizə etmək, diskriminasiyaya məruz qalmamaq üçün onlar yerlilərdən seçilməməlidirlər, ən azı xarici görkəmləri ilə ümumi kütlə kimi olmalıdırlar. İnquş qadınlar xaricdə yaşasalar da, ev təsərrüfatı ilə məşğuldurlar, ictimai həyatda o qədər də fəal deyillər və miqrasiya etdikləri ölkənin onlar üçün ayırdığı dotasiya hesabına yaşayırlar.

1920-ci illərə qədər inquşların geyimlərində milli cizgilər qorunub saxlanılmışdı. İnquşların xarici görkəmlərində, simalarında gedən ən əsas dəyişikliklərə Vladiqavfqaz mühiti təsir etmişdir, çünki bura geyim istehsalının və ticarətinin əsas mərkəzidir. Bazorkinoda bayramların birində olan şahid öz əsərində bunu belə qeyd etmişdir: “Yerli qızların ənənəvi kostyumlarından görünür ki, onlar sivilizasiyaya bəzi güzəştlər etməyə başlamışlar: Yüngül milli çüvəklər artıq Avropa çəkmələrini geridə qoyur; qadınların əllərində dəri əlcəklər gördük, buruq saçlarını sancaqla

yığıb səliqəli saç düzümünün şahidi olduq" (Очевидец, 1897: No 47). Bu məqalədən belə qənaətə gəlmək olar ki, avropalaşmış mədəni-məişət standartları tədricən dağ mühitinə də gəlib çıxmışdır.

Şəhər mühiti, əlbəttə, davranışın yeni stereotiplərini formalaşdırmış və formalaşdırmaqda da davam edir. Ənənəvi qadının geyimində şalvar yoxdur, qadının şalvar geyməsi o deməkdir ki, o, inquş xalqının qanunlarına riayət etmir, lakin müasir dövrdə qız-qadınların çoxu, xüsusilə də, Rusiyada, xaricdə, hətta İnquşetiyada şəhərlərdə yaşayan qadınlar şalvar geyinirlər. Bununla bərabər, əksər ailələrdə hələ də evə yad adam, hörmət-izzət sahibi olan birisi daxil olarsa, qız-qadın açıq-saçıq geyimlə, şalvarla, başıaçıq onu qarşılaya bilməz. Qız-qadın ən azı yaylıq, çalma və ya uyğun bir şeylə başını örtməli sonra qonağı qarşılamalıdır. Qız-qadınların uzun saçı olmalıdır, hətta onu kəsdirdikdə belə, çox qısa olmamalıdır. Müasir inquş qadınının geyimi heç bir etnik komponenti olmayan ətək, köynək və don ola bilər. İnquşetiyada yeganə milli kostyum - toy çukxisidi ki, o da uzun qollu, çox enli, iki alt və üst dondan ibarətdir. Bu qədim adətlərə uyğun olan dondan başqa, gəlin toy günü çanta, fata, papaq, sinəbənd, kəmər də taxır. İnquşların çoxu hələ də gəlini belə bir toy geyimində görməyi arzulayır (Донская 2005: 30). Bu geyimi həm kəndli, həm də şəhərli gəlin geyinir. Ona görə də toy günü, gəlinin kənd və ya şəhərdən olmasını ayırd etmək mümkün deyildir, belə ki, onlar eyni cür ənənəvi geyimdə də, avropasayağı geyimdə də ola bilərlər. Avropadan gətirilən donun üzərində hökmən ənənəvi elementlər olmalıdır. Geyimin haradan gətirilməsindən asılı olmayaraq, açıq-saçıq, dekolte, qolsuz don, donda və ya ətəkdə böyük yarıqlar qəbul edilən deyildir.

Çukxi inquş gəlin paltarı o qədər xoşagələndir ki, nəinki İnquşetiyada yaşayan inquşlar, hətta xaricdə uzun illər yaşayan inquşlar da toyları üçün çukxi sifariş edirlər. Bəzən bunu görən xarici gəlinlər də bu qeyri-adi donu öz toylarında geyinmək istəyirlər və çukxi sifariş edirlər (Комсомольская правда; Ингушетия. 2006.

No 154). Bu geyimin populyarlığı ondan ibarətdir ki, çukxi təkrarolunmaz bir geyimdir və gəlinin orijinal görünməsi üçün çox uyğundur.

Son dövrlərdə inquş qadınlarının çoxu hicab örtməyə başlamışlar. Onların çoxu islam normalarına uyğun yaşadıqları üçün, geyimlərini də ona uyğun etmək istəyirlər. Bəzən analar qızlarından daha müasir geyimlər geyinirlər. Qızlarının hicab örtməsinə baxmayaraq, analar hicabsız gəzirlər. Bu İnquşetiyanın kənd yerlərində yaşayan gənc qızlarda daha çox təsadüf edilir.

Q.R.Baltanova inquş qadınları haqqında belə yazır: "Bir çox inquş qadını üçün hər hansı formada olursa olsun, baş örtüyü dindarlığın sübutudur, lakin dünyadakı bir çox müsəlman qadınları üçün baş örtüyü heç nə ifadə etmir. Onun inanclı olmasının baş örtüyünə heç bir dəxli yoxdur. Din onun şəxsi işi, ruhunun vəziyyətidir və bunu o kimsəyə göstərmək üçün etmir (Балтанова 2005: 268).

İnquşetiya Respublikasında həm işləmək, həm də təhsil almaqla bağlı qadının elə də böyük problemi yoxdur. Əmək bazarı inkişaf etdikcə, gənclərin də təhsil almağa həvəsləri artır. Ali təhsil yaxşı iş tapmağın təminatıdır. Ona görə də, hər il orta məktəbləri bitirən gənclər arasında ali məktəblərə qəbul olmaq həvəsi artır. Universitetlərdə təhsil alanların 60 %-i qızlardır. Dil, ədəbiyyat və tarix üzrə təhsil alanların çoxu elə qadınlardır. Oxumaq üçün xarici ölkələrə üz tutan inquş qızlarına da rast gəlmək olur. Məsələn, Maret Qaysultanovna Tsaroeva 1996-cı ildə İsveçrədə doktorluq dissertasiyası yazmaq üçün qrant udmuş, sonra Parisdə "din tarixi" üzrə, daha sonra isə Cenevrədə etnologiya və folklorşünaslıq ixtisasları üzrə doktorluq işi müdafiə etdi. Hal-hazırda Maret Qaysultanovna Tsaroeva Cenevrədə arxiv direktoru kimi fəaliyyət göstərir və Fransa Milli Kitabxanasında monoteist dinin tədqiqi sahəsində laboratoriyanın üzvüdür.

Son dövrlərdə bir çox inquş qadını ali təhsil, elm və incəsənətdə özlərini sınamışlar. Çox da uzaq olmayan bir keçmişdə, XIX

əsrin sonu, XX əsrin əvvəllərində bunları inquş qadını heç xəyal edə bilməzdi. Onun bütün həyatı ailəsi və doğma aulunun yanında keçirdi.

Ənənəyə görə inquş qadını siyasi proseslərdən uzaqda olmalıdır. Əlbəttə, belə vəziyyət təkcə inquş qadınları üçün xarakterik deyildi. Bu Rusiya qadınlarına da aid idi, lakin rus qadınları az da olsa irəli getmişdilər.

İctimai təşkilatlarda qadınların fəaliyyət səviyyəsi çox aşağı idi. İdarəedici vəzifələrdə qadınların sayı çox aşağı idi. İnquşetiyada cəmi 10 % qadın prezident administrasiyasında işləyir.

Respublikanın hökumət aparatında işləyənlərin 50 %-dən çoxunu qadınlar təşkil etsələr də, onlardan 40 %-i orta səviyyəli işçilərdir. İki nazir, yeddi nazir müavini qadındır. Nikah təşkilatlarının (ЗАГС) sədri və sədr müavinlərinin hamısı qadınlardır. Respublikanın şəhər və rayon administrasiya rəhbərlərinin müavinlərindən üçü qadındır. İnquşetiya Parlamentində 27 deputatdan cəmi üçü qadındır. 2009-cu ilin noyabrında Rusiya Dumasına seçkilərdə İnquşetiyadan MDU-nun qadın professoru öz namizədliyini irəli sürmüşdür (Арапханова Л.Я., 2009).

Bu məlumatlar bir daha sübut edir ki, qadınların kişi üçün nəzərdə tutulan sahələrdə təmsil olunması ənənə şəklini almaq üzrədir və kişi sferası hesab edilən siyasətdə də qadınların onların "yerlər"ini tutmaları ilə nəticələnəcək. 2005-ci ildə "Rusiya qəzeti" (Российская газета) "Delitant siyasət" adlı məqaləni İnquşetiya qadınlarına həsr etmişdir. Məqalədə qeyd edilir ki, "İnquşetiyada iki qadın idarəetmə sahəsində vəzifəyə iddia etdilər və bu vəzifələri tutdular. Birincisi, Hava Yevlova İnquşetiya baş nazirinin müavini oldu. Bu, İnquşetiya tarixində bu vəzifəyə seçilən ilk qadın idi. Bu xanıma, həmkarlarının təbirincə, İnquşetiyanın Marqaret Tetçeri və ya dəmir ledisi deyilirdi. Bu qadın təkcə öz cəlbedici görünüşü ilə deyil, idarəçilikdəki səriştə və bacarığı ilə də seçilirdi. Hava Yevlova idarəçilik orqanlarında böyük təcrübə keçmişdi. İqtisad elmləri namizədi Aset Ustilqova 2004-cü ilin

sentyabrından Maliyyə naziri vəzifəsində çalışır. Bu vəzifəyə qədər o, respublika hökümətində iqtisadi məsələlər üzrə sədr müavini və 2003-cü ildə respublika prezidentinin müşaviri vəzifəsində işləmişdir" (Bax: http: //mediacratia. ru/owa).

Son dövrlərdə, iqtisadiyyatın və sosial sferanın mühüm sahələrində, təhsil, səhiyyə, mədəniyyət və idman təşkilatlarında uğurla işləyən inquş qadınlarının sayı artır. O.S.Pavlova öz əsərində inquş qadınlarının sosial vəziyyətini aydın əks etdirir (Павлова О.С., 2012). İnquş qadınlarının əksəriyyəti bu kimi sferalarda öz imkanlarını realizə etmək iqtidarındadırlar, lakin imkan məhdudiyyətini görəndə, hətta hərtərəfli inkişaf etmiş inquş qadını da geri çəkilir.

İnquşetiyada mədəni əyləncə mərkəzləri çox azdır, demək olar ki, yox dərəcəsindədir. Respublikada bir dənə də olsa, kinoteatr, maraqlı klub, qadın jurnalı, inam telefonu və sairə yoxdur. Qadınlar asudə vaxtlarını əsasən gözəllik salonlarında, ticarət mərkəzlərində keçirməyə məcburdurlar. Buna imkanı olmayan qadınlar isə evdə, dörd divar arasında qalmağa məhkumdurlar.

Son dövrlərdə respublikada yeganə bir fitnes klub açılmışdır. Onun üzərində olan "Kişilərin içəri daxil olması qadağandır" yazısı hər kəsin diqqətini cəlb edir. Məşqçidən tutmuş, gözətçiyə qədər bütün işçilər qadınlardan ibarətdir. Bu klub Nazran şəhəri və onun ətrafındakı bölgələrdə çox populyardır. Bura gələnlərin əksəriyyəti İnquşetiya vətəndaşlarıdır. Burada həm məktəbli, həm tələbə, həm yaşlı qadına rast gəlmək mümkündür.

İnquşetiyada son dövrə qədər idman sahəsində qadınları az görmək olardı, lakin hal-hazırda bu sahədə də müəyyən dəyişikliklər gözə dəyir. Aliyurt kənd məktəbinin məktəblisi Leyla Alboqaçiyeva İnquşetiya Respublikasının yaranmasının 20 illiyi münasibəti ilə planetin ən yüksək nöqtəsi sayılan Everestin zirvəsinə çıxdı və ora bayraq sancdı. O, alpinistlərdən ibarət yığma komandanın tərkibində yeganə qız idi. Fatima Bokova da qadınlar üçün xarakterik olmayan idman növü ilə məşğul olur, 2004 və

2011-ci illərdə Pekində keçirilən ümumdünya idman oyunlarında qalib oldu və beynəlxalq dərəcəli idman ustası adını aldı. Buna baxmayaraq, idmanda qadınların sayı hələ ki, çox azdır. Onlar üçün bu sahədə uğur qazanmaq çox çətindir. İnquşetiyada daha böyük şəhərlərdə yaşayan vətəndaşların idmanda uğur qazanması, kənddə yaşayanlara nisbətən daha asandır.

Müasir dövrdə İnquşetiyda cəmiyyətin qeyri-stabil vəziyyətdə olmasına, bəzi ənənələrin pozulmasına baxmayaraq, ailə dəyərləri əvvəlki kimi saxlanılır. Bu kontekstdə qeyd etmək lazımdır ki, inquş ailələrində ailəyə, nikah qaydalarına yanaşma təxminən elə əvvəlki kimidir.

İnquşlarda nikah aşağıdakı qaydada həyata keçirilir. Evlənmə qərarını verən gənc oğlan və qız bu barədə valideynlərinə məlumat verirlər. Bundan sonrakı prosesin gedişatı valideynlərdən asılıdır. Əgər oğlanın valideynləri lazım bilərsə, qız evinə elçi getməyə razılıq verirlər. Əgər razılıq olmasa, gənclər valideynlərinin razılığını almadan, özləri də nikaha girə bilərlər. Düzdür, belə hallara az təsadüf edilir, əksəriyyət gənclər valideyn xeyr-duası ilə evlənməyə üstünlük verirlər.

Qız qaçırmaq şəriət, islam qaydaları ilə, dəstəklənməsə də, İnquşetiyada belə hallara bu gün də təsadüf edilir. Əksəriyyət inquşlar qız qaçırmanı bəyənmirlər və bunun əleyhinədirlər. Əsasən aztəminatlı ailələrin övladları bu yolla evlənirlər.

Bildiyimiz kimi, gənclər evlənmək üçün mütləq başlıq (kalım) veməlidirlər. Buna gücü çatmayan gənclər qız qaçırmağa məcbur olurlar. Bəzən valideynlər özləri bu şəkildə evlənməyə razılıq verirlər. Gənc oğlan qızla təyin edilmiş yerə gəlir və onu ya öz evlərinə, ya da yaxınlarının birinin evinə aparır.

Qeyd etmək lazımdır ki, belə hallar şəhərlərlə müqayisədə kəndlərdə daha tez-tez baş verir. İnquşetiyadan kənarda yaşayanlar, ümumiyyətlə, bunu etmirlər, çünki başqa dövlətlərdə qızı qaçırmağa görə cinayət işi açılır.

Evlənmə, xüsusilə də qadınların ərə getməsi ilə bağlı məsələlər barədə cəmiyyətin mövqeyi hər zaman önəm daşıyır. Qadının at-

dığı hər bir səhv addım cəmiyyət tərəfindən sərt ittiham olunur və ona görə də, qadın bütün gücü ilə adi hüquq normalarına, el adətlərinə ciddi riayət etmək məcburiyyətindədir. Qadın və kişilər tərəfindən edilən eyni hərəkət hər zaman cəmiyyət tərəfindən müxtəlif reaksiyaya səbəb olur. Qadınlar daha çox müzakirə olunur və onlara qarşı daha aqressiv reaksiya müşahidə edilir. Əgər qadın öz millətinə deyil, başqa bir millətə ərə gedərsə, ona qarşı həm ailədən, həm də cəmiyyətdən çox sərt təpki gözlənilir, lakin analoji hərəkəti kişi edərsə, onu çox da sərt mühakimə etmirlər.

Ümumiyyətlə, qeyri-inquşla evlənən inquş qadınına demək olar ki, çox az təsadüf edilir. İnquş kişilərin isə çeçen, rus, osetin, gürcü, balkar, tatar, kabardin, dargin, alman, qaraçay qadınlarla evlənməsi halları müşahidə olunur.

Modernizasiyanın genişləndiyi bir dövrdə İnquşetiyada hələ də şəriət qaydalarına üstünlük verilir. İslama görə müsəlman kişi istənilən millətin qadını ilə evlənə bilər. Buna baxmayaraq, inquşlar öz millətinə qız verib, qız almağa daha çox üstünlük verirlər.

Əlbəttə, bu adəti pozan kişilərin sayı daha çoxdur, qadınlar arasında isə az da olsa, başqa millətə ərə gedənlərə təsadüf olunur. Belə nikahlardan sonra həm cəmiyyət, həm də ailə övladlarından üz döndərir. Əgər kişi başqa millətlə, başqa dindən olan qadınla evlənirsə, şəriətlə kəbin kəsən molla həmin xanımı müsəlman olmağa dəvət edir və əksəriyyət hallarda qadın öz dinindən imtina edir, müsəlman olmağa razılıq verir, ya da, evlənmək baş tutmur. Qadından bunu onunla evlənmək istəyən kişi və onun ailəsi tələb edir. Əks halda, həmin qadının bu ailədə uzun müddət qalacağı sual altına düşür. Əvvəllər, bütün evlənənlərin dövlət qeydiyyatından keçməsi məcburi olsa da, indi çox vaxt molla kəbini ilə kifayətlənirlər. Əslində, rəsmi nikah ailənin bünövrəsini daha çox möhkəmləndirir və dünyaya gələn uşaqların gələcəkdə sənədləşmə ilə bağlı problemləri az olur.

Hal-hazırda bəzi imkanlı kişilər, eyni zamanda ikinci və hətta üçüncü arvad almağa üstünlük verirlər. Bir çox inquş qızları

ömürlərinin sonuna qədər tək qalır, lakin çoxarvadlı kişiyə ərə getməyə razı olmurlar, çünki onlar gələcəkdə qarşılaşa biləcəkləri problemlərdən qorxurlar. Belə qızlar həyatlarını elmə, işə həsr edir və özlərindən başqa kimsəyə güvənmirlər. Onlar karyeralarında daha çox uğur qazanır və özlərini kəndlərə ərə gedən, sivilizasiyadan uzaq, gecə-gündüz işləyib, heç bir nəticə əldə edə bilməyən qadınlarla müqayisə edirlər. Bu qızlar qeyri-adekvat xüsusiyyətli bir kişiyə ərə getməkdənsə, tək qalmağı daha uyğun hesab edirlər. Belə qadınlar həm də bəzi kişilərdən daha yüksək iqtisadi statusa sahib olur, şəhərin ən yaxşı yerində mənzil alırlar. Bu tendensiya davam etsə, böyük şəhərlərdə qadınların sayı qeyri-mütənasib şəkildə artmağa başlayacaqdır. İnquşların əksəriyyəti şəriətlə çoxarvadlılığa icazə verildiyini bilsələr də, onu bəyənmirlər, lakin imkanlı müasir inquş kişiləri buna məhəl qoymurlar. Belə kişilərin həyat yoldaşları özlərini heç vaxt rahat hiss etmirlər, təəssüf ki, onlar qanunla da müdafiə olunmurlar. Rusiya Federasiyasının qanunları çoxarvadlılığa icazə verməsə də, buna yol verənlər çox vaxt cəzalandırılmırlar.

Nikahın hansı formada olmasından asılı olmayaraq, cəmiyyət tərəfindən dəstəklənən etnomədəni ənənələr sayəsində inquş ailələrində stabillik mövcuddur. İnquş cəmiyyətində kişi kultu hər zaman mövcud olmuşdur. Bərabərsizlik problemi, kişi və qadın rollarının assimetriyası inquş cəmiyyəti üçün hər zaman təsadüf edilən haldır.

Gender problemi ailədə qərar qəbul etmə mexanizmində özünü daha qabarıq büruzə verir. Ailələrin çoxunda güc amili birinci yerdədir. Bu reproduktiv funksiya, ev təsərrüfatı, ailə üzvlərinin gəlirlərinin səviyyəsi kimi amillərdən çox asılıdır. Çox vaxt kişi bir işi müstəqil görür, yalnız nəticəni həyat yoldaşına bildirir. İstər şəhər yeri olsun, istərsə də kənd yeri, kişi birmənalı şəkildə ailə başçısıdır. Hətta heç bir gəliri olmayan kişidən də ailə başçısının kim olduğunu soruşsalar, düşünmədən özünü söylər. Əks halda, həmin kişinin cəmiyyətdəki nüfuzu aşağı düşər.

Şəhərlərdə yaşayan qadınlar kəndlərdəki qadınlarla müqayisədə daha müstəqil və azad fikirlidirlər. Bu ailələrdə nisbi də olsa, demokratik mühit mövcuddur və adətlər tam şəkildə ailəni idarə etmir. İctimaiyyət arasında nüfuz qazanan qadınlara münasibət tam fərqlidir. Qadının ailədəki vəziyyətinə təsir edən həm obyektiv, həm də subyektiv səbəblər çoxdur. Ailədə ənənələrin necə yaşadılmasından, etnik xüsusiyyətlərdən, ailədəki mikroiqlimdən, ailənin psixoloji fonundan, həyat yoldaşının xarakterindən və təhsilin səviyyəsindən çox şey asılıdır. Bütün bunlar dünyada və ölkədə gedən demokratikləşmə prosesinin ailədən də yan keçmədiyindən xəbər verir (Озиева Л.С., 2009: 21).

İnquş ailələrini xarakterinə görə şərti olaraq ənənəvi və nisbi eqalitar ailə tipinə bölmək olar. Nisbi eqalitar ailələrdə ailə ilə bağlı qərar cütlüyün hər ikisinin razılığı ilə verilir, lakin ənənəvi ailələrdə qadının sözü kişi sözü qədər keçərli olmur. Kəndlərdə nəinki ərin, digər yaxın qohumların (qayınata, qayınana, böyük qayın, kənd ağsaqqalı və başqaları) da qərarvermədə iştirakı vacibdir. Ənənəvi ailələrdə qadın uşaq böyütmək, ailə üzvlərinin qayğısına qalmaq və ailə təsərrüfatını idarə etməkdən başqa heç bir işə qarışmaq hüququna malik deyildir.

Sosial-iqtisadi problemlər müasir inquş qadınını tam şəkildə əmək fəaliyyətinə qoşulmaqdan məhrum edir, milli adət-ənənələrin saxlanılmasına və uşaqların inquş mədəniyyəti ruhunda böyüməsinə kömək edir. Uşaqların çoxu valideynlərinin məsləhətinə qulaq assalar da, əvvəlki kimi valideynlər övladlarının taleyinə müdaxilə edə bilmirlər. Övladın sənət, təhsil, həyat yoldaşı seçimi zaman, valideynin məsləhətinə qulaq asmaması münaqişələrə səbəb olur. Maraqların toqquşması valideyn uşaq münasibətlərinin korlanmasına gətirib çıxarır.

İnquş cəmiyyətində atılmış uşaq olmadığı üçün, uşaq evləri, uşaq sığınacaqları da yoxdur. Cəmiyyətdə uşağın vəziyyətinə nəzarət çox güclüdür. Uşaq valideyndən məhrum olarsa, onun tərbiyəsi ilə qohumlar məşğul olurlar. Nə olursa, olsun uşağın ailədə

tərbiyə alıb böyüməsi üçün insanlar əllərindən gələni edirlər. Bu bütün inquş uşaqlarına aiddir.

Bu kontekstdə böyük-kiçik münasibətlərində ənənəvi modelə diqqəti çəkmək yerinə düşərdi. Böyüklərə hörmət etmək hər bir inquşun ümdə borcudur. İnquş ailələrində cavan və yaşlı insanların birgə yaşamasına tez-tez təsadüf etmək olar. Gənc ailə ilə yaşayan yaşlı insan, cütlüyün nənə-babası, xala-bibisi də ola bilər, qayğısına qala biləcək yaxınları olmayan yaşlı qohumları da ola bilər. Yaşlı və xəstə qohumlara bir və ya bir neçə ailə növbə ilə qayğı göstərə bilər. İnquşetiyada nə qocalar evi, nə də atılmış qocalar problemi mövcuddur.

Butün yuxarıda söylənilən insani keyfiyyətlər hələ də inquş ailələrində saxlanılır, lakin bu çox vaxt qadınların üzərinə düşən yük olur. İnquş kişiləri çöl-bayır işləri ilə məşğul olduqları zaman, fədakar inquş qadınları həm ağır ev işləri, həm də qayğıya ehtiyacı olan ailə üzvləri ilə məşqul olurlar.

İnquş ailələrinin çoxunda üç nəslin nümayəndəsini görmək olur. Valideynlərlə adətən, ailənin kiçik oğlu yaşayır. Elə ona görə də, evin məişət qayğıları ilə əlaqəli ən əsas yük onun üzərinə düşür. Belə ailələrdə ziyarətçi qonaqlar çox olduğuna görə iş də çox olur. Qonaqpərvərliklə bağlı etiketlər də çoxdur. Ailə və ailə təsərrüfatını idarə edən adətən kişinin anası olur. Bəzən ayrı yaşayan ailələrdə maliyyə ilə bağlı böyük qərarların verilməsində əsas iştirakçı qayınanadır. Hazırda bu ənənə hətta Moskvada, Sankt-Peterburqda və xarici ölkələrdə yaşayan inquş ailələrində də davam edir.

Təkcə cütlüyün özü yaşayan ailələr də mövcuddur və belə ailələr daha demokratikdirlər. Burada ev işlərində qarşılıqlı yardım mövcuddur. Bu rəftarı ənənəvi, yəni üç nəslin birgə yaşadığı ailələrdə görmək olmur. Böyük şəhərlərdə gənc ailələr ayrıca yaşamağa üstünlük verirlər. Övladlarından ayrı, müstəqil yaşamağa üstünlük verən valideynlər də kifayət qədərdir. Onların fikrincə,

böyük ailələrdə yaşamaq, elə onların özlərinin də sakit həyat və planlarını pozur.

Rol strukturunun dəyişməsi ənənəvi ailə modelini dağıdan başlıca amildir. Keçmişdə inquş etnosu üçün xarakterik olan ənənələr bu gün öz əhəmiyyətini itirir, bu da gender, sosial-statusun identifikasiyasına təsirsiz ötüşmür. “Müasir dünyanın aparıcı tendensiyası olan qloballaşma, kişi və qadınlar arasında bölünmüş ənənəvi rollara xələl gətirir. Qloballaşma nöqteyi-nəzərindən hər bir insana bazar münasibətinin potensial agenti, vahid “insan resurs”u kimi baxırlar. Şəxsiyyət, mənəviyyat, şəxsiyyətin bənzərsizliyi qlobal, sosial və iqtisadi kataklizmalar dəyirman daşları vasitəsilə silinir (Балтанова Г.Р., 2005: 355).

Beləliklə, osetin-inquş münaqişəsindən, ikinci çeçen müharibəsinindən sonra milli özünüdərk prosesində müəyyən sarsıntılar baş vermişdir. Bu silahlı töqquşmalar nəticəsində, çoxlu insan tələf olmuş, insanların ev-eşikləri, mülkiyyətləri viran qalmış, vərdiş etdikləri həyat tərzi dəyişmişdi. İşsizliyin yüksək səviyyəsi, kişiləri əvvəlki ənənəvi gender rollarını dəyişməyə məcbur etmiş və ailədaxili rollarda kəskin dəyişikliklər baş vermişdi.

“Qadınlar kişilər üçün prestijli sayılmayan sferalarda- xidmət, xırda ticarət, və s. sahələrdə işləməyə başladılar, istəklərinə uyğun iş tapa bilməyən kişilər isə evdə qalmağa məcbur oldular. Bu faktın gender aspekti ilə əlaqəsi çoxdur. Kənardan baxanda ailədəki bu vəziyyət ərlə arvad arasında gender bərabərliyi kimi görünə bilər” (Долакова З.М., 2006: 11).

Müasir mədəniyyətdə yeni gender oriyentasiyasının dərki, qəbulu qadınların özəl sahələrdəki fəailiyyətlərinin genişlənməsi, onların sosial təcrübəsinin artması və son nəticədə, onların sosial və gender statusunun, davranış və motivasiya stereotiplərinin dəyişməsi ilə əlaqədardır. Qeyd edilən vəziyyət əsasən şəhərlərdə yaşayan qaçqın əhali üçün daha çox xarakterikdir. Onu da qeyd etmək lazımdır ki, bu yerli model, həyatın ənənəvi nizamından qopub ekstremal vəziyyətə düşən ailələrə daha çox şamil edilə bilər.

İnquşetiya ailələri üçün çoxuşaqlılıq hər zaman adi hal olmuşdur. Adətən inquşlarda ailə kultu, ailə üzvlərinin bir-birinə olan münasibəti və davranış qaydası, digər qohumlarla rəftar artıq formalaşmış dəyərlərə söykənir. Ailə böyük olduqca, o daha zəngin və güclü hesab edilir.

İllər keçdikcə çox şey dəyişsə də, ailə hələ də inquş həyatının əsas qayəsi kimi qalmaqdadır. Kənd yerlərində ailədə uşaqların sayının çox olması daha xarakterikdir. Son dövrlərə qədər ailədə beş uşağın olması normal sayılırdı. Əvvəllər beş və daha çox uşağı olan ailələr çoxuşaqlı ailə sayılırdısa, indi üç və daha çox uşaqlı ailələr böyük ailə hesab edilir.

Ailələrdəki uşaqların sayının artması üçün respublika hökuməti həvəsləndirici tədbirlər görür, ailələrə maliyyə yardımı göstərir (səkkizinci uşaq üçün- on min, doqquzuncu uşaq üçün - on bir min rubl və sonrakı uşaqlar üçün on səkkiz min rubla qədər əlavə müavinat verilir). Rüsiya Federasiyasında isə hər uşaq üçün yüz min rubl birdəfəlik sosial müavinat verilir.

Müasir dövrdə Rusiya Federasiyasında demoqrafik problemlər çox kəskin bir həddə çatmışdı. İnquşetiyada isə demoqrafik problemlər yaşanmır və bölgə bu sahədə ümumilikdə Federasiya ilə müqayisədə müsbət dinamikaya malikdir.

Ənənəvi ailə modeli, ailə-qohum və qonşu münasibətləri urbanizasiya prosesləri nəticəsində nisbətən dəyişmişdir. Ailələrin qarşılıqlı münasibətlərinə cütlüklərin eyni millətdən və ya qarışıq millətdən olması da təsir edir. Həm kənd, həm də şəhərdə qarışıq inquş ailələri özünəməxsus xüsusiyyətlərə malikdir. İki müxtəlif millətin nümayəndələri tərəfindən qurulan ailədə ər-arvadın fərqli nümunə və dəyərləri ailəyə daxil edilir və nəticədə, yeni meyl və reallıqlar üzə çıxır.

Belə qarışıq ailələrin tədqiqi göstərir ki, kənddə o ailə uğurlu olur ki, cütlüklərdən biri nə zamansa kənddə yaşasın. Qadın kənddə yaşayıbsa, o zaman problem az olur, çünki kənd həyatına adaptasiya qadın üçün kişiyə nisbətən daha çətin olur. Bu da tə-

biidir, ev-təsərrüfat işlərində çalışan əsas qadındır. Kənddə böyüyən kişi kənd stereotiplərinə alışdığı üçün şəhər mədəniyyətinin kəndə gəlməsinə normal reaksiya verə bilmir, o, ənənəvi ailə modelindən imtina edə bilmir. Şəhər ailələrində qadın-kişi bərabərliyi qismən də olsa gözlənilir və ev işlərində cütlüklər bir-birinə yardım edirlər. Sirr deyil ki, ər-arvadın hər ikisi işləyirsə, onda ev məsuliyyəti onların arasında bölünür və bu da şəhər ailələri üçün xarakterik haldır. (Озиева Л.С., 2009). Çox vaxt qeyri-bərabər sosial status ailədə konfliktə səbəb olur. Məsələn, ərindən yuxarı vəzifə təklifi alan qadın bu təklifi qəbul etməyə çəkinir, çünki ərindən artıq sosial statusa malik olmaq mövcud patriarxal cəmiyyət üçün qeyri-xarakterikdir.

İnquş cəmiyyətində boşanma hallarına tarixən neqativ münasibət olmuşdur. İnquş adətlərində və şəriətdə də nikaha başlıca dəyər kimi baxılır.

Şəriətə görə boşanma üçün kişinin o qədər ciddi səbəbi olmalıdır ki, Allah buna izn versin. Onu da qeyd etmək lazımdır ki, Allah hətta özü icazə verdiyi boşanmanı da ailəyə rəva görmür.

Müasir inquş ailələrində boşanmanın təşəbbüskarı kişi olur. Bəzən boşanma üçün qadın da iddia qaldırır. Belə hallarda, boşanan qadının ailəsi başlığı geri qaytarmalıdır (adətə görə bəzi xalqlarda bunun ikiqatı ödənilir), başlıq, toya qədər və toy zamanı gəlinə verilən bütün hədiyyələr geri qaytarılır. Əvvəllər boşanmış qadın başlığı geri qaytarmayana qədər yenidən ərə gedə bilməzdi. Müasir inquş qadını isə boşanmadan sonra azaddır və istədiyi insanla yenidən ailə qura bilər.

İnquş qadınları rəsmi nikaha daxil olmursa, onda o heç bir haqqa sahib ola bilmir. Ona görə də, müasir şəhər qızları ilk övladlarını dünyaya gətirənə qədər rəsmi nikaha daxil olurlar, bu da, dünyaya gələcək övlada çatacaq mirasa varislik hüququ qazandırır. Hal-hazırda inquş qadınları ilk növbədə şəriət qaydaları ilə kəbin kəsdirir, bundan sonra rəsmi nikaha daxil olurlar. Son dövrlərdə bu bir dəb halını almışdır. Elə buna görə də boşanma

prosesi da həm şəriətə uyğun, həm də rəsmi qaydada həyata keçirilir. Boşanma zamanı Rusiya Federasiyasının qanunları əsas götürülür. Respublikada qadın hüquq və maraqlarını qoruyan yerli şəriət məhkəməsi və ya məscid mövcuddur.

Bütün dünyada olduğu kimi, İnquşetiyada da qadınlar özləri sosial-iqtisadi, ictimai-siyasi, etnik və mənəvi sahələrdə gender bərabərliyini təmin etməyi bacarmalıdırlar. Bu onlara ölkənin ictimai-siyasi həaytında fəal iştirak imkanı yarada bilər. Onlar həmçinin sabitilliyi təmin etməyə qadir olan yeni sosial qurumlar formalaşdırmağı və həm öz ailəsində, həm də cəmiyyətdə ləyaqətli həyat qurmağı öyrənməlidirlər.

Müasir inquş qadınının vəziyyəti ümumilikdə, bütün etnosun vəziyyətinə təsir edir, yəni xalqın gələcəyi onların bugünkü durumundan asılıdır.

**Ədəbiyyat:**

**Rus dilində**


1. “*Адат. Традиции и современность*”, Тбилиси, Москва, 2003.
2. Албогачиева М.С., “*Ингуши в XX веке: этнографические аспекты религи- озных практик // Северный̆ Кавказ: традиционное сельское сообщество — социальные роли, общественное мнение, властные отношения*”. СПб., 2007.
3. Албогачиева М.С., *“Конференция мусульман республики Ингушетия*”// Антропологический̆ форум. 2011. No 14.
4. Арапханова Л.Я. *“Выступление на круглом столе в Комитете ГД по делам женщин, семьи и детей̆*” к. п. н. Москва. 13 декабря 2009 г
5. Вагабов М.В., “*Ислам и семья*”, М., 1980.
6. Балтанова Г.Р., *“Руководство молодой̆ мусульманки*”, СПб. : Диля, 2010. 224 с.
7. Гриценко Н.П., *“Горский̆ аул и казачья станица Терека*

*накануне Великой Октябрьской социалистической революции*", Грозный, 1972

8. Дзаурова М.С. Этнологическое знание как фактор формирования культуры молодежи Ингушетии // Реальность этноса: этнология в педагогическом образовании: проблемы и перспективы: Материалы международной научно-практической конференции. (17–20 мая 1999 г.) СПб., 2001. С. 352.
9. Долакова З.М., *"Влияние межэтнического конфликта на ролевую структуру традиционной семьи*": Автореф. дис... . канд. психол. наук. М., 2006.
10. Донская О., "*Чтобы жених не потерялся*" // Российская газета, 7 9. Дзаурова М. С. *"Этнологическое знание как фактор формирования культуры молодежи Ингушетии // Реальность этноса: этнология в педагогическом образовании: проблемы и перспективы:* " Материалы международной научно-практической конференции, (17–20 мая 1999 г.) СПб., 2001. С. 352.
11. Долакова З М., *"Влияние межэтнического конфликта на ролевую структуру традиционной семьи*": Автореф. дис. ... канд. психол. наук. М., 2006, 1 февраля. № 18.
12. Долакова З.М. *"Влияние межэтнического конфликта на ролевую структуру традиционной семьи*", Назрань, 2008.
13. "*Калым в Ингушетии*" // Сердало. 1924. 19 нояб. Керимов Г.М., "*Шариат: Закон жизни мусульман*", Ответы Шариата на проблемы современности. СПб., 2007.
14. Комсомольская правда, "*Французские модницы выходят замуж в ингушских платьях*" // Спецвыпуск. 14. 12. 2006; Ингушетия. 2006. No 154.
15. Кузнецова А.Б., "*Этнополитические процессы в Чечено-Ингушской АССР в 1957–1990 гг. : последствия депортации и основные аспекты реабилитации чеченцев и ингушей"*: Дис. … канд. ист. наук: 07. 00. 07. М., 2005.

16. Матвеева А., Савин И. *“Северный Кавказ: взгляд изнутри. Вызовы и проблемы социально-политического развития*”. М., 2012.
17. Озиева Л.С., *“Роль семьи в формировании культурных ориентаций (ценностей)*”: Автореф. дис... . канд. филос. наук. Ростов н/Д., 2009.
18. О.С.Павлова 2012, “*Ингушский этнос на современном этапе: черты социально-психологического портрета*”, 2012, «Форум», Москва.
19. Очевидец., *“Народный праздник в селении Базоркинском*” // ТВ. 1897. No 47
20. Россиискaя газета. 2005. 1 февраля. No 18
21. Хасбулатова З.И. *“Некоторые формы взаимопомощи, связанные с хозяй- ственным бытом чеченцев и ингушей в конце XIX — начале XX в*”. // Хозяйство и быт народов Чечено-Ингушетии. Грозный, 1983

**Internet:**

http://www.kunstkamera.ru/lib/rubrikator
http://ria.ru/research_rating
http://radio-angusht.ru/
http://mediacratia.ru/owa

# VII FƏSİL

# ŞİMALİ QAFQAZDA GENDER VƏ HƏRB

**Müharibə və Şimali Qafqaz qadınları: dünən və bu gün.** Bu gün dünyada baş verən müharibələr, terror hadisələri, silahlı münaqişələr, etnik qarşıdurmalar bəşəriyyəti çox narahat edir, çünki bütün bunlar günahsız insanların ölümü ilə nəticələnir. Müharibələr zamanı ailənin kişisi ön cəbhədə olsa da, bütün dövrlərdə olduğu kimi müasir dövrdə də arxa cəbhənin yükü yenə qadınların çiyinlərinə düşür, onlar hətta hərbi əməliyyatlarda da iştirak edirlər. Elə bu səbəbdən də, müasir tədqiqatlarda hərbi əməliyyatlarda qadınların iştirakı məsələlərinə xüsusi diqqət yetirilir. Tədqiqatlar göstərir ki, dünyanın istənilən ölkəsində qadınların hərbi əməliyyatlarda iştirakı üçün şərait olarsa, bu həmin qadınlarda hərbi vərdişlərin yaranmasına gətirib çıxarır.

Rusiya 1864-cü ildə Qafqaz müharibəsi zamanı Şimali Qafqazı tam işğal edə bilmişdi. Nəticədə minlərlə qafqazlı Türkiyəyə qaçmaq məcburiyyətində qalmışdı. Sonradan, Stalinin dövründə Şimali Qafqaz xalqları Mərkəzi Asiyaya sürgün olunmuşdur.

Çeçen tarixçilərin əsərlərində qeyd edilir ki, 1819-cu ildə qanlı döyüşlər zamanı rus ordusu kişilərlə bərabər, 49 çeçen qızını da əsir götürmüşdülər. Əsirlər Terek çayından keçərkən (Xanqış-Yurt kəndi yaxınlığında) qadınlar onları müşaiyət edən əsgərlərdən bərk-bərk yapışaraq, onlarla birlikdə özlərini çaya atmışlar. Bununla da, qızlar general Aleksey Yermolovun əmri ilə yandırılan Dadi-Yurt sakinlərinin intiqamını rus əsgərlərindən almış, özlərini çaya atmaqla, həm də namuslarını qorumuşlar (Анна Каретникова, 2013).

Bu kimi nümunələrə istər Çeçenistan, istərsə də Qafqazın digər bölgələrinin tarixində çox rast gəlinir. Qafqaz qadınlarının müharibə dövründə istər arxa cəbhədə, istərsə də ön cəbhədəki qəhrəmanlıqları hər kəsə bəllidir.

Tarixi faktlar diqqətə alınmazsa, Qafqazda qadın və hərb mövzusunun tam tədqiq olunduğunu söyləmək olmaz. Məlumdur ki, qədim zamanlardan başlayaraq, Qafqaz bölgəsində müharibələr həmişə olmuşdur. Qafqaz xalqlarının tarixi təkamülü prosesində qadınların cəngavərliyinə iki amil – xarici (ətrafdakı daha iri xalqların təcavüzü) və daxili (icmalararası mübarizə) amilləri təsir etmişdir. Xarici amil dedikdə, müxtəlif zamanlarda – skiflərin, bulqarların, xəzərlərin, farsların, monqol-tatarların, krım tatarların, türk osmanlıların və rusların hücumu nəzərdə tutulur. Məhz bu hücumların təsiri altında Qafqazda ideal döyüşçü imici formalaşmışdır. Son müharibələr dövründə "cigitlər-igitlər" formalaşmışdır ki, bunlar da Qafqaz mədəniyyətinin əsasını təşkil edirlər.

XVIII əsrin sonlarında Şimali Qafqaz xalqlarının əksəriyyəti artıq hərbiləşdirilmiş toplumlara çevrilmişdilər ki, bu da mütləq şəkildə onların qadınlarının mentalitetində öz əksini tapmışdır.

İcmalararası (daxili) mübarizə amili də Qafqazın bütün tarixi boyu mövcud olmuşdur. Təbii relyefinə görə fərqlilik, çətin iqlim şəraiti, xarici düşmənlərin fasiləsiz yürüşləri tayfalar arasında əlaqənin möhkəmliyinə xələl gətirirdi. Ayrı-ayrı dağ icmaları təkcə bisosial-iqtisadi səviyyələrinə görə deyil, həm də əhali sayı və sub-etnik əlamətlərinə görə fərqlənirdilər. Elə bu səbəblər də, bəzən xalqlar, icmalar arasında ixtişaşa gətirib çıxarırdı.

Tarixən xalqların təkamülü, mövcud ola bilməsi üçün imkanlar təxminən belə idi. Bu şəraitdə hərbi vərdişlərə malik olan qadın icmanı yaşatmaq üçün əlavə qüvvə hesab edilirdi. Ola bilsin ki, qadın yalnız ona məxsus bir sıra xüsusiyyətlərinə (reproduktiv funksiya) görə kişi döyüşçünü tam əvəz edə bilmirdı, lakin o da düşmənə diz çokdürməyi bacarırdı. Bölgədə olan davamlı mü-

naqişələr səbəbindən XVIII əsrdə Abxaziyada qızlara, yeniyetmələrin bir hissəsinə silahla rəftar etməyi öyrədirdilər, çünki o dövr üçün bu zərurət idi. Bəzən düşmən qüvvəsinin üstün olması, müharibədə kişilərin həlak olması səbəbindən qadınlar döyüşə qatılmaq məcburiyyətində qalırdılar.

Son dövrlərin müharibələri Qafqaz xalqlarının tarixində dərin iz buraxmışdır, çünki onlar müharibədə hər zaman qalib gələ bilmirdilər və məğlubiyyət onlara baha başa gəlirdi. Qənimətlə bərabər, düşmən bu bölgənin ən yaxşı, ən sağlam, ən igid qız və oğullarını da əsir götürüb özləri ilə aparırdılar. Məsələn, "Dədə-Qorqud" dastanında bu kimi məqamlara təsadüf edilir. Bu fasiləsiz müharibələr xalqın, xüsusilə də qadınların mentalitetində dərin iz buraxmışdır.

Şimali Qafqaz qadınları müharibədə dözümlü olmaq üçün öz aralarında bir çox yarışlar keçirirdilər. Onlar silahla davranmaq, at çapmaq, ağırlıq qaldırmaq kimi vərdişlərə yiyələnirdilər, bu da müharibə zamanı onları özlərini müdafiə etməyə, məğlub olmamağa imkan verirdi.

Qafqazda müharibələr də xalqları hərbi vərdişlərə yiyələnməyə vadar edirdi. Xarici hücumlar nəticəsində daha da yoxsullaşan icmalar, xalqlar bunu qonşularla müharibə hesabına aradan qaldırmağa çalışırdılar. Sayca çox olan, fiziki hazırlığı daha yaxşı olan icmalar digər icmaları qarət etməklə vəziyyətlərini yaxşılaşdırmağa çalışırdılar. Belə vəziyyətdə hərbi qabiliyyətli qadınlar icmanın yaşaması üçün əlavə qüvvə hesab edilirdi. Ola bilsin ki, bu qadınlar tam mənada kişiləri əvəz edə bilmirdilər, lakin onların ikisi, üçü birləşəndə, artıq düşmən onlarla hesablaşmaq məcburiyyətində qalırdı. Daimi müharibə qorxusu qız-qadınları hərbi vərdişlərini inkişaf etdirməyə vadar edirdi.

Qafqaz qadınlarının hərbi keyfiyyətlərinin formalaşması prosesini iki dövrə bölmək olar: islama qədərki və islamdan sonrakı. Düzdür, bu dövrlərin elementlərini dəqiq göstərmək asan olmasa da, bəzi ümumi cəhətləri qeyd etmək olar. İslama qədərki dövr-

də qadınların daha  mübariz, daha qüdrətli olması barədə kifayət qədər məlumat mövcuddur. Bu qadınlar haqqında rəvayətlərə, əsərlərə nəinki Şərq ədəbiyyatında, hətta Avropa mənbələrində də təsadüf edilir.

Çeçen əfsanələrinin birində deyilir ki, qədim dövrlərdə hər bir döyüş dəstəsində ağ libasda, at belində, ağ rəngli “Malh-Azdi”/Malhan Aznı – Günəşin səsi adlı çeçen qızı var imiş. Onun paltarı və baş örtüyü “dəstəsinin müqəddəs bayrağı” hesab edilirdi. O, düşmənə oxu birinci atırmış. Onun işarəsi ilə (başını açmaqla) döyüş başlarmış və bitərmiş. Bəzi müasir tədqiqatçılar hesab edirlər ki, qədim dövrlərdə “ordunu idarə edən döyüşçü qadın institutu mövcud imiş və onun geyimi bu dəstənin bayraq rəmzi mənasını daşıyırmış”. Müasir tədqiqatçıların qeyd etdiklərinə görə, qədim zamanlarda “çeçen institutunun bünövrəsini qoyan da elə hərbi dəstələrə başçılıq edən qadın döyüşçülər olmuşdur”.

Strabonun qarqar etnosu haqqında yazdığı fikirlə razılaşaraq, belə bir nəticəyə gəlmək olar ki, onun təsvir etdiyi amazonların əcdadlarının bir qismi, çeçenlərdə daxil olmaqla, Qafqaz qadınları olmuşlar. Bu barədə yunan mifologiyasında da geniş bəhs edilmişdir. Sonralar, bu fikirlər alimlər tərəfindən də təsdiq edilmiş və bu barədə çoxsaylı əsərlər ərsəyə gəlmişdir. Amazonlar haqqında əfsanədə deyildiyi kimi, ox atmaq üçün bir döşlərini yandırmaq adəti qadınlar üçün yad bir şey olmamışdır və bu adəti yaxın tarixi dövrlərə qədər Şimali Qafqaz xalqlarının qadınları davam  etdirmişlər.

D. Xocayev “Çeçenlər rus-qafqaz müharibəsində” kitabında qeyd edir: “Amazonlar haqqında mifdə Çeçenistandakı qadınlardan bəhs edilir. Bu bilavasitə bölgədə mexkari adlanan xüsusi çeçen qadın kateqoriyasına aid edilə bilər, çünki amazon qadınların bütün əlamətləri bu tayfadakı qadınlarda var idi. Bu qrupa daxil olan qadınlar həyatlarını müharibəyə həsr edirdilər. Onlar kişilər kimi həyat tərzi keçirirdilər, onlar kimi geyinir, başlarına kişi papaqları qoyur, saçlarını kəsir, silah gəzdirir, sağ döşlərini dəri-

dən hazırlanmış kəmərlə (silqa) bərk-bərk sıxır, daima at belində gəzirdilər. Ərə getmək haqqına malik olmaqdan ötrü hökmən mexkarilər üç igidlik nümayiş etdirməli və üç düşmən öldürməli idilər".

Amazonlar haqqında yazılanlara, bu qadınların antik dövr əfsanələrində təsvir olunmuş həyat tərzinə nəzər salanda, onların vətəninin Qafqaz olması barədə fikirlərin əsaslı olması üzə çıxır. Strabonun təsvir etdiyi amazon qadınların hamısı Qafqazda yaşamırdılar. Bu onu deməyə əsas verir ki, amazon qadınlar dünyanın digər yerlərində də yaşamışlar.

Strabonun təsvir etdiyi amazonların geyimləri ilə Qafqaz amazonlarının geyimləri fərqli idi. Məsələn, Qafqaz amazonları dəbilqə, plaş və kəmər əvəzinə, sandal, "heyvan dərisindən" plaş, kəmər geyinirdilər. Yeri gəlmişkən, bu məsələ hələ ki, hərtərəfli araşdırılmamışdır və bu səbəbdən də, bu haqda dəqiq bir fikir söyləmək çətindir.

Qafqazda islamın yayılmasından sonra qadınların hərbi əməliyyatlarda iştirakı bir qədər məhdudlaşdırıldı. Bu dövrdə Şimali Qafqazda qadınların ictimai-siyasi təşəbbüslərinin azalması müşahidə olunurdu, çünki şəriət normaları qadınların amazonsayağı davranışlarına bəraət qazandırmırdı. Digər tərəfdən isə, bəzən hərbi qüvvələrin çatışmazlığı səbəbindən tayfa öz qadınlarını döyüşlərə cəlb etmək məcburiyyətində qalırdı. Bu, onlar üçün reallıqdan irəli gələn bir tələbat idi, dini borc deyildi. Bu yolla qadın öz ictimai vəziyyətini yüksəltməyə, kişilərin hörmətini qazanmağa müvəffəq olurdu.

Ümumiyyətlə, çeçen xalqından danışanda bir çox tarixi faktlara mütləq toxunmaq lazımdır. Çeçen adını bu xalqa çox sonralar vermişlər, çeçenlər özlərini "*noxçi*" adlandırırdılar. Tarix kitablarında "*noxçi*" adına daha tez-tez təsadüf olunur. Rusiya uzun sürən müharibədən sonra 1861-ci ildə bu torpaqları zəbt etmiş, lakin çeçenlərə qarşı təzyiqi bir gün də olsun dayandırmamışdı. Şimali Qafqazda çeçenlər qədər tarixi, mədəniyyəti, dili, dini

dəyişilən ikinci xalq yoxdur. Bu xalq dəfələrlə soyqırıma məruz qalmışdır. Bunun nəticəsi olaraq, XIX əsrdə çeçenlərin bir hissəsi yaxın ölkələrə, xüsusilə də Türkiyəyə üz tutmuşdu. Bu xalqa qarşı soyqırım siyasəti 1944-cü ildə də təkrarlanmışdı.

Bu gün Çeçenistanda günəş müqəddəs hesab olunur, ona and içilir. XIX əsrdə hər il günəşə həsr edilən, bayram qeyd edilirdi. Əsas rolu yuxarıda bəhs etdiyimiz Malhan Aznı – Günəşin səsi / "Malh-Azdi" ("günəşin səsi") oynayırdı. Malhan Azna məşəl himnini oxuyur, sonra isə iştirakçılar dövrə vurub *zikr* – rəqsini ifa edirdilər. Çeçen cəmiyyətinin əsas sosial vahidi *tay* (ailəni birləşdirən, ata tərəfindən hesab edilən qan qohumluğu) idi. *Tay*lar 30-40 nəsildən ibarət idi. Onların özlərinəməxsus yarımifoloji əcdadları, yalnız onlara aid  əraziləri, qəbirləri, döyüş qüllələri, məbədləri və müqəddəs məkanları var idi. Əsrlər boyu *tay* öz daxili strukturuna malik olmuşdur. Fərdi ailələr (dozval) bir evdə (tsla) birləşir və daha böyük ittifaqlar yaradırdılar. Tsla, neki, qar bir ittifaq olaraq, əcdadların adını daşıyırdılar.

Çeçenlərin özəl adətləri də var idi. Dağa çıxanla dağdan düşən rastlaşanda, aşağı düşən salam verməli, atlı piyadanı salamlamalı, qaçqına sığınacaq verilməli, hiylə ilə qələbə qazanan döyüşçü sürgünə məhkum edilməli idi. Qadının şərəfinə toxunmuş və ya onu qətlə yetirmiş kişini ölüm gözləyirdi, öldürülmüş bir qadın üçün öldürən tərəfdən iki kişinin öldürülməsi şərt idi. Adətlər hər bir halda, əxlaq normaları hesab edilir və cəmiyyət həyatını tənzimləyirdi (Д. Хожаев, 1998: 15).

**Böyük Vətən Müharibəsi və Şimali Qafqaz qadınlarının qəhrəmanlıqları.** Tədqiqatlar göstərir ki, hər hansı bir ölkədə müharibə baş verirsə, həmin ölkənin qadınları müharibədən kənarda qalmırlar. O ölkələrdə ki, müharibələr daha tez-tez baş verir, həmin ölkələrin qadınları hərbi vərdişlərə daha yaxşı yiyələnirlər. Qadınlar müharibədə vuruşmaqdan daha çox özünümüdafiə vəziyyətində olurlar. Nəzərə alınsa ki, Şimali Qafqaz tarixən

müharibə zonası olmuşdur, o zaman qadınların malik olduqları hərbi keyfiyyətləri daha yaxşı anlamaq olar.

Böyük Vətən müharibəsinin ilk günündən Qafqaz xalqları da başqa Sovet xalqlar kimi, Sovet İttifaqının müdafiəsinə qalxdı. Qafqaz qadınları bu dövrdə çox fəalliq nümayiş etdirdilər. 1917-ci il Oktyabr inqilabından sonra bölgələrdə qadınların həm siyasi, həm də əmək fəallığı artmışdı. Sovetlər dövründə Qafqaz qadınının yeni sosial tipi yaranmışdı. Bu qadınlar özlərinin ən yaxşı keyfiyyətlərini Böyük Vətən müharibəsi dövründə göstərmişlər ("*КПСС в резолюциях и решениях съездов, конференций и пленумов ЦК*", 1985: 221-223).

1940-cı illərin əvvəllərində Şimali Qafqaz ölkənin mühüm kənd təsərrüfatı, energetika və kurort bazası idi. Bölgənin gözəl iqlim şəraiti kənd təsərrüfatının bütün sahələrinin inkişafı üçün münbit şərait yaratmışdı. Neft, qaz, kömür, metal, meşə, tikinti materialları, duz, enerji resursları və digər təbii nemətlərin bolluğu bu bölgənin qiymətini daha da artırırdı. Zəngin minerallar, təbiətin rəngarəngliyi və gözəlliyi bölgədə kurort sənayesinin inkişafı üçün əlverişli şərait yaradırdı. Sənayeləşdirmə dövründə bölgədə böyük şəhərlərin sayı artmış, Krasnodar, Qroznı böyük şəhərlər siyahısına daxil olmuşdu.

1926-1939-cu illər arasında şəhər əhalisinin çəkisi 10 % artmışdı. Müharibənin əvvəllərində əhalinin 70%-i kənd yerlərində yaşayırdı ("*Женщины Северного Кавказа накануне Великой Отечественной войны 1941-1945 гг",* 2002: 159), sənaye və nəqliyyat işçilərinin sayı yarım milyona bərabər idi. Şimali Qafqaz ölkənin aqrar-sənaye rayonuna çevrilmişdi [("*Благотворительность ставропольцев в годы Великой Отечественной войны (1941-1945 гг*), 2002: 154-155)].

Bölgədə infrastrukturun inkişafı 7,5 milyon əhalinin səmərəli əmək və mədəni yüksəlişi üçün yaxşı imkanlar yaratmışdı. Şimali Qafqazın milli tərkibi çox çeşidli idi, burada yüzlərlə xalq, etnik qrup yaşayırdı. Burada rus, ukraynalı, Dağıstan xalqları, çeçen,

qaraçay, osetin, çərkəz, kabardin, yunan, azərbaycanlı və digər xalqlar yaşayırdılar. Xalqların etnomədəni xüsusiyyətləri bölgənin inkişafının mürəkkəb və spesifik proseslərini müəyyənləşdirirdi.

Müharibə ərəfəsində bölgə əhalisinin sosial tərkibi tamamilə dəyişdi. Qadınların ictimai-siyasi fəallığı birdən-birə artdı. Sovetlər dönəmində dövlət həyatın bütün sferalarında qadınların hüquqlarını kişilərlə bərabərləşdirən qanunlar qəbul etdi.

Sovet İttifaqında uşaq bağçaları, sağlamlıq mərkəzləri, məktəbəqədər müəsisələrin yaradılması qadınlara əmək fəaliyyətlərini inkişaf etdirmək üçün böyük imkanlar açdı. Müharibə başlananda bölgədə 900 uşaq bağçası və 15 min müxtəlif tipli məktəb fəaliyyət göstərirdi. 1939-cu ilin statistikasına görə əhalinin 3,9 milyon nəfər qadın idi ki, bu da əhalinin 52 %-ni təşkil edirdi. Bu qadınların çoxu sənaye və kənd təsərrüfatının müxtəlif sahələrində çalışırdılar. 1930-cu illərdə partiya və hökumətin qarşısında duran ümdə vəzifələrdən biri də, bölgə iqtisadiyyatında qadın kadrlarının sayını artırmaq idi.

1942-cı il iyulun sonunda faşist ordusu Şimali Qafqaza hücum etdi və regionun bir hissəsini zəbt etdi. Bu ərazilər kütləvi şəkildə hava hücumlarına məruz qalırdı. Etnik tərkibin müxtəlifliyini, əhalinin müəyyən hissəsinin sovet hökumətindən narazı olmasını nəzərə alan faşistlər burada, partizan hərəkatını genişləndirmək qərarına gəldilər. Onlar insanlarda antisovet əhvali-ruhiyyəsi yaratmağa çalışırdı, kifayət qədər çətinliklərlə üzləşən kazaklarla əməkdaşlıq edirdilər. Alman ordusuna bu xalqlarla ehtiyatlı davranmaq barədə xüsusi göstərişlər verilmişdi. Yalnız əhali almanlara qarşı nifrət hissini aşkar bildirdiyi halda, ordu yerli əhali ilə sərt davranmalı idi. Yerli əhalinin narazı qaldığı sahələri təyin edən alman komandanlığı kolxoz sistemini ləğv etdi, əvəzində kollektiv təsərrüfatlar yaratdı. Əhaliyə dini mərasimləri yerinə yetirmək, adət-ənənələrə əməl etmək imkanı verilirdi. Əvvəllər müsadirə edilmiş əmlak geri qaytarılmışdı. Əhalinin inamını qa-

zanmaq üçün orduya əlindən gələni etmək əmri verilmiş və sovet hökumətinə tabe olmayan qüvvələrlə əməkdaşlıq etmək barədə göstəriş verilmişdi. Bu siyasət digər bölgələri az itki ilə işğal etmək üçün lazım idi. Bəzən daha sərt qaydalar tətbiq etmək məcburiyyətində qalan almanlar, bunu niyə etdiklərinin səbəbini də əhaliyə izah edirdilər. Qafqazlıların xüsusiyyətlərini yaxşı bilən alman komandanlığı öz hərbçilərinə Qafqaz qadınına hörmət etmək göstərişi də verildi. Əvvəllər heç bir adət-ənənəyə əhəmiyyət verməyən, vəhşiliklər törədən, insanlarla heyvandan da pis davranan alman ordusu, tam şəkildə deyilənlərə əməl edə bilməsələr də, müəyyən mənada bu xalqlar ilə fərqli davranmağa məcbur edildilər.

Müharibə ərəfəsində zəbt edilən ərazilərdə idarəedici orqanlarda yerli əhalinin nümayəndələrindən istifadə etmək haqqında göstəriş verilmişdi. 1942-ci il avqustun 28-də alman rəhbərliyi Azərbaycan, Gürcüstan, Dağlıq Qafqaz, Kuban və Terek üzrə idarəedici orqanlar yaratmaq barədə qərar qəbul etdi. Bundan ötrü sovet idarəçiliyi ləğv edilməli, hərbi-səhra komandanlığı, gestapo orqanları, cəza dəstələri yaradilmalı, məhkəmə qərarlarının icrasında yeni sistem tətbiq edilməli idi. İnam qazandıqdan sonra, alman işğalçılarına xidmət edən yerli sakinlərdən ibarət vətəndaş orqanlarının yaradılması nəzərdə tutulurdu. Bu orqanlara əsasən əhalinin o təbəqələri cəlb edilməli idi ki, onlar sovet hökumətindən narazı idilər. Məsələn, repressiyaya məruz qalan, zamanında sovetlərə qarşı mübarizə apardıqlarına görə tutulan, qolçamaq (kulak) adlandırılan kişiləri öz tərəflərinə çəkməli idilər.

Qafqaza ağ qvardiyaçı general Krasnov, keçmiş mülkədar Şkuro, gürcü knyazı Sultan Keliç-Qirey, erməni daşnakları toplanmışdılar. Knyaz Zafir Kelemetov və Davlet-Qeri Tavşikov Kabarda-Balkariyaya gəlmiş və Nalçikdə öz "hökumət"lərini yaratmışdılar. Krasnov Don, Kuban və Terekdən gələn könüllülərin hesabına ordu yaratmağa çalışırdı (Yenə orada).

Qadınların müharibədə iştirakı barədə Rusiya tarixində kifayət qədər faktlara rast gəlmək olar. Eyni zamanda tarixin səhifələrinə diqqətlə nəzər saldıqda, aydın olur ki, heç bir tarixi dövrdə bu ölkənin qadınları Böyük Vətən müharibəsi dövründəki kimi hərbi işə səfərbər olunmamışlar. Sovet Silahlı Qüvvələrində iştirak edən qadınların sayının milyona çatması dünya və Rusiya tarixində xüsusi əhəmiyyət kəsb edir. Bu rəqəmlərdə Qafqaz qadinlarının da önəmli payı var. Bu məsələnin tədqiqi müxtəlif suallar meydana gətirir: qadın səfərbərliyinin fəal sürətdə həyata keçirilməsi; bu istiqamətdə dövlət siyasəti; onların hərbi ixtisaslaşması; müharibə zonalarında olan qadın hərbçilərin sayı; müxtəlif sosial-demoqrafik xüsusiyyətlər; qadın qəhrəmanların təbliği  və sairə.

Müharibədən əvvəl dövlət öz siyasətini qadın emansipasiyasının üzərində qurmuşdu. Müharibədə qadınların ictimai həyatın bütün sferalarına cəlb edilməsi, yüz minlərlə qadının müxtəlif hərbi peşələrə yiyələnməsi, ordu sayının artırılması üçün vacib ehtiyatların yaradılması qadınların aktiv iştirakının ən mühüm şərtlərindən idi. 1939-cu il 1 sentyabrda qəbul edilmiş "Ümumi əsgəri vəzifə haqqında" qanunda qadının hərbi xidmətdəki hüquqları qeydə alınmışdır. On üçüncü maddəyə görə, tibb təhsilli, veterinar və texniki hazırlıqlı qadınlar orduya yardımçı və xüsusi xidmət aparmaq üçün qəbul edilə bilərdilər (Мурманцева В.С., 1974: 10). Bu qanun qəbul edilənə qədər, 1939-cu ilə aid statistikaya əsasən, Şimali Qafqaz Vilayətində cəmi 76 qadın hərbçi qeydə alınmışdı ("*Всесоюзная пепепись населения 1939 г.*", 1974: 29), lakin müharibənin başlanması ilə minlərlə qız-qadın hərbi qulluqçu kimi siyahıya alındı.

Müharibənin ilk günlərində Şimali Qafqaz zonasının qadınları bütün yığıncaq və iclaslarda vətənin müdafiəsinə tam qüvvələri ilə hazır olduqlarını və canlarından belə keçə biləcəklərini bəyan etdilər. Müharibəyə könüllü getmək üçün ərizə ilə müraciət edənlərin 50 %-indən çoxu qadınlar idi. Arxiv materiallarına nəzər

salanda aydın olur ki, ilk könüllülərdən R.Sotnokova, T.Qrişenko, A.Alekseenko, A.İvanova, P.Merekina, V.Rubsova (Stavropol şəhəri), P.Kuşenko, T.Şylqina, N.Anisimova, N.Parfenova (Petrovskiy rayonu) və başqalarının adını çəkmək olar. Müharibədən iki həftə keçəndən sonra Kuban qadınlarından müharibəyə getmək üçün 4000, Çeçen-İnquş Sovet Sosialist Muxtar Respublikası qadınlarından 1000, Stavropol qadınlarından 1000-dən artıq, Qaraçay-İnquş Muxtar Sovet Sosialist Respublikası qadınlarından 157 və digər bölgələrdən çoxlu ərizə daxil olmuşdu (Г.Н.Каменова, 1995: 29).

Qadınların müharibədə könüllü iştirak etmək istəyi bütün müharibə dövrünə təsadüf edirdi. Müharibə başlanandan 1944-cü ilin ortalarına qədər milli könüllülər dəstəsi formalaşdı. Milli qeyri-nizami qoşunların tərkibində Krasnodar və Stavropol diyarından 106 min qadın ərizə ilə müraciət etmişdi ki, bu da ümumi müraciət edənlərin 20 %-ini təşkil edirdi (Кирсанов Ч.А., 1982: 44). Təkcə Dağıstanın milli qeyri-nizami qoşunlarının tərkibində 3570 qadın var idi (“*Ранный подвиг в битве за Кавказ*”, 1981: 195).

Bununla belə, müraciət edən bütün qadınları müharibəyə aparmırdılar. Orduya götürmək üçün bir sıra xüsusiyyətlərə malik, hərbi-tibbi komissiyadan problemsiz keçə bilən, himayəsində azyaşlı uşaqları olmayan, siyasi savadı və orta təhsili olan, tibbi təhsili və xüsusi-texniki hazırlığı olan qadınlara üstünlük verirdilər. Geri qaytarılan əksəriyyət qadınlar müharibəyə getməkdə israrlı idilər, hərbi komissarlığa, partiya və komsomol təşkilatlarına müraciət edib müharibəyə getmələri üçün onlardan kömək istəyirdilər.

Tədqiqatlar göstərir ki, Şimali Qafqazda orduya səfərbərlik edilən qadınların 80 %-indən çoxu 35 yaşa qədər, 52 %-i isə 25 yaşa qədər olan qadınlar idi (Г.Н.Каменова, 1995: 29).

Müharibədə iştirak etmək istəyən gənc qadınlarda böyük ruh yüksəkliyi var idi. Onlar orduya yazılmaqdan ötrü əllərindən gələni edirdilər və ordu üçün mühüm olan ixtisaslara yiyələnirdilər.

1943-cü ilin oktyabr-dekabr aylarında Stavropol diyarında hərbi komitədə qızların hərbi ixtisasları aşağıdakı vəziyyətdə idi (Yenə orada):

| **Atıcılar** | | | | |
|---|---|---|---|---|
| | 1165/932 | 181/144 | 380/304 | 401/320 |

Nəticədə, 3584 qadın hərbi hazırlıq kurslarından keçmişdilər və onlardan 2865-i hərbi səfərbərliyə alınmışdı.

Bölgədə hərbi ixtisaslara yiyələnən qadınların sayı illərə görə aşağıdakı kimi idi (Yenə orada. Ф. 7. Он, 881806. Д. 192. Л. 62):

| **1941-1943 illər** | **1944 il** | **1945 il** | **Ümumiyyətlə** |
|---|---|---|---|
| 4433 | 500 | -- | 4933 |

Bu məlumatları tam hesab etmək olmaz. Bəzi mənbələrdə orduya gedən qadınların sayı 500 min və 1 milyon nəfər arasında dəyişir.

Stavropol diyarından 15 min qadın müharibəyə getmişdir ki, onlardan 700 nəfəri qaraçay və çərkəz idi. Könüllülərin ümumi sayının 25 minə qədər olduğu haqda da məlumatlar mövcuddur (Yenə orada).

Hərbi ixtisaslara yiyələnmək üçün təkcə hərbi müəssisələrdən deyil, mülki müəssisələrdən də istifadə edirdilər.

Bölgədən səbərbərliyə alınan qızlar müxtəlif cəbhələrdə vuruşurdular. Belə ki, 1942-ci ilin baharında səfərbərliyə alınan qızlar Voronej, Stalinqrad, Don və digər bölgələrə göndərilmişdilər. Stavropol və Kubandan Zaqafqaziya cəbhəsinə 10 mindən çox qız və qadın göndərilmişdi.

Bir çoxları üçün müharibədə üzləşdikləri şərait çox sərt idi: çətin məişət şəraiti, fiziki və emosional gərginlik, kişilərin cəbhədə vuruşan qadınlara münasibəti və sairə. Buna baxmayaraq, mü-

haribədə iştirak edən qadınların mənəvi hazırlığı onlara belə ağır şəraitə qatlaşmaq gücü verirdi.

Qadınların əksəriyyəti ön cəbhəyə can atsalar da, onları çox vaxt arxa cəbhədə saxlayırdılar, çünki arxa cəbhədə də müharibə üçün görüləsi işlər çox idi. Arxa cəbhədə qalan qadınlar ön cəbhə üçün hazırlıq kurslarında təlim və təhsil alırdılar: Onların arasında təyyarəçilər, tankçılar, snayperlər, dəniz döyüşlərində iştirak etmək üçün müxtəlif ixtisaslar üzrə hərbi hazırlıq keçənlər vardı.

Bununla bərabər, müharibədə iştirak edən qadınların arasında ən çox tibb üzrə, həm ali təhsilli, həm də orta təhsilli kadrlar yetişdirilirdi. Cəbhədə olan həkimlərin 46 %-i, hərbi cərrahlardan 43 %-i, feldşerlerin 57 %-i, tibb bacılarının 100 %-i, sanitar təlimatçıların 40 %-i qadın idi. Arxa cəbhədəki tibb işçilərinin əksəriyyəti qadınlar idi (Кылаев Ч.С., 1981: 87).

Hərbi tibbi kadrların əksəriyyəti hospitallarda xidmət edirdi. Stavropol diyarı kurort və sanatoriyalarla bol yer olduğuna görə, ən böyük xəstəxanalar burada tikilmişdi. Müharibənin ilk illərində burada 30 min yerlik 100 hospital fəaliyyət göstərirdi. Bu hospitallara ən çox ağırlıq 1942-ci ilin yayında düşdü. Stalinqrad uğrunda gedən döyüşlərdə Şimali Qafqazdakı xəstəxanalar əvəzolunmaz xidmətlər göstərirdilər.

1943-cü ilin yanvarından Şimali Qafqazdakı xəstəxanaları hərbi xidmətlər üçün bərpa etdilər. Bu çox ağır şəraitdə həyata keçirilirdi. Təkcə Kislovodsk kurortunda 21 hospital yerləşirdi. Bir həkimə 100-130 xəstə düşürdü. Aparıcı cərrahların sırasında Şimali Qafqaz qadınlarından R.F.Akulova, E.M.Panova, A.D.Myakutina, T.İ.Mitkova və başqalarının da adlarını çəkmək olar.

Onların arasında valideynlərindən xəbərsiz müharibəyə gedən yeniyetmələrə də rast gəlmək olurdu. Məsələn, Dağıstan sakini 14 yaşlı Klara Solonenko, 17 yaşlı Nataşa Radçenkonun sənədləri ilə müharibəyə getmişdi. Qısa bir müddət ərzində o teleqrafist peşəsinə tam yiyələnmiş, sanitar təlimatçı, kəşfiyyatçı, artillerist kimi fəaliyyət göstərmişdi. Komandanlıq Klaranın dəqiq yaşı-

nı biləndə onu geri, evlərinə göndərmişdi, lakin Klara yenə də evə qayıtmaq əvəzinə hərbi hospitalda tibb baçısı kimi fəaliyyət göstərmişdi. Bir neçə dəfə cəbhəyə qayıtmaq üçün ərizə ilə hərbi komissarlığa müraciət etmiş və nəhayət, 1944-cü ilin avqustunda o, cəbhəyə geri dönə bilmişdi, lakin onu artıq kəşfiyyata göndərmirdilər, o, artilleriya diviziyasında sanitar təlimatçı vəzifəsini yerinə yetirirdi. 1944-cü ildə Klara döyüşdə həlak oldu, iki medal və III dərəcəli Şərəf Ordeni ilə təltif edildi. Böyük Vətən müharibəsində belə taleli Qafqazlı qızların sayı kifayət qədər çox idi.

Minlərlə qadın tibb işçisi döyüş hissələrində qəhrəmanlıqla vuruşurdu. Nadejda Stepanovna Savçenko (stanitsa Borqustan, Stavropol diyarı) iki dəfə "hərbi xidmətlərinə" görə medalla təltif edildi. Fatma Dodoyeva (Koşelova) cəbhə bölgəsindən 50 yaralını Dnepr boyu döyüş hissələrindən hospitala gətirmişdi. O, Qırmızı Ulduz ordeni ilə təltif edilmişdi.

Müharibə zamanı qadınların cəsurluğu ilə bağlı tədqiqatlarda cəbhədəki kişilərlə nisbətdə faiz göstəriciləri də maraq kəsb edir. Şimali Qafqazdan müharibədə iştirak edən qadınlar ümumilikdə cəbhədə iştirak edən bütün qadınların 30-40 %-ini təşkil edirdilər. Bu bölgənin qadınlarının fəallığından və hərbi peşəkarlığından xəbər verir.

Bölgənin qadınları partizan hərəkatında da yaxından iştirak etmişlər və öz yardımlarını kişi həmkarlarından, vətənlərindən əsirgəməmişlər. Bölgədə 47 partizan dəstəsi fəaliyyət göstərirdi və buradakı iştirakçıların sayı 2 mindən artıq idi. Şimali Qafqaz partizan dəstələrində döyüşçülərin 8-10 % -i qadınlar idi. Təkcə Stavropolda bu dəstələrdə 250 qadın fəaliyyət göstərirdi (Сивков В.И., 1965: 184). Verilən məlumatlar bu diyarın özəlliyini bir daha təsdiq edir, yəni diyarın özəllikləri elə buranın qız və qadınlarının özəllikləri ilə səciyyələnir.

Böyük vətən müharibəsi zamanı qadınların çox hissəsi böyük diapozonda kəşfiyyat, diversiya və siyasi işlərdə fəaliyyət göstərmişlər. Nina Anançenkonun təşkil etdiyi partizan kəşfiy-

yatçı dəstəsində qadınlar xüsusilə qəhrəmanlıq göstərmişlər. 18 yaşlı Anna Şilina partizan kəşfiyyat dəstəsində vuruşmuşdur. O, 40 hitlerçini məhv etmiş, iki avtomaşını və bir tankı partlatmışdır (Жинкин А.В., 1981: 201). Kəşfiyyat zamanı həlak olmuş bu qız döyüşə-döyüşə 7 alman faşistini öldürmüşdü.

Tarixi mənbələrdə Zalihət Erkenovanın müharibədəki qəhrəmanlığı haqqında da məlumat verilir. Bu qadın üç saat ərzində avtomatdan atəş açmaqla, öz dəstəsini qorumuşdur. Düşmən əlinə keçəndən sonra hər cür əziyyətlərə məruz qalmışdır və sonda öldürülmüşdür (Г.Н.Каменова, 1995: 154).

Bu yüksək göstəricilər qadınların hərbi dövrlərdə əldə etdikləri uğurlardan xəbər verir. Onların həm ideoloji, həm də fiziki hazırlıqları kişilərdən geri qalmırdı. Sülh zamanı onların süni şəkildə uzaqlaşdırıldıqları peşələrin hər birinin öhdəsindən müharibə dövründə uğurla gələ bilmələri, onların mükəmməl döyüş qabiliyyətlərinin olmasına şübhə ilə baxan əks cinsin bəzi nümayəndələrinə yaxşı cavabdır. Döyüş zamanı qadınların göstərdikləri qəhrəmanlıqlar, onların peşəkarlıqları, cəsurluq və dözümlülük vərdişləri, qadınları "zəif məxluqlar" hesab edənlərə tutarlı arqumentdir. Bütövlükdə, qadınlar Böyük vətən müharibəsində heç bir qabiliyyəti ilə kişi həmkarlarından geri qalmırdılar.

Sovetlər dövrünə təsadüf edən Böyük vətən müharibəsində qafqazlıların yüksək hərbi keyfiyyətləri, vətənpərvərlikləri, döyüş qabiliyyətləri ilə fərqlənmələrinə baxmayaraq, onlar da Stalin rejiminin qurbanı olmuşdular. Böyük vətən müharibəsi illərində Qafqazın bir çox xalqları repressiyaya uğramış və özlərinin tarixi, dədə-baba yurdlarından deportasiya edilmişdilər. 1943-44-cü illərdə Şimali Qafqaz xalqlarından qaraçaylar, balkarlar, çeçenlər, inquşlar və digər xalqlar repressiyaya məruz qalmışdılar. Əzəli vətənlərindən deportasiya edilən çeçen və inquşların sayı yarım milyonu ötmüşdü və onların əvəzinə bu torpağa digər xalqların nümayəndələri köçürülmüşdü.

1943-cü ildə qaraçaylar, 1943-cü ilin dekabrında kalmıklar, 1944-cü ildə balkar, inquş və çeçenlər sürgün edildilər. 1944-cü ildə Ümumrusiya Kommunist Partiyasının Mərkəzi Komitəsində Dağıstan xalqlarını da Mərkəzi Asiyaya sürgün etmək haqqında məsələ müzakirəyə çıxarılmışdı. Dağıstan Vilayət Komitəsinin birinci katibi Əziz Əliyev böyük çətinliklə də olsa, Stalini bu addımı atmamağa razı sala bilmişdi (Курбанов М., 2006; Скаков А., 2001: 193-194).

## Ədəbiyyat:

**Rus dilində**

1. Анна Каретникова, “*К комендатуре мчится грузовик, нагруженный пластитом и судьбою.*”, Общество Размышления История, 2013;
2. “*Благотворительность ставропольцев в годы Великой Отечественной войны (1941-1945гг.*)”// Тезисы докладов Всероссийской научно-практической конференции: “*Милосердие и благотворительность в Российской провинции*”. Екатеринбург. 2002, с. 154-155.
3. “*Всесоюзная пепепись населения 1939 г.*”, М., 1974., С. 29
4. Г. Н. Каменова, “*Женщины Ставрополья на фронте Великой Отечественной войны*”, Ставрополь, 1995. С. 543
5. Д. Хожаев, “*Чеченцы в русско-кавказской войне*”, Издательцтво “Седа” Грозный, 1998 С. 15.
6. “*Женщины Северного Кавказа накануне Великой Отечественной войны 1941-1945 гг”.* // Материалы межвузовской научной конференции с международным участием: “*Вторая мировая и Великая Отечественная война: актуальные проблемы социальной истории*”. Майкоп. 2002, С. 158-162.
7. Жинкин А. В., “*Ратный подвиг советских женщин в битве за Кавказ*”// Сб. Статей. М.: Наука, 1981. С. 201.

8. Кирсанов Ч.А., "*КПСС -вдохновитель и организатор добровольцеских формирований Красной Армии в годы Великой Отечественной войны"*, Автореф. Док. ист. наук. – М., 1982. -С. 44.
9. "*КПСС в резолюциях и решениях съездов, конференций и пленумов ЦК*". — М. : Политиздат. 1985. Изд. 9-е. Т. 7. С. 221-223.
10. Курбанов М. Репрессии против народов Дагестана. С. 164–167; Литвинова Т. Н., "*Современная политическая элита Северного Кавказа: проблема становления"*, Кавказский сборник. Т. 3 (35). М., 2006. С. 285; Скаков А. "*Кабардино-Балкария: угрозы стабильности"*// Центральная Азия и Кавказ. № 1 (13). 2001. С. 193-194.
11. Кылаев Ч.С., "*Военно организаторская и политическая работа местных организации в годы в годы Великой Отечественной войны*». Черкесск. 1981, С. 87.
12. Мурманцева В.С., " *Советские женшины в Великой Отечественной. Войне 1941-1945 гг.,* " М., 1974, С. 10.
13. "*Ранный подвиг в битве за Кавказ*", М., 1981. -С. 195.
14. Сивков В.И. "*Партийные организации во главе партизанского движения на Северном Кавказе*". Дис. док. ист. наук. Пятигорск, 1965. С. 184.
15. Трунов Д. Комсомол Дагестана в Отечественной войне. Махачкала: Даггиз. 1943. – 47 с.

## Basayevin döyüşən qadın bölməsi

2003-cü ildə Ukraynada dərc olunan “Stoliçnıe novosti” (“Столичные новости») qəzetində yazırdılar ki, 1990-cı illərin ortalarında Şamil Basayev qadınlardan ibarət döyüş bölməsi yaratmışdı. Bunu yaradanda o, döyüşənlərin Ukrayna və Pribaltikadan olduğunu iddia etmişdi. Basayev onların pulla döyüşdüyünü və həmin döyüş bölməsinə də öz bacısı Mədinənin başçılıq etdiyini təsdiq etmişdi (http: //www._rg.ru/2004/09/18/basaev._html)

Jurnalistlər isə Şimali Qafqazda döyüşən qadınların Çeçenistan və Şimali Qafqazın digər respublikalarının vətəndaşları olduğunu ehtimal edirdilər. Ola bilsin ki, jurnalistlər 2001-ci ildə Basayev tərəfindən yaradılan qadın ordusunu, 2002-ci ildə Moskvada “Nord-Ost” kinoteatrında terror törədən təşkilatla səhv salırlar. Basayevin qadın döyüşçülərinin və çeçen səhra komandiri Movsar Barayevin dəstəsinin Rusiyada hərbçilərə hücum etmələri, terakt törətmələri öz təsdiqini tapmışdır. Bu hadisəni törədənlərin arasında çeçen döyüşçülərinin dul qadınları və yeniyetmə qızlar da var idi. Çeçen hərbçiləri bu qız-qadınlara psixoloji hazırlıq keçmiş və onları terakt törətməyə vadar etmişdilər (http: //compromat._ru/page_12788._htm)

Çeçen qadın döyüşçülər haqqında o dövrün KİV-ində kifayət qədər məlumatlar dərc edilirdi. 21 may, 2003-cü ildə Rusiya Federasiyası Hərbi Nazirliyinin Mərkəzi orqanı olan “Krasnaya zvezda” (Красная звезда) qəzetinin “Çeçenistan: Həftəlik icmal” rubrikasında, jurnalist Nikolay Astaşkinin “Yenə də partlayış, yenə də qurbanlar” adlı məqaləsində “Qara geyimli dul qadınlar” və ya “Ağ corablar” adlı döyüş qrupundan bəhs edir. Çeçenlərin “Qara geyimli dul qadınlar” qrupu haqqında yəqin ki, çoxlarının məlumatı vardır. Bu qadın snayperləri həm də terrorçu-kamikadzelər adlandırırlar. Onlara həm də “Ağ corab”lılar deyirlər. Biz bu

"dul qadınlardan" birini ələ keçirmişdik. Sən demə, leninqradlı qız, biatlonistka pula görə qardaşlarını öldürürmüş.

16 dekabr 2005-ci ildə "Rossiyskaya qazeta"-da (Российская газета) "Missiya yerinə yetirilmədi" adlı məqalə dərc edildi. Çeçenistanın Kurçaloyevski rayonunda Aslan Məshədovun başçılıq etdiyi bandit qrupu məhv edildi. Döyüşçü qrupundan cəmi iki qız sağ qalmışdı. Sorğu-sual edildikdın sonra çeçen qızı Saida Maxçayeva və Azərbaycan vətəndaşı Alina Saqitova boyunlarına aldılar ki, onları neçə aydır Çeçenistanın ərazisində terakt törətmək məqsədilə hazırlayıblar. Onlar əvvəlcədən hazırlanmış plana görə bombanı bədənlərinə bağlayaraq, lazımi yerdə partlayış törətməli və səhid olmalı idilər.

Sözsüz ki, Çeçenistan ərazisində qadın döyüşçü-şəhidlər hazırlayan düşərgənin olması barədə xüsusi xidmət orqanlarının məlumatı var idi, lakin bu şəhid-canlı bomba rolunu oynayan qadınları ələ keçirmək müşkül məsələ idi. Qəzet yazırdı ki, hüquq mühafizə orqanları dəqiq məlumat əldə etmişdi ki, Çeçenistanın cənub-şərqində, Veden rayonunda yerləşən və Aslan Məshədovun sərəncamı ilə yaradılan şəhid-ölüm məktəbləri var idi. Burada hazırlıq keçənlərin nüvəsi qadınlardan ibarət idi. Onlar bir əmrlə ölümə getməyə hazır idilər və öz ölümləri ilə onlarla insanın (onlara görə düşmənin) ölümünə bais olacaqlarını əvvəlcədən bilirdilər. Döyüşçülərin qarşısında duran əsas vəzifə də bu idi. Onların arasında ölmüş sahə komandirlərinin həyat yoldaşları da var idi. Movsar Barayev "Nord-Ost" teatr mərkəzini zəbt etdikdən sonra teleekrandan məhz bu "bacılar"ı reklam edirdi. Döyüşçülərin əksəriyyəti əsasən qadınlardan ibarət idi. Burada döyüşən qadınların arasında Çeçenistanda yaşayan Rusiya, Azərbaycan, Dağıstan, Gürçüstan, Türkiyə vətəndaşları da var idi. Qadınlar əsasən 15-20 yaş arasında  olsalar da, döyüşənlərin arasında 13-14 yaşında qız uşaqlarına da təsadüf etmək olurdu. Qızlar dəfələrlə zorlandıqdan, alçaldıqdan, döyüldükdən və narkotikə alışdırıldıqdan sonra "könüllü" şəkildə bu ölüm yolunu seçirdilər.

Birinci çeçen konfliktində qadın batalyonuna aid snayperlərin, "ağ corablılar"ın "döyüş qabiliyyəti, igidliyi" haqqında hər kəs eşitmişdi. Bu snayper hərəkatının başında Basayev və bilavasitə qadın döyüşçülərinə başçılıq edən Mədinə Basayeva dururdu. Düzdür, batolyonda vuruşan qadınların əksəriyyəti Pribaltika biatlonistləri və Ukrayna vətəndaşları idilər. Döyüşçülərin təbirincə desək "rəfiqələr" kontraktla vuruşurdular və hər öldürülən əsgərə görə 200-500 dollar alırdılar. Əslində, düşmən tərəfindən öldürülənin hərbi titulu yüksək olduqca, onlara çatan pulun həcmi də böyüyürdü. Bəzən bu qonarar 1000 dollardan 1500 dollara qədər artırdı. "Ağ corablı"ların qəribə döyüş taktikası var idi, onlar düşməni əvvəl ayaqdan nişan alırdılar və ondan sonra başından güllələyirdilər. Snayperlər federalların əlinə keçmək təhlükəsini hiss edəndə, dərhal özlərini güllələyirdilər. Ona görə də bu döyüşən qadınların ömrü uzun olmurdu.

İkinci Çeçenistan müharibəsində muzdlu döyüşçü qadınları çeçen qadınları əvəz etdilər. Demək olar ki, artıq döyüşçülərin arasında çeçen qadınlarından savayı digərləri yox idi. Bu mərhələdə çeçen qadın snayperlər daha peşəkar idilər. Əgər əvvəllər muzdlu snayper qadınlar (1996) digərləri ilə müqayisədə yaxşı hesab edilirdilərsə, 2000-ci ildən sonrakı dövrdə çeçen snayper qadınlar daha peşəkar idilər. Federal döyüşçülər də xüsusi hazırlıq keçmiş əla snayperləri müharibəyə cəlb etmişdilər. Çeçenistanda vuruşan snayperlər "Alfa" xüsusi bölməsinin peşəkar snayperləri idilər.

## Ədəbiyyat:

**Rus dilində**

1. Статья "Миссия_невыполнима", "Rossiyskaya qazeta", Неделя №3952 от 16 декабря 2005 г.

**Internet**

http://www.rg.ru/2004/09/18/basaev. html

http://compromat.ru/page_12788.htm

# VIII FƏSİL

# QAFQAZDA GENDER VƏ SOSİAL-HUQUQİ DURUM

**XIX əsrin sonu XX əsrin əvvəllərində Qafqazda müsəlman əhali arasında miras bölgüsü qaydaları.** Qafqazda miras bölgüsü xüsusi qaydalarla həyata keçirilir. Belə ki, miras ailədəki oğulların hamısına bərabər paylanılmır, mirasın əsas hissəsi ailənin böyük və kiçik oğluna düşür. Ailə sahibinin ölümündən sonra ailənin xanımına və onun ailə qurmayan qızlarına da müəyyən pay ayırırlar (Шарданова Я., Леонтович Ф.И., 1883: 24). Ailənin digər qadınlarına mirasdan pay düşmürdü. Bəzən onlara qulluqçulardan, cəvahiratdan və ya mal-qaradan pay ayırırdılar. Əsas qadağa ondan ibarət idi ki, qadınlara torpaq və ya ondan istifadə hüququ verilmirdi. Bu zaman şəriət qaydalarından daha çox, əsrlərdən gələn adətlər əsas rol oynayırdı (Миллер Б., 1902: 37). Şəriət qaydalarına görə dul qalmış xanıma həm mülk, həm də digər mirasdan pay düşürdü. Dul qalmış qadın adətən sonuncu oğul övladı ilə yaşamalı idi. Dul qalmış baldızın övladları dayıların qəyyumluğu altında yaşayırdılar. Dul qadın ərinin evində yaşaya bilər və hətta subay qayınlarına ərə də gedə bilərdi. Qaynına ərə gedən dul qadının ərindən qalan mal-mülkü avtomatik olaraq ərə getdiyi qardaşın ixtiyarına keçirdi. Dul qalmış qadınlar qardaşlarının evində də yaşaya bilərdilər və bu halda onlar yalnız qardaşların icazəsi ilə ailə qura biərdilər. Ailə qurmağın əsas şərtlərindən biri kənar insanlara ərə getməmək idi (Венедиктов М., 1837: 27–32).

Ümumiyyətlə, mirasın bölünməsi adətində Qafqaz xalqlarının müsəlman əhalisi arasında fərqlilik müşahidə edilmirdi. Miras kişi xətti üzrə paylanılır, qadınların bu mirasda haqları yox

idi. Ata rəhmətə getdikdən sonra miras oğula keçirdi. Əgər oğul yox idisə, miras avtomatik olaraq rəhmətə gedən kişinin qardaşları arasında bölünürdü. Qardaşlar da yox idisə, o zaman rəhmətə getmiş qardaşların oğulları bu var-dövlətə varis çıxa bilərdilər. Yuxarıda sadaladığımız kişi qohumlar olmasa, o zaman qızlar mirasa varis ola bilərdilər. Əri rəhmətə gedən qadının mirasa varislik hüququ yox dərəcəsində idi. Miras yalnız o zaman qadına verilirdi ki, onun həyat yoldaşı sağlığında mollanın iştirakı ilə ona nəsə bağışlasın və ya bu, qadına verilən hədiyyə olsun. Bütün bunların olmadığı halda qadının taleyi onun oğul varislərindən asılı olurdu. Onlar bu qadına yenidən ailə qurana qədər və ya dünyasını dəyişənə qədər sahib çıxıb qayğısına qalırdılar. Atalarının vəfatından sonra varislər həmçinin evdəki subay bacılarını ərə verməyə və onları cehizlə təmin etməyə borclu idilər (Леонтович Ф.И., 1883: 149).

Miras məsələsində qadınlara olan münasibət, statuslarına uyğun olaraq fərqli ola bilərdi. Məsələn, knyazın qızı mirasın bir hissəsinə sahib çıxa bilərdi, mirasın ½-i qıza çatırdı, yəni oğul övladı ilə bərabər mirasa varis çıxma hüququna malik idi, lakin dul qadın mövcud mülkün səkkizdə bir hissəsinə, övladları isə ¼-inə iddia edə bilərdi (Леонтович Ф.И., 1883: 245-246). Bu zaman şübhəsiz ki, müsəlman hüquq normalarına əsaslanırdılar.

Patriarxal struktura malik olan cəmiyyətdə hər bir şey kişilərin xeyrinə idi. Miras yalnız sağ qalmış yaxın kişi qohumların arasında bölünürdü. Bu zaman nəslin üzvlərinin bu mirasa qovuşması əsas tutulurdu. Onlar dul qadının yenidən ərə gedə biləcəyi ehtimalını əllərində əsas tutaraq, kişi qohumlarına üstünlük verirdilər, çünki dul qadın ərə gedəcəyi halda var-dövlət başqa bir nəsilə qismət ola bilərdi (Ковалевский М.М., 1885).

Yuxarıda bəhs edilən qaydaların əksəriyyəti adətlərdən qaynaqlanırdı: "Qızların oğul övladları yox idisə, valideynlərinin ölümündən sonra qalan mirasa sahib çıxa bilməzdilər" (Леонтович Ф.И., 1883: 24). Ailə başçısı rəhmətə gedəndən sonra, onun yası-

na sərf ediləcək məsrəfi də çıxıb mirası bölürdülər. Dul qalmış ana ərə getməmiş qızları ilə bərabər kiçik oğul övladının himayəsinə keçirdi və bunu nəzərə alıb, həmin qardaşa digər qardaşlardan daha çox var-dövlət verilirdi. Əgər rəhmətə gedən kişinin soyunda heç bir kişi qohumu yox idisə, onun var-dövləti qeyd-şərtsiz onun kürəkəninə keçirdi (Ковалевский М.М., 1886: 302). Bu o zaman baş verirdi ki, rəhmətə gedən kişinin birbaşa kişi varisi yox idi.

Müsəlman qaydalarına görə beşinci nəslə qədər kişi tərəfdən olan qohum, üçüncü nəslə qədər qadının qohumu varis sayılırdı. Müsəlman adətlərinə görə mirasa valideyn, övlad və ər-arvad iddia edə bilər. Qalan qohumlar miras almaqdan uzaq tutulur.

Şəriətə görə miras aşağıdakı şəkildə bölünür: Ərin uşaq və nəvələrinə mirasın dörddə bir, onlar yoxdursa ikidə bir hissəsi verilir. Analoji situasiyalarda evin xanımı mirasın səkkizdə bir hissəsinə sahib çıxa bilər. Övlad və nəvələri olan ana, adətən mirasın altıda bir hissəsinə sahib olur. İki və daha çox qızı olan ana, üçdə iki hissəsinə yiyələnir. Oğul hər zaman qız övladdan iki dəfə çox paya sahib olur (Quran: IV, 12.)

Qafqazda müsəlman əhali arasında mirasın bölünməsi həm şəriət qaydaları, həm də adətlərə görə tənzimlənirdi. Şəriətə görə dul qadına mirasın səkkizdə biri çatmalı, qalan var-dövlət isə uşaqlara verilməli idi. Qız övladların həddi-buluğa çatmayan övladları var idisə, o zaman onlara mirasdan pay verilirdi. Uşağı olmayan dul qadın mirasın dörddə birinə sahib çıxa bilər, qalan hissə isə yaxın qan qohumları arasında bölünməli idi. Yuxarıda göstərilən bölgü şəriətdən daha çox adətlərə əsaslanırdı. Bir məsələni də qeyd etmək lazımdır ki, əgər ölən kişinin oğul övladı yox idisə, o zaman onun var-dövlətinə nəzarət və ailəyə qəyyumluq etmək ölənin ən yaxın kişi qohumuna həvalə olunurdu, lakin bu kənd və ya icma başçısının çıxardığı qərardan sonra icra edilirdi. Eyni zamanda həddi buluğa çatmamış oğlu olmayan dul qadına qəyyumluq məsələsini kənd icması həll edirdi.

Şimali Qafqazda adətlərdən gələn qaydaların əksəriyyəti müsəlman qanunlarına əsaslanırdı (Смирнова Я.С., 1983: 34). Mənbədə qeyd edilir ki, müsəlmanlar xalq adətlərindən savayı şəriət qaydalarına da riayət etməlidirlər. Adi adət normalarına görə qadına da mal-mülk miras qala bilər, məsələn, inquş qadınına miras kimi bir inək verilirdi. Adıgey qadını isə hətta kişi qohumlar olduqda belə, rəhmətə getmiş kişinin var-dövlətinə sahib çıxa bilərdi (Смирнова Я.С., 1983: 35). Bu zaman kişi qohumlardan biri dul qalan qadına hökmən qəyyumluq etməli idi. Bu həm müsəlman qaydaları, həm də adətlərlə möhkəmlənirdi. Şəriət qaydaları ilə qadın üçün mirasa sahib çıxmaq daha çox əlverişli idi. Adətlərə əsaslanan miras bölgüsü qadın üçün o qədər də əlverişli olmurdu.

Bəzi əsərlərdə qadınların mirasa sahib çıxması məsələsinə də yer verilir. Hüquqları məhdud olan qadının mirasa sahib çıxma haqqı tanindiqda belə, bu ona ya qismət olmur, ya da mirası almaq ona çox çətinliklə başa gəlirdi. Nüfuzlu kişi qohumların yardımı olmadan, mirasa sahib çıxmaq qadın üçün çətin olurdu. Bəzi istisna hallarda, XIX əsrin sonu - XX əsrin əvvəllərində qadınlar mirasa tam sahib ola bilirdilər. Qafqazda sovet hökuməti qurulana qədər qadınların mirasa sahib çıxmaq haqqı yalnız adətlərlə şəriətin qarışığından ibarət olan, qanun kimi formalaşan qaydalara əsasən həyata keçirilirdi. Ümumiyyətlə, cəmiyyət nə qədər patriarxal olarsa, orada kişilərin mənafeyi daha çox müdafiə olunar.

## Ədəbiyyat:

**Rus diində**

1. Венедиктов М., “*Взгляд на кавказских горцев // Сын Отечества*”. СПб., 1837. С. 27–32.
2. Ковалевский М.М. “*Обычное право горских татар и отношение его к осетинскому*”, Русский вестник, 1885, №322.

3. Ковалевский М.М., “*Современный обычай и древний закон*” 1886, Т. 1. С. 302.
4. Леонтович Ф.И., “*Адаты кавказских горцев*”, Записки Императорского Новороссийского университета, Одесса. 1883, Вып. 2. С. 149.
5. Миллер Б., “*Из области обычного права карачаевцев // Этнографическое обозрение*”, 1902, № 1–2. С. 37.
6. Смирнова Я.С., “*Семья и семейный быт народов Северного Кавказа, вторая половина XIX – XXв.* ”, Академия наук СССР, Институт этнографии им. Н. Н. Миклухо-Маклая. 1983г, М., С. 34.
7. Шарданова Я., // Леонтович Ф.И., “*Адаты кавказских горцев: Материалы по обычному праву Северного и Восточного Кавказа*”, Одесса, 1883, Вып. 2. С. 24.

# Şimali Qafqaz qadınlarının sosial-hüququ durumu: dağlı, kazak, köçəri xalqların qadınları (XIX əsrin sonu və XX əsrin əvvəlləri)

Müraciət olunan mövzunun tədqiqi dövründə Şimali Qafqaz qadınlarının cəmiyyət və ailədəki sosial-hüquqi durumuna xüsusi diqqət yetirmək zəruridir. Mərkəzi Rusiyada qadınların hüquqi və ictimai vəziyyətlərinə Rusiya Federasiyası qanunvericiliyinin çox böyük təsiri olmuşdur, belə bölgələrdə ailə ilə bağlı problemlər adətlərlə həll edilirdi. Şimali Qafqaz Rusiyanın elə bir unikal bölgəsidir ki, burada bir çox xalqların adət-ənənəsi, dini, dünyagörüşü və anlayışı bir-biri ilə təmasda formalaşmışdır. Elə bu baxımdan da, bu bölgədə yaşayan qafqazlıların və rusdilli əhalinin qadınlarının vəziyyətinə dair tədqiqat aparmaq böyük əhəmiyyət daşıyır. Belə ki, XX əsrin əvvəllərində Şimali Qafqazda adət-ənənələrdən qaynaqlanan qaydaların və şəriətin dominantlıq etməsinə baxmayaraq, bu bölgənin insanlarına Rusiya Federasiyasının qanunları da çox təsir etmişdir.

Tarixşünaslıqda belə bir fikir hökm sürür ki, kəndli qadınların nisbi azadlığı islamın gəlişi və şəriətin aşılanması ilə kəskin pisləşdi. Ola bilər ki, bu iddiaya qarşı əks fikrlər olsun, çünki Qafqaz xalqları xaricdən oxşar görünsələr də, həqiqətdə fərqlidirlər və onlar haqqında ümumiləşmiş şəkildə danışmaq yanlışlıq olar. Adıgeylər əxlaq kodeksi dedikdə bunu “adətlər” kimi başa düşürdülər, türk-köçərilər üçün islamaqədərki adətlər, vaynax və dağıstanlılar üçün ağsaqqalların rəyləri əsas götürülürdü. XVIII-XIX əsrlərdə formalaşmış adətlər patriarxal formada meydana çıxaraq, uyğun sosial təbəqə və ailə məişətini əks etdirdi. Bu o dövr idi ki, həyatı vacib məhsullar kişilər tərəfindən əldə olunurdu. Qadınların əmək prosesində hansı şəkildə iştirakından asılı olmayaraq, əsas əmtəələr barədə kişi sərəncam verirdi. Bu da qadın

və kişilərin mülk, varislik və hüquq proseslərindəki qeyri-bərabər statusundan xəbər verirdi. Hüquq münasibətlərində subyekt yetkinlik yaşına çatmış kişi hesab edilir və istənilən razılaşmada cavabdehlik də onun payına düşürdü. Həm uşaqlar, həm də qadınlar üzərində qəyyumluq hüququ yalnız ailənin kişisinə aid idi. Hətta ərə getmiş qadın dul qaldıqda belə, onun ailəsini idarə etmək ərin, o yoxdursa, atası tərəfdən ən yaxın kişi qohumuna həvalə edilirdi. Qadın yenidən ailə qurduqda, bu himayə yeni ərə keçirdi, yəni qadın və uşaqlar müstəqil qrup hesab edilmirdi.

Tədqiqatçıların çoxu mülkiyyət və varislik məsələlərində qadınların hüquqlarının pozulmasını qeyd etmişlər. Əslində, ailə mülkiyyəti hər zaman iki hissəyə bölünmüşdür: ümumilikdə, ailəyə məxsus olan mülkiyyət və ailənin ayrı-ayrı üzvlərinə məxsus olan mülkiyyət. Məsələn, torpaq, mal-qara, kənd təsərrüfatı alətləri, nəqliyyat və sairə. Ailədə mülkiyyət hər kəsə aiddir və onlar bundan bərabər istifadə hüququna malikdirlər. Ailə üzvlərinin şəxsi mükiyyəti ya bağışlanma, ya hədiyyə verilmə, ya da tapıntı yolu ilə əldə edilirdi. Bunlar adətən şəxsi istifadə üçün olan əşyalar və ya ev heyvanları ola bilər: kişilərdə geyim, silah, at, müsiqi aləti, mal-qara və sairə, qadınlarda da həmçinin geyim, bəzək əşyaları, bağışlanmış heyvan və sairə. Verilən cehiz əşyaları, ərinin və onun qohumlarının evləndiyi zaman ona bağışladıqları qiymətli əşyalar, pul, mal-qara və nadir hallarda da olsa, torpaq sahəsi qadına məxsus idi. Əslində, qadının mülkiyyəti kişinin mülkiyyətindən daha çox olurdu. Məsələn, ev əşyaları faktiki olaraq, bütün ailənin mülkiyyəti hesab olunduğu halda, qadının geyim və bəzək əşyaları yalnız onun özünə məxsus olurdu, lakin qadına bağışlanan mal-qara ilə ailə başçısı - kişi məşğul olurdu. Qadınlara kişilərdən fərqli olaraq, ümumailə mülkiyyətindən pay düşmürdü.

Kabarda alimi X.M.Dumanovun yazdığı kimi “mülkiyyətin bölünməsində yalnız kişilər iştirak edirdi”. Bu ümumqafqaz hüquq norması idi. Gəlin öz cehizi ilə qane olmaq məcburiyyətin-

də qalırdı, ana və qızlar atanın və ya qardaşlardan birinin himayəsində olurdu. Hətta kişi qohumlardan birbaşa varis olmadığı halda belə, qadına mülkiyyət çətin qalırdı, hansı yollasa, dolayısı ilə kişi varis tapılır və miras həmin kişiyə keçirdi. O ki, qaldı qadının şəxsi hüququna, bütün adətlərdə “qadın qanunla ağasına tabe olan “qul” kimi ərindən asılı idi, sadəcə onu satmaq olmazdı. Qadın onun üçün işləməli, ərinin ona verdiyi cəzalara qeyd-şərtsiz dözməli və ona hörmət etməli idi”. Adətlərə görə “əri qadınını pul verib almışdırsa, deməli, o, kişiyə tabe olmalı və hər bir məsələdə ona qulaq asmalıdır. Əsl qadın ərinə öz ağası kimi baxmalı və ölənə qədər ona sadiq qalmalıdır”.

Belə ki, gəlin üçün başlığın verilməsi, qulun alınmasına bənzəsə də, bunu eyniləşdirmək düzgün olmazdı. Müsəlman hüququnun adət və normaları başlığı müxtəlif cür şərh edirlər:

1) “səhər hədiyyəsi” – bakirəliyin qiyməti, evliliyin ilk səhəri gəlinə qiymətli hədiyyələr verilir;

2) nikaha qədər valideyn və ya gəlinin yaxın qohumlarına işçi qüvvəsini itirdiklərinə görə kompensasiya verilir;

Qafqazda demək olar ki, bu və ya digər formada gəlin üçün başlıq-kalım verilirdi, lakin bu müxtəlif ölçüdə ola bilərdi. Şəriət qaydalarına görə başlığın ölçüsünə təsir edən bir çox amillər mövcuddur: qızın hansı təbəqəyə mənsub olması, yaşı, gözəlliyi, əxlaqı, bakirəliyi, yaşadığı məkan və sairə. Qadına əl qaldırmaq sözdə, Qafqazda heç vaxt bəyənilməsə də, ərinin sözünə qulaq asmayan qadınlar tez-tez döyülürdülər. Adıgey, kumık və Şimali Qafqazın digər xalqlarında ərinə sadiq qalmayan qadınlar döyülür, şikəst edilir və hətta öldürülürdülər. Bu kimi hallara görə kişilər qınanılmırdı, əksinə onlar cəmiyyət tərəfindən dəstəklənirdilər.

Ümumiyyətlə, XIX əsrdə Qafqazda boşanma halları adət, şəriət qaydaları ilə tənzimlənirdi, lakin boşanma haqqında iddia kişilər tərəfindən asanlıqla qaldırıla bilərdi. Əgər qadın boşanmaq istəyirdisə, bu ona baha başa gələ bilərdi. O ona məxsus olan hər

şeydən imtina etməli idi. Qadın üçün verilən başlıq da qaytarılmalı idi. Əgər kişi boşanmaya təşəbbüs göstərirdisə, o zaman kişi mülkiyyətin bir hissəsini qadın üçün buraxmalı idi. Boşanmanın şərtləri qadınlar üçün o qədər ağır idi ki, onlar nadir hallarda, boşanma üçün təşəbbüs göstərirdilər. Həm də qadının boşanması üçün həddindən artıq ciddi səbəblər olmalı idi: "Ərin arvadı ilə varvar kimi davranması, ciddi döyülmələr, fiziki xəsarət, yandırılma, yaralanma, ac saxlama və ya digər zorakılıq halları baş verirdisə, onda onun boşanma şansı ola bilərdi. Deyilənlər həqiqət olardısa və ailə üzvləri də boşanmaya rəvac verərdilərsə, onda qadın boşanma üçün təşəbbüs qaldıra bilərdi". Şəriət qaydalarına görə aşağıdakı hallarda qadın boşanma tələb edə bilərdi: ərinin ağır fiziki çatışmazlıqları olduqda, qəddar davranıldıqda, ailə təminatı yetərli olmadıqda, ər uzun müddət evə gəlməyəndə, ağır təhqir hallarına yol verəndə, xarakterlər düz gəlməyəndə, ər ailə başçısı kimi üzərinə düşən funksiyaları yerinə yetirməyəndə və sairə. Bu zaman boşanma üçün təşəbbüsü qadın birbaşa öz tərəfindən deyil, yaxın bir ağsaqqal və ya kişi qohumu tərəfindən irəli sürə bilərdi. Bu da qadınlara qarşı olan diskriminasiyanın bir üsulu idi.

İnqilaba qədərki dövrə aid olan arxiv materiallarına nəzər saldıqda, aydın olur ki, Stavropal köçərilərində, noqaylarda, türkmənlərdə və Qafqazın digər xalqlarında bütün boşanmalar şəriət qaydaları ilə həyata keçirilirdi. Qızlar 12-13, oğlanlar 15 yaşlarında nikaha daxil olurdular. Çoxarvadlılıq adi hal kimi qəbul edilirdi. Birinci arvad ev təsərrüfatına rəhbərlik edirdi və qonaqların gəlib-getməsi mərasimlərini yola verirdi. O, ailədə böyük nüfuza malik idi və digər arvadlar qədər çox işləmirdi. Ər yalnız qızlarını ərə verəndə arvadları ilə məsləhət edirdi. Ən ağır iş sonuncu arvadın üzərinə düşürdü. Gördüyümüz kimi, birinci arvadın statusu ilə sonuncu arvadın statusu arasında fərq çox böyükdür, lakin cəmiyyətdə ailənin təmsilçisi evin kişisi olurdu.

Adətlər ilə şəriət qaydaları arasında fərq mövcud idi, belə ki, şəriətlə evlənənlərin sosial statusu müxtəlif olsa da, bu evlənməyi əngəlləməməli idi, çünki Allahın qarşısında hər kəs bərabərdir. Adətlər isə bunun əksini deyirdi, hər kəs öz təbəqəsindən olan insanla evlənməli idi. Şəriət qaydaları bəzən qadınların xeyrinə də işləyirdi. Başlığın qız evinə verilməsi, boşanarkən qadına verilən mülkiyyət və sairə qadının boşanandan sonrakı dövrdə və ya dul qaldıqda rahat yaşamasını təmin etmək üçün nəzərdə tutulurdu.

Beləliklə, bəzən şəriət normaları ilə gündəlik adətlər ziddiyyət təşkil edirdi. Nəticədə, bütün Qafqaz müsəlmanları kompromisə getməyə məcbur olurdular: Başlığın bir hissəsi ailəyə verilirdi, digər hissə isə gəlinin özünə verilirdi. Şəriət qadınlara şəxsi mülkiyyət hüququ verirdi və hətta məhdudlaşdırılmış şəkildə olsa da, qadına ümumailə mülkiyyət hüququ (torpaq) verilirdi. Düzdür, şəriət qaydaları müxtəlif cür şərh edilsə də, ümumilikdə, o da qadına tam hüquqlu varis kimi baxmır. Reallıqda adət heç vaxt, heç bir məqamda problemi qadının xeyrinə həll etmirdi. Elə bu səbəbdən də bəzən, bir az savadlı, dünyagörüşlü qadınlar ittiham qaldıranda adətləri deyil, ya şəriəti, ya da Rusiya imperiyasının qanunlarını əldə əsas tuturdular. Bir çox hallarda, nəyi necə həll etməyi varislər özləri qərarlaşdırırdılar, ya adəti, ya da şəriət qaydalarını əsas götürürdülər. Şəriət, adət və Rusiya qanunlarının qarışığından bir kompromis forma yaranırdı (maslaqat) və bu da tərəflərin razılığına əsaslanırdı. Bəzi xalqlarda şəriət bir çox hallarda, boşanma zamanı qadınların vəziyyətini yaxşılaşdırırdı. Məsələn, əvvəllər, inquş qadınının boşanma təşəbbüsü qaldırmaq haqqı tanınmırdı, indi ona bu haqq verilmişdir. Qadının varislik hüququnun nizama salınması və tanınması bir çox boşanmaların qarşısını alırdı. Ciddi bir səbəb olmadan kişi boşanma iddiası qaldırırdısa, o zaman kişi qadına kəbin üçün pul verməli və cehizini qaytarmalı idi. Bundan başqa şəriətə görə boşanma üçün tərəflərə müəyyən bir vaxt verilirdi (yarım ildən bir ilə qədər) ki, bu müddət başa çatmamış kimsə boşana bilməzdi. Bu müddət ərzində

tərəflərə yenidən düşünmək imkanı verilirdi və qohum-qardaşlar ailənin dağılmamasından ötrü bir çox tədbirlər görürdülər. Bu o demək deyildi ki, şəriət kişi ilə qadına eyni hüququ verirdi, bu barədə söhbət ola bilməzdi. Əslində, cinslərin seqreqasiyanının kəskinləşməsində şəriət mənfi rol oynayırdı.

Adıgey qadınları Qafqazın digər xalqlarının qadınlarından bir çox xüsusiyyətlərinə görə fərqlənirdilər. Tədqiqatçıların dediyi kimi, XIX əsrdəki çərkəz qadının vəziyyəti Şərqin digər qadınlarının vəziyyətindən çox fərqlənirdi. Q.Y.Klapotun dediyi kimi "Çərkəz qadınları Asiyanın digər qadınları kimi, qapalı deyildilər və onların yaşadıqları zindanda yaşamırdılar".

XIX əsrin ikinci yarısında Kabardada də şəriət hərəkatının təsiri ilə vəziyyət dəyişdi. Artıq on yaşlı qız uşaqlarının küçədə təkbaşına başıaçıq gəzməsi, kişilərlə rəqs etməsi qadağan edilmişdi. Qaranlıq düşəndən sonra yaxın kişi qohumunun müşaiyəti olmadan heç bir qadının evdən bayıra çıxmaq haqqı yox idi. Kənd yerlərində bu qadağalar çox sərt idi və qadınlar küçəyə və kişi olan yerlərə çıxanda baş şallarının ucları ilə üzlərini örtməli idilər.

Qafqaz tam şəkildə Rusiyanın tərkibinə daxil olduqdan sonra da cəmiyyət imperiyanın qanunları ilə deyil, şəriətin qaydaları ilə idarə edilirdi. Düzdür, bəzi çox sərt qaydalar imperiya qanunları ilə əvəz olundu, məsələn, oğurluğa görə əlin kəsilməsi, zinaya görə qadınların daş – qalaq edilməsi, qan davasına görə adam öldürmə və sairə. Bununla bərabər, mülki və ailə-nikah normaları saxlanılırdı. Tədricən adi adətlər şəriət qaydaları və imperiya qanunları ilə əvəz edilməyə başladı.

Hətta slavyan ailələrində də adət-ənənələr ailə hüququnda xüsusi rol oynayırdı. Kəndli və kazak ailələrində patriarxallıq və kiçiyin böyüyə tabe olması adət halı almışdı. Kəndli ailələri təsərrüfat vahidi halında təmsil olunurdular və ailədə ən əsas, əməyin necə təşkil olunması idi. Kiçik ailələrdə əmək bölgüsü mexaniki şəkildə həyata keçirilirdi, çöl işləri kişilərə, ev işləri qadınlara aid idi. Digər fəsillərdə bu barədə geniş bəhs edildiyinə görə sadə-

cə, onu xatırlatmaq yerinə düşərdi ki, böyük ailələrdə evdəki ən yaşlı qadın ev təsərrüfatına rəhbərlik edirdi, çöldəki təsərrüfat işləri evin ən statuslu kişisi tərəfindən idarə olunurdu. Qadının işi, köməkçi iş kimi qiymətləndirilirdi. Ailədəki gənclərlə despot xarakterli rəftar müşahidə edilirdi. Maliyyə məsələləri ata ilə anaya aid idi. Necə və nə qədər işləməklərindən asılı olmayaraq, nə oğulda, nə də gəlində pul olmurdu. Ailədə ən yaşlı ər-arvad bütün maliyyə işlərinə rəhbərlik edirdi. Hətta dul qalmış qadın da tam varislik statusunda ola bilməzdi, o yalnız övladlarının qəyyumu hesab edilirdi. Ana üçün təyin edilən qəyyum ailənin və ya nəslin ağsaqqalı qarşısında hər zaman ananın məsuliyyətini daşıyırdı.

Ailələrdəki qarşılıqlı münasibət bir çox məsələlərdə özünü büruzə verirdi. Bir çox ailələrdə nikaha iqtisadi aksiya kimi baxırdılar və uşaqların nə hiss etdiyi o qədər də önəmli deyildi.

Kənd yerlərində rəsmi boşanma hallarına təsadüf edilmirdi. Qadın evindən, ailəsindən ayrılıb atası evinə qayıdırdısa, ona nə başlıq, nə də cehiz qaytarılırdı. Yalnız şəhərlərdə belə edirdilər. Kənddə atası evinə qayıdan qadın cehizini aparırdısa, o zaman əri bir il gözlədikdən sonra (söhbət slavyan ailələrindən gedir) kilsədə başqa qadınla kəbin kəsdirə bilərdi, onu tərk edən qadının isə yalnız beş ildən sonra ərə getmək hüququ var idi. Boşanma halları az-az təsadüf edilirdi, çünki ictimai qınaq çox idi. Boşanan qadın cəmiyyətdə xoş qarşılanmırdı və boşanma zamanı səbəb nə olursa olsun, qadın günahkar hesab edilirdi. Ata evinə qayıdan qadın ailəsi üçün həm ləkə, həm də artıq yük sayılırdı. Döyülsə də, söyülsə də ər evində dözümlülük nümayiş etdirən qadınlar cəmiyyət tərəfindən daha yaxşı qarşılanırdı. Ərindən boşanan qadın üçün yenidən ailə həyatı qurmaq çox çətin idi.

Kazakların da ailələrində patriarxal qaydalar hökm sürürdü, lakin bu ailələrdəki qadınlar həm kənd yerlərində yaşayan, həm də dağlı ailələrində olan qadınlara nisbətən daha azad idilər. Ədəbiyyatlarda da tez-tez bu kimi fikirlərə təsadüf olunur: "Buradakı əxlaq normaları nə rus adətləri, nə də şərqlilər qədər sərt deyildi".

“Onlar qadına firavanlıq aləti kimi baxırdılar: Qızlar gəzməyə çıxa bilərdilər, lakin qadınlar cavanlıqdan qocalana qədər işləyirdilər. Qadınları itaətkar və əməksevər görmək istəyirdilər. Belə yanaşmanın nəticəsi idi ki, qadınlar həm fiziki, həm əxlaqi cəhətdən inkişaf edirdilər və ev təsərrüfatında nüfuzlu yer tuturdular. Qadın ictimai həyatdan təcrid edilirdi və ağır kişi işlərinə vərdiş etmələri onlara ailə-məişət işlərində güc verirdi. Ər ictimai yerdə xanımı ilə nəvazişlə danışmasa da, onunla fəxr edirdi, çünki bütün ailənin iqtisadi durumu onun xanımının əmək və qayğısı üstündə qurulurdu. O qəti şəkildə əmin idi ki, kazak üçün fiziki iş görmək  qəbul edilmir və belə işləri işçilər və qadınlar yerinə yetirməlidirlər. O, dumanlı şəkildə hiss edirdi ki, bütün bu əməyin arxasında qadın durur. Bundan əlavə, qadınların daima ağır kişi işləri ilə məşğul olmaları, onları həm fiziki cəhətdən inkişaf etdirir, həm də bu işlər onların xarakterinə təsirsiz ötüşmürdü, bu onları qətiyyətli və dözümlü-dayanıqlı edirdi. Kazak qadınların əksəriyyəti güclü, ağıllı, inkişaf etmiş və yaraşıqlı idilər”.

Kuban kazak qadınlarının digərlərindən fərqi o idi ki, onların ərləri daima hərbi əməliyyatlarda olurdular. Burada birmənalı şəkildə bütün işlər qadınlara həvalə edilirdi. Kazak qadını insanların idealı idi və ən ağır, ən sərt qanunlar belə onları sındırmırdı. Ərinin və digər kişi qohumlarının həyatı üçün daima narahatlıq keçirən kazak qadını bütün təsərrüfatı idarə edirdi, yaşlılara qayğı göstərirdi, uşaqlarını tərbiyə edirdi.

Kazak qadınların həyatından bəhs edən müəlliflər qadınların qətiyyət və müstəqilliklərini belə vəsf edirdilər: “Xalqın düşüncəsinə görə qaradənizli qadın, ailə ocağını qoruyan, sözünü deməyi bacaran və yaxınlarının və ailəsinin maraqlarını bütün maraqlardan üstün tutan birisidir. Bütün bunlar onun taleyinə düşən rolla əlaqəlidir. Ailə və məişət məsələlərindəki rol onu belə qətiyyətli və müstəqil etmişdir. Bir sözlə, kazak qadının ailə və təsərrüfat işlərindəki yeri, kazak kişi üçün müstəsnadır”.

Yuxarıda toxunulan faktlar Qafqaz müharibəsi dövrünə də təsadüf edir. 1864-cü ildə müharibənin bitməsi ilə ailə-məişətdə qadının rolu bir az dəyişməyə başladı. Müharibə dövründə kazak qadının fəaliyyəti sonrakı dövrdə onun ailədaxili münasibətlərində yaxşı mənada əks olunurdu. Bu ailələrdə də qadının rolu kənd yerlərindəki qadınların həyat tərzlərinə yaxın idi. XIX əsrin 60-90-cı illərində qadınların statusu ailənin böyük-kiçikliyindən asılı qalırdı. Belə ki, bu ailələrdə də yüksək status yaşla bağlı idi. Böyük gəlin qayınananın bir nömrəli köməkçisi idi, qalan qadınlar ev işlərini bərabər şəkildə yerinə yetirirdilər. Düzdür, başqa amillər də qadının statusuna təsirsiz ötüşmürdü. Belə ki, cehizin, başlığın həcmi də əsas götürülürdü. Bir çox adət və hüquq normaları kazaklara mühafizakar rus (Tersk) ailələrindən keçmişdir. Kuban kazaklarında Zaporojye Seçi təsiri hiss edilirdi. Grebenslərdə belə bir adət var idi, əgər qız nisbətən kasıb ailəyə qismət olurdusa, cehizin bir hissəsini aparırdı. Cehizin qalan hissəsini ailənin gələcəyini sığortalamaq üçün ata evində saxlayırdılar. Fikirləşirdilər ki, birdən ailənin iqtisadi durumu gələcəkdə pis olarsa, cehizin bir hissəsini ailənin durumunu düzəltmək üçün istifadə edə bilərlər. Belə xüsusiyyətə dağ yerlərindəki ailələrdə təsadüf edilirdi. Əri ölmüş qadına ərinin əmlakının yeddidə biri düşürdü və qadın ikinci dəfə ərə gedə bilərdi. Bu ailələrdə ata öləndən sonra azyaşlı uşaqların üzərində qəyyumluq anaya həvalə edilirdi. Dul qalmış qadına seçim verirdilər – o, atası evinə də qayıda bilərdi, ər evində də qala və ya təsərrüfatını ayıra bilərdi. Bunlardan məhrum edilən qadın stanitsa məhkəməsinə müraciət edə və əmlakı geri ala bilərdi. Bəzən qayınatanın razılığı ilə qadına cehiz və əmlakın bir hissəsi qaytarılırdı, hərdən ona ev də alınırdı. Dul qadına təsərrüfatın verilməsi nadir halda olurdu, çünki təsərrüfatı idarə etmək çətin məsələ idi. Bunu qadının etməsi o zaman üçün mümkün deyildi. Torpağın yeddidə bir hissəsinin kazak qadına verilməsi onun orada müstəqil təsərrüfat yaratmaq anlamına gəlmir. O yenidən ərə gedə və əri bu torpağı istifadə edə bilərdi. Ərə

getmədikdə və dünyasını dəyişmiş ərinin ailəsi ilə yaxşı münasibətdə olduqda, uşaqları ilə orada qalıb yaşaya bilərdi.

Dağlılardan fərqli olaraq, kazak kişinin arvadına əl qaldırmaq ixtiyarı var idi, lakin cəmiyyət sakit ailələri daha çox bəyənirdi. Bütünlükdə, kazak qadınlarının ailə və cəmiyyətdəki vəziyyətlərində paradoksallıq müşahidə edilirdi. Bir tərəfdən, kazak qadının "qazandığı" müstəqillik, hörmət qazanma bacarığı, ləyaqətlilik, ailə təsərrüfatındakı əməklə, uşaqların tərbiyəsi ilə məşğul olma, cəsurluq, əri ilə yürüşə çıxmaq qabiliyyəti yaxşı hal kimi qiymətləndirilirdisə, digər tərəfdən, mühüm qərarların verilməsində iştirak etmə kazak qadını üçün məqbul sayılmırdı. Ev işlərində qadının çəkisi olsa da,  ailənin mühüm məsələlərində əsas sözü kişi deyirdi.

Onu da qeyd etmək lazımdır ki, yuxarıda bəhs edilən qanun və adətlər əsasən Şimali Qafqazın kənd, stanitsa və aullarına aid idi. XIX əsrin sonlarında kənd və stanitsalardan şəhərə köç nəticəsində şəhər əhalisi artırdı. Kəndlərə də şəhər mədəniyyəti sirayət etməyə başladı. Bu təkcə maddi və mənəvi transformasiya deyildi, həm də cinslərin münasibətlərində əmələ gələn dəyişikliklər idi. Qadınların sosial statuslarında nisbi yaxşılaşmalar müşahidə edilirdi. Ailədaxili münasibətlər daha azad olurdu. Ailə üzvlərinin sayı azalmışdı, ailə əsasən ata - ana və evlənməmiş uşaqlardan ibarət idi. Düzdür, ailədə qadın yenə də kişinin tabeliyində idi, lakin ev təsərrüfatında qadın özünü daha rahat və sərbəst hiss edirdi. Qadınlar arasında savad alanların sayı artırdı, onlar gecə, bazar günü məktəblərində oxuyub-yazmağı öyrənirdilər. XIX əsrin sonu - XX əsrin əvvəllərində hətta kənd yerlərində də qız övladları gimnaziyaya oxumağa göndərirdilər. Kazak qızların çoxu ordunun hesabında olan tədris ocaqlarında oxuyurdular. Onların bəziləri kənd məktəblərində müəllim işləyir və yaşadıqları yerlərdə müxtəlif tədbirlər keçirirdilər.

Beləliklə, XIX əsrin ikinci yarısında Şimali Qafqazda yaşayan əhalinin Rusiya imperiyasının qanunlarına tabe olmasına

baxmayaraq, bölgədə iki tendensiya hökm sürürdü: yerli qaydalar və rəsmi Rusiya qanunları. Nəticədə, mikro-sosiumda Şimali Qafqaz əhalisi özlərinin əvvəlki hüquq qurumlarını saxlamaqda davam edir və formal olaraq isə, ümumvətəndaş qanunlarına tabe olurdular. Şimali Qafqaz əhalisində adi hüquq normalarının qədim kökləri mövcud idi və bu normalar həm ictimai, həm də ailə-məişət sferalarında patriarxallığa əsaslanırdı.

Bir çox adət-ənənələr də bir cəmiyyətdən digər cəmiyyətə keçirdi, məsələn, dağlılardan kazaklara və ya əksinə. Bu dövrdə dağ yerlərindəki qadınların vəziyyətinə islam amili güclü təsir edirdi və onlar cox "aciz" və "hüquqsuz" idilər. Bir çox ictimai amillər (başlıq), o dövrün mətbuatından da göründüyü kimi, qadınların ləyaqətinin əksinə işləyirdi. O dövrdə həm kazaklar, həm də kəndlilərin həyatında ailə-hüquq münasibətləri transformasiyaya uğramışdı, çünki Şimali Qafqaz bölgəsi ümumrusiya bazarına qoşulmuş, ənənəvi patriarxal ailələr şəhər mədəniyyətinin təsiri altında dəyişmişdi, bu da bölgədəki qadınların sosial statusuna təsirsiz ötüşmürdü və onlar bu dəyişikliklərlə inkişaf edirdilər. Ailələrdə daxili məsələlər cütlüyün birgə qərarı ilə həyata keçirilir və bəzi hallarda, qadın faktiki olaraq, tam ailə başçısı kimi də fəaliyyət göstərirdi. Beləliklə, dövri mətbuatın məlumatlarından belə nəticəyə gəlmək olar ki, Rusiyada ictimai-demokratik hərəkatın təsiri ilə qadın hərəkatı da formalaşırdı. Bu hərəkatın meydana gəlməsi və inkişafı sosial amillərin təsirindən qaynaqlanırdı. Rusiyada qadın hərəkatının başlanğıcı 1859-61-ci illərə təsadüf edir. Bu da Rusiyada təhkimçilik hüququnun ləğvi dövrünə düşür. Onun spesifikliyi Rusiyanın tarixi inkişafının xüsusiyyətləri ilə şərtlənir. Qərbdə qadın hərəkatının əsas tələbi siyasi və vətəndaş azadlığı idi və bu Rusiyada da ümumdemokratik hərəkatın şüarına çevrilmişdi. Bu dövrdə Rusiyada qadın hərəkatı əsasən Rusiyanın elit təbəqəsi tərəfindən başlanmışdı. Buradakı feminist hərəkat nə xarakterinə, nə də quruluşuna görə Qərbdəki feminist hərəkatdan fərqlənmirdi. Cəmiyyətə KİV-in təsiri çox böyük idi

və o dövrdə həm leqal, həm də qeyri-leqal mətbuatda (“Kolokol”, “Sovremennik”, “Russkoye slovo”, “İskra”, daha sonralar, “Oteçestvennıye zapiski” və sairə) utopik sosializm ideyaları təbliğ edilirdi.

Bütün yuxarıda qeyd edilənlərə rəğmən, qadınlar əsl inqilabi hərəkata 1905-1907-ci illərdə başladılar. XX əsrin əvvəllərində Rusiya qadın hərəkatı xeyli dəyişikliyə məruz qaldı. Ən başlıcası isə, qadın hərəkatı elit dairə çərçivəsindən çıxdı, onun mahiyyəti dəyişdi. Bu vaxta qədər qadın hərəkatının dövlətdən tələbi qadınların da kişilər kimi təhsil alıb, fəaliyyət göstərmələri idisə, indi artıq tələblər daha çox siyasi xarakter daşıyırdı. Sovet dövrünə qədər Rusiyada qadınların təhsil almaqları üçün xeyli iş görülmüşdü. Qadınların üç mərhələli təhsil almalarına (orta, spesifik və ali) dövlət tərəfindən şərait yaradılmışdı, lakin onların ibtidai təhsil almaları gözlənilən səviyyədə olmadı. Aşağı (ibtidai) təhsil müəssisələrində adətən sosial statusu aşağı olan valideynlərin övladları oxuyurdular. İbtidai məktəblər ya Xalq Maarif Nazirliyinin, ya da dini orqanların nəzdində idi. Bu məktəblər cəmiyyət və yerli təşkilatların hesabına saxlanılırdı. Qadın orta məktəbləri (gimnaziya, Marina peşə məktəbi və institutlar) sarayın və ya Xalq Maarif Nazirliyinin nəzdində idi. Yeparxial qadın peşə məktəbi də orta məktəb hesab edilirdi və dini idarəyə tabe idi. Qadın orta məktəb müəssisələri əsasən,  sarayın vəsaiti, şəhər xeyriyyə cəmiyyətlərinin, imkanlı qadınların və digər xeyriyyə təşkilatlarının hesabına saxlanılırdı. Yalnız XIX əsrin sonu - XX əsrin əvvəllərində qadın təhsili konsepsiyasında dəyişikliklər baş verdi, qadın proqramları kişi proqramlarına yaxınlaşdırıldı və dövlət həm qadın, həm də kişi təhsil müəssisələrinin xərclərini öz üzərinə götürdü. XIX əsrin sonu - XX əsrin əvvəllərində peşəkar qadın təşkilatlarının qarşıya qoyduqları əsas məqsəd qadınların da kişilər qədər təhsil ala bilmə imkanlarının olması idi. Bir sıra ictimai təşkilatların (Qadın kənd təsərrüfatı təhsilinin inkişafına yardım cəmiyyəti, Qadınların hüquq bərabərliyi Liqası və başqa-

ları) aktiv fəaliyyəti nəticəsində qadın professional təhsilin inkişafı üçün imkanlar açıldı. Rusiyada 1870-ci illərdə bir çox qadın hərəkatların aktiv fəaliyyəti sayəsində qadınların ali təhsil alma imkanı yarandı. Beləliklə, ilk qadın ali məktəbləri ayrı-ayrı insanların yardımı, xeyriyyə cəmiyyətlərinin köməyi, kişi ali məktəblərinin professorlarının qadın məktəblərində pulsuz mühazirə oxuma təşəbbüsü nəticəsində açıldı. Sözsüz ki, nə qədər təşəbbüslər olsa da, kişi ali məktəblərinin sayı qadın ali məktəblərinin sayından qat-qat çox idi. Qadın təhsilinin inkişaf tempi aşağı olsa da, Rusiyada qadın hərəkatı nəticəsiz qalmadı və tədricən inkişaf etdi. Rusiya qadın hərəkatının fəalları qadınların cəmiyyətdə həm sosial əhəmiyyətli şəxsiyyət kimi, həm də Rusiya cəmiyyətinin siravi üzvü kimi qəbul edilməsi üçün əllərindən gələni edirdilər. Qarşıya qoyulan vəzifələrdən ən ümdəsi Rusiya cəmiyyətində qadının hüquqi statusunu artırmaq idi.

Rusiyada qadının hüquqi statusunun aşağı olması həm Rusiya qanunlarında, həm də kəndli və kazakların, dağ yerlərində yaşayan, köçəri həyat tərzi sürən, bir sözlə, Rusiya imperiyasının bütün xalqlarının  adi hüquqlarında öz əksini tapırdı. XIX əsrin sonu - XX əsrin əvvəllərində ənənəvi ailə hüququnun əsasında kişinin başçı olma prinsipi dururdu, belə ki, ailədəki ərli qadın və digər qadın ailə üzvləri qeyd-şərtsiz evin kişisinə, ailəli olmayanlar da ataya, qardaşa tabe idilər. Bundan əlavə, Rusiya ailə hüququna görə, kişi ailənin ən əsas maliyyə və iqtisadi dəstəyi idi. O dövrdə də işləyib ailəyə pul gətirən qadınlar var idi. İqtisadi müstəqillik əldə edən qadınlara şəxsi müstəqillik vermək də dövrün tələblərindən biri idi. Rusiya qanunlarında qadınların şəxsi azadlıqları ilə bağlı çox cüzi düzəlişləri nəzərə almasaq, böyük hesabla bu istiqamətdə ciddi dəyişikliklər gözə dəymirdi. Bir çox çətinliklərin əsas səbəbi Rusiya qadınların əksəriyyətinin savadsız olması idi. Rusiya əhalisinin əksəriyyəti qadın emansipasiyasını xoş qarşılamırdı, xüsusilə də kəndlilər, kazaklar, dağlılar, köçərilər qadın azadlığını qəbul etmək istəmirdilər. Qadın hərəka-

tının sosial-siyasi xarakterli bir sıra amilləri, qadınların çoxunun sosial davranışına zəif transformasiya edilirdi. Bu prosesə dövlət siyasətinin konservativ-patriarxal xarakteri, qadının aşağı statusu, əhalinin aşağı təbəqəsindən olan qadınların passivliyi, Rusiya cəmiyyətində formalaşmış gender stereotiplər, müxtəlif ictimai hərəkatların qarşılıqlı təsir mexanizmlərinin olmaması ciddi maneçilik törədirdi.

Ümumilikdə, XIX əsrin 50-60-cı illərində ictimai-demokratik hərəkatın fövqündə yaranan Rusiya qadın hərəkatı cəmiyyətdə böyük rezonans yarada bildi, ənənəvi şərtlərin mövcudluğu şəraitində qadınların sosial-hüquqi vəziyyətinin yaxşılaşdırılması, cəmiyyətin bütün təbəqələrinin təşkilatlanmasında mühüm rol oynadı.

## Ədəbiyyat:

**Rus dilində**


1. Арсанукаева М.С., “*Семейно-брачные отношения у чеченцев в XIX – начале XX века // История государства и права*”. 2003. № 3. С. 20-24.
2. Забелин И.Е. Домашний быт русских цариц в XVI-XVII вв. Смоленск: Изд-во “Русич”, 2002. 5 С. 60
3. Карпов Ю.Ю., “*Женский лик Кавказа // Россия и Кавказ*”. СПб.: Изд-во “Петербургское востоковедение, 2003. С. 44-64
4. Ковалевский М., “*Закон и обычай на Кавказе*”. Майкоп: Изд-во “Афиша”, 2006. С. 528
5. Леонтович Ф.И., “*Адаты кавказских горцев: материалы по обычному праву Северного и Восточного Кавказа*”, Нальчик: Изд-во “Эль-Фа”, 2002. Вып. 2. С. 254
6. Невская Т.А., “*Чекменев С. А. Ставропольские крестьяне: очерки хозяйства, культуры и быта*”, Минеральные Воды: Изд-во “Кавказская здравница”, 1994. С. 168
7. “*О союзе брачном // Полное собрание законов Россий-*

*ской империи (ПСЗРИ)”.* СПб.: Тип. II Отделения Собственной Его Императорского Величества Канцелярии, 1896. Т. 10. Ч. 1. С. 1566.

8. Свечникова Л.Г., “*Обычай в правовой системе (на материалах правового развития народов Северного Кавказа в XIX в.)”.* Ставрополь: Изд-во «СФ СКАГС», 2002. С. 185
9. Синайский В.И., “*Личное и имущественное положение замужней женщины в гражданском праве*”, Юрьев, 1910, С. 335
10. Смирнова Я.С., “*Семья и семейный быт народов Северного Кавказа*”, М.: Наука, 1983, С. 265
11. Сукунов Х.Х., Сукунова И. Х. “*Черкешенка*”, Майкоп: Изд-во “Адыгея”, 1992, С. 305
12. Тавернье Ж.-Б., “*Шесть путешествий в Турцию, Персию и Индию // Кавказ: европейские дневники XIII-XVIII веков*” / сост. В. Аталиков. Нальчик: Изд-во “М. и В. Котляровых”, 2010, Вып. III. С. 304
13. Цыбульникова А.А., “*Борьба с супружеской неверностью в кубанских станицах*” // Историческое регионоведение Северного Кавказа – вузу и школе: материалы 7-й региональной научно-практической конференции. Армавир, 2001, С. 30-32.
14. Энгельс Ф., “*Происхождение семьи, частной собственности и государства*” // Маркс К., Энгельс Ф. Избранные произведения: в 3-х т. М. : Политиздат, 1986. Т. 3. С. 639

## XIX əsrin sonu XX əsrin əvvəllərində Şimali Qafqazda adətlər və Rusiya imperiyasının qanunları: abxazların timsalında

Abxaziya uzun illər Rusiya imperiyasının bolşevik inqilabından sonra isə SSRİ-nin tərkibində olmuşdur. Məlum olduğu kimi rus imperiyası əvvəllər Qafqazda Rusiya qanunlarını tətbiq etməyə səy göstərsə də, sonralar bu xalqları öz adətləri ilə idarə etməyin daha asan olduğunu qəbul etmişdi.

Sovet hakimiyyətinin ilk illərində köhnə adətlərin sosializm prinsipləri ilə düz gəlmədiyi, onların sovet quruculuğu siyasəti ilə daban-dabana zidd olduğu aydın olsa da, yerli adətləri nəzərə almağın əhəmiyyətini və adətlərin əksinə getməyin ziyan gətirə biləcəyi də təxmin edilirdi. KİV adətlərin sosializmlə düz gəlmədiyini təbliğ edirdi və adətlərin yeni ictimai münasibətlərə neqativ təsir etdiyini yazırdı (Балабан К., 1928). Sonralar, bu yanaşmanın səhv olduğu anlaşıldı və sovet siyasətində dağlıların adətlərinə olan münasibətdə müəyyən dönüş yarandı. Belə ki, "dağlılarda adətin bu xalqların sosial münasibətlərini xarakterizə edən əsas mənbə olması öz təsdiqini tapdı" (Гарданов В.К., 1960: 33). Adət müasir dövrdə də çox təsiredici, tənzimləyici potensiala malikdir. Müasir hüquq elmi də o yanaşmanı dəstəkləyir ki, "ənənəvi hüquq keçmişə dönüş deyil, inkişaf edən hüquqi cəmiyyətin göstəricisi olsun" (Мисроков З.Х., 2003: 3). Abxaziyada adət öz mahiyyətini saxlamaqla yanaşı, qanunla da rəqabətə girir. Müasir tədqiqatçı S.R.Butba hesab edir ki, "ənənəvi qanunu hərtərəfli öyrənmədən dövlət səviyyəsində duran bir çox problemləri həll etmək olmaz, çünki əvvəlki hüquqi münasibətlərin kökləri çox dayanıqlıdır və bunlar abxaz xalqının ictimai şüurunda mühüm rol oynayır" (Бутба С.Р., 2008: 133).

Abxaziya Rusiya imperiyasının tərkibinə daxil olandan sonra dövlət bu bölgədə olan adətlərlə bağlı qaydaları tədricən ləğv etmiş, onları Rusiya imperiyasının qanunları ilə əvəz etməyi qarşısına vəzifə qoymuşdu. Rusiya imperiyasının qanunlarının daha yüksək hüquq mədəniyyətinin daşıyıcısı olduğuna inanan imperiya, bunun Abxaziya hüquqi-normativ sisteminin inkişafı üçün də vacib olduğunu iddia edirdi. Bunun üçün ən vacib element Abxaziya əhalisinin savadlanması idi, çünki savadsız əhalinin hüquqi şüurunu inkişaf etdirmək çətin məsələ olub, rus imperiyasının qanunlarının bölgədə tətbiqinin baş tutması üçün vacib amil idi. Deyilən səbəblərə görə, ictimai məişət məsələləri, bir çox konfliktləri həll etməyin yolları, ənənəvi hüquq normalarından asılı vəziyyətə düşmüşdü. Buna görə də, ilk növbədə "qan intiqamını, əmlakla bağlı bəzi cinayətləri, qız qaçırma halları"nı tənzimləyə bilən yeni qanunlar qəbul edilməli idi.

Rusiyada da ailədaxili münaqişələrin tənzimlənməsi məsələləri patriarxal xarakter daşıyırdı və ənənəvi xristian əxlaqı normalarına əsaslanırdı. Bir çox hallarda, Abxaziyda ailədaxili adətlərdə elə də böyük fərq olmurdu. Hər iki halda ailələr böyük idi, adətə görə ataya bütün hüquq verilirdi, qadın və uşaqlar tam olaraq atadan asılı olurdu.

Bununla yanaşı, XIX əsrdə Rusiyada qanun, adətlərdən fərqli olaraq, qadının uşaq tərbiyəsində aktiv iştirakını və tərbiyəsindəki rolunu dəstəkləyirdi, qanunda kəbindənkənar dünyaya gələn uşaqların və onların analarının müdafiəsini, ərli qadının atanın himayəsi altından çıxmasına yardımını nəzərdə tuturdu. Rusiya qanunlarına görə cütlük öz əmlakına özü sərəncam verə bilərdi. Kişi xanımının əmlakını yalnız onun etibarnaməsi əsasında alıb-sata bilərdi. Abxaz adətinə görə də, həyat yoldaşı xanımının əmlakı ilə bağlı, onun icazəsi olmadan heç bir əməliyyat apara bilməzdi.

Adətlərə görə qadınlar əmlak məsələlərində hüququ olmayan kəslər idi, lakin XIX əsrin ikinci yarısında Abxaziya qadınlarının

aktivliyi və Rusiya qanunvericiliyinin dəstəyi sayəsində qadınlar üçün də əmlak və varislik hüquqları nəzərdə tutuldu.

Abxazlardakı ailə ilə əlaqəli bəzi məsələlər elə xristianlarda olduğu kimi idi. Məsələn, boşanma məsələləri adətlə tənzimlənirdi. Bildiyimiz kimi, xristian qaydalarına, dini-əxlaqi normalarına görə yalnız kilsənin üst qurumunun icazəsi ilə evli cütlüyün izdivacına xitam verilə bilərdi, lakin abxazlarda boşanma o qədər də sərt qanunlarla tənzim edilmirdi, yəni cütlük, xüsusilə də kişi boşanmaq qərarını versəydi, bunun qarşısını almaq çətin idi. Sadəcə, ətrafdakılar boşanmanı qınaqla qarşılayırdılar və bundan ötrü çox ciddi səbəb olmalı idi. Adətən övlad dünyaya gətirə bilməmək, zina etmək kimi səbəblər boşanmaya gətirib çıxara bilərdi. Ara-sıra boşanmaya cütlükdən birinin xəstə olması, ərin çox kobud rəftarı, qadının tənbəlliyi və deyingənliyi, xarakterlərin uyğun gəlməməsi kimi səbəblər də əsas götürülə bilərdi.

XIX əsrin ikinci yarısında abxazların adətləri ictimai həyatın bütün sferalarını əhatə edirdi: sahibkarla işçilər arasında qarşılıqlı münasibətlər, ictimai mənsubiyyət, icarə formaları və sairə məsələlər, zümrələrin hüquqi vəziyyətini tənzimləyirdi. Bütün ənənəvi cəmiyyətlər kimi hər hansı bir məsələnin həllində adətlərin rolu danılmaz idi və buna konservativ rakursdan yanaşırdılar. Müxtəlif zümrələrə aid olan fərdin hüquqi vəziyyəti (ailə hüququ və öhdəlikləri də daxil olmaqla) adətə görə həm ümumi, həm də fərqləndirici xüsusiyyətlərlə xarakterizə edilirdi. Bu dövrdə abxaz cəmiyyəti iki ziddiyyətli sinfə bölünmüşdü: feodal və istismar edilənlər. İstismar edilənlər əhalinin əsas kütləsini təşkil edirdi. Əhalinin az bir qismi də ruhanilərdən ibarət idi. Adətlər əhalinin bütün təbəqələrini əhatə edirdi. Aşağıdakı hallarda mövcud normalara görə cəzalar verilirdi: oğurluq, qarət, döymə, dava, cütlüyün xəyanəti, fahişəlik, zorlama, zorla qız qaçırma, açıq-saçıq geyinmə, valideyn və böyüklərə təhqiredici əda və ədəbsiz söyüşlər, yaralama (təsadüfi və ya qəsdən), qətl, (təsadüfi və ya qəsdən), nikahdan kənar uşaq dünyaya gətirmə, yalan, küfr etmə,

hakimiyyət uğrunda mübarizə, sahibkar və ya onun ailə üzvünün həyatına qəsd. Abxaz cəmiyyətinin ən pis adətlərindən biri də qanla intiqam almaq idi. Abxaz xalqı inkişaf etdikcə qan intiqamı da dəyişirdi. Əvvəllər mövcud olan "əvəz-əvəz", "qana-qan" prinsipi, "qan bahası" ödənişləri ilə (cərimə ilə) əvəz edildi. Bu ödənişlər insanların qanının tökülməsinin qarşısını nisbətən də olsa alırdı. Qan intiqamı zamanı münaqişə tərəflərinin barışdırılması kimi digər qaydalar da mövcud idi. Qan intiqamından vaz keçmək kimi bir adət mövcud deyildi. Maraqlısı o idi ki, qan davası təkcə hadisəni törədən şəxslə davam etmirdi, bütün nəsil buna görə məsuliyyət daşıyırdı və bundan əziyyət çəkirdi. Bu bəzən bir əsr davam edirdi, lakin abxazlarda qan davasında bir prinsip əsas götürülürdü, "intiqamın həddi, ilkin ölümün həddini aşmamaıl idi" (Бабич И.Л., 1999: 224).

Bəhs edilən dövrün adətləri arasında mülkiyyət hüququ ilə bağlı adət də maraq kəsb edir. Belə ki, mülkiyyət institutu kifayət qədər inkişaf etmiş qurum idi. Mülkiyyət toxunulmaz idi. Razılaşdırma yolu ilə alqı-satqı, muzdla işçi tutmaq, borca, icarəyə, şərikliyə görə razılaşma halları mövcud idi. Abxazlarda torpaq bir adama deyil, bütün kollektivə, yəni bir nəsilə məxsus idi. Ona görə də torpağa görə müqavilə yox idi. Kiminsə torpağı təkbaşına zəbt etməsi ən böyük rüsvayçılıq idi, çünki torpaq bütün ailəyə, bütün nəslə məxsus idi.

Adətə görə ailə hüquqi nikaha daxil olma şərtlərini aşağıdakı kimi müəyyənləşdirirdi: nikahın bağlanması qaydası; nikah forması; nikaha xitam verilməsinin əsasları və qaydası; nikaha xitam verildikdən sonra ər-arvadın hüquqi vəziyyəti; uşaqların və valideynlərin hüquq və vəzifələri; digər ailə üzvlərinin hüquqi statusu.

Yuxarıda qeyd edildiyi kimi, Şimali Qafqaz xalqları hesab edilən dağlılar haqqında araşdırma onların Rusiya imperiyasının tərkibinə daxil olmasından sonrakı dövrə düşür. İmperiya məmurlarında bu xalqlara qarşı, onların adət-ənənələrinə qarşı xüsusi bir

maraq oyanmışdı. Hətta  onların qarşısında dağlıların idarəçiliyi ilə bağlı rəsmi statistik məlumatların hazırlanması tapşırığı da qoyulmuşdu. Abxaziyaya hərbi məmurlar ezam olunur, bəzən, məmurlar özləri bölgəyə olan maraqdan ora səfər edirdilər, lakin bütün bu cəhdlərə rəğmən, əhalinin verdiyi məlumatlar ziddiyyətli idi. Buna səbəb bəlkə də yerli əhalinin çar məmurlarına olan etimadsızlığı idi. Bəzən bir sıra məlumatları toplamaqda məqsəd yerli əhalinin məhkəməsi zamanı onlarla necə rəftar etməkdən ötrü idi. Buna görə də, bu məlumatlar əsasən yerlilərin davranış qaydaları, cinayət məsələləri, ailə və irsi hüquqlarını əhatə edirdi. Burada məqsəd sosial təbəqələrin məişətini, onların hüquqi vəziyyətini öyrənmək idi. Rus imperiyası sonda bu bölgələrdə yalnız şəriət və rus imperiyasının bəzi qaydalarının tətbiq edilməsinin məqbul ola biləcəyi qərarına gəldi. Bunun nəticəsində, normaların rəqabəti yarandı və sonda adətlərlə qərar qəbul etməyin daha uyğun olması qənaətinə gəlindi. 1866-cı ilin 11 avqustda "Suxumi şöbəsində məhkəmə hissəsinin quruluşu barədə" uyğun müvəqqəti qaydalar təsis edildi. Qaydaların 11-ci maddəsində qeyd edilirdi ki, bölgə məhkəmələri xalq adətlərinə əsaslanmalıdır, çünki əhali üçün bu çox önəm və dəyər kəsb edirdi. Baş Məhkəmədə işlərə ya imperiyanın qanunları ilə baxılırdı, lazım gələndə isə, xalq adətləri də nəzərə alınırdı. Rusiya imperiyasındakı məhkəmələrdən fərqli olaraq, burada hələ də şifahi məhkəmələr keçirilirdi. Rus imperiya məhkəmələrinin qanunlarına tədricən keçilirdi, çünki əhalini incik salmaqdan çəkinirdilər. 1864-cü ildən qüvvəyə minən məhkəmə nizamnaməsi, 1880-ci il mayın 28-dən Suxumu şöbəsində "tam həcmdə" tətbiq edildi ("*Сборник узаконений и распоряжений правительства издаваемого при Сенате",* 1880: 613). Belə ki, 1864-cü ilə qədər nə Abxaziyada, nə də Qafqazın digər yerlərində andlılar məhkəməsi yox idi. Bu normativ hüquqi aktların tətbiqi ilə abxazların əvvəlki cinayət hüquqları ləğv edildi. Dövlətin ictimai və ailə münasibətləri sferasında bəzi problemləri (ailə, varislik) tənzimləmək səlahiyyəti

olsa da, bəzi hallarda, məsələn, nikaha daxil olma adətləri daha önəmli idi. XIX əsrin sonu - XX əsrin əvvəllərində rus imperiyası nikaha daxil olmaq üçün qanunlar qəbul etmişdi, lakin abxaz adətlərinə görə bütün bölgələrdə nikaha daxil olan zaman hər iki tərəfin razılığı nəzərə alınmalı (buna hər zaman riayət etmirdilər), tərəflərin hər hansı birinin cinayət törətməməsindən əmin olmalı, digər bir insanla nikahın olmamasından xəbərdar olmalı (çox vaxt kişilər əvvəlki evliliyinə xitam verməmiş, digəri ilə evlənə bilərdilər) və ən əsası, hər iki tərəf eyni dinə mənsub olmalı idilər. Rusiya imperiyasında nikahla əlaqəli qanunda bir sıra boşluqları mövcud idi, məsələn, hər iki tərəf xristian dininə mənsub olsalar belə, dini təriqət müxtəlifliyi tərəflərin evlənməsi hallarına mane olurdu. Adətlər tərəflər arasında bağlanan nikaha o zaman neytral yanaşırdılar ki, ər islam dininə mənsubdur. Rusiya qanunlarından fərqli olaraq, Abxaziyada yaxın qohumla evlilik üçün heç bir maneəçilik yox idi. 1861-ci ilə qədər Rusiya qanunvericiliyində belə bir məqam var idi ki, təhkimlilərin evlənməsi üçün sahibkarın razılığı olmalı idi. O vaxt belə bir adət var idi ki, təhkimlinin evlənməsinə razılıq verən sahibkar evlənənlərə kömək etməli, başlıq verməli, onlar üçün təsərrüfat və ev qurmalı idi. Rusiyada nikah kilsələrdə kəsilirdi, toy da kilsələrin razılığı ilə baş verirdi. O vaxtlar evlənmələr yalnız kilsələrin razılığı ilə baş tuturdu, vətəndaş nikahı qəbul edilmirdi.

XIX əsrin sonu - XX əsrin əvvəllərində abxazlar nikahın bağlanmasına dair razılıq əldə edəndən sonra birgə yaşamağa başlaya bilərdilər. Abxaziya Rusiyaya birləşəndən sonra bölgədə xristianlıq dirçəlməyə başladı və nikahların bağlanmasında dini ayinlər kimi, adətlər də yer almağa başladı. Şəriət qaydaları ilə paralel olaraq, kilsə qaydaları da mövcud idi.

Abxaziyada nikahın pozulması həm yerli adətlərə görə, həm də Rusiya imperiyasının qanunlarına görə, ya cütlüyün birinin rəhmətə getməsi və ya boşanmaya əsasən baş verə bilərdi. Qeyd etdiyimiz kimi xristian qaydaları boşanmanın qarşısını almaqdan

ötrü bir sıra sərt şərtlər təqdim edirdi, lakin abxaz adətlərinə görə boşanmalar o qədər də sərt təpki ilə qarşılanmırdı. Adətlər xristianlarda olduğu kimi abxazlarda da, boşanmanın qarşısını kəskin alırdı. Nikahın başa çatması üçün hər iki tərəfin razılığı mütləq nəzərə alınırdı. Cütlüyün mülkiyyət hüquqları Abxaziyada heç də Rusiyada olduğu kimi deyildi. Arvad üzərində nəzarət yenə də kişidə qalırdı və boşanmış qadın yaşayış, iş, təhsil alma yerini dəyişdirəndə mütləq keçmiş ərindən icazə almalı idi. Arvadın ərinə məcburi itaət etmə məsuliyyəti həm Abxaziyada, həm də Rusiyada vacib məsələlərdən idi. Ərin gücü, atanın gücündən çox idi. Qadının üzərindəki hüquq ata və ərlə eyni deyildi, ərin üzərinə daha çox hüquqlar düşürdü və ərin qarşısında qadının öhdəlikləri atasının qarşısında olan öhdəliklərdən daha çox idi. İstər Rusiyada, istərsə də Abxaziyada qadınların ictimai sferada iştirakı yox dərəcəsində idi. Rusiyada qadına qadağalar təkcə əri tərəfindən qoyula bildiyi halda, Abxaziyada bu qadağalar həm ər, həm də ata tərəfindən qoyula bilərdi. Ailə münasibətlərində əsas yeri mülkiyyət münasibətləri tuturdu.

"Ər arvadı saxlamağa borcludur"- bu yanaşma həm adətlərdə, həm də qanunlarda qorunub saxlanılırdı. XIX əsrin sonu - XX əsrin əvvəllərində Rusiya mülki qanunvericiliyində ər ilə arvadın ayrı-ayrı mülkiyyət hüquqları qorunduğu halda, Abxaziyada belə bir qanun mövcud deyildi. Ailələr Abxaziyada çox böyük idi, mülkiyyət ayrı-ayrı şəxslərə deyil, bütün ailəyə məxsus idi və mülkiyyətə münasibətdə bir həmrəylik hökm sürürdü. Qadınlar XX əsrin əvvəllərinə qədər nə ata evində, nə də ər evində mülkiyyət hüququna malik deyildilər, lakin bütün dövrlərdə qadının cehizi ömrünün sonuna qədər onun mülkiyyətində qalırdı. XX əsrin əvvəllərinə qədər həm Rusiyada, həm də Abxaziyada qadınların varislik hüquqları çox məhdud idi. V. Nikolski belə qeyd edirdi: "Bütün tarix boyu varisliyə aid anlayışların qəbilələr səviyyəsində həyata keçirilməsinin şahidi olmuşuq… hər şeydən əvvəl yalnız kişi qohumları... nəsli dəstəkləyir və cəmiyyəti,

vətəni qoruyur. Qadın… çıxdığı nəsli dəstəkləmir, o başqa nəslin kişisi ilə ailə qurur və ona görə də öz nəslini qorumaq iqtidarında deyildir" (Ярмонова Е.Н., 2008). XIX əsrin sonlarında Rusiya mülki qanunvericiliyi ər vəfat etdikdən sonra arvada daşınmaz əmlakın yeddidə bir hissəsini və daşınan əmlakın ¼ hissəsini almaq hüququ verirdi (Свод законов Российской Империи, СПб., 1887), lakin Abxaziya qadınları yalnız bacıları öldükdən sonra onların miraslarına sahib çıxa bilərdilər. Bəzən nikah müqaviləsində nəzərdə tutulan bəzi şeyləri ərləri vəfat etdikdən sonra ala bilərdilər.

Valideynlərin övladları üzərində olan haqqı hüdudsuz idi. Rusiya ilə müqayisədə, Abxaziya adətlərində uşaqlara qarşı xoşa gəlməyən məqamlara daha çox təsadüf etmək olurdu. Rusiyada valideyn və övlada düşən əmlak fərqli-fərqli idi. Həddi-buluğa çatmış övladlar valideynlərinin qəyyumluğu altında əmlaklarından istifadə edə bilərdilər. Adətlərdə belə bir müqəddəs borclar mövcud idi ki, yaşlı valideynlərə övladları qayğı göstərməli və onlara ömürlərinin sonuna qədər baxmalı idilər. Həm Rusiya, həm də Abxaziya adətlərində kiçik bacı və qardaşların valideyni yox idisə, böyük qardaşlar onları qəyyumluğa götürməli və onlara maddi-mənəvi yardım etməli idilər, bu onların borcu idi. Qanunvericiliyin "digər ailə üzvlərinin hüquqi statusları" bölməsində ailə üzvlərinin bir-biri ilə münasibətlərinin düzgün tənzimlənməsi üçün lazımi qanunlar nəzərdə tutulurdu. Hətta XX əsrin əvvəllərində Rusiya mülki qanunvericiliyində arvad, valideyn və uşaqları saxlamaq borcu aydın göstərilir, abxaz adətlərində isə ailənin bütün üzvlərinin bir-birinə qarşılıqlı yardım göstərmələri adəti hələ də saxlanılır. Abxaz adətlərində geniş yer almış və müxtəlif formalarda həyata keçirən "övladlığa götürmə" məsələləri XIX əsrin sonu XX əsrin əvvəllərində Rusiyanın nə qanunvericiliyində, nə də adətlərində öz əksini tapmamışdı.

## Ədəbiyyat:

### Rus dilində


1. Балабан К. "*Борьба с пережитками родового быта и вызванные ими преступления // Рабочий суд*". 1928. № 20; Карачайлы И., "*Борьба против горских адатов – борьба за социализм// Революция и горец*", Ростов-на-Дону. 1932. № 8-9
2. Бабич И.Л. "*Месть в пореформенном адыгском обществе // Обычное право: проблемы теории, истории и практики*". Ростов-на-Дону, 1999. С. 221-229
3. Бутба С.Р., "*Особенности формирования правовой системы Республики*", Абхазия. Дисс. кандидата юридических наук. Краснодар, 2008. С. 133
4. "*Высочайше утвержденное 17 апреля 1866 года Положение о применении Судебных уставов к Закавказскому краю// Сборник узаконений и распоряжений правительства издаваемого при Сенате*", СПб., 1880, Ст. 613
5. Гарданов В.К., "*Обычное право как источник для изучения социальных отношений народов Северного Кавказа в XVIII – начале XIX вв*". // Советская этнография, 1960. № 5. С. 33
6. Мисроков З.Х., "*Адатское и мусульманское право народов Северного Кавказа в российских правовых системах*", Автореф. дисс… доктора юридических наук. М., 2003.С.3.
7. "*Свод законов Российской Империи*", СПб., 1887. Т. X. Ч. I. (Законы Гражданские С. 1148-1150
8. Ярмонова Е.Н., "*Отдельные аспекты наследования по российскому законодательству: прошлое и современность*"// Юридическая наука и методология преподавания юридических дисциплин в условиях реформирования системы высшего образования: Сборник научных статей по материалам III Международной научно-практической конференции. Ростов-на-Дону, 2008. С. 102

## Adət kara gəlməyəndə, məsləhət al…

Bütün xalqlarda olduğu kimi Şimali Qafqazda da adətlər ona görə əhəmiyyətlidir ki, insanların bir-birinə vurduğu fiziki, maddi, mənəvi ziyanla əlaqəli meydana gələn müxtəlif konfliktlər onlar vasitəsilə tənzimlənir.

Şimali Qafqazda hələ orta əsrlərdən hüquqi institutlar fəaliyyət göstərmişdir Adıgeylərin tarixi ilə əlaqəli yazılan əsərlərdə biz bunun şahidi oluruq. XV-XVI əsrlərdə bu xalqda mövcud olan vasitəçilik institutu buna yaxşı misal ola bilər. XIX əsrin birinci yarısının məşhur maarifçisi Adıl-Qirey yazır: “Çərkəzlərin qədim adətlərinə görə, bütün konfliktlər vasitəçilərin iştirakı ilə həll edilir. Cəmiyyətdə kifayət qədər nüfuzu olan bir ağsaqqal nəsillərdən-nəsillərə ötürülən adətlərə uyğun olaraq, mübahisəli məsələləri həll edir. Belə adətlərə görə mühakimə etməyin özü elə məhkəmə adlanır. Əgər mövcud adətlərə görə konfliktin həlli mümkün deyilsə, o zaman ağsaqqal öz müdrikliyinə əsaslanaraq, mübahisəni həll edir. Adətlərə görə həll edilməyən konflikti məsləhətlərlə həll edirlər. Elə mövcud adətlər illərin təcrübəsindən çıxan məsləhətlərin formalaşması nəticəsində yaranmışdır.”

Kabardada belə məhkəmələr “heyj” adlanır. Tədqiqatçılar Şimali Qafqazda XVIII əsrdə vasitəçilik məhkəməsinin olmasından bəhs edirlər. Kabardada 5-6 nəfərdən ibarət müxtəlif təyinatlı məhkəmələr mövcud idi.

V.X.Kajarovun yazdığına görə vasitəçilik məhkəməsinin geniş yayılmış  forması mövcud idi. Bu zaman prosesdə iştirak etmək üçün hər tərəfdən 20 nəfər dəvət edilirdi və bu məhkəmə zədagan məhkəməsi adlanırdı. Kabardada vasitəçilik məhkəməsi həm səxslərarası, həm də qruplararası mübahisələri həll edirdi (Кажаров В.Х., 1992: 66).

XVIII əsrdə bu məhkəmə əhalinin bütün təbəqələri arasında geniş yayılmamışdı. XVII-XVIII əsrlərdə yalnız böyük həcmli

maddi və fiziki ziyan vurulan hallarda məsələ "heyj"-ə qədər gedib çıxırdı. Belə hallar olanda adətlər əsas götürülərək məsələlərə aydınlıq gətirilirdi. İlk növbədə günahkar qarşı tərəfə vurduğu ziyanı ödəməyə məcbur edilirdi, günahı böyük olduqda isə, onu və ailəsini yaşadığı yerdən çox uzaqlara sürgün edirdilər (Кушева Е.Н., 1963: 127).

Münaqişə tərəflərini barışdırmaqdan ötrü adıgeylərdə bir sıra qurumlar fəaliyyət göstərirdi. Bu qurumlar icmalarda sosio-normativlərin (atalıq, qəyyumluq, süd qohumluğunun təyinatı və sairə) yerinə yetirilməsinə nəzarət edirdilər. Atalıq institunda uşağın yad ailədə tərbiyəsi məsələsinə baxılırdı: Yad uşağı, adətən oğlanı ya onun ailəsinin razılığı, ya da gizli şəkildə gecə vaxtı oğurlamaqla övladlığa götürürdülər. Uşağın düzgün tərbiyələndirilməsində yeddi əsas qayda var idi (Бларамберг И.Ф., 1974: 398). Əslində, Qafqaz etnoqrafiyasında yer alan atalıq çox qədim adətdir. Bu adətə görə uşaq doğulandan sonra bir müddət tərbiyə məqsədi ilə başqa bir ailəyə verilirdi, lakin sonradan yenə də öz valideynlərinin yanına qaytarılırdı (М.О.Косвен, 1935). Sonralar, atalıq qurumu özündə bir sıra adətləri də ehtiva etmişdi. Məsələn, zədagan titulunu almaq, knyaz ailələri ilə yaxınlığı sübut etmək və sairə bu qurum vasitəsilə bərpa edilirdi. Kosven, atalıq institunun vəzifəsinə daxil olan digər funksiyalardan da bəhs etmişdir. Müəllif qan davasının da həlli yollarının kökünün atalıq institutundan qaynaqlandığını iddia edir. O, göstərir ki, "ölümlə nəticələnən düşmənçiliyin spesifik formalarını yoluna qoymaq" da bu qurumun səlahiyyətinə daxil olan bir məsələ idi. Əgər günahkar öldürdüyü adamın yaxınları ilə barışmaq istəyirdisə, onda ya özü, ya da yaxın dostlarından biri öldürülmüş adamın yaxınlarından birinin övladını oğurlamalı idi. Z.M.Nalov və X.M.Dumanovun iddialarına görə adıgeylərdə belə tərbiyəçiləri iki terminlə adlandırırdılar -плур къан və лъыщIэжыпщIэ къан. Birinci halda, sadəcə uşağı tərbiyə etmək üçün onu övladlığa götürürdülər, ikinci

halda isə, uşağı öldürdüyü adama vurduğu ziyanın kompensasiyası olaraq onun uşağını övladlığa götürüb tərbiyə edirdilər.

Adıgey və qeyri-adıgey tədqiqatçılara görə atalıq institutunun hüquqi tərəfdən fəaliyyəti daha geniş olmuşdur. XVII-XIX əsrlərdə tədqiqatçı-alimlər (Ş.B.S.Noqmov, Xan-Qirey, K.F.Stal və başqaları) iddia edirdilər ki, bu qurum konfliktləri həll etməkdə adətlərin aciz qalması səbəbindən yaranmışdı. A.K.F.Stal göstərirdi ki, bəzən barışıq üçün bir metoddan deyil, bir neçə metodun kombinasiyasından istifadə edirdilər: Zərərçəkən ailəyə öldürülmüş adama görə kompensasiya vermək və zərərçəkənin ailəsindən bir uşaq götürüb böyüdüb-tərbiyə etmək tapşırılırdı. Məsələn, Şimali Qafqazda yaşayan iki knyaz ailəsindən – Temirqoyev və Qatukayevlərdən barışıq üçün yuxarıda göstərilənlərin yerinə yetirilməsi tələb edilmişdi (Хан-Гиреи., 1973: 130).

XVI-XVIII əsrlərdə osetin, qaraçay və adıgey icmalarında qan davasında olan tərəfləri barışdırmaqdan ötrü, onların övladlarını evləndirirdilər və bununla da, qan davasına son qoymağa cəhd göstərirdilər. Bu davaların həllində qadın müdrikliyindən istifadə edilirdi. Təkcə ağsaqqalların məsləhətindən deyil, ağbirçəklərdən də düzgün yol göstərmək üçün məsləhət alanlar olurdu. Adi hüquq normalarına görə, kimisə öldürən kişi qadın himayəsinə sığına bilərdi. Adam öldürən şəxs qadının evindən çıxmayana qədər kimsə ona xətər yetirə bilməzdi. Onu öldürmək üçün onun qadının evini tərk etməsini gözləmək lazım idi, lakin qadın himayəsinə sığınmağın özü də həmin kişi üçün "biabırçılıq" sayılırdı. Qadınların konflikti dayandırmaq üçün başqa yolları da vardır. Qafqazda hər zaman qadın yanında dava etmək, söyüş söymək, adam döymək kişiyə yaraşan xüsusiyyətlər hesab edilməmişdir. Adam öldürməyə cəhd edən kişini görən qadın, baş örtüyünü onun ayaqlarının altına atardısa, bu zaman dava dərhal dayandırılmalı idi. Əks halda, icmada həmin kişiyə hörmət aradan qalxardı. Bu adət Qafqazın bir çox yerlərində hələ də qalmaqdadır.

Qafqazda bir sıra xalqlarda düşmən tərəfləri barışdırmaq üçün süd qohumluğundan da istifadə edilirdi: Onun mahiyyəti ondan ibarət idi ki, adam öldürənin dodaqları ya açıq ya gizli şəkildə öldürülən adamın anasının döşünə toxunmuşdusa, o zaman düşmənçilik avtomatik olaraq dayandırılırdı. O dərhal düşməndən zərərçəkənin ailəsinin qohumuna çevrilirdi. Bu tədbir övladı öldürülmüş ananın razılığı ilə nəslin böyüyünün aşağıda dediyi sözlərlə bitirdi: "Qoy heç vaxt bu iki nəsil arasında düşmənçilik olmasın. Qoy bizi hər zaman qohumluq və dostluq birləşdirsin". Zərərçəkən tərəf buna nadir hallarda razı olurdu. M.A.Meretukovun da dediyi kimi, çox zaman bu mərasimin keçirilməsi baş tutmurdu, xüsusilə də bunun aşkar keçirilməsinə zərərçəkən tərəf razılıq vermirdi (Меретуков М.А., 1968).

Konfliktlə bağlı adıgeylərdə başqa bir adət də var idi. Onlar müqəddəs sayılan ağaclar bitən meşələrdə konfliktləri özlərinəməxsus şəkildə həll edirdilər. Müqəddəs ağaclar bitən meşədə ölüm hadisəsi baş vermişdisə, onda bu ağaclara bağlanmış parçanı boğaza sarımaqla cəzadan azad olmaq mümkün idi. Bunu görən qarşı tərəf qan davasından imtina edirdi.

Qafqaz adətlərinə nəzər salanda, bir sıra maraqlı məqamlara təsadüf edilir. Bəzən konflikti həll etmək üçün mövcud olmayan bir adətin əvəzinə hər hansı bir məsləhətlə qan tökülmənin və ya cəmiyyətə heç bir xeyir verməyən konfliktin qarşısını alırdılar. Konfliktlərdən qaçmaq üçün təklif edilən çıxış yollarının kökləri elə bir yerə gedib çıxır ki, onun izahını anlamaq çətin olur. Çıxış yolunun mahiyyətində sanki bir absurdluq durur. Müdriklik də elə ondadır ki, insanları özlərinə və ətrafındakılarına zərər verə bilən işlərdən çəkindirmək üçün onları inandıra biləsən.

Birinci bölmədə qeyd edildiyi kimi, Rusiya imperiyası dövründə qafqazlılara adətlərə uyğun davranmağa mane olmurdular. İlk vaxtlarda bu qaydaları dəyişməyə cəhd etdilər, lakin bunun mümkün olmadığını gördükdə məmurlar yerli nüfuzlu insanları narazı salmamaq üçün onlara güzəştə getdilər. Məmurlar cinayət-

karı qanunlarla deyil, adətlərlə cəzalandıran xalqların dəyişilməsinin çətin olduğunu anlayaraq, yerlərdə qanunu tətbiq etməyə səy göstərmədilər. Sonralar, sovet dövründə bu istiqamətdə bəzi müsbət dəyişikliklər əldə edilsə də, müasir dövrdə əvvəlki kimi adətlər qanunlardan önə çıxmışdır.

**Ədəbiyyat**:

**Rus dilində**


1. Бларамберг И.Ф. "*Историческое, топографическое, статистическое, этнографическое и военное описание Кавказа"*, Нальчик, 1974, АБКИЕА. С. 398.
2. Бгажноков Б.Х., "*Очерки этнографии общения адыгов*", Нальчик, 1983
3. Кажаров В.Х., "*Адыгская этика"*. Нальчик, 1992. С. 66.
4. Косвен М.О., "*Этнография и история Кавказа*"., М., 1961. С. 110
5. Кушева Е.Н., "*Народы Северного Кавказа и их связи с Россиеи*". М., 1963. С. 127
6. Меретуков М.А. . "*Усыновление у адыгов в XIX в. Маикоп*", 1968
7. Хан-Гиреи. "*Записки о Черкесии. Нальчик*", 1973. С. 130

## Sovet hakimiyyətinin ilk illərində Şimali Qafqazda islam və hüquq məsələləri (Dağıstanın timsalında)

Sovet hakimiyyəti illərində Qafqazdakı adətlərə münasibətdə Rusiya imperiyası dövrü ilə müqayisədə kəskin dönüş baş vermişdi. Bolşevik inqilabının qələbəsinin ilk illərində, hakimiyyət çox zəif idi. Onlar yerli nüfuzlu insanları öz tərəflərinə çəkməklə regionda mövqelərini möhkəmlətmək istəyirdilər. Bolşeviklər yerli əhaliyə izah edirdilər ki, onlar bu vaxta qədər çar məmurlarının yerlərdəki siyasətini dəstəkləməklə, bir növ yerli xan və bəylərin onları istismar etmələrinə bəraət qazandırmışlar. Sovet hökuməti ilk vaxtlarda, Qafqaz müsəlmanlarının "əsl xalq hüququ"nu şəriətlə əvəz etməyə üstünlük verdi. Bolşeviklər bölgələrdə yerlərini möhkəmləndirməkdən ötrü şəriət qaydalarını dəstəkləyir və bu işdə yerli müsəlmanlardan istifadə edirdilər. Onlar Şimali Qafqazda adətlər məhkəməsini şəriət məhkəməsi ilə əvəz etdilər.

13 noyabr 1920-ci ildə Dağıstan xalqlarının Fövqəladə qurultayında Milli Məsələlər üzrə Xalq Komissarlığının sədri İ.V.Stalin demişdi: "Dağıstanı idarə edərkən onun yerli xüsusiyyətləri, məişəti, adətləri nəzərə alınmalıdır. Bizə məlumdur ki, Dağıstan xalqları şəriət qaydalarına yüksək önəm verir. Bizə o da məlumdur ki, sovet hökumətinin düşmənləri belə bir şaiyə yayıblar ki, sovet hökuməti şəriəti qadağan edir. Rusiya Sovet Federativ Sosialist Respublikasının adından səlahiyyətli bir nümayəndə kimi elan edirəm ki, bu şaiyədən başqa bir şey deyildir. Rusiya hökuməti bütün xalqlara öz müqəddəratını təyin etmək səlahiyyətini verir, idarəçilikdə onların qanun və adətlərini əsas götürür və onlara hörmətlə yanaşır. Dağıstan xalqları öz qanun və adətlərini saxlamaq istəsələr, bunu edə bilərlər" (В.А.Тишкова, 2013: 53-54).

Bu fikirlər S.M.Kirov tərəfindən də səsləndirilmişdi. 1920-ci il noyabrın 17-də o, Dağlıq Sovet Sosialist Respublikasının təsis

qurultayında belə deyir: “Əgər siz şəriətlə mühakimə etmək istəyirsinizsə, bunu edə bilərsiniz. Bu sizin öz işinizdir, yəqin ki, belə formal məhkəmə indiki vəziyyətdə anlaşılandır”.

Şəriət qaydalarının Qafqaz bölgəsində tətbiqi, 1917-ci ildə baş verən bolşevik inqilabı rəhbərlərinin başlıca tələblərindən biri idi. Şəriət məhkəməsi ilə bağlı məsələ 1917-ci ilin may ayında Vladiqafqazda keçirilmiş dağlı xalqların I qurultayında müzakirə olunmuş və müsəlmanların bütün məhkəmələrinin Quran və şəriət qaydaları ilə aparılması barədə qərar qəbul edilmişdi. Bu qərar Terek xalqlarının qurultayında (Mozdok, 1918-ci il yanvar) da təsdiq edildi. 1918-ci ildən, əhalisinin əsas hissəsinin müsəlmanlardan ibarət olduğu Şimali Qafqazın bütün böyük şəhərlərində, Vladiqafqaz, Nalçik, Temir-Xan-Şurda şəriət məhkəmələri təsis edildi. Bundan sonra Dağıstan, Çeçenistan, İnquşetiya, Şimali Osetiya, Kabarda-Qaraçayda şəriət məhkəmələri yaradıldı. Hər bir muxtar vilayətdə belə məhkəmələr fəaliyyət göstərirdi.

Dağıstanda şəriət məhkəməsi kifayət qədər mürəkkəb struktura malik olub, üç pillədən ibarət idi. Üç nəfərdən ibarət olan (iki üzv, bir sədr) qurumun ən aşağı pilləsi bütün kənd və şəhərlərdə mövcud idi. Onlar kiçik məsələlərlə (vətəndaşların xırda konfliktləri, varislik və sairə) məşğul olurdular. Appelyasiya şikayətlərinə vilayət şərsudlarında (şəriət məhkəmələri) baxılırdı. Son pillədə vətəndaşlıq və varisliklə bağlı konfliktlərə, ölüm və ya digər ağır cinayət məsələlərinə baxırdılar. Kassasiya mərhələsi yerlərdəki şərsudlara nəzarət edirdi. Digər muxtar respublikalarda şəriət məhkəmələri kifayət qədər mürəkkəbləşdirilmişdi. Çeçenistan və İnquşetiyada şərsudlara daha çox səlahiyyət verilmişdi, onlardan yalnız PSFSR orqanlarına şikayət edilə bilərdi. Yerlərdə şəriət məhkəmələri müsəlman norma və adətlərinə uyğun şəkildə yerinə yetirilirdi. Müsəlman norma və adətlərinin qadın maraqlarını necə qoruduqlarını təsəvvür etmək çətin deyil, yəni qadınlar Rusiya imperiyası dövründə verilən qanunlardan nə qədər “bəhrələnirdilərsə”, sovet hakimiyyətinin ilk illərində də bu eyni şəkildə

davam edirdi. Yerlərdə olan bütün şərsudlar kişi marağını əsas götürürdü və ümumiyyətlə, məhkəmədə ailə məsələlərini müzakirəyə çıxaran qadınlara nəinki yaxşı yanaşmırdılar, hətta belə qadınları el arasında qınayaraq təhqir edirdilər. Evin, ailənin sirrini ailədən kənar müzakirəyə çıxaran qadın yenə də pislənir, yenə də saysız-hesabsız müsəlman qadını zorakılığa məruz qalırdı və sonsuz əzablara dözərək yaşamağa məcbur olurdu.

Şimali Qafqazda bəzi yerlərdə şəriət məhkəmələri ilə yanaşı xalq məhkəmələri də fəaliyyət göstərirdi. Kuban-Qara dəniz respublikasında belə məhkəmələr var idi. Yerlərdəki yeni şərsudlar əvvəlki məhkəmələrdən demək olar ki, fərqlənmirdilər. Adətlər yenə də başlıca rol oynayırdı, fərq yalnız onda idi ki, proseslər sadələşdirilmişdi. Kənd məhkəmələri kənd sovetində, ya da cümə günləri məscidin yerləşdiyi meydanda keçirilir və məsələlərə aydınlıq gətirilirdi. Burada nə prokurordan, nə də müstəntiqdən söhbət gedə bilməzdi. Əgər gündəmdə qadın zorlama, qız qaçırma, qadını təhqir etmə halları yox idisə, o zaman inqilabdan əvvəlki zamanlarda olduğu kimi, məsələlərə açıq, bütün insanların gözü qarşısında qiymət verilirdi və hökm oxunurdu. Şərsudlarda təxminən aşağıdakı cəzalar nəzərdə tutulurdu: icmadan qovma, qan tökmə və mülkiyyətə zərər vurmaya görə pul ödəmə (ya zərərçəkənə, ya da dövlətə). Ən pis halda, cəza böyük həcmli pul cəriməsi və ya həbslə nəticələnə bilərdi, lakin inqilaba qədərki bəzi ağır cəzalar (ölüm hökmü, əl kəsmə, daşa basma) sovet prinsiplərinə zidd olduğu üçün qadağan edilmişdi.

Şərsudlardan savayı Qafqazda digər məhkəmə qurumları da fəaliyyət göstərirdi. Bütün muxtar respublikalarda xalq və kənd şifahi məhkəmələri var idi. İlk xalq məhkəməsi 1920-ci ilin iyulunda yaranmışdı. Onlar qeyri-müsəlman xalqlar üçün nəzərdə tutulmuşdu. Hər yerdə şərsudların mövcud olmasına rəğmən, ağır cinayət məsələləri ilə sovet qanunvericiliyi məşğul olurdu, çünki yerlərdə hələ də qan davası hallarına təsadüf edilirdi.

Kiçik xalqların nümayəndələri məhkəmə zamanı dil çətinliyi ilə üzləşdiklərinə görə, dövlət onların maliyyə və tərcümə xərclərini öz üzərinə götürürdü və onlar üçün adekvat qurumlar yaratmağın zəruriliyini dərk edirdi. Yerli şərsudlar bəzən şikayətlərin baxılmasında, ədalətli qərarların verilməsində çətinlik çəkirdilər. Belə ki, dul qadınlar və valideynini itirmiş azyaşlı uşaqlara qəyyumluq etmək məsələləri həllini tapmayan məqamlardan idi. Elə inqilabdan əvvəl oduğu kimi, indi də məhkəmə prosesləri protokollaşdırılmır və şikayətlərə şifahi şəkildə baxılırdı.

Torpaqla bağlı münaqişələrin həlli məsələsinə də yerlərdə vilayət və muxtar respublikaların komissiyaları baxırdı. RSFSR Torpaq kodeksinə görə, bu məsələlərin həlli respublikanın daxilində fəaliyyət göstərən məhkəmələrin səlahiyyətində idi. 1923-cü ildə Dağıstanda torpaqla əlaqəli mübahisəli məsələlərin çözülməsi və həlli DMSSR MSK -nın nəzdində olan Mərkəzi kollegiyaya həvalə edildi. Buna bənzər qurumlar digər respublikalarda da yaradıldı, lakin bütün bu cəhdlərə rəğmən, cinayətlərin araşdırılmasının məzmununda elə də köklü dəyişiklik olmadı.

Rəsmi sovet statistikasına görə şərsudlar Şimali Qafqazda bütün məhkəmələrin 30-50 %-ini, Dağıstan və Çeçenistanda isə 70-80 %-ni təşkil edirdi. Yerli müsəlmanlar rus dilini bilmədikləri üçün şərsudlara daha çox müraciət edirdilər. Bu məsələlərdə yerli imamlar əhəmiyyətli rol oynayırdılar. Şərsudlar az sayda arayış tələb etdikləri və məhkəmə işlərinə şifahi şəkildə baxdıqları üçün əhali bu sadələşmiş məhkəmələrə daha çox üstünlük verirdi.

Şərsudlar bir çox hallarda, dövlətin etimadını doğrultmurdu. Qadınların şikayətlərinə etinasız yanaşırdılar. Bəzi hallarda, onların şikayəti heç şifahi şəkildə də dinlənilmirdi və ilk təşəbbüsdən şikayətlərini geri almağa nail olurdular. Hələ də qız qaçırma halları, ailədə qadın və uşaqların incidilməsi halları baş alıb gedirdi. Qaçırılan qızın onu qaçırdandan qeyrisinə ərə getmək şansı hələ də 0 % idi. Başqa bir alternativ görməyən qaçırılan qızlar bəzən

intihar etməklə sevmədikləri, bəyənmədikləri kişiyə ərə getməkdən canlarını qurtarırdılar.

Şimali Osetiya, Adigey və Kabarda respublikalarında şərsudların işlərinə xitam verildi və onlar məhkəmələrdən uzaqlaşdırıldı. Artıq məhkəmələrdə yerli əhali arasında nüfuz qazanmış, adlı-sanlı, dövlətli nümayəndələr deyil, kasıb ailələrdən çıxmış, kommunist əhvali-ruhiyyəli insanlar şəriət məhkəmələrinə təyin edildiklərinə görə şərsudlar işlərinin öhdəsindən çətinliklə gəlirdilər.

1922-ci ildə ilk dəfə Dağlı MSSR-ın şəriət məhkəməsinin ləğvi üçün cəhd edildi, lakin yerli əhalinin təkidi ilə o yenidən bərpa olundu. Şimali Osetiyada bu məhkəmə kökündən ləğv edildi, çünki müsəlmanlar burada azlıq təşkil edirdi. 1924-cü ildən başlayaraq bu məhkəmələrin işinə xitam verildi. 1925-ci ildə Adıgey və Kabarda-Balkariyada, 1926-cı ildə İnquşetiya və Çeçenistanda, 1927-ci ildə isə Dağıstanda bu məhkəmələr ləğv edildi.

1928-ci ildə RSFSR-in cinayət məcəlləsinə "Əvvəlki icma məişətini təşkil edən cinayətlər haqqında" maddə əlavə edildi. Bu qanunun qüvvəyə minməsi nəticəsində həm RSFSR-də, həm də onun ərazisi daxilində olan Şimali Qafqaz respublikalarında bu maddənin tətbiqi barədə sərəncam verildi. Nəticədə, şəriət məhkəməsi avtomatik olaraq ləğv edildi. Bu maddənin 203-204-cü bəndində yazılır ki, hər hansı bir cinayət hadisəsinin baxılması şəriət məhkəməsinə göndərilirsə, bu qanuna zidd hesab edilir və bu prosesdə iştirak edən hər bir şəxs bir il müddətinə azadlıqdan məhrum ediləcəkdir. Ümumiyyətlə, adət-ənənələrlə bağlı bəzi xoşagəlməyən cinayət hadisələri PSFSR-in cinayət məcəlləsində (qatildən qan pulu tələb etmək üçün 194-cü bənd, barışıq etməmək və qan davasını davam etdirmək-195-ci bənd və sairə) nəzərdə tutulmuşdu. Buna bənzər maddələr 1935-1960-cı illərdə qüvvədə olan cinayət məcəlləsində də yer almışdı.

Sovet hakimiyyəti dövründə feodal adətləri ilə hər zaman mübarizə aparılmışdır, çünki bir çox adətlər insanları tərəqqi əvəzinə

tənəzzülə sürükləyirdi. Xüsusilə də qadınlara olan yanaşma illər keçməsinə baxmayaraq dəyişməz qalırdı. Qadın yenə də ailədəki kişinin xüsusi mülkiyyəti hesab edilirdi. Verilən qanunlar, görülən tədbirlər qadına olan baxışı kökündən dəyişdirməyə qadir deyildi. Şəriət hər zaman olduğu kimi, yenə də, qadınla ikinci dərəcəli insan kimi rəftar edirdi. Dövlət səviyyəsində şəriət qaydaları ilə mübarizə aparılırdı. Dövlət adət və şəriətə qarşı vahid kurs götürmüşdü və vahid sovet məhkəmə-hüquq sisteminin yaradılmasını nəzərdə tuturdu.

Bütün cəhdlərə baxmayaraq, Şimali Qafqazda adət və şəriət qaydalarına qarşı çıxmaq o qədər də asan olmadı. Şəriətlə mübarizə sovet ideologiyasında hər zaman başlıca yer tuturdu. Hətta partiya iclaslarının gündəmində olan bir nömrəli məsələ də şəriətlə mübarizə idi, lakin bütün cəhdlərə rəğmən, bu mümkün olmadı.

Şimali Qafqazda bu kəskin məsələnin həlli istiqamətində bir çox tədbirlər görüldü. 1951-1955-ci illərdə Dağıstan Sovet İKP-nin plenumunda konkret olaraq partiya qarşısında feodal-patriarxal və dini münasibətlərə son qoymaq kimi vəzifələr qoyuldu, bu barədə çoxlu kitab yazıldı, KİV-də təbliğat aparıldı, lakin yenə də bu problemin köklü həlli mümkün olmadı.

1960-1970-ci illərdə Şimali Qafqazda şəriət qaydalarına münasibətdə yeni dəyişikliklər gözə dəydi. Sovet hakimiyyəti artıq adətlərdən qorxmurdu və düşünürdü ki, adətlərdən siyasi düşmənçilik üçün istifadə etmək olmaz. KİV artıq zərərli adətlərlə zərərsiz adətlərin əhaliyə təsirindən yazmağa başladı. Zərərli adətlərdən ən başlıcası qadınların kişilərlə bərabər hüquqa malik ola bilməməsi idi. Zərərli adətlərin bir çoxu gender problemləri ilə bağlı olan adətlər idi, məsələn, qız qaçırılması, qızın istəmədiyi biri ilə evlənməsi, göbəkkəsdi adəti, qızların ictimai sferada az təmsil olunması və sairə. Şəriət adətlərinin əksəriyyəti gender bərabərliyi prinsipinin əksinə işləyirdi və heç bir cəhətdən qadınla kişiyə eyni gözlə baxılmasına rahat yanaşa bilmırdı.

Adətlərə olan yeni baxış 1990-cı illərin islahatları üçün bir növ prerekvizit xarakteri daşıyırdı. Millətlər və xalqlar, xüsusilə də kişilər öz keçmişinə, kökünə qayıtmaq istəyirdilər. SSRİ-nin dağılması şəriət qaydaların dirçəlməsi üçün münbit şərait yaratdı. Şimali Dağıstanda yenidən şəriət məhkəmələri yaradıldı. Daha sonra Çeçenistanda, İnquşetiyada, Adıgeydə, Qaraçayda, Kabardada və Şimali Osetiyada da şəriət məhkəmələri bərpa edildi. Yenə də məscid imamı cümə günləri məscidin şuralarında cinayət hallarını müzakirə edir, kiçik cinayət hallarını, ailə-nikah məsələlərini araşdırır və hətta vəsiyyət də tərtib edirlər.

Şimali Qafqazda müsəlmanların şəriət məhkəmələri ilə yanaşı, Rusiya xalq və ictimai vasitəçilik məhkəmələri də fəaliyyət göstərirdi.

Bölgədə 1990-cı illərdə bəzi siyasi ambisiyaları həyata keçirməkdən ötrü şəriətdən sui-istifadə edilirdi. İslama görə bəyənilməyən və ideal sayılmayan siyasi rejim və hərəkatlar burada qanuniləşdirilir və bir qrup siyasətçinin maraqlarını ifadə edir.

Çeçenistan respublikasının keçmiş prezidenti general Cövhər Dudayev ölkəni şəriət qaydaları ilə idarə edirdi. Əslində, islamda pislənən terror, insan öldürmə halları din naminə həyata keçirilir, islamın adı cihadla təbliğ olunurdu. Dinc insanlar öldürülür və bu şəriət normaları ilə əlaqələndirilirdi. O illərdə Şimali Qafqazda bu ad altında ölənlərin sayı minlərlə idi. Elə 1999-cu ilin sentyabrında Şamil Basayevin Dağıstanda törətdiyi insan qırğınları da belə siyasətin nəticəsidir. Hal-hazırda da Çeçenistanda şəriət qaydalarına böyük önəm verilir.

**İnquş qadınının sosial statusu (XIX–XXI əsrlər)**. Müasir elmdə sosial status iki cür səciyyələndirilir: Birincisi, anadangəlmə sosial statusdur ki, o, cins, etnik və sosial mənşəyinə, ikincisi isə sonradan nail olunan sosial statusdur ki, o da şəxsi bacarıqları əsasında əldə edilən xüsusiyyətlərə görə təyin edilir. Cəmiyyətdə insanı mənsub olduğu sosial statusa uyğun qəbul edirlər, çünki ondan statusuna uyğun davranış gözlənilir. Sosial reallıq və fər-

din dünyagörüşü bir-biri ilə sıx bağlıdır və mədəniyyət adlandırılan vahid sistemdən ibarətdir. Tarixi inkişaf prosesində ənənəvi qurumlarda müxtəlif dəyişikliklər baş verir: Bir hissə sadəcə mövcud olur, digər hissə tarixi amillərin təsiri altında transformasiyaya məruz qalır, üçüncü hissə isə ümumiyətlə, yoxa çıxır.

İnquş qadınının sosial statusu onun hüquqi və iqtisadi statuslarının cəmindən ibarətdir və o, hüquqi statusu üç istiqamətdə realizə edilir:

* adi hüquq – adət;
* müsəlman hüququ – şəriət;
* rəsmi hüquq – pozitiv hüquq.

İqtisadi hüquq isə qadının şəxsi mülkiyyəti və ona ailəsindən qalan mirasla təyin edilir.

İnquş qadınının sosial statusu cəmiyyətdə onun ərinin və ya oğlunun tutduğu vəziyyətlə sıx əlaqəlidir. Ərli qadının azadlığı ərə getməmiş qadının azadlığından xeyli üstündür.

Əgər ərinin ölümündən sonra qadın böyük ailə təsərrüfatını idarə etmək məcburiyyətində qalarsa və cəmiyyətdə nüfuz qazana bilərsə, həmin dul qadına da sonradan qazanılan yüksək status nəsib olur (Першиц А.И., 1996: 13). Təbiidir ki, təsərrüfatı tək idarə etməyə qadir olan qadın cəmiyyətdə nüfuz da qazanmağı bacarır.

Yerli adətlər ənənəvi olaraq ictimai həyatın bütün sahələrini tənzimləyir, lakin ailə və nikah məsələləri cəmiyyətin ən mühüm məqamlarıdır ki, bunlar da tarix boyu böyük dəyişikliklərə məruz qalmışdır. Belə ki, XIX əsrin sonları - XX əsrin əvvəllərində iqtisadi cəhətdən imkansız olan ailələrdə nikah haqqını (başlıq) verməkdən azad olmaq üçün subay qardaşın dünyasını dəyişmiş qardaşın dul qalmış xanımı ilə evlənməsinə icazə verilirdi. Bəzən hətta imkanı çox olan ailələrdə də ailə təsərrüfatını parçalamamaq və atasız qalan uşaqların başqa ailəyə düşməsinə yol verməmək naminə bunu edirdilər. Hazırda bu adət demək olar ki, unudulmuşdur.

İslama görə evlənərkən qız evinə başlıq verməkdə əsas məqsəd qadının sosial statusunu müdafiə etmək idi. Başlıq qızın ərə getdiyi ailəyə xərclik üçün deyil, ona  cehiz almaq üçün verilir (Калым в Ингушетии, 1924: 1).

Maraqlısı budur ki, başlıq məsələsi bu gün də öz aktuallığını saxlamışdır. Son illərdə başlığın məbləğini sosial-iqtisadi vəziyyətə əsasən İnquşetiya müftisi təyin edir: 2000-ci ildə 12 min rubl (Албогачиева М.С., 2007: 58), 2010-ci ildən isə 40 min rubl (Албогачиева М.С., 2011: 483). Göründüyü kimi inflasiya başlığa da təsirsiz ötüşmür.

Qadının mülkiyyəti həm şəriətə, həm də mövcud qanunlara görə onun özünə məxsusdur: Qadının cehizi və birgə nikah dövründə onun üçün alınan hər şey ona aiddir. Qadının razılığı olmadan ərin onun mülkiyyəti üzərində heç bir hüququ yoxdur, əks halda, o, qadının qohumları ilə problem yaşaya bilər.

Yerli adətlər də kişini mülkiyyət hüququndan məhrum edir. Hətta qadın rəhmətə gedibsə və övladı yoxdursa, o zaman mövcud mülkiyyət onun atası evinə qaytarılırdı (Керимов Г.М., 2007: 169). Əgər rəhmətə gedən qadının ondan sonra oğulları qalarsa, o halda, mülkiyyət həmin oğullar arasında  bərabər bölünürdü.

İllər keçdikcə sosial status da dəyişir. Əvvəllər, qadınlar kustar istehsalla məşğul olurdular: Yun və ipək emal edir və onlardan müxtəlif növ məmulatlar hazırlayırdılar. Belə əməklə məşğul olan qadın iqtisadi azadlıq əldə edirdi (Хасбулатова З.И., 1983: 58). Qadın əldə etdiyi gəlirlə istədiyi kimi rəftar edə və sərbəst şəkildə işini genişləndirə bilərdi. Cəmiyyət də onun mülkiyyət hüququnu müdafiə edirdi.

Rusiya imperiyası da bölgədə özünün məhkəmə və inzibati siyasəti ilə bu növ adətlərə dayaq olurdu. 1871-ci ildə Nazranda belə qanunları müdafiə etmək məqsədi ilə məhkəmə fəaliyyətə başladı (Адат 2003: 169). Adət və şəriətin ayrı-ayrı normaları ilə yanaşı, Rusiya hüquq normaları da prosesdə istifadə edilirdi (Северныи Кавказ, 2007: 200).

Beləliklə, dövlətin inquş qadınının sosial statusunu müdafiə etməsinə baxmayaraq, reallıqda bu status kişinin sosial statusundan hələ də aşağı səviyyədədir. Qadının sosial statusu o zaman artırdı ki, onun cəmiyyətdəki mövqeyi möhkəmlənir və sosiumda nüfuzu yüksəlirdi.

Hər bir yaş dövrü üçün konkret davranış modeli mövcud idi: Əgər cavan gəlinin əri rəhmətə gedərdisə, onun qayınanası, qayınatası və ya qaynı sağ idisə, dul qadının təsərrüfatı idarə etmək haqqı yox idi. Bunlara əməl etməyən qadına cəmiyyətdə ümumi qəbul edilmiş normaları yerinə yetirməyən qadın kimi baxırdılar.

Sovet hökuməti inquş qadınına təhsil almaq, istehsalatda və ictimai həyatda iştirak etmək, mülkiyyətinə və uşaqlarına sahib çıxmaq imkanını verən qanunlar qəbul etdi. Bundan əlavə, qadına qanunla dəstəklənən bir çox haqlar verilsə də, təcrübədə bu qanunlar tam işləmədi, çünki qadın və kişilər arasında hüquq bərabərliyi real həyatda əsla tətbiq edilmirdi. Çox vaxt kişi qadının xəbəri olmadan qərar verir və bundan sonra nəticəni ona bildirirdi. Düzdür, bəzi ailələrdə fərqli yanaşma da olurdu.

Postsovet dövrdə inquş cəmiyyətində böyük dəyişikliklər baş verdi. Sosial-iqtisadi vəziyyətin pisləşməsi, kütləvi miqrasiya prosesi, işsizlik, osetin-inquş konfliktinin vadar etdiyi məcburi köçkünlər inquş xalqının gündəlik həyatını da dəyişdirdi. Daha sonra, birinci və ikinci çeçen müharibələri bölgə ailələrində cinslərin roluna təsirsiz qalmadı. Qadınlar ailəni dolandırmaq məcburiyyətində qaldılar və bu da ərlə arvad arasında nisbi bərabərhüquqluğa gətirdi (Долакова З.М., 2008: 53).

Bu gün inquş qadının peşəkar fəaliyyəti və ictimai aktivliyi də nəzərə alınmaqla, sosial statusu onun şəxsi keyfiyyətləri ilə təyin edilir. Müasir inquş qadınının həyatında zəif bəndlər çoxdur. Qadınların nikahı bəzən onların özlərindən asılı olmur. Belə ki, kişilərin bir hissəsi ya oxumaq, ya da işləmək məqsədi ilə ölkəni tərk edirlər və bir daha geri qayıtmırlar.

Bölgədə qalan qadın üçün ərə getmək şansı aşağı olduğundan, bəzən onlar ikinci və hətta üçüncü arvad olmağa razılıq verirlər, çünki bu yolla ən azı uşaq sahibi olurlar. Əks halda, inquş qadını nə kəbindən kənar, nə də başqa millətə ərə getməklə uşaq dünyaya gətirə bilməz. Bu onlar üçün qadağandır. Başqa millət dedikdə qeyri-müsəlmanlar nəzərdə tutulur.

İnquş qadınının vətəndaş nikahı ilə hər hansı bir kişi ilə birgəyaşayışı onun heç ağlına da gəlmir. Ərə getməmiş bakirəliyi pozulmuş qıza cəmiyyət və ailəsi heç də yaxşı baxmır və həmin qızın ərə getməsi sonradan onun üçün böyük bir problemə çevrilə bilər.

Düzdür, İnquşetiyada poliqamiyaya hələ pis baxılır, orada da təkarvadlıq təqdir edilir. Bundan əlavə, Rusiya Federasiyasının qanunları da çoxarvadlılığı qadağan edir (Албогачиева М.С., 2009: 42). Bəzən özünü karyerasına həsr edən qadınlar üçün evlənmək problemi olur, adətlər onu karyerasını genişləndirmək imkanından çəkindirir və belə halda, bu tip qadınlar ömrünün axırına qədər tək qalmamaqdan ötrü məcburən ikinci və hətta üçüncü arvad olmağa razılıq verirlər. İkinci, üçüncü arvad olmaq isə həmin qadınların psixoloji problemlər yaşamasına gətirib çıxarır.

İnsan inkişafının müasir tendensiyası və ənənəvi cəmiyyətin təzadları demokratikləşməyə və bazar iqtisadiyyatına qədəm qoyan İnquşetiya qadınını çox pis vəziyyətə salır. Sadalanan amillər qadının sosial müdafiəsiz qalmasına və gender konfliktlərinə aparır. Qloballaşan dünya və köhnəlmiş adətlər, stereotipləşmiş kişi və qadın imici əvvəlki halında qala bilmir və dəyişikliyə məruz qalır.

## Ədəbiyyat:

**Rus dilində**

1. “*Адат. Традиции и современность*”. Тбилиси, Москва, 2003.
2. Албогачиева М.С., *“Конференция мусульман республики Ингушетия*” // Антропологический форум, 2011. No 14
3. Албогачиева М.С., “*Этнография и история ингушского*

*народа в письменных источниках конца XVIII – XX в. ”* – СП. : Изд–во «Наука», 2011, С. 180

4. Долакова З.М., *“Влияние межэтнического конфликта на ролевую структуру традиционнои семьи*”, Назрань, 2008
5. “*Калым в Ингушетии*” // Сердало. 1924. 19 нояб.
6. Кашежев, Т.П., “*Свадебные обряды кабардинцев / Т. П. Кашежев // Избранные произведения адыгских просветителеи*”, Нальчик, 1980.
7. Керимов Г.М., *“Шариат: Закон жизни мусульман. Ответы Шариата на проблемы современности*” СПб., 2007
8. Кумыков, Т.Х., “*Общественная мысль и просвещение адыгов и балкаро-карачаевцев в XIX — начале XX в. ”*, Нальчик, 2002, С. 53
9. Магометов А.Х., “*Культура и быт осетинского крестьянства (Историко-этнографический очерк*)”, 1963, DjVu, RUS
10. Першиц А.И., *“Геронтотимные традиции и долгожительство на Северном и Западном Кавказе // Северный̆ Кавказ: бытовые традиции в XX в. ”* М., 1996
11. “*Северный Кавказ в составе Россиискои империи*”. М., 2007
12. “Межэтнические и конфессиональные отношения в приволжском федеральном округе”, Под общей редакцией академика В.А.Тишкова, Москва – Ижевск – Оренбург, 2013
13. Хасбулатова З. И., *“Некоторые формы взаимопомощи, связанные с хозяиственным бытом чеченцев и ингушей в конце XIX — начале XX в. // Хозяйство и быт народов Чечено-Ингушетии*”. Грозныи, 1983

# IX FƏSİL

# GÜRCÜSTANDA GENDER SİYASƏTİ

*"...gender bərabərliyi hər bir xalqın inkişaf və sülh prosesində ən önəmli məsələdir"* (Kofi Annan)

**Gürcüstanda qadınlar: gender bərabərliyi tarixi perspektivdən**. Cənubi Qafqazda yerləşən Gürcüstan, həmişə Avropaya inteqrasiya etməyə cəhd göstərən, lakin bütün bunlarla yanaşı, öz dəyər və ənənələrinə də sadiq qalmağı bacaran bir ölkədir. İstər sovet dövründə, istərsə də müstəqillik əldə etdikdən sonra Gürcüstan qadınları ölkənin inkişafında müstəsna rol oynamışlar. Əksəriyyət tədqiqatçıların fikrincə, Qafqazda qadın hərəkatı sovet hökumətinin qurulması dövrü ilə üst-üstə düşür. Tbilisi Dövlət Universitetinin professoru Lela Gaprindaşviliyə görə isə, Qafqazda qadın hərəkatının başlanğıcı daha əvvəllərə, XIX əsrə gedib çıxır. Müəllif qeyd edir ki, həm Qərbin, həm də Şərqin qovşağında yerləşən Tbilisi XIX əsrdə çox maraqlı bir məkanda yerləşirdi. Bölgədə rus dili bilənlərin sayı çox idi. Rus dili vasitəsilə Avropada baş verənlər bu bölgəyə tez yetişir və buradakı hadisələrə əhəmiyyətli şəkildə təsir edirdi. Sonradan, gürcülər özləri Avropaya mütəmadi olaraq səyahət etməyə başlamış və Avropa təcrübəsini öyrənərək, bu ideyaların daşıyıcılarına çevrilmişlər.

XIX əsrdə ingilis cütlüyü Coun Stuart Mill və Harriet Teylorun dərc etdirdikləri "Qadınların azadlığı" əsəri bütün Avropa qadınlarını müstəqil olmağa səsləyirdi. Bu ideya tezliklə bütün Avropaya yayıldı. Professor Gaprindaşviliyə görə bu ideyalardan bəhrələnən ilk feminist qadınlardan biri də gürcü qadını Yekaterine Gabaşvili olmuşdur. Bu qadının iyirmi illik təkidi və fədakarlığı nəticəsində XIX əsrin sonlarında ilk qadın məktəbi açıldı. Bu məktəbdə qadınlara tikmək və toxumaq öyrədilir, buranı bitirən qadınlar sifariş əsasında çalışırdılar. Belə məktəblər həm paytaxt-

da, həm də bölgələrdə açılırdı. Bu məktəblər Avropa düşüncəli qadınlar tərəfindən dəstəklənirdi, sonunculardan Tumanişvili-Tsereteli və Yekaterina Melikişvili-Mesxinin adlarını çəkmək olar. Bu insanlar təhsil ocaqlarının açılmasında müstəsna rol oynadılar. Professor Gaprindaşviliyə görə məktəblərin açılmasının bolşevik və marksistlərin xidməti kimi qiymətləndirmək yanlışlıq olardı, əslində, bunların ərsəyə gəlməsində Gürcustan-Avropa dialoqu və qadın hərəkatının mühüm rolunu qeyd etmək daha çox yerinə düşərdi. Avropanın iki qadın yazarı – avstriyalı Nobel sülh mükafatı laureatı Berta Zutner və ingilis Markori Uardropun gürcü qadınlarına olan əhəmiyyətli təsiri nəticəsində XIX əsrdə Gürcüstanda qadın hərəkatının özülü qoyulmuşdur. Pasifist Berta Zutner 1879-cu ildə Meqreliya prinsesası –Yekaterine Dadianın dəvəti ilə Gürcüstana gəlmiş və düz doqquz il həyat yoldaşı ilə burada qalmışdı. Markori Uardrop Gürcüstanın çox hörmətli, sayılıb-seçilən şəxsiyyətləri ilə tanış olurmuş və gürcü qadınlarına feminist ideyaların yaranması istiqamətində çox böyük təsir göstərmişdi. O zamanlar dərc edilən gürcü dövri mətbuatında bu təsirə düşən gürcü qadınlarından çox bəhs edirdilər. Kişilər həyat yoldaşlarını ev işlərindən soyuduqlarına, dəblərə çox aludə olduqlarına və ənənələrdən uzaqlaşdıqlarına görə qınayırdılar. O zamanın gürcü qadınları savadsız qadınların cəmiyyətdə heç bir rolu olmadıqlarını dilə gətirir və düşünürdülər ki, bu uzun müddət davam etməməlidir. Ən azı gürcü qadını öz övladlarının yaxşı müəllimi ola bilmək dərəcəsində savada malik olmalıdır. Qadın tam təhsilli olmalıdır ki, o da cəmiyyətdə baş verən hadisələrə müdaxilə edə bilsin və cəmiyyətdəki aktual problemləri həll etmə qabiliyyətinə malik olsun. Markori Uardrop gürcü dilini öyrənmiş, böyük gürcü şairi Şota Rustavelinin əsərlərini ilk dəfə tərcümə etmiş və bu tərcümələri Avropada dərc etdirmişdi. O, "Pələng dərisi geymiş pəhləvan" əsərindən "aslanın erkəyi, dişisi olmaz" misrasını misal gətirərək qeyd edirdi ki, Gürcüstanda qadınların kişilərlə bərabər olması ideyası yeni ideya deyildir. Gürcüstan üçün bu

ideya ən azı ona görə qəribə səslənməməlidir ki, bu ölkə əfsanəvi kraliça Tamaranın hökmdarlığı dövründə çox tərəqqi etmişdir. Markorinin gürcü dilində danışması həm kişiləri, həm də qadınları heyran etmişdi. Bu elə bir dövrdə baş vermişdi ki, ölkədə "ruslaşdırma" siyasəti həyata keçirilir və məktəblərdə gürcü dili qadağan edilirdi. O dövr üçün gürcü dilində kitab çapı inqilabi hadisı kimi qiymətləndirilirdi.

Markori Uardrop yazırdı ki, Gürcüstan Avropadan və onun dəyərlərindən qorxmamalıdır. XIX əsrin sonu Gürcüstanda sosial-demokratik ideyalar geniş yayılmışdı. Qadın hərəkatına nəinki aristokratlar, digər təbəqələrin insanları da qoşulmuşdular. XIX əsrin sonunda, məşhur Gürcüstan jurnalistinin qızı, Kato Mikeladze Brüsseldə təhsil almış, 1910-cu ildə Gürcüstana qayıtmış və Qərbi Gürcüstanda, Kutaisidə sufrajist hərəkatının bünövrəsini qoymuşdu.

1918-ci ildə Gürcüstan parlamentinə seçilənlərin 4 %-i artıq qadınlar idi. Sovet dövründə Tbilisinin mərkəzində Klara Setkin adına bir küçə var idi. 1991-ci ildə Gürcüstan müstəqillik əldə etdikdən sonra bu küçə də daxil olmaqla, bir çox küçələrin adları dəyişdirildi. Ölkədə 8 Mart Beynəlxalq Qadınlar Günü bayramı ləğv edildi və əvəzində həmin tarix Ana Günü bayramı kimi qeyd edildi. 2002-ci ildə isə 8 Mart bayram günü yenidən bərpa edildi, lakin mahiyyəti dəyişdi, belə ki, bu artıq yaz və gözəllik günü kimi qeyd edilməyə başladı. Bütün bunlara baxmayaraq, hər il 8 Mart günü qadınlara hələ də gül və hədiyyələr verilir, həmin gün onlar ev işlərindən nisbətən azad edilirlər. Əslində, bu gün qadınların həyatında əhəmiyyətli bir gün olmalıdır, çünki müasir dövrdə bir çox aid olan ölkələr bu günü qadınlar və onların təşkilatları mühüm bir gün kimi qeyd edirlər.

Sovet dövründə qadın bərabərliyi dövlət siyasətinin tərkib hissəsi idi. Bu bərabərlik qadın hərəkatının, təkamülün nəticəsi deyil, bolşevik inqilabının nailiyyətlərindən biri kimi qəbul edilməlidir. Sovet İttifaqının süqutu ilə post sovet ölkələrində kom-

munist ideologiyası iflasa uğradı. Bu gün qadın təşkilatlarından başqa heç bir qurum – KİV, siyasi partiyalar, ailə institutları, məktəblər, güclü nüfuza malik olan kilsə qadın bərabərliyi uğrunda hərəkata tam qoşulmamışdır. Gürcüstan Parlamentində qadınların təmsil olma faizinə nəzər salsaq, bunun təxminən 6 %, yəni təxminən 1918-ci il səviyyəsinə endiyinin şahidi olarıq. Parlamentin 150 üzvündən yalnız on ikisi qadındır.

Gürcüstanda seçicilərin 59 %-ni qadınlar təşkil etsə də, onların yalnız 10 %-i siyasi həyatda iştirak edir. 2004-cü ildə Gürcüstanda prezident seçkləri zamanı bulletenlərdə yalnız kişi namizədlərin adları var idi. 2008-ci il prezident seçkilərində bir qadın, 2013-cü ildə isə üç qadın öz namizədliyini irəli sürmüşdü. Nino Burcanadzedən başqa, digər namizədlər 0.2 %-dən çox səs toplaya bilməmişdi. Nino Burcanadze 2013-cü il prezident seçkilərində 10 %-dən çox səs toplaya bilmişdi. Ümumiyyətlə, post-sovet dövründə Nino Burcanadze Gürcüstanda yüksək vəzifə tutmuş yeganə qadındır. O, altı il (2001–2008) parlament sədri olmuş və iki dəfə iki ay müddətinə (2003/2004 və 2007/2008) ölkə prezidentini əvəz etmişdi. Müstəqillik dövründə Gürcüstan qadınlarının parlamentdəki təmsilçiliyi 5-12 %-dən çox olmamışdır ki, bu da kifayət qədər aşağı göstəricidir. 2012-ci ilə qədər Birləşmiş Milli Hərəkat Partiyasından səkkiz nəfər, Xristian Demokrat Hərəkatı Partiyasından cəmi bir nəfər qadın namizəd parlamentə seçilə bilmişdir. 2012-ci il seçkilərində isə qadın deputatların sayı 10 nəfəri keçdi. Belə vəziyyət ölkədəki qeyri-stabilliyin, dövlətin gender siyasətinin zəif olmasının və seçki sistemi ilə partiya sistemləri arasındakı əlaqələrin düzgün qurulmamasının nəticəsidir.

Rusudan Kervalişvili parlamentin vitse spikeri vəzifəsinə seçilmişdir. Gürcüstan parlamentində Gender Bərabərliyi Şurası yaradılmışdır və onun da sədri biznesdən siyasətə gələn Rusudan Kervalişvilidir. Bu şura 2009-cu ildə yaradılmışdır. O, kommunist rejimi dövründə böyüyüb başa çatmışdır. Qəzetlərin birinə

müsahibə verən vitse spiker öz uşaqlıq dövrünü xatırlayaraq deyir ki, indiki parlament binasının qarşısında oraq və çəkicli qadın və kişinin heykəli var idi. O zaman qadın və kişi həqiqətən bərabər idi və bugünkü qədər problemlər mövcud deyildi. Çarpazlaşmış oraq və çəkic o demək idi ki, gender bərabərliyi və azadlıq bu cəmiyyətdə əsas element idi. İyirmi ildən artıq bir müddətdə müstəqillik əldə etmişik, konfliktlərdən keçmişik. Mövcud qətnamələrdə qadınların iştirakı təmin edilibmi? Sülh proseslərində qadının iştirakı yetərlidirmi? Bu təkcə bizdə belə deyil. Qafqazın hər yerində qadınların vəziyyəti demək olar ki, eynidir. Bəlkə qadınlarımız bu sülh prosesində iştirak etməyə maraq göstərmirlər? Əlbəttə, bu doğru deyildir! Ailənin qərarını kişilər verirlər, nəticədə uşaq və qadınlar əziyyət çəkirlər. Təəssüf ki, bu təkcə Qafqazda deyil, dünyanın bir çox patriarxal strukturlu mədəniyyətlərində baş verir. İlk nailiyyətlərimizdən biri QHT-lərin uğurlu əməkdaşlığı və 2010-cu ildə gender bərabərliyi qanununun Gürcüstan parlamentində qəbul edilməsidir. İndi əsas məsələ bunun kağız üzərində qalmamasına çalışmaqdır, çünki əks halda, bu qanunun qəbul edilməsinin heç bir önəmi qalmayacaqdır.

Gürcüstanın siyasi partiyalarında kifayət qədər təmsil olunan qadınlar, təəssüf ki, parlament seçkilərində lazım olan faizdə mandat əldə edə bilmirlər. Elə buna görə də cəmiyyətdə qadınların çəkdiyi ağrı-acıdan, əsasən kişilərdən ibarət olan yuxarı orqanlar tam xəbərdar olmurlar.

Seçkilər zamanı xeyli aktiv görünən qadınlar seçkilərdən sonra o qədər də gözə dəymirlər. Partiyalarda kifayət qədər olan qadın üzvlər heç partiya daxilində də üst qatlara qədər gedib çıxa bilmir və sıravi partiya üzvü olaraq qalırlar. Bəzən çox fəal, yuxarı eşelonda təmsil olunan qadınlar gözə dəysə də, bu ümumi mənzərəni o qədər də dəyişdirmir, çünki qadınlar sosial qrup şəklində fəaliyyət göstərmək istəmirlər. Gürcüstanda elə bir partiya yoxdur ki, o qadınların hər hansı bir kəskin problemini qaldırmış olsun və ya həlli yollarını göstərsin. Əlbəttə, bu baxımdan Gürcüstan

unikal bir ölkə deyil, bu vəziyyət bütün post sovet respublikalarında müşahidə olunur. Bəlkə də bu ona bir sübutdur ki, Sover İttifaqında heç vaxt real gender balansı mövcud olmamışdır. Bu suni şəkildə yaradılmışdır.

Bəzən söhbət gender balansından gedəndə, nədənsə bunu o qədər də düzgün anlamırlar. Əslində, gender balansı dedikdə söhbət gücün, iqtidarın düzgün və ədalətli bölüşdürülməsindən gedir. Patriarxal mədəniyyətli cəmiyyətlərdə, kişilərin könüllü güc bölmələrindən söhbət gedə bilməz. Qərb ölkələrinin təcrübəsinə nəzər salaraq, əmin oluruq ki, heç bir ölkədə güc qadınlarla rahatlıqla bölünməmişdir. Qadınlar önəmli sahələrdə qərar vermə prosesində iştirak etmək üçün həqiqətən real mübarizə aparmışlar. Gürcüstanın hazırkı vəziyyətini əldə əsas tutaraq, siyasi partiyaların nə zamansa qadınların və kişilərin ictimai-siyasi həyatda bərabər iştirakını təmin edəcək addımlar atacağını düşünmək absurddur. Bəzən Gürcüstanda qadın kultunun, qadına hörmət ənənəsinin və onun ölkə mədəniyyətinin bir hissəsini təşkil etdiyini dilə gətirirlər. Hər kəs bilir ki, real həyatda bu heç də həmişə belə deyildir.

Gürcüstanda da Qafqazın digər bölgələri kimi, ən vacib və ciddi problemlərdən biri ailə zorakılığıdır. 2009-cu ildə BMT Əhali Fondunun apardığı uzunmüddətli tədqiqata görə, təxminən qadınların üçdə ikisi kişilər tərəfindən fiziki və ya psixoloji zorakılığa məruz qalır. Gürcüstan KİV-ləri tez-tez bu məsələlərdən bəhs edir və problemləri gündəmə çıxarırlar. Həmin tədqiqatda qeyd olunur ki, zorakılığa məruz qalmış qadınların 34 %-i sorğu zamanı onları döyən ərlərinə bəraət qazandırmaq üçün arqumentlər tapmağa cəhd etmişlər. Bəzən döyülən qadınlar döyülməklərinə görə heç kəsi qınamırlar, bunu “qanuni hal” kimi qiymətləndirirlər. Qadınların böyük bir qismi evləndikdən sonra yaxınları ilə görüşməyi dayandırırlar, çünki ərləri tərəfindən qadağalara məruz qalırlar. Bəzən buna qadınların ərlərindən olan iqtisadi asılılıqları səbəb olur. Mövcud şəraitdə qadınlar ərlərindən ayrı ya-

şamaq imkanına malik deyillər. Qadınların çox qismi üzərilərinə düşən vəzifənin ev işləri və uşaq böyütməkdən ibarət olduğuna inanırlar, başqa həyatı heç xəyal da etmirlər. Qadının karyera ilə ciddi məşğul olmasını cəmiyyət hələ də birmənalı qəbul etmir, qadının evdənkənar fəaliyyətini təsəvvür edə bilmir. Müşahidələrə görə universitet illərində qızların sayı hər zaman oğlanların sayını ötüb keçir, lakin universiteti bitirdikdən sonra oğlanlar daha yaxşı işlərlə təmin olunurlar, qızlar isə ailə qurur və özlərini ailələrinə həsr edirlər. Bu da cəmiyyətdə formalaşan stereotiplərdən qaynaqlanır. Oğlanlar erkən uşaqlıq dövründən ailənin maddi təminatçısı ruhunda böyüdülür, qızlar isə ev idarəçiliyinə yönəldilir. Bu ənənələr dağlıq ərazilərdə daha qabarıq hiss edilir.

**Bərabərlik olmayan yerdə demokratiya yoxdur.** "Qızılgül" inqilabından sonra Gürcüstanda demokratik dəyərlərin cəmiyyətdə tətbiqi istiqamətində bir sıra islahatlar həyata keçirildi. Demokratiyaya nail olmaqdan ötrü qadın və kişilərin bərabər hüquqlarının və bərabər imkanlarının təmin olunması, yəni gender bərabərliyi mühüm amildir. Vətəndaş cəmiyyəti qrupları gender bərabərliyini siyasi diskursun tərkib hissəsi kimi təqdim etməyə başladılar, onu tələb olunan islahatlar siyahısına saldılar və prioritet təşkil edən digər sosial-siyasi məsələlərin üst qatlarında yerləşdirə bildilər. Əsas önəmli məsələ, demokratiya quruculuğunda gender bərabərliyinin önəmli hədəf olmasıdır, formal və deklarativ xarakterə malik olan demokratik proses və qurumlar heç vaxt gender bərabərliyini təmin edə bilməz.

Müstəqillik illərində Gürcüstan hökuməti qadınların vəziyyətini yaxşılaşdırmaq üçün müəyyən addımlar atmışdır. Bu dövrdə Gürcüstan demokratik dövlət quruculuğu istiqamətində bir çox çətinliklərlə üzləşmiş və onları aradan qaldırmaq üçün mübarizə aparmışdır. Sözsüz ki, müstəqillik ölkə üçün bir çox imkanlar açmış və eyni zamanda o, həll edilməmiş iki etnik münaqişə ilə yanaşı, siyasi və iqtisadi qeyri-müəyyənliklərlə də qarşılaşmışdır ki, bu da Gürcüstanda həm kişilərin, həm də qadınların həyatına

təsirsiz ötüşməmişdir. Bu proseslərlə yanaşı miqrasiyanın yüksək həddi, işsizlik və yoxsulluq da qadınların vəziyyət və statusuna kifayət qədər neqativ təsir etmişdir.

Qadınların status və hüquqlarına yerli şərait, ənənələr və mədəni xüsusiyyətlər də dərin təsir etmişdir. Ən başlıcası onu qeyd etmək lazımdır ki, Gürcüstanda, xüsusilə də ucqar bölgələrdə patriarxal ənənələr və davranış modelleri üstünlük təşkil edir. Həm özəl, həm də dövlət sektorunda qadın və kişilərin gender rolları, onların cəmiyyətdə yerləri də yuxarıda söylənənlərə təsirsiz qalmamışdır. Buna görə də, kişi üstünlüyü ilə müşaiyət olunan cəmiyyətdə qadınlara qarşı qeyri-bərabər münasibət diskriminasiya üçün zəmin yaradır, kişinin evdəki üstünlüyü qadınlara öz mövqelərini ifadə etməyə çox az şans və fəaliyyətləri üçün çox az meydan verir.

Kişilərin xeyrinə olan və çox dərin kök salmış stereotiplər Gürcüstan üçün xarakterik olan haldır. Bundan əlavə, onu da qeyd etmək lazımdır ki, militarizm və dini fundamentalizmin qüclənməsi də qadın azadlıq və hüquqları üçün ciddi təhlükə yaradan amildir. Bütün bu amillər gender subyektləri arasında qeyri-bərabər güc bölümü üçün zəmin yaradır və bu da nəticədə, gender qeyri-bərabərliyinə gətirib çıxarır.

Keçid dövrü həm kişilər, həm də qadınlar üçün çətin bir proses olsa da, sonuncular bununla mübarizə aparmaq üçün daha uyğun strategiyalar tapmağı bacarırdılar. Qadınların təhsil və iş təcrübələrinə nəzər salsaq, onların əsasən özləri üçün məqbul hesab edilən təhsil və tibb sahələrində daha çox təmsil olunmalarının şahidi olarıq. Qadınlar vətəndaş quruculuğu prosesinə daha rahat qoşulmuş və müxtəlif təşkilatlarla aktiv əməkdaşlıq etməyə başlamışdılar. Onlar qadın, uşaq və kişilər üçün mühüm hesab edilən çeşidli sosial məsələlərlə bağlı fəaliyyətə başladılar. Buna baxmayaraq, qadınların nə ailədəki, nə də cəmiyyətdəki statuslarında elə də əsaslı dəyişiklik baş vermədi. Bu dövrdə bir çox qadın QHT-lər meydana gəldi. Bu gün 200-dən çoxu rəsmi qeydiyyatdan keçmiş

təşkilat mövcuddur ki, bunlardan yalnız 80-i çox aktivdir. Demək olmaz ki, bu təşkilatların fəaliyyəti hiss edilmir, onlar müəyyən qədər nailiyyətlər əldə etsələr də, fundamental nəticələrdən danışmaq hələ ki, tezdir. Onların aktivliyi müəyyən sahələrdə hiss olunur və bunun tam hala gəlməsi hələ ki, nəzərə çarpmır.

Gürcüstan da daxil olmaqla, keçmiş sovet respublikalarında siyasətdə qadının rolunu artırmaq və gücləndirmək məqsədilə axtarışlar aparılır. Bu qismən də olsa, qadınların beynəlxalq konfransında, Pekin Fəaliyyət Proqramının qəbul edilməsindən sonra həyata keçirilməyə başlandı.

Yeni müstəqillik əldə etmiş Gürcustan hökuməti 1990-cı illərin çətin siyasi və iqtisadi keçid dövründə, qadın məsələlərinin həllinə məsuliyyət daşıyan bir qurum yaratmağa səy göstərmiş və 1998-ci ildə bunu həyata keçirmək üçün cəhd olunmuşdu, lakin bu cəhdlər formal xarakter daşımış və qadınların status və hüquqlarında fundamental dəyişiklikləri və real pozitiv inkişafı təmin etmək gücündə olmamışdır. Gürcüstan qadınlara qarşı hər növ ayrı-seçkiliyin aradan qaldırılması Konvensiyasına (CEDAW) qoşulmuşdur. Bununla da qadınlara qarşı diskriminasiya ilə mübarizə aparmaq və gender bərabərliyini dəstəkləmək istiqamətində fəaliyyət göstərmək istəyini ifadə etmişdir (Caucasus Analitical Digest, No. 21, 30 November 2010).

Qadınlar 1994-cü ildə bu öhdəliyə önəm verməyə başladılar və ölkədə gender bərabərliyinə nail olmaq üçün konkret addımlar atmağa start verildi. CEDAW xətti ilə Gürcüstanın BMT Təhlükəsizlik Şurasının 1325 qətnaməsinin öhdəliklərini yerinə yetirəcəyi ehtimal edilirdi. Bununla da, qadınların sülh quruculuğu, münaqişələrin həlli prosesində iştirakının, 2015-ci ilə qədər gender bərabərliyinin təmin olunmasının və qadınların fəallığının artırılması haqqında Minilliyin İnkişaf Proqramının müddəalarının yerinə yetirilməsinin realaşdırılması nəzərdə tutulurdu. Gözlənilən nəticə əldə edilməsə də, vətəndaş cəmiyyət qrupları Gürcüstan qadınları ilə əlaqəli nə beynəlxalq, nə də milli öhdəlik-

ləri kifayət qədər yerinə yetirməməsinə görə hökuməti heç vaxt tənqid etməmişlər.

Bütün Qafqazda olduğu kimi Gürcüstanda da qadınlar ziddiyyətlərlə dolu reallıqla qarşılaşırlar. Bir tərəfdən, onlar rahatlıqla təhsil ala bilmə, vətəndaş cəmiyyəti təşkilatlarında aktiv fəaliyyət, kiçik biznesi idarə etmə imkanına malikdirlər, digər tərəfdən isə, cəmiyyət hələ də qadınların başlıca vəzifəsini uşaqların qayğısına qalmaqda, ev işləri ilə məşğul olmaqda görür. Son vaxtlar gender rollarında dəyişikliyin olmasına və qadınların da kişilərlə yanaşı, evə gəlir gətirmələrinə baxmayaraq, gender rollarında və ev işlərindəki əmək bölgüsündə elə bir ciddi dəyişiklik baş verməmişdir. Belə ənənəvi təcrübə və münasibətlər qadınların ictimai sferada aktiv iştirakına və irəliləməsinə mane olur.

Qadınlar siyasətin bütün sahələrində, istər yerli, istərsə də dövlər səviyyəsində kişilərdən çox geri qalırlar. Qadın haqları fəalları qadınların işə qəbul edilməsi prosesində və önəmli hesab edilən digər sahələrdə gender balansının gözlənilməsi ideyasını dəstəkləyirlər. Yalnız belə olan halda, 2010-cu ilin mart ayında gender bərabərliyi haqqında qəbul edilmiş qanun həyata keçirilmiş olar.

Əmək Məcəlləsində qadınlarla əlaqəli qanunlarla bağlı müddəalara əsaslı dəyişikliklərin edilməsinə ehtiyac vardır. Maraqlıdır ki, qadınların əmək bazarında inkişaf və müvəffəqiyyəti üçün milli strategiya yoxdur, bu da onlara yoxsulluğu dəf etmək üçün iqtisadi fəaliyyətlə məşğul olmaqda çətinlik törədir. Araşdırmalar göstərir ki, həm qadının, həm də kişinin rəsmi iş yerlərinin olması iqtisadi səmərəliliyi və yaşayış standartını inkişaf etdirir. Başqa sferalarda iş tapa bilməyən qadınlar vətəndaş cəmiyyəti sektorunda yaxşı təmsil olunurlar. 2010-cu ildə Tbilisi QHT üzvlərinin 58 %-ini, bölgə QHT-lərinin 63 %-ini qadınlar təşkil edirdi.

Reproduktiv sağlamlıq sahəsində də elə bir irəliləyiş hiss edilmir. Hal-hazırda abort doğuşa nəzarətdə başlıca metod kimi qal-

maqdadaır. Əlbəttə, son illərdə, ailə planlaşdırılmasının müxtəlif metodlarının tətbiqinin qadınların sağlamlığına göstərdiyi pozitiv təsiri kimsə inkar edə bilməz, lakin bir çox qadınlarda reproduktiv sağlamlıq xidmətləri haqqında məlumatlar yoxdur. Bu xüsusilə dağ yerlərində, paytaxtdan uzaq bölgələrdə çox müşahidə olunur.

Ailədə zorakılıq məsələsi də Gürcüstanda kritik gender problemi olaraq qalır. Fiziki zorakılıq, psixoloji zorakılıq və iqtisadi nəzarət geniş yayılmış zorakılıq halları hesab edilir. Zorakılığı törədənlərin cəzalandırılımaması hallarının coxluğu və qadın haqlarına olan etinasızlıq bu problemlə mübarizə aparmaq yolunda əsas baryeralardandır. Əlavə olaraq, onu da qeyd etmək lazımdır ki, Gürcüstan ailələrində kişi hegemonluğu da qeyri-bərabər davranışa təkan verən əsas amillərdəndir. Cənubi Qafqazda ailə zorakılığı haqqında aparılan sorğularda (UNFPA, 2010) aşkar edilmişdir ki, hər on bir nəfər qadından biri fiziki zorakılığa məruz qalır və bu zorakılıqların motivləri qadının davranışına olan nəzarətin nəticəsi kimi göstərilmişdir. Sorğuda iştirak edən respondentlər bu problemi ailədaxili məsələ kimi qiymətləndirmiş və bunun ictimailəşməsinə qeyri-məqbul, ənənədən kənar hal kimi baxmışlar. Gürcüstanda kifayət qədər etnik azlıqlar mövcuddur. Bu azlıqların qadınları həm mədəni, həm də dil problemləri ilə üzləşdikləri üçün onların hüquqlarının pozulmasının miqyası daha böyükdür. Məlumatsızlıq səbəbindən və lazımi vərdişlərə malik olmadıqlarına görə onlar inteqrasiya və inkişaf problemləri ilə rastlaşırlar. Cəmiyyətdki digər azlıqlar da qadın QHT-ləri ilə əməkdaşlıq edirlər və məlum olur ki, onlar da sərt şəkildə diskriminasiyaya məruz qalırlar (Caucasus Analytical Digest, No. 21, 30 November 2010). Gürcüstanda mövcud münaqişələr səbəbindən ölkədə qaçqınlar ordusu yaranmışdır. Dövlətin ölkədaxili köçkünlərlə bağlı 2009-2012-ci illər üçün strategiyasında gender aspektləri öz əksini tapsa da, köçkün qadınlar, həmçinin kənd qadınları əhalinin daha az statuslu üzvləri hesab edilir, çünki

bu qadınların iqtisadi durumu çox aşağıdır. Onlar hətta yoxsulluq həddinə çox yaxındır, az savadlıdırlar və insan hüquqlarından az xəbərdardırlar.

Sumbatzeyə görə hökumət gender diskriminasiyasını aradan qaldırmaqdan ötrü çox az iş görsə də, Tbilisidəki "qızılgül" inqilabından sonra gender bərabərliyi məsələləri yenidən gündəmə gəldi, bu məsələ parlamentdə yenidən müzakirə obyektinə çevrildi (Sumbatze N., 2008: 57).

2004-2005-ci illərdə Məsləhət Şurası və dövlət institutsional mexanizmi kimi Gender bərabərliyi komissiyası yarandı. Sonradan, 2006-cı ildə Parlament BMT agentlikləri və qadın vətəndaş cəmiyyəti qruplarının təşəbbüsü ilə müxtəlif sahələrdə gender bərabərliyinə nail olmaqdan ötrü Gender Bərabərliyi Konsepsiyasını şəbəkə sənəd kim qəbul edildi. Nəticə olaraq, Parlament 2007-2009-ci illər üçün Gender Bərabərliyi Milli Fəaliyyət Planını qəbul etdi. Beləliklə, aparılan monitorinqlərdən də aydın oldu ki, dövlət aqentlikləri həm qanunvericilik istiqamətində, həm də icra sahəsində bu layihənin tətbiqini dəstəkləməkdə uğur əldə edə bilmədilər. Təcrübədə bu istiqamətdə uğurlu fəaliyyət yalnız QHT və beynəlxalq təşkilatlar tərəfindən aparıldı.

2010-cu ildə Parlamentdə Gender bərabərliyi haqqında qanun qəbul edilməsinə baxmayaraq, Gürcüstanda gender qanunvericiliyi yetərli səviyyədə deyildir. Qadın hüquqları haqda qanunun hazırlanmasına və onun qəbulunun təminatına QHT, BMT agentlikləri və Gender Bərabərliyi Məsləhət Şurası yardım etdi. Qanunda siyasi iştirak, iş, təhsil, səhiyyə və sosial qayğı sahələrində diskriminasiyanın ləğvi və gender bərabərliyinə nail olmaq kimi məsələlər nəzərdə tutulmuşdur, lakin bu qanunda da gender məsələləri tam dolğun şəkildə əks olunmamışdı. Qanun bütün sahələrdə qadınlara qanunvericilik haqları verir, reallıqda isə bu sahədə xeyli boşluqlar mövcuddur.

Gender Bərabərliyi Məsləhət Şurası Gürcüstanda gender bərabərliyi qanununu dəstəkləyən yeganə dəyişməz institusio-

nal qurumdur. Bu qanun Gender Bərabərliyi istiqamətində Milli Fəaliyyət Planının tətbiqi üçün hazırlanmışdır. Əlbəttə, bu sahədə irəliləyişlər də baş vermişdir. Danmaq olmaz ki, "qızılgül" inqilabından sonra insan alveri və ailə zorakılığı ilə bağlı bir sıra şey dəyişmişdir. Keçirilmiş islahatların və QHT-lə əməkdaşlıq etmək istəyinin nəticəsidir ki, 2006-cı ildə insan alveri və ailə zorakılığı ilə bağlı bir çox qanunlar qəbul edildi. Qanunların qəbulu İnsan Alveri Qurbanlarına Yardım və Müdafiə üçün Dövlət Fondunun yaradılmasına şərait yaratdı. Nəticə olaraq, insan alveri və ailə zorakılığının səviyyəsinin azalması hiss edilir.

Gender bərabərliyinə tam şəkildə nail olmağın yolu uzun prosesdir və Gürcüstanın siyasi diskursunda bu öz yerini mütləq almalıdır. Dövlət qadınlara qarşı ayrı-seçkiliyi aradan qaldırmaq üçün üzərinə bir çox beynəlxalq öhdəliklər götürmüş və demokratik prinsiplər uğrunda mübarizədə gender bərabərliyi, ailə zorakılığı və insan alverinın qarşısının alınması sahəsində ös siyasi iradəsini ortaya qoymuşdur, lakin hələ də bu öhdəliklərin yerinə yetirilməsində çətinliklər müşahidə edilməkdədir. Ümumiyyətlə, Gürcüstan milli qanunvericiliyində gender bərabərliyi ilə əlaqəli çoxlu çatışmazlıqlar mövcuddur. Əlavə olaraq onu da qeyd etmək lazımdır ki, gender rollarında dərin kök salmış stereotiplər və qadınların öz hüquqlarını tam bilməməsi onların azadlıq və haqlarına sahib olmalarına mane olur. Gürcüstanda qadın hərəkatının xeyli güclənməsinə və bunun qadınların vəziyyətinin yaxşılaşması prosesinə təkan verməsinə, ölkədə bəzi demokratik islahatlar keçirilməsinə baxmayaraq, gender bərabərliyi istiqamətində öhdəliklər hələ də tam yerinə yetirilməmişdir.

Beynəlxalq təşkilatlar siyasi, maliyyə və insan resursları ilə əlaqəli məsələlərdə gender bərabərliyinin tam təmin olunmaması səbəbindən Gürcüstana təzyiq göstərirlər. Avropa İttifaqına qəbul olmaq üçün mübarizə aparan Gürcüstan bilməlidir ki, gender diskriminasiyasını aradan qaldırmaq, bütün sahələrdə gender bə-

rabərliyin təmin etmək Aİ-nın gələcək üzvlərinin əsas prinsipləri olmalıdır. Bu prinsiplər effektiv və dayanıqlı demokratiya quruculuğunun zəmanətidir.

**Gürcüstanda gender problemləri və gender bərabərliyi siyasəti.** Gürcüstanda Sovet hakimiyyəti devrildikdən sonra gender və gender bərabərliyi fəal müzakirə obyektinə çevrilmişdir. Sosial məzmunlu gender qadın və kişi konsepsiyasını özündə ehtiva edir. Bildiyimiz kimi, gender təkcə qadın və kişilərin keyfiyyətlərini xarakterizə etməklə kifayətlənmir, həmçinin cəmiyyət və mədəniyyətin qadın və kişilər üçün yaratdığı davranış modelini, təfəkkürünü və fəaliyyətini də səciyyələndirir. Yəni, gender hər bir cəmiyyətdə sosial həyatın başlıca təşkilati prinsipidir. Gender bərabərliyi siyasətinin qayəsi, qadın və kişilərin resurslara olan əlçatanlığına nəzarəti təmin etməkdir (Magnus, E., 2003). Gender rollarına uyğun şəkildə yaranan davranış modelləri müasir dövrdə bərabərsizlik və diskriminasiya hallarına yol açır. İnsanlar arasında möcvud olan bölgü və diferensiasiya demək olar ki, əksər cəmiyyətlərdə gender bərabərsizliyinə gətirib çıxarır. Gender bərabərsizliyi qadınların bütün sahələrdə: təhsildə, səhiyyədə, siyasətdə və başqa yerlərdə qeyri-bərabər iştirakı ilə nəticələnir. Qadınların bütün sahələrdə bərabər təmsil edilməsi isə dünyanın inkişafına da öz faydalı töhfəsini verir (World Bank, 2003). Bir çox patriarxal normaların dominantlıq etdiyi ənənəvi ölkələrdə olduğu kimi, Gürcüstanda da qadınların işi ev təsərrüfatını idarə etmək, uşaq böyütmək, ailə üzvlərinin qayğısına qalmaqdır. Gürcü qadının sosial və siyasi aktivliyi cəmiyyət üçün rahat qəbul edilən bir hal deyildir. O, "ailə başçı"sına tabe olmalıdır və onun dediklərinə qeyd-şərtsiz əməl etməlidir. Qadın üçün ailəsindən savayı heç bir şey önəmli ola bilməz. Araşdırmalar (National Research on Domestic Violence against Women in Georgia) zamanı sorğuda iştirak etmiş 50,7 % qadından 45 %-i inanır ki, qadın öz həyat yoldaşına tabe olmalıdır (hətta, razı olmadığı məqamda da), çünki ailənin başçısı kişidir (Chitashvili M. Javakhishvili

N., Arutiunov L., Tsuladze L., Chachanidze S., 2012). "Ailədə və cəmiyyətdə kişi hüquqlarına qadınlarla müqayisədə üstünlük verilməlidir, çünki kişilərin 83 %-i ailəsinin çörək təminatçısıdır." Qadınların 63 %-i belə fikirləşir (Bax: http://www.crrc.ge/oda/). Sorğuda iştirak edən qadınların əksəriyyəti kişilərin gender rollarına görə üstün olduqlarını düşünür, sosial aktiv və qərarların onlar tərəfindən qəbul edilməsini təbii bir hal kimi qəbul edirlər. Belə reaksiyaları nəzərə alan bəzi tədqiqatçılar qeyd edirlər ki, qadınlar bugünkü durumlarından, yəni tabeçilik vəziyyətində olmalarından razıdırlar və cəmiyyətdə qadınların rolunun artırılması istiqamətində nələrinsə edilməsinə lüzum yoxdur və ya gender bərabərliyinin reallaşmasına inanmırlar.

Bu məsələləri dərindən təhlil edərkən məlum olur ki, bu tip qadınlar düşdükləri vəziyyəti real təhlil etməyə qadir deyillər, çünki ənənəvi ailələrdə böyümüş qadınların əksəriyyəti başqa cür fikirləşə də bilməzlər. Onların öz hüquqları haqqında məlumatları ya azdır, ya da ümumiyyətlə, heç yoxdur. Uzun illərin formalaşmış stereotipləri bu insanlara başqa cür düşünməyə imkan vermir. Reallıqda qadınlar onlara verilən seçim və hüquqdan məhrum edilmişlər. Beləliklə, onlar öz hüquqsuzluqlarından xəbərdar deyillər (Sumbatze N., 2008). Tədqiqatlar göstərir ki, bu kimi bərabərsizliklər iqtisadi və sosial prosesləri ləngidir, çünki gender bərabərsizliyi qadınları bir növ yoxsulluğa sürükləyir və onlar demokratiya quruculuğunda iştiraklarını təmin etməkdən ötrü siyasi arenada nəinki aktivlik nümayiş etdirə bilmir, hətta ora daxil olmağı bacarmırlar (Beer, C. 2009: 212-214).

Gürcüstan qadınları siyasətdə çox passivdirlər, bunu qanunverici və icraedici orqanlarda əsasən kişilərin təmsil olunması faktı da təsdiq edir. Bu hal, son parlament seçkilərində də müşahidə edilmişdi (Bax: http://www.parliament.ge/index.php?option, Accessed 12.08.2012). Qadınların parlamentdə aşağı faizlə təmsil olunmasının bir nömrəli səbəbi ölkədə mövcud gender bərabərsizliyi problemidir. Bu istiqamətdə 1994-cü ildən başlamış müza-

kirələrin və fəaliyyətin nəticəsi olaraq Qadınlara qarşı hər cür ayrı-seçkiliyin aradan qaldırılması haqqında Konvensiya (CEDAW) ratifikasiya olundu (Gaprindashvili L., Samnidze Kh., 2012). 2006-cı ildə Ailə zorakılığına qarşı qanun qəbul edildi (Sabedasvili T. 2007). 2010-cu ildə qadınların təhlükəsizliyini, əmək bazarında bərabərliyini və siyasətlə məşğul olmasına dəstək haqqında gender bərabərliyi qanunu qəbul edildi (Duban E., 2010). Bütün qeyd edilənlərlə yanaşı, QHT-lər gender bərabərsizliyi problemləri ilə əlaqəli qətnamələrin qəbulunda aktiv iştirak etməyə cəhd göstərirlər. QHT-lərin əsas məqsədi Gürcüstan qadınlarının fəallığını artırmaq, onların gender bərabərliyini təmin etmək, gender siyasətini ön plana çıxarmaq, qadın hüquqlarını müdafiə etmək, qadınların sosial, siyasi və iqtisadi həyata inteqrasiyasına nail olmaq, sülh əldə etmək və demokratiyanı genişləndirməkdir. Gürcüstanda QHT-nin cəmi 12 %-i qadın məsələləri ilə məşğul olur, qadın hüquqlarını müdafiə edir (Rusetsky H., Delemenchuk A., Metreveli T., 2007). Bu təşkilatlar həyata keçirdikləri layihələrlə gender bərabəyliyi siyasətini dəstəkləyir və qadınları gender bərabərliyi və qadın hüquqları istiqamətində maarifləndirirlər. Qanunvericilik orqanları səviyyəsində bir çox dəyişikliklərin edilməsinə baxmayaraq, Gürcüstan gender bərabərliyi siyasətində arzuolunmaz mövqe tutur. BMT İnsan İnkişafı İndeksinə əsasən Gürcüstan 2011-ci ildə insan inkişafı məsələsinə görə 187 ölkə içərisində 75-ci yeri, gender bərabərsizliyi indeksinə görə 146 ölkə içərisində 73-cü yeri və qadın və kişilər arasında qlobal siyasi baxışlarda fərq indeksinə görə 135 ölkə arasında 86-cı yeri tutmuşdur (Bendeliani, N., 2012). 2014-cü ildə insan inkişafı məsələsinə görə 188 ölkə arasında 76-cı yerə çıxmışdı. Gürcüstanda gender bərabərliyinin inkişafına təsir etmək üçün nə dövlət, nə də qadın təşkilatları yetərli işlər görmürlər və bu səbəbdən də, ölkə bir çox beynəlxalq göstəricilərdə hələ də geridə qalır.

Elene Caparidze Gürcüstan Qadınlar Fondunun fəaliyyətinə əsaslanaraq, tədqiqat aparmışdır. Gürcüstan Qadınlar Fondu

2005-ci ildə təsis edilmişdir və Gürcüstanda qrant verən ilk yerli təşkilat olmaqla, qadın qruplarının təşəbbüs və fəaliyyətlərinə dəstək verir. Bu Fondun fəaliyyəti çoxşaxəlidir, qadın problemlərinin həllinə yardım göstərir və bu problemləri daha çox aktuallaşdırır. Tbilisidə fəaliyyət göstərən səkkiz qadın təşkilat qrupunu hədəf seçən Elene Caparidzenin özü gender bərabərliyinin inkişafı istiqamətində təxminən altı-yeddi il çalışmışdır, iki il ərzində QHT-lə əməkdaşlıq etmişdir. Həmin təşkilatlar, öz fəaliyyətlərində gender bərabərliyini gücləndirməyi prioritet kimi götürmüşlər. Bundan əlavə o, Gürcüstanda aktiv fəaliyyəti ilə seçilən Taso fondu ilə əlaqə saxlamış, gender istiqamətli fəaliyyətlə məşğul olan Asiya İnkişaf Bankından bu işə nümayəndə cəlb etmişdi.

Tədqiqata cəlb edilən təşkilatlar aşağıdakılardır:

Gürcüstanın Qadın Fondu (Women's Fund Georgia www.womensfundgeorgia.ge)

"Taso" Təşkilatı (The "Taso" Foundation www.taso.ge)

Asiya İnkişaf Bankı (The Asian Development Bank www.adb.org)

Qadın İnformasiya Mərkəzi (Women's Information Center www.wicge.org)

İdentoba QHT (NGO Identoba www.identoba.ge)

Şaxlı – qadınlar üçün məsləhət mərkəzi (Sakhli – advice center for women www.saxli.gol.ge)

Qadınlara Dəstək Təşəbbüs Qrupu (Women's Initiatives Supporting Group http://women.ge/)

Gürcüstanda Zorakılığa qarşı Şəbəkə (The Anti-Violence Network in Georgia www.avng.ge)

İnsan Hüquqları Prioriteti (Human Rights Priority www.hrp.ge)

Sivil Cəmiyyət İnkişaf Mərkəzi (The Civil Society Development Center http://csdc.gol.ge/ http://www.facebook.com/csdc)

Yardım Əli (Helping Hand www.ngo.org.ge)

Amaqdarı qadın məşğulluq Mərkəzi (Association for the

employment of women – Amagdari)

Qafqaz Feminist Təşəbbüsü (The Caucasus Feminist Initiative www.wprc.org.ge)

Təşkilatların məqsədlərinə aşağıdakı göstərilənlər daxildir:

- gender bərabərliyi siyasəti yürütmək;
- qadın hüquqlarını qorumaq;
- demokratiyanın qurulması istiqamətində qadınların sosial, siyası və iqtisadi həyata cəlb etmək;
- vətəndaşlar üçün bərabər hüquqları təmin etmək;
- qadın məsələlərinə ictimai həssaslığı artırmaq;
- qadınların müştərək təşəbbüslərini dəstəkləmək;
- gender-həssas mühit yaratmaq.

Gürcüstanda gender bərabərliyi siyasətini qiymətləndirərkən belə nəticəyə gəlmək olar ki, irqindən, dinindən və etnik mənşəyindən asılı olmayaraq, hər bir vətəndaşın hüquqlarını qorumaq və hər kəsin ölkədəki resurslara bərabər çıxışını təmin etmək lazımdır. Ölkədə gender bərabərliyinin səviyyəsi, orada olan demokratiyanın səviyyəsinin göstəricisidir. Gender bərabərliyinin maksimum inkişafı demokratiya quruculuğu prosesində ölkənin qarşısına qoyduğu məqsədlərə maksimum çatması deməkdir. Əgər ölkədə gender bərabərliyi inkişaf edərək, maksimum həddə çatarsa, deməli belə cəmiyyətdə maksimum xoşbəxt və sağlam insanlar yaşayır.

Gürcüstanda gender bərabərliyi siyasətinin inkişafı dinamikasına müxtəlif tədqiqatçılar müxtəlif cür yanaşırlar. Məsələn, Sabedasviliyə görə Gürcüstanda həqiqətən də, sovet dövrü ilə müqayisədə gender bərabərliyi siyasəti inkişaf etmişdir. Son dövrlərdə gender əsaslı diskriminasiya və ailə zorakılıq halları azalmışdır. Ailə zorakılığının azalması, 2006-cı ildən müzakirəyə çıxarılan Ailə zorakılığı qanununun 2010-cu ildə qüvvəyə minməsinin nəticəsidir (Sabedasvili, T., 2007).

Bəzi tədqiqatçılar son dövrlərdə gender bərabərliyi siyasətində irəliləyişin baş verdiyini qeyd edirlər. Düzdür, bəzən ve-

rilən məlumatlar ziddiyyətli xarakter daşıyır, təbii ki, araşdırmanı yerinə yetirən tədqiqatçının sosial-siyasi statusu bu tədqiqatların məzmununa təsirsiz qalmır. Onların fikrincə, seçkilərlə bağlı dəyişikliklər baş vermişdir. Kvotaların qoyulması qadınların seçkilərdə aktiv iştirak etməsinə və qərar qəbul etmə prosesindəki fəallığına təkan vermişdir. Gender bərabərliyi siyasətinin uğurlu həyata keçirilməsində Gürcüstan parlamentinin başçılığı altında fəaliyyət göstərən Gender Bərabərliyi məsələləri üzrə Məsləhət Şurasının rolu da danılmazdır. Son dövrlərdə gender bərabərliyi siyasətinin tətbiqində və cəmiyyətin buna reaksiyasında ciddi dəyişikliklər baş vermişdir. Məsələn, əhalinin ailə zorakılığına qarşı reaksiyası kəskin dəyişmişdir. Əvvəllər, buna sönük münasibət bəsləyənlər, indi bu problemə qarşı həssaslıq nümayiş etdirirlər. Bu da onunla izah edilir ki, cəmiyyətin şüurunda dəyişikliklər baş vermişdir.

Hal-hazıda əvvəlki illərdən fərqli olaraq, insanlar qadınların siyasətdə təmsil olunmasına kinayə ilə yanaşmırlar. Cəmiyyətdə müstəqil qadınlara olan münasibət nisbətən dəyişmişdir. İqtisadi müstəqil statuslu qadınlara yanaşma başqa bir müstəviyə keçmişdir. Qadınlara qarşı gender diskriminasiyasını anlayıb ona qarşı çıxanların sayı artmışdır. Zorakılıq qurbanlarının çoxu öz vəziyyətlərini dərk edir, gender diskriminasiyasını qarşı etiraz etmək iqtidarında olduqlarını iddia edirlər.

Bütün yuxarıda qeyd edilənlərlə yanaşı, Gürcüstanda gender bərabərliyi siyasətinin lazımi səviyyədə olduğunu söyləmək düzgün olmazdı. Bunun da səbəbləri aydındır, çünki Gürcüstanda bu istiqamətdə qəbul edilən mövcud qanunlar yetərli deyildir. ATƏT-in statistik məlumatlarına əsaslanaraq demək olar ki, Gürcüstan gender bərabərliyi siyasətinin yerinə yetirilməsində 135 ölkədə arasında 86-cı yeri tutur. Bu o qədər də ürəkaçan göstərici deyildir. Ölkənin bu istiqamətdəki uğuru onun bundan sonra aparacağı siyasətdən çox asılıdır. Belə ki, qanunlarda dəyişikliklər etmək, siyasi partiyaların üst strukturlarında qadınların sayını artırmaq

zəruridir. Siyasi partiyalar dövlətin üst qurumlarında qadınların sayının artması istiqamətində işlərini düzgün qurmalıdırlar.

Qadın hüquqlarının qorunması istiqamətində fəaliyyət göstərən qadın təşkilatları son dövrlərdə xeyli aktivləşmişlər. Onlar aktual olan problemləri cəmiyyətin diqqətinə çatdırmaq üçün müxtəlif üsullardan istifadə edirlər. Küçələrdə fləşmobların keçirilməsi buna yaxşı misaldır. Ekspertlərin fikrincə, gender bərabərliyi siyasəti o zaman uğur qazanacaqdır ki, bu həm dövlət, həm siyasi partiyalar, həm dövlət təşkilatları, həm də QHT-lər tərəfindən dəstəklənsin (Duban, E., 2010).

Əslində, dünya təcrübəsinə görə yuxarıdan verilən hüquqlarla müqayisədə, aşağıların mübarizə nəticəsində qazanıqları hüquqlar daha dayanıqlı, daha keçərli olur. Gender bərabərliyi siyasətinin aqibəti heç vaxt təkcə beynəlxalq donorlardan asılı olmamalıdır. Ortaya qoyulan siyasi iradəyə nəzər saldıqda, bunun o qədər də güclü  olmadığını demək olar. Gender bərabərliyi siyasətinin həyata keçirilməsində maneçiliyin olmaması, o demək deyildir ki, dəstək vardır. Qanun qəbul edilmişdir, lakin tətbiq edilmə mexanizmi mükəmməl deyildir, çünki Gürcüstanda bunu istəyən qüvvələr tələb olunan səviyyədə deyildir. Qadınlara münasibətdə hər cür ayrı-seçkiliyə qarşı mübarizə konvensiyası (CEDAW) Gürcüstan Respublikası tərəfindən imzalansa da, dövlət öhdəsinə götürdüyü vəzifələri tam yerinə yetirməmişdir. Yenə də qeyd etmək yerinə düşərdi ki, bu təşəbbüs aşağıdan deyil, beynəlxalq təşkilatlardan irəli gəlmişdir. Ekspertlərin fikrincə, Gürcüstan uzun zaman gender bərabərliyi siyasətinin həyata keçirilməsinə etinasız yanaşmışdır. Bu siyasətin həyata keçirilməsi 2006-2010-cu illər arasında daha çox hiss edilmişdir. Aşağıdakı cədvəldən göründüyü kimi, bu illərdə beynəlxalq donorlar qadın təşkilatlarına xeyli miqdarda investisiya qoymuşlar. 2006-2010-cu illərdə gender bərabərliyi siyasəti ilə bağlı layihələrin həyata keçirilməsində Gürcüstan qadın təşkilatları fondlarına çoxlu pul köçürülmüşdür. 2008-ci ildə məbləğ xeyli artmış, 2009-cu ildə bu məbləğ artıq $3 milyona  bərabər olmuşdur.

**CƏDVƏL 1**

| 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|
| 0. 056609 | 0.051995 | 0.963423 | 2.944804 | 0.544944 |
| 0. 056609 | 0.051995 | 0.963423 | 2.944804 | 0.544944 |

Gürcüstandakı qadın təşkilatlarına investisiya qoyan ölkələrin sırasında Almaniya və İsveç öndə gedir. 2010-cu ildə qoyulan investisiyaların 90 %-dən çoxu Almaniyanın payına düşürdü. 2009-cu ildə Gürcüstanda gender bərabərliyinə təkan vermək üçün İsveç 3 milyon dollar həcmində maliyyə yardımı göstərmişdir (Bax: http: //www. stats. oecd. org/ Accessed: July, 10. 2012 9).

ATƏT-in statistikasına istinadən onu da qeyd etmək lazımdır ki, beynəlxalq təşkilatlar gender bərabərliyinin inkişafı üçün digər illərlə müqayisədə 2008-2009-cu illərdə Gürcüstana daha çox maliyyə dəstəyi göstərmişlər. Ümumiyyətlə, bu illərdə təkcə gender bərabərliyi siyasətinin inkişafı istiqamətində deyil, digər sahələrdə də Gürcüstana beynəlxalq təşkilatlar maliyyə yardımını artırmışlar. Gender bərabərliyi siyasətinə maliyyə dəstəyi kifayət qədər olmuşdur.

Aşağıdakı cədvəldən də aydın olur ki, 2006-2007-ci illərlə müqayisədə 2008-2009-cu illərdə beynəlxalq donorların Gürcüstana olan maliyyə dəstəyi xeyli artmış, 2010-cu ildə isə bu məbləğ yenidən azalmışdır.

**CƏDVƏL 2**

| 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|
| 723. 98419 | 371. 7368 | 1242. 4513 | 1192. 4769 | 892. 88623 |
| 515. 92599 | 209. 27506 | 783. 44164 | 651. 04163 | 620. 47803 |

Gender bərabərliyi siyasətinin həyata keçirilməsinə beynəlxalq təşkilatlar tərəfindən edilən yüksək maliyyə dəstəyinə baxmayaraq, problem öz həllini tam tapmamışdır. Problemin kökü nədədir?

Ekspertlərin fikrincə, gender siyasətinin uğurlu inkişafı üçün dövlət siyasətində dəyşikliklər etmək lazımdır. Rəsmilərin özləri etiraf edirlər ki, bu sahədəki qanunlar mükəmməl deyildir və Gürcüstan reallığı ilə tam ayaqlaşmır. Məntiqi bir sual meydana çıxır: Dövlət qanunvericilikdə lazımi addımlar atmışdır? Qanun mükəmməl deyilsə, o zaman o, uğursuzluğa uğrayar (Bax: http://www.stats.oecd.org). Gürcüstan hökuməti beynəlxalq təşkilatlar qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməmişdir. Ölkə hələ də, gender bərabərliyi siyasətini tam həyata keçirməkdə tərəddüd edir və bəzən də buna heç maraq göstərmir. BMT-nin təkidi olmasa, siyasi iradə nəzərə çarpmır.

Çox vaxt bu istiqamətdə ölkəyə verilən maliyyə yetərli olmur. Ona görə də, layihələr ya altı ay, ya da bir il davam edir. Bu səbəbdən də təşkilatlar başladıqları layihəni sona çatdıra bilmirlər. Donorların maliyyə dəstəyi məhdud olduğu üçün bəzən bu təşkilatlar yerlərdə başladıqları işlərini yarımçıq qoyur və bunun da təşkilata üz tutanlara xeyrindən çox ziyanı dəyir. İşi davam etdirmək çətinləşir. Bəzən də qoyulan maliyyə düzgün istiqamətlənmir, məqsədyönlü xərclənmir. Verilən maliyyə dəstəyi ənənəvi istiqamətlərə - ailə zorakılığı, qadınların reproduktiv sağlamlığı, qadınların siyasətdə iştirakı və sairə - xərclənir.

İqtisadiyyat, işsizlik, kənd təsərrüfatı və sairə kimi məsələlərə az diqqət yetirilir. Bir şeyi nəzərə almaq lazımdır ki, ailə zorakılığından, qadın passivliyindən başqa, gender əsaslı diskriminasiya da mövcuddur. Nəyə görə bir sıra kəskin xarakterli məsələlər daha çox qabardılır və bəzən ondan az kəskin olmayan məsələlər kölgədə qalır? Çox az saylı tədqiqatçı bu məsələlərlə bağlı araşdırmalar aparmışdır.

Ümumiyyətlə, genderlə bağlı problemlərə donorluq etmək istəyən təşkilatların sayı hələ də kifayət qədər deyildir. Nazirliklər təhsillə bağlı layihələrə həvəslə donorluq etsələr də, məsələ genderlə əlaqəli olanda maraq azalır.

Bu sahədə də inhisar mövcuddur və hər zaman sağlam rəqabət olmur. O da həqiqətdir ki, qadın təşkilatları əməkdaşlarının arasında peşəkarlar çox azdır. Gender bərabərliyi siyasətinin inkişafı ilə bağlı əsas problem ondan ibarətdir ki, dövlətin bu sahəyə göstərdiyi maraq çox aşağıdır, nə dövlət, nə də donorlar bu sahəyə həvəslə pul ayırmırlar. Əlbəttə, heç kim tam əminliklə deyə bilməz ki, maliyyə dəstəyi olarsa, gender bərabərliyi məsələsi kökündən həll edilər. Xeyr, əsas əhəmiyyətli məsələlərdən biri də qərarverici strukturlarda qadınların sayının az olmasıdır. Qadınların siyasətdə passiv iştirakı çox ciddi məsələdir və bu, gender bərabərliyi siyasətinin həyata keçirilməsinə həlledici təsir göstərir. Qadınlar siyasətdə üstünlük qazana bilmirlər. Parlamentdə təmsil edilən qadınların aşağı faizi də buna bariz misaldır. Onların sayı artmır və siyasətdə olan qadına münasibət hər zaman pozitiv olmur, onlara neqativ münasibət bəsləyənlərin sayı isə hələ də çoxdur. Demək olar ki, Gürcüstanın siyasi həyatında kişilər əsas rol oynayırlar.

Qadınların siyasətə cəlb edilməsi onlara nə vəd edir? Ekspertlərin iddiasına görə qərarvermədə qadınların say çoxluğu ölkədə gedən siyasi və sosial proseslərə təkan verəcək, çünki qadınlar ailə, qadın və uşaq problemlərini və onların həlli yollarını daha yaxşı bilirlər. Onların bu proseslərdə üstün iştirakı qəbul edilən qərarların keyfiyyətinə müsbət təsir göstərə bilər. Ekspertlərə görə, kişilər də ağıllıdırlar, sadəcə qadınlar daha zəkalıdırlar. Bunu dünya təcrübəsindən bir misalla da təsdiq etmək olar. 1970-ci illərin sonunda Fransada qadınların siyasi fəallığı cəmiyyətdəki bütün ab-havanı tam dəyişdi, nəticədə, ədalət sistemi yaradıldı. Qadınlar cəmiyyətdə mövcud olan problemlərin həllini çözmək üçün çeşidli təkliflər irəli sürdülər və cəmiyyət bunun az da olsa, xeyrini gördü.

İstənilən demokratik ölkədə qadınların siyasətdə böyük ölçüdə təmsil olunması gender bərabərliynə gətirib çıxarır və bu siyasi tarazlıq da istər-istəməz ədalətin bərpasına şərait yaradır. Belə cəmiyyətdə hər kəsin marağı nəzərə alınır, sosial siyasət inkişaf edir. Aydın görünür ki, Gürcüstanda gender bərabərliyi siyasəti ləng gedir və uğurla tətbiq edilmir. Qadının siyasətdəki aktivliyi bir çox sahələrdə əhəmiyyətli məsələlərin - sağlamlıq, təhsil, işsizlik və s. həllinə yardım edir. Qadınların siyasətə cəlb edilməsi mövcud problemlərin aradan qaldırılması üçün çox yeni və effektiv yollar açır.

Yuxarıda qeyd etdiyimiz kimi, bir çox ölkələrdə qadınlar sosial problemlərə qarşı çox həssasdırlar və siyasətdə olan qadınlar bu məsələlərdə mövqelərini açıq şəkildə ortaya qoymağı bacarırlar, bu da sonda ölkə üçün arzuolunan nəticəni verir. Əslində, sosial problemlərin həlli ölkə üçün əhəmiyyət kəsb edir.

Qadınların əmək prosesinə bərabər cəlb edilməsi də arzuolunan siyasi imkanlara yol açır. Gürcüstanın əhalisi üç milyon nəfərə bərabərdir, lakin əmək resurslarına çıxış imkanları bərabər deyildir. Əgər qadınlar bu sahədə öz sözlərini deməyi bacarsalar, qərar qəbul etmək səlahiyyətinə malik olsalar, onda həllini gözləyən bir sıra problemlər çözülə bilər. Məsələn, zorakılıq qurbanları, yaşlılar, fiziki qüsuru olanlar, etnik azlıqların nümayəndələri və müəyyən marginal qruplara daxil olan qadınlar üçün fondların ayrılması məsələsini dövlət qarşısında qaldıra və onlar üçün dövlətdən maliyyə dəstəyi tələb edə bilərlər.

Kənd qadınlarının məsələləri cəmiyyətdə aktual olsa da, dövlətin gündəmində deyildir. Kənd qadınlarına qarşı da diskriminasiya mövcuddur və onlar çox çətin vəziyyətdədirlər. Əgər kimsə dağ kəndlərində yaşayan acar qadınlara onların hüquqları haqqında broşura paylayarsa, bu onlarda yalnız gülüş doğurar. Bu o deməkdir ki, kənd qadınları hüquqlarından xəbərsizdirlər və onlar üçün oturuşmuş adətlərə riayət etmək daha rahatdır.

Gender bərabərliyi siyasətinin tətbiqindən danışmaq o zaman çətin olur ki, qadınlar dövlət strukturlarında az təmsil olunurlar. Parlamentdə qadınların təmsilçiliyinin aşağı faizi çox şeydən xəbər verir və Gürcüstanın gender siyasətinin dinamikasına ziyan gətirir.

Qadınlar niyə passivdirlər? Qadınların çoxu ona görə fəal deyillər ki, onların nə gender, nə də gender bərabərliyi haqqında geniş məlumatı yoxdur.

Qadınların passivliyini gücləndirən ən əsas amil qadın həmrəyliyinin olmaması və qadın hərəkatının çox zəif olmasıdır. Cəmiyyət kifayət qədər passivdir, demək olar ki, bu ölkədə qadın hərəkatı mövcud deyildir. Qadınların az motivasiyalı olmaları problemlərinin həlli prosesində onların iştirakını zəiflədir. Qadınlar daha problemlidirlər, lakin onlar konservativliyə meyillidirlər. Qadınların özləri dəyişməsələr, bu istiqamətdə heç bir addım atmasalar, problemlərin həlli çətin olacaqdır (Bax: http://www.civil.ge/files/files/2012/Pre-Election_Delegation_Statement-GEORGIAN.pdf).

Təəssüf ki, Gürcüstanda qadınların özləri də çox vaxt gender bərabərliyi siyasətini dəstəkləmirlər və kişilərlə bərabər hüquqlu olmaq istəmirlər. Gender bərabərliyinə nail olmaqdan ötrü qarşıda görüləsi çox işlər vardır. Qadın təkcə ailədəki fəaliyyəti ilə kifayətlənməməli, onun həm də aktiv sosial həyatı olmalıdır. Qadınların çoxu inanmır ki, aparılan təbliğat, keçirilən treninqlər qadınların gender bərabərliyinə olan yanaşmasında fərqlilik yarada və mövcud situasiyanı dəyişə bilər. Bəzən diskriminasiyaya uğrayan qadınlar öz hüquqlarını bilmədikləri üçün heç zorakılığa məruz qaldıqlarını da dərk etmirlər. Həm də keçirilən treninqlərdə iştirak edənlər təkcə qadınlar olmalı deyil, deyilənlərin kişilərə faydası daha çox ola bilər.

Bəzi tədqiqatçılar hesab edirlər ki, qadınların passivliyi iqtisadi çətinliklərlə əlaqədardır. İqtisadi çətinliyin passivlik, qeyri-aktivlik, sükunətlə nə əlaqəsi ola bilər? Əlbəttə, ki, yoxsulluq

içərisində yaşayan qadına sosial, siyasi proseslərdə iştirak üçün motivasiya və vaxt tapmaq çətindir. İqtisadi vəziyyəti normal olan qadının sosial-siyasi laqeydliyi, etinasızlığı azalır və müxtəlif sosial proseslərə qoşulur.

Çox yəqin ki, ayaqqabı almaq üçün pul tapmayan kasıb qadın çətin ki, sosial məsuliyyətdən xəbərdar olsun, lakin orta sinfi təmsil edən qadınlar da cəmiyyətdə baş verən sosial proseslərə etinasızlıq olmur. Ona görə də gender siyasətini inkişaf etdirməkdən ötrü dövlət maliyyə ayırmalıdır. Yoxsulluq qadınların ictimai və siyasi sferadakı aktivliyinə mane olur. Məsələyə daha qlobal baxsaq, əmin olarıq ki, lənətlənmiş dairənin hər iki sonu elə gender bərabərliyi siyasəti ilə əlaqəlidir. Gender siyasətinin uğurlu olması üçün həm dövlət orqanları fəallaşmalı, həm də qadın həmrəyliyi olmalıdır. Dövlətin maliyyə dəstəyi zəifdir və ona görə də qadın problemləri öz həllini tapmır. Həllini tapmayan qadın problemləri, onların cətin iqtisadi durumları qadınların passivliyinə və gender bərabərliyi siyasətinin tənəzzülünə gətirib çıxarır. Əgər iqtisadiyyat inkişaf edərsə, normal iş yerləri çoxalarsa, təhsil əlçatan olarsa, qadınlar universitet və ya peşə təhsili alarlarsa, o zaman onlar atalarından və ərlərindən asılı olmaz və zəif olmaları haqda fikirlərlə barışmazlar. Doğrudan da, iqtisadi vəziyyət və qadın aktiv-passivliyi bir-biri ilə əlaqəlidir. Məntiqlə düşünsək, anlayarıq ki, qadının iqtisadi səviyyəsinin yüksək olması onu elə qərarvermə prosesində aktivliyə aparan yoldur. Bu ailədə də müşahidə olunur, qadının qərarvermədə qətiyyəti onun iqtisadi vəziyyəti ilə üst-üstə düşür. Bu hər iki cins üçün keçərlidir.

Aparılan sorğularda kişi və qadının ailədə qərarvermə prosesindəki iştirakı barədə sorğu keçirilmişdir və aydın olmuşdur ki, iqtisadi durumu yaxşı olan hər iki cins qərarvermədə qətiyyətlidir, lakin yenə də kişilərin üstünlüyü daha çox müşahidə edilir. Əksəriyyət kişilər həmcinslərinin iqtisadi durumundan asılı olmayaraq, qərarvermə səlahiyyətinin kişilərdə olmasını dəstəklə-

mişlər. Hər iki cinsin qərarvermədə bərabər iştirakını dəstəkləyən respondentlərin faizi aşağı olmuşdur.

Ümumiyyətlə, iqtisadi və maddi vəziyyət qadınların gender məsələlərində stereotipləşmiş münasibətini müəyyən edir. Yalnız yüksək və ya aşağı gəlir ictimai sferada qadının uyğun olaraq passiv və ya fəal rolunu müəyyənləşdirir. Bəzi tədqiqatçılara görə, qadın passivliyi Gürcüstan mədəniyyəti və ənənəvi dəyərləri ilə bilavasitə əlaqəlidir. Onların fikrincə, Gürcüstanda patriarxal dəyər və ənənələrin dominantlığı qadınların passivliyini şərtləndirir. Gürcüstanda qadın hərəkatının mövcud olmasına mane olan amillərdən ən əsasları ənənəvi dəyərlərdir. Həm də qadın hərəkatının olmaması təhsilin düzgün təşkil olunmaması ilə də əlaqədardır. İnformasiya strategiyası da ən böyük problemlər sırasındadır. Bu, dövlət siyasəti səviyyəsində həll olunmalıdır. Yol göstərən, örnək olan, cəmiyyətdə ağlı, ciddiliyi, aktivliyi ilə nümunə ola biləcək qadınların təbliği yox dərəcəsindədir.

Cəmiyyətdə mövcud olan əsas sosial normalardan biri də seksual davranış normasıdır ki, bu da gender bərabərliyinin həssas indikatoru hesab edilir. Aparılan tədqiqatlar sübut edir ki, cəmiyyətin qadın davranışına qarşı patriarxal yanaşması mövcuddur və maraqlı odur ki, belə yanaşmaya həm qadınlar, həm də kişilər arasında təsadüf edilir. Qadınlar özlərinin seksual azadlığına laqeyd qalmırlar, lakin onların ailədənkənar, təkbaşına, müstəqil yaşamasına və rəsmi nikah olmadan vətəndaş nikahı ilə hər hansı bir kişi ilə bərabər yaşamasına neqativ baxırlar. Qadın yaşından asılı olmayaraq, tək, müstəqil yaşaya bilməz. Qadın üçün rəsmi nikah olmadan əks cinslə birgəyaşama cəmiyyət tərəfindən qəbuledilməzdir.

Aşağıdakı cədvəldə respondentlərin bu məsələyə münasibəti əks olunmuşdur.

**Gender-həssas suallara kişi və qadın respondentlərin münasibəti**

| | |
|---|---|
| Evlənməmişdən öncə valideynlərdən ayrı yaşamaq qadınlar üçün heç bir yaşda məqbul hesab edilmir | |
| Qadınlar | Kişilər |
| 52 % | 48 % |
| Evlənməmişdən öncə seksual əlaqə qadınlar üçün heç bir yaşda məqbul hesab edilmir | |
| Qadınlar | Kişilər |
| 53 % | 47 % |
| Evlənməmişdən öncə vətəndaş nikahında olmaq qadınlar üçün məqbul hesab edilmir | |
| Qadınlar | Kişilər |
| 53 % | 47 % |

Nəticə olaraq onu qeyd etmək lazımdır ki, gender bərabərliyi siyasəti və genderlə əlaqəli məsələlər iki əsas aspektdən – maliyyə və cəmiyyətin münasibəti nöqteyi-nəzərindən nəzərə alınmalıdır. Tədqiqatçı alimlərin iddiasına görə maliyyə resurslarının azlığı və gender bərabərliyinə cəmiyyətin neqativ münasibəti, Gürcüstanda gender siyasətinin həyata keçirilməsinə mane olan əsas amillərdəndir. Bəzi ekspertlərin fikrincə, Gürcüstanda gender siyasətinin uğuru üçün maliyyə məsələlərini müvəffəqiyyətlə həll etmək lazımdır, digərlərinin iddiasına görə isə, əsas məsələ cəmiyyətdə gender siyasətinə olan neqativ münasibəti dəyişdirməkdir. Əslində, bu iki problem bir-biri ilə o qədər bağlıdır ki, hansının birinci, hansının ikinci dərəcəli olmasını təyin etmək çox müşkül məsələdir.

**Gender bərabərliyi ölkənin resurslarına olan bərarbər çıxış deməkdir.** Bu ideyanı əsas tutaraq, onu qeyd etmək yerinə düşərdi ki, insanların gender, irq, etnik qrupundan, seksual və dini mənsubiyyətindən asılı olmayaraq, mövcud resurslara çıxışı bərabər olarsa, ölkədə gender-əsaslı və bərabərsizlik zəmnində diskriminasiyaya az rast gəlinər. Elə sosial ədalət nəzəriyyələrinin mövcuddur ki, bu yanaşmanı qəbul etmir. Belə nəzəriyyələrdən birinin banisi tanınmış alim Nənsi Freyzer iddia edir ki, etiraf problemi həll olunmayınca, təkcə resursların bərabər bölünməsinin heç bir əhəmiyyəti yoxdur. Freyzerin etirafına görə, fərqliliyin etirafı bilavasitə cəmiyyətin mədəni dəyərləri ilə əlaqəli olan məsələdir. N. Freyzer sual verir: Ədalətli bölüşdürülmə nəzəriyyələri fərqlilik etirafı məsələlərini haraya qədər nəzərə almalıdırlar. Onun fikrinə görə, ədalətli bölüşdürülmə standart nəzəriyyələrin fərqlilik etirafını təkzib edir və diqqəti resursların yenidən bölüşdürməsi məsələsinin üzərinə çəkir. Etiraf nəzəriyyələri bir çox çatışmazlıqlarla səciyyələnir. Onlar diqqəti iqtisadi bərabərliyə və resursların yenidən bölünməsinə yönəltmirlər və ədalətli bölüşdürmə məsələlərini əhatə etmirlər. Sosial ədalətsizliyin ən əsas hissəsi elə iqtisadi və mədəni ədalətsizliyin kombinasiyasıdır. Sosial ədalət sistemi sosial sistemləri və qurumları cəmiyyətdə bütün məqamlarda insanların bərabər iştirakına uyğun olaraq qiymətləndirilir.

Freyzer "Yenidən bölüşdürmə və ya etiraf?"əsərində bu ideyanı belə inkişaf etdirir: Ayrı-ayrılıqda nə resursların yenidən bölüşdürülməsi, nə də fərqliliyin etirafı tam əhəmiyyətli ola bilməz, bunların biri olmadan ədalət mövcud deyildir. O, inanır ki, müasir cəmiyyət hər iki komponentin əhəmiyyətini dərk etməlidir və cəmiyyətdə bərabərsizlik probleminin mövcud olması resursların yenidən bölünməsi və fərqliliyin etirafını ayrı-ayrılıqda deyil, birlikdə nəzərə almalıdır (Fraser N., 1995).

N.Freyzer bivalent kollektivçilik konsepsiyasında ədalətin bir-biri ilə bağlı və ayrılmaz sosio-iqtisadi və mədəni meyarla-

rının mövcud olmasının səbəblərini göstərir. Bivalent kollektiv o qrup insanları əhatə edir ki, onlar cəmiyyətlə bilavasitə əlaqəsi olan həm sosio-iqtisadi resursların ədalətsiz bölüşdürülməsi problemi, həm də qeyri-adekvat etiraf problemi ilə üzləşirlər. Belə kollektivin üzləşdiyi ədalətsizliyi eyni zamanda iqtisadi və mədəni sferalar yaradır. Freyzerə görə, belə bivalent kollektivçiliyin əsl nümunəsi elə genderdir, gender bərabərliyinə isə qismən iqtisadi system, qismən də cəmiyyət tərəfindən verilmiş normalar səbəb olur. Freyzer inanır ki, gender və irq bilvalent kollektivçiliyin paradiqmatik nümunələridir. Sosial sinfə, seksuallığa və identikliyə əsaslanan bütün qruplar bivalent kollektivlərdir. Freyzer əlavə olaraq, onu da iddia edir ki, sinfi, sosial ədalətsizlik mədəni səbəblərdən başqa iqtisadi səbəblərlə daha çox əlaqəlidir. Hər bir ədalətsizlik halında biz həm iqtisadi, həm də mədəni amili nəzərə almalıyıq, çünki Freyzerə görə bu mərhələdə ədalətli bölüşdürmə nəzəriyyəçiləri ədalətsizliyin mədəniyyətlə bağlı olan hissələrinə az diqqət yetirirlər, etiraf nəzəriyyəçiləri isə iqtisadi meyarlar və resursların yenidən bölüşdürülməsi tələbini qəbul etmirlər. Eyni zamanda Freyzer iddia edir ki, nə qədər ki, ədalətli bölüşdürülmə nəzəriyyəçiləri etiraf tələblərini nəzərə almaqla, modifikasiya etməyi mümkün hesab etmirlər, etiraf nəzəriyyəçiləri də resursların yenidən bölüşdürülməsi tələblərini nəzərə almaq iqtidarında deyillər. Elə bu səbəbdən də, ədalətin bivalent konsepsiyası həm yenidən bölüşdürmə, həm də etiraf nəzəriyyəsinin önəmliliyini dərk etməlidir, çünki hər iki konsepsiya bərabər şəkildə əhəmiyyətlidir. Gürcüstanda gender məsələləri üzrə ekspertlər və tədqiqatçı alimlərin qaldırdıqları problemlər də Freyzerin ədalət nəzəriyyəsi modeli ilə uyğun gəlir.

Gender məsələləri üzrə ekspertlərin fikrincə, maliyyə fondunun azlığı və dövlət tərəfindən bu məsələlərə az önəm verilməsi ən əsas problemlərdəndir. Əlavə olaraq onu da qeyd etmək lazımdır ki, gender bərabərliyi məsələlərinə qadınların etinasızlığı və qadın passivliyi də maddi çətinliklərlə əlaqədardır. Əgər bu

problemlərə Freyzerin mövqeyindən baxsaq, belə bir nəticəyə gələrik ki, qadınların passivliyi mədəni dəyərlərlə izah edilir və etiraf problemində özünü göstərir. Yuxarıda deyilənlərə istinadən əminliklə demək olar ki, bütünlükdə cəmiyyətin qadının seksual azadlığına, müstəqil və valideynlərindən ayrı yaşamaq hüququna neqativ münasibəti elə mədəni normalarla izah edilir. Gürcüstanda qadın əleyhinə zorakılığa qarşı Milli Tədqiqat Mərkəzinin apardığı sorğularda iştirak edən respondentlərin əksəriyyəti "qadın qeyd-şərtsiz ərinə tabe olmalıdır" demələrinin izahı elə mədəni dəyərlərdən qaynaqlanır.

Göründüyü kimi nə qadın, nə də cəmiyyət gender bərabərliyinin vacibliyini qəbul etmir və gender bərabərsizliyi problemi də qadının həm ictimai, həm də siyasi sferalarda aşağı faizlə təmsil olunmasına səbəb olur. Belə problemlər və ədalətsizlik qəbul edilmir, çünki bunların səbəbi mədəni normalardır və qadın hüquqsuzluğudur. Qadının sükunəti cəmiyyət tərəfindən sosial ədalətsizlik kimi deyil, norma kimi qəbul edilir. Əgər cəmiyyət gender bərabərsizliyinin nə dərəcədə böyük problem olduğunu dərk etməzsə, insanlar bunu problem kimi qəbul etməzlərsə, qadınlar passiv və qeyri-təşəbbüskar qalarlarsa, dövlət qadına nə qədər iqtisadi kömək göstərsə də, maliyyə resursları tam bərabər bölünsə də, qadınların problemləri öz həllini tapmayacaqdır.

Nəticə olaraq qeyd etmək lazımdır ki, Gürcüstanda genderlə bağlı ədalətsizliklər təkcə iqtisadi səbəbdən deyil, həmçinin cəmiyyət tərəfindən yaradılmış münasibət və normalardan qaynaqlanır. Bərabərsizlik probleminin aradan qaldırılmasına dövlətin gender bərabərliyi siyasəti üçün ayırdığı az maliyyə vəsaitindən daha çox mədəni normalar və dəyərlər mane olur.

**Nəticə.** Gürcüstanda gender siyasətini qiymətləndirən, qadın məsələləri ilə məşğul olan təşkilatların nümayəndələri bir sıra önəmli məsələlərə toxunmuşlar. Birincisi, çoxsaylı dövlət və qeyri-dövlət təşkilatları Gürcüstanda gender siyasətinə və gender bərabərliyini inkişaf etdirməyə nə qədər təkan versələr də, bu qu-

rumların işinini zəif və az inkişaf etmiş kimi qiymətləndirmək olar. Ekspetlərin fikrincə, əsasən gender bərabərliyi haqqında qanunvericiliyə mühüm dəyişikliklər etməyə və onları Gürcüstan reallıqlarına uyğunlaşdırmağa ehtiyac duyulur.

Aparılan tədqiqatlara istinadən onu demək olar ki, gender siyasətinə mane olan ən əsas üç məsələyə diqqət etmək lazımdır: gender bərabərliyi sahəsində dövlətin ardıcıl siyasət aparmaması, dövlət və donorların lazımi ölçüdə maliyyə dəstəyi ayırmaması və genderlə bağlı məsələlərə cəmiyyətin qeyri-adekvat münasibəti. Cəmiyyət və dövlət qadınların siyasətdə lazımi səviyyədə təmsil olunmalarına təkan verməli, dövlət təhsil, səhiyyə və işsizlik sferalarındakı gender bərabərsizliyini aradan qaldırmaq üçün lazımi tədbirlər görməlidir. Ən əsası isə, gender bərabərliyi siyasətinin aparılmasında beynəlxalq təşkilatlardan çox, dövlətin özü təşəbbüskar olmalı, problem ölkə daxilində öz həllini tapmalıdır. Aydın məsələdir ki, gender siyasətinin inkişafı və siyasətdə çoxsaylı qadının olması Gürcüstanda demokratiyanın inkişafına təkan verə bilər. Beləliklə, gender bərabərliyi ilə əlaqəli ən mühüm aspekt cəmiyyətin bərabərliyə/qeyri-bərabərliyə olan münasibətidir. Cəmiyyətin genderlə bağlı məsələlərə marağını artırmaq və insanları bu barədə məlumatlandırmaq zəruridir. Ekspertlərin fikrincə, qadınların ictimai və siyasi sferalardakı passivliyinə səbəb, bir tərəfdən, onların iqtisadi çətinlikləri, digər tərəfdən isə, ölkədəki patriarxal normalardır. Həqiqətən də, iqtisadi çətinliklər qadınlara neqativ təsir edir və onları müxtəlif sosial və siyasi proseslərə cəlb edəndə ciddi problemlər yaradır. Elə buna görə də, maddi cəhətdən çətinliyi olan qadınlar öncə bu problemin öhdəsindən gəlməyə çalışır, bundan sonra ictimai və siyasi sferalarda, müxtəlif sosial problemlərin həllində aktiv iştirak etmək arzusunu ifadə edirlər. Bəzən onlar maddi problemlərin həllindən sonra da sosial-siyasi həyatda passivlik nümayiş etdirirlər. Cəmiyyətin gender bərabərliyinə olan münasibəti hələ də kritikdir və bu patriarxal cəmiyyət üçün tipik durumdur. Əlbəttə, cəmiyyətin böyük bir

hissəsi qadının aktiv olmasına lüzum görmür və gender bərabərsizliyi ilə bağlı problemləri əhəmiyyətli hesab etmirlər. Cəmiyyətin mədəni dəyərləri və normaları tələb edir ki, qadın tabeçilik mövqeyində olsun və passiv qalmağa davam etsin. Belə münasibətlərin içərisində böyüyən insanlar üçün gender bərabərliyini qəbul etmək və bu məsələnin mahiyyətini dərk etmək çox çətindir. Nənsi Freyzerin nəzəriyyəsinə görə, Cürcüstan nümunəsində təkcə resursların bölüşdürülməsi, qadınların iqtisadi fəallığının artırılması ilə mövcud problemin həlli mümkün deyildir. Problemin mahiyyətini dərk etmək əsas məsələdir. Ekspertlərin fikrincə, informasiya kampaniyalarının, intensiv və effektiv treninqlərin köməyi ilə cəmiyyətin gender məsələlərinə həssaslığını artırıb inkişaf etdirmək, onun məsələyə qeyri-adekvat, neqativ münasibətini dəyişmək olar. N.Freyzerin nəzəriyyəsinə görə nə bərabər yenidən bölüşdürmə, nə də etiraf ayrı-ayrılıqda gender bərabərsizliyi ilə mübarizədə yetərli deyildir. Bunlar yalnız kompleks şəkildə tətbiq edildikdə effekt verə bilər. Freyzer inanır ki, müasir cəmiyyət hər iki komponentin əhəmiyyətini, mahiyyətini dərk etsə, onda məsələnin həlli asanlaşar. Gürcüstanda gender siyasətinin həyata keçirilməsi prosesində qadının iqtisadi gücünün artırılması və gender bərabərliyi haqqında məlumatlandırılması gözlənilən effekti verməyəcəkdir. Gürcüstan cəmiyyəti üçün aktiv treninqlər və güclü informasiya fəaliyyəti daha əhəmiyyətli və məhsuldar ola bilər. Beynəlxalq təşkilatlar və QHT-lərin əvəzinə, Gürcüstan dövlətinin aktiv gender siyasəti gender bərabərliyi üçün həqiqi zəmin yarada bilər.

## Ədəbiyyat:

**İngilis dilində**

1. Caucasus Barometer, 2010 Available at: http://www.crrc.ge/oda/

2. Beer, C., "*Democracy and Gender Equality, Studies in Comparative International Development (SCID)*", 2009, Business and

Economics, Volume 44, Issue 3, p. 212-214
3. Bendeliani, N. (2012), "*Beyond the Human Development Index: Assessing the Human Development in Georgia through International Indices and Rankings*". Available at: http://css.ge/index.php?lang_id=ENG&sec_id=23&info_id=433.
4. Ketevan Chkheidze, "*Gender Politics in Georgia"*, Caucasus Analytical Digest, Tbilisi, No. 21, 30 November 2010, 2
"*Domestic violence survey in the South Caucasus*", UNFPA, Caucasus Analytical Digest, No. 21, 30 November 2010
5. Chitashvili, M. . Javakhishvili, N., Arutiunov, L., Tsuladze, L., Chachanidze, S. "*National Research on Domestic Violence against Women in Georgia*", 2010, Tbilisi
6. Duban, E., "Gender Assessment USAID/GEORGIA", 2010
7. Gaprindashvili, L., Samnidze, Kh., "*The Convention on the Elimination of All Forms of Discrimination against Women (CEDAW): Equality, Legislation and Reality*", 2012
8. Fraser N., "*Recognition or Redistribution? A Critical Reading of Iris Young's Justice and the Politics of Diference*", Journal of Political Philosophy, 1995, Volume 3, Issue 2, p. 166–180
9. Magnus, E. "*Gender analysis in NRSP. DFID NRSP Programme Development Report PD123*", 2003
10. Review of Gender Equality Strategy and Monitoring implementation of 2007–2008 GAP, UNFPA, 2008, "*Gender Equality Law of Georgia",* March 2010, Article 12.
11. Rusetsky, H., Delemenchuk, A., Metreveli, T., "*Assessment of needs of women's movement in Georgia*", 2007.
12. Sabedashvili, T., "*Gender and Democratization: the Case of Georgia 1991-2006*"
13. Sumbatze, N. Gender and Society", 2008.
14. World Bank "Gender Equality and the Millennium Development Goals", 2003.

**İnternet**

http://www.civil.ge/files/files/2012/Pre-Election_Delegation_Statement-GEORGIAN.pdf Accessed: July, 29. 2012
http://www.stats.oecd.org/ Accessed: July, 10. 2012
http://www.stats.oecd.org/ Accessed: July, 10. 2012, 9
http://www.parliament.ge/index.php?option, Accessed 12. 08. 2012

# X FƏSİL

# ERMƏNİSTANDA GENDER SİYASƏTİ

**Ermənistanda gender bərabərliyi: Xalqın tələbidir, yoxsa beynəlxalq təşkilatların güclə sırıdığı şərt?** SSRİ dövründə kişi və qadınların bərabərliyi bütün hüquq qanunvericilik aktlarında nəzərdə tutulurdu. Bu qanunlar qadınlar üçün həm sosial, həm iqtisadi, həm də mədəni hüquqların təminatı demək idi. Buna baxmayaraq, reallıqda insanlar üçün əsl azadlıq xəyal olaraq qalırdı, xüsusilə də qadınlar üçün bu əlçatmaz idi. Cəmiyyətdə dominantlıq edən patriarxallıq, eqalitarlıq və gender bərabərliyi ideologiyası təzad təşkil edirdi. Bu sosial təşkilatda kişilər güc pozisiyalarında, qərar qəbul etmədə, resurslara və var-dövlətə nəzarət etməkdə öz yerlərini sanki sementlə bərkitmişdilər.

Dövlət qadınları ciddi nəzarətdə saxlayırdı, lakin gender bərabərliyi ideologiyasını dəstəkləməklə, onların siyasi, iqtisadi və bir qədər də sosial aktivliyinə (bu da qadınların işinin üç qat artmasına səbəb oldu, belə ki, iş, ailə və ictimai məsuliyyət) az da olsa təkan verdi. Buna baxmayaraq, qadın nə ailədə, nə də ev işlərində gender bərabərliyinə sahib ola bilmədi. SSRİ-də özəl həyatda kişilərin qadınlar üzərində sosial, iqtisadi və hətta fiziki gücü qəbul edilmişdi.

Ermənistanda Dünya bankının apardığı tədqiqatlara istinadən qeyd etmək olar ki, cəmiyyətdə "gender bərabərliyinin yalnız görüntüsü" var idi, cəmiyyət tam patriarxallığı ilə seçilirdi və ailədaxili gender əlaqələrində "kişi ailənin çörək təminatçısıdır" modeli əsas götürülürdü. Qadın isə "ana, həyat yoldaşı və ailənin qayğısına qalandır" modelinə əsasən fəaliyyət göstərirdi. Cinsləin qeyri-bərabər güc əlaqələri Sovet İttifaqının çökməsindən sonra özünü daha qabarıq göstərməyə başladı (Pierella Paci, 2002: 9).

Sovet İttifaqının dağılmasından sonra real vətəndaş cəmiyyətinin olmaması keçid dövrünə və demokratikləşmə prosesinə, o cümlədən, patriarxal stereotiplərin, mentalitet və təcrübənin yenilənməsinə çox pis təsir etdi. Bununla belə, Ermənistanda cinslərarası güc assimetriyasını diqqətdə saxlayan gender diskurslarının yaranması üçün müəyyən zamanın keçməsinə ehtiyac var idi. Ermənistanda gender bərabərsizliyinin nəticəsi idi ki, qadınlar və kişilər arasında güc qeyri-bərabər bölüşdürülmüşdü və resurslara çıxış imkanları qeyri-bərabər idi. Sonradan sosial və ictimai həyatda gedən de-modernləşmə və onun proseslərlə təsirinin artması Ermənistanda  açıq müstəviyə keçdi.

Postsosialist ölkələrdə keçid dövründə gedən bu proseslər patriarxal modellərin daha da möhkəmlənməsinə, iqtisadiyyat, siyasət və ictimai həyatda gender assimetriyasının artmasına gətirib çıxardı (James Hughes, Ben Slay, 2007: 1).

Amerikalı politoloq Meri Hokesvort iddia edir ki, avtoritar rejimdən demokratik rejimə keçid siyasi sistemdə dəyişikliyə hökm verir, bu demokratik sistem heç də hər zaman gender bərabərliyinə zəmanət vermir və bir çox hallarda, keçid dövrü özü ilə daha çox bərabərsizlik gətirir (M.Hawkesworth, 2002: 299). Bir çox sosioloqların iddia etdiyi kimi postsovet bölgələrində "qırmızıların azadlıq ideyaları ilə emansipasiya ideyaları" arasında böyük təzad mövcud idi (Bozena Umińska-Keff, 2009: 19).

Postsosialist bölgələrdə keçid dövründə gender bərabərsizliyi mövcud olan situasiyalara nəzər salan Aqnieszka Roşon və Aqnieszka Qrzibek bütün deyilənlərə belə münasibət bildirirlər: "Demokratik transformasiyanın iyirmi ildən çox davam etməsinə baxmayaraq, qadınlar hələ də kişilərlə aralarındakı məsafəni azalda bilmirlər ki, ictimai debatlarda onların səsi aydın eşidilsin" (Agnieszka Rochon, Agnieszka Grzybek, 2009: 7). Ermənistan deyilənlərdən kənarda qalmır, burada qadınların səsini eşitmək üçün mövcud məsafə hələ çox uzundur.

Sosialist İnternasionalının vitse prezidenti, erməni əsilli Maria Titizian iddia edir ki, "müstəqillik dövründə qadınlar daha da

geriləmişlər, daha çox geriyə-ənənəviçiliyə qayıtmışlar, onlar cəmiyyətin təyin etdiyi rolları yerinə yetirirlər və onların idarəçilik və münaqişə həll etməkdə rolları daha da azalmışdır” (Bax: http://www.armenianweekly.com/2010/03/07titizian).

Gender üzrə amerikalı ekspert Elizabet Duban araşdırmalarında belə yazır: “Patriarxal mədəniyyət və ənənələrə əsaslanan qadın və kişilərin rol və statuslarında fərqlər əhəmiyyətli dərəcədə özünü büruzə verir. Mədəni norma və stereotiplər kifayət qədər sərtdir və qadınlar çoxsaylı maneələrlə üzləşirlər, belə ki, cəmiyyətin anlayışına görə qadınlar ictimai sferada ümumiyyətlə, qərar qəbul edə bilməzlər, çünki onlarda özünə inam hissi çatışmır və onlar hələ də kişilərdən çox asılıdırlar” (E.Duban, 2010: 3). Gender bərabərsizliyini artıran bu “orqanik” proses 1990-cı illərin ortalarına qədər nəzarətsiz davam etdi.

Gender bərabərliyi istiqamətində 1993-cü ildə Vyanada keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransından, 1994-cü ildə Qahirədə keçirilmiş Əhali və İnkişaf üzrə (İCPD) Beynəlxalq Konfransından, xüsusilə, 1995-ci ildə Pekində keçirilmiş Qadınların IV Ümumdünya Konfransından sonra gender məsələləri ictimaiyyətin nəzərinə çatdırıldı və bir çox ölkələrdə olduğu kimi, Ermənistanda da bu mövzular müzakirə edilməyə başlandı. Bu elə bir dövr idi ki, Ermənistan dünyaya açılmağı, sivil inkişafa, müasir liberal demokratiyaya, Avropa dəyərlərinə və azad bazar iqtisadiyyatına keçməyi xəyal edirdi.

Hansı səbəbdən Ermənistanda gender mövzusunda olan ilk ictimai diskurslar belə bir tarixi dövrlə üst-üstə düşürdü? Yuxarıda qeyd olunan konfranslar genderlə bağlı ideyaların, strategiyaların fəaliyyət planlarının meydana gəlməsinə və qızğın debatların yaranmasına səbəb oldu. Əlbəttə, Avropoda gedən proseslər də deyilən məsələlərə təkan verməmiş deyildi.

Bir şeyi də nəzərdən qaçırmaq lazım deyil ki, liberalizasiya və demokratiya yolunun başlanğıcında olan və yenicə müstəqillik qazanmış postsovet ölkələri, o cümlədən Ermənistan, demokratik

prinsipləri və "Avropa" dəyərlərini qəbul etməkdə israrlı olduqlarını dünyaya sübut etməli idilər. Onlar gender bərabərliyi siyasətini dəstəkləməklə, qadınları düşünmürdülər, sadəcə, bir sıra beynəlxalq təşkilatların diqqətini çəkməyə çalışırdılar. Məqsəd Ermənistanın da insan haqlarına hörmət etdiyi, cinsi diskriminasiyanı aradan qaldırdığı və bərabər imkanların mövcudluğuna təminat verdiyi barədə görüntü yaratmaqdan ibarət idi. Bütün bunları etməkdə, yuxarıda qeyd olunan kimi, əsas məqsəd və plan Avropa millətlərinin üzv olduqları beynəlxalq təşkilatların nəzər-diqqətini cəlb etmək və tədricən həmin təşkilatlara (ATƏT, Avropa Şurası və daha sonra da Avropa İttifaqına) üzv qəbul edilmək idi.

Müstəqillik qazanmış bütün postsovet ölkələrə olduğu kimi, Ermənistana da beynəlxalq yardımlar edilirdi və hətta digərləri ilə müqayisədə ona bu yardım daha çox ayrılırdı. Bu yardımları edən təşkilatlar öz növbəsində, bu ölkədə gedən proseslərin və qəbul edilən normaların hansı şəkildə olmasını diqqətlə izləyirdilər. Əvvəllər yardım edən təşkilatlar bunun təmənnasız olduğunu iddia etsələr də, sonradan yardım müəyyən tələblərin yerinə yetirilməsi ilə şərtləndirilməyə başlandı. Ölkəyə ciddi islahatlar həyata keçirmək və ölkədaxili qanunvericilik aktlarının beynəlxalq normalara uyğunlaşdırmaq tövsiyə edilirdi. İlkin dövrlərdə gender məsələləri prioritet məsələlər sırasında olmasa da, sonradan bu problemlər də gündəmə çıxarıldı.

Yardım edən təşkilatlar Ermənistan hökuməti, vətəndaş cəmiyyəti təşkilatları qarşısında konkret tələblər qoyurdu və gender problemlərinin tədqiqinin vacibliyini nəzərə çatdırırdı. Əlavə olaraq, gender bərabərliyi ilə əlaqəli yeni ideyalar, konsepsiyalar, terminlər və bütövlükdə, gender məsələləri ilə bağlı yeni perspektivlər təklif edirdilər.

Vyana Bəyannaməsi və Fəaliyyət Planı nəinki "universal insan hüquqlarının ayrılmaz, inteqral, bölünməz hissəsi olan" qadın hüquqlarından bəhs edir, həmçinin "qadınların siyasi, mülki,

iqtisadi, sosial və mədəni həyatda, milli, regional və beynəlxalq səviyyədə, tam və bərabər iştirakı"nı və cinsi zəmində olan hər cür diskriminasiya formalarının aradan qaldırılmasının vacibliyini göstərdilər (The United Nations and Human Rights, UN, 1995: 449).

Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransın (ICPD- International Conference on Population and Development) Fəaliyyət Proqramı sonrakı vacib addımlardan idi. Bu konfrans gündəmə təkcə "inqilabi" ideyaları gətirmədi, həmçinin reproduktiv azadlığı da ön plana çəkdi və qadınların fəallaşmasının ən əsas, önəmli xarakter daşıdığını diqqətə çatdırdı. Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransın Fəaliyyət Proqramını qəbul edən 179 ölkədən biri də Ermənistandır: "Qadınların güclənməsi və onların siyasi, sosial, iqtisadi və sağlamlıq statusunun təkmilləşməsi inkişafın yüksək sonluğu olmalıdır. Bu, dayanıqlı inkişafın mühüm hissəsi olmalıdır" (UNFPA, 2004: 22).

Pekin Fəaliyyət Platforması gender bərabərliyi ideyasını insan hüquqları şəbəkəsinə daxil etdi və qadınların mövqeyinin güclənməsinin gündəmə gəlməsini təmin etdi (UN DPI, 2006: 33). Daha mühüm olanı odur ki, məsələnin 12 cəhətinin strateji məqsədləri tam aşkarlandı və fəaliyyət planına daxil edildi.

Qeyd olunan sənədlərdə həm siyasi, həm iqtisadi, həm də sosial faydalı gender bərabərliyi, bir demokratik prinsip kimi öz əksini tapdı. Əlbəttə, bu ideya elə ilk gündən Ermənistan cəmiyyətinin bəzi ünsürləri tərəfindən ciddi müqavimətlə qarşılandı.

Müqavimət səbəblərinə aşağıdakılar daxil idi:

- qısa müddətdə həddən çox "radikal" görüntülü ideyaların təqdimatı (təbii ki, cəmiyyətin bu ideyaları anlaması, həzm etməsi və mənimsəməsi üçün müəyyən bir zamana ehtiyac var idi);
- cəmiyyətin proqressiv ideyaları məhdud anlaması (patriarxal stereotiplər və təcrübələr) gender bərabərliyi ideyalarının qəbulu prosesini ləngidirdi;

- təşəbbüs entuaziazmının azlığı, etinasızlıq və adekvat birliyin lazımi səviyyədə olmaması;
- qadın həmrəyliyinin yetərli olmaması;
- qadın təşkilatlarının mütəşəkkil fəaliyyət göstərməməsi;
- ölkədə demokratiyanın lazımi səviyyədə olmaması.

İnsanların çoxu gender diskurslarına ənənəvi sovet yanaşması ilə baxırdılar. Hətta belə ideyalarla tanışlığı olmayanlar da bu ideyalara qeyri-ciddi baxırdılar, güman ki, real dəyişiklik etməkdənsə, bürokratik qurumların xidmətlərinə ümid edirdilər. Şüar kimi baxdıqları gender bərabərliyinin həyata keçirilməsinə gerçək həyatda etinasız baxırdılar. Onlar üçün effektiv ölçülərin olması, böyük sosial dəyişikliklərin baş verməsi, qadınların güclənməsi prioritet deyildi:

- "Bərabərliyin" anlaşılması və interpretasiyasındakı fərq belə başa düşülür ki, gender bərabərsizliyi mövcud olsa da, bunu problem kimi tanımırlar;
- Gender ekspertləri Marina Blagojeviç və Cina Sarqizovanın dedikləri kimi, "...Hələ də gender bərabərliyinə qarşı "sosial müqavimət" mövcuddur ki, bu da ənənəvi dəyərlərdən qaynaqlanır, həm də yeni əmək bazarına qadınlar tam gücü ilə inteqrasiya edə bilmirlər, çünki cəmiyyət onları öz ailə rollarını yerinə yetirməyə çağırır ki, bu da onların "geriyə qaytarılma"sına səbəb olur (M.Blagojevic, J.Sargizova, 2008: 5-6). Müqavimətə rəğmən gender bərabərliyi ideyası rəsmi olaraq qəbul edilmişdir. Düzdür, bu, həvəslə qəbul olunmasa da, lakin tədricən mühüm bir məsələyə çevrilmişdir. Bəzi səthi addımlar atılmasına baxmayaraq, hələ də gender bərabərliyinin tətbiqi çox ləng gedir.

1997-ci ildə Əmək və Sosial Məsələlər Nazirliyinin nəzdində Ailə, Qadın və Uşaq Məsələləri üzrə departament yaradılmışdır. Ona 1998-2014-cü illər ərzində qadınların statusunu inkişaf etdirməkdən ötrü ilk Milli Fəaliyyət Planını həyata keçirmək tapşırılmışdır, lakin bu Plan hələ də kağız üzərində qalmışdır. Gender bərabərliyi siyasətinin həyata keçirilməsi istiqamətində demək olar

ki, işlər görülməmişdir. Belə işlər az da olsa, qadın problemləri ilə məşğul olan bəzi QHT-lər tərəfindən görülmüşdür. Onlar da əsasən diqqəti gender həssaslığı, vəkillik, tədqiqat və lobbiçiliyin üzərinə yönəltmiş, konfranslar keçirmiş və sorğular aparmışlar.

Müstəqillik dövründən bəri qadın işləri üzrə 20-dən çox QHT yaradılmış, onların çoxu əsas mandat və missiyalarına aydınlıq gətirmişlər. Gender məsələlərinin tanınmasında atılan əsaslı addımlardan biri də qadın məsələlərinin siyasi və iqtisadi meyarlarının tanınmasıdır. Əvvəllər əsas diqqət ailələrin sosio-iqtisadi vəziyyəti, qadınların reproduktiv sağlamlığı, onların sosial xidmətlərlə təminatı kimi problemlərin üzərinə yönəldilirdi və çox önəmli məsələlər gündəmə gətirilmirdi.

Bu minilliyin əvvəlləri Ermənistan üçün yeni bir dövrün, yəni yeni gender məsələlərinin ictimaiyyət tərəfindən dərkinin və cəmiyyətin buna münasibətinin dəyişməsinin, bu istiqamətdə siyasi fəaliyyətin və elmi tədqiqatların başlanğıcı oldu. Əsaslı dəyişikliklər dörd başlıca amilin, yəni Minilliyin İnkişaf Məqsədləri (MİM), Pekin prosesi, beynəlxalq insan hüquqları təşkilatları və Avropa Şurasının hesabatlarının təsiri altında baş vermişdir:

(i) Minilliyin İnkişaf Məqsədlərinin əks olunduğu: Minilliyin Bəyannaməsi "gender bərabərliyi və qadınların mövqeyinin güclənməsini yoxsulluqla, aclıqla və xəstəliklərlə mübarizədə ən effektiv vasitə sayır və bu cür inkişafı dayanıqlı hesab edir" (UN DPI, 2000: 8). İnsan İnkişafı barədə 2010-cu ilə aid məruzədə qeyd edilir ki, "gender bərabərsizliyi insan inkişafı üçün əsas maneə olaraq qalır" (The Real Wealth of Nations: Pathways to Human Development, Human Development Report, 2010: 89).

(ii) BMT bütün ölkələri Miniliyin İnkişaf Məqsədlərini özününküləşdirmək istiqamətində həvəsləndirir, MİM-i milli inkişaf planına çevirmək və "milliləşdirmək", daha sonra isə onu yerli kontekstə uyğunlaşdırmaq lazımdır. Ermənistan Milli MİM şəbəkəsini inkişaf etdirərək, 2005-ci ildə, Ermənistan

MİM-lə bağlı özünün ilk hesabatını hazırladı, yəni ölkənin xüsusiyyətlərinə uyğun hədəflər seçdi, hökumət tərəfindən prioritet və ehtiyacların əks olunduğu monitor indikatorlar təyin edildi və MİM-ə Ermənistanın öz inkişaf ehtiyacları çərçivəsində nail olmaq tövsiyə olundu. Hesabatda göstərilir ki, "Minilliyin Bəyannaməsini özünə öhdəlik götürən Ermənistan MİM-in əldə edilməsində daha ambisiyalı görünür… Qadınların siyasətdə və qərar qəbuletmə prosesində iştirak etməsində gender bərabərliyinin olması xüsusi olaraq vurğulanır (National Report: Armenia, UNDP and PRSP Secretariat, 2005: 1)

(iii) Pekin prosesi (xüsusilə Pekin+5 və Pekin+10) BMT Baş Assambleyasının "Qadın 2000: İyirmi birinci əsr üçün gender bərabərliyi, inkişaf və sülh" adlı xüsusi sessiyasında qəbul edilən sənədlərə əsas yer verir və vurğunu ailədaxili qərarvermə və ictimai dəstəyin üzərinə qoyur. Bunlar Qadınların Statusu üzrə BMT Komissiyası tərəfindən qəbul edilən qətnamələr və razılaşdırılmış qərarların əsasında tənzimlənirlər.

(iv) Milli səviyyədə İnsan hüquqları barədə beynəlxalq rəsmi sənədlərdən irəli gələn qərarların qəbulu və siyasətin həyata keçirilməsi vacib məsələdir. Bu kontekstdə ən uyğun beynəlxalq qanun Qadınlar Əleyhinə Bütün növ Diskriminasiyaların Aradan Qaldırılması Konvensiyasıdır. Ermənistan bu Konvensiyanı 2003-cü il, iyunun 9-da ratifikasiya etmişdir. Ermənistan, qeyd olunan Konvensiya da daxil olmaqla, beynəlxalq qanunların dəstəklənməsində xüsusi təşəbbüs göstərir. Təkcə Qadınlar Əleyhinə Bütün növ Diskriminasiyaların Aradan Qaldırılması Konvensiyasının həyata keçirilməsində deyil, dövrü hesabat prosesində də Ermənistan hökuməti gender məsələlərinə diqqət yetirməyə, xüsusi ölçülər götürməyə, gender siyasətinin formalaşmasında, fəaliyyət planının hazırlanmasında, qətnamələrin qəbulunda aktiv olmağa çalışmışdır. Qadınlar Əleyhinə Bütün növ Diskriminasiyaların Ara-

dan Qaldırılması Konvensiyasından irəli gələn Yekun Müşahidələrdə Ermənistan hökumətinə bu tip problemlərə diqqət yetirmək və effektiv üsullardan istifadə etmək tövsiyə olunur (CEDAW/C/ARM/CO/4/Rev. 1. 2 February 2009).

(v) Avropa Şurasının üzvü olan ölkə üçün ən mühüm öhdəlik və borc gender bərabərliyi ilə əlaqəli olanlardır.

1988-ci ildə Avropa Şurasının Nazirlər Kabinetinin qəbul etdiyi Qadın və Kişilərin Bərabərliyi haqqında Bəyannamədə "qadın və kişilərin bərabərliyi barədə öhdəliklərin, demokratiya və sosial ədalətin göstəricisi olması" amili təkrar təsdiq olunmuşdur.

2001-ci ildən Avropa Şurasının üzvü olan Ermənistan bu təşkilatların əsas prinsiplərini qəbul etməli olmuşdur. On il keçdikdən sonra "qadınlarsız demokratiya yoxdur" prinsipi Ermənistan elitasının rəsmi siyasət xətti olmalı idı. Həmçinin cəmiyyət "gender bərabərliyi olmadan demokratiya ola bilməz" prinsipinə riayət etməyə cəhd göstərməli idı. Beləliklə, demokratiyanın möhkəmləndirilməsini arzulayanlar gender bərabərliyinə nail olmaqdan ötrü qətiyyətli və məqsədyönlü addımlar atmalı idilər.

Avropa Şurasının təkidi ilə Ermənistanda paritet demokratiya ideyasının işıltıları görünsə də, gender diskurslarının inkişafı istiqamətində müəyyən addımlar atılsa da, bu sahədə dəstəklər əldə edilsə də, siyasi sahədə canlanma gözə dəymir (Sineau, M. Genderware, 2003: 28).

Avropa Şurası tərəfindən təklif edilən digər mühüm bir ideya isə, demokratiyanın keyfiyyətidir. Belə ki, Avropa Şurası Ermənistan hökumətinə vətəndaş cəmiyyəti quruculuğu yolunda qadınların siyasi iştirakını tövsiyə edir. Təşkilat həmçinin onların qərar qəbuletmədə iştirakının mühümlüyünü vurğulayır. Beləliklə, Ermənistanda "qərar qəbuletmə proseslərində qadınların az təmsil olunması səbəbindən onların siyasi qərarlarda iştirakında sükunət müşahidə edilir" (E.Duban, 2010: 4). Avropa Şurasının Nazirlər Kabinetinin Tövsiyələrində (2003) üzv ölkələrdən qadın və kişilərin siyasətdə balanslaşdırılmış iştirakını təmin etmək

tələb edilir. Tövsiyələrə görə "balanslaşdırılmış iştirak" o deməkdir ki, "həm siyasi, həm də ictimai qərar qəbuletmənin iştirakında heç bir cinsin iştirakı 40 %-dən aşağı düşməməlidir".

Gender-balanslı iştirak və təmsil olunma qərar qəbuletmənin heç bir sferasında yuxarıda göstərilən faizdən aşağı düşməməlidir. "Əsas məsələ formal olaraq seçilmək deyil, əsas olanı sosial və iqtisadi qərar qəbuletmədə demokratiya yolu ilə seçilməkdir"(A.E.Woodward, 2002: 11-12). Bu qətnamələr, konvensiyalar ölkə rəsmiləri tərəfindən qəbul olunsa da, onlar Ermənistan cəmiyyəti üçün çox "inqilabi" və radikal ideya kimi görünürdü. Nə qədər beynəlxalq konvensiyalara qoşulsa da, nə qədər beynəlxalq təşkilatların qarşısında öhdəliklər götürsə də, Ermənistanda demokratiya olmadığı tədqirdə gender bərabərliyindən söhbət gedə bilməz.

Avropa İttifaqından fərqli olaraq, Avropa Şurası milli fəaliyyət planlarının qəbul edilməsini (gender bərabərliyi sahəsində hüquqi öhdəliklər) üzv ölkələrin ixtiyarına vermişdir. Əlavə olaraq, onu da qeyd etmək lazımdır ki, Avropa Şurası İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 14-cü bəndi ("diskriminasiyanın qadağan olunması") və 12 nömrəli protokolundan səmərəli istifadə edir və bunu təbliğ edir.

Ümumilikdə, Avropa regional təşkilatları gender bərabərliyinin iqtisadi meyarlarını hər zaman önə çıxarır, BMT agentlikləri isə bütün dünyada bu duruma təkan verməkdə davam edirlər. Avropa Nazirliklərinin "qadın və kişilər arasında bərabərlik" mövzusunda keçirilən 6-cı konfransında Avropa Şurasının Baş Katibi Teri Devis  təmsil etdiyi Şuranın işinə yekun vuraraq qeyd etmişdir, "… gender bərabərliyi həm insan hüququdur, həm də iqtisadi üstünlükdür. Ola bilsin ki, bu siyasətin tətbiqi bəzilərinə baha başa gəlsin, lakin gender bərabərliyi ilə müqayisədə bu sosial və iqtisadi qiymət çox əhəmiyyətsiz görünür" (T.Davis, 2006: 25). Avropa Şurasının qəbul etdiyi qətnamələrin birində göstərilir ki, "gender bərabərliyi uzunmüddətli iqtisadi inkişafa nail olmaq prosesində açar amildir".

Ermənistan bu yolu çox aşağı sürətlə qət edir. 2002-ci ildə Baş nazirin əmri ilə Əmək və Sosial İşlər Nazirliyin nəzdində Ailə, Qadın və Uşaqların İşi üzrə şöbə yaradıldı və bu şöbə qadın problemləri ilə bağlı məsələlərin həllində digər nazirliklərlə birlikdə əməkdaşlığı koordinasiya etməliidir. QHT və CEDAW ilə əməkdaşlıq bu şöbənin üzərinə düşən əsas öhdəliklərdəndir (Bax: CEDAW document A/57/38/ part III, para. 27, 2002: 150.), lakin bu şöbənin işində uğurlu addımlar görünmür.

Ermənistanda qadın statusunun gücləndirilməsi və qadınların cəmiyyətdəki rolunun artması üçün 2004-2010-cu illərdə ikinci Milli Fəaliyyət Planı hazırlandı. Burada əsas məqsəd səkkiz sahədə (ictimai və siyasi, sosial-iqtisadi, təhsil, səhiyyə, qadınlara qarşı zorakılıq, qız və qadın alveri, KİV və digər qurumlarda qərar qəbuletmə) qadın problemlərinin həlli prinsipləri, prioritetləri və əsas istiqamətlərini təyin etmək idi (WRC, 2004).

XX əsrin birinci onilliyinin sonuna doğru vəziyyət tədricən dəyişdi. "Qadın və kişilərin bərabər hüquq və imkanların təminatı" layihəsi hazırlandı və 2012-ci ildə o, parlament tərəfindən qəbul edildi.

Bundan əvvəl 2010-cu ildə Gender Siyasəti Konsepsiyası qəbul edilmişdi. (Bax:http://www.genderbasedviolence.am/en/content/show/55/national-documents-on-gender-and-gbv.html). Bu ilk milli sənəddir ki, burada gender bərabərliyi siyasəti, bu siyasətin tətbiqi yolları və strategiyalarının əsas prinsipləri və məqsədləri təyin edilmişdir. Daha sonra, 2011-ci il üçün Gender Siyasəti Strategiya Proqramı, Fəaliyyət Planı hazırlandı. 2011-ci ildə həm də, Ermənistan Respublikasının 2011-2015-ci illəri üçün Gender Siyasəti Strategiya Proqramı qəbul edilmişdi.

Beynəlxalq təşkilatların siyasi partiyalara tövsiyələrini (əsasən, CEDAW Komitəsi) və yerli QHT-lərin təkliflərini əldə əsas götürərək seçkilərdə 20 % gender kvotası tətbiq etmək təklif edildi (Bax: CEDAW/C/ARM/CO/4/Rev. 1.2 February 2009, para. 17).

Əvvəlki 15 %-lik kvota ilə müqayisədə, təklif edilən 20 %, BMT-nin 30 %-lik və Avropa Şurasının "balanslaşdırılmış iştirak" üçün 40 %-lik kvotasını cəmiyyət çox hesab edirdi. Ümumilikdə, gender bərabərliyinin prioritet olması məsələsi bir növ dövlət orqanları və parlamentdə vaxtından əvvəl görülən iş təəssüratı yaradırdı və bu məsələyə prioritet kimi baxılmırdı.

Bir məqamı da qeyd etmək lazımdır ki, vaxtı ilə vətəndaş cəmiyyəti təşkilatları, xüsusilə də QHT-lər, bu öhdəliklərin həyata keçirilməsində lobbiçilik rolunu oynamış və təbliğat kampaniyaları vasitəsilə müəyyən işlər görmüşdülər. Texniki ekspertizalar, resurslar və koordinasiya ilə təchiz olunmada beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək qeyd edilən layihələrin uğurlu həyata keçirilməsinə və tamamlanmasına təkan vermişdir.

Qeyd etmək lazımdır ki, gender sahəsində dövlət siyasəti QHT-lərin və beynəlxalq təşkilatların israrı ilə formalaşırdı. Keçmişdə dövlət, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatlarla məhsuldar əməkdaşlığın ən yaxşı nümunəsi UNFPA-nın "Cənubi Qafqazda gender-əsaslı zorakılıqla mübarizə" mövzusunda müştərək layihəsi olmuşdur. Bu layihə bir növ açar rolunu oynamışdır.

2010-cu il martın 30-da Ermənistan baş nazirinin 213 nömrəli sərəncamı əsasında, Ermənistan Milli İnter-Agentlik Komitəsi Gender-Əsaslı Zorakılıqla (GƏZ) Mübarizə haqqında qanun qəbul etdi.

Müştərək cəhdlərin digər nəticəsi 2008-2010-cu illərdə Ermənistanda qadınlara qarşı zorakılıq halları haqqında keçirilən sorğudur ki, alınan nəticələrin həcminə, əhatə dairəsinə, miqyasına, metodologiyasına görə çox böyük önəm kəsb edir. 2011-ci ildə sorğunun yekun nəticələri dərc edildi və başlıca problemlər ictimaiyyətin diqqətinə çatdırıldı.

Sorğunun nəticələri ictimaiyyəti qadınlara qarşı zorakılığın əsas formaları (partnyor və qeyri partnyor zorakılığı, GƏZ-in qadınlara fiziki, mental və reproduktiv sağlamlığına təsirləri, qadınların mübarizə strategiyaları və mexanizmləri, qadınlara qarşı

zorakılığa olan münasibət, uşaqların seksual istismarı, həmçinin qadınların sosial-iqtisadi statusu, maliyyə muxtariyyəti və GƏZ) haqqında qiymətli məlumatlarla təmin etdi (V.Osipov, A.Tanashyan et al, 2008-2010). Araşdırmalara görə, qadınlara qarşı zorakılıq çox ciddi məsələdir və bu Ermənistan üçün ümumi haldır. İntim partnyor zorakılığı deyəndə əsasən fiziki, psixoloji və seksual zorakılıq başa düşülür.

Qadın QHT-ləri ailə zorakılığına qarşı qanunun hazırlanmasında aparıcı rol oynasalar da, bütün bunlar beynəlxalq təşkilatlar və dövlət təşkilatlarının dəstəyi olmadan həyata keçirilə bilməzdi.

GƏZ Ermənistanda gender məsələləri kontekstində xüsusi əhəmiyyət kəsb edir, çünki GƏZ patriarxallığın əsas elementidir. Bu üsulla qadınları tabeçilik vəziyyətində saxlayırlar, həm özəl həyat, həm də ictimai həyat kişi nəzarəti altında qalır "...qadınlara qarşı zorakılıq kişi və qadınlar arasındakı güc tarazlığının pozulmasıdır və bu həm cəmiyyətdə, həm də ailə daxilində qadına qarşı ciddi diskriminasiyaya aparan yoldur..." Ekspert Naila Kabeer iddia edir ki, güc təkcə gender münasibətlərinin yayılmış xüsusiyyətləri ilə ölçülmür, o həmçinin onun məcburiyyət formasıdır (Naila Kabeer, 1990).

Kristalizasiya normasının tədrici təsiri uzun illər davam etsə də, sonda zorakılığa qarşı qanun qəbul edildi. "Qadınlara qarşı hər cür ayrı-seçkiliyin aradan qaldırılması haqqında konvensiya qanunu" ratifikasiya olundu. Bununla da, Ermənistanda GƏZ-ə qarşı rəsmi qanun qəbul etməklə, bu sahədəki qurbanların müdafiəsini rəsmiləşdirildi. Mühüm olan budur ki, ölkədə GƏZ qanuni olaraq tanındı və cəmiyyətin bununla mübarizəyə səfərbər edilməsinə qərar verildi. GƏZ cinsi zəmində olan diskriminasiyanın ən eybəcər formalarındandır və gender bərabərliyinə nail olmağa əngəl törədən əsas amildir. Müvafiq dövlət orqanlarının nümayəndələri, BMT agentlikləri, digər beynəlxalq təşkilatlar və yerli QHT-lər GƏZ-in qurbanları ilə işləmək mexanizmini hazırladılar. Onlar ekspertlər tərəfindən təklif olunan modellərlə tanış oldular (UNFPA, 2011: 52.).

Son illər siyasət təkcə kişi sferası hesab edilməsə də, Ermənistanda siyasət ən çox güc assimetriyası və gender bərabərsizliyinin müşahidə edildiyi arenadır. Bu ona görə belədir ki, ölkədə siyasətçilər, güc strukturunda çalışan kişilər qadınların ictimai sahədə geniş təmsil olmalarının cəmiyyət üçün effektiv ola biləcəyinə inanmırlar və onların özəl həyatda qalmasına daha çox önəm verirlər. Onlara görə, qadın ailə və ailə üzvlərinə xidmət etmək üçün yaranmışdır. Kişi nüfuzu və qadınların tabeçilik vəziyyətinin legitimləşdirilməsi əsasən mövcud mədəniyyətdən irəli gəlir, bunun ideologiya və ya siyasətlə heç bir əlaqəsi yoxdur. Kişilər istəmirlər ki, qadınlar onların dominantlığını və resurs bölüşdürülməsi üzərində nəzarətini, həlledici qərarların qəbul edilməsində mövcud hökmranlığını sarsıtsınlar. Qadınların siyasi, həmçinin ictimai həyatda davamlı olaraq marginallaşması prosesi gedir. Siyasi partiyalarda təmsil olunan qadın fəalları, onların tərəfdarları və QHT-lər siyasi və digər sahələrdə (qanunvericilik, dövlət idarəçiliyi, yerli özünüidarə orqanları, biznes, səhiyyə, təhsil, elm) qadınların liderlik pozisiyasında ola bilməsinə inandıqlarını söyləyirlər. Ermənistan cəmiyyətində bu da bir faktdır ki, güc strukturlarında və qərar qəbul etmədə yetərli sayda qadınların təmsil olunmasına böyük ehtiyac vardır. Qarşılanmamış ehtiyaclar tədricən sosial sinif, iqtisadi status və siyasi mənsubiyyət sərhədlərini aşmaqdadır. Eyni zamanda, qadınların siyasi sferalarda təmsil olunmasının böyük önəmi vardır, çünki qadınlar hər sahədə (sosial, demoqrafiya və sairə) öz problemlərini daha düzgün dərk və maraqlarını daha adekvat təmsil edirlər. Gender-həssas və gender-ədalətli qanunvericilik, həmçinin qadınların qərar qəbuletmədə daha balanslı və bərabər iştirakı cəmiyyət üçün arzuolunandır.

Əlavə olaraq onu da qeyd etmək lazımdır ki, dövlət qurumlarında daha çox gender-həssas və gender-ədalətli insanların təmsil olunması ilə bərabər imkan və bərabər nəticələr üçün zəmin hazırlana bilər.

Nəzərdən qaçırılmayan əsas məqam: parlament və hökumətdə daha çox qadının fəaliyyət göstərməsinin əhəmiyyətli olmasına və ən dəyərli, səriştəli qadınların bu orqanlarda çalışmasına səy göstərməkdir. Təkcə qadınların parlamentdə az təmsil olunması problem deyildir, əsas problem burada təmsil olunanların bəzilərinin kifayət qədər bilik və təcrübəyə malik olmalarına baxmayaraq, bir çox məsələlərə etinasız yanaşmalarıdır. Bəzən də, onların potensiallarının buna imkan verməməsidir, yəni söhbət kəmiyyətdən çox, keyfiyyətdən gedir. Dünyanın digər ölkələrində olduğu kimi Ermənistanda da qadınlar siyasətdə saysız-hesabsız çətinliklərlə və problemlərlə üzləşirlər. Bunlardan ən ümumi olanlar bunlardır: patriarxal təfəkkürün (stereotiplər) dirçəlişi, xüsusilə gənc qadınlar arasında tez-tez təsadüf edilən, süstlüklə müşahidə olunan biganəlik, seçki qanunvericiliyi və sistemi (QHT və digər aidiyyəti qurumlarda pulun olmaması  səbəbindən bu bərabərsizliyə və paritetliyin təmin edilməməsinə olan qadın tolerantlığı) və bacarıqsızlıq (səriştəsizlik, təcrübə çatışmazlığı, ənənə və iradənin olmaması, təşkilati çətinliklər və s.), siyasi sahədə korrupsiya, zorakılıq, manipulyasiya, hiyləgərlik və s. Qadın və kişilər arasında qeyri-simmetrik güc əlaqələri xüsusilə də, qadınların məhdud təmsil olunduqları sahələrdə (siyasət və iqtisadi sahələrdə) özünü daha çox büruzə verir. İcraçı siyasi pozisiyalarda qadınların say faizi azacıq artsa da, hələ ki, bunun 30 %-ə yaxınlaşmaq gözləntisi (Minilliyin Məqsədlərində balanslaşdırılmış iştirak – 40/60%-dır) xəyal olaraq qalır. Özəl sektorda bu daha acınacaqlı haldadır, çünki burada qərarları əsasən kişilər verirlər. Problem ondadır ki, kişi tərəfkeşliyi institutlaşdırılıb, yəni Ermənistanda siyasi, iqtisadi və sosial müəssisələrin çoxu üçün bu xüsusiyyət xarakterikdir.

Bu da faktdır ki, Ermənistanda, siyasi iradə ortaya qoymağı, siyasi əqidələrində inadkarlıq nümayiş etdirməyi bacaran qadınlar çox azdır. Bu problemin əsasında o durur ki, gender rolları tipik patriarxal cəmiyyətdə olduğu kimidir və onun tərəfdarlarının sayı və təsir gücü çoxdur. Yuxarıda qeyd olunduğu kimi patriarxal

mədəniyyətin stereotiplərində dirçəliş müşahidə olunur ki, bu da proqressiv, eqalitar və liberal baxışlarla daban-dabana ziddir.

Qloballaşan dünyada bu artıq trend şəkli almış unikal bir situasiyadır. Nobel mükafatı laureatı, iqtisadçı Amartya Sen Heçin iddiasına görə, qadınların özləri də ənənəvi maskulinist hakimiyyətin dəyərlərindən azad olma qabiliyyətinə malik deyillər. O haqlı olaraq göstərir ki, "qadınlar üçün zəruri olan təkcə fəaliyyət azadlığı deyil, həmçinin təfəkkür azadlığıdır və mövcud dəyərləri mənimsəyə bilmək qabiliyyətidir (A.Sen, 2001: 15).

Gender bərabərliyinin dolayı effekti siyasiləşməyə məruz qalır və Agnieszka Graff zaman-zaman bunun siyasi məsələyə çevrilməsinin də ədalətli olmadığını qeyd edir: "gender daha az şəffaf və daha çox siyasi məsələlərə, siyasi debat mövzusuna çevrilmişdir (A.Graff, 1989-2009: 32-33.). Bu heç də arzuolunmayan inkişaf demək deyildir. İctimaiyyətin diqqətini cəlb etməyi, məlumatların debat formasında çatdırılmasını proqressiv inkişaf adlandırmaq olar.

Beləliklə, gender məsələlərinin xalqın təbii tələbatından irəli gəldiyini və ya bunun beynəlxalq təşkilatların tələbi olduğunu araşdıranda məlum olur ki, bölgədə bu tələbatdan çox tələb məsələsidir. Emi S.Uortan qeyd edir ki, gender "faktiki, dünya mədəniyyətlərinin əksəriyyətində sosial həyatı təşkil edən əsas prinsipdir" (A.S.Wharton, 2004: 156). Hər halda, sürətli sosial tərəqqi və Avropaya inteqrasiya prosesi ideal və ya qeyri-idealın nə olduğunu, cəmiyyətin və formalaşmaqda olan ictimai münasibətlərin və ya cəmiyyətin normativ konsepsiyasının, ya da Avropanın liberal ideologiyasının dəstəyi ilə müəyyən edilmiş davranış gözləntiləri və ya daha geniş yayılan gender asimmetriyasına əsaslanan patriarxal normaların hansının daha düzgün olduğunu gec-tez aydınlaşdıracaq.

Gender siyasətin formalaşması və həyata keçirilməsi ümumilikdə diskursun inkişafına yardım edir. Bunu da qeyd etmək vacibdir ki, araşdırmaların, monitorinqlərin və sorğuların nə-

ticələrinə görə gender problemlərinin mənimsənilməsi sahəsi tədricən lokal xarakter alır. Beynəlxalq təşkilatların, Ermənistan QHT-lərinin dəstəyi ilə, dövlət təşkilatları ilə əməkdaşlıq və partnyorluq sayəsində gender bərabərliyinin əhəmiyyəti haqqında ictimaiyyətin maarifləndirilməsi istiqamətində müəyyən addımlar atılmışdır. Gender bərabərliyi və qadınların mövqeyinin gücləndirilməsinin maraqlı tərəflərin siyasi öhdəliklərdən asılı olduğu müşahidə edilməkdədir. Siyasətin formalaşdırılması, fəaliyyət planlarının hazırlanması və qəbul edilməsinə baxmayaraq perspektivlər qeyri-müəyyən olaraq qalır.

Ermənistan sistemli olaraq böhran məngənəsindədir. Vəziyyət o qədər acınacaqlıdır ki, qətiyyətli və cəsarətli addımlar atılmasa, Ermənistanın müstəqil dövlət kimi mövcud olub-olmayacağı şübhə doğurur. Əlbəttə, zəruri tədbirlərin həyata keçirilməsi üçün təxirəsalınmaz işlər görülməli və güclü siyasi iradə ortaya qoyulmalıdır.

Bu gün Ermənistanda sistemin böhranı müşahidə olunur. Sistemin böhranı nə deməkdir? Bir sahədə mövcud olan problemin həlli ayrılıqda mümkün deyildir, o digər sahələrdə (məsələn, təhsil, səhiyyə, kənd təsərrüfatı, ordu, gender və sairə) əlaqəlidir, birinin həlli digərindən asılıdır.

Bir sözlə, demokratikləşmə siyasi, iqtisadi, sosial və mədəni əlaqələrin liberallaşdırılmasını təmin etməklə baş verir, gender bərabərliyinə də bu problemlərin həlli prosesində rəvac verilir.

Bundan başqa, Avropa Şurası Nazirlər Komitəsinin Tövsiyəsində göstərilir ki, "Əgər bu prinsip konstitusiyalara, qanunlara və ya konkret normalara daxil edilərsə, formal gender bərabərliyinə kifayət qədər tez nail olmaq olar, lakin bu yolla gender bərabərliyinin dayanıqlığını əldə etmək olmur" (Recommendation CM/Rec, 2008: 31).

Ermənistan Konstitusiyasında bərabər imkanlara təminat yoxdur (Study on Causes of Women's Underrepresentation in Decision-Making, Yerevan: NILSR, 2008: 3). Gender bərabərliyinə

formal olaraq nail olunub, lakin bu dayanıqlı gender bərabərliyindən çox uzaqdır. Bu sahədə müsbət dönüş demokratikləşmə və liberallaşma ilə bilavasitə bağlıdır.

Yalnız sözdə demokratik prinsiplər yerinə yetirilir; onlar real müvəffəqiyyət qazanmır. Ermənistanda ictimai həyatı müşahidə edən hər kəs anlayır ki, hökumət də, siyasi və iqtisadi təşkilatlar da avtoritar metod və normaları aradan qaldırmadan, gender bərabərliyinə, institusional demokratiya və şəffaflığa nail olmaq mümkün deyildir. Bu ölkədə pluralizm və tolerantlıq yox səviyyəsindədir. Hətta belə ideyaların ehtimalında məhdudluq mövcuddur. Ermənistan unikal ölkə deyildir və bu səbəbdən də o, demokratik prosesə qoşulmağa gecikir.

Ermənistanda tez-tez işlədilən "keçid demokratiyası", "gənc demokratiya", "yeni demokratiya" və s. kimi ifadələr XX əsrin sonları - XXI əsrin ilk illərində artıq heç bir aktuallıq kəsb etmir. Bu gün Ermənistanda nə müasir kapitalizm, nə də müasir demokratiya mövcuddur.

Bazar iqtisadiyyatının olmamasının aydın təzahürləri: şəxsi mülkiyyətin etibarlı müdafiəsinin olmaması, müqavilələrin qanuni gücünün olmaması, bürokratiyanın geniş yayılması, dövlət məmurlarının özbaşınalığı, iqtisadiyyatda inhisarlaşma və sairədir.

Erməni əsilli, Rusiyalı politoloq Sergey Kurginyan Ermənistanda mövcud olan siyasi və iqtisadi sistemi, "psevdokapitalizmin mafiyaçı növü" adlandırır (S.E.Kurginian, 2011: 60). Keçid dövründə sosial dəyərlər və insan faktoru arxa planda qalmışdır. Yuxarıda qeyd olunanlar Ermənistanda gender bərabərliyi üçün yaxşı heç nə vəd etmir, çünki ölkədə dayanaqlı siyasi, iqtisadi və sosial inkişaf müşahidə olunmur.

Mövcud vəziyyətdə Ermənistanda gender bərabərliyinin perspektivləri ümidverici deyildir. Cəmiyyətdə gender bərabərliyinə mənfi təsir göstərən çoxsaylı faktorlar mövcuddur.

Gender bərabərliyinin təmin olunmasına mane olan üç başlıca amil mövcuddur: (1) gender siyasətinin səmərəli koordinasiya

olmaması və ardıcıl siyasətin həyata keçirilməməsi, (2) ölkədən mühacirət və (3) təhsil səviyyəsinin aşağı düşməsi. Bu maneələr gender bərabərliyi üzrə milli mexanizmin yaradılması və həyata keçirilməsi yolu ilə həll oluna bilər.

Mühacirət təkcə ölkənin insan resurslarını azaltmır, həm də beyin axını ilə nəticələnir. Əsasən müasir düşüncəli, mükəmməl savadlı, təşəbbüskar, yaradıcı, gələcəyə istiqamətlənmiş, sosial və peşəkar bacarığa malik olan fərdlər (başqa sözlə, az-çox gender bərabərliyini qəbul edənlər və onun əksinə getməyənlər) yəni orta sinfin potensiallı gəncləri bu axının içərisindədirlər.

Təhsil və elmi kifayət qədər qiymətləndirməyən yanaşmaların dəyişdirilməsi də vacib şərtlərdəndir. Xroniki hal alan məktəbdən qovulma və ya yayınma savadsızların sayını durmadan artırır. Sovet dövründə savadsızlıq tam mənada ləğv eilsə də, hal-hazırda savadsız insanların sayı xeyli artmışdır (Hua. Haiyan, 2008). Təhsil siyasəti və islahatlara cavabdeh olan qurumlar yuxarıda sadalanan problemlərin həllinə görə məsuliyyət daşıyırlar. Təhsili mükəmməl olan şəxsiyyət yeni ideya və dəyərlərə, bərabərliyə, sosial ədalət və insan hüquqları məsələlərinə daha açıqdır və bütün bunlara simpatiya ilə, şüurlu yanaşır, həmçinin gender bərabərliyini dəstəkləyir. Bundan başqa siyasi iradənin, demokratiyanın, gender mədəniyyətinin və fəal vətəndaş cəmiyyətinin olması cəmiyyətdə gender bərabərliyinə nail olmaq üçün şərait yaradır.

Siyasi iradənin əyani təzahürləri yuxarıda qeyd edilmişdir. Ermənistanda siyasi iradə hələ ki, ardıcıllıq və qətiyyətlilikdən uzaqdır, bununla belə, tərbiyə, təşviqat və yardım mövcuddur və bu halın özü çox vacibdir. QHT-lər və ayrı-ayrı şəxslər tərəfindən çox işlər görülmüşdür, lakin gender bərabərliyi siyasəti dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməsə, ciddi nəticələr gözləmək əbəsdir. Eyni zamanda sovetlər dönəmindən miras qalan və özündə gender bərabərliyini ehtiva edən məqamlardan da faydalanmaq olar.

Son dövrlərdə dirçələn patriarxal stereotiplər gender mədəniyyətinin formalaşmasına müqavimət göstərir. Sərt qanunları və qaydaları olan cəmiyyətlərdə gender rolları adətlərə uyğun müəyyənləşdirilir. Bununla yanaşı, gender rolları ilə bağlı stereotiplərdə öyrənilməmiş nüanslar çoxdur. Bütün bunların ciddi araşdırmalara ehtiyacı vardır və məhz bundan sonra siyasi fəaliyyət və maarifləndirmə ilə əlaqədar zəruri tədbirləri müəyyənlşdirmək olar.

Fəal vətəndaş cəmiyyəti müvəffəqiyyətin rəhnidir. Bir şey də aydındır ki, bütün Qafqazda olduğu kimi, Ermənistanda da qadın hərakatı yoxdur və yaxın zamanlarda mövcud olma ehtimalı da çox zəifdir, çünki ölkədə qətiyyətli, səmərəli, ardıcıl mübarizə aparmağı bacaran, genderlə bağlı problemləri gündəliyə daxil etməyi və onların çözülməsində sona qədər israrlı ola biləcək qadın QHT-ləri və buna maraqlı olan dövlət qurumları yox dərəcəsindədir. Bütün bunlara baxmayaraq, gender məsələləri cəmiyyət tərəfindən tanınmış, ictimai müzakirələrin bir hissəsinə çevrilmiş və hökumətin siyasi və tədqiqat institutlarının gündəliyinə daxil olmağı bacarmışdır. Burada təbliğat və lobbiçilik həlledici rol oynamışdır. QHT-lər qadınların siyasi və iqtisadi imkanlarının artırılması üçün görülən bütün tədbirlərdə iştirak etsələr də, təəssüf ki, onlar qətiyyətsizlik nümayiş etdirir, irəli addım ata bilmirlər. QHT-lər qadınların ictimai və siyasi həyatda iştirak dairəsinin genişlənməsinə və gender bərabərliyi sahəsində əhalinin maarifləndirilməsinə səy göstərmirlər (H.Hovhannisyan, L.Zakaryan, 2010).

Hökümət və qeyri-hökümət orqanları gender bərabərliyinə nail olmaq məqsədi ilə bütün maraqlı tərəflərin səylərini birləşdirməyi təkilf edirlər. Bu sahədə gender əsaslı diskriminasiyaların aradan qaldırılması, bərabər hüquqların təmin edilməsi, qadın və kişilər üçün bərabər imkanların yaradılması ilkin addımlar kimi nəzərdə tutulur, yəni substantiv və de-fakto bərabərliyin gələcəkdə hüquqi (de-yure) bərabərliklə tamamlanması arzu edilir. Bu, öz növbəsində, mövcud qanunvericilikdə (o cümlədən, mü-

vəqqəti də olsa, xüsusi tədbirlərin həyata keçirilməsi) dəyişiklik edilməsini, ümumi siyasətin formalaşdırılması və həyata keçirilməsini, ictimai həyatın müxtəlif sahələri üzrə konkret strategiyaların hazırlanmasını, mühüm vəzifələrin müəyyənləşdirilməsini, prioritetlərin yaradılmasını, qısa və ortamüddətli tədbirlər planının tərtib edilməsini, müxtəlif proqramların həyata keçirilməsini tələb edir.

Beləliklə, son nəticədə, bütün bunların həyata keçirilməsində demokratikləşmə və liberallaşmaya əsaslanmaq tövsiyə edilir. Sonda, bir daha qeyd etmək yerinə düşərdi ki, Ermənistanın indiki siyasi və iqtisadi reallıqları şəraitində gender bərabərliyinə nail olmağı gözləməyin özü absurddur.

**Ermənistanda gender məsələləri, Maria Titizyanın dili ilə.** Uzun illər bundan öncə Ermənistanın yerli Yardım Təşkilatı Ana Günü münasibəti ilə məndən çıxış etməyimi xahiş etdi. O zaman mən iki uşağı təkbaşına böyüdən, uzun iş günü işləməyə məcbur olan gənc bir qadın idim. Həmin dövrdə anam olmasaydı, mən bu işin öhdəsindən necə gələrdim, onu bilmirəm. Elə ona görə də, mən həmin günkü çıxışımı anamın timsalında bütün Ermənistan qadınlarına həsr etdim.

Həmin gün anam haqqında dediklərim dəqiq yadımda olmasa da, onun mənim həyatımda əvəzolunmaz bir şəxs olmasından danışmağım yadımdadır. O "mənim bu planetdə qeyd-şərtsiz və hər zaman sevdiyim, arxamdır" dediyim dəqiq yadımdadır. Mən çıxış edəndə anam başını qızımın çiynimə söykəmişdi, ağlaya-ağlaya mənə qulaq asırdı və çox yəqin ki, düşünürdü ki, mən də öz növbəmdə övladlarım üçün anamın mənim üçün etdiklərini edəcəyəm.

Qadın hüquqları, resurslardan istifadədə bərabərlik, qadın stereotipləri, sərt gender rolları, ailə zorakılığı və ya diskriminasiyası mənim çıxışıma daxil edilməmişdi. Bu məsələlər mənim uşaqlıq dövrümlə - 1960-cı illərlə müqayisədə bu gün öz həllini qismən də olsa, tapmışdır.

Mən yaşa dolduqca Ermənistan qadını haqqındakı təsəvvürlərim də dəyişməyə başladı. Kimdir erməni qadını? O nəyi təmsil edir? Onun mövqeyi nədir? Nəyə görə erməni qadını liderlik mövqeyində yox dərəcəsindədir? Bu istər dünyadakı erməni diaspora strukturlarında olsun, istərsə də, vətəndəki qərar qəbul edən qurumlarda, hər yerdə vəziyyət eynidir. Qadının siyasi aktivliyi niyə gözə dəymir? Onun milli quruculuq prosesində rolu nədən ibarətdir?

Bu gün biz bilik, texnologiya, təcrübə və vərdişləri asanlıqla dünyaya yaya bilən qlobal mobillik şəraitində yaşayırıq. Ermənistan diasporası çox yaxşı təşkil olunmuşdur. Bu təşkilat Ermənistan hökumətindən daha varlı, daha çox iqtisadi gücü olan bir qurumdur. Yüksək imkan və nüfuz sahibi olan ermənilər xaricdə yaşayırlar, bilik və təcrübənin körpüsü rolunu oynayır, milli diskursların meydana gəlməsinə təkan verirlər. Effektiv diaspora təşkilatları, şəbəkələr və hərəkatlar ölkədən xaricə beyin axının düzgün istiqamətlənməsinə nəzarət etməyi yaxşı bacarırlar.

**Gender bərabərliyi diaspora üçün gündəlikdə olan məsələ deyildir.** Ermənistan müstəqillik əldə etdikdən sonra diasporanın qadın təşkilatları dərhal işə başladılar, qadınların rolunu yüksəltmək məqsədilə deyil, onların yükünün azalması üçün layihələr hazırladılar və bunları müxtəlif sahələrdə həyata keçirdilər. Bu diaspora tərəfindən edilən çox əhəmiyyətli bir addım olsa da, qadınların üzləşdiyi problemlərin həllinə təsir etmədi və bütün bu tədbirlər sosial mobilizasiyaya təkan verən səviyyədə olmadı. Onlar həm zamanlarını, həm də enerjilərini bu yola sərf etsələr də, konstruktiv bir mühitin yaranması, təşkilat və şəbəkələrin yenidən qurulması üçün iradə və tələb qoymadılar. Onlar qadınların özlərini yüksəltmək əvəzinə, onların yüklərini azaltmaqla kifayətləndilər.

Onu da qeyd etmək yerinə düşərdi ki, Ermənistanda yaradılan strukturlar diasporanın yardımını istəyirlər, lakin heç bir öhdəlik götürmürlər. Belə münasibət əməkdaşlığın inkişafı və yeni ide-

yaların mübadiləsinə yol açmır. Sovet İttifaqının dağılmasından sonra Ermənistanda keçid dövrü başladı, ölkə demokratik dəyərlər və prinsiplərlə müşahidə olunan yeni cəmiyyətə keçməyə qərar verdi. O zaman əhalinin savad səviyyəsi nisbətən yüksək idi, yaxşı təlim görmüş işçi qüvvəsi vardı, xaricdən diaspora yardım etməyə hazır idi, lakin bütün bunlar gözlənilən nəticəni vermədi. Müstəqillikdən sonra ölkədə dərhal özəlləşmə və cəmiyyətdə təbəqələşmə baş verdi, kütlənin həyat səviyyəsi aşağı düşdü. Qadınlar oyundan kənar qaldı və qaydalar elit təbəqə, xüsusilə də kişilər tərəfindən müəyyənləşdirildi və resurslara əlyetərlik məhdudlaşdırıldı. Sovet İttifaqı zamanında qadınlara bərabərlik imkanı verilsə də, Ermənistanda gender bərabərliyi məsələsi mühüm bir məsələ hesab edilmirdi. Sovet dövründə gender paritetliyi ideoloji məsələ idi və bu məcburi olaraq həyata keçirilirdi.

Diasporda olan erməni qadınların həm karyera, həm də elmdə bir çox məsələlərdə irəli getmələrinə baxmayaraq, diaspor təşkilatlarında liderlik mövqeyinə qalxa bilməmişdilər. Diasporada fəaliyyət göstərən erməni qadınlar, ölkə daxilindəki qadınlar üçün bilik, təcrübə və səriştəlilik məsələlərində körpü rolu oynasalar da, bu qadın hərəkatının formalaşmasına səbəb olmadı. Diasporada qadınların qərar qəbuletmədə zəifliyi ölkə daxilində də qadınların siyasi passivliyinə təsir edirdi. Diaspora qadınlarının qərar qəbuletmə prosesində zəif iştirak etməsinə təkan verən digər amil, diasporanın özünün xarakter və mahiyyətindən irəli gəlirdi. Mövcud təşkilatların təsiri altında qalıb, xarici ölkələrdə yaşayıb işləməklə, qadınlar diaspora strukturunda lider mövqeyinə yüksələ bilmirlər.

İlk baxışda elə görünür ki, qadınların səfərbər edilə bimməməsində əsas təsiredici amil diasporada fəaliyyət göstərən qadınların müxtəlif ölkələrdə olmaları və sosial islahat hərəkatından kənarda qalmalarıdır. Diasporanın fəaliyyəti ilə yaxından tanış olanda bəlli olur ki, onlar sadəcə, milləti, vətəni və vətəndəki insanları dəstəkləmək niyyətindədirlər. Onların məramı qadınlar üçün so-

sial və siyasi dəyişikliklər etmək deyil, onların mövcud olmasına yardım etməkdir. Bu baxımdan da, müstəqillik dövründə qadın hərəkatını təşkil etməyi onlardan gözləmək düzgün deyildir.

Qadın təşkilatları, məsələn, yüzilliyini qeyd edən Ermənistan Yardım Cəmiyyəti (EYC) kimi təşkilatlar təsis ediləndə, qadın emansipasiyası ideyası önə çəkilirdi. EYC 100 il bundan qabaq yaradılsa da, proqressiv-inqilabi xarakter daşısa da, qadınlar hələ də liderlik mövqeyində yox dərəcəsindədirlər.

İllər keçdikcə diasporanın dinamikasında da dəyişikliklər baş verdi, onun fəaliyyət dairəsi məhdudlaşdı və beləliklə də, indiki dominant konservativ paradiqma yarandı. "Hayabahbanum" (erməniliyi müdafiə etmə - qoruyub saxlama) ideologiyası Ermənistanda ana və qadınının fəaliyyətini məhdudlaşdırdı. Onların həlledici rolu övladlarına erməni dilində təhsil vermək, assimilyasiyaya qarşı mübarizə aparmaq, millətinin tamlığını dəstəkləmək və onun əbədiliyini qorumaqdır.

Göründüyü kimi, gender bərabərliyi məsələsi diaspora üçün önəmli və gündəlikdə olan məsələ deyildir. Nəticədə, qadınlar proqressiv emansipasiyadan konservativizm modelinə qayıtdılar. Bu model adət-ənənələrin stabilliyini və dayanıqlılığı gücləndirirdi.

Hərəkat üçün fəallar tələb olunur. Onlar sosial dəyişikliyin baş tutacağına inandıqları halda işə başlayır, öz enerji və vaxtlarını buna həsr edir və digərlərini də iştiraka motivasiya edirlər. Onlar tərəfdarlarını təşkilatlandırır, məqsədə çatmaq üçün strategiyalar hazırlayırlar. Bütün bunları həyata keçirmək, öz məqsədlərini dərk edib inkişaf etdirmək diaspora qadınları üçün ona görə çətin olur ki, onlar müxtəlif ölkələrin vətəndaşlarıdırlar.

Təşkilatlarda səriştəli, bacarıqlı erməni qadınlarının olması və məlumat çoxluğu diasporaya imkan verir ki, onlar daha innovativ və kreativ olsunlar, bu bacarıqlarını, bilik-təcrübələrini mübadilə yolu ilə və ölkədəki qadınların istəyinə əsasən vətəndə realizə etsinlər. Sosioloqlardan biri yazırdı, "Qadınlar siyasətin

passiv hədəfi və ya eybəcərləşdirilmiş (deformasiya olunmuş) inkişafının qurbanları deyil – onlar sosial dəyişikliyin yaradıcısıdırlar”.

(Mariya Titiziyan, Ermənistan Qadınlar Koalisiyasının yaradıcı üzvü. Sosialist İnternasionalın vitse prezidenti Daşnaksutyun Partiyasının üzvü).

**Ədəbiyyat:**

**İngilis dilində**


1. A.E.Woodward, “*Going for Gender Balance*”, Strasbourg: CoE, 2002, pp. 11-12.
2. A.Graff, “*Where did the Woman on a Tractor and the Cynical Tough Guy Go? Gender Innocence Irretrievably Lost, ” “Women in Times of Change*”, 1989-2009, pp. 32-33.
3. Agnieszka Rochon and Agnieszka Grzybek, “*Introduction*”, “*Women in Times of Change*”, 1989-2009, Warsaw: Heinrich Boll Foundation Regional Office, 2009, p. 7.
4. A. S. Wharton, “*Gender Inequality*”, in George. Ritzer (ed.), Handbook of Social Problems. A Comparative International Perspective, Thousand Oaks, CA: Sage, 2004, p. 156
5. Armenia. Questionnaire to Governments on Implementation of the Beijing Platform for Action (1995) and the Outcome of the Twenty-Third Special Session of the General Assembly, 2000, p. 1
6. A.Sen, “*Many Faces of Gender Inequality*”, Frontline, Vol. 18, issue 22, Oct. 27-Nov. 09, 2001, p. 15.
7. Beijing Declaration and the Platform for Action. New York: UN DPI, 2006, p. 33 (para. 41) & p. 17 (para. 1).
8. CEDAW document A/57/38/ part III, para. 27, 2002, p. 150
9. Document CEDAW/C/ARM/CO/4/Rev. 1. 2 February 2009
10. E. Duban, “*Gender Assessment*”, Yerevan: USAID/Armenia, 2010, p. 3
11. Gender Equality Standards and Mechanisms, Recom-

mendation CM/Rec (2007) 17 of the Committee of Ministers and Explanatory Memorandum, Strasbourg: Directorate General of Human Rights and Legal Affairs (Council of Europe), 2008, p. 31.
12. H.Hovhannisyan, L.Zakaryan and V.Osipov, "*Gender Dimension of Civic and Political Participation in Armenia*", Report on the Findings of the Sociological Study, 2010, Yerevan
13. Hua. Haiyan, "*School Wastage Study Focusing on Student Absenteeism in Armenia*", Yerevan: UNICEF, 2008
14. James Hughes and Ben Slay, "*Gender in Transition*", Development and Transition, # 8, UNDP & LSE., December 2007, p. 1
15. Naila Kabeer, "*Gender, Development and Training: Raising Awareness in Development Planning*", Paper Presented to the National Labor Institute/Ford Foundation Workshop on Gender Training and Development. Bangalore, 29 November – 6 December 1990
16. M.Blagojevic and J. Sargizova, "*Needs Assessment on Institutional Mechanisms*", UNDP Armenia, March 2008, pp. 5-6
17. M.Hawkesworth, "*Democratization: Reflections on Gendered Dislocations in the Public Spheres*", in Nancy Holmstrom (ed.) The Socialist Feminist Project, New York: Monthly Review Press, 2002, pp. 298-312
18. Millennium Development Goals: Nationalization and Progress. 2005 National Report: Armenia, Yerevan: UNDP and PRSP Secretariat, 2005, p. 1
19. More Women in Senior Positions: Key to Economic Stability and Growth, Luxembourg: Publications Office of the European Union, 2010, p. 14
20. M.Titizian, "*The Armenian Woman: From Progressive Emancipation of Conservatism.* " The Armenian Weekly,

Watertown, USA, 7 March 2010

21. Naila Kabeer, "*Gender, Development and Training: Raising Awareness in Development Planning*", Paper Presented to the National Labor Institute/Ford Foundation Workshop on Gender Training and Development. Bangalore, 29 November – 6 December 1990
22. National Action Plan for the Improvement of Women's Status and Enhancement of their Role in Society in the Republic of Armenia in 2004-2010, Yerevan: WRC, 2004
23. Participation of Women in Public and Economic Life, Consolidated Summary, OSCE Human Dimension Seminar, Warsaw, 2003, p. 14
24. Pierella Paci, "*Gender in Transition*", Washington: World Bank, 2002, p. 9.
25. Recommendations for the Establishment of a National Referral Mechanism for Survivors of Gender-Based Violence in the Republic of Armenia, Yerevan: UNFPA, 2011, p. 52
26. Sineau, M. Genderware, "*the Council of Europe and the Participation of Women in Political Life*", Strasbourg: CoE, 2003, p. 28
27. Study on Causes of Women's Underrepresentation in Decision-Making, Yerevan: NILSR, 2008, p. 3
28. The ICPD Programme of Action, New York: UNFPA, 2004, p. 22
29. The Real Wealth of Nations: Pathways to Human Development (Human Development Report 2010). Houndsmill, Basingstoke, Hampshire and New York: Palgrave Macmillan, 2010, p. 89
30. T. Davis, "*Address*", Human Rights and Economic Challenges in Europe – Gender Equality, Proceedings of the 6th European Ministerial Conference on Equality between Women and Men. Strasbourg: CoE, 2006, p. 25

31. “Vienna Declaration and Programme of Action adopted at the World Conference on Human Rights. 25 June 1993, ” The United Nations and Human Rights, 1945-1995, New York: UN, 1995, p. 449.
32. V.Osipov, A.Tanashyan et al, Report on the Nationwide Survey on “*Domestic Violence Against Women in Armenia*”, 2008-2010, Yerevan: UNFPA
33. United Nations Millennium Declaration (Adopted by the UN General Assembly at the 8th plenary session on 8 September 2000), New York: UN DPI, 2000, p. 8

**Rus dilində**

34. Кургинян Ервандович Сергей, “После Капитализма”, Манифест движения “Суть времени”, 2011, Москва, bax: http: //eot. su/sites/default/files/manifest_eot. pdf

# XI FƏSİL

## QAFQAZDA GENDER BƏRABƏRSİZLİYİ PROBLEMLƏRİ

**Şimali Qafqaz Respublikalarında gender siyasəti: müasir tendensiyalar.** Cənubi Qafqaz cəmiyyətləri həm ailədaxili, həm də ailədən kənar gender rollarına münasibətlərdə nə qədər konservativ olsalar da, Şimali Qafqazla müqayisədə gender bərabərliyi istiqamətində xeyli irəli getmişlər. Bu konservativlik qadın və kişilərə əmək bazarında da öz təsirini göstərmişdir və bu da bölgədə işsizlikdən tutmuş aşağı maaşa qədər saysız-hesabsız problemlərin meydana gəlməsinə səbəb olur. Azərbaycan, Gürcüstan və Ermənistanda ödənişli əmək sferasının hər bir sahəsində kifayət qədər gender bərabərsizliyinə təsadüf etmək olar. Son illərdə bəzi bölgələrdə dəyişikliklər baş verir. Beynəlxalq Əmək Təşkilatının 2012-2013-cü illər üçün verdiyi məlumata görə son illərdə bölgədə əmək haqlarının ödənilməsində gender bərabərsizliyi xeyli azalmışdır. Başqa problemlər də mövcuddur, məsələn, ödənişli işin ödənişsiz işə münasibətində xüsusi çəkisi. Ermənistan Milli Statistika Xidmətinin 2008-ci ildə verdiyi məlumata görə (belə sorğu yalnız Cənubi Qafqazın bu bölgəsində aparılmışdır) kişi və qadınların vaxt keçirmə imkanları fərqlidir, onlardan biri (sözsüz ki, qadın) ev işlərini daha çox yerinə yetirir.

Cənubi Qafqazda ödənişli işlərdə olan kişilərin sayı qadınlardan qat-qat çoxdur, ödənişsiz əmək isə qadın sahəsi olaraq qalır. Regionda ev işlərinin yerinə yetirilməsində gender bərabərsizliyi qabarıq şəkildə nəzərə çarpır. Ermənistan Respublikasının Milli Statistika Xidmətinin topladığı məlumata görə buradakı gender fərqliliyi həm həyat tərzində, həm də davranışda özünü büruzə verir. Məlumatlarda gün ərzində qadın və kişilərin bütün fəaliy-

yətləri nəzərə alınmış və davranış fərqləri qeyd olunmuşdur. Bu fərqə onların həm ödənişli, həm də ödənişsiz işdə olan iştirak koeffisienti daxil edilir.

Ödənişli işlərdə qadınların say faizi aşağı olsa da, ödənişsiz ev işlərində qadınların payı çoxdur. Bu məlumatlar rəsmi sənədlərdə təsdiqini tapmır. Qadın işinin strukturu kişi işinin strukturundan çox fərqlidir.

Gürcüstandan başqa digər iki respublikada kiçik və orta müəssisələrdə çalışan kişilərin sayı qadınların sayından çoxdur. Gürcüstanda da onların sayındakı fərq o qədər çox deyildir. Əmək bazarında gender tərəfləri arasındakı fərqin qadınların maliyyə resurslarından istifadə imkanlarına təsiri vardır. Ümumiyyətlə, qadınlar kişilərdən az qazanırlar, lakin Beynəlxalq Əmək Təşkilatlarının 2012-2013-cü il üçün hazırladığı hesabata görə, bu fərq son illərdə azalmışdır.

Hesabatda 2008 və 2011-ci illər 1997 və 2007-ci illərlə müqayisə olunmuşdur. Bu iki dövr ərzində Cənubi Qafqazda əmək haqlarının ödənilməsində gender fərqləri azalmışdır. Bu fərqlərin azalmasına görə Azərbaycan birinci, Ermənistan ikinci, Gürcüstan üçüncü yerdədir. Ola bilsin ki, bu göstəricilər pozitiv təsir bağışlaya bilər, lakin bu da kişilərin vəziyyətinin neqativ istiqamətə dönməsi ilə səciyyələndiyi üçün bunu qadınların vəziyyətinin inkişafı kimi qiymətləndirmək olmaz (International Labour Organisation 2012/2013 report on Wages and Equitable Growth).

Ermənistan və Gürcüstanda insanlar aşağı maaş aldıqlarına görə narazıdırlar. Ermənistanda 75 %, Gürcüstanda isə 53 % qadın iddia edir ki, bu haqsızlıqdır. Bölgədə kişilər üçün uyğun rəqəmlər Ermənistanda 62 % və Gürcüstanda 46 %-dir. Azərbaycandakı vəziyyət bir qədər fərqlidir, burada qadınlar kişilərlə müqayisədə maaşlarından çox da narazı deyillər. Cənubi Qafqazda qadınların orta əmək haqqı kişilərlə müqayisədə hələ də aşağıdır və ev işlərinin çoxu qadınlar tərəfindən yerinə yetirilir. İqtisadi səviyyə aşağı

düşdüyündən kişilərin də əmək haqları aşağı düşmüş və ona görə də, qadınlarla kişilərin maaşlarının arasındakı fərq azalmışdır.

Şimali Qafqazın RF-nın tərkibində olmasına baxmayaraq, bu bölgə Rusiyada gender bərabərliyi ilə əlaqədar gedən proseslərdən çox da faydalanmır. Şimali Qafqazda vətəndaş cəmiyyəti azadlıq, dəyər və bərabər hüquqlar məsələsində vəziyyət bölgəyə görə, bölgədə islamın və ənənəçiliyin vətəndaş cəmiyyətinə olan münasibətinə görə dəyişə bilir.

Rusiyada həyata keçirilən islahatların başlıca məqsədi şəxsiyyətin inkişafı və vətəndaş cəmiyyətidir ("*Послание Президента Российской Федерации Федеральному Собранию РФ*", 2005: 10-11). İslahatlar nəticəsində əldə olunan nailiyyətləri mükəmməl hesab etməyən D.Medvedev ikinci prezidentliyi dövründə belə demişdi: "XXI əsrdə ölkəmizin yenidən hərtərəfli modernləşməsinə ehtiyac vardır. Dəyərlər və demokratiya qurumlarına əsaslanan bu modernləşmə bizim tariximizdə ilkdir. Hər kəsin əvəzinə düşünüb və hamının əvəzinə qərar verən arxaik hökmdarlardan fərqli olaraq, ağıllı, azad və məsuliyyətli insanlardan ibarət olan cəmiyyətə çevrilməliyik. Vətəndaş şüurunun artması, vətəndaş cəmiyyətləri qurumlarının inkişafı yalnız siyasi sistemin inkişafı ilə mümkündür". Qərb alimlərinin klassik əsərlərində vətəndaş cəmiyyəti problemi şəxsiyyətin azadlığı problemi vasitəsilə təhlil edilir. İ.Kanta görə mühüm prinsiplərin vətəndaş cəmiyyətində reallaşması: Hər bir şəxsin azadlığı, bərabərliyi və müstəqilliyi vasitəsilə həyata keçirilir (Кант И., 1965: 79).

D.Mill "Azadlıq haqqında esse" (1859) və "Qadın asılılığı" (1869) əsərlərində qadın azadlığı və qadın hüquqları problemlərini qaldırır. Bununla da o, əsrlərlə qadınların natamam, "təbiətə bağlı" olduqlarını söyləyənlərlə mübahisəyə girir. "Qadın təbiəti" süni yaradılan problemdir. Qadınların marginal vəziyyəti kişilərin davranışlarının nəticəsidir, "qadınları ailədə periferiyada saxlamaq müstəsna əhəmiyyət kəsb edirdi. O zaman İngiltərədə qadınları fabriklərdə işlətmək, elm və incəsənətdən uzaq saxla-

maq üçün onların bu sahələrdə qabiliyyət və istedadlarının olmadığını qabartmaq lazım idi". Əslində, problemi siyasi yolla həll etmək, qadın və kişilər üçün bərabər sosial şərait yaratmaq lazımdır (Милль Дж. С., 1906). O qadınları "evdə işləyən qullarla" müqayisə edərək yazırdı ki, qadın, asılı vəziyyəti ucbatından enerji və qabiliyyətini "öz səadəti üçün deyil, digər cinsə xidmət və onu qane etmək üçün sərf edir". "Qadın və kişilər arasındakı bərabərlik nikahda dostluq və insan cəmiyyətində proqresə nail olmaqdan ötrüdür".

D.Mill "fərdi azadlıq" anlayışının məzmununu genişləndirdi: birincisi vicdan, din, təfəkkür, hiss, fikir ifadəsi azadlığı, seçki azadlığı, ikincisi, azadlıq öz şəxsi həyatını öz şəxsi qərarı ilə qurmaq, üçüncüsü, toplaşma azadlığı, dövlətin marağını gözləməklə hər hansı bir məqsədə çatmaq üçün digər insanlarla ictimai birlik yaratmaqdır (Милль Дж. С., 1906).

"Hakim fikir, düşüncə və davranış nümunələrinə qarşı şəxsiyyəti qorumaq lazımdır; şəxsiyyətin azadlığını inkişaf etdirərək, ona arzularına uyğun azadlıq verilməlidir" (Шерудило Т., 2006). Müəllifə görə bir insanın azadlığı digər insanların azadlığını məhdudlaşdırmamalıdır. Sosial inkişaf o zaman mümkün olur ki, o müxtəlif fərdlərin təşəbbüsünü özündə ehtiva etsin.

Şəxsi azadlıqdan bəhs edən çoxlu sayda filosof və mütəfəkkirlər vardır. Məsələn Hegelin vətəndaş cəmiyyəti konsepsiyasında insanın şəxsi azadlığı məsələsi çox önəmli yer tutur. K.Marks və F.Engels də vətəndaş cəmiyyətinin əsasında fərdi azadlığın durduğunu təsdiqləyirlər (Маркс К., Энгельс Ф., 1929: 400-401).

Müasir dünyanın çoxsaylı problemləri mövcuddur. Onlardan biri və bəlkə də ən əsası qadın hüququ, onun cəmiyyətdə yeri və rolu, qadına verilən hüquq və imkanların genişləndirilməsi ilə bağlıdır. Bu problemlər bütün dövrlər üçün aktual olmuşdur və hal-hazırda da aktual olaraq qalır. İstər QHT-lər olsun, istərsə də dövlət qurumları və ya beynəlxalq təşkilatlar, qeyd olunan məsələləri hər zaman diqqət mərkəzində saxlamağa cəhd göstə-

rilməlidir. Dünyanın digər yerlərində olduğu kimi Qafqazda da bu problemlər öz həllini gözləyir.

Qafqaz qadın problemlərinin kəskin olduğu bölgələr sırasındadır, xüsusilə də müsəlmanların kompakt yaşadıqları bölgələrdə qanunlardan çox adətlər hələ də öz sözünü deyir. Bu regionda qadın problemlərin həllini tam tapmaması əhalinin maddi vəziyyəti, qadınların ənənəvi və islami qaydalarla yaşamağa davam etməkləri ilə bağlıdır, burada qadınların həyatı dövlətin təsbit etdiyi qanunlarla deyil, şəriətin diktə etdiyi qaydalarla idarə olunur.

İnsan azadlığı ilə vətəndaş cəmiyyəti arasında üzvi əlaqə mümkündür, belə ki, bilavasitə vətəndaş cəmiyyəti bərqərar olan dövlətdə insan hüquqları, mülkiyyət hüququ və şəxsi müstəqillik dayanıqlı ola bilir. Məlumdur ki, qadın hüquqları insan hüqüqlarının tərkib hissəidir. Gender bərabərliyi olmayan yerdə demokratiyadan danışmaq absurddur.

"Belə cəmiyyət azad şəkildə insanların bərabər hüququnu, şəxsiyyət azadlığı imkanını, yaradıcılıq təşəbbüsünü, bərabər imkanlı cəmiyyətdə yaşama haqqını şəxsi qadağa və inzibati tənzimləmə olmadan da təmin edir. Cəmiyyət o zaman vətəndaşın olur ki, o bu inkişafın müəyyən mərhələsində olur və bu cəmiyyət ölkənin iqtisadi, siyasi inkişaf, xalqın mədəniyyət və özünüdərk rifahının artmasına əsaslanır" (Шалин В.В., Альбов А.П., 2005: 266). Beləliklə, vətəndaş cəmiyyəti deyərkən, şəxsiyyətin azadlığı nəzərdə tutulur. Buna bir çox amillər öz təsirini göstərir:

- dövlətin ümumi siyasəti ilə təyin edilən siyasi, hüquqi və iqtisadi azadlıqlar, onun idarəetmə quruluşu və forması, Konstitusiya və rəsmi qanunvericilik;
- ictimai azadlıq;
- insan azadlığına təsir edən ictimai və dövlət quruluşu, əlbəttə, burada yerli cəmiyyət (müasir və ya ənənəvi) də az rol oynamır. Modernizasiya və dini xüsusiyyətlər, sosial mühitin obyektiv şərtləri, sosiallaşma modelinin də təsiri çoxdur;
- yuxarida bəhs edilən amilərlə təyin olunan şəxsi (daxili)

azadlıq; bura insanın fərdi-şəxsi keyfiyyətlərini təyin edən intellekt, inkişaf, təhsil, özünüifadə, müstəqillik, özəl fikir söyləmə qabiliyyəti, özünü qiymətləndirmə daxildir.

Bəşəri, qlobal, milli-demokratik dəyərlərin tətbiqi, azadlıq, demokratiya, şəxsi mülkiyyət, bərabərlik kimi dəyərlər bölgədə hələ də tam realizə edilməmişdir. Şəxsiyyətin psixi və əxlaqi inkişaf səviyyəsi hələ ki, lazımi səviyyədə deyildir. Cinsindən asılı olmayaraq hər bir şəxsin (xüsusilə qadının) kollektiv identikliyi, ənənəvi və dini normaları, sosial funksiyaları, kollektiv maraqların prioriteti sarsılmışdır. Qafqazdakı ənənəvi və islami dəyərlər, etnik-mədəni xüsusiyyətləri nəzərə almadan, vətəndaş cəmiyyətinin ən əsas əlaməti olan bərabərhüquqluluğu, xüsusilə də gender bərabərliyini təmin etmək çətindir.

Qafqazda bərabərlik, xüsusilə də gender bərabərliyi problemi etnomədəni xüsusiyyətləri özündə ehtiva edir və daha kəskin şəkildə təzahür edir.

Vətəndaş cəmiyyətinin əsas dəyərlərini nəzərə aldıqda (hər bir şəxsin azad inkişafı və dəyəri, bərabərlik və bərabərhüquqluluq, söz azadlığı və s.) belə bir sual meydana çıxır: Ümumiyyətlə, söylənilən dəyərlər reallıqda Qafqaz qadınları üçün mövcuddurmu?

Gender bərabərliyinin çətinliyi onunla əlaqədardır ki, bu problemlərin həllinə qlobal yanaşılmır. Məlumdur ki, müasir dünyada, hətta ən proqressiv cəmiyyətlərdə belə, həllini gözləyən kifayət qədər gender problemi mövcuddur. Ənənəçilik və dini qaydalarla idarə olunan cəmiyyətlərdə isə bu problemlər hədsiz çoxdur. Elə buna görə də Qafqazda gender bərabərliyi probleminin ətraflı və düzgün təhlili çox önəmlidir. Regionda ənənəçilikdən müasirliyə gedən yolda qadınların gender rolları müəyyən edilməlidir.

İstər islam, istərsə də xristian cəmiyyətlərində gender bərabərliyi problemini həll etmək üçün təkcə dövlət deyil, dini rəhbərlər, alimlər, siyasətçilər, QHT-lər, ekspertlər də yaxından iştirak etməlidirlər. Məsələn, Şimali Qafqazın bir sıra bölgələrində

- İnquşetiya, Çeçenistan və Dağıstanda qadınlar və kişilər arasında bərabərhüquqluluğun mövcud olması üçün bir çox amilləri nəzərə almaq lazımdır, çünki bu cəmiyyətlərdə ənənəvi mədəniyyət üstünlük təşkil edir.

Müasir gender problemlərinin tədqiqatçısı S.Q.Ayvazova hesab edir ki, qadınlara qarşı münasibətdə dövlətin siyasəti xüsusi önəm təşkil edir. Bu siyasətdə əsas prinsiplər bərabərhüquqluluq və bərabər imkanların yaradılmasıdır. Gender bərabərsizliyi probleminin düzgün həlli modernləşmə və demokratiyanın əsasını təşkil edir (С.Г.Аивазова, 1998).

Yüzillərdən bəri Şimali Qafqazda həm ictimai, həm də özəl sahədə qadınların hüquqlarının pozulmasına baxmayaraq, bu məsələ o qədər də çox tədqiq olunmamışdır. Düzdür, bir çox müəlliflər, tədqiqatçılar (R.A.Xanaxu, İ.L.Babiç, R.D.Xunaqov, A.Y.Şadje, Y.Y.Karpov, B.Dalqat və başqaları) öz əsərlərində bu problemlərə toxunmuşlar və onun həlli yollarını göstərməyə cəhd etmişlər. Aparılan tədqiqatlar daha çox Şimali Qafqazın mərkəzi, şimalı və cənubundakı bölgələrə aiddir.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, İnquşetiya, Çeçenistan və Dağıstanda cavan nəsil ənənəçiliyə daha meyillidir və islami dəyərlərə daha çox üstünlük verir. Gənclərin əksəriyyəti onların təhsili ilə bağlı narazılıqlarını bildirməsələr də, qadınların iqtisadi-ictimai-siyasi fəaliyyətini o qədər də önəmli hesab etmirlər. Qadınların əmək fəaliyyətinə etiraz etməyənlər isə, onların çalışa biləcəkləri sahələr sırasında səhiyyə və təhsili göstərirlər. Ümumiyyətlə, bu bölgələrdə yaşayan kişilərin əksəriyyəti qadınların yüksək vəzifədə çalışmalarını uyğun hesab etmirlər. Qadına verilən azadlıq o qədər məhdudlaşdırılır ki, bunu heç azadlıq da adlandırmaq olmaz. Bu azadlıq bəzən minimuma endirilir. Əsrlər boyu ənənələrlə yaşamağa vərdiş etmiş bu kişilər qadınların dədə-baba qaydaları ilə yaşamağa davam etmələrini daha məqbul hesab edirlər. Aparılan tədqiqat və müşahidələrdən bəlli olur ki, əsrlərlə davam edən stereotipləri tezliklə dəf etmək o qədər də

asan görünmür. Qadınlara verilən bərabərliyə dildə guya etiraz etməyən kişilər də, onlara ev-ocaqlarını qorumağın daha çox yaraşdırdıqlarını bəyan edirlər.

İnquşetiyada Millətlərarası Münasibətlər və Beynəlxalq Əlaqələr üzrə İctimai və Dini Birliyin sədri Məryəm Əmirova hesab edir ki, "siyasətdəki qadın heç bir diskriminasiya ilə üzləşmir. Həm siyasətdə qadınlar var, həm də nazirlər arasında qadınlara təsadüf edilir, lakin bir şeyə əminəm ki, qadın nəyəsə nail olursa, yalnız öz ailəsinin dəstəyi ilə bunu əldə edir. Əlbəttə, yaxşı yaşayan qadınlar çoxdur, lakin statistik göstəricilərə görə, başqa yerlərlə müqayisədə onlar pis yaşayırlar. Mürəkkəb ictimai-siyasi vəziyyət bir sıra sahələrdə - psixoloji, sosial-iqtisadi, səhiyyə, iş yerlərinin çatışmaması, uşaq bağçalarının azlığı qadınların problemlərini üzə çıxarır. Qısası, İnquşetiyada qadınların vəziyyəti ürəkaçan deyildir".

Əslində, islamda qadına bir çox sahələrdə seçim hüququ verilir, kişilərə onları qorumaq tövsiyə edilir. Quranda cinsindən, sosial statusundan, yaşından, dinindən, dilindən asılı olmayaraq, hər bir kəsə təhsil almaq və bir-birinə hörmət etmək tövsiyə edilir.

Vainah xalqının (Vixadji vird) qadınları da kişiləri ilə zikrdə eyni cür iştirak edirlər. Sufizmdə qadın və kişilərə bərabər şəkildə, cinsindən və milliyyətindən asılı olmayaraq, eyni cür münasibət bəslənilir (Хэльмински К., 2014). Beynəlxalq Müsəlman Alimləri İttifaqının sədri Yusif Kardavi daha da uzağa gedərək qadınların ali hakimiyyət orqanlarına seçilmək cəhdlərini dəstəkləyir. "İslam qadınların parlamentə seçilməsinə icazə verir"… Kardavi bunu deyəndə Quranın "Tövbə" ayəsinə əsaslanır: "İmanlı qadın və kişilər bir-birinin yardımçısı və dostlarıdırlar. Onlara bəyəniləni etməyi tövsiyə, pisi isə qadağan edirlər". "Bu ayədə qadın və kişilərin üzərinə eyni məsuliyyət qoyulur, Kardavi bildirir. Kimsə qadının əlindən bu ilahi hüququ ala bilməz". "Quran müəyyən edilmiş sosial və siyasi vəzifələri qadına verir. Məncə, bütün yerlərdə bu ayə şüar kimi göstərilməlidir" deyə Kardavi qeyd edir.

Qaldı ki, o hədisdə yazılanlara "xalq özünə hökmdarı qadın cinsindən seçərsə, həmin xalq heç vaxt uğur qazana bilməz," bunu farslar uydurub. Kardavinin iddiasına görə "qadın mövcud kişi liderlərdən min dəfə artıq yaxşı siyasi lider ola bilmək qabiliyyətinə malikdir" (Кардави, 2010).

Bu gün Qafqaz xalqlarının yaşadıqları bütün bölgələrdə insan hüquqları təsbit edilmişdir və avtomatik olaraq ora qadın hüquqları da daxildir. İslam qaydalarını əldə əsas tutan kişilər bir şeyi unudurlar ki, qadın anadan olanda hüquqları ilə birlikdə dünyaya gəlmişdir, kimsə Tanrının verdiyi hüquqlara şübhə etməməlidir. İnsanın malik olduğu hər bir hüquqa qadın da sahib olmalıdır.

Bir çox hallarda qadının lider olmasına neqativ yanaşma müşahidə olunur, yəni onların məhdud çərçivədə fəalliyyət göstərməli olduqları iddia edilir. Muxtəsər İlmihal qadınların cəmiyyətdə liderlik etmələrinin əleyhinədir. Onun fikrincə kişilər çətin vəzifələri öz öhdələrinə götürürlər ki, qadınları bir çox qayğılardan azad etsinlər. Kişi ona görə çətin işlərlə məşğul olur ki, bu onun vəzifəsidir. O, qadını zəruri olan hər bir şeylə təmin etməyə borcludur. "Kişilər qadınlara pul-para məsrəf etdiklərinə görə Allah onları üstün yaratmışdır". Bununla bərabər, islam qadınlara düzgün yolla pul qazanmağı qadağan etmir, lakin bircə şeyi qadın hər zaman yadında saxlamalıdır ki, istər əmək fəaliyyəti zamanı, istərsə də təhsil alan zaman onun yanında naməhrəm kişi olmamalıdır. Unutmaq olmaz ki, ailədə hasilatçı qismində hələ də qadın çıxış edir. Ailələr qadın fədakarlığı hesabına mövcud olur. "Yaşamaq üçün işləyən qadınlar bazarda ticarətlə məşğul olur və bununla da çox şey itirirlər: Burada mədəniyyətlə əlaqəli qadağaları müşaiyət etmək və ənənəvi etiket normalarına riayət etmək mümkün olmur" (Текуева М.А., 1999: 41). Yalnız az sayda qadın öz ixtisasları üzrə çalışır və özlərini realizə edə bilirlər. Bu qisim qadınlar üçün iş vəzifə borcu deyil, bəzən, bu onlar üçün zövqə və həyatın məqsədinə çevrilir.

Qafqaz qadınları üçün azadlıq və bərabərhüquqluluq üç əsas amilə söykənir: ənənəçilik, din və müasirlik. Cəmiyyətin qadına olan münasibətini təkcə dinlə əlaqələndirmək yanlışlıq olardı.

Ənənəçilik və islam Şimali Qafqaz reallığında bir-birinə o qədər qarışmışdır ki, sadə insanlar hətta bunlardan hansının islama, hansının ənənəyə aid olduğunu ayırd edə bilmirlər. Burada vahid qanun, vahid norma, vahid dəyər yoxdur. Demək mümkündür ki, belə bir cəmiyyətdə, qadın azadlığı və hüququ bütünlüklə tam müdafiə edilmir: Bəzən bu bölgədə nə qanun, nə ənənə, nə də şəriət işləyir. Kişilər situasiyaya uyğun olaraq, özlərinin marağında olanı edirlər. Sənayeləşdirmə və modernləşmə, əmək şərtlərini dəyişmişdir, intellekt və zehni əmək daha önə keçmişdir. Bu proseslər gender rollarındakı fərqliliyi də üzə çıxarmışdır. Qadınların təhsil səviyyəsinin yüksəlməsi onlara öz karyeralarını inkişaf etdirmək imkanı vermişdir. Qadınların cəmiyyətdə peşəkar, iqtisadi, siyasi və ictimai mövqeyi mövcud vəziyyətdə kişi dominantlığı barədə söhbətlərin aktuallığını azaltdı. Bütün bunlara baxmayaraq, ailələrin çoxunda hələ də qadınların aşağı statusu, kişilərin dominant statusu saxlanılmaqdadır. Qanunla qadın və kişilərin eyni hüquqlu olmasına rəğmən, hələ də ənənə tam ayrı yaşayış normalarını diktə edir. Problemin kökündə cəmiyyətin qadına olan münasibətinin dəyişməməsi durur (Текуева М.А., 1999: 42).

Məsələnin özülü ailədə qoyulmuşdur. Əksər hallarda, ənənəçilik və patriarxallıq şərtlərinə üstünlük verən cəmiyyətlərdə hüququn diktə etdiyi bərabərlik faktiki olaraq keçərli olmur. Ailə qadına məhdudiyyətlər qoyur. Ərə gedərkən gələcək həyat yoldaşının seçilməsi, təhsil alma imkanı, peşəkar özünürealizə, karyerada irəliləmə və bir çox bu kimi məsələlər kişilərin diktəsi ilə həyata keçirilir. Qadının düzgün olmayan hər hansı bir davranışına görə ona qarşı zor tətbiq edilə bilər. R.A.Xanaxaunun dediyi kimi "başqa sferalar ilə müqayisədə özəl sahələr daha konservativdir və burada rasionallıqdan çox ənənəçiliyə üstünlük verilir.

Halbuki dövran çoxdan dəyişmişdir və təkmilləşmə, müasirləşmə sayəsində qadınlar artıq əvvəlki qadınlar deyillər. Qafqaz cəmiyyətində də qadının rolu artıb" (Ханаху Р.А., 2003: 44).

Müsəlman Qafqazında qadının həyat tərzi (xüsusilə də dağ yerlərində, kəndlərdə) islama, adət və ənənəyə riayət etməyə əsaslanır. Demək olar ki, bu adətlər əsrlərdir ki, dəyişməz qalır. Belə qadın yalnız öz dünyasında yaşaya bilər (burada qadın öz kişi-qohumlarının qəyyumluğu altındadır), başqa şərtlərlə bu qadının yaşaması mümkün deyildir. Belə tendensiya kənd yerlərində və təhsilsiz əhali arasında daha çox yayılmışdır. Bunlardan fərqli olaraq, ziyalı qadınlar belə stereotipləri dəf etməyə qadirdirlər.

Əlbəttə, demokratik cəmiyyətdə qadın azadlığını hər zaman ailə təyin etmir. R.Kadırovun hakimiyyəti dövründə Çeçenstanda qadınları başlarını örtməyə vadar etdilər və buna əməl etməyən qızları məktəbə, universitetlərə buraxmadılar. Ənənəvi qaydada geyinməyən qadınlara yaxşı münasibət yoxdur. Belə bir şəraitdə qadın azadlığından və cəmiyyətin demokratikləşməsindən danışmaq olmaz. Qadına təhsil, inkişaf, sosiallaşma, ümumbəşəri dəyərləri mənimsəmək istiqamətində şərait yaratmaq lazımdır. Qadın şəxsiyyət olması fikrini özünə təlqin etməli, hədəfə çatmalı və özünü təkmilləşdirməyə cəhd etməlidir. İslam qadının təhsil alma imkanlarının mümkünlüyünü inkar etmir. İstər kişi olsun, istərsə də qadın, elmə cəhd təkcə hüquq deyil, hər bir müsəlmanın borcudur. Tarixdən məlumdur ki, müsəlman qadınlar elmdə heç də kişilərdən geri qalmırlar.

"Müsəlman əhalinin çoxluğuna görə İndoneziyadan sonra üç ölkə – Pakistan, Banqladeş və Hindistan gəlir. Bu ölkələrdə demokratiya təcrübəsi vardır, burada qadın baş nazir vəzifəsinə seçilmişdir. Bu qərbin bir çox ölkələrindən çox əvvəl baş vermişdi. Bəzən, gündəlik reallıqda islamın bir çox aspektləri bu stereotiplərdən fərqlənir" (Закария Ф., 2004: 132).

Bir sözlə, Qafqazın əksər bölgələrində ənənəçilik çox yaxşı qorunub saxlanmışdır. Qadınların çoxunun həyatı özəl sfera-

ya qapanmışdır. Burada qadınların əksəriyyətinin mühüm sosial rolu ilk növbədə "qadın-ana" çərçivəsi ilə məhdudlaşır. Onlar öz reproduktiv rollarını yerinə yetirir, uşaqlarının tərbiyəsində özlərini məsuliyyətli hesab edirlər. Qadın gələcək nəsli hansı formada tərbiyə edəcəksə, cəmiyyət də o formada olacaqdır. Elə bu səbəbdən də, cəmiyyətin ləyaqətli olması üçün qadın savadlı-elmli-ağıllı olmalıdır, lakin bugün Qafqaz qadınlarının əksəriyyətinin azad söz demə haqqının olması müşahidə olunmur və ənənələr güclü olan cəmiyyətin onların həyat və rollarına təsiri hələ ki, böyükdür. Qadınların çoxunun hüquq və imkanları vətəndaş cəmiyyətinin normalarından uzaqdır, onlarda vətəndaş təfəkkürü o qədər də inkişaf etməmişdir.

Gender bərabərliyi problemi bir çox sahələrdə özünü göstərir. Bir tərəfdən, bəzi qadınlar nəinki hüquqlarını dərk etmir, onlardan istifadə etməyə cəhd göstərmir, hətta bunu heç arzulamırlar da. Mövcud fikirlərə görə qadınların kişilərlə eyni dərəcədə bərabərhüquqlu olması mümkün deyildir. Digər tərəfdən, qadınların əksəriyyəti ənənəvi ailələrdə böyüyüb tərbiyə almışlar, mövcud stereotiplərdən qurtula bilmirlər və bütün fəaliyyətlərini ailə daxilində məhdudlaşdırmağa daha çox üstünlük verirlər. Belə şəraitdə qadın üçün bərabərhüquqlu olmaq cəhdi çox çətindir. Qadın özünü cəmiyyətin tam hüquqlu vətəndaşı hiss edərək, fəal vətəndaş mövqeyi nümayiş etdirməyə cəhd göstərsə də, onun uğurları ailəsinin dəstəyindən daha çox asılıdır. Kişilərin çoxu öz "prestijli kişi sferalarını" qadınlara asanlıqla vermək istəmirlər, qadını cəmiyyətin tam hüquqlu vətəndaşı hesab etmirlər.

Şimali Qafqazda azadlıq və bərabərliyin əldə edilməsinə ənənəçilik, islam və əhalinin həyat tərzi kimi amillər maneçilik törədir. Qadınlara Şimali Qafqaz əhalisinin gözü ilə baxdıqda anlaşılır ki, vətəndaş cəmiyyətinin norma və tələbləri onların real vəziyyəti ilə ziddiyyət təşkil edir. Gender bərabərliyinin təmin olunmasından yaxın zamanlarda danışmaq xəyal kimi görünür. Modernləşmə ilə əlaqəli bəzi dəyişikliklər hələ sovet dönəmində

başlamışdır və həmin dövrdən qalma bərabərlik ünsürləri hələ də mövcuddur. Məhz bu dövrdə kişi və qadın bərabərliyi formalaşmağa başlamış və qadının cəmiyyətdə rolu artmışdı. Bu bərabərlik vətəndaş cəmiyyətinə keçid üçün əsas ola bilər, yəni bunları nəzərə almadan vətəndaş cəmiyyətindən danışmaq olmaz.

## **Ədəbiyyat**:

### Rus dilində


1. Айвазова С.Г., "*Русские женщины в лабиринте равноправия*" (Очерки политической теории и истории). – М. : РИК Русанова, 1998. – 408 с.
2. Кардави, "*Женщина-политик может быть в тысячу раз эффективнее мужчины*", 2010, (Bax:http://www.islamnews.ru/news-27819.html)
3. Закария Ф., "*Будущее свободы...* ", 2004, С. Ростов н/Д., 162.
4. Маркс К., Энгельс Ф., Сочинения. Т. 1. С. 1929, 400-401
5. Милль Дж. С., "*О свободе*", СПб, 1906.
6. Кант И., Собр. соч. : В6т. Т. 4. Ч. 2. -М., 1965, С. 79.
7. "*Послание Президента Россиской Федерации Федеральному Собранию РФ*", М., 2005, С. 10-11.
8. Текуева М. А. "*Проблемы Воспроизводства традиционной культуры в современных условиях (гендерный аспект)// Кавказский регион: проблемы культурного развития и взаимодействия*", Ростов-на- Дону, 1999, С. 39-43.
9. Тлисов А., "*Изменить ситуацию на Северном Кавказе к лучшему без участия гражданского общества невозможно*" 27. 05. 2010, Bax: http: //www. kavkaz-uzel. ru/articles/169326/
10. Шалин В. В., Альбов А. П., "*Право и толерантность: либеральная традиция в эпоху глобализации*", Краснодар:

Краснодарская академия МВД России, 2005. – 266 с.
11. Шерудило Т. "*Свобода или совесть*?", 2006.
12. Ханаху Р. А., "*Традиционная культура Северного Кавказа: вызовы времени*", М., 2003, С. 44.
13. Хэльмински К., "*Адам. Женщины и Суфизм*", М., 2014.

## NƏTİCƏ

XXI əsrin əvvəllərində gender rollarında baş verən dəyişikliklər ənənəvi gender meyarlarının transformasiyası dövrünə təsadüf edir. Qadınların işgüzar aktivliyi onların ənənəvi statusunda dəyişikliyə səbəb olmuşdur və genderlərarası münasibət yeni bir mərhələyə qədəm qoymuşdur. Qadınlar yeni – “ailənin çörək verəni” statusu ilə gündəmə gəlmişlər. Bu da patriarxal qaydalarla şərtlənmiş Qafqazda gender bərabərliyi siyasətinin inkişafına nisbi təkan vermişdir.

Bölgədəki iqtisadi, mədəni, etnik fərqlilik əhalinin özünütəşkili prosesində müxtəlif formalar üçün zəmin yaratmışdır. İnzibatı komanda sistemindən bazar iqtisadiyyatına keçid əhalinin müxtəlif təbəqələrini yeni şərtlərlə yaşamaq məcburiyyətində qoymuşdur. Belə ki, müəssisələrin bağlanması, dövlət dəstəyinin olmaması, insanların iqtisadi cəhətdən zəifliyi ən çox qadınlara öz təsirini göstərdi (Атаева Л.М, 2005: 3).

Qafqazda yaşayan xalqların həyatında siyasi, iqtisadi və sosial dəyişikliklərin baş verməsinə baxmayaraq, onlar hələ də ənənəçiliyə üstünlük verirlər. Ənənəçilik isə hər zaman olduğu kimi müasir dövrdə də ən çox qadınların həyatına mənfi təsir göstərir. Şəriət qaydalarının dirçəlişi, ənənələrdən qaynaqlanmış yeni vəziyyət və yeni dünyanın diktə etdiyi şərtlər gender rollarında kifayət qədər ziddiyyətli məqamlara yol açmışdır. Konstitusiyada qadınlara verilən bəşəri hüquqlarla ənənələrdən irəli gələn aşağı statuslu hüquqlar arasındakı disbalans çox şeydən xəbər verir. Ənənələr qadınları bir çox mövcud hüquqlardan məhrum edirdi. Məlum məsələdir ki, Qafqaz qadınının real vəziyyəti hüquqi demokratik cəmiyyətin qanunları ilə üst-üstə düşmür.

Keçən əsrin son onillikləri elmdə “qadın tarixi”ni müstəqil bir qol kimi təşəkkül tapmasını, günün aktual problemi olduğunu

ortaya qoydu. "Qadın tarixi"nin elmin bir istiqaməti kimi təşəkkül tapması əlbəttə, bu problemə olan maraqdan irəli gəlirdi.

Bu vaxta qədər tarixdə qadının üstündən xətt çəkilməsi, qadın tarixinə olan etinasızlıq "qadın tarixi"nə olan marağı artırdı. İstər Qərb ölkələrində, istərsə də keçmiş sovet məkanında bununla bağlı yüzlərlə elmi əsər yazıldı. 1980-90-cı illərdə bu mövzuya olan maraq daha da böyük vüsət aldı və bu barədə konkret tarixi, sosioloji, siyasi, fəlsəfi əsərlər bir-birinin ardınca işıq üzü gördü ("*Women in Western European History*", V. 1–3. Lnd. 1982).

1980-ci illərdə sosial transformasiya gender araşdırmalarının yeni bir elm kimi gündəmə gəlməsi üçün ən əsas təsiredici amillərdən biri oldu. Dünya alimləri gender elmi, diskurslar, tədqiqatların inkişafının bu dövrə düşməsini o dövrdə aktivləşən demokratik hərəkatların tərkib hissəsi kimi qiymətləndirirdilər. O zaman SSRİ-də heç bir feminist hərəkat gözə dəymirdi, lakin artıq ev qadınlarının evdən çıxıb, dövlət idarəçiliyi qurumlarında iştirak edə bilməsi fikirləri səslənirdi. Ona görə də, indiyədək aydın olmayan məsələlər hələ də qalmaqdadır, sosializmdən yeni bir quruluşa keçid dövründə qadına ənənəvi, patriarxal-konservativ münasibət davam edirdi. Əsasən 1990-cı illərdə qeyri-stabil siyasi vəziyyət olan bölgələrdə qadın hərəkatı yeni bir etiraz formasında vüsət aldı. Bu ilk olaraq, Gürcüstanda geniş yayıldı və qadın hərəkatını gözdən salmaq üçün onlara müxtəlif xoşagəlməz adlar verdilər: "qaracorablar", "qamsaxurdiyanın fanatları" və sairə. Təəssüf ki, bəzi tədqiqatları çıxmaq şərtilə bu hərəkatın elmi təhlili qəzet materialı səviyyəsindən yuxarı qalxmadı (Али Абасов, "Центральная Азия и Кавказ"; Н.Молчанова "Прощание с Грузией"; Д.Юрьев "Революции не будет" və başqaları).

Qafqaz xalqlarında femininlik və maskulinlik haqqında antropo-estetik təsəvvür təkcə ailə səviyyəsində deyil, həmçinin cəmiyyətin digər strukturlarında da öz əksini tapır. Qadın və kişi

haqqında cəmiyyətdə formalaşan təsəvvürlər və onların gender statusları elə cəmiyyətin tələbinə uyğun da formalaşır.

Gender ənənəçiliyi sosial mühitin gender təcrübəsinə əsaslanan təbii bir prosesdir. Qafqaz sosio-mədəni mühitində mövcud olan gender qütblənməsi cəmiyyət üzvlərinin sosial qayda-qanunlarının formalaşmasının ən əsas prinsiplərindəndir.

Demək olar ki, bütün Qafqaz qadınlarının davranışı konservativ köklü patriarxal şərtlərlə idarə olunaraq, əxlaqı və etik normalara daxil edildi. Bu qanun-qaydalar ümumqafqaz mədəni kompleksinin tərkib hissəsi kimi özünü büruzə verir. Sovet və postsovet alimlərinin çoxsaylı tədqiqatlarında Qafqaz qadınının hüquqsuz, məzlum və patriarxal qanunlara qeyd-şərtsiz əməl edən tip kimi təqdim edilməsinə baxmayaraq, əslində, onlar heç də hər zaman belə olmamışlar. Qafqaz kişiləri cəmiyyətdə nə qədər dominantlıq etsələr də, qadınlara qarşı hörmət və izzətlərini də əsirgəməmişlər. Qadınların təhqir edilməsi və incidilməsi bu cəmiyyətdə birmənalı qarşılanmamışdır. Qafqaz sosiumumda qadına hörmət, qadının şərəf və ləyaqətini qorumaq kimi xüsusiyyətlər ənənələrin bir hissəsi kimi qəbul edilmişdir.

Ənənəvi gender münasibətlərinin əsas göstəriciləri qadına hörmət olmuşdur ki, bu da Qafqaz xalqlarının adi hüquq norması kimi anlaşılır. Əlbəttə, Qafqaz xalqlarında sosio-normativ və ailə mədəniyyəti stereotipləşmiş “düzgün” gender iyerarxiyasına, “qadın” və “kişi” işi kimi bölünmüş öhdəliklərə söykənir.

Qafqaz xalqlarında gender bərabərliyi məsələsinin mədəni-tarixi inkişaf aspektində araşdırılması bu xalqlarda kişi və qadın arasındakı əlaqələrin təkamülünü, gender nizamını və stereotipləşməni izləməyə imkan verir. Ənənəvi normativlər haqqındakı təsəvvürlərlə müşahidə olunan femininlik və maskulinlik stereotipləri fərdin gender identikliyinin formalaşmasına təkan verir ki, bu da sosial və dini motivlərin, etnofizioloji təsəvvürlərin təsiri altında adekvat gender rollarının qəbulu üçün özül yaradır.

Qafqaz xalqlarında tarixən formalaşan gender diferensiasiyası sistemi uzun müddət davam edən mədəni-tarixi inkişafın nəticəsidir. Ənənəvi mədəniyyət qurumları qadın təbiətinin hər zaman passiv, lakin kişi mövqeyinin dominant olması amilini qabartmaları, sözsüz ki, androsentrik düşüncə tərzinin məhsuludur və cəmiyyətin əksəriyyət üzvləri tərəfindən qeyd-şərtsiz qəbul edilir. Sovet dövründə gender münasibətlərinin transformasiyası qadının iqtisadi statusunun dəyişməsi amili ilə əlaqələndirilirdi. Qadının cəmiyyətdəki rolunun artması ona sərt biososial xəttdən kənara çıxmaq imkanı yaratdı. Sosio-normativ sferadakı üstün mövqeyini hər vəchlə əldə saxlamağa çalışan Qafqaz kişisi, qadını konservativ qaydalarla idarə etmək gücünü itirir və sovet hökumətinin dəstəyini əldə edən qadın isə patriarxal quruluşdan tam da olmasa, nisbi emansipasiya olub, daha irəli gedə bildi.

Sovet hökuməti dağıldıqdan sonra Qafqazda gender bərabərliyi siyasəti tənəzzülə uğradı. Yeni yanaşma formalaşmadan köhnə mövcud sistem dağıdıldı və kişilərin əvvəldən barışa bilmədiyi gender bərabərliyi siyasətində sarsıntılar yaşandı. Köhnə patriarxal cəmiyyətin xiffətini çəkən kişilər ənənəvi gender sisteminin bərpası üçün əllərindən gələni etdilər. Bu siyasət xüsusilə Şimali Qafqaz bölgələrinin müsəlman əhalisi arasında açıq şəkildə həyata keçirilirdi.

XX əsrin sonu XXI əsrin əvvəli dünyada gedən demokratik proseslər nəticəsində inkişaf etmiş ölkələrdə gender münasibətlərinin transformasiyası həm ailədə, həm də cəmiyyətdə baş verdi və qadınlar mövcud gender assimmetriyasına son qoymaq şüarını yenidən gündəmə gətirdilər. Təəssüf ki, Qafqaz, xüsusilə də, Şimali Qafqaz qadınları bu hərəkata nəinki qoşulmadı, hətta əksəriyyəti bu hərəkatı heç sözdə də dəstəkləmədi. Bu transformasiya Qafqaz bölgəsində hansı fəsadlarla üzləşdi? Bölgədə bu transformasiyanı sürətləndirən və ya ləngidən amillər hansılardır?

Şimali Qafqaz respublikalarına (əsasən Çeçenistan, Kabarda-Balkariyada, Dağıstan, Adıgey və İnquşetiyada) gəldikdə, son

onilliklərdə gender münasibətlərinin transformasiyasını tədqiq etmək məqsədi ilə bir neçə amilə nəzər salınmışdır: ailə iqtisadiyyatında gedən dəyişikliklər, sosio-mədəni rollar, demoqrafik göstəricilər, yaş amili, təhsilin səviyyəsi, sosial-hüquqi status və sairə. Alınan nəticələrə istinadən onu demək olar ki, müasir dövrün qadınları özlərini kişilərin zənn etdiklərindən daha qətiyyətli hiss edirlər. Bununla bərabər, qadınlarda patriarxal normaların müqabilində, əsasən də ailə sferasında konformizm hiss edilir. Təəssüf ki, hətta peşəkar potensiala malik olan bir sıra qadınlar belə, bu potensialı istifadə etmək imkanını əldə edə bilmirlər. Birmənalı şəkildə bunun belə olmasına "yaxşı" ya da "pis" demək olmaz. Bəziləri kateqorik olaraq hər sahədə, hər yerdə bərabərhüquqlu olmağa cəhd göstərirlər. Əksəriyyət hallarda, patriarxal-ənənəvi baxışlı, kişiyə yalnız bioloji xüsusiyyətlərinə görə hörmət göstərən qadınlar mövcud situasiyadan məmnun kimi görünürlər. Hətta ailədə yeganə işləyən qüvvə qadın olsa belə, nominal olaraq ənənələrə uyğun, ailədə atanın dominantlığını qorumaq üçün ailə başçısı kişi hesab edilir. Hər halda, Qafqaz qadını ərinin bu statusunu qorumaqdan ötrü əlindən gələni edir. Davranış normalarının çoxu kompromisin üzərində qurulmuşdur.

Söylənilənlərə rəğmən, tədricən də olsa, gender münasibətlərində dəyişikliklər gedir və qadınların bir çoxu təkcə özəl sferada deyil, ictimai sferada da öz yerlərini gücləndirirlər. Bəzi amillərin təsiri altında qadınların həyat tərzində dəyişikliklər baş verir. Əksər gənclərə elə gəlir ki, adət-ənənələrlə hesablaşmaq üçün müəyyən situasiyalar mövcuddur və həmin situasiyalarda adətlərə əməl etmək hər kəsin borcudur. Telekanallar bu adətlərin təbliği üçün xüsusi verlişlər təqdim edirlər. Bir çox ailələrdə, hətta öz iqtisadi tələblərində müstəqil olan qadınlar belə ocağın qoruyucusu hesab edilirlər. Bununla yanaşı, əksəriyyət gənclər üçün patriarxal normalar çox əhəmiyyət daşıyır, onlar üçün ailənin saxlanılması və boşanmalardan mümkün qədər qaçmaq əsas yaşam şərtləridir. Bütövlükdə, qadın statusunda olan dəyişikliklərə

iqtisadi amil daha çox təsir etmişdir və iqtisadi müstəqillik onlara kişilərlə bərabər hüquqlu olmaq imkanı yaratmışdır, kişilərlə münasibətlərində, öhdəliklərində və özünürealizə imkanlarında da bu bərabərlik onlara geniş perspektivlər açmışdır.

Cəmiyyətin qəbul etdiyi, bəyəndiyi əxlaq normalarının daşıyıcısı olan ailə ənənəvi sosium sistemini yaradan əsas amildir. Bununla əlaqəli O.M.Zdravmıslova belə yazır: "Ənənəvi mədəniyyətdə yeni nəslin sosiallaşması prosesində ilk növbədə ailə dəyəri  önəmli rol oynayır. Bu səbəbdən də, ailə-gender münasibətlərinin formalaşmasının mərkəzi nöqtəsidir. Ailə vasitəsilə hər bir sonrakı nəsilə qadın və kişi əxlaqını təyin edən gender stereotipləri və normaları, bir sözlə, qadınlıq və kişilik haqqında təsəvvürlər məcmusu ötürülür" (Здравомыслова О.М., 2003).

"Ailənin çörək verən" statuslu kişisi, son dövrlərdə gender bərabərliyi siyasətinə qarşı tərəddüd içərisindədir, o, dildə bərabər hüququn əleyhinə deyildir. Dünyanın əksəriyyət yerlərində olduğu kimi, Qafqazda da ailə və nikah cinsindən, yaşayış yerindən, sosial statusundan və təhsil səviyyəsindən asılı olmayaraq, əbədi dəyər hesab edilir. Qeyd etmək lazımdır ki, gender münasibətlərinin transformasiyası müxtəlif bölgələrdə milli xüsusiyyətlərdən asılı olaraq, müxtəlif cür təzahür edir. Məsələn Şimali Qafqazda, Adıgey və Kabarda-Balkariyadakı gənclər özünürealizə və özünütəsdiqlə əlaqəli qadınların davranışında ola biləcək dəyişikliklərdən əndişələnirlər. Onlar cəmiyyətin milli ənənələr və dini qayda-qanunlarla idarə olunmasının tərəfdarıdırlar.

Təsəvvürlərdəki fərqlər cinslərarası münasibətlərin xarakterində də qeyd olunur.  Qafqazdakı gender münasibətlərini ümumiləşdirmək olmaz, çünki bu məsələlər bölgələrə, xalqlara, dinə, yaşa, təhsilə, sosial statusa görə dəyişir. Qafqaz ailələrində kişinin lider mövqeyi Qafqazın bütün bölgələri üçün qəbul olunandır, lakin bu məsələyə Qafqazın xristian əhalisi müsəlman əhalisinin baxdığı kimi baxmır. Cənubi Qafqazdakı müsəlman əhalisinin ailəsi ilə Şimali Qafqazın müsəlman əhalisinin ailəsinin

bu məsələlərə baxışları fərqlidir. Şimali Qafqaz kişiləri daha sərt, daha konservativ, daha patriarxal düşüncəlidirlər. Əlbəttə, qadınları da fərqlidirlər. Bir çox insanlar ailədə qadın-kişi münasibətlərinə fərqli yanaşırlar. Onlar guya gender bərabərliyinin əksinə deyillər, lakin reallıqda gender bərabərliyi məsələlərinə tam patriarxal bir baxış mövcuddur. Burada hər bir məsələyə kişi tərəfkeşliyindən yanaşılır. Beləliklə, mövcud sosial-siyasi və iqtisadi dəyişikliklər bütün post-sovet ölkələrində olduğu kimi, Şimali Qafqazda da gender strukturunun dəyişilməsinə təsir etmişdir.

Kifayət qədər mürəkkəb və aktual olan bu problemlərin tədqiqatı zamanı məsələlərə sosial-fəlsəfi rakursdan nəzər salındı. Postsovet və Qərb alimlərinin bir çoxunun əsərlərindən istifadə edilərək, gender münasibətləri bir daha dərindən araşdırıldı, müasir dövrdə cinslərarası münasibətlərin üç əsas modeli ortaya qoyuldu və onların gender münasibətlərinə təsiri tədqiq edildi. Bu modellər aşağıdakılardır: patriarxal, feminist və paritet. Cinsi dimorfizm təsəvvürlərinə əsaslanan patriarxal model cəmiyyətdə hegemonluq edən kişilərin vəziyyətinə bəraət qazandırır, bunun təbii hal olmasını əsaslandırır. Bununla bərabər, bu model də iki əsas növə ayrılır: naturalist və sosial yönümlü. Feminist model isə cəmiyyətin patriarxal xarakterini açır və bir daha bu cəmiyyətdə qadınlarla kişilərin qeyri-mütənasib vəziyyətini, gender münasibətlərinin kişi üstünlüyü ilə müşaiyət olunmasını göstərir. Bu model də öz növbəsində iki növə ayrılır. O, cinslərin münasibətindəki disfuksionallığı aşkara çıxarır və kişi hökmranlığını dəf etmək istəyir. Bununla da, "kişi dünyası"na qalib gəlmək istəyir. Gender münasibətləri feminizm çərçivəsində müxtəlif konsepsiyalarla üzləşir, "qarşılıqlı asılılıq" və "ailə tərəfdaşlığı" təbliğ edir, lakin bu konsepsiyalar yalnız özünün ilkin yaranma mərhələsindədir. O ki, qaldı paritetlik münasibətlərinə, onların konseptual əsasları feminist alimlər tərəfindən artıq işlənib hazırlanmışdır və modellərin formalaşması prosesi gedir. Gender münasibətləri ilə əlaqəli bəhs etdiyimiz bütün modellərin təhlili göstərir ki, paritet model müa-

sir Avropa təhsilli gənclər, xüsusilə də qızlar tərəfindən daha çox bəyənilsə də, bölgədə patriarxal model hələ də dominantlıq edir.

Tədqiqatda bəzi adətlərə problem kimi baxılır. Nəticədə, belə qənaətə gəlinir ki, gender münasibətlərində adət və müasirlik dialektik bağlılıqla vahid proses kimi ifadə olunur: Müasirlik də elə adətdən əmələ gəlir, adətin içərisində olan bütün pozitiv və dəyərli hesab olunanlar elə müasirliyin elementləridir və bunlar yaradıcı şəklə salınmış formada adətdə təzahür edir. Adət "dəyişikliklər" imkanını özündə ehtiva edir və insanları onları dəyişməyə "sövq" edir. Adətin bütün bizə qədər gəlib çatan komponentləri haçansa, cəmiyyət tərəfindən yenilik, dəyişiklik kimi qəbul edilmişdir. Adətlərin dəyişilməsi bir sıra stereotiplərin dəf edilməsi və yenilərin yaradılması prosesidir. Deməli, elə bu dəyişkənliyin özündə "mövcud olan ənənələr" vardır.

Gender münasibətlərinin dəyişkənliyə uğramasının başqa səbəbləri də mövcuddur ki, bunlar bəzən psixoloji sfera ilə də əlaqəli ola bilir. İnsan təfəkkürü hər zaman yaradıcılığa və yeniliyə meyilli olur. Yeniliyin əsas təşəbbüsçüsü sadə insan və ya orta sosial qrup olmur, mövcud cəmiyyətdən çıxan "avanqard", "irəlidə gedən" fərd və ya qrup bu işin altına girir. Başqa sözlə, "cəmiyyətin aktiv qatı əvvəlki sistemdə özlərini görmürlər və yeniliyə, dəyişikliyə meyl edirlər". Proqressiv insanlar hər zaman cəmiyyəti tənəzzülə sürükləyən adətlərin əleyhinə olmuşlar, bəşəriyyəti irəli aparan universal dəyərlərə önəm vermişlər.

Ənənənin dəyişməsi o zaman baş verir ki, artıq mövcud ənənə yeni sosial şəraitdə cəmiyyətin üzvlərinin tələbatına cavab vermir, özünün praktik əhəmiyyətini itirir. Bunlara aydınlıq gətirməkdən ötrü hökmən mövcud gender stereotiplərini, gender diferensiasiyasını tədqiq etmək lazımdır.

Qafqaz cəmiyyətinin müasir və ənənəvi kontekstdə tədqiqi gender münasibətlərinin indikativ məzmununa aydınlıq gətirir. Gender sisteminin fəaliyyət prinsiplərinin elmi tədqiqi göstərir ki, cinsə görə sosial kateqoriyalaşma nəticəsində gücün və resursla-

rın bölünməsi təkcə özəl sektorda deyil, eləcə də ictimai sektorda baş verir. Belə olanda, gender sosial status kimi təkcə şəxslərarası səviyyədə deyil, həmçinin sosial qurumlar səviyyəsində də özünü göstərir.

Modernləşməyə keçid prosesində gender konstruktlarının transformasiyası sosiumun fəaliyyətinin bütün sferalarında öz əksini tapır. Sosiostruktur və mikrososial yanaşmaların dialektik birləşməsi imkan verir ki, gender sisteminin həm institutsional səviyyədə (iqtisadiyyat, siyasət, ailə, təhsil, mədəniyyət), həm də davranışın sosiotipik motivasiyasının, sosial təfəkkürün qarşılıqlı təsirinin oriyentasiyasının, gender mühitində stereotiplərin anlaşmasının dəyişilməsini izləmək mümkün olsun. Tədqiqatda əsas diqqət Qafqazda gender münasibətlərinə, yəni cinslərin sosiallaşma və onların təzahür xüsusiyyətlərinə yetirilir. Tədqiqat zamanı aydın olur ki, cinslərin sosiallaşmasındakı ən kəskin məsələ qadın və kişilərin həm ailədəki, həm də professional həyatlarındakı rollarının öhdəsindən necə gəlmələridir. Müasir ailələrdə qadınların ailə konfliktlərindən qaçmalarının yeganə yolu onların həm ailədə, həm də iş həyatında üzərilərinə düşən öhdəliyi bacarıqla yerinə yetirə bilmə qabiliyyətləridir. Müasir cəmiyyətin əsas norması olan ailə və iş məsuliyyətinin uğurlu idarə olunması qadın və kişi arasındakı konfliktlərin azalmasına səbəb olur, bununla da, həm şəxsiyyətlərarası, həm də cəmiyyətdəki gərginlik azalır. Bir sözlə, Qafqaz qadını mənsub olduğu cəmiyyətin sülh içərisində yaşamasına təminat verən əsas qüvvədir, çünki o ən çətin vəziyyətdə belə qüvvəsini səfərbər etməyin yollarını yaxşı bilir. Son dövrlərdə qadınlarda əmələ gələn yeni oriyentasiya (həm ailə, həm də karyera məsuliyyətinin öhdəsindən gəlmək) mövcud münasibətlərdə cinslərin iyerarxiyası məsələsinə də təsir edir və təəssüf ki, bu qadınları nə problemlərdən, nə də dərin streslərdən azad etmir.

Bununla bərabər, kişilərin rollarının patriarxal şərtlər altında sosiallaşması əslində, onların dominant vəziyyətlərini qoruyub

saxlasa da, onların güc, bilik, bacarıq sahələrini sıxışdırır, mənəvi aləmlərini təzyiq altına qoyur, kişilərin həyat strategiyalarını məngənəyə salır, mədəniyyətin translasiya prosesini, ənənəvi kişi funksiyasını mürəkkəbləşdirir. Bu onların gender identifikasiya və gender rollarının sosiallaşmasında ziddiyyətlər yaradır ki, bu da tədqiqatın bir hissəsi kimi oxucuların nəzərinə çatdırılır. Nəticədə, ümummilli böhran situasiyası daha da dərinləşir, patriarxal nizam cəmiyyəti qəddarlığa yönəldir və həqiqi mənada gender münasibətlərindəki konflikti kəskinləşdirir ki, sonda bu da dağıdıcı nəticələrə gətirib çıxarır. Bölgələrdə son dövrlərin səriştəsiz, yerli xüsusiyyətləri nəzərə almadan tətbiq edilən islahatları mövcud situasiyanı zərbə altına qoyur.

Ənənəvi gender məsələlərində seqreqasiya və müasir emansipasiya arasında spesifik anlaşılmazlıq hər zaman olmuşdur. Şəxsi muxtariyyətin, peşəkarlığın, özünürealizənin müasir tələbləri bir sıra “valideynlik”, “evlilik” kimi qurumlarda gender münasibətlərini daha da kəskinləşdirir, çünki gender bərabərliyi təsəvvürü əhalinin əksəriyyəti üçün xarakter olan patriarxal stereotiplər ucbatından sıxışdırılır. İqtisadiyyat və siyasətə gəldikdə isə, gender assimetriyası özünü burada daha aydın göstərir. Tədqiqat zamanı sosiumda cinsə görə diskriminasiyanın gizli formaları aşkarlanmışdır. Bu, karyerası olmayan, evdən başqa heç bir yerdə işi olmayan, pul qazanmayan qadınlarla təhsilli, işgüzar, lider qadınların müqayisəsində, qadınlara olan münasibətdəki fərqdə özünü aydın göstərir.

Bəzən qadının siyasətdə rolu o qədər görünməz olur ki, onun səsi heç bir qərar qəbuletmə prosesində eşidilmir. Dövlətin qadınlarla əlaqəli qeyri-adekvat siyasəti mövcud böhranı daha da dərinləşdirir. Siyasətdə qadının problemi olduğu kimi, bəzən siyasətdə güclü olmağı bacarmayan kişinin də problemi olur, çünki bu mövcud şəraitdən irəli gəlir. Ümumilikdə, hal-hazırda kişilərin də ailə başçısı kimi rollarında böhran yaşanır və buna görə onların da vəziyyəti ürəkaçan deyildir. Ailədəki patriarxal düzən

cəmiyyətdə gedən yeniləşmə və iqtisadi böhran nəticəsində pozulmuşdur. Müasir Qafqaz sosiumunda gender sisteminin bir neçə inkişaf istiqaməti mövcuddur. Bölgədə qadın və kişi haqqında patriarxal notlara köklənmiş ənənəvi təsəvvürlər kifayət qədər yayılmışdır, xüsusilə Qafqazın kənd yerlərində, kişinin yüksək gəlir əldə etdiyi və qadının ödənişli işlə məşğul olmadığı ailələrdə ənənəvi patriarxal yanaşmalar mövcuddur, lakin ailədə təhsilin səviyyəsi yüksəkdirsə, ailəyə hər iki valideyn gəlir gətirirsə və ya qadının gəliri daha yüksəkdirsə, o zaman təbii ki, baxışlarda patriarxallıq elementləri azalır. Belə ailələrdə qadına, uşağa qarşı sərt deyil, yumşaq davranış sərgilənir. Təkcə ailə qurumunda deyil, ictimai qurumlarda da karyera keyfiyyət və uğurları yüksək olan qadına münasibət yaxşı mənada fərqlidir.

Qadının Qafqaz bölgələrində siyasi-iqtisadi aktivliyinin aşağı olmasının öz subyektiv-obyektiv səbəbləri vardır:

1) qadının iqtisadi yüksəliş zamanı əmək bazarına güclə cəlb olunduğu halda, iqtisadi böhran zamanı əmək bazarında sıxışdırılması halları;

2) qadının iqtisadi rəqabətə tab gətirməməsinin obyektiv səbəbləri – onun reproduktiv funksiyası ucbatından əmək bazarında yaşının müəyyən dövrlərində kişilərdən geri qalması, rəqabətə davam gətirməməsi;

3) qadının azyaşlı uşaqları üçün qayğı mərkəzlərini tapa bilməməsi;

Təəssüf ki, yuxarıda sadalanan xüsusiyyətlər təkcə Qafqaz üçün deyil, dünyanın əksəriyyət patriarxal strukturlu cəmiyyətləri üçün xarakterikdir.

Ümumiyyətlə, qadınların əksəriyyəti büdcədən maliyyələşən qurumlarda işlədikləri üçün onlar dövlətin sosial sığortasından çox asılıdırlar, peşəkar mobillikdə çətinlik çəkirlər, çünki işləyən qadın nə ailədə, nə də əmək bazarında işlədiyinə görə heç bir halda ailə qayğısından azad olmur. Bəzən həm ailə, həm də karyera

məsuliyyətinin yükünü qaldıra bilməyən qadın geri çəkilməyə məcbur qalır, sevdiyi işi itirməyə qərar verir.

Toxunulan amillərin və vəziyyətin yaxşılaşdırılması strategiyasını təyin edən amillərin anlaşılması üçün, sözsüz ki, problemi ümumdövlət səviyyəsində dərindən araşdırmaq lazımdır. Qadınlar üçün dövlətin nəzərdə tutduğu siyasətdə əsas üç komponent önəmlidir: onların real çətin vəziyyətlərinin əmək bazarında kompensasiyası (qadının cəmiyyət üçün yerinə yetirdiyi vəzifələrin çox əhəmiyyətli olmasını nəzərə almaq), qadınlara qarşı diskriminasiya ilə mübarizə aparmaq və əmək bazarında onların rəqabət qabiliyyətlərinin yüksəlişi üzrə iş aparmaq.

Gərgin dönəmlərdə rəqabət qabiliyyətinin aşağı olmasının əsas səbəblərindən biri hələ də mövcud olan sosial imtiyazlardır. İqtisadiyyatın real vəziyyəti onu sübut edir ki, bu imtiyazları tələb etməyən qadınlar əmək bazarı üçün daha sərfəlidirlər. İşsizliyə görə verilən müavinətlərın həcmi çox aşağıdır, onlar bir sıra imtiyazlardan şüurlu şəkildə imtina edirlər. Qadınlar işlərini itirmək qorxusundan, ya könüllü, ya da məcburiyyət qarşısında qaldıqlarına görə onlar üçün nəzərdə tutulan qanuni imtiyazları tələb etmirlər. Onu da qeyd etmək lazımdır ki, qanunvericiliklə dəstəklənən bu imtiyazları tələb edən işçidən iş sahibləri tez bir zamanda canlarını qurtarmağı bacarırlar. Kiçik bir bəhanə ilə onları işdən uzaqlaşdırırlar. Təəssüf ki, belə hallar bəzən məhkəmələrə qədər gedib çatsa da, nədənsə, iş sahibi olan kişilər məhkəmə işini daha çox udurlar. İmtiyazlar yalnız dövlətin büdcədən nəzərdə tutduğu iş yerlərində rahat əldə edilir.

Qeyd etmək lazımdır ki, əmək bazarının tələblərinə görə peşəkar təhsil və vərdişlərin əldə edilməsi təkcə qadınlar üçün deyil, kişilər üçün də əsas problemdir. Bəzən əmək bazarının bugünkü tələbini nəzərə alıb ona uyğun təhsil almaq, peşə qazanmaq istəyən gənc az sonra işsiz qala bilir. Əlbəttə dövrün nəbzini tutmaq hər kəs üçün mümkün olmur. Gələcək üçün əldə etdiyin bilik, vərdiş gözlədiyin nəticəni vermədiyi halda, çeviklik nümayiş

etdirmək tələb olunur, yəni işlədiyin sferanın tələblərinə uyğun hərəkət etmək əsas şərtdir. Əmək fəaliyyətinin kiçik sferasından başlayıb təcrübəni çoxsahəli hala gətirməkdən ötrü peşəkarların yanında treninq keçmək də zəruri şərtlərdəndir. Son dövrlərdə, bəşəriyyətin üzləşdiyi qlobal böhran insanları o qədər çətin bir iqtisadi durumla üz-üzə qoymuşdur ki, onların dünən min bir çətinliklə əldə etdikləri elm, bacarıq və vərdişlər bu gün dəyərsiz görünməyə başlamışdır.

Genderin konkret məzmunu ictimai inkişafın dərəcəsindən, sosial həyatın təşkilinin xarakterindən və cəmiyyətin etno-mədəni spesifikasından asılı olaraq dəyişir, çünki genderin özü də dəyişkəndir. Bununla əlaqədar olaraq Qafqazda gender münasibətlərinin xüsusiyyətlərinin tədqiqində bütün bunlar nəzərə alınmalıdır, çünki qafqazlıların etnik-mədəni cəhətdən müxtəlifliyi və onların davamlı olaraq etnomədəni xüsusiyyətlərini qoruma istəyi bunu deməyə əsas verir.

Modernləşmə dövrünün tələbi ilə bölgədə tətbiq edilən, əsasən formal xarakterli islahatlar şəraitində gender münasibətləri də buna uyğun dəyişir. Tətbiq edilən islahatların istənilən nəticə verməməsi bir daha sübut edir ki, sosiomədəni qatda gedən modernləşmənin dəyişikliklərini dərindən bilmədən, iqtisadi və siyasi-hüquqi sahələrdə gedən transformasiyanı hərtərəfli araşdırmadan Qafqazda aparılan islahatlar gözlənilən nəticəni verməyəcəkdir. Başqa sözlə, Qafqaz bölgəsində gedən islahatların uğur miqyası onun tətbiqinin mədəni kontekstindən çox asılıdır. İctimai sferanın modernləşməsi sosiomədəni dinamikanın sürəti ilə ayaqlaşmalıdır.

Multimədəniyyətlərin çarpazlaşması, bir-birlərinə qarşılıqlı təsiri də tədqiqat ərzində nəzərə alınmışdır. Etnomədəni müxtəliflik, din müxtəlifliyi və digər amillər bölgədə aparılan islahatların ehtiyatla tətbiq edilməsinin zəruriliyindən xəbər verir.

Qafqazda gender münasibətlərinin xüsusiyyətlərinin metodoloji konsept baxımından tədqiqatı zamanı cəmiyyətin sosi-

omədəni sferasının transformasiyasının, sosiumun ənənəvi tipdən müasir xarakterli gender münasibətlərinə keçidinin təhlilinə xüsusi diqqət ayrılmışdır. Tədqiqatda gender düzəninin ənənəvi dekonstruksiyasının mərhələlərinə toxunulmuşdur. Məlum olduğu kimi, bunlar üç tip gender düzənidir: konservativ, keçici və modernləşdirilmiş.

Konservativ tip əsasən gender iyerarxiyası ilə xarakterizə edilir; keçici tip deqradasiya olunmuş sərhədləri ilə səciyyələnir; modernləşmiş tip paritet gender münasibətləri ilə təyin edilir;

Bütün dünyada olduğu kimi, Qafqazda da modernləşmə prosesi dinamikdir, burada əsas məsələ bu prosesin sürətinin necə olmasıdır. Bununla əlaqəli qeyd etmək lazımdır ki, modernləşdirilmiş cəmiyyətdə əsas əhəmiyyətli cəhət fərdiyyətçilik və rasionalizmdir. Fərdiyyətçilik şəxsiyyətin birgə sosial varlığının əsası kimi insanların azad, muxtar, özünürealizə konsepsiyasını ifadə edir. Rasionalizm həqiqətdən, avtoritetdən, din və sairədən imtina edərək, təfəkkür prinsipini əsas tutan insanların və sosial qrupların davranışlarını səciyyələndirir. Ekspansiya və qloballaşmanın yayılması, müasir sosiumun sosial həyatın ənənəvi forması ilə yaratdığı paradoks bütün insanlar üçün xarakterikdir.

Əlbəttə Qafqazda gender problemlərini araşdıran tədqiqatçılar (Ə.S.Abasov, R.İbrahimbəyova, Z.Quluzadə, Kaçkaçişvili İago, Natia Gvianişvili, Ekaterine Pirtsxalava, Maia Maisuradze və başqaları) vardır, lakin bu problemlərin kompleks şəkildə tədqiqatına böyük ehtiyac olsa da, bu sahədə uğurlu əsərlər çox azdır. Təəssüf ki, mövcud əsərlər beynəlxalq standartlara cavab vermir. Dünya üçün çox aktual hesab edilən gender problemlərinin çözülməsi hələ də ləngidilir və ya fərq edilmir.

Şimali Qafqazda gender münasibətlərindən bəhs edən mənbələrdən istifadə zamanı qadınların sosial vəziyyətinin təhlilinə dair 1990-cı illərdə Rusiyada çap edilən tədqiqatlar da çox az gözə dəyir, olanların da əksəriyyətinin müəllifləri liberal feminist gənc tədqiqatçılardır (K.Qaliqan, K.Mille, C.Mitçel və başqaları).

2000-ci illərdə Rusiyada tanınmış alimlər (A.Posadskaya, N.Rimaşevskaya, N.Zaxarova, L.P.Repina, M.Q.Muraveva, D.Bordin və başqaları) gender tədqiqatlarına dair kifayət qədər monoqrafiya, dərslik və başqa elmi əsərlər dərc etdirmişlər. Bütün bunlara baxmayaraq, bu elmi əsərlərin arasında Qafqazla bağlı çox az nəşrlər vardır. Əslində, bu bölgədə qadınların istər sosial, istər siyasi, istərsə də iqtisadi durumu yetərli qədər problemlidir və bu məsələlərin tədqiqatına böyük ehtiyac vardır.

Qərbdə qadın hüquqlarının müdafiəsi uğrunda hərəkatın uzun bir yolu vardır. Son iki yüzillik boyu Qərb qadınları durmadan mübarizə aparmış və mərhələ-mərhələ demokratiyaya yaxınlaşmışlar. İlk olaraq qadınlar "qadın hüququ", "qadının hüquq təfəkkürü" terminlərini dilə gətiriblər. Sonrakı mərhələlərdə qadınlar sosial-iqtisadi hüquqlar uğrunda mübarizə aparıblar. Daha sonra onlar mədəni inqilab (reproduktiv funksiyanın dəyişilməsi, ailə planlaşdırılması, abort etmə hüququ, ailə həyatı və sairə) mərhələsinə daxil olublar. Kişilərlə bərabər əldə edilən sosial status: sosial-iqtisadi, reproduktiv hüquqlar onlara bir çox imkanlar açmışdır (Светлана Айвазова., 2001: 19).

Faktiki olaraq, Şimali Qafqazda cəmiyyətin sanki feminizm hərəkatına vaxtı olmamışdır. Qadınların hüquq bərabərliyi məsələləri ümumrusiya qadın hərəkatının təzyiqi ilə həll olunurdu. Qadınlara verilən hüquqlar bir növ sənədlərdə əks olunurdu, lakin real həyatda mövcud deyildi. Nəticədə, Qafqaz qadınları "kişilərin əsarəti altında" olduqlarından daha pis vəziyyətə düşürdülər, çünki cəmiyyət buna hazır deyildi. Bütün əvvəlki tarix və mədəniyyət dünyanın kişi baxışlarına, kişi zövqünə, kişi adətlərinə uyğun olaraq qurulmuşdu və cəmiyyət "maskulin idarəçiliyi" olan dünyanı daha rahat qəbul edirdi və bu baxış həm kişilərdə, həm də qadınlarda qorunub saxlanılmışdır. Qadına verilən hüquq və öhdəliklərdə bu yanaşma əxz olunmuşdu. Qadın mövcud standartlara və stereotiplərə qarşı durmağı bacarmalı idi.

Şimali Qafqazdan fərqli olaraq, Rusiyada demək olar ki, XX əsrin əvvəllərindən qadınlar üçün, ali və orta tibb, politexnik, kənd təsərrüfatı, arxitekturaya aid kurslar təşkil edilmişdi və sonradan da bu kurslar öz səmərəsini vermişdir. Bunlar qadınlar üçün təhsil mənbələri idi. Demək olar ki, bütün bu kurslar qadınların həm özəl, həm də ictimai təşəbbüsləri sayəsində yaradılmışdı (Шабанова А.Н., 1912: 27). A.H.Şabanova haqlı olaraq qeyd edirdi: "Rus qadının yüksək təhsil, bilik uğrunda daima mübarizə aparması, özünütəkmilləşdirməyə olan cəhdi... nəticəsini verdi. Onlar üçün bəzi yollar açıldı, qadın bəzi sahələrdə öz biliklərini realizə edə bildi" (Шабанова А.Н., 1912: 28). Bu səylərin nəticəsi idi ki, XX əsrin əvvəllərində Rusiya ali təhsilli qadınlarının sayına görə İngiltərədən sonra dünyada ikinci yerdə idi (Тишкин Г.А., Павлюченко Э.А. 1984).

Sovetlər dönəmində Şimali Qafqaz qadını özünü realizə etmək üçün bir çox sahələrdə təhsil almışdı. Bu dağlar qızı bəzi sahələrdə təkcə Rusiyada deyil, Avropadakı həmyaşıdlarını da geridə qoymağı bacarmışdı. Bir çox nümunələrlə buna misallar gətirmək olar. Şimali Qafqaz təmsilçisi, Elita Daurova dünyada ilk qadın-təyyarəçi olub. Daha bir Şimali Qafqazlı Veronika Dudarova dünyada ilk qadın dirijor olub. Bütün bunlarla yanaşı, Qafqaz cəmiyyəti patriarxal məişətini də qoruyub saxlamışdır, sovet hakimiyyəti bu "məişət" qayğılarından qadınları azad etmədən çiyinlərinə ikinci bir yükü də qoydu. "İkili yükü" olan qadın indi həm evdəki qayğılarına görə əvvəlki məsuliyyəti daşıyır, həm də karyerasında fərqlənmək kimi bir əlavə yükün altına girmək məcburiyyətində qalırdı. Düzdür, dövlət sosial infrastrukturun inkişafına hərtərəfli kömək üçün daima vədlər verirdi, lakin "daha vacib vəzifələrin həyata keçirilməsi" bəhanə gətirərək, bunu hər zaman "bu gün-sabaha" salırdı. Qadınların bir sahədə işləri nisbətən azalmışdı, bu da yetərli sayda olmasa da, uşaqlara qayğı mərkəzlərinin (uşaq bağçaları, günü uzadılmış məktəblər, uşaq düşərgələri və sairə) açılması idi. Bir də, kompensasiya kimi

bəzi güzəştlər edilirdi, məsələn, doğuşdan əvvəl və sonrakı dövrdə verilən müavinatlar bu qəbildən sayıla bilərdi.

O dövrün sosialist qanunvericiliyinin xüsusiyyətlərini təhlil edərkən, qeyd etmək vacibdir ki, sovet dövründə ailədə gender assimetriyası mövcud idi, lakin bu assimetriya – ənənəvi deyildi. Sovet dövründə ailədə açıq fiqur olan ananın funksiyası qat-qat çətin idi. Ana övladını dünyaya gətiribsə, o, uşaqların tərbiyəsinə, ailə məişətinə görə cavabdehlik daşıyırdı. Əlbəttə bütün evin qayğısı onun üzərində idi və bundan əlavə, qadın öz maaşı ilə ailəsini maddi cəhətdən də dəstəkləyirdi. Sovet ailələrinin əksəriyyətində ərin qazandığı əmək haqqı bütün ailə üzvlərinin yaşayış səviyyəsini təmin edə biləcək qədər çox deyildi.

Sovet dövründə gender münasibətlərinin xarakterini müəyyənləşdirərkən, sosioloqlar onu yekdilliklə "işləyən ana müqavilə" si kimi qiymətləndirirlər. Bu, o demək idi ki, bu sistem iki rolu qadına həvalə edirdi: "ödənişli işçi qadın" və "odənişsiz ev işlərinin öhdəsindən gəlməyi bacaran qadın". Beləliklə, sovet nümunəsi olan "gender bərabərliy"i siyasətinin həyata keçirilməsində qadınların vətəndaş hüquqlarının təsdiqi ilə bağlı əsas problemlərini dövlət həll edə bilmədi. Qadınların statusunda formal-hüquqi dəyişikliyə gəldikdə isə, dövlət cinslər arasında ənənəvi əmək bölgüsünü dəyişdirə bilmədi, gender bərabərliyini təcrübədə reallaşdırmağı bacarmadı və ya reallaşdırmaq istəmədi. Beləliklə, bütün patriarxal cəmiyyətlərdə olduğu kimi, "böyük" dünya siyasətinin, cəmiyyətin idarəçiliyi kişiyə, önəmli hesab edilən ev-məişət məsələlərinin həlli isə qadına həvalə olundu.

1990-cı illərin əvvəlindən Şimali Qafqazda, bütövlükdə Rusiya Federasiyasında siyasi və iqtisadi islahatlar, mülkiyyət formalarının dəyişdirilməsi ilə bağlı proseslər başlandı və sovetlər dönəmindəki komanda-inzibatçı sistemdən hüquqi, demokratik dövlət sisteminə keçid baş verdi (Светлана Айвазова., 2001: 36). Real həyatda isə Şimali Qafqaz qadınları gender bərabərliyi ideallarından hələ çox uzaqdadırlar. Kişi və qadınlar arasındakı

bərabərsizlik əsasən gender rollarının bölünməsi (əmək və məşğulluq), dövlət və cəmiyyət (siyasət, idarəetmə) sahəsində özünü büruzə verir.

Söhbət əmək bazarında qadınların məhdudlaşdırılmasından gedəndə, dövlətin gender bərabərliyi qanunu və onun da formal olaraq kişilərlə bərabər eyni hüquqları olduğu nəzərə çatdırılır. Şimali Qafqaz xalqlarının qadınlara olan ənənəvi baxışlarını nəzərə almadan gender münasibətlərindən bəhs etmək səhv bir yanaşma olardı. Qadın, hələ də ailədə kişi normalarına uyğun davranır. Ənənələri dəstəkləyən qadın da ailədə, ictimai yerdə öz fikrini söyləyir, mübahisə edir, lakin qadının razılaşıb-razılaşmamasından asılı olmayaraq, son söz yenə də kişinin olur. Milliyətindən asılı olmayaraq, bu amil bütün Qafqaz cəmiyyəti üçün mövcuddur. Lakin onu da qeyd etmək vacibdir ki, qadına olan belə yanaşma təkcə ailədaxili qərarların qəbul edilməsi zamanı deyil, rəsmi dövlət yığıncaqlarında (strukturlarında) da baş verə bilər. İstər ailə sferasında, istərsə də ictimai sferada qadın ”yeri”ni bilməlidir. Kişi normativ sisteminin daşıyıcısı olmalıdır. Qadın isə, bu normativ tələbləri realizə etməyi, icraçısı olaraq ailənin gündəlik həyatına daxil olmagı bacarmalıdır, lakin iqtisadi böhran nəticəsində ailə başçısını funksiyası şübhə altında qalır. Qazancları üçün kişi respublikanın hüdudlarını tərk etməyə məcbur olur və iş üçün başqa ölkəyə üz tutur. Bu zaman nə baş verir? Cavan və ya ortayaşlı bir qadın həm ev təsərrüfatı, həm uşaqlar, həm yaşlı valideynlərin yükünü daşımalı olur. Bu, bir tərəfdən qadının fiziki yükünü artırmağa gətirib çıxarır, digər tərəfdən, ev təsərrüfatının əhəmiyyətini, ailə dəyərlərini aşağı salır (Лыткина Т. С., 2002: 123).

Qadının vəziyyətinin pisləşməsi Şimali Qafqaz respublikalarının müsəlman əhalisi arasında xüsusilə hiss olunur, çünki əsasən ənənəvi müsəlman cəmiyyətində qadının peşə təcrübəsi yoxdur. O, müasir məşğulluq, dayanıqlıq və digər bazar keyfiyyətlərinə malik deyil ki, düşdüyü vəziyyətdən çıxış yolu axtarıb tapa bilsin.

Müasir dünya insandan işgüzarlıq, təşəbbüskarlıq tələb edir. Bugünkü əmək bazarı sovet dövrünün məşğulluğu ilə müqayisədə daha qəddardır. Bundan başqa, qadınların ictimai sahəyə çıxışı üçün əlavə sosial stimullar yoxdur. Hələ də qadınların ocaq qoruyuculuğu statusu önə çəkilir, ailənin - evin qadın əməyindən asılılığı saxlanılır (Лыткина Т. С., 2002: 124). Ona görə qazanc üçün məcburi cəhdlər axtarışı ağır psixoloji zədələrə gətirib çıxarır.

Qafqazda gender münasibətlərinin xüsusiyyətlərini əldə əsas tutaraq, qadınların vəziyyətinin yaxşılaşdırılması məqsədilə, ilk növbədə aşağıdakıları nəzərə almaq lazımdır:

- dövlət proqramlarında gender parametrlərini nəzərə almaq;
- cəmiyyətin gender şüurunu artırmaq;
- təhsil sisteminə gender yanaşmalarını tətbiq etmək;
- gender bərabərliyi sahəsində beynəlxalq öhdəliklərin həyata keçirilməsinə yardım etmək;
- milli xüsusiyyətləri də nəzərə almaqla, Qafqaz bölgəsində sosial-iqtisadi inkişaf prosesinə gender mexanizmini tətbiq etmək.

Qadınların vəziyyətinin yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər arasında, təhsil sisteminin müxtəlif pillələrində gender təhsilinin daha sürətlə tətbiqi əsas götürülməlidir:

- ali məktəb proqramlarında (dərslik, proqram, metodik vəsait hazırlanmasında) gender aspektlərinin nəzərə alınması;
- ali məktəblər üçün hazırlanan dərsliklərin gender ekspertizası;
- fasiləsiz təhsil və ixtisasların artırılmasında gender aspektlərinin nəzərə alınması;
- gender məsələləri üzrə dərsliklərin yaradılması;
- mövcud kitabxanaların gender mövzusundan bəhs edən kitablarla zənginləşdirilməsi;
- təşkilatlarda gender disbalansına nəzarət edən gender ekspertizası şöbəsinin yaradılması;

- genderlə bağlı müxtəlif maarifləndirici görüşlərin təşkili.

Aparılan tədqiqatın nəticəsi olaraq ən mühüm nəticələr kimi, aşağıdakıları hesab etmək olar:

- müasir dövrdə Qafqazın əksər bölgələrində bəzən paritet münasibətlərin də gözə dəyməsinə baxmayaraq, cinslərarası münasibətdə patriarxal model dominantlıq edir;
- ənənəçilik və novatorluq gender münasibətlərinin vahid inkişaf prosesinin dialektik əlaqəsini ifadə edir, novatorlıq ənənələrdə olan ən pozitiv dəyərləri formalaşdıraraq, yenilikləri yaradıcı formaya salınmış şəkildə büruzə verir;
- gender sisteminin elmi tədqiqat prinsipləri göstərir ki, cinsə görə kateqoriyalaşmanın sosial nəticəsi təkcə məişət, iqtisadiyyat və digər qaynar sferalarda deyil, hakimiyyətin və resursların bölünməsi sahələrində də müşahidə olunur;
- cinslərin sosiallaşması prosesində qadın və kişilərin ailədəki münasibətləri ilə yanaşı, onların peşəkar rolları da kəskin fərqli xarakter almışdır. Müasir dövrün tələbi olan ailə və karyera rollarının öhdəsindən gələ bilmək bacarığı qadınların həm şəxsiyyətinə, həm də ümumilikdə, cəmiyyətdəki roluna təsirsiz ötüşmür;
- cəmiyyətin əksər üzvləri üçün mövcud olan ənənəvi cinslərarası seqreqasiya daha xarakterikdir, müasir tələb olan muxtariyyət, emansipasiya cəmiyyətin az hissəsi tərəfindən qəbul edilir. “Valideynlik”, “həyat yoldaşı olmaq” kimi məqamlarda mövcud ziddiyyətli ideologiyalar, cinslərin bərabərliyinə olan patriarxal baxışlar Qafqaz cəmiyyətinin əksər üzvləri üçün daha xarakterdir;
- kənd yerlərində və kişilərin yüksək gəlirli işdə çalışdığı ailələrdə əhalinin əksəriyyəti qadın və kişi haqqında ənənəvi patriarxal yanaşmaya daha çox üstünlük verdikləri halda, şəhərlərdə yaşayan hər iki valideynin çalışdığı ailələrdə qadın və kişilərin rollarına daha müasir yanaşmaya təsadüf edilir.

**Ədəbiyyat:**

**Rus dilində**

1. Атаева Л.М., Атаева М.Б., "*Тлисова А. Б., Особенности социально-психологической самоорганизации женщин Северного Кавказа*", Черкесск, 2005, С. 3
2. Ахриев, Ч., "*Заметки об ингушах*", Текст. / Ч. Ахриев // ССТО. 1979. -Вып. 1. -С. 286.
3. Бердяев, Н., "*Метафизика пола и любви*", Текст. / Н. Бердяев. М. : АСТ, 1990. -234 с.
4. Бларамберг, С., "*Новейшие географические и исторические известия о Кавказе*", Текст. / С. Бларамберг. Нальчик, 1999. – 290 с.
5. Гидденс, А., "*Элементы теории структурации*", Текст. / А. Гидденс // Современная социальная теория. Новосибирск, 1995.
6. Дзуцев, Х.В., "*Межличностные отношения в осетинской семье*", Текст, / Х. В. Дзуцев // IV конгресс этнографов и антропологов России. Тезисы докладов. -М., 2001.
7. Здравомыслова О.М., "*Семья и общество: гендерное измерение российской трансформации*", Текст, -М., 2003
8. Карпов, Ю.Ю., "*Женское пространство в культуре народов Кавказа*", Текст. / Ю. Ю. Карпов. СПб., 2001.
9. Кузнецова, Т.Р., "*Этнокультурные особенности семейно-брачных отношений у народов Северного Кавказа в XIX начале XX в*", Текст.
10. Павлюченко Э.А. "*Женщины в русском освободительном движении*",
11. Лыткина Т.С., "*Трансформация семьи и домашнего хозяйства: опыт социо-этнологического описания жизни табасаранцев*" // Ежегодная научная конференция : "Сорокинские Чтения": Актуальные проблемы социологиче-

ской науки и социальной практики. М. 2002. – С. 123

12. Светлана Айвазова., "*Гендерное равенство в контексте прав человека*", Пособие Москва, 2001, С. 19-36
13. Шабанова А. Н., "*Очерк женского движения в России*", Спб. 1912. – С. 27 "*Women in Western European History*", V., 1–3. Lnd. 1982
14. Чеснов, Я. В., "*Мужское и женское начала в рождении ребёнка по представлениям абхазо-адыгских народов*", Текст, СПб., 1991.

**İngilis dilində**

15. Nelson, J. A. Feminism and Economics Text. / J. A. Nelson // J. of econ. perspectives. -Prinston. – 1995. -Vol. 9, 2. -P. 131-148. Tuffte, T.
16. Encyclopedia of feminism Text. / T. Tuffle. N. Y. : Oxford, Pacts on File, 1986. – 400 p.

## MÜNDƏRİCAT

**Giriş ........................................................................................ 3**

**I FƏSİL**
**QAFQAZDA GENDER VƏ TARİX ..................................... 22**
Çar Rusiyasının istilası zamanı Qafqazda gender problemləri (XIX-XX əsrlər)........................................................................ 22
Çar imperiyası, gender, cinayət və qanunlar............................. 27
Rusiya imperiyası: KİV və ədəbiyyatda Qafqaz adətləri.......... 35
Ailə məsələlərində çarizmin siyasəti ........................................ 54
Ortodoks siyasətinin həyata keçirilməsində qarşıya çıxan maneələr (Gürcüstan modeli).................................................. 68
Qız qaçırma və ailə zorakılığı ................................................... 69

**II FƏSİL**
**QAFQAZDA GENDER VƏ AİLƏ ........................................ 80**
Qafqazda Sovet gender düzəni: ənənələrin yenidən dərki və davranışın yeni təcrübəsinin təşəkkülü (Dağıstan modeli) ....... 80
Gender rollarının bölünməsində ənənəvi düzən: nəsillərarası gender rolları və öhdəliklərinin bölünməsi ............................... 84
Postsovet dövründə ailələrdə gender münasibətləri: ənənələr və bazar münasibətləri............................................... 90
Qadın və kişi dəyərləri transformasiya kontekstində................ 94

**III FƏSİL**
**QAFQAZDA GENDER VƏ MƏDƏNİYYƏT...................... 99**
Qafqaz xalqlarının taleyində rus mədəniyyətinin rolu.............. 99
Şimali Qafqaz xalqlarının adətləri və bugünkü sosial-mədəni durum..... ................................................................................ 103
Çeçen mədəniyyəti və adətlər ................................................ 109
Şimali Qafqazda müasir toy adətləri....................................... 121

XIX əsrin sonu XX əsrin əvvəlində Şimali Qafqaz qadınlarının baş örtükləri ........................................ 122
Sovet dövrünə qədər abxaz qadını ........................................ 128
Sovet dövründə abxaz qadını ................................................ 135

**IV FƏSİL**

**QAFQAZDA GENDER VƏ TƏHSİL ................................ 139**

XIX əsrin sonu XX əsrin əvvələrində Qafqazda mədəni islahatlar və gender problemləri: Azərbaycan nümunəsində .. 139
Şimali Qafqazda təhsil tarixi perspektivdən: Osetiyada qadın və təhsil (XIX-XX əsrlər) ........................................ 151
Rusiya imperiyasının sonu və Sovetlər dövrünün başlanğıcında Dağıstanda təhsil və gender….. ..................... 153

**V FƏSİL**

**ŞİMALİ QAFQAZDA GENDER VƏ DİN ........................ 163**

Şimali Qafqaz Respublikalarında islam amilinin gender siyasətinə təsiri ........................................................... 163
Sufizm və Sovet siyasətinin Çeçenstan dindar qadınlarının vəziyyətinə təsiri ........................................................... 183
Qadınsansa, “yer”ini bil ........................................................ 191
Qadınlara qarşı törədilən zorakılıq hallarına Federal Mərkəz göz yumur ................................................................ 194

**VI FƏSİL**

**ŞİMALİ QAFQAZ QADINLARININ SOSİAL-İQTİSADİ VƏ SİYASİ VƏZİYYƏTİ .................................................... 200**

Şimali Qafqazda yaşayan xalqların həyatında sosial, iqtisadi və siyasi dəyişikliklər ................................................ 200
Çox dəyişən dünyada az dəyişən Şimali Qafqaz qadınları ..... 209
Müasir ailədə qadının rolu ....................................................211
Müasir Dağıstan qadının sosial vəziyəti ................................ 225

Etnomədəni proseslərin gender aspektləri ............................... 230
Şəhər və kənddə inquş qadını ............................................... 240

**VII FƏSİL**
**ŞİMALİ QAFQAZDA GENDER VƏ HƏRB...................... 268**
Müharibə və Şimali Qafqaz qadınları: dünən və bu gün ........ 268
Böyük Vətən Müharibəsi və Şimali Qafqaz qadınlarının qəhrəmanlıqları ............................................................... 273
Basayevin döyüşən qadın bölməsi......................................... 285

**VIII FƏSİL**
**QAFQAZDA GENDER VƏ SOSİAL - HUQUQU DURUM**............................................................ 288
XIX əsrin sonu XX əsrin əvvəllərində Qafqazda müsəlman əhali arasında miras bölgüsü qanunu .................................... 288
Şimali Qafqaz qadınlarının sosial-hüququ durumu: dağlı, kazak, köçəri xalqların qadınları (XIX əsrin sonu və XX əsrin əvvəlləri) ............................................................ 293
XIX əsrin sonu XX əsrin əvvəllərində Şimali Qafqazda adətlər və Rusiya imperiyasının qanunları: abxazların timsalında ......................................................................... 308
Adət kara gəlməyəndə, məsləhət al ........................................ 317
Sovet hakimiyyətinin ilk illərində Şimali Qafqazda islam və hüquq məsələləri (Dağıstanın timsalında) ......................... 322
İnquş qadınının sosial statusu (XIX–XXI əsrlər) .................. 328

**IX FƏSİL**
**GÜRCÜSTANDA GENDER SİYASƏTİ ........................... 334**
Gürcüstanda qadınlar: gender bərabərliyi tarixi perspektivdən ...................................................................... 334
Bərabərlik olmayan yerdə demokratiya yoxdur....................... 340
Gürcüstanda gender problemləri və gender bərabərliyi siyasəti.................................................................................. 347

Gender bərabərliyi ölkənin resurslarına olan bərabər çıxış deməkdir........................................................................ 362

X FƏSİL
**ERMƏNİSTANDA GENDER SİYASƏTİ .......................... 369**
Ermənistanda gender bərabərliyi: Xalqın tələbidir, yoxsa beynəlxalq təşkilatların sırıdığı şərt? .................................... 369
Ermənistanda gender məsələləri, Maria Titizyanın dili ilə ..... 389
Gender bərabərliyi diaspora üçün gündəlikdə olan məsələ deyildir. ..................................................................... 390

XI FƏSİL
Qafqazda gender bərabərsizliyi problemləri........................... 397
Şimali Qafqaz Respublikalarında gender siyasəti: müasir tendensiyalar .................................................................... 397

**NƏTİCƏ..............................................................................411**

«Elm və təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Dizayn: Zahid Məmmədov
Texniki redaktor: Tünzalə Vahabova

Çapa imzalanmış 20.02.2017.
Şərti çap vərəqi 27,25. Sifariş № 145.
Kağız formatı 60x84 1/16. Tiraj 300.

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.